AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU
-----------------------------------------------------------

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## XXII kitab

## (BORÇALI-QARAPAPAQ FOLKLORU)

BAKI – 2011

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Azərbaycan Respublikası MEA
Folklor İnstitutu Elmi Şurasının
qərarı ilə çap olunur**

**TOPLAYIB TƏRTİB EDƏN VƏ ÖN SÖZÜN MÜƏLLİFİ:** Gürcüstan Ədəbiyyatşünaslıq Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor **Valeh HACILAR**

**REDAKTORU:** f.e.d., prof. Hüseyn **İSMAYILOV**

**RƏYÇİLƏR:** f.e.d., prof. **İsrafil ABBASLI**
f.e.d., prof. **Qara NAMAZOV**
f.e.n. **Əziz ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru antologiyası, XXII kitab (Borçalı-Qarapapaq folkloru),** Bakı, "Nurlan" nəşriyyatı, 2011. -444 səh.

Azərbaycan MEA Folklor İnstitutunun nəşr etdiyi "Azərbaycan folkloru antologiyası" silsiləsindən olan bu cilddə Azərbaycanın tarixi bölgələrindən olan Borçalı mahalının zəngin folklor materialı toplanmışdır.

A $\frac{3202050000}{098 - 2011}$ Qrifli nəşr

© Folklor İnstitut, 2011.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ÇOXCİLDLİ "AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) NƏŞR OLUNMUŞ KİTABLARI

**1. AFA, I.** Naxçıvan folkloru, tərtib edənlər: Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı, elmi redaktoru və "Ön söz"ün müəllifi İsrafil Abbasov, rəyçilər: Vəli Əliyev, Bəhlul Abdulla, Bakı, "Sabah" nəşriyyatı, 1994.

**2. AFA, II.** İraq-Türkman folkloru, tərtibçilər: filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, doktor Əbdüllətif Bəndəroğlu, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri doktoru, professor Azad Nəbiyev, filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, Bakı, "Ağrıdağ" nəşriyyatı, 1999.

**3. AFA, III.** Göyçə folkloru, toplayıb tərtib edəni, Hüseyn İsmayılov, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: fiollogiya elmləri doktoru, professor Qara Namazov, filologiya elmləri namizədi Oruc Əliyev, Bakı, "Səda" nəşriyyatı, 2000.

**4. AFA, IV.** Şəki folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Oruc Əliyev, Hikmət Əbdülhəlimov, Ramazan Qafarov, Vaqif Aslan, elmi redaktoru və "Ön söz"ünün müəllifi filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, sənətşünaslıq namizədi Faiq Çələbi, Bakı, "Səda" nəşriyyatı, 2000.

**5. AFA, V.** Qarabağ folkloru, toplayanlar: İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, Nəcəf Nazim (Quliyev), tərtib edəni və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, redaktorları: filologiya elmləri doktoru, professor Yaşar Qarayev, filologiya elmləri namizədi, dosent Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru Bəhlul Abdulla, filologiya elmləri namizədi Oruc Əliyev, "Bakı", "Səda" nəşriyyatı, 2001.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**6. AFA, VI.** Şəki folkloru, tərtib edəni: Hikmət Əbdülhəlimov, elmi redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, “Ön söz“ün müəllifi sənətşünaslıq namizədi Faiq Çələbi, rəyçi filologiya elmləri namizədi Hüseyn İsmayılov. Bakı, “Səda“ nəşriyyatı, 2002.

**7. AFA, VII.** Qaraqoyunlu folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Qurban Süleymanov, elmi redaktoru filologiya elmləri doktoru, professor Qara Namazov, rəyçilər, filologiya elmləri doktoru İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev. Bakı, “Səda“ nəşriyyatı, 2002.

**8. AFA, VIII.** Ağbaba folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Tacir Qurbanov, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçi filologiya elmləri namizədi Əziz Ələk-bərli, Bakı, “Səda” nəşriyyatı, 2003.

**9. AFA, IX.** Gəncəbasar folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Raziyə Quliyeva, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçilər filologiya elmləri namizədi Sərxan Xavəri, Ağaverdi Xəlil, Bakı, "Səda" nəşriyyatı, 2004.

**10. AFA, X.** İrəvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, filologiya elmləri namizədi Əziz Ələkbərli, redaktoru prof. İsrafil Abbasov, rəyçilər: AMEA-nın müxbir üzvü Teymur Bünyadov, prof. Qara Namazov. Bakı, "Səda" nəşriyyatı, 2004.

**11. AFA, XI.** Şirvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri doktoru Seyfəddin Qəniyev, redaktoru filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Oruc Əliyev, Ağaverdi Xəlil. Bakı, "Səda" nəşriyyatı, 2005.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**12. AFA, XII.** Zəngəzur folkloru, toplayıcılar: f.e.d. Vəli Nəbioğlu, f.e.n. Muxtar Kazımoğlu, f.e.n. Əfsələddin Əsgər, tərtib edənlər: Əfsələddin Əsgər, Muxtar Kazımoğlu, redaktoru: f.e.d. Hüseyn İsmayılov, rəyçilər: f.e.n. Təhmasib Fərzəliyev, f.e.n. Oruc Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2005.

**13. AFA, XIII.** Şəki-Zaqatala folkloru, tərtibçilər: filologiya elmləri doktoru, prof. İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev, filologiya elmləri namizədi Mətanət Abdullayeva, elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Təhmasib Fərzəliyev, filologiya elmləri namizədi Ramil Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2005.

**14. AFA, XIV.** Dərbənd folkloru, toplayıcılar: filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri namizədi Samilə Xurdamiyeva, tərtibçilər: filologiya elmləri doktoru, Hüseyn İsmayılov, Tahir Orucov, elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Sərxan Xavəri, filologiya elmləri namizədi Ağaverdi Xəlil. Bakı, "Səda" nəşriyyatı, 2006.

**15. AFA, XV.** Dərələyəz folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri doktoru, professor Həsən Mirzəyev, filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri namizədi Əziz Ələkbərli, elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2006.

**16. AFA, XVI.** Ağdaş folkloru, toplayıb tərtib edən: İlkin Rüstəmzadə, elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Əfzələddin Əsgər, filologiya elmləri namizədi Muxtar İmanov. Bakı, "Səda" nəşriyyatı, 2006.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**17. AFA, XVII.** Muğan folkloru, toplayanı: Bilal Hüseynov; tərtib edəni və elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov; rəyçilər: filologiya elmləri namizədi Seyfəddin Rzasoy və filologiya elmləri namizədi Ağaverdi Xəlil. Bakı, "Nurlan" nəşriyyatı, 2008.

**18. AFA, XVIII.** Şəki folkloru, III cild, toplayanı və tərtib edəni: Hikmət Əbdülhəimov; elmi redaktoru: filologiya elmləri doktoru, professor Hüseyn İsmayılov; rəyçilər: AMEA müxbir üzvü, filologiya elmləri doktoru, professor Tofiq Hacıyev, filologiya elmləri doktoru, professor İsrafil Abbaslı. Bakı, "Nurlan" nəşriyyatı, 2009.

**19. AFA, XIX.** Zəngəzur folkloru, II cild, toplayanı Rəşid Təhməzoğlu, tərtib edəni: filologiya elmləri doktoru, professor Hüseyn İsmayılov, filologiya elmləri namizədi Rəşid Təhməzoğlu, filologiya elmləri namizədi Əziz Ələkbərli; elmi redaktoru: filologiya elmləri doktoru, prof. Hüseyn İsmayılov; rəyçilər: filologiya elmləri doktoru, prof. İsrafil Abbaslı, filologiya elmləri doktoru, prof. Qara Namazov. Bakı, "Nurlan" nəşriyyatı, 2009.

**20. AFA, XX.** Loru-Pəmbək folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri doktoru, professor Hüseyn İsmayılov, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli, redaktoru filologiya elmləri doktoru, prof. İsrafil Abbaslı, rəyçilər: filologiya elmləri doktoru, prof. Qara Namazov, filologiya elmləri doktoru, prof. Məhərrəm Cəfərli, Bakı, "Nurlan" nəşriyyatı, 2011.

**21. AFA, XX.** Qazax folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri doktoru, professor Hüseyn İsmayılov, filologiya elmləri doktoru, professor Mürsəl Həkimov, redaktoru filologiya elmləri doktoru, prof. Rüstəm Rüstəmzadə, filologiya üzrə fəlsəfə doktoru Rza Xəlilov, rəyçilər: filologiya elmləri doktoru Mahmud Allahmanlı, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli, "Nurlan" nəşriyyatı, 2011.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BORÇALI-QARAPAPAQ FOLKLORUNUN TƏMƏL ÖZƏLLİKLƏRİ

Türklər çoxəsrlik tarixləri boyu özlərinin zəngin mənəvi-mədəni sərvətlərini yaratmışlar. Bu sərvətlər arasında qədimliyi, özünəməxsusluğu və təkrarsızlığı ilə seçilən şifahi ədəbiyyat nümunələri xüsusi yer tutur.

Xalq ədəbiyyatının öyrənilməsi keçmiş tarixi həqiqətlərin aşkarlanmasında böyük rol oynamaqla yanaşı, zəmanəmizlə, müasir günümüzlə bağlı gerçəklikləri də əks etdirir. Əcdadlarımızdan miras qalan ulu ənənə davam etdirilir və bugünün özündə də mənəvi sərvətimizə əlavə olunan qiymətli folklor inciləri yaradılır.

Xalq ədəbiyyatı bizdən əvvəl yaşayanların əsrlər boyu qazandıqları həyat və əmək təcrübəsini, eləcə də daxili, mənəvi aləmini aydınca əks etdirən əsl müdriklik xəzinəsidir. Odur ki, bu sərvəti onu yaradanların, yaşadanların tarixi ilə vəhdətdə, ardıcıl və sistemli şəkildə araşdırmaq, yaddaşlardan yazıya köçürüb nəşr və təbliğ etmək folklorşünaslıq qarşısında duran ən vacib məsələlərdəndir. Yusif Vəzir Çəmənzəminli vaxtilə yazırdı: «…türklər zəngin bir xalq ədəbiyyatına malikdirlər və çalışmaq üçün geniş bir sahə vardır. Məsələnin çətinliyi xalq ədəbiyyatındakı təsirləri araşdırmaq, ondakı qaranlıq nöqtələri izah etməkdən ibarətdir»[1]. Şərhə ehtiyacı olan, elmi araşdırmalar tələb edən qaranlıq nöqtələr isə hələ də çoxdur.

Azərbaycan folklorunun toplanmasını, tədqiqini və təbliğini yaxşılaşdırmağa dair konkret tədbirlərin işlənib hazırlanmasından və həyata keçirilməsindən bəhs edən Yaşar Qarayev haqlı olaraq yazırdı: «Öz qədimliyinə və zənginliyinə, unikal məzmun və forma keyfiyyətlərinə görə xüsusi seçilən, özündə təkrarsız mənəvi və bədii dəyərləri birləşdirən Azərbaycan folkloru öyrənilməsi, nəşri, tərcüməsi və yayılması baxımından xeyli geri qalır»[2]. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu çatışmazlıq qis-

---

[1] Y. V. Çəmənzəminli. Əsərləri. Üç cilddə, III cild, Bakı, 1977, s. 62-63.

[2] «Ədəbiyyat və incəsənət» qəzeti, 2 noyabr, 1990.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mən də olsa aradan qaldırılmış, AMEA-da ayrıca Folklor İnstitutu yaradıldıqdan sonra bu sahədə böyük işlər görülmüşdür.

Milli folklorumuzun zəngin və çoxşaxəli bir qolu da Gürcüstanda yaranmış, inkişaf etdirilmiş və təbliğ olunmuşdur. Bunu ilk növbədə ta qədimlərdən bu ərazidə məskunlaşmış yerli Azərbaycan türklərinin yaradıcılığı ilə əlaqələndirmək lazımdır. Bu bölgədən toplanmış folklor örnəklərində müxtəlif ictimai formasiyaları, ayrı-ayrı tarixi dövrləri səciyyələndirən xüsusiyyətlərə rast gəlinir. Lakin Gürcüstanda türkdilli xalq ədəbiyyatının inkişafını təkcə Borçalı-Qarayazı folkloru ilə, başqa sözlə, etnik ərazi folkloru ilə məhdudlaşdırmaq olmaz. Türk-Azərbaycan şifahi ədəbiyyatı müxtəlif millətlərin yaşadığı Cənub-Qərbi Gürcüstanda (Ahısqa-Axalkələkdə), Trialetdə (Zalqa-Barmaqsızda) və qədim Tiflisin özündə də geniş şöhrət qazanmışdır. Xalq ədəbiyyatımızın ayrı-ayrı janrlarına aid nümunələr tarixən bu ərazilərdə də yaranıb inkişaf etmişdir.

XIX yüzildə Tiflisin Qafqazın mədəni mərkəzi rolunu oynaması və bu şəhərdə poliqrafiya işlərinin sürətli inkişafı Gürcüstanda yaşayan müxtəlif millətlər arasında məşhur olan Türk-Azərbaycan folkloru nümunələrinin rus və gürcü dillərində çapına geniş imkanlar açmışdır. Dastan, nağıl, əfsanə, lətifə və rəvayətlərimiz, atalar sözü, mahnı və bayatılarımız rus və gürcü dillərinə tərcümə olunaraq ilk dəfə burada çap olunmuşdur. Bu, xalq ədəbiyyatımıza olan marağı daha da artırmışdır. Hələ XIX yüzildən başlayaraq K. Qvaramadze, N. Asatiani, N. Marr, E. Tağaişvili və başqa gürcü alimləri, folklorşünasları Gürcüstanın müxtəlif guşələrində türkdilli xalq ədəbiyyatı incilərinin toplanması işində xeyli əmək sərf etmişlər.

XIX yüzildən etibarən Gürcüstanda Türk-Azərbaycan folkloru qarşılıqlı inkişaf yoluna qədəm qoymuş, onun təsir dairəsi genişlənmişdir. Bu təsir və faydalanma nəticəsində ən dəyərli folklor nümunələrimizin yeni variant və versiyaları yaranmışdır.

Milli ədəbiyyatların qarşılıqlı əlaqə və bağlarını öyrənmək işi bu gün daha gərəkli və ümdə vəzifələrdəndir. Belə ki, heç bir xalqın milli mədəniyyəti təcrid olunmuş şəkildə inkişaf etmir,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

təbii və zəruri olaraq digər xalqların mədəniyyətinə təsir göstərir, eyni zamanda ondan faydalanır. Tarix boyu qonşuluq şəraitində yaşayan Azərbaycan və gürcü xalqlarının şifahi və yazılı ədəbiyyatları də həmişə qarşılıqlı əlaqədə inkişaf etmişdir.

Xalqların ədəbiyyat tarixi təcrübəsini, qarşılıqlı ədəbi-mədəni əlaqələr tarixini, başqa sözlə, keçmişini öyrənmədən bu vüsətin miqyasını, hüdudlarını müəyyənləşdirmək çətindir.

Gürcüstanda Türk-Azərbaycan folkloru ənənələrinin tədqiqi bu məsələlərə ayrı-ayrılıqda deyil, kompleks şəkildə yanaşma tələb edir. Bütövlükdə götürdükdə aydın olur ki, Gürcüstanda Türk-Azərbaycan folklorunun yaranmasının, inkişafının və ona olan marağın kökləri qədim və çoxşaxəlidir. Bütün bunları öyrənmək həm ədəbi əlaqələrimizin, həm milli folklorumuzun, həm də dilimizin tarixini, nüfuzunu və yayılma sərhədlərini doğru-dürüst araşdırmaq üçün gərəklidir. H. Zeynallının hələ 1926-cı ildə yazdığı kimi «Azərbaycan yalqız öyrənilməməlidir. Başqa türk elləri ilə birlikdə tədqiq edilməlidir»[3]. Bu iş müasir dövrdə, milli münasibətlərin yeni mərhələsində daha əhəmiyyətli, faydalı və aktualdır.

Borçalının müxtəlif guşələrindən yazıya alınmış nümunələrdə səma hadisələrinə, astral cisimlərə dair fantastik, primitiv təsəvvürlərin nəticəsində meydana gəlmiş mifik Günəş, Ay və Ulduz surətlərinə daha çox təsadüf olunur. Astral mifik obrazların yaranması isə patriarxat dövrü, əkinçiliyin inkişafı ilə əlaqələndirilməlidir. Bir qədər dar anlamda olan etnoqonik miflər isə insanın nə vaxt məskunlaşdığını müəyyən edir. Bu qəbil örnəklər insanların indiki ərazidə hansı zamandan məskunlaşdığını göstərən ən etibarlı dəlillərdəndir. Bu baxımdan bölgədən toplanmış «Anaxatır» mifi xüsusi maraq oyadır. Bu mifoloji örnək Azərbaycan türklərinin tarixən yaşadıqları əraziyə ən qədim zamanlardan bağlılığını göstərən nadir bir folklor incisidir. Mifoloji rəvayətdən göründüyü kimi bu ərazinin bütün toponimik atributları qədim türklərin təfəkkürü ilə

[3] H. Zeynallı. Seçilmiş əsərləri, Bakı, 1983, s. 115.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bağlı formalaşmışdır. Bu kimi nümunələrə regiondan toplanmış mifoloji mətnlərdə sıx-sıx rast gəlmək mümkündür.

O da maraqlıdır ki, türk etnoqonik miflərinin əsas surətlərindən olan Oğuzun (oğuzların) indiki insanlardan daha öncə yaşaması haqqında çox maraqlı bir örnəyi gürcü folklorçusu və etnoqrafı M. Canaşvili hələ XX yüzilin əvvəllərində yazıya alaraq gürcü dilində dərc etdirmişdir[4]. Sonralar həmin nümunənin ruscaya tərcüməsini təqdim edən Y. Virsaladze onu oğuz tayfası haqqında düşüncə adlandırır[5]. Mətndə deyilir ki, oğuzlar indiki insanlardan əvvəl yaşamışlar. Onlar nəhəng, ucaboy olublar. İnsanlardan üç-dörd dəfə hündür imişlər. Daha sonra mətndə oğuzların indiki «cılız» insanlarla ilk görüşləri təsvir olunur. Guya fiziki əlamətlərinə görə oğuzlara nisbətən çox zəif olan bu insanların əqli daha çox inkişaf etmişdi. Analoji mifik süjet sonralar Azərbaycanın Daşkəsən rayonunun Dəstəfur kəndində yazıya alınmışdır[6]. Oxşar süjetlər A. Acalovun da diqqətini cəlb etmişdir: «Oğuzların bədəncə çox nəhəng olması və sonradan məhv olaraq aradan çıxması barədə miflər, mifoloji rəvayətlər türk xalqları arasında geniş yayılmışdır. Gürcü folklorunda qarşılaşdığımız eyni süjet də bu dairəyə daxildir və görünür, nə vaxtsa Azərbaycandan alınmışdır»[7]. Tədqiqatçının bu fikrinə onu əlavə edirik ki, mətni qələmə almış M. Canaşvili Qax-Zaqatala bölgəsində məskunlaşmış inqiloylardandır. Onun folklorçu kimi fəaliyyəti də məhz bu bölgə ilə bağlı olmuşdur və gürcü elmi ictimaiyyətinə bu şəxs «İnqilo Canaşvili» kimi bəllidir. İnqilo Canaşvili çoxlu xalq ədəbiyyatı nümunələri ilə yanaşı, həmin mif mətnini də Azərbaycanda yaşayan inqiloylardan toplayıb yazıya almışdır ki, elə bu fakt da A. Acalovun fikrinə tamamilə haqq qazandıra bilər.

---

[4] Qədim Gürcüstan. II c., 4-cü bölmə, Tbilisi, 1907, s. 201-203 (*gürcü dilində*)

[5] Qruzinskie narodnıe predaniə i leqendı. M., 1973, s. 330.

[6] Azərbaycan mifoloji mətnləri (topl. A.Acalov), Bakı, 1988, s. 44-45.

[7] Yenə orada, s. 181.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Etnoqonik miflərdən bəhs edən B. Seyidoğlu onu belə səciyyələndirir: «Mənşə miflərinin hər biri yeni bir durumu ələ alır və anladır. Bu durum dünyanın başlanğıcından bəri mövcud deyildir. Mənşə mifi kosmoqonik mifin tamamlayıcısı və davamıdır. Bu miflər dünyanın nasıl dəyişdiyini və ya nasıl daha zəngin yaxud daha fağır olduğunu açıqlar»[8]. Borçalıda yazıya alınmış mifoloji mətnlər tədqiqatçının fikrini bir daha təsdiqləyir.

Bölgədən toplanmış nümunələr sırasında totemizmlə bağlı mifik-əfsanəvi süjetlər də diqqəti cəlb edir. Bu qəbildən olan örnəklərdə qədim inanışlar öz ilkin cizgilərini (forma, bədii və s.) olduğu kimi saxlaya bilməsələr də, arxaik-mifoloji səciyyələrini itirməmişlər və mövcud mifoloji irsimizin maraqlı nümunələri kimi tədqiqata cəlb oluna bilərlər. Bu baxımdan Kəpənəkçi və Darvaz sunurlarında məşhur olan «Qaranər»[9] və analoji «Hərşənin ocağı»[10] mətnləri daha səciyyəvidir. Qaranər Kəpənəkçidə, Hərşənin ocağı isə Darvazda ocaqdı, ziyarətgahdı, and yeridi. Müqəddəs pirlərlə əlaqədar Borçalının ağır ellərindən olan hər iki kənddə Ocaqöyü, Ocaqlı tayfası yaşayır. Ziyarətgahların yaranması ilə bağlı olan bu süjetlər ilk baxışdan sadə əfsanə təsiri bağışlasa da, diqqətli müşahidələr nəticəsində onlarda mifik ünsürləri çox asanlıqla aşkarlamaq olar. Məsələn: marala (cüyürə) çevrilən qadının mifoloji cizgiləri ovçuluqla bağlı miflərdəki hami ruhları (tanrıları) xatırladır; maral südü sehrli-mifik vasitə, bolluq, bərəkət rəmzi kimi təsvir olunur. Burada türk mifologiyası üçün səciyyəvi olan ocaq tapınışının (kultunun) əlamətləri də aydın görünməkdədir[11]. Qadının ərinə verdiyi kösöv ocağa, ziyarətgaha çevrilərək ailəyə mənfəət gətirir (maral südünü əvəz edir). Bu

---

[8] B. Seyidoğlu. Mitoloji üzərinə araşdırmalar. Mətnlər və təhlillər. Ərzurum, 1990, s. 12.

[9] Azərbaycan mifoloji mətnləri, s. 63-65.

[10] Söyləyəni: Fatma Yusif qızı Hacılar, 70 yaş, Bolnis rayonunun Darvaz kəndi, 1984.

[11] Bu barədə bax: S. Alyılmaz. Borçalılı bilim adamı, eğitimçi, şair Valeh Hacılar. Ankara, 2003, s. 82-97; Yenə onun: Borçalı mifik təfəkküründən poetik gerçəkliyə, Tiflis, 2004.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ərazidən toplanmış bəzi nümunələrdə maralla yanaşı qurd da totem kimi xatırlanmaqdadır.

Mifoloji motiv və ünsürlərlə zəngin olan «Kitabi-Dədə Qorqud» boyları ilə səsləşən bəzi mətnlərin bölgədən yazıya alınması folklorşünaslığımıza bu mövzu ilə bağlı dəyərli bilgilər verməklə yanaşı, bir sıra mövcud problem-məsələlərin həllində də yardımçı ola bilər. Əski türk inanışlarından doğmuş «Əzrayılla cavan» əhvalatı dediklərimizi təsdiqləyir.

Bölgədə «Kitabi-Dədə Qorqud»la bağlı başqa süjetlərə də təsadüf olunur. Onlardan biri Təpəgöz haqqındadır[12]. Türkdilli xalqların şifahi xalq ədəbiyyatında geniş yayılmış bu mifik surətin xarici əlamətləri və əməli fəaliyyətinə xas olan əsas xüsusiyyətlər bu nümunədə də qorunub saxlanmışdır. Analoji motivlərin təsviri: uşağın şir tərəfindən bəslənməsi, Təpəgözün ziyankarlığı, qəhrəmanın (mətndə Əhməd oğlu Səfər) qoyun dərisinə bürünərək polifemin tək gözünə kösöv basması mətnin ulu türk mifoloji qaynağının təsiri nəticəsində formalaşdığını və arxaik variantlardan biri olduğunu sübut edir.

Dediklərimizdən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan türklərinin məskunlaşdığı Borçalı bölgəsi qədim türk etnik-mədəni sisteminin elmi-nəzəri cəhətdən şərhi üçün dəyərli materiallarla zəngin olan bir ərazidir. Buradan toplanmış mifoloji mətnlərin təhlili əski türk mədəniyyətinin bu ərazi ilə bağlı olan bir sıra maraqlı örnəkləri ilə qarşılaşdığımızı sübuta yetirir.

Azərbaycan və indiki Gürcüstan ərazisində yaşamış qədim türklər də səma cisimlərindən Aya, Günəşə sitayiş etmiş, onların hərarətini, işığını həm özləri, həm heyvanlar, həm də dirrikləri üçün mühüm həyat mənbəyi hesab etmişlər. Onlar Günəşin, Ayın ilk mifik obrazlarını yaratmış, bu obrazları gah oğlan və qız, gah iki qardaş, gah da bacı-qardaş kimi təsəvvür etmişlər. Bu cəhət Borçalıdan toplanmış kosmoqonik mif mətnlərində özünü aydın göstərir.

İnsanlar alqış zamanı «üstünə gün doğsun!», qarğış edərkən isə «üstünə gün doğmasın!» - demişlər. B. Abdullayev ya-

---

[12] Azərbaycan mifoloji mətnləri, s. 90-91.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zır: «Yağışın, dolunun kəsilməsi, dumanın, buludun qaçırılması daha doğrusu; bilavasitə günəşi çağırmaqla bağlı icra olunan ən məşhur mərasim «Qodu-qodu»dur ki, bir sıra mənbələrdən onun yaxın vaxtlara qədər yaşaması bəlli olur»[13]. Bu fikirlərlə bağlı xatırlamaq istəyirik ki, Qarayazıda, Borçalıda bu mərasim «Dodu-dodu» adı ilə bu gün də yaşamaqda, icra olunmaqdadır. Haqqında söz gedən mərasim nəğməsi əsasən dağda və ya binədə uzun sürən yağışın kəsilməsi, dumanın, çənin dağılıb Günəşin çıxması istəyi ilə ifa edilir.

Borçalı-Qarayazıda geniş yayılmış mövsüm nəğmələrindən biri də «Yağma, yağış» adlı poetik nümunədir. İlk baxışdan o qədər də əski təsir bağışlamayan bu mətn böyük dəyişkənliyə uğramasına baxmayaraq, bir sıra arxaik elementləri, atributları özündə əks etdirməkdədir. Bu, ilk öncə mahnını icra edənin təbii hadisəyə müraciəti ilə əlaqədardır. İnsanın bilavasitə yağışa müraciəti mətnin əski inanışla bağlı olub, mifik səciyyə daşımasını göstərən ən etibarlı dəlildir.

Arıxlı camaatı isə indinin özündə də uzun sürən quraqlıq zamanı kəndin köhnə məzarlığındakı Hacı Nurunun qəbrindən torpaq götürüb torbada Ehram (Xram) çayına salırlar ki, yağış yağsın.

Əski zamanlarda Borçalı türkləri bu fikirdə olublar ki, çən, çisək, qara duman Çən qarısının əməlləridir. O qəzəblənən zaman öz torbasını açıb çən-dumanı buraxır. Yelin, küləyin də öz hami-tanrısı var, adına Yel baba deyirlər. Deyilənlərə görə, uzun müddətli çən-çisək Yel babanın xoşuna gəlmir, əsib hamısını dağıdır.

Bolus-Kəpənəkçi kəndi yaxınlığındakı Yel dağı da hamının sitayiş etdiyi sınanmış ziyarətgahdır[14]. Ümumiyyətlə desək, Yel baba Gürcüstan türklərinin təsəvvüründəki mifoloji surətlər arasında özünəməxsus yer tutur.

Gürcüstan türklərinin mərasimləri və onlarla əlaqədar yaranan və icra olunan nəğmələr xalqımızın əski inam və etiqad-

---

[13] B. Abdullayev. Haqqın səsi. Bakı, 1989, s. 137.

[14] Azərbaycan mifoloji mətnləri, s. 52-53.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

larından doğmuş, onların keçmiş və indiki həyat tərzində, məişətində başlıca yer tutmuşdur. Bütün bunlar xalqın mədəni tarixi inkişafının, etnik xüsusiyyətlərinin hərtərəfli öyrənilməsi baxımından gərəklidir və haqqında danışdığımız mövsüm, məişət və b. mərasimlər və nəğmələr gələcəkdə daha əhatəli tədqiqat obyektinə çevrilə bilərlər.

Həyat-ölüm, xeyir-şər, ağ-qara, yaxşı-pis, gecə-gündüz və buna bənzər anlayışlar dualist təsəvvürlərlə bağlı inamlar kimi əskidən bəri insan təfəkküründə məskunlaşmışdır. Folklorun arxaik janrı sayılan alqış və qarğışlar da insanların bir-birinə ikili münasibətindən doğmuşdur. Alqış edənin üz tutduğu kimsəyə münasibəti müsbət, qarğış edəninki isə mənfi olur. Araşdırmalarda bu ifadələrin yaranması animizmlə, ruhlarla əlaqələndirilmişdir.

Bölgədə çox işlənən «Başı dövlətli olsun» alqışı müdrikcəsinə deyilmiş və «Kitabi-Dədə Qorqud»da öz əksini tapmış «Baba malından nə fayda, başda dövlət olmasa» kəlamı ilə səsləşir. Borçalı ağzında geniş yayılmış «Dölənsin, döşənsin, oğullu-qızlı olsun» alqışı da Qorqud dədənin oğuz bəylərinə verdiyi xeyir-duanı xatırladır. Eposun boylarında fetişist və totemist təsəvvürlər etiqaddan doğmuş yurd yerinə, suya, ağaca müqəddəs bir varlıq kimi inam və ehtiram bu regionda ağızlarda dolaşan xalq ifadələrində alqış şəklində özünü göstərməkdədir: «Göy yaylağın, sərin bulağın olsun», «Axar sular qapından axsın», «Yerin yurdun sayalı olsun» və b.

Mərasimlərdə adları hallanan mifik obrazlar sırasında Xıdırnəbi daha məşhurdur. Bölgələrdə xeyirxahlıq rəmzi olan Xıdırnəbi (Xıdırəlləz, Xıdırilyas) ilə bağlı alqış nümunələrinə daha çox təsadüf olunur. Məsələn, «Diləyin, Xıdırnəbin qəbul olunsun». Başqa bir örnəyin – «Qələmin qırmızı çəkilsin» alqışının arxasında da Xıdırnəbi ilə bağlı belə bir etiqad durur: Axır çərşənbə günü tövlənin pəncərəsinin ağzına bir yumurta, iki karandaş – qara və qırmızı qələmlər qoyarlar. Səhər həmin yumurtanın üstündə Xıdırnəbinin çəkdiyi xətt görünər. Əgər xətt qırmızı qələmlə çəkilibsə, bəxtinə yumurta qoyulan şəxs xoşbəxt olacaq. Qara qələmlə xətt çəkilərsə, tərsinə olacaq.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarğışlardan bəzilərində işlədilən əski söz və ifadələr də bu nümunələrin qədimliyini sübut edir. Bəzi qarğışlarda isə xalqın şər (yas) anlamı ilə bağlı «qara», «göy», «boz» sifətlərindən istifadə olunur: «Əlin qara xınalı qalsın», «Canına qara başlı qurdlar düşsün», «Qara yara», «Qara yerdə qal», «Günün göy əskiyə dönsün», «Baxtını göy əskiyə büküm, yandırıb kül eyləyim, külünü çaya töküm», «Boyunu boz iplə ölçüm». Bəzi qarğış mətnləri qanadlı ifadələri xatırladır və müəyyən izahat tələb edir.

Məlum olduğu kimi, «Derevənnaə krasaviüa» («Ağacdan yonulmuş gözəl» - V.H.) adlı bir Azərbaycan nağılını İ. Senkovski rus dilinə çevirmiş və 1825-ci ildə «Polyarnaya zvezda» dərgisində çap etdirmişdir. Harada, kimdən və kim tərəfindən toplanması bəlli olmayan bu nümunənin «tatar dilindən» tərcüməsinə dair redaksiya qeydi onun ilk tərcümə və nəşr olunmuş Azərbaycan nağılı olduğunu sübut edir[15]. Folklorşünaslığımızda bundan sonra «Lödəm veritğ nelğzə» («İnsanlara inanmaq olmaz») adlı ikinci Azərbaycan nağılının rus dilinə tərcüməsi və 1852-ci ildə «Kavkaz» qəzetində dərci barədə də məlumat vardı[16]. Bu nağılın da haradan, kimdən və kim tərəfindən toplanıb yazıya alınması və tərcümə edilməsinə dair heç bir məlumat yox idi.

Araşdırmalarımız XIX yüzilin əvvəllərində nağıllarımızın söyləyiciləri, toplayıcıları, eləcə də tərcümə və nəşr tarixi haqqında yeni müddəalar ortaya çıxarır. Belə ki, naşiri P. Sankovski olan «Tiflisskie vedomosti» qəzetinin 1830-cu il, 13 noyabr tarixli, 91-ci sayında «Z…..v» (Dmitri Yeliseyeviç Zubaryev) imzalı müəllifin Zaqafqaziya əyalətinə səyahəti nəticəsində yazıya aldığı və rus dilinə çevirdiyi, nədənsə diqqətlərdən yayınmış «Tatarskiy skazoçnik» («Tatar nağılçısı») və «Skazka o çeloveke i zmee» («İnsan və ilan haqqında nağıl») başlıqlı

---

[15] N. Seyidov, Azərbaycan nağılları haqqında – «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər», Bakı, 1961, s. 52; P. Əfəndiyev, Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı. 1992. s. 29.

[16] Xadji Ösuf, Lödəm veritğ nelğzə (tatarskaə skazka), «Kavkaz», 1852, № 65.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mətnlərin təhlili bizə folklorşünaslığımız üçün yeni və çox dəyərli olan aşağıdakı nəticələrə gəlməyə haqq qazandırır:

1. «Derevənnaə krasaviüa»dan sonra rus dilinə çevrilib çap edilmiş ikinci Azərbaycan nağılı 1852-ci ildə «Kavkaz» qəzetində yox, 1830-cu ildə «Tiflisskie vedomosti» qəzetinin 91-ci sayında dərc olunmuşdur.

2. «Kavkaz» qəzetində 1852-ci ildə çap olunmuş «Людям верить нельзя» («İnsanlara inanmaq olmaz») adlı Azərbaycan nağılı 1830-cu ildə «Tiflisskie vedomosti» qəzetindəki «Skazka o çeloveke i zmee» («İnsan və ilan haqqında nağıl») nağılının heç bir dəyişiklik edilmədən təkrar nəşridir. Bu fakt həmin nağılımızın ruscaya tərcümə və nəşr tarixini düz 22 il əvvələ aparır.

3. Nağılın toplayıcısı, tərcüməçisi və naşiri «Kavkaz»da adı gedən Hacı Yusuf yox, «Tiflisskie vedomosti»dəki Zubaryev soyadlı şəxsdir. Qəzetdəki məlumatlar həmin şəxsin (yazarın) xalqımıza, mədəniyyətimizə, adət-ənənələrimizə bələd olduğunu və Azərbaycan türkcəsini yetərincə bildiyini təsdiqləyir. Yazar Borçalı sakinləri olan Qarapapaq türklərinin (mətndə «tatarların» - V.H.) xalq ədəbiyyatına, özəlliklə də «molla və dərvişlərin söylədikləri nağıl və rəvayətlərə və sazla müşayiət olunan aşıq yaradıcılığına» maraq və diqqət göstərdiklərini qeyd edir.

4. Qeydlərdən aydın olur ki, 1830-cu ildə dərc olunmuş bu nağıl 1828-ci ilin 6 oktyabrında Borçalının Şamalı kəndində yazıya alınmış və rus dilinə çevrilərək redaksiyaya təqdim olunmuşdur. Bu kənd Qullar və Ulaşlı kəndləri yaxınlığında yerləşirdi.

5. Nağılı toplayıcıya və tərcüməçiyə Borçalının Şamalı kənd sakini Mehdi Bayram oğlu söyləmişdir. Biz bu şəxs barədə daha dolğun bilgilər əldə etmək məqsədiylə Gürcüstan Mərkəzi Tarix Arxivindəki rəsmi sənədlərlə maraqlandıq və bəlli oldu ki, Şamalı kəndinə aid 1821-ci il kameral siyahısında (təhrir siyahısında) Mehdi Bayram oğlunun və qardaşı Məmmədin adı var[17].

---

[17] Gürcüstan Mərkəzi Tarix Arxivi (GMTA), fond 254, siyahı 1, iş 686, vərəq 144.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

1844-cü ilin kameral siyahısında isə Mehdi Bayram oğlunun oğulları barədə belə bir qeydə rast gəlinir:

«Analarının yanındadırlar:

Məmmədəli Molla Mehdi oğlu (Bayramın oğlu) – 14 yaş (1860-cı ildə ölüb),

Qardaşları: Məmməd – 7 yaş, İsmayıl – 3 yaş (hər ikisi 1854-də ölüblər)»[18].

Bu qeyddən göründüyü kimi Mehdi Bayram oğlunun Məmmədəli, Məmməd və İsmayıl adlı oğulları çox yaşamamış, dünyalarını tez dəyişmişlər, onun özü isə 1844-cü ildə Şamalıdakı ailəsi ilə bir yerdə yaşamamışdır, yəni bu vaxt ya dünyasını dəyişmiş, ya da ki ailəsindən ayrılaraq başqa yerə köçmüşdür.

Başqa bir arxiv bəlgəsindən isə bəlli olur ki, Mehdi Bayram ağa oğlu Ziyadlıoğlu adlı şəxs 8 aprel 1837-ci ildə rus çarının Qafqazdakı canişini general-adyutant Q.V.Rozenə məktub yazıb bildirir ki, atası Bayram ağa Ziyadlı oğlu gəncəli Ziyadoğullarından məşhur Cavad xanın qohumu olduğu üçün ruslar Gəncəni ələ keçirəndə Borçalıya köçməyə məcbur olur və Kartli-Kaxetiya çarı II İraklinin razılığı ilə əvvəlcə Qullar kəndində, sonra isə Şamallıda məskunlaşır. Mehdi Bayram oğlu məktubunda atasının bəy nəslindən olduğu üçün ömrünün sonuna qədər heç bir vergi ödəmədiyini, özünün də iki qardaşı ilə birlikdə indiyədək vergidən azad olduqlarını qeyd edərək, adlarının təhrir dəftərlərindən silinməsini xahiş edir. O, yazdıqlarını Cavad xanın oğlu Əliqulu ağanın və Gəncə əhalisinin də təsdiq edə biləcəyini vurğulayır. Fəqət rəsmi yazışmalardan nə Əliqulu ağanın, nə də ki Gəncə ağsaqqallarının Mehdi Bayram oğlunun sözlərini təsdiqləmədikləri məlum olur və onun xahişi yerinə yetirilmir[19].

6. Toplayıcının «Tatarskiy skazoçnik» adlı mətndə yazdığına görə Mehdi Bayram oğlu Borçalının sayımlı-seçimli, adıbəlli sakinlərindəndir və Usta-Molladır. O, başqalarından fərqli olaraq vergilərdən azaddır, Quran oxuya bilir, qırmızı

---

[18] GMTA, fond 254, siyahı1, iş 2047.

[19] GMTA, fond 2, siyahı 1, iş 4835.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

saqqal saxlayır, geyimi nisbətən səliqəlidir, eyni zamanda, el-oba həkimidir, yəni qan almağı, diş çəkməyi və s. bacarır. Mehdi Bayram oğlunun Borçalıda el arasında Usta-Molla adlandırılması da yəqin onun bu səciyyəvi cəhətləriylə bağlıdır.

7. Nağılımızın rus tərcüməçi-naşiri Mehdi Bayram oğluna xas olan bu müsbət keyfiyyətləri xüsusi qeyd edir, Borçalı tərəkəmələrinin hörmət və diqqətə layiq olduqlarını göstərir, onları xəsis, içki və pul düşgünü, meşşan təbiətli avropalılarla müqayisə edərək üstünlüyü asiyalıları təmsil edən xalqımıza verir.

8. Tərcüməçinin Borçalını və borçalıları müsbət səciyyələndirən, yerli sakinlərin məişəti, folkloru, nağılçı Mehdi Bayram oğlu haqqındakı qeydlərini və Azərbaycan nağılının ruscaya tərcüməsini əhatə edən bu yazı 19-cu yüzilliyin əvvəllərində rus dilli mətbuatda bu qəbildən dərc olunmuş ən ilkin məlumatlardan biri kimi həm folklorşünaslığımız, həm də ədəbi əlaqələr tariximix üçün mühüm elmi əhəmiyyət daşıyır.

Dünya folklorşünaslığında mifoloji nağıllar kimi qeyd edilən nağıl mətnləri Azərbaycan folklorunda da kifayət qədərdir və Borçalı regionundan toplanmış materiallar da bizi eyni xarakterli örnəklərlə qarşılaşdırır.

Borçalıda yazıya alınmış «Məhəmmədin nağılı» öz məzmunu, süjeti, obrazları və poetikası etibarı ilə əski miflərdən qaynaqlanır və onu Azərbaycan nağıllarının təsnifində «Mifoloji nağıllar» sırasına aid etmək daha doğru olardı. Bu baxımdan «Çoban Məhəmməd» nağılı da təhlil üçün dəyərli material verir. Nağıldakı məleykələrin qanadı əhvalatı o biri nağıllarımızla müqayisədə mifin keyfiyyətlərini daha inandırıcı və əyani səhnələrlə təqdim edir.

Bölgədən toplanmış nağıllar içərisində sehrli qüvvə və vasitələrin iştirak etdiyi bir çox örnəklər vardır. Onlardan «Balıqların sirri» və «Ağıllı qız» nağıllarını «sehirli nağıllar» cərgəsinə aid etməyi daha düzgün hesab edirik. Ona görə ki, nağılda düyünlər sehrin, ovsunun vasitəsilə çözülür.

Topladığımız nağıllar içərisində folklorumuzun digər janrları ilə mövzu və motiv baxımından səsləşən bir çox nümu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nələrə də rast gəlinir. Həmin örnəklərin bəzilərində ulu kitabımız «Kitabi-Dədə Qorqud»la səsləşən müəyyən motivlərin mövcudluğu diqqəti daha çox cəlb edir. Bu cəhət «Qismətini axtaranın nağılı»nda özünü daha aydın biruzə verir.

Bəllidir ki, araşdırıcılar «Kitabi-Dədə Qorqud»un coğrafi məkanının böyük hissəsinin çağdaş Gürcüstan ərazisinə aid olduğunu təsdiq edirlər[20]. Bir çox mifoloji ünsürlərlə zəngin olan «Kitabi-Dədə Qorqud»un bir çox motivlərinin bu ərazidən toplanmış digər nümunələrlə eynilik təşkil etməsi, bu bölgədə lap qədimlərdən bir imana inam gətirmiş vahid etnik tərkibin yaşadığını sübut etməkdədir.

Heyvanların insanın ən yaxın köməkçisi və yol göstərəni rolunda fəaliyyət göstərməsini əks etdirən nağıllar sırasında «Kasıb kişi və ilan», «Qəmsiz Əhməd» və digər örnəklər diqqəti xüsusi cəlb edir.

Borçalı bölgəsindən toplanmış heyvanlar haqqındakı nağıllar ideya, məzmun və poetika xüsusiyyətləri ilə qədim mifoloji görüşləri də əks etdirir və bu baxımdan Azərbaycan nağılları arasında səciyyəvi, özəl bir yer tutmaqdadır.

Bəllidir ki, XIX yüzilliyin sonu, XX əsrin əvvəllərində Tiflisin rusdilli və gürcüdilli mətbuatında çap olunan bəzi Azərbaycan nağıl və rəvayətləri oxucuların xüsusi marağına səbəb olurdu. Ancaq bu nümunələrin bir çoxu səhvən fars, yaxud Osmanlı nağıl rəvayəti kimi təqdim olunmuşdur. Misal üçün «İveriya» qəzeti bir Azərbaycan rəvayətini «fars rəvayəti»[21], «Tsnobis purtseli» qəzeti isə «İlan və kişi» nağılını «osmanlı rəvayəti»[22] kimi təqdim etmişdi.

Niko Asatianinin (1858-1942) topladığı başqa bir nağıl isə «Azərbaycan nağıl-məsəli» başlığı altında çap olunmuşdur[23].

---

[20] M. F. Kırzıoğlu. Dede Korkut oğuznameleri. – İstanbul, 1952; H. Məmmədov. Dədəm Qorqud gəzən yerdi bu yerlər. – Azərbaycan, 1990, № 2; Ö. Nasibov. O qeoqrafiçeskom termine «Aqdjakala» v Oquzskom gpose «Kitabi-Dede Korkud». – Sovetskaə törkoloqiə, 1986, № 2 və s.

[21] «İveriya» qəz., 1895-ci il, № 46.

[22] «Tsnobis purtseli» qəz., 1904-cü il, № 224.

[23] «İveriya» qəz., 1903-cü il, № 163.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nağılda Həsən adlı yoxsul bir kişinin hamballıqla qazandığı iki yüz manat pulu saxlamaq üçün mollaya verməsindən, mollanın pulu danmasından və nəhayət, Həsənin ağıllı xanımının mollanın başına kələk açıb, pulu qaytarmasından danışılır.

N.Asatianinin XIX əsrin 90-cı illərində topladığı folklor nümunələrinin Azərbaycan folklorşünaslığı üçün böyük əhəmiyyəti vardır və onlar ayrıca öyrənilməlidir. «Tatar (Azərbaycan – V. H.) xalq yaradıcılığı» başlığı altında yazıya alınmış bu nümunələrin maraqlı cəhətlərindən biri də orijinalla yanaşı onların gürcü dilində tərcüməsinin verilməsidir. Əlyazmasında[24] müxtəlif şifahi ədəbiyyat nümunələri ilə yanaşı, aşağıdakı nağıl və rəvayətlər də diqqəti cəlb edir:

1. «Vermədi Məhbud, nə etsin Mahmud» nağılı (Gürcü dilinə tərcümədə);
2. «İkinci arvad» nağılı (Azərbaycan və gürcü dillərində);
3. «Xıdır İlyasın nağılı» (Gürcü dilinə tərcümədə);
4. «Sultan Murad haqqında» rəvayət (Azərbaycan və gürcü dillərində);
5. «Pinti Mahmud» və yaxud «Pinti Mahmud sədrəzəm olmuş» nağılı (Gürcü dilinə tərcümədə);
6. «Tatar əfsanəsi» başlığı altında iki rəvayət (Gürcü dilinə tərcümədə);
7. «Padşah Tağyanoz» nağılı (Azərbaycan dilində);
8. «Cəmşid Sultan» nağılı (Gürcü dilinə tərcümədə);
9. «Qaçaq məni ölümdən xilas etdi» başlığı altında Sadaxlı qaçaqları haqqında rəvayət və s.

N.Asatianinin əlyazmaları vasitəsi ilə bizə gəlib çatan nümunələr içərisində son dərəcə unikal bir örnək – «Xıdır İlyasın nağılı» diqqəti ayrıca cəlb edir. Türk xalqlarının mif və folklorunda, yazılı ədəbiyyatında həm də dirilik suyunun sahibi olan Xıdır İlyas gözəgörünməz və əlyetməz bir qüvvədir. Xeyirxah hami, gözəgörünməz xilasedici qüvvə kimi özünü göstərən Xıdır («Kitabi-Dədə Qorqud»un birinci boyunda ölümcül yaralanmış

---

[24] Gürcüstan EA, Ş. Rustaveli adına Ədəbiyyat İnstitutunun folklor arxivi, inv. №№ 12073-12219.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Buğaca ana südüylə dağ çiçəyini Xıdır İlyas məlhəm buyurur) türklərlə yaxın olan digər xalqlarda da eyni funksiyanı daşıyır.

Qədim mifoloji görüşlərlə səsləşən və böyük coğrafi arealı əhatə edən Xıdır obrazının bir sıra funksiyaları haqqında söz gedən nağılda da öz əksini tapmışdır ki, bunlardan da ən başlıcası xeyirxah və xilaskar ruhdur. Bu xüsusiyyətinə görə «Xıdır İlyasın nağılı» «Kitabi-Dədə Qorqud»un birinci boyundakı Xıdır İlyas motivi ilə səsləşir ki, araşdırıcılar bu boyu mənşəcə ən qədim Oğuznamələrdən sayaraq onu Orta Asiya regionuna aid edirlər. Deməli «Xıdır İlyasın nağılı»nı türklərin əski mifoloji görüşlərilə səsləşən bir örnək kimi qəbul etmək tamamilə həqiqətəuyğundur.

Bölgədən toplanmış örnəklər içərisində sırf məişət nağılları da özünəməxsus cəhətlərlə diqqəti cəlb edir. «Məişət nağıllarında şahların tənqidindən başlamış din xadimləri və xırda məmurlara qədər istismarçı sinfin bütün təbəqələri gülünc vəziyyətə salınır. Onlar xalq arasından çıxmış keçəllər tərəfindən məğlubiyyətə uğradılır. Bu nağıllarda xalq öz güzəranını yaxşılaşdırmaq, istismardan yaxa qurtarmaq, dövləti ədalətli əllərə tapşırmaq uğrunda mübarizə aparır»[25]. «Tənbəl Məhəmmədlə şah qızı» nağılı bu deyilənlərin tipik nümunəsidir. Şah üç qızından ikisini şahzadələrə verir, üçüncü isə Məhəmməd adlı tənbəl bir oğlana ərə gedir. O, etirazlara cavab olaraq bildirir ki, kişini kişi eyləyən də arvaddı, kişini kişilikdən salan da arvaddı. Nağılın süjeti bu mətləbin təsdiqlənməsi üzrə inkişaf edir – padşah qızının tədbirləri sayəsində Məhəmməd tənbəllik və kasıblığın daşını atıb ən varlı bir adama çevrilir. Padşahın şahzadələrə gedən qızlarının durumu isə üçüncü qızından aşağı səviyyədə olur. Bölgədən N. Asatianinin topladığı «Vermədi Məhbud, nə etsin Mahmud?», «Pinti Mahmud» və s. nümunələr də məişət nağıllarına aiddir.

Bir sözlə, bölgələrdən toplanmış nağılların mövzu, ideya və poetik xüsusiyyətləri təsdiq edir ki, bu regionun nağıl ör-

---

[25] V. Vəliyev. Azərbaycan folkloru, Bakı, 1985, s. 264.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nəkləri Azərbaycan nağıllarının tərkib hissəsi kimi özünəməxsus səciyyəvi xüsusiyyətləri ilə də seçilməkdədir.

Borçalıdan toplanmış Azərbaycan əfsanə və rəvayətlərinin əvvəllər çap olunmuş nümunələrlə müqayisəsi göstərir ki, burada ənənəvi mövzularda – məsələn, Aldədə adı ilə ilgili, həmçinin, Nizaminin əsərləri təsirilə yaranan örnəklərə, demək olar ki, təsadüf olunmur. Ancaq bu, heç də o demək deyildir ki, əldə olan materiallar öz məzmunu, ideyası və poetikası etibarı ilə o birilərindən geri qalır. Bu örnəklər də o biri əfsanə və rəvayətlər kimi kamilliyi ilə diqqəti cəlb edir ki, bu da onların uzun zaman içində cilalanıb bitkin folklor nümunəsinə çevrilməsinin bariz işarəsidir.

Borçalı bölgəsindən toplanmış əfsanə və rəvayətlər göstərir ki, bu nümunələr qədim zamanlardan bu torpaqda məskunlaşmış türk xalqlarının bədii təfəkkürünün məhsulu olub, bir başa xalqın etnik tarixi ilə bağlanır.

Gürcüstanda yaşayan Azərbaycan türklərinin əsas məşğuliyyəti kənd təsərrüfatı ilə bağlı olduğuna görə, onların atalar sözlərinin bir qrupu da bu mövzu ilə əlaqədar yaranmışdır. Uzun müddətli əmək təcrübəsi nəticəsində formalaşmış bu atalar sözlərində əsas yeri əkinçilik, bağçılıq, maldarlıq, arıçılıq və digər kənd təsərrüfatı mövzuları tutur.

Didaktik qayəli nümunələrin bəzisində əməyə yüksək qiymət verilirsə, digərində halal zəhmətin barından, bəhrəsindən, bərəkətindən bəhs olunur. Əməyin uğurlu nəticəsi isə asanlıqla yaddaşlara həkk olunan xalq deyimlərində, poetik formulalarda öz ifadəsini tapır

Nehrə çalxa – yağ olsun,
Balam yesin, sağ olsun!;

* * *

Ballı pətək – dadını görək.

El arasında sosial bərabərsizliyi və ədalətsizliyi, zalımlığı və fağırlığı göstərən atalar sözləri də çox işlənir. Bu nümunələrdən bəziləri təkcə keçmişlə yox, müasir həyatla da səsləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ailə-məişətlə bağlı işlədilən atalar sözlərində əsasən qayınana-gəlin, valideyin-övlad və digər ailə üzvlərinin münasibətləri aşkarlanır. Belə atalar sözlərinin əksəriyyəti tərbiyəvi təsirə malikdir və məişətdə tez-tez işlədilir. Toy və yas mərasimləri ilə əlaqədar meydana gəlmiş, eləcə də ev sahibi qonaq münasibətlərindən yaranmış atalar sözləri də mövzu etibarı ilə bu növə yaxındır.

Borçalıda yayılmış atalar sözləri içərisində qış-yaz mövsümlərinin ortaya çıxcardığı çətinliklərin realist təsvirini verən nümunələr həm məna, həm də poetik quruluş baxımından maraqlıdır: «Dumanlı qışın telli yazı olar», «Mart gəldi – dərd gəldi», «Mart çıxdı – dərd çıxdı», «Mayıs ayı – vayıs ayı».

Toplanmış deyimlərin bəzilərində poetik formulalarda axıcılıqla, zəngin alliterasiyı ilə yanaşı, Borçalı qarapapaqlarının yüngül yumoru da özünü aydın göstərir: «Dazın daza baxdığı, dazın da naz atdığı», «Dəlinin əlinə beli ver, dalınnan da yeli ver», «Yemək adamı iki eləməz, yekə eləyər» və s.

Gürcüstanda yaşayan Qarapapaq türklərinin canlı danışıq dilinə, folkloruna xas olan bəzi qanadlı söz və ifadələri sırf atalar sözü və məsəl adlandırmaq mümkün olmasa da, bu nümunələrdəki daxili struktur, deyim tərzi, nitq zamanı daşıdıqları funksiya onları müdrik kəlamlara yaxınlaşdırır. Bu ifadələrin bəziləri adi ünsiyyət zamanı («Mən sənin qırına bulaşa bilmərəm», «Aranı dağa, dağı arana daşıyıram», «Babam mənə kor dedi, gələn gedəni vur dedi», «Yekəliyinə baxma, içinin otu yoxdur»), bəziləri oyun zamanı («Kəkotu, kəklikotu, yerini dəyiş, bərk otu», «Dağda bitər kəkotu, ağzıyın ipini çək otu»), bəziləri isə nağıl və dastanların söylənmə zamanında («Aldı sazı çiyninə, qurban məzhəb-dininə», «Ata hərəkət, qamçıya bərəkət», «Əl ver mənə, gəldim sənə») çox işlənir.

Aşıq sənətinin beşiyi olan qədim Borçalıda saz-söz ustalarına bəslənilən hörmət və ehtiram onların «Aşığı olan obanın qaşığı yağlı olar» atalar sözündə müdrikcəsinə əks olunub. Bununla xalq demək istəyir ki, toy-düyünün, xeyir iş və məclislərin yaraşığı olan aşıqlar, eyni zamanda, öz elinə, obasına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ancaq bolluq və bərəkət gətirən insanlardır. Aşıq olan obada sazlı-söhbətli, bol süfrəli məclislər tez-tez olar. Bu atalar sözünü başqa bir anlamda da yozmaq olar: aşığı, sənətkarı olan elin söz boxçası zəngin olar, söz biləni çox olar.

Zəngin mənəvi aləmi, şifahi xalq yaradıcılığı və ifadəli danışıq tərzi ilə fərqlənən borçalılar bəlli məsəl və rəvayətlərdən istifadə etməklə kifayətlənməmiş, öz məişət və həyat tərzləri ilə bağlı yeni paremiyalar, məsəl və rəvayətlər yaratmışlar. Bunlardan bəziləri yarandıqları kəndin, el-obanın hüdudlarını aşaraq qonşu ərazilərdə də yayılmış, variantlaşmışdır. Müxtəlif dövrlərdə yaranmış bu nümunələrin çoxu real şəxsiyyətin adı ilə bağlıdır. Paremiyalarda təsadüf olunan xüsusi isimlər Borçalıda yaşamış və yaşayan şəxslərdir («Əysil, a Səfər», «Pir təpəsinin başına bax», «Murad kişinin xiyar sövdası kimi», «Orucoğlunun atı kimi nəyə durubsan», «Xoşa, Xənni yaxşı deyib» və s.).

Beləliklə, həyat həqiqətlərinin müdrikcəsinə, fəlsəfi dərki, tarixi təcrübələrin sınanmış nəticələrinin şərhi onların məndəricəsini və qayəsini təşkil edir. Örnəklər dil-üslub baxımından da maraq doğurur. Onların içərisində lokal şəraitlə bağlı, real şəxsiyyətlərin adı və fəaliyyəti ilə əlaqədar yaranmış paremiyalara da təsadüf olunur.

Borçalıda, Başkeçiddə, Qarayazıda və Qaraçöpdə toplanılıb yazıya alınmış folklor nümunələri arasında külli miqdarda tapmaca vardır. Azərbaycan şifahi xalq ədəbiyyatının ən geniş yayılmış janrlarından biri olan tapmacalar bu ərazidə də mövzu etibarı ilə təbiət hadisələrini, kənd təsərrüfatının bütün sahələrini, insanın ailə-məişət tərzini və s. əhatə edir.

Təbiət hadisələri, yer, göy və səma cisimləri haqqında yaranmış tapmacaların əsasını hər kəsin müşahidə edə biləcəyi adi hadisələr təşkil edir. Məsələ burasındadır ki, müşahidəçilər həmin hadisələri öz qabiliyyətlərindən və dünyagörüşlərindən asılı olaraq müxtəlif mənada qavrayır, dərk və təsvir edirlər. Səma cisimləri – günəş, ay və ulduzlar haqqında tapmacalar sayca daha çoxdur. Yerə nisbətən səma cisimləri insanlar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tərəfindən daha asanlıqla müşahidə olunur və odur ki, onların təsviri və bənzərlikləri də çoxşaxəli, müxtəlifdir.

Təbii hadisələri təsvir edən surətlər hər hansı mücərrədlikdən uzaq dünyəvi, gerçək surətlərdir. Bulud ayağı olmaya-olmaya qaçan, qanadı olmaya-olmaya uçan canlıya, sel dağdan dağ kimi enən, qışqıran oğlağa və yaxud «xan oğlunu mindirməyən, ağzına yüyən vurdurmayan» bir aslana bənzədilir. Külək, yağış, çən haqqında da maraqlı tapmacalara təsadüf olunur.

Bağçılıq, bostançılıq Borçalı-Qarayazı türklərinin ta qədimdən əsas məşğuliyyətlərindən hesab olunur. Bağ və bostan bitkiləri haqqında yaranmış tapmacaların rəngarəngliyi, çoxluğu bunu bir daha sübut edir. Meyvənin, bitkinin xarici görünüşü, daxili quruluşu, ətri, yetişdiyi mövsüm obyekti əlamətləndirən əsas xüsusiyyətlər kimi verilir.

Müşahidəçi əsasən ev heyvanları və quşları, eləcə də tez-tez nəzərə çarpan yabançı quşlar və heyvanlar haqqında bilməcələr quraşdırır. Bahar müjdəçisi qaranquşun başı fındığa, dalı qayçıya bənzədilir. Durnaları başqa quşlardan fərqləndirən əsas cəhət isə onların qatarlaşıb uçmağıdır. Borçalıda yazıya alınmış orijinal və maraqlı tapmacalardan biri də bu mövzudadır:

Tappa dedim, tapış dedim,
Gülbahara yapış dedim.
İlan yalı, keçi qılı
Noxtalanıb gedən nədi?

Göründüyü kimi kəndli durna qatarını «ilan yalı» adlandırılan uzun ot tayasına və keçi qılına oxşadır və bu qatarı bir-birindən aralanmayan, noxtalı təsvir edir.

Heyvandarlıqla məşğul olanlar ev heyvanları haqqında tapmaca söylərkən onların xarici görkəmini əsas tutmuş, eyni zamanda sağım prosesinin təsvirinə daha geniş yer vermişlər

Başqa xalqlarda olduğu kimi türklərdə də insan və onun bədən üzvləri haqqında tapmacalar çoxluq təşkil edir. Borçalı-Qarayazı kəndlərində yazıya alınmış bilməcələr içərisində in-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

san bədəninin, demək olar ki, bütün üzvlərinə aid tapmacalara təsadüf etmək olar.

İnsanın geyimi haqqında deyilmiş tapmacalarda sadə geyim müxtəlif çalarda təsvir olunursa, yemək-içməyə dair tapmacalar sadə kəndli yemək-içmələrinin əlamətlərini özündə cəmləşdirir. İnsanların əmək fəaliyyətini əks etdirən tapmacalar da çoxsaylıdır. Əmək alətləri, əkin, səpin, biçin, yığım və s. aid olan tapmacaları da bu növə aid etmək olar.

Kəndlinin daxması, həyəti və məişətdə gündəlik istifadə etdiyi əşyalar haqqındakı tapmacalar kəndli təsərrüfatı haqqında geniş təsəvvür yaradır. Darvazadakı qıfıl dinməyən, hürməyən, adamı evə buraxmayan itdir, yol üstündəki yoğun arvad fırnıdır, on beş dişi olan kişi hüədir, dik oturuşu olan kişi sənək, ağzında uççə dişi olan kişi sacayağı, dörd ayaqlı kişi miz, gələni-gedəni öpən adam su qabıdır, sarf qayadan asılan sandıq qıfıl, səhərlər ananın başına sıçrayan qızıl it sənəkdir.

Borçalıdan toplanmış tapmacaların bəziləri indiyədək çap olunmamış, orijinal nümunələrdir. Bir qismi isə yüksək bədii səviyyəli yeni variantlardır və folklorumuzun zənginləşməsində müstəsna əhəmiyyət daşıya biləcək nümunələrdir.

Cəhrədə yun əyirib düyçələr şəklinə salmaq prosesinin tapmacada təsviri də maraqlıdır: «Sağsağan səkər, quyruğunu bükər, qaz qaqqıldar, yumurta tökər». Borçalı məclislərinin bəzəyi olan ulu saz yetmiş iki dil bilən müdriklə müqayisə olunur. Dini ayin və mərasimlərlə əlaqədar yaranmış, eləcə də dinlə bağlı mövhum və əşyalara dair tapmacalara, nisbətən az da olsa, təsadüf olunur.

Xarakterik bir cəhəti də xüsusi olaraq qeyd etmək lazımdır. Aşıq sənətinin beşiyi sayılan Borçalıda istənilən qədər bağlama-qıfılbənd yazıya almaq mümkündür. Ustad aşıqların və el şairlərinin yaşayıb-yaratdığı, ağır məclisləri sınaq meydanına çevrilən bu ərazidə saysız-hesabsız qıfılbəndlərin yaranması, şübhəsiz ki, təbii idi. Fərdi yaradıcılıq məhsulu olan və əsasən bədahətən deyilmiş bu bağlamalardan bəziləri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sonradan müəyyən dəyişikliklə kollektivin malına çevrilmiş və ilkin variantından xeyli fərqlənmişdir.

Gürcüstanın Azərbaycan türkləri yaşayan bölgələrindən toplanmış lətifələr arealında Molla Nəsrəddin və Bəhlul Danəndənin adı ilə bağlı yeni nümunələrə demək olar ki, rast gəlinmir. Əvəzində xalq arasında işlənən deyimlərin kökünü açan bir sıra nümunələr də lətifələr üslubunda təqdim edilmişdir. Məsələn, «Bayramınkı olmasın» deyiminin arxasında belə bir hadisə durur: keçmişlərdə Hamamlıda Bayram adlı bir kişi meşəyə oduna gedir və ayı ona hücum edir. Xeyli güc gələndən sonra Bayram ayını basır. Camaat gələndə onu ağlayan görür və bunun səbəbinin soruşur. Cavabında Bayram deyir ki, məni ağladan odur ki, bu qədər qohum-əqrəbası olan adamın üstünə ayı gələrmi? İndi adamlar qohum-əqrəbası ilə öyünəndə belə deyirlər: «Bayramınkı olmasın!».

Klassik nümunələrdən fərqli olaraq, müasir dövr üçün səciyyəvi olan və son zamanlarda bu regionda yaranmış lətifələr isə məzmun etibarı ilə daha çox lokal şəraitlə bağlıdır. Bunların içərisində konkret şəxs və hadisələrlə bağlı olanları çoxluq təşkil edir.

Milli folklorumuzun digər janrları ilə yanaşı xalq mahnıları və bayatılarımız da Gürcüstanda geniş yayılmışdır. Azərbaycan xalq musiqisi, mahnı və bayatılarımız gürcülərin ruhunu oxşamış, onlar üçün də doğmalaşmışdır.

Azərbaycan xalq mahnı və bayatılarını Tiflisdə yaşayan azərbaycanlı sənətkarlarla yanaşı gürcü və erməni xanəndələri də ustalıqla ifa edirdilər. Elə bunun nəticəsidir ki, 19-cu əsrin ikinci yarısında və 20-ci əsrin əvvəllərində yaşamış onlarla ifaçının repertuar dəftərlərində gürcü əlifbası ilə yazıya alınmış külli miqdarda Azərbaycan xalq mahnısına, bayatı və təsniflərinə təsadüf olunur.

Tiflisin mötəbər ziyalıları və zənginləri musiqiçilər arasında sazəndələrə (gürcücə «sazandarlar» - V. H.) daha çox üstünlük verirdi. Tar və kamança isə özünün səs tutumuna və diapozonuna görə ən varlı və mədəni çalğı alətləri sayılırdı. Bir sözlə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xalq musiqi və mahnılarımız ifaçı-çalğıçılarla birlikdə şəhərin ən məşhur və varlı salonlarını bəzəyirdi.

Tiflisin əhalisi tərəfindən sevilən Azərbaycan mahnı və bayatıları kitab halında da nəşr olunub kütləvi şəkildə oxuculara çatdırılırdı[26]. Bu nümunələrin çoxu gürcü əlifbası ilə, Azərbaycan türkcəsində yazıya alınırdı.

Görkəmli gürcü şairi Nikoloz Barataşvili öz məktublarında azərbaycanlı müğənnilərdən Səttarın və Cəfərin ifaçılıq məharətindən də söz açırdı[27]. Səttara xüsusi şer həsr etmiş rus şairi Y.Polonski Tiflisdə çox məşhur olduğunu qeyd etməklə yanaşı, xanəndəni gürcü və erməni məclislərinin də bəzəyi adlandırır.

1875-ci ilin əvvəllərində Tiflisə köçən Əbdülbaqi «qısa müddət ərzində gürcü dilini də mükəmməl öyrənir. O, öz oxumaları ilə gürcü dinləyicilərini vəcdə gətirir. Az bir vaxtda Əbdülbaqi elə bir şöhrət qazanır ki, bütün Tiflisdə ona «Bülbülcan» deyirlər»[28]. Kamança çalan L.Qaraxan xatırlayır: «Bir bazar günü bir əcnəbinin şərəfinə ziyafət verən Georgi Amilaxvari üzünü Əbdülbaqiyə tutub, – Abdul, bir səslə, – deyir… O, «Cahargah» muğamının üçüncü «hasar» hissəsini oxuyarkən üç dəqiqə ərzində nəfəsini dərmədən səsini yeddi cür dəyişdi, halbuki, o heç bir xüsusi vokal təhsil almamışdı və xanəndə üçün əsas sayılan nəfəsdən sonra diafraqmadan istifadə qaydasına dair heç bir şey bilmirdi»»[29]. Əbdülbaqi Zülalov (Bülbülcan) 1905-ci ilə kimi Tiflisdə yaşamışdır.

---

[26] V. Esağov. Yeni tatar bayatıları və müxtəlif illərin gürcü nəğmələri, Tiflis, 1893; M. Qorqazov. Bağçada güllər. Tiflis, 1893; A. Xudaverdov. Gürcü şerləri («Bağçada güllər» nəğməsi), Tiflis, 1892; Yenə onun. Süfrə mahnıları. Tiflis, 1903; A. Zabuzal oğlu. Tatar və gürcü şerləri. Tiflis, 1908; G. Matinians. Yeni mahnılar. Tiflis, 1913; A. Mirakişvili. Tatar və gürcü bayatıları. Tiflis, 1907, və s (*gürcü dilində*).

[27] «Krebuli» jurn., 1873, № 1.

[28] F. Şuşinski. Azərbaycan xalq musiqiçiləri. S. 86.

[29] A. Barnov. Köhnə Tiflisin musiqiçiləri, Tiflis, 1974, s. 50 *(gürcü dilində)*.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xanəndə Allahverdi, Cəfər, Seyid Şuşinski, İsmayıl, Hüseyn və digər musiqi xadimlərimiz də böyük şöhrət və saysız hesabsız pərəstişkarlar qazanmışdılar.

Yetim Gürcünün əlyazma-dəftərlərindəki şeirlərin böyük əksəriyyəti isə Türk-Azərbaycan dilindədir və şübhəsiz ki, ötən yüzillikdə Tiflisin məşhur xanəndələrinin repertuarını təşkil edən nümunələr kimi çox əhəmiyyətlidir.

Gürcüstan EA Rustaveli adına Gürcü Ədəbiyyatı tarixi İnstitutunun folklor arxivində tanınmış folklor toplayıcısı, axalsixeli N. Asatianinin qovluğunda aşkar etdiyimiz mahnı mətni isə Qafqaz xalqları tərəfindən sevilən, A. Bakıxanovun yaradıcılığına təsir göstərən, nəqaratı hələ XIX əsrdə polyak və rus dillərinə tərcümə olunan məşhur xalq mahnımızın tam olmasa da, natamam variantıdır.

Türk-Azərbaycan mahnı və bayatılarının yazıya alınmasında N. Asatianinin, E.Tağaişvilinin və digərlərinin də özünəməxsus xidmətləri vardır.

Bayatı Borçalı, Qarayazı, Başkeçid və Qaraçöpdə də geniş yayılmış lirik janrdır. Onlar mövzu etibarı ilə rəngarəng olduğu kimi, dil baxımından da şirin, axıcı və yaddaqalandır. Bu nümunələrdə canlı danışıq dilində işlədilən bəzi söz və ifadələr onların təsir gücünü artırmaqla yanaşı, yaddaşlarda möhkəmlənən yeni, uğurlu qafiyələrin yaranması ilə nəticələnmişdir.

Bayatıların bəzilərində Qaraxaç, Ağlağan, Şamdüyə kimi dağ, dərə, yaylaq və s. toponimik adların çəkilməsi həmin nümunələrin bu yerlərlə bağlı olub, bu ərazidə yaranmasına əyani sübutdur.

Gürcüstan türklərindən toplanmış bayatılar əsasən kollektiv yaradıcılıq məhsulu kimi yazıya alınmışdır və əksəriyyəti ictimai mahiyyət daşıyır. Söz yox ki, həmin inümunələrin ilkin variantları ayrı-ayrı fərdlərə məxsus olmuş, zamanın süzgəcindən sonra el malına çevrilmişlər. Müəllifli bayatılardan zəmanəmizə gəlib yetəni XIX əsrdə yaşamış Kəpənəkçi Alxas ağa Hacallının adı ilə bağlı bayatılardır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Borçalı-Qarayazı-Başkeçid bölgələrindən toplanmış uşaq folkloru örnəklərini əsasən oxşama, sanama və düzgülər təşkil edir. Onlardan bəziləri Azərbaycan uşaq folklorunun bəlli nümunələrinin çoxsaylı variantlarıdır. Orijinallığı ilə diqqəti cəlb edən nümunələr ərazidə məşhur olan şəxs və ya məkan adlarının işlənməsi ilə səciyyələnir. Yazıya alınmış mətnlərdə hadisə və faktlara münasibət yumorlu, bəzən də satirik xarakter daşıyır. Yeni nümunələrin yaranması zamanı daha qədim örnəklərin bəzi detallarından istifadə olunur. Regionda geniş yayılmış oxşama, sanama və düzgülər uşaqların əqli inkişafına yardım edir, onlarda estetik tərbiyə aşılayır.

Aşıq sənəti ənənələrinin formalaşmasında, inkişafında və təbliğində müxtəlif dövrlərdə Gürcüstanda yaşayıb-yaratmış sənətkarların və el şairlərinin də böyük xidmətləri olmuşdur. Bu, ilk növbədə Borçalı, Mesxet-Cavaxet (Ahısqa-Axalkələk), Trialet (Barmaqsız) və Tiflis aşıq mühitlərinin fəaliyyəti ilə bağlıdır. Gürcüstanın müxtəlif mahallarında yaşayan aşıq-şairlər eyni bir məqsədə xidmət etsələr də, ifaçılıq tərzinə və dil-üslub xüsusiyyətlərinə görə bir-birilərindən fərqlənirdilər. Onları birləşdirən başlıca cəhət isə bu sənətkarların türk dilində yazıb-yaratmaları, bu dildə oxuyub, bu dildə məclis aparmaları idi. Əlbəttə, onları yaxınlaşdıran başqa cəhətlər də var idi: Türk-Azərbaycan aşıq şeri ənənələrinə sadiqlik, klassik aşıq yaradıcılığından faydalanma, sıx yaradıcılıq və dostluq əlaqələri və s.

Borçalı mahalı saz-söz ustaları ilə hər zaman məşhur olub. Azərbaycan aşıq sənətinin aparıcı qollarından birini təmsil edən Borçalı sənətkarları zəngin ənənələri, ifaçılıq tərzi ilə bir mühitin nümayəndələri olublar. Müxtəlif dövrlərdə bu mahalın ayrı-ayrı guşələri olan Borçalı, Qarayazı, Qaraçöp, Bolus və Başkeçiddə Alxas Ağa, Güllər Pərisi, Şair Nəbi, Şair Ağacan, Aşıq Sadıq, Mühəqqər, Şair Hüseyn, Bayazidli Aşıq Məsim, Aşıq Abbasəli, Həsən Məcruh, Xındı Məmməd, Miskin Allahverdi, Aşıq Musa, Quşçu İbrahim, Xoca Məhəmməd, Təhlə Novruz, Sədi Arif bəy, Şair İbrahimxəlil Lecbəddinli, Aşıq Əmrah, Aşıq Hüseyn Saraclı, Aşıq Alxan Qarayazılı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Göycə, Ustad Kamandar, Aşıq Qəhrəman, Aşıq Əhməd Sadaxlı kimi onlarla aşıq və el şairi yaşayıb-yaratmışdır. Hazırda bu mahalın saz-söz şərəfini Aşıq Məhəmməd Sadaxlı, Aşıq Aslan Kosalı, Aşıq Nurəddin Qasımlı, Aşıq Bilal, Gülabı Xındı Məmməd oğlu, Aşıq Həvəskar, Aşıq Arif, Aşıq Şakir, Qırxılı Aşıq Hüseyn, Aşıq Ziyəddin, Aşıq Əhəd, Aşıq Murad, Aşıq Vəkil, Bafəli və başqaları qoruyub yaşadırlar.

Borçalının saz-söz dünyası özəlliyi və gözəlliyi ilə seçilir. Torpağa, yurda bağlılıq, adıbəlli kişilərin, qəhrəman vətən övladlarının, tarixi keçmişimizin tərənnümü onu səciyyələndirən əsas mövzulardandır. Gözəlləmələri dərin lirizmi, aforistik məzmunlu nəsihətnamələri isə güclü məntiqi ilə diqqəti cəlb edir. Aşıq-şairlərin yaratdıqları dastanları və aşıq rəvayətlərini də buraya əlavə etsək, Borçalı aşıq ədəbiyyatının zənginliyi daha qabarıq nəzərə çarpar.

Bizə həm ərazicə, həm də etnik-mədəni baxımdan ən yaxın bölgələrdən biri qarapapaq-tərəkəmələrin məskunlaşdığı Axalkələk-Çıldır bölgəsi olmuşdur. Bu bölgə yüzillər boyu Borçalı bölgəsi ilə birlikdə Azərbaycanla Anadolunun şeir-sənət dünyası arasında mədəni-mənəvi körpü rolunu oynamış və bu amil ən çox saz-söz aləmində, özəlliklə də aşıq sənətində özünü daha dolğun və aydın biruzə vermişdir.

XVIII-XX yüzillərdə Axalkələk bölgəsində Xəstə Hasan, Qul Qarəni, Usta Polad, Molla Xəlis, Şeydayi, Feydayi, Lebisli Aşıq Nuru, onun oğlu, Aşıq Şenliyin şagirdi olmuş Aşıq Balakişi, Lebisli Aşıq Oruc, Aşıq Əhməd, Aşıq Balabəy, Aşıq Məftun, Xırtızlı Aşıq Həmzə kimi onlarla türk yaradıcı və ifaçı aşığı yaşayıb fəaliyyət göstərmişdir. Bölgədəki Muraqbal, Uravel, Van, Oskeriya, Dırqına, Qurbağaoğlu, Lebis, Buzmaret, Niyal, Ərdağ, Göyyə, Xumris, Böyük Xançallı, Kiçik Xançallı, Oracalar, Batkana, Arakol, Gənzə, Sağamoy, Xavet, Ərincə, Danqal, Karzax, Xosbiyə və digər kəndlərdə məskunlaşmış sakinlər zəngin xalq ədəbiyyatı və aşıq yaradıcılığına malik qarapapaq tərəkəmələrindən ibarət idi. Odur ki, antologiyaya həmin bölgənin görkəmli saz-söz ustalarının yaradıcılığından örnəklərlər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

daxil etməyi də məqsədəuyğun bildik. Onlardan bir çoxunun ulu babaları Borçalıdan köç etmiş, bəziləri isə Borçalı ilə qohumluq və yaradıcılıq münasibətlərini sonadək qoruyub saxlamışlar. Xəstə Hasan, Qul Qarəni, Usta Polad, Aşıq Şenlik və digərləri məhz belə sənətkarlardan idilər.

Axalkələk bölgəsində yaşayıb-yaratmış klassik sənətkarlarımızdan biri də həyatı və yaradıcılığı əfsanə və rəvayətlərlə süslənmiş, son vaxtlara qədər sənət aləmində öz layiqli qiymətini tapmamış qüdrətli saz-söz ustası, haqq aşığı Xəstə Hasandır. Biz onun haqqında ilk yazımızı 1983-cü ildə "Sovet Gürcüstanı" qəzetində "Xəstə Hasan kimdir?" başlığı altında oxuculara təqdim etmiş, məqalədə Xəstə Hasanın yaradıcılığını yüksək qiymətləndirmiş və tarixə söykənən bəzi bilgilərlə yanaşı, aşığın Axalkələk bölgəsindən topladığımız iki şeirini də məqalənin sonuna əlavə etmişdik. O zamandan etibarən mən bir növ bu ustad aşığın şeirlərinin cazibə qüvvəsindən çıxa bilməmiş, özümə də bəlli olmayan qeyri-adi hisslərin təsiri altında Xəstə Hasanın şeirlərini toplamağa, onun həyatına dair tarixi həqiqətləri müəyyənləşdirməyə çalışmış və vaxtaşırı müxtəlif kitab və elmi məqalələrimdə bu barədə məlumatlar vermişəm. 2009-cu ildə isə Xəstə Hasanın həyat-yaradıcılığını və şeirləri əhatə edən kitabımız nəşr olundu*. Bu Xəstə Hasan barədə çap olunmuş ilk kitab idi.

Araşdırmalar sonucunda belə bir qənaətə gəldik ki, Xəstə Hasan 1800-ci ildə anadan olmuş, 1866-cı ildə isə dünyasını dəyişmişdir.

Əsərlərinin vaxtında toplanıb tədqiq olunmaması Xəstə Hasanın bəzi şeirlərinin başqa aşıqların yaradıcılıq nümunəsi kimi təqdiminə (və ya əksinə) də səbəb ola bilərdi. Ancaq qətiyyətlə deyə bilərəm ki, Xəstə Hasanın şeirləri müxtəlif müəlliflərin yüzlərlə qoşqularından çox asanlıqla seçilə biləcək şeirlərdir. Sənətkarın əldə olunmuş əsərlərinin böyük əksəriyyəti də zəmanəmizə tam dəqiqliyi ilə gəlib çatmamışdır.

---

* Xəstə Hasan (Hazırlayan Valeh Hacılar), Tiflis, 2009.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onları doğru-dürüst müəyyənləşdirərək yazıya almaq, tədqiq və nəşr etdirmək gələcək araşdırıcıların işidir.

Bəlli olduğu kimi, Çıldır aşıqlarının sənət ocağının əsas ənənə-gələnəkləri Xəstə Hasan – Aşıq Nuru – Aşıq Şenlik – Balakişi, Qasım, Nəsib – Gülüstan Çobanoğlu, Aşıq İslam, Yılmaz Şenlik, Aşıq İsgəndər – Murad Çobanoğlu, Şərəf Taşlıova və digər bəlli çağdaş aşıqların fəaliyyət xətti üzrə inkişaf edib, ustad-şagird ənənəsi ilə bağlı yeni yetişən istedadlara təhvil verilməkdədir.

Şenliyin babası Molla Qədir də Borçalı-Qazax bölgəsindən Çıldıra köç etmiş qarapapaqlardandır. Şenlik saz-söz dərsini məşhur Xəstə Hasanın şagirdi lebisli Aşıq Nurudan almış, Aşıq Nuru vasitəsilə Xəstə Hasan yaradıcılığındakı poetik qüdrətdən və genəlliklə qarapapaq folklorundan təsirlənib faydalanmış, bütün bunları öz şerləri və dastanları ilə daha yüksək bir zirvəyə ucaltmışdır.

Aşıq Şenlik yaxın və kənar çevrələrdən Gürcüstan və Borçalı qədər heç bir bölgə ilə bağlı olmamışdır. Ustad aşıq Borçalı mahalını qarış-qarış gəzmiş və orada özünün sənət izlərini qoyub getmişdir. Borçalıda olan hər kəs addımbaşı bu izlərlə qarşılaşmalı olacaq. Bu diyarın saz-söz və bilim adamları Şenliyin sənət zirvəsinə bir səcdəgah kimi baxmış, onun yaradıcılığını özlərinin etnik-mədəni sisteminin, milli-mənəvi sərvətinin önəmli bir tərkib hissəsinə çevirmişlər. Bu səbəbdən Aşıq Şenliyi biz «Qars-Çıldır» yox, «Qars-Çıldır-Borçalı» sənətkarı kimi qəbul edirik və buna tam mənəvi haqqımız var.

Gürcü Ədəbiyyatı Muzeyinini Əlyazmalar Fondunda, K. Kekelidze adına Gürcüstan Əlyazmalar İnstitutunda, Rustaveli adına Ədəbiyyat İnstitutunun folklor arxivində, Axalkalak və Axalsix Diyarşünaslıq Muzeylərində saxlanılan materiallar, eləcə də 1980-82-ci illərdə Gürcüstanın müxtəlif rayonlarına səfərimiz zamanı yerli əhalidən topladığımız aşıq yaradıcılığı nümunələri sübut edir ki, XVIII-XX yüzillərdə bu regionda Aşıq Ruhani (İoseb Beridze), Aşıq Şivğa (Luka Beridze), Georgi Saracaşvili, Aşıq Levan Tavrişvili, Aşıq Yaralı Toro-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

laşvili, Aşıq Zeyin (Topo Beridze), Aşıq Sandro Zedginidze, Aşıq Pəktayi (Aqob Zavadze), Aşıq Mixayil Zazadze, Aşıq Niko Davlaşeridze, Səfil Lado (Vladimir Beruaşvili), Aşıq Sandro Qavrelişvili və XX yüzilliyin 90-cı illərinə qədər yaşayıb-yaradan Aşıq Eto (Ekvtime Davlaşeridze) kimi onlarca gürcü aşığı və el şairi, Gürcüstanın Trialet (Zalqa-Barmaqsız) bölgəsində isə Coğabi, Aşıq Sokrat, Aşıq Mose, Söhbəti və digər milliyətcə yunan (urum) olan, eləcə də milliyətcə aysoru olan Surayi kimi sənətkarlar Türk-Azərbaycan dilində şer qoşub mahnı oxumuş, dastan söyləyib, məclis aparmışlar[30].

Bütün dövrlərdə Mesxet-Cavaxet (Ahıska-Axalkələk) aşıqlarının sevimli çalğı aləti kimi yeganə çalğı aləti saz olmuşdur. Bu cəhət onları kamançadan, çonqurdan, skripkadan, dəfdən və digər çalğı alətlərindən istifadə edən tiflisli aşıqlardan ciddi fərqləndirmiş, burada yaşayan türk sənətkarlarının ifaçılıq tərzinə daha çox yaxınlaşdırmışdır.

Maraqlı məzmunu və zəngin ideya-bədii səciyyələri ilə fərqlənən xalq dastanlarımız Gürcüstanda da geniş yayılmış, müxtəlif millətlərin nümayəndələri olan toplayıcıların, naşirlərin və tədqiqatçıların diqqət mərkəzində olmuş, arxiv sənədlərində, salnamə və cünglərdə öz əksini tapmışdır. Bütün dövrlərdə peşəkarlığı və yüksək sənətkarlığı ilə seçilən Borçalı aşıqlarının, el şairlərinin ardıcıl fəaliyyəti bu vüsəti daha da genişləndirmiş, xalq romanlarımızı təkcə türkdilli xalqlara yox, Qafqazda yaşayan bütün millətlərə sevdirmişdir. Bütün bunlar həm də dastanlarımızın dövrümüzə qədər gəlib çatmasına, qorunub saxlanmasına yardım etmiş, müxtəlif xalqlarda çoxsaylı variantların və versiyaların yaranmasına səbəb olmuşdur. Bu işdə Azərbaycan xalq romanlarının gürcü dilinə təbdil-tərcüməsinin əhəmiyyətini də danmaq olmaz. Odur ki, Gürcüstanda Azərbaycan dastanlarının inkişaf mərhələlərin-

---

[30] Onların həyat və yaradıcılıqları haqqında bizim «Türkdilli gürcü, yunan və aysoru aşıq şairləri» (AMEA-nın Folklor İnstitutunun nəşri, Bakı, 2007, 203 s.) adlı kitabımızda geniş bəhs olunub.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dən bəhs edərkən bütün bu amillər nəzərdən qaçmamalı və araşdırma üçün əsas götürülməlidir.

Əlbəttə, Gürcüstanda, Borçalıda geniş yayılmış irili-xırdalı dastanların, çoxlu aşıq rəvayətlərinin əksəriyyətini tədqiqata cəlb etmək imkan xaricindədir. Borçalı aşıqlarının repertuarında klassik dastanlarımızın daha mükəmməl variantları yaşamaqdadır. Bu aşıqlar, öz növbəsində, dastan yaradıcılığı ənənəsinin sadiq davamçıları olub, yeni nümunələr yaratmış və yaratmaqdadırlar. Bu məsələ gələcək araşdırıcıları hələ çox maraqlandıracaq, toplayıcıların diqqətinə səbəb olacaqdır.

Gürcü folklorşünaslarından bəziləri ozanların sənət əsərləri ilə maraqlanmış, onları araşdırmış, gürcü dilinə çevirmişlər. Tədqiqatçı L. Çlaidze «Oğuznamə»ni uyğur dilindən gürcü dilinə çevirib ön söz və qeydlərlə birlikdə çap etdirmişdir[31]. Şərqşünas-alimlər G. Şağulaşvili və E. Cavalidze 1977-ci ildə «Kitabi-Dədə Qorqud» dastanlarının qismən[32], on il sonra isə tam tərcüməsini gürcü oxucularına çatdırmışlar[33].

Gürcü sənətsevərləri türkdilli xalq ədəbiyyatının dəyərli nümunələrini özlərinin milli folklor materiallarından az sevməmiş, bu nümunələrin yazılma, yaşama coğrafiyasının genişlənməsində, inkişafında, müxtəlif variantlarda bizə çatmasında mühüm rol oynamışlar. Bütün xalqların folkloruna xas olan bu cəhət Azərbaycan türklərinin və gürcülərin şifahi söz sənəti üçün də səciyyəvidir. Mixail Çikovani düzgün qeyd edir ki, gürcülər arasında geniş yayılmış Koroğlu rəvayətləri yerli xarakter daşımır. Xalqın xoşuna gələn, xalqın zövqünü oxşayan rəvayətlər yenidən işləndikdən sonra yerli kolorit qazanır[34].

XIX yüzilin 70-ci illərindən başlayaraq «Koroğlu»nun gürcülər arasında şöhrəti daha da artır. Xalq arasında Koroğlu

---

[31] Oğuznamə. Tbilisi, 1974 (*gürcü dilində*).

[32] Dədəm Qorqudun kitabı (bir parça) – «Armaqani», P, Tbilisi, 1977 (*gürcü dilində*).

[33] Dədə Qorqud kitabı. Tbilisi, 1987 (*gürcü dilində*).

[34] M. Çikovani. Gürcü şifahi xalq ədəbiyyatı tarixi, I c., Tiflis, 1975, s. 43 (*gürcü dilində*).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şəxsiyyəti ilə bağlı müxtəlif rəvayətlər yaranır. Belə rəvayətlərdən biri də 1878-ci ildə Tiflisdə nəşr olunan «Droeba» («Zaman») qəzetinin 147-ci nömrəsində dərc olunmuşdur. Görkəmli gürcü folklorşünası və ictimai xadimi Zakariya Mtasmindeli (Cicinadze) tərəfindən toplanmış və çap edilmiş bu rəvayət hansı səbəbdənsə nəzərdən yayınmış və uzun müddət öyrənilməmişdir. Z. Mtasmindeli məqaləsinin əvvəlində yazır: «Bütün Qafqazda, eləcə də burada (Gürcüstanda – V. H.) yaşayan müxtəlif xalqlar… arasında Koroğluya dair rəvayətlər elə geniş yayılmışdır ki, onun barəsində kimdən soruşsanız, mütləq sizə: – Koroğlu belə igid adam olmuş və filan-filan işlərə görə tez-tez Gürcüstana gələrmiş – deyə cavab verərlər». Bununla yanaşı, «Koroğlu» sözünün mənasını izah edərkən müəllif «kor» sözünün ermənilərə, «oğul» sözünün isə azərbaycanlılara məxsus olduğunu bildirməklə açıq-aşkar yanılmışdır. Aydındır ki, hər iki söz türk mənşəlidir.

Z.Mtasmindeli variantında Koroğlunun Bolnis (yerli əhali Bolus deyir) meşəsində çiynindən tüfəng asılmış bir gürcü naxırçısına rast gəlməsi, onların arasında sual-cavab, Koroğlunun təkidi ilə naxırçının kəlin birini öldürməsi və heyvanın dəyərinin Koroğlu tərəfindən birə üç ödənilməsi dastanın əslinə uyğundur. Koroğlunun tüfəngli naxırçıya Bolnis meşəsində təsadüf etməsi əhvalatından sonra ehtimal etmək olar ki, müəllif eposla bağlı rəvayətləri məhz Bolnisdəki Azərbaycan-Türk kəndlərindən toplamışdır. İndiki Bolnis rayonundakı əlliyə yaxın kəndin qırxdan çoxunun əhalisinin Azərbaycan türklərindən ibarət olması Koroğlu ilə əlaqədar söhbətlərin həmin ərazidəki gürcü və erməni kəndlərində də geniş yayılmasına zəmin yaratmışdır. Təsadüfi deyil ki, hal-hazırda rayonun Azərbaycan türkləri yaşayan Bolus-Kəpənəkçi, İncəoğlu, Samsevrisi (Şəmşioğlu), Faxralı, Saraclı və Abdallı kəndləri yaxınlığındakı meşələrdə möhtəşəm Koroğlu qalaları yüksəlir. Gürcüstanda Təkəli, Təklə adlı kəndlər də var. Koroğlunun eyni adlı qəbiləyə mənsub olduğunu söyləyən tədqiqatçılar üçün bu kəndlərin varlığı dəyərli materiallar verə bilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

1887-ci ildə Tiflisdə Yef. Xeladzenin mətbəəsində çap olunmuş 32 səhifəlik «Məşhur aşıq və adlı-sanlı qəhrəman Koroğlu» kitabı isə aydın olur ki, S. Dieli tərəfindən qələmə alınmış və dərc olunmuşdur. Bu kitab S. S. Penn nəşrinin 1-ci, 2-ci və 3-cü məclislərinin gürcü dilinə sətri tərcüməsini əhatə edir.

«Aşıq Qərib» dastanının Cənub-Qərbi Gürcüstan variantını 1980-ci ildə Aşıq Etonun (Ekvtime Davlaşeridze) ifasında lent yazısına ala bildik*. Ancaq aşıq dastanın çox uzun – «iki-üç gecəlik» olduğunu bildirdi və ifa zamanı məzmunu xeyli qısaltdı. Buna baxmayaraq, dastanın əsas məzmunu və onda olan poetik nümunələrin demək olar ki, əksəriyyəti yazıya alındı.

Bu variantda da Tiflisli Xoca Sənanın qızı Şahsənəmə buta verilir, Qəribin bacısının adı Nərgizdir, Şahsənəmin qaravaşı burada da Ağcaqızdır, Şahvələd isə Şahsənəmin qohumudur. Göründüyü kimi, dastanın əsas iştirakçılarının adları Azərbaycanda yazıya alınmış variantlardakı adlarla eynidir. Onlar qohumluq münasibətlərinə, daşıdıqları funksiyalara görə də bənzərdirlər. Ancaq yuxarıda dediklərimizi dastandakı bütün surətlərə tam şamil etmək olmaz. Bu baxımdan başlıca fərqlər yazıya aldığımız variantın aşağıda göstərəcəyimiz epizodlarında özünü açıq-aşkar büruzə verir:

1. Qəribi Tiflisdə ilk mehman edən qəhvəxana sahibi Dəli Mahmud yox, çayçı Dəli Mustafadır.

2. Azərbaycan variantlarında Qərib Dəli Mahmudun qəhvəxanasında söz deyişində Güloğlan adlı aşığı məğlub edirsə, Cənub-Qərbi Gürcüstan variantında Qəriblə deyişən dağıstanlı məşhur Ləzgi Əhməddir.

3. Azərbaycan variantında Şahvələd Qəribin ölüm xəbərini Qəribin ana-bacısına və Şahsənəmə Güloğlan vasitəsilə çatdırır. Əldə etdiyimiz variantda isə Şahvələd tacirdir. O, Qəribi Hələbdə görür, Şahsənəmin öz əliylə işlədiyi köynəyi Qəribin sandığından gizlincə götürür, qayıdarkən ögey qardaşı Dəli Seydi öyrədir ki, Qəribin öldüyünü desin və Şahsənəmi özü alsın.

---

* Dastanın tam mətni bizdədir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4. Hər iki variantda Aşıq Qəribə kömək əlini uzadan, ona qızıl verib yola salan Hələb paşasıdır. Azərbaycanda toplanmış variantdan fərqli olaraq, Cənub-Qərbi Gürcüstan variantında Hələb paşasının adı göstərilib. Bu, Mələk paşadır. «Mələk paşa Şamlı idi. On dörd il Hələbdə paşalıq etməli idi».

Göründüyü kimi, surət adlarında müəyyən fərqlər var. Ancaq onu da qeyd etmək lazımdır ki, dastanın yeni toplanmış variantında bu, diqqəti cəlb edən əsas xüsusiyyət deyildir. İlk anda nəzərə çarpan cəhət poetik nümunələrdəki dolğunluq, axıcılıq və təbiilikdir. Demək olar ki, müqaisə etdiyimiz variantlardakı bəzi şerlər məzmunca bir-birinə uyğunlaşsalar da, heç zaman eyniyyət təşkil etmirlər. Və bir həqiqəti də deməliyik ki, bəzi hallarda poetik dolğunluq, bədii səviyyə Cənub-Qərbi Gürcüstanda yazıya alınmış variantın xeyrinədir.

Qəhrəmanlıq və məhəbbət motivlərini özündə birləşdirən «Şah İsmayıl» dastanı özündən sonra yaranan dastanlara da əsaslı təsir göstərmişdir. Fərdi ekspedisiya zamanı ustad Eto Davlaşeridzedən Aşıq Zeyinin (Topo Beridze) «Cəlal-Sayad Səlvinaz» dastanını yazıya köçürərkən biz bu qənaətimizin doğruluğuna bir daha inandıq. Bu örnək gürcü aşıqlarının türk dilində dastan yaratdıqlarını sübut edən ilk nümunə kimi əhəmiyyətlidir. Əsasında məhəbbət və qəhrəmanlıq motivləri duran bu dastanın qəhrəmanı Cəlaldır. O, həm saf məhəbbətlə sevən aşiq, həm də öz səadəti uğrunda qılınc çalan igiddir. Cəlalın rast gəldiyi Xanzadə xanım surətinin yaranmasında isə «Şah İsmayıl»dakı Ərəbzəngi surətinin böyük rol oynadığı aydınlaşır.

Bununla belə, həmin dastanları bir-birindən fərqləndirən cəhətlər çoxdur. Məsələn, Ərəbzəngi Şah İsmayıla döyüşdən sonra təslim olursa, Xanzadə Cəlalla döyüşmür, qız olduğunu boynuna alır və evlənməyi təklif edir. Başlıca fərqlərdən biri də budur ki, Ərəbzəngi kimi Xanzadə qəhrəmanla birlikdə döyüşdə iştirak etmir. Cəlalın qayıtmasını öz imarətində gözləyir. Bu baxımdan Xanzadə «Şah İsmayıl»dakı Rəmdar Pəriyə daha çox oxşayır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əsərdə saf məhəbbət, sədaqət, yaxşılıq, xeyirxahlıq, ədalət, igidlik, cəsarət və s. müsbət insani keyfiyyətlər ilhamla tərənnüm olunmuşdur. Yolda qaçaqların xeyirxahlığını görən Cəlal öz növbəsində Xanzadənin əsir aldığı 39 nəfər gənci azad etdirir, adi bir xidmətçini özünə qardaş bilib murada yetirir, qaçaqları saraya dəvət edir. Burada pula hərislik, acgözlük, hiyləgərlik, xəyanət, qəddarlıq və s. bu kimi digər xüsusiyyətlər tənqid olunur. Dastançı mənfi surətləri elə xarakterik və tipik cizgilərlə təsvir etmişdir ki, onların məğlubiyyətinin labüdlüyü xalq idealının təntənəsi kimi səslənir. Qoca xan, Qara Vəzir, Küpəgirən qarı müsbət idealın məğlubedilməzliyi qarşısında acizləşən mənfi surətlərdəndir.

Türk-Azərbaycan dastançılığının təsiri ilə yaranmış «Cəlal-Sayad-Səlvinaz» dastanının dili, bədii ifadə vasitələri məhəbbət dastanlarının ənənəsinə söykənir. Dastandakı maraqlı süjet və gözəl lirik şerlər də göstərir ki, onun müəllifi ustad aşıqlardandır.

Borçalıda ən geniş yayılmış dastanlardan biri şair Ağacanın «Cahangir» və yaxud «Cahangir – Mələksima» dastanıdır. Ustad sənətkarımız Hüseyn Saraclının dilindən yazıya aldığımız bu xalq abidəsi öz bədiiliyinə, axıcılığına və poetik səviyyəsinə görə məşhur xalq dastanlarımızın səviyyəsində dayanmağa tamamilə layiqdir.

İki gəncin məhəbbət macəralarını təsvir edən «Cahangir» dastanında dastançılıq ənənəsinə bağlılıq açıq-aydın hiss edilsə də, maraqlı, orijinal səhnələrlə zəngin bir süjet xətti onu səciyyələndirir. Cahangir həm də igid, cəsur, heç nədən qorxmayan, öz istəyinə qovuşmaq üçün cəsarətlə qılınc döyüşünə çıxan bir pəhləvana çevrilir. Məhəbbət motivləri qəhrəmanlıq səhnələri ilə əvəz olunur. Cahangir Heydər xanı məğlub edir, Əziz şahın qoşunu isə özünü yetirib düşməni pərən-pərən salır. Cahangir sazı götürüb başına gələnləri atasına söyləyir. Dastan qəhrəmanın butasına qovuşması, birlikdə vətəni Misirə dönməsi ilə tamamlanır. İfaçı aşıqlar isə, bir qayda olaraq dastanı Şair Ağacanın «Samovar» rədifli müxəmməsi ilə du-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vaqqapma edib bağlayırlar. O da maraqlıdır ki, Şair Ağacan bu müxəmməsi qoşarkən təkcə Azərbaycan dilindən yox, həm də rus, gürcü və erməni dillərindən istifadə etmişdir.

«Cahangir» dastanı Borçalıda dastançılıq ənənələrinin inkişafını göstərməklə yanaşı, tədqiqat üçün də maraqlı material verir. Bu nümunənin nəşri dastan irsimizi daha da zənginləşdirər, məhəbbətlə qəhrəmanlıq hüdudunda dayanan dastanlarımıza gözəl bir xalq romanı da əlavə etmiş olar.

Borçalıda dastançılıq ənənələri indinin özündə də davam etdirilməkdədir. Bu baxımdan ustad aşıqlarımızdan sayılan aşıq Məhəmməd Sadaxlının dastan yaradıcılığı diqqəti daha çox cəlb edir. Onun yaratdığı dastanlar arasında xalq qəhrəmanı, türk qəhrəmanlıq tarixində yenilməz sərkərdə, igid bir döyüşçü kimi məşhurlaşmış, rəsmi tarixi və ədəbi mənbələrdə, Anadolu şairlərinin və aşıqlarının yaradıcılığında geniş yer almış Borçalı əsilli Mehralı bəyə həsr etdiyi dastan xüsusi maraq doğurur. Dastanda istər hadisələrin ardıcıllığı, dili, istərsə də poetik mətnlər, nəsr və məzmunun bir-birini izləməsi böyük ustalıq və sənətkarlıq məharətilə təsvir olunmuşdur.

Bir sözlə, Gürcüstanda Türk-Azərbaycan folkloru ənənələrinin kökləri qədim və çoxşaxəlidir. Yazıya alınaraq topluda oxuculara təqdim olunmuş örnəklər zəngin Borçalı-Qarapapaq folklorunun kiçik bir qismini əhatə etsə də, xalqımızın mədəni-tarixi inkişafının, etnik xüsusiyyətlərinin hərtərəfli öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Onları və digər nümunələri ardıcıl şəkildə toplamaq, araşdırıb təhlil və nəşr etmək milli folklorumuzun, dilimizin tarixini, nüfuzunu, təsir və əhatə dairəsini doğru-dürüst müəyyənləşdirmək üçün çox gərəklidir.

***Valeh HACILAR***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# I. MÖVSUM VƏ MƏRASİM NƏĞMƏLƏRİ

1. Yağma, yağış,
Bitmə, qamış,
Babam çöldədi,
Yapıncısı öydədi,
Çomağı çiynindədi,
Köynəyi əynindədi,
Dəsmalı cibindədi,
Ağacın dibindədi,
Yağma, yağış,
Bitmə, qamış.

2. Elçiləri yalançılar,
Məndə nə gördün, gəlmədin.
Söyləsən nə gözləmən var,
Məndə nə gördün, gəlmədin.
Dərdimdən öldün, gəlmədin.

Çərkəz papaq, enli kürək,
A bal dodaq, qarğı bilək.
Niyyətini söylə görək,
Dərdimdən öldün, gəlmədin.
Məndə nə gördün, gəlmədin?

Təndirimizə aş qoymuşam,
Üstünə lavaş qoymuşam,
Dolçanı sənək yanına
Bilməmişəm çaş qoymuşam,
Dərdimdən öldün, gəlmədin,
Məndə nə gördün, gəlmədin?

* * *

Qızım nazdı,
Yüz tümən azdı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Min tümən gətirin
Gəlini götürün.

* * *

Quda-quda can quda,
Gözləri mərcan quda.
Alışdıraq, verişdirək,
Yüz tümənə barışdıraq.

* * *

3. Harava bizim ola, ey,
Təkəri qızıl ola, ey,
Girəydim yar qoynuna,
Gecələr uzun ola, ey,
Oy dilim, can dilim.

Alex-balex sudadı, ey,
Gözləri yuxudadı, ey,
Tələsmə dəli oğlan, ey,
Muraz verən xudadı, ey,
Oy dilim, can dilim.

Dəyirman daşlı gərək, ey,
Qələm qaşlı gərək, ey,
Neynirəm qoca yarı, ey,
Yar on beş yaşlı gərək, ey,
Oy dilim, can dilim.

* * *

4. Dodu-dodu gördünmü,
Doduya salam verdinmi,
Dodu burdan ötəndə
Qırmızı gün gördünmü?

Məhlənizə gələndə
İt baldırmı daladı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yağ verin yağlayaq,
İp verin bağlayaq.

### 5. Toy nəğmələri və əbədə-şəbədələr

**Oğlan evi:**

Quda-quda can quda,
Gözləri mərcan quda.
Alışdıraq, verişdirək,
Yüz tümənə barışdıraq.

**Qız evi:**

Qızımız nazdı,
Yüz tümən azdı,
Min tümən gətirin
Gəlini götürün.

**Qayınana gəlinə:**

Evindən bezən,
Qapılar gəzən,
Dabanı çatdaq,
Balağı batdaq,
Doğduğu söyülməz,
Bişirdiyi yeyilməz!

**Gəlinin əbədə-şəbədəsi:**

Baldızım, çuvalduzum,
Zırıldayır ötür, mən neynim?
Qayınanam - qara köpək,
Mırıldayır ötür, mən neynim?

**Ananın qızını tərifi:**

Torbada duzdu qızcığazım,
Sərvdən düzdü qızcığazım,
Yeddi oğlan doğubdu,
Yenə də qızdı qızcığazım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Qayınatanın gəlinindən şikayəti:**

Susamışam, su istərəm,
Arxın qulağnı göstərir,
Acmışam, yemək istərəm
Təhnə tavağnı göstərir.

**Qayınananın küsüb gedən, sonra peşman olub geri dönən gəlininə dedikləri:**

Birə bitdən aşağı,
Cürə cütdən aşağı,
Özün getdin, özün gəldin,
Oldun itdən aşağı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## II. MİFLƏR VƏ ƏFSANƏLƏR

1. Borçalının dağ kəndlərinin birində bir cinə sancax taxıf tutuflarmış. Onnan sonra o cin illərnən gəlin cildində yaşıyırmış. Camaat da bilirmiş ki, bu gəlin cindir.

Bir gün bu gəlin bulaxdan hər əlində bir vedrə su gətirirmiş. Birdən görür ki, qavağına bir uşax çıxıf. Uşağa deyir ki, a bala, a bala, əllərim boş döy, bu sinəmdəki sancağı aç çıxart, sənə alma verəcəm. Uşax da allanıf sancağı çıxardır. Gəlin təzdən cinə dönör, uşağın yanaxlarını qopardıf oycuna qoyor ki, al, bu da sənə alma.

* * *

2. Kəndlərin birində bir kişi yaşayırmış. Hər sabah yuxudan qalxanda atını tərləmiş görürmüş. Bir gün fikirləşir, fikirləşir və götürüb atının belinə qır tökür.

Savah qalxıb görür ki, atın belində bir arvad oturub. Arvadın üstünə iynə batırıb atdan düşürür. Arvad nə desə, o olurmuş. Onun bişirdiyi çörək təhnədən qurtarmırmış. Bir müddət arvad bunlara işlədikdən sonra bir uşağa iynəni çıxartdırır və yoxa çıxır.

* * *

3. İmrasannı Xacca xala səhər tezdən, o başdan toxa döyməyə gedermiş. Gedəndə gedif görör ki, üzüm bağının əğında kənddən Aypara adında bir qız daşın üstdə oturuf uzun saçını darıyır. Salam verif addıyır. Öz-özünə deyir ki, bu zaman bu nağayrer burda, bir dönöm xavar alem. Geri dönəndə görör ki, heç kəs yoxdu. Sən demə ciniymiş.

* * *

4. Gecə vaxtı Haça qayadan gəlerdim. Gördüm ki, toy-düyündü, cinnər bir mi çalıf-oxuyollar. Məni də ortalarına alıf oynatmağa başdıyellar. Kəlmeyi-şəhadət deyənnən sonra cinnər dedi ki, səni anan namaz üstdə doğufdu, yeri get.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

5. Musaxanın arvadı Sultan öz qohumlarıynan gecə vaxtı saat 2-də toydan öyə gəlermişlər. Dəmiryolunu keçəndə göröllər ki, qavaxda töyux, dalınnan da çoxlu cücələri qaqhaqaq bir mi gedellər. Əl-əxlarına dolaşellar. Deyillər ki, bu nədi, gecə vaxtı bu qədər töyux-cücə, qonu-qonşuda da bu ğarta yoxdu. Bir təhər kış-kış elliyif addıyellar. Bu töyox-cücələr cinnər ola bilərmiş.

* * *

6. Mollayev köçüb Sarıyala gələndə iki evi olduğu üçün gedib gəlirmiş. Bir dəfə gələndə görür ki, yolda bir çəpiş var. Fikirləşir ki, bəlkə sürüdən qalıb, qucağına alıb bir xeyli yol gedəndən sonra baxmaq istəyir ki, çəpiş erkəkdi ya dişi. Qiyməyini qaldıranda çəpiş adam kimi gülür. Demə çəpiş cin imiş. Çəpiş deyir ki, anan səni Quran üstə doğub. Yoxsa səni çoxdan boğmuşdum. Kişi donub qalır.

* * *

7. Dan ulduzu bir oğlandı. Sevgilisi bulağa gəlir. Bu da onu görməy üçün hər gün tezdən çıxır ki, səhər-səhər sevgilisini görsün. Deyillər ki, qızı körpə vaxtı kimsə göydən atıb. Bu da onu indi yerdə axtarır.

Dan ulduzuna mütrüf ulduz da deyillər. O tez çıxır ki, camaatın nə yeyib-içdiyini görsün. Gec yatır ki, yığışanda nə etdiklərinə baxsın. Ona görə deyillər mütrüf ulduz. Nəfsəy oluf da, umsux oluf.

* * *

8. Heş nə özbaşına olmur. Yel yeldi, onu da əsdirən var. Adına Yel babası deyillər. O isdiyəndə yel əsir, isdəmiyəndə yox. Yel dağı da ziyaratdı. Kimin diləyi var gəlir, nəzir gətirir, qurvan kəsir. Bizdən savayı da gələn var. Hər dinnən olur. Erməni də, berzen də…



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*   *   *

9. Çən, çisək, qara duman hamsı Çən qarısınındı. Onun torvası var. Buların hamsını torvasına yığıf saxlayır. Ajığı tutanda torvuyu açıf çən-dumanı buraxır. Çən çox qalanda Yel babasının xoşna gəlmir. Əsif hamsını dağdır.

Dağda bir uşax-zad itəndə deyəllər ki, Çən qarısı torvasına salıv apardı.

*   *   *

10. Ay – bir oğlan uşağıymış, şuluq, əlləməyəx. Heş kimin sözünə baxmırmış. Bir gün anası xəmir yoğuranda yanında oynuyub əlnə-əyğinə dolaşırmış. Nə qədər deyir, burdan get, sözünə baxmır. Axırda ajıxlanır, əli xamırrı-xamırrı buna bir şillə vurur. O vaxtdan da üzü ləkəlidi.

*   *   *

11. Ay – oğlandı, Gün – qız. Ay Günü istəyirmiş. Hər gün onun dalıncax gəzirmiş. Gün nə qədər eliyir, bu əl çəkmir. Bir gün gənə Ay Günün dalıncax düşür. Gün qaçır, Ay da onun dalıncax. Gün baxır Ayın əlinnən qurtarmıyajax, əyilir yerdən bir oyuc palçıx götürüv atır onun üzünə. Ay əylənir, Gün çıxır gedir. O vaxtdan da ayın üzündə ləkələr qalıf.

*   *   *

12. Qış bir qoca qarıdı. Üç oğlu var: Böyüh çilə, Kiççih çilə, Boz ay. Anaları birinci Böyüh Çiləyi yolluyur ki, get. Bu gedif gəlir. Anası deyir, nağayrdın?

Deyir:

-Ocağın qırağına düzdüm gəldim.

Sonra Kiççih gedir. Gələndə anası deyir, nağayrdın?

Deyir:

-Ocağın içinə doldurdum gəldim.

Axırda Boz ay gedir. Bu gələndə anası genə soruşur ki, bə sən nağayrdın? Bu cavaf verir ki, ocaxdan çıxartdım gəldim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*   *   *

13. Qarnın borcu avrılda olur. Deyir, bir qarının xeyli oğlağı varıymış. Qışın axırı olur. Bunun otu-alafı qurtarır. Nəsə bir təhərrihnən, ölüm-zulum martı keçirir. Çöldə ot-zad göyərir, oğlaxlar yeyiv oynaşır. Qarı bunu görüf marta ajıx verir ki:

Mart gözünə barmağım
Oynaşır oğlaxlarım.

Bunun söznə martın ajığı tutur. Gəlir avrılın yanna ki, manna on gün borc ver, işim var. O da verir. Bu on gündə mart bir çoyğun, bir tufan elliyir ki, gəl görəsən. Qarının bircə oğlağı da qalmır, hamsı qırılıv ölür. Qarnın borcu da o vaxtdan qalıf. Onçu deyillər ki, «mart çıxdı – dərt çıxdı».

*   *   *

14. Bir dəfə ilin-ayın axır gejəsi bir qızın şannısı onun yanına gəlir. Elə olur bir azdan oğlan yatır. Gejənin bir vaxtı qız görür ki, at göyşədi. Təntiyir, deyəsidi ki, «kürək qızıl olsun» deyir, «Allah, bu oğlan qızıl olsun». Oğlan qızıl olur. Deyillər ki, bu qaldı bir də gələn noyruza. Bir gün qıza qızıl lazım olur. Sınağ üçün oğlanın sıçala barmağını götürür. Vax gəlir, genə ilin-ayın axır gejəsi olur. At göyşüyəndə qız diləh diliyir. Oğlan genə dönüv adam olur. Deyir, mən nə qədər yatmışam. Bir də deyir ki, mənim barmağım niyə belədi, yerində niyə yoxdu? Təzdən qohum-qardaş başa salır ki, belə-belə…

*   *   *

15. Hibop bir arvadıymış. İki oğlu varıymış: Usufnan Ənsif. Bular buzoya gedillərmiş. Bir axşam buzoyları gətirəndə görüllər ki, bir qarının buzoyu qalıf çöldə. Anaları buları döyür ki, tez gedin tapın gətirin. Bular gedillər. Bir əzdən arvadın ürəyi yumşalır, deyir, durum süd pişirəm, gələndə uşaxlar yesin. Ana nə qədər gözdüyür uşaxlar gəlmir. Savax olur, baxır ki, genə qayıtmadılar. Bilir ki, buzoyu tapbıyıplar. Diləy elyir, olur hibop. Başdıyır balalarnı gəzməyə. Hibop oxuyanda deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Usuf, Nəsif, gəl süd iç…
Gəl süd iç…

* * *

16. Bir gün itnən qurd rastlaşır. İt qurda deyif ki, gəl iy bilməyini mana ver, mən də güjmü sana verim. Qurd irazı oluf. İndi it iy bilir, qurd da güjdüdü. Deyəllər ki, qurdun öz güjünnən xavarı yoxdu.

## HƏRŞƏNİN KÜLLÜYÜ

Yaşıl meşələrə söykənən Darvaz kəndinə uzaqdan görünən Şindi dağı xüsusi yaraşıq verir. Deyirlər ki, əski zamanlarda bu meşələr daha sıx, keçilməz imiş, gədiklərdə, talalarda marallar, ceyran-cüyürlər görünərmiş.

Bulağa enən cığır ovçu Əhmədin evinin yanından keçirdi. Cığırla gedib-gələnlər ovçunun ayaqyalın, başıaçıq uşaqlarını gördükcə ürəkləri yanır, bu kasıb ailənin halına acıyırdılar. Uşaqlar alatorandan evdən çıxıb Yumru qayanın, Qırxbulağın, Sarı talanın həndəvərində ovçuluq edən atalarının qayıtmasını görən kimi yüyürər, yeganə ümidgahları olan ov çantasına yönələrdilər.

Günlərin bir günü səhərin alatoranında yuxudan oyanan ovçu Əhmədin gözünə buxarıda iri bir qazan sataşdı. O, təəccübləndi, qazanın qapağını götürən kimi bişmiş süd iyindən məst oldu. Həyətdə hərlənən arvadı Hərşəni çağırıb südü kimdən aldığını soruşdu:

Hərşə dedi:

– Ay kişi, nəyinə lazım kim gətirib, bir Allah bəndəsi. İç, elə get. Uşaqları da oyat, qoy içsinlər, nə vaxtdan Tamarzıdılar.

Ovçu Əhməd ertəsi günün səhəri də evlərində südlə silələnmiş qazanı gördü, ancaq dinib-danışmadı, süddən doyunca içib evdən çıxdı. Düz bir həftə eyni şeyin şahidi oldu. Ağartı ilə dolu qabların sayı isə get-gedə artırdı. Uşaqların da rəngi-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ruhu yaxşılaşan kimi idi. Qarınları tox, gülüb-danışırdılar. Hətta daha ovdan qayıdan atalarını qarşılamır, ov çantasına yönəlmirdilər.

Həftə tamamında ovçu Əhməd dözmədi, şübhələndi, Hərşəni çağırdı:

– Arvad, məni başa sal görüm, bu qədər südü axı kim verir bizə, hardan alırsan?

Hərşə diz çöküb and verdi:

– Ay Əhməd, sən gəl bunu məndən soruşma, balalarımıza yazığın gəlsin, mən bu sirri açsam, evimiz bir daha bu neməti görməyəcək.

Ovçu daha dinmədi. Səbrini düz üç ay boğdu. Gecənin bir vaxtı Hərşənin geyinib taxtdan düşməsini duydu. Gözucu fikir verdi. Arvad süd qablarını götürüb evdən çıxdı. Kişi özünü saxlaya bilmədi, maraq üstün gəldi, geyinib arvadı izləməyə başladı.

Ovçu Əhməd qaşdakı yemşan kolunun budaqlarını Aralayıb nə görsə yaxşıdı: çayın üstü marallarla, cüyürlərlə doludu. Bir az aralıda isə gur çatılmış ocaqdan qazanlar asılıb, arvadı Hərşə də qollarını çirməyib maralları sağır, südü qazanlara boşaldır.

Ovçu Əhməd budaqları bir az da araladı. Elə bu vaxt marallar şıqqıltıdan eymə ndilər. Hərşə də diksindi, başını qalldırıb Ayın aydınlığında ərinin kölgəsini gördü, iniltili bir səslə onu məzəmmət etdi:

– Ay kişi, niyə evimizi yıxdın, məni balalarımdan ayırdın. Sənə demədimmi bu sirlə maraqlanma.

Sonra Hərşə ocaqdan bir kösöv götürüb ovçu Əhmədə tərəf atdı:

– Apar bu kösövü evimizə, ocaq qala, külünü atma, ailəmiz xeyir-bərəkəti, uşaqlarımız isə mənim nəfəsimi, hərarətimi o ocaqdan alacaqlar. Balalarımdan muğayat ol, onları sənə, səni isə tanrıya tapşırıram.

Bunu deyib Hərşə gözəl bir cüyürə çevrildi, sürüyə qarışıb gözdən itdi. Ovçu Əhməd çox ağladı, sonra kösövü götürüb kor-peşman evə qayıtdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elə o zamandan Darvaz meşələrində ceyran-cüyürlərin sayı başlayır azalmağa. "Hərşənin küllüyü" isə indi də durur. Deyilənlərə görə, ildə bir dəfə bir cüyür Ayın aydınlığında meşədən enib küllüyə gəlir, ondan doyunca yalayır, yenidən meşəyə qayıdır.

## ANAXATIR

Dünyənin lap əzəliymiş. Adəm atanın vaxtınnan bir az sonruymuş. Boşşalı çökəyinə hələ adam əəğı dəymiyippiş. Bir qatar qəflə gəler bu tərəflərə. Noyruz vaxtıymış. Adamlar yornuğunu alermışdar. Bir ana da öz uşağınnan çaxraxda daşdarın içində gəzermiş. Uşax bir az aralıymış. Birdən çaxrağı sel götürör. Körpə uşax selə qarışer. Anası nə qədər çırpınersa, balasına əli çatmer. Ələşsiz qalan arvad qırağa çıxer, sel aşağı yüyürör. Görör uşağı tutammıyajax. Diz çöküf Tanrıya yalvarmağa başdıyer. Diyəllər Tanrı bu xatının yalvarışını eşidif çayın suyunu azalder. Uşax bir çiləkənə ilişif sağ-salamat qaler. Ana körpəsinə qoyuşor. Çay dilə gəlif deerkinə, mən o uşağı ana xatırına salamat saxladım.

Ana söyünör (Tanrı sizi söyündürsün). Dincələn adamlar tökülüşör. Ana başına gələni danışer. Deellər ki, o ku belə oldu, büyünnən buruyu özümüzə yurd seçerik. Bu boşduğun adını Boşşalı qoyurux, bu çayın adına da Anaxatır deerik. Bu yanıx iyi verən meşiyə də Yanıx meşəsi deerik...

O vaxtdan bu yaxınnara qədər, elə indinin özündə də qojalar o çaya Anaxatır deellər. Xram sözü qondarmadı.

## CƏNNƏT BULAĞI (1)

Bir qarının aman-zaman körpə bir nəvəsi naxoşlayır. Qarıya məsləhət görürlər ki, gedərsən Dibsiz gölün arxasına. Orada nəvənin boğazgəlməsinə çarə edəsi bir loğman yaşayır.

Qarının miniyi olmadığından nəvəsini də şələləyir belinə, düşür yolun ağına. Bir qonşusu qarının arxasınca aydınlıq suyu səpir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı yolu tuşlayıb irəliləyir. Yaş doxsanın astanasında, yol da ki, yoxuş, biçarə qarı yorulur. Bir hovur dincini almaq istəyir. Susuzluqdan təpmiş dodaqlarını yalayır. Nəvəsinin də iniltisi kəsilmək bilmir ki, bilmir.

Birdən yaxınlıqda su şırıltısı eşidilir. Qarı bir az çaşır. Burada bulaq olduğunu nə görmüşdü, nə də eşitmişdi. Yaxınlaşır. Bulağın suyundan özü də içir, nəvəsinə də verir. İlahi, bu nə sehrmiş! – uşağın iniltisi xırp kəsilir, bət-bənizi açılır, rəngi-ruhu düzəlir.

Qarı bir nəvəsinə baxır, bir də dumduru göz yaşını xatırladan bulağa. "Cənnət suyuymuş suyun, ay bulaq!" – deyə pıçıldayır. Bu pıçıltı binələrdə əks-səda verir.

O gündən bulağın adı "Cənnət bulağı" qalır.

## CƏNNƏT BULAĞI (2)

Aralıqda binələnən el ağsaqqalı bərk xəstələnir. Ağrı onu əldən salır. Heç kim ona əlac eləyə bilmir…

İllər yormuş bir loğman onun dərdinin adını deyir, dərmanının çətin tapılacağını da bildirir: Dərmanı cövhər sulu bulağın üstündə bitən çəhrayı rəngli güldü. Xəstə o bulağın suyunda o gülü çay əvəzi dəmləyib içməlidi…

Elin cavanları həmin gülü axtarmağa yollanır. Fəhmli cavanlardan biri gülü də, həmin gülün yanındakı bulağın suyundan da gətirib gəlir. Loğman gülü görüncə cülümsünür; həmin gülüymüş…

El ağsaqqalı sağalır. Onun şəfa tapdığı bulağın adı qalır Cənnət bulağı…

## KEÇİQIRAN

«Yastı qar» dan yuxarıda adsız bir göl varıymış. Bu göllərin həndəvərləri nəhayətsiz otlaqlardı. Aran Borçalıdan bir ağa hər yay burda binələnər, davarını, mal-qarasını burda otartdırar, bol mənzil götürərmiş.

Bu ağa çox əzazil, qaniçən bir adamıymış. Nökərlərinə, qulluqçularına «göz verib işıq vermirmiş», hər xırda suça,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

diqqətsizliyə görə onlara zülüm verdirərmiş. Arxacdan beş dana oğurlandığına görə danaçını qaniçən itlərin qabağına atdırıbmış. Belə xasiyyətinə görə ona Zulum ağa deyərmişlər.

Zulum ağanın mağmın, dili özündə olan bir çobanı varmış. Yetim, yiyəsiz-suavsız bir adam olduğuna görə Yetim Çoban adıyla tanınırmış. Bir gün Yetim Çoban sürünü Dibsiz gölün həndəvərinə yayır. Özü isə yapıncasını sərib bir hovurluğuna dincini almaq istəyir; gecə «ağzımurdarlar» arxaca təpgi elədiyindən yuxusuymuş. Qoyunlar xarpa-xarpla otlayırmış. Bir qədər aralıda həzin ney səsi gəlir. Yetim Çoban pıçıldayır: «Naxırçıdı. Yenə dərdindən çalır». Ürəyi kövrəlir Yetim Çobanın, doluxsunur…

O, xəyaldan ayrılıb sürüyə tərəf boylanır. Gözlərinə inana bilmir: sürü gölə tərəf qaçışırdı. Sürünün arxasınca cumur. Təkələr göldə boğulmuşdu. Suyun üzündə qoyun leşləri görünürdü. Yetim Çobanın harayı, Bozdarın ulartısı dağlara yayılır. Yetim Çobanın «urvası uçmuşdu». Soyuqdan yox, qorxudan titrəyirdi; Zulum ağa onu zulum günlərə qoyacaqdı. Qaçıb getməyə, başını daldalamağa heç bir simsarı yoxuydu. Qaçıb getsə də Zulum ağanın çaparları onu tapıb qaytaracaqdı. Naxırçı ona toxtaqlıq verməyə söz tapa bilmirdi…

Zulum ağanın qara-qışqırığı eşidilir…

Yetim Çoban əllərini göyə açır:

- Allahım! Məni Zulum ağanın zulumuynan öldürməkdənsə, itlərinə yem eləməkdənsə qara daşa döndər!..

Möcüzə baş verir; Yetim Çoban da, Bozdar da, davar da bir anın içindəcə daşa dönür…

…O gündən o adsız gölə-Yetim Çobanın daşa dönməsinə baiskar olan gölə «Keçiqıran» (keçilər qırılan) göl deyirlər…

## MARAL DAĞI

Başkeçidin Dunus kəndində bir kişi, bir arvad yaşayırdı. Bunlar ər-arvadıydı. Kişi ovçuydu. O, hər gün meşəyə gedirmiş, oradan quş, heyvan vururmuş. Bir dəfə kişi arvadını meşəyə aparır. Ovçu arvadı ilə meşədə bir qədər gəzdikdən sonra



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir bulağın başına gəlirlər. Elə bu zaman onlar bulağın başında bir ana Maral görürlər. Ovçu istəyir ki, Maralı vursun. Arvadı onun əlini tutub saxlayır, qoymur Maralı vurmağa.

Bundan sonra onlar hər gün meşəyə gedirlər. Ana Maral da onların qabağına çıxır. Bir gün ovçu bərk xəstələnir. Daha meşəyə gedə bilmirlər. Ana Maral təşvişə düşür, nigarançılıq keçirir. Ana Maral bir neçə gün də onları gözləyib ovçunun evinə gedir. Gəlib görür ki, ovçu xəstələnib evdə yatır. Maral geri qayıdır. Səhəri gün arvad durub görür ki, qapının ağzında bir qabda süd var. Onlar bu işə çox təəccüblənirlər. Sonra bilirlər ki, bu Maralın işidir. Arvad hər gün südü kişiyə verir. Bir neçə gün belə keçir. Ovçu tamam sağalır.

Bir neçə ildən sonra da arvad xəstələnir. Ana Maral kişiyə necə süd verirdisə, indi də arvada hər gün süd qoyub gedir. Nəhayət, arvad da yaxşılaşıb ayağa durur.

Sonra onlar qocalıb ölürlər. Onları aparıb bir dağın başında basdırırlar. Hər gün ana Maral öz sürüsü ilə bu dağın başına çıxar, məzarların başına dolanıb gedərmiş. Ona görə də bu dağa «Maral dağı» deyirlər.

## MARAL QAYASI

Qədim zamanlarda Borçalı çökəyində çaylaqda bitən sulqun ağaclarından başqa Ermənistanla Gürcüstan ərazisi arasında uzanan Babakər dağları tamam qalın meşəlik imiş.

Burada hər cür heyvan yaşayırmış. Burada gözəl, gur bulaqlar da var imiş.

Mal, heyvan saxlamaq üçün Babakər dağının döşündə kəndlilərin çoxlu yataqları da var imiş.

Kəndlilər qışın sərt gəlməsindən qorxaraq yataqların yanına ot tayaları da yığarlarmış. Vaxt o vaxt olur ki, möhkəm qar yağır, hər yer qalın ağ pambığa qərq olur.

Çöldəki heyvanlar qalın qarda bir yana çıxa bilməyib, batıb qalırlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vəhşi heyvanlar üçün ovu tutmaq asanlaşır. Xırda ov heyvanları qurtardıqdan sonra, irilərin üstünə düşürlər.

Ancaq qoyun, dana, buzov otaran çobanlar həmişə «Maral qayası» deyilən yerdə bir iribuynuzlu Maralın durub ətrafa boylandığını görürlərmiş. Bir gecə qalın qarda ayaq tappıltısına, it hürüşünə çobanlar eşiyə çıxırlar.

Görürlər, buynuzları ağaca bənzəyən iri gövdəli bir maralı yalquzaq qovub haldan salıb, axırda maral qoyun yataqlarına sığınacaq gətirib.

Çobanların səsi çıxan kimi yalquzaq əldən çıxır, itlər sakitləşir.

Maral qış ehtiyat üçün yığılmış ot tayasına yaxınlaşır, yeməyə başlayır. Köpəklər Maralın da keşiyini çəkirlər. Maral üç ay qışı burada yaşayır.

Yaz gəlir, qarlar əriyir. Babakər dağları yaşıla boyanır.

Maral öz örüşünü dəyişir, «Maral qaya»sının qoynunda məskən salır. İstilər düşəndə çobanlar başqa yaylağa yollanır.

Maral Babakər dağının yamyaşıl otunu otluyub sərt bulaqlarının suyunu içib hərdən bir Maral qayasında görünərmiş.

Bu hadisəni Babakər dağının ətəklərində dana-buzov otaranlar görüb el-obaya xəbər verirlər ki, Babakər dağının zirvəsindəki qayanın başında bir maral var.

Cavanlardan bir neçəsi kəhərlərini minib Maral ovuna hazırlaşdılar. Pusquda durdular, xam olduqlarına görə bir əncam edə bilmədilər.

Bir neçə təcrübəli adam da bu cavanlara qoşulub həmin qayanı mühasirəyə aldılar. Maral qayanın başından elə atıldı ki, quş kimi uçub əldən çıxdı. Elə o vaxtdan Babakər dağının zirvəsindəki qayaya «Maral qayası» deyirlər.

## DAŞ ÇOBAN

Borçalı çökəyində qoyun sürülərinin çoxluğu, gümrahlığı ilə tanınan bir çoban var imiş. Yayda yaylaq vaxtı çoban öz sürüsü ilə Başkeçiddəki Qır dağına yollanır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün çoban sürünün arxasınca gedir. Sonra bulağın olduğu yeri unudur, başlayır axtarmağa. Ancaq nə qədər axtarırsa bulağı tapa bilmir.

Həm çoban bərk susuzlayır, həm də sürü. Çoban yalvarır ki, ey Qır dağı, sən buradan bir bulaq çıxar, mən bir ağ, bir də qara qoyun qurban kəsəcəyəm.

Çoban bu sözləri deyəndən sonra baxır görür ki, həmin yerdən bulaq çıxdı. Özü də necə bulaq, gözyaşı kimi durru, buz kimi soyuq. Çoban ilə sürüsü bulağın suyundan içirlər. Amma çoban nə ağ qoyunu, nə qara qoyunu kəsmir. Elə həmin saat çoban da, sürü də daşa dönür.

## QURDDAN ADAMA ZİYAN GƏLMƏZ

Bir gün bir çoban sürüyə baxırmış. Bir də görür ki, o tərəfdən iki qurd gəlir, qorxusunnan tez ağaca çıxır. Qurdlar acıymış. Ollar uluyullar, uluyanda Allah ollara yeməh göndərir. Qurdlar yeməyi üç yerə bölüllər. İkisini yeyib, üçüncüyü çovana saxlayıb gedillər. Çovan bu yeməyi özü yemir, oğlağa verir. Oğlax tez böyüyür, yekə, yağlı keçi olur.

## TƏPƏGÖZLƏ SƏFƏR

Bu tərəflərdə bir ər-arvad yaşayırdı, köhnə zamanlarda. Bunların gözünün ağı-qarası bircə oğulları varıydı. Onun da düz qaşqasının ortasında bircə gözü varıydı. Bir gün bunların kəndində bir şir peydah oldu. Camahata çox əziyyət elədi, hamı başını götürüb qaçdı. Amma bu uşaq yaddan çıxıb qaldı. Onu qaçırda bilmədilər. Bu vaxtlar uşaq üç yaşındaydı, amma böyük adamlardan çox ağırıydı. Elə oldu ki, onu şir tapdı, aparıb yuvasında saxladı. Bir gün bir oyçu şiri vurub öldürdü. Bundan sonra oğlan başladı tək yaşamağa. Camaat onun adına Təpəgöz deyərdi. Bir gün Təpəgöz öz sürüsünü otarırdı. Bunu bir oğlan gördü. İndi sizə bu oğlannan deyim. Bu uşaq elə balacalığından at sürməyi, qılınc çalmağı yaxşı bilirdi. Pəhlivanlığın hər üzünə bələddiyi varıydı. Üç yaşında olanda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yekə pəhlivanlarla güləşərdi. Altı yaşı olanda altı pudluq daşı ovcunda kül edərdi. Atı çiynində gəzdirərdi. Bu oğlan yaxın məmləkətdə yaşayan Əhmədin oğluydu. Özünün də adı Səfər.

Səfər bilirdi ki, Təpəgöz çox ziyankarlıq eləyir. Uşaqları oğurlayıb yeyir. Camahatın mal-qoynunu çöldən aparır. Səfər on altı yaşına dolanda atasından, anasından izin aldı ki, gedib Təpəgözü öldürsün. Hamı da bilirdi ki, Səfər qoçaq adamdı. Oydu ki, buraxdılar. Durub ordan yola düşdü.

Əvvəlcə Səfər bir fikir elədi ki, Təpəgözün gücünü sınasın. Gəlib bunnan qarşılaşdı. Ancaq ki, Təpəgözə nə ox, nə qılınc batmırdı. Səfər burdan durub öyünə gəldi. Çox fikirə getdi, bu fikirnən də gecəni sabah elədi.

Sabah açıldı. Səfər yaraqsız-yasaqsız durub yola düşdü. Gəlib çatdı Təpəgözün məskəninə. Bir qoyun tapıb dərisini soydu, əyninə keçirdi. Ordan durub Təpəgözün sürüsünə qarışdı. Təpəgöz sürüyə qoyun gəldiyini bildi, çox sevindi. Bəli, axşam Təpəgöz qoyunnarı mağaraya yığdı, od qalayıb yıxılıb yatdı. Səfər qoyun dərisini əynindən çıxartdı, kirimişcə bunun yanına gəldi. Ocaxdan bir yekə kösəy götürüb Təpəgözün gözünə basdı. Bu kor oldu, Səfər tez qoyun dərisini geyindi. Təpəgöz nə qədər axtardı onu tapammadı. Savax mağaranın qapısını qaldırıb qoyunnarı çölə ötürdü. Səfər ordan öyə gəldi, atını, yarağını götürüb genə mağaraya qayıtdı. Amma atası ona demişdi ki, Təpəgözün ölümü ayağındandı. Səfər gəlib bunun ayaqlarını xəncərlə doğradı. Təpəgöz ölüb cəhənnəmlik oldu, məmləkətin canı qurtardı.

## ƏZRAYILLA CAVAN

Bir qocanın aman-zaman bir oğlu varmış. Qoca fikirləşir ki, artıq qocalıb, oğlunu evləndirib, ev-eşiyi ona tapşırmaq vədəsi yetişib. Qoca oğlunu yanına çağırıb deyir ki, oğlum, gəl evlən, mülkümüzə yiyə dur. Oğlu deyir:

– Qoy hələ dünyanı gəzim, dostu düşməndən, yaxşını pisdən seçim, sonra gəlim, evləndirin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Atası oğluna məsləhət görür ki, yolda bir nəfərə rast gəlsən, həmin şəxs çörəyin çox payını sənə verib, az payını özü götürsə, deməli, o yaxşı adamdı. Onunla dostluq elə.

Cavan yola düşür. Az gedir, çox gedir, bir də görür ki, bir atlı gəlir. Atlıynan salamlaşır. Hər ikisinin yolu bir səmtə getdiyi üçün birlikdə yola düzəlirlər. Bir az yol gedəndən sonra oturub çörək yeyirlər. Oğlan görür ki, yoldaşı çörəyin böyük hissəsini ona verdi, kiçik hissəsini isə özü yedi. Elə bundan sonra onlar dostlaşıb yollarına davam edirlər. Bir də baxıb görürlər ki, gecə düşüb, şər qarışıb. Yoldaşı oğlana deyir ki, hər ikimiz bir evdə qalsaq götürməzlər, mən burda qalım, sən o biri evə get. Belə də edirlər. Oğlan gəlib bir qapıyı döyür. Ev yiyəsi qonağı qəbul eləyir. Demə bu evdə xəstə yatırmış. Xəstə evdə yad adamın səsini eşidən kimi bir qışqırıq qoparır ki, mən xəstəyəm, siz də qonaq qəbul eləyirsiniz. Bu vaxt oğlan nə görsə yaxşıdı, həmin atlı yoldaşı bacadan düşüb xəstəyə yaxınlaşır, onu boğmağa başlayır. Bunu oğlandan başqa heç kim görmür. Sabahı gün oğlan yenə də yoldaşı ilə birlikdə yola düzəlir. Yenə də onlar bir evdə gecələməli olurlar. Oğlan yenə də xəstəsi olan bir evə pənah gətirir. Bu qoca xəstə oğlanı yaxşı qəbul eləyir. Gecənin yarısında həmin yoldaşı yenə bacadan düşüb qocaya yaxınlaşır, səhər qoca tamam sağalır.Oğlana artıq məlum oldu ki, yol yoldaşı Əzrayıldır. Sabah açılır, yola düşürlər, gəlib bir bulaq başına çatırlar. Yoldaşı deyir ki, atımı tut, bir az su içim. Elə Əzrayıl atdan düşən kimi oğlan sıçrayıb ata minir. Əzrayıl deyir ki, aparma atımı, mən sənə təbiblik peşəsini tapşıraram. Əyər xəstənin ayaq tərəfində dursan, bil ki, sağalacaq. Özün də evlənməməlisən. Mən səni gərdək dalına girməyə qoymaram. Hansı gün evlənsən öləcəksən. Bu sözləri deyib Əzrayıl qayıba çəkilir.

Oğlan qayıdır evə. Ata-anası soruşurlar ki, a bala, indi evlənirsənmi. Oğlan deyir ki, evlənmirəm. Ta qırx yaşına kimi evlənmir. Fikirləşir ki, artıq ömrümün yarısını başa vurmuşam, ölsəm də o qədər yanmaram. Axır ki, evlənməyə qərar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verir. Toy olur. Oğlan gərdəyə yaxınlaşanda Əzrayıl gəlir deyir ki, indi sənin vaxtın tamamdı, gəlmişəm səni aparam.

Oğlanın anası əhvalatdan xəbər tutub deyir ki, mənim canımı al, oğluma heç nə eləmə. Əzrayıl qılıncla anasının boğazını kəsdiyi zaman, anası ağrıya tab gətirə bilməyib deyir ki, kimin dalınnan gəlibsən get, onun da canını al.

Atası deyir ki, mənim canımı al. O, da ağrıya dözə bilmir. Bu vaxt gərdəyin dalından gəlin çıxıb deyir ki, üzü qara evə qayıtmaq istəmirəm, yaxşısı budu mənim canımı al. Əzrayılın gəlinə rəhmi gəlir. Onlara ömürlərindən çox ömur verir.

## İKİ QARDAŞLA O DÜNYA

Kəndlərin birində üç qardaş yaşayırmış. Onlar dinə çox inanırlarmış. Günlərin birində böyük qardaş ölür. Onu dəfn edəndə kiçiklə ortancıl qardaş fikirləşir ki, görəsən o dünyada insanın başına nə işlər gəlir?

Belə fikirlə qəbirin yanından deşik qoyurlar.

Gözləyirlər, şər qarışır, gəlirlər qəbirstanlığa. Qardaşlarının qəbrinin üstünə gəlib deşikdən içəri baxırlar.

Gecənin yarısında hinkirlə-minkir gəlir. Başlayırlar ölünü sorğu-suala tutmağa. Bu zaman Hinkir sağ adamın onlara baxdığını hiss edir, Minkirə xəbər verir. Minkir qardaşların ikisini də içəri salır, soruşur ki, burada nə edirsiniz? Qardaşlar qorxularından titrəməyə başlayırlar. Hinkir kitabını açıb deyir ki, sizin vaxtınız tamam deyil, hələ yaşayacaqsınız, ancaq belə iş tutduğnuza görə ömürlük cəza alacaqsınız. Belə deyib hər ikisinə sillə vurur. Qardaşlar gözlərini açanda özlərini evlərində görürlər. Güzgüyə baxanda görürlər ki, ikisinin də ağızları qulaqlarının yanına gedib.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## III. İNANCLAR - İNAMLAR

- Əgər güclü qara yel əsərsə, anasının ilki olan uşaq köhnə süpürgəni götürüb dirəyə bağlayıb desə ki, – A yel, səni bağlayaram, əl-ayağını dağlayaram – onda yel kəsər.
- Qara yel əsib gözünə toz-torpaq doldursa, gözünü qırpma, baş barmağını gözüyün üstünə qoy, üç dəfə sığa, de: – Qumsan qoyrul çıx, çöpsən çöyrül çıx – gözünə nə dolubsa çıxacaq.
- Göz dəyməsin deyə evin bir küncündən tikan asarlar.
- Təzə gəlin evə gələndə qucağına körpə oğlan uşağı qoyarlar ki, oğullu-qızlı olsun.
- İlaxır çərşənbədə duzlu kömbə yeyib yatan oğlan istədiyi qızı yuxusunda görər. Əgər oğlan yuxudan oyanıb balışı tərsinə qoyursa, qız da oğlanı yuxusunda görər.
- Xananı toxuyub qurtarandan sonra fikrində tutduğun boylu (hamilə) arvadın nəyi olacağını bilmək üçün xananın orta ağacını paçaşırma at kimi minib küçəyə çıxarlar. Qarşına oğlan (qız) , kişi (arvad) çıxmasından asılı olaraq, həmin arvadın oğlu və ya qızı olacaq.
- Gərək başını yuyanda, ayağını da yuyasan, yoxsa ayaq başa qarğayar.
- Göz yol çəkəndə qonaq gələr.
- Kəsilmiş heyvanın başını bişirəndə onun gözlərinin yağını bir adam yeməlidir. Əgər gözün yağını ayrı-ayrı adamlar yesə onda həmin adamlar bir-biri ilə yola getməyəcək, həmişə dalaşacaqlar.
- Yuxuda at görmək murada yetməkdir.
- Fırnıdan bişib çıxan təzə çörəyin ilkini qırıb itə atarlar ki, evin (ailənin) azar-bezarı, ağrı-acısı onunla getsin.
- Körpə uşağa quş (sərçə) əti yedizdirərlər ki, dili tez açılsın.
- Körpə uşağı bədnəzər adamların nəzərindən qorumaq üçün gözmuncuğu bağlayarlar.
- Əlləri sinədə çal-çarpaz qoymaq olmaz. Bu pis əlamətdir,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bədbəxtlik üz verər.

- Bədnəzər adamın xəbəri olmadan paltarından kəsib yandırmaq və tüstüsünü nəzərlənmiş adamın burnuna tutub sonra başına dolamaq lazımdı.
- Qarğışın iki başı var: biri qarğış eyləyənin, o biri isə qarğış olunanındı. Kim günahkardır onu tutur.
- Nişanlı oğlan və qızın paltarından muğayat olarlar ki, bədniyyətlər, gözü götürməyənlər paltarın parçasından, sapından əməl (cadu) edib bəxtini bağladarlar.
- Əli (şilləsi) ağır olan oğlan dul arvada, qız isə dul kişiyə urcah olar.
- Göz dəymiş, nəzərə gəlmiş adamın başı üstündə üzərlik yandırıb tüstülədərlər.
- Evə təzə mal-qara alıb gətirəndə damdakı malları eşiyə çıxardarlar. Təzə mal dama bağlanandan sonra o biri malları yerinə bağlayarlar. Ona görə belə edərlər ki, təzə malın ayağının düşəri-düşməzi olar.
- Təzə qazılan qəbirə yağış düşərsə, el-obada yenə adam ölər.
- Körpə, südəmər uşağın üstünə duası olan adam girməməlidir. Gərək uşağı otaqdan çıxardıb, həmin adam evə girəndən sonra, uşağı geri otağa gətirmək olar.
- Gecə evə süpürgə çəkmək olmaz, evin bini-bərəkəti uçar. Süpürməli olanda «toy evi süpürürəm» deyilməlidir.
- Ocaqda bişən süd daşıb tökülərsə, onun üstünə duz atarlar ki, inəyin yelini şişməsin.
- Cöyüz (Qoz) ağacını cavan adama əkdirdməzlər ki, ölər. Ona görə də həmin ağacı qocalar basdırar.
- Ailəyə, evə göz dəyməməsi, bədnəzərdən uzaq olması üçün darvazanın qapısına, açıq tərəfi yuxarı durmaq şərti ilə at nalı vururlar.
- Yağış günlərlə kəsməyəndə sacayağını tərsinə çevirirlər ki, yağış tez kəssin.
- Boylu (hamilə) qadının yanaqları qızararsa, cəld davranarsa oğlu, üzünə ləkə düşərsə, ləng davranarsa qızı olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Dəsmalı (yaylığı) bir-birinə pay vermək, bağışlamaq olmaz, çünki yaylıq ayrılıqdır.
- Gözdən öpmək ayrılıq əlamətidir.
- And içilmiş çörək parçasını yeməzlər, günahdır.
- Vaxtsız banlayan xoruzu kəsərlər ki, qada-bala sovuşsun.
- Əldən düşüb sınmayan şüşəni mütləq sındırarlar ki, evdə ziyanlıq olmasın.
- Gəlin köçən qızın cehizi yüklənən vaxtı arasından keçmək olmaz. Əgər cehizin arasından keçilərsə gəlini uğursuzluqlar gözləyir.
- Ölü (yas) yerində ağlamış adam üzünü, yaylığını həyətə girməmiş çöldə bir əli ilə yumalıdır.
- Quşların dəstə-dəstə o yana, bu yana uçması tezliklə yağışın yağmasından xəbər verir.
- Çörək bişirən qadın yoldan keçən adama çörək yeməyi təklif etməsə, günah qazanır. Təklif olunmuş çörəkdən bir qismət yeməsə, həmin adam da günah qazanır.
- Çöldə ağacın altında, xüsusən də dağdağanın altında tənha yatmaq olmaz, vurğun vurar.
- Körpə uşağın qulağı ağrıyanda kirli qoyun yununu, kirli pambığı ağrıyan qulağın üstünə qoyarlar.
- Tez-tez ağlayan, yuxusunda çığıran və səksənən körpə uşağın qorxuluğunu götürərlər. Bunu həftənin çərşənbə (üçüncü) günü, axşamüstü mal ayağına (naxır çöldən cələn vədə) edərlər.
- Səfərə çıxan adamın dalınca qara daş atılsa, səfər boyu həmin adamı uğursuzluqlar gözləyır.
- Hıçqıran adama hıçqırığını kəsmək üçün şər atıb deyirlər ki, nəsə oğurlayıb.
- Yerə düşən çörəyi götürüb üç dəfə öpüb gözünün üstünə qoyan adamın ruzusu bol, bərəkətli, artıq olar.
- Evdə fışqırıq çalmaq olmaz, evin bərəkəti yel kimi uçub gedər.
- İlaxır çərşənbədə küsülülər barışmasa, onların küsülülüyü yeddi il davam edər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Boylu (hamilə) qadın taxıl, qarğıdalı qovurğası yesə doğulan uşaq dəcəl, dovşan əti yesə, doğulan uşağın üst dodağı yarıq olar.
- Hamilə qadın hər gün saçını uzun müddət sığallayıb darayarsa qızı, üzünü sığallayarsa oğlu olar.
- Yuxuda ağlamaq gülməkdir.
- Övladı ananın qarğışı tutmaz, lakin atanın qarğışı tutar. Ana südü qarğış keçməyə qoymaz.
- Evə təzə gəlin köçəndə ayağı altında bölmə (nəlbəki), boşqab qırdırırlar ki, evin qada-balası bununla getsin.
- Pişik əl-üzünü «yuyursa» evə qonaq gələcəyindən xəbər verir.
- Evdə hörümçək sallanarsa, yaxın, doğma adam qonaq gələcək.
- Təzə bişmiş fırın (təndir) çörəyini bıçaqla kəsmək günahdır.
- Şər qarışanda dırnaq kəsilməz.
- Dərindən köks ötürüb ah çəkəndə deyərlər: "Ahın dağlara".
- Təzə bişmiş fırın çörəyi ocaqda qızdırılarsa, çörək bişirən naxoşlayar (xəstələnər).
- Yediyin qabda xörək əyləsən, nişanlın çirkin və deyingən olar
- Yağış yağanda əlini yağışın altında tutsan qırx gün yağış kəsməz.
- Qaşıq yerə düşəndə kişi, çəngəl düşəndə arvad qonağı gələr.
- Axşam düşəndən sonra evdən pul verməzlər, evin varı, dövləti gedər.
- Süfrəyə duz calansa, üstünə şəkər qoyallar ki, dava düşməsin.
- Xamırın xaşını, qatıq çalmağa çalasını öz tayfanın evindən alsan mayan qarışmaz, təmiz olar.
- Bellə baltanı bir yerə qoymazlar.
- Təzə diş çıxaran uşağın adına lobya, buğda, noxud və s. qarışığından hədik bişirər, qohum-qardaşa paylayarlar.
- Yuxuda ayaqqabı geymək darlıqdır.
- Çöldə heyvanı qalan adam bıçağın və ya qayçının ağzını parça ilə sarısa, «qurdağzı» duası oxusa heyvan, qurda-quşa rast



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlməz.

- Qaynar suyu yerə tökmək günahdır, məleykələrin balalarını yandırar. Gərək «Bismillah» deyəsən.
- Yuxuda kimsə özünün öldüyünü görsə, ömrü uzanar.
- Bədnəzər adamı görəndə yan tərəflərini, oturacağını qaşısan bədnəzərə gəlməzsən.
- Hər öyə sarımsaq əkmək olmaz, düşəri-düşməzi olur.
- Səhərlər dan yeri qızarsa yağış yağar, axşam qürb yeri qızararsa, səhər gün qızmar keçər.
- Qaranquşun evdə yuva salması xeyir əlamətidir.
- Süpürgəni yandırmazlar ki, yel əsər.
- Göy otu yandırmazlar ki, yağış yağar.
- Şər qarışandan sonra dırnaq kəsməzlər, bədbəxtlik üz verər.
- Odla oynayan uşağı gecə şeytan aldadar.
- Qayçının ağzı açıq qalanda evdə dava olar.
- Başqasının üstünə əsnəmək olmaz.
- Qəbrin üstünə su çilədikdə ölünün ruhu dirilir.
- Gecə cırcırama oxuyarsa, deməli səhərisi gün hava isti olacaq.
- Qonşudan alınan dava-dərman əvəzinə şirin şey verməlisən ki, qonşu ağrı-acı görməsin.
- Şər düşəndən sonra körpə uşağı evdən eşiyə çıxardanda qoynuna çörək qırığı qoyub «Bismillah» deməlisən ki, körpəyə cin-şeytan toxunmasın.
- Sökülmüş paltarı üstündə tikdirən adam ağzına çöp almalıdır ki, şərə, böhtana düşməsin.
- Suda çimən adam lap axırda bir-iki dolça suyu başından tökə-tökə belə deyir: «Agırlığım-yorğunluğum dağdakı daşlara, göydə uçan quşlara, ilxıdakı atlara getsin.
- Dilinin ucuna bənd düşən adam özündən kiçiyə üç dəfə «Dilimə bənd düşüb», o biri adam isə «Tüpür yerə düşsün» - desə o bənd düşər.
- Yuxunu söyləməzlər. Söylənəndə də axar suya söylənilər.
- Xeyirli, xoş əhval-ruhiyyəli yuxuları söyləməzlər ki, yuxu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çin olsun.

- Beşiyi, yüyrüyü boş yırğalasan körpə uşaq xəstələnər.
- Körpə uşağın bədnəzərə gəlməməsi üçün körpənin üstünə göz muncuğu, rənglənmiş xüsusi dağdağan ağacının qırığını asırlar.
- Bulaqda su dolan qabı yarımçıq qoyub üstündən su içsən bəxtin bağlanar.
- Şər vaxtı qapının sivəsində (ağzında) oturmaq və ya durmaq pis əlamətdir, evdə bədbəxtlik olar.
- Yuxusunda qorxan körpə uşağın başının altına çörək parçası qoyarlar.
- Evdə şirinlik olması üçün ilaxır çərşənbədə süfrəyə şirniyyatlar qoyarlar.
- İlaxır çərşənbəni hansı əhval-ruhiyyədə keçirərsənsə il boyu günlərin həmin əhval-ruhiyyədə olar.
- Çörəyi süfrədə tərs qoymaq günahdır.
- Yemək vaxtı stolun küncündə oturan adama bədbəxtlik üz verər, arvadı ölər.
- Söhbət edən iki-üç nəfərin arasından keçsən şərə düşərsən.
- Təzə nişanlanmış qız sağ əlini hansı ərgən qızın başına çəksə, həmin qızın bəxti açılar.
- Kəsilmiş saçı yerə atmazlar və tapdalamazlar, çünki saç tapdalansa həmin adamın başı ağrıyar.
- Göy guruldamamış quzqulağı, soyzunu, yemliyi, qulançarı və s. yemək olmaz.
- Stol süfrəsini çırpsan evin bini-bərəkəti gedər.
- Qazanın dibini qazıyan qızın və ya oğlanın toyunda yağış və ya qar yağar.
- Başqasının üstünə əsnəmək olmaz.
- Qəbrin üstünə su çilədikdə ölünün ruhu dirilir.
- Gecə cırcırama oxuyarsa, deməli səhərisi gün hava isti olacaq.
- Yazda göy gurullamamış nə qulunçar, nə də heş bir pencər yeyilməz. Göy gurullayanda uşaxlar bir yastı daşı, ya da kərpic qırığını başına qoyuf, bir əyəğinin üsdündə hoppa-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

na-hoppana deyir:

*Tişim-başım ağrımasın,*
*Tişim-başım ağrımasın.*
*Bizimkilər ölməsin,*
*Düşmənlərin biriciyi də qalmasın.*

• Hal anası zahı arvadın ciyərin çıxarıp aparır, suya salan kimi zahı ölür. Ona görə gərəh zahı heş vaxdı təh qalmasın.

Uşax doğulan kimi bir şiş götürüp zahının dört tərəfini cızığa alıllar. Zahının yaxasına iynə, sancax taxıllar. Şişinən cızanda bir nəfər soruşar ki, neynirsən?

Şişinən cızan da deyər ki, zahıya otax tikirəm. Soruşan da deyər ki, Allah mübarək eləsin.

Sora şişi qoyallar zahının yanına. Zahı eşiyə çıxında bı şişi əlinə alar ki, bizdən yeylər ona toxumasınnar.

• Uşağı gözdəymədən, nəzərdən qorumaq üçün üzərrik yandırıllar. Üzəriyi yandıranda deyillər ki:

*Çıxdım Savalan dağına,*
*Çağırdım ya Əli, ya Məhəmməd!*
*Dedi nədir fağır beçarə?*
*Dedim, nədi bu dərdə çarə?*
*Dedi, kollu-koslu üzərrik,*
*Başı börklü üzərrik!*
*Üzərriksən havasan!*
*Yetmiş dərdə davasan!*
*Tökürəm səni oda*
*Göstər hökmünü üzərrik.*
*Bir, iki, üç, dörd,*
*Çırtdasın, pırtdasın,*
*Yaman gözdər pırtdasın.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# IV. ATALAR SÖZLƏRİ, MƏSƏLLƏR VƏ DEYİMLƏR

**A**

- Ağac kökündən su içər.
- Ağac əyilib sınar, insan əyilib ölər.
- Ağacdan maşa, ermənidən paşa olmaz.
- Ağıllı düşünənə qədər dəlinin oğlu olur.
- Ağıllı qoca arısından danışar, ağılsız qarısından.
- Ağılsız adam hamını özünə borclu sayar.
- Ağzın yeyən aşı gözün tanısın.
- Adam dəlidən utanmasa da, dəlinin yiyəsindən utanar.
- Adama yad yağlı gündədi, qohum dağlı gündə.
- Allah dağına baxıb qar verər, bağına baxıb bar verər.
- Alqışın dibi yağdı, qarğışın dibi qan.
- Aldı sazı çiyninə,
  Qurban məzhəb-dininə.
- Alma budağından yan düşməz
- Ana arı – yana arı.
- Analı qızın özü böyüyər, anasız qızın sözü.
- Arvadərini rəzil də edər, vəzir də.
- Arvad tufanı başlayanda Nuhun tufanı yaddan çıxar.
- Arvadsız ev - urvatsız ev.
- Arpa döyüləm at yeyə, kəpək döyüləm it yeyə.
- Ac qarnım – dinc qarnım.
- Aşığı olan obanın qaşığı yağlı olar.
- At ölür tayı qalır, namərdin nəyi qalır.
- At görəndə axsayır,
  Su görəndə susayır.
- Ata hərəkət,
  Qamçıya bərəkət.

**B**

- Balıq deyər: qarnım dolu sözdü, ağzım dolu su.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Bağban əli dəyməyən bağı alaq basar, qadın əli dəyməyən evi qəm-kədər.
- Ballı pətək –
  Dadını görək.
- Barama qurdu nədi, tor qurdu durdu nədi.
- Başdakı su sulayır, ayaqdakı balıq tutur.
- Başı başına, başmağı ayağına.
- Bir gün duz yediyin yerə qırx gün salam ver.
- Bir qazannan ki, sana pay yoxdu, qapağını qaldırma, qoy yansın.
- Bir malın maşında sahibi gərək, oğlu da deyil, babası gərək.
- Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar.
- Böyük - buyruqda, kiçik - qulluqda.
- Bugünün işini sabaha qoyma.
- Buxarının əyriliyinə baxma, tüstünün düz çıxmasına bax.
- Bulud altdan çıxan gün,
  Yamşaq altdan çıxan dil.

**Ç**

- Çaqqal var, gödən sökür, qurdun adı bədnam.
- Çağrılan yerə ərinmə, çağrılmayan yerdə görünmə.
- Çağrılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə.
- Çayın daşı, çayın quşu.
- Çivin murdar deyil, ürək bulandırır.
- Çıra-şam öz dibinə işıq salmaz.
- Çoban var aparıb-gətirir, çoban var otarıb gətirir.
- Çoban çomağını götürəndə suçlu suçunu boynuna alar.
- Çobanın çomağını dadan bilər.
- Çöldə yüzüm ölsün, evdə birim ölməsin.
- Çörəyi bıçaqla kəsməzlər, əllə bölərlər.

**D**

- Dazın daza baxdığı, dazın da naz atdığı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Dağda bitər kəkotu, ağzının ipini çək otu.
- Dəyirman tozsuz, ev sözsüz olmaz.
- Dəli durar, dam yıxar.
- Dəmir nəmdən, insan qəmdən çürüyər.
- Dərədən keçəndə at dəyişdirilməz.
- Dəryada sijim ola, çəkməyə güjüm ola.
- Dişin varkən malını ye.
- Dovşanın qaçdığını gördüm, ətinə tova (tövbə) dedim.
- Dölü düz olanın yolu da düz olur.
- Dumanlı qışın telli yazı olar.
- Düyüsünü əkməyənə aş düşməz.
- Dünya kimiyə alın qırışları, kimiyə boyun qırışları bəxş edər.

**E**

- Ev yiyəsinin işinə qarışan qonaq urvatını itirər.
- Evin yaraşığı uşaq, süfrənin yaraşığı qonaqdır.
- El əlindən gül dərmə, öz əlinnən dikən yol.
- Elini lağa qoyanın öyünə lağım qoyarlar.
- Ellərə usta, bizə xəstə.
- Elti əyrisi – balta əyrisi.

**Ə**

- Əl ver mənə – gəldim sənə
- Ələ də yetər, Əlləzə də.
- Əsaya söykənib gəzən bir qocaya bəzən bir el söykənər.
- Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş.
- Ət yeyən quşun dimdiyi əyri olar.
- Ət yeyən də, ot yeyən də yaza bir çıxar.
- Əti yeyilmir, gönü geyilmir – insan insana yağı kəsilib.
- Əppək eldən, su göldən.

**G**

- Gedər bostan urası, qalar üzün qarası.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Gəlin mənnən yaşınır, səsi dağlar aşırır.
- Gəlini gərdəkdə öyrət, küçüyü yedəkdə.
- Gördüyünü qoyub görəcəyindən yapışma.
- Günəş istiləşəndə yağış gətirər, arvad istiləşəndə qarğış.
- Gül istəyən tikanını da istər.

**H**

- Harda toydu, orda gəlindi.
- Hər almada çiyid olur, hər çiyiddən alma olmur.
- Hər quşa öz yuvası,
  İnsana vətən havası.
- Hər kəsin çəki ilə çörəyi, sayı ilə günü var.
- Hərə bircə tük versə, keçəlin də saçı olar.
- Hərə öz evinin qibləsini bilir.
- Ho var dağa qaldırar, ho var dağdan endirər.

**X**

- Xeyir dilə qonşuna, xeyir gəlsin başına.
- Xəlbir sudan nə çıxarar?

**İ**

- İki həkimi olan xəstə sağalmaz.
- İnəyini yekə yox, iki istəyirsənsə yonca ək.
- İtdən çox çarıx daşıyan yoxdu, həmişə də ayağı yalındır.
- İti tox olanın balası ürəkli olar.
- İtin alxışı qəbul olunsa, göydən basdırma yağar.
- İtinki əppəkdi.

**K**

- Kasıbın sacı qızanadək kündəsi qurtarar.
- Kasıbın loxması şirindir.
- Kasıbın işi varlının pulunu hesablamaq olar.
- Keçidən dövlət, toyuqdan bərəkət olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Kəkotu, kəklikotu, yerini dəyiş, bərk otu.
- Kor nə istər – iki göz, biri əyri, biri düz.
- Kövşən basdı qışdı, qar basdı yazdı.
- Kirvə kirvənin damına çıxmaz ki, torpaq tökülər.
- Kişi seldi - aparar, arvad çəpərdi saxlayar.
- Kişilərin özü gəlməz, sözü gələr.

**Q**

- Qadınsız ev tumarsız olar.
- Qayınana xaşıl qabını gəlininə, xəngəl qabını qızına yudurar.
- Qara məni basınca, mən qaranı basım.
- Qarğa nədi qazığı nə ola, pirə nədi büzüyü nə ola.
- Qarnımnan çıxıb qada, kimə gedim dada.
- Qaçağa nə yümək, nə yemək.
- Qaçağı el saxlar.
- Qaşıq çömçədən böyük olub.
- Qız dil anası yox, el anası olmalıdır.
- Qız öyündə toydu, oğlan öyünün xavarı yoxdu.
- Qızı verdin mala,
  Mal getdi, qız qaldı lala.
- Qoçaq gəlinin iti kökələr, tənbəl gəlinin pişiyi.
- Qoçağın yanında qorxaq kişidən, qorxağın yanında qoçaq kişidən qeyrət gözləmə.
- Qodux oynuyan gün qar yağar.
- Qonağı evə qoyan yoxdu, yarağını yeddi yerdən asır.
- Qonşu iti qonşuya hürməz.
- Quzunu yaxşı bəslə, səni var-dövlət səsləsin.
- Quru süfrəyə dua olmaz.

**M**

- Mayıs ayı – vayıs ayı.
- Mal başından, insan dilindən bağlanar.
- Martda mərək,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Apreldə gərək,
Mayda bir xortum otun gərək.

- Meydan qalıb əyriyə, həm yeyə, həm səyriyə.
- Mən sənin qırına bulaşa bilmərəm.
- Məni atının tərkinə almayanı, heç itimin də tərkinə almaram.
- Mənzil istəyənin kərəntisi iti gərək.
- Məscidin qapısı açıqdı, itin namusuna nə gəlib?
- Min tümən nağdı pulun olsa, alışmadan qalma.

**N**

- Nə zalım ol asıl,
  Nə fağır ol basıl.
- Nə düyənin ağınnandı, nə buğanın yağınnan.
- Nə işimiz işdi, nə əlimiz boşdu.
- Nə ərdəndi, nə yardandı.
- Nəhrə çalxa yağ olsun,
  Balam yesin sağ olsun.

**O**

- Odunu beş qoy – gözünü deş qoy.
- Oğlanı qara bələ, qızı qora.
- Oğul atanın köşənini əkər.
- Oğu-oğuz oymaram, yağı gələ-gələ qoymaram.
- Oldu, bir də öldü – bunlara çarə yoxdu.
- Ölü yerdə qalmaz, xana darda.

**Ö**

- Övlad atadan yox, anadan yetim qalar.
- Özgənin danasını bağlayanın çatısı əlində qalar.
- Özü eşşək, tükü məxmər.
- Ölü yerdə qalmaz, xana darda.
- Övlad gərək gədə tərbiyəsi yox, dədə tərbiyəsi görə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**P**

- Paltar boya biçilər, boy paltara yox.
- Pəhlivan güləşdə bəlli olar.
- Pis olmasa yaxşının qədri bilinməz.
- Plovun yağdı, üzün ağdı.

**S**

- Sabah saz ilə, axşam naz ilə.
- Saxladığın səninki deyil, payladığın səninkidi.
- Sel tutan yerin şırımları əskik olmaz, qəm tutan üzün qırışları.
- Sərxoş sözü ilə gələn qonaq ya ac qayıdar, ya peşiman.
- Səhər naxıra – axşam axura.
- Siftə səndən, bərəkət Allahdan.
- Siçandan əmələ gələn kəsəyən olar.
- Söyüşməyin axırı dalaşmaq olar.
- Susamışam su istərəm,
  Arxın qulağını göstərir.
  Acmışam yemək istərəm,
  Təhnə tavağını göstərir.
- Südlü inək vurağan olar.
- Südlü qoyun sürüsündən bəllidi.
- Süfrədə yerini bilməyən yersiz qalar.

**Ş**

- Şah yanında şadlıq olmaz.

**T**

- Tava dəlik, tas dəlik,
  Yağ da getdi üstəlik.
- Tale kimiyə alın qırışları, kimiyə boyun qırışları bəxş edir.
- Tatın nəyi var, kürdə nə verə.
- Təmiz işdən gül iyisi gələr.
- Tələsiyən ördək suya arxasından cumar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Təntimiş köpək süpürülmüş yerdə oturar.

**U**
- Ucuz ətin ucuz şorbası olar.
- Urvan məndən olmasa, kündən küt gedər.

**Ü**
- Üz qoy ki, üzüm dərəsən.

**V**
- Var əli – Kərəm Əli, yox əli vərəm Əli.
- Vurmadığı ondan bəllidi ki, ağacın yekəsini götürür.

**Y**
- Yada əppək verdik – balığımıza balıqçı, balağımıza balaqçı oldu.
- Yayın yaxantısı qışın yavanlığıdır.
- Yaman yeyənin olsun, yaman deyənin yox.
- Yanan da anadı, yaman da.
- Yaxşı insan gördüyünü, pis insan eşitdiyini danışar.
- Yaxşı arvad biri iki, pis arvad ikini heç edər.
- Yas yiyəsi kiridi, yasa gələn kirimədi.
- Yatan aslandan gəzən tülkü yaxşıdır.
- Yedin-dadındı, verdin-adındı, yığdın-yadındı.
- Yemək adamı iki eləməz, yekə eyləyər.
- Yeməknən geyinmək olmasa, adam xan kimi dolanar.
- Yeriyənə yumax qoşur.
- Yekəliyinə baxma, içinin otu yoxdur.
- Yetim yarımaz, yarısa da qarımaz.
- Yetimə ürək verən çox olar, yemək verən yox.
- Yetimi döyəcəyindən üstünü cır.
- Yetimin günü batsın; üz görəndə irəli durar, üz görməyəndə geri.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# V. RƏVAYƏTLƏR

## QATAR QAYA

Rəvayətə görə Başkeçiddə bir çoban yaşayırmış. Sürünü güneylərə yayıb tütəkdə yanıqlı havalar çalarmış. Hər dəfə də dağ başına çıxanda gücü çatan bir qayanı çevirərək qulaqlarını qayanın altındakı torpağa dirəyib dinləyərmiş. Bir dəfə niyə belə etdiyini soruşurlar. Çoban deyir ki, buralar vaxtı ilə ər igidlər oylağı olub. Hər sal qayada bir igid hayqırtısı, bir igid nərəsi, bir köhlən kişnərtisi yatır. Sonra çoban aşağıdakı əhvalatı danışır.

Gəyliyən kəndində öz alın təri, qabarlı əlləri ilə dolanan, halal tikəsini ellə, oba ilə bölən Zaman adlı bir kişi yaşayırmış. Övladları – beş oğul, bir qızı da atası xasiyyətdə böyümüş, el-obanın hörmətini qazanıblarmış. Qızı Çiçək öz gözəlliyi ilə təkcə kəndlərində deyil, ətraf mahallarda da şöhrət tapıbmış. Bu gözəlliyin sorağını alan, fələyə baş əyməyən bir yadelli qıza sahib olmaq üçün min fitnə-fəsad işlədirsə də mümkün olmur. O, zor gücünə məqsədinə çatmağı qərarlaşdırır. Güclü qoşunla hücuma keçir. El-oba ayağa qalxır, elin mərd ürəkli, aslan biləkli oğulları döyüşə atılır. Qan su yerinə axır. Kəndin bütün igidləri qırılır. Beş yaralı qardaş qatarlaşıb sədd yaradırlar. Düşmən oxu onlara batmır, düşmən qılıncı şil-küt olub tökülür. Yadellilər bu səddi keçə bilməyib kor-peşiman geri qayıdırlar. Sən demə qardaşlar daşlaşıblarmış. Elə o vaxtdan da bu daş bədənli, insan ürəkli qayalara " Qatar qayalar" deyirlər.

## QARA QAYA

Yenicə yurd salmış Saraclıya uzaq ellərdən çoxlu adam gəlir. Elat böyüyür. Belə köçlərin birində Qara adında bir oğuz oğlu and içir ki, qayalığa çıxıb köçəriləri qoruyacaq, onlar yurd-yuva sahibi olmayınca ordan enməyəcək. Onun qorxusundan heç kim Oğuzlara hücum edə bilmir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün səhər camaat Qaranın səsinin gəlmədiyini bilib qayaya tərəf üz tutur. Onlar gəlib görürlər ki, Qara qayaya dönüb. Elatın həmişəlik qarovulçusu olub. Saraclının üst tərəfindəki yekə qaya elə o vaxtdan da Qara qaya adlanıb.

## GƏLİN GÖLÜ

Deyilənlərə görə, Armudlu kəndi yaxınlığında olan gölün yerində bir kənd varmış. Bu kənddə olduqca gur suyu olan bulaq da varmış. Bu bulağın suyu bütün kəndi basa bilərmiş. Yerli əhalinin bundan xəbəri vardı.

Kəndə başqa yerdən bir gəlin köçürürlər. Gəlin gecə su apararkən bulağı bağlamır. Səhərə qədər bulağın gur suyu bütün kəndi basır.

İndi həmin bu kəndin yerində böyük göl yaranıb. Bir zamanlar bu gölə "Gəlin gölü" deyiblər. Deyilənə görə, o gəlinin gözəlliyi bu gölə keçibdi.

## ELÇİ DAGI

Deyilənə görə, çox qədim zamanlarda Başkeçid kəndlərindən birində belə bir adət varmış: Qız həddi-buluğa çatanda onu elçi dağına çıxardarlarmış, kənd camaatı tamaşaya yığılarmış. Qızı orda bəyənsələr axşam elçi gələrmiş.

Bu kənddə Xanpəri adında bir gözəl qız varmış, heç özünə sığışdırmayırmış ki, o dağa çıxsın. Ona görə də onu alıb-satan yox imiş. Günlərin bir günü qohum-qonşu yığışıb qızı danlaya-danlaya dağa çıxardırlar. Bu iş qıza çox ağır gəlir, fikirləşir ki, hələ mənnən sonra nə qədər qızı bu dağa çıxardacaqlar. Qız baxır ki, bütün kənd yeriyib, hətta ətraf kəndlər də. Çünki çox maraqlı idi, qızı zorla çıxarmışdılar. Odur ki, Xanpəri bir sağa boylanır, bir də sola, başlayır oxuya-oxuya oynamağa:

Qız oğlana bənd olar,
Elçi gələr, qənd olar,
Ağıllısı-dəlisi var,
Belə viran kənd olar?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çıxdım elçi dağına,
Sarıldım torpağına,
Kəndimizə daş yağsın,
Deyin ağsaqqalına.

Deyillər o gündən bu adət götürülür. Xanpəri nağıllaşır.

## BABAKƏR VƏ DAVID QARECA ÇÖLÜ

Davıd Qareca çölü öz adını 562-ci ildə xaçpərəstliyi yaymaq üçün Suriyadan Gürcüstana gəlmiş Müqəddəs atalardan biri olan Davıdın adından alıb. Müqəddəs Davıd əvvəlcə Msxetada, sonra isə Tiflisin qərbində, İmitru (Şeyx Sənan) dağında öz əli ilə tikdiyi daxmada yaşayır. Burada onun üzərinə şər atırlar. Müqəddəs Davıd Allahın köməkliyi ilə öz suçsuzluğunu sübut etsə də, insanlardan ürəyi dönür və özü-özünü həmişəlik onlardan ayrı, tək-tənha, yalqız ömür sürməyə məhkum edir. Bunun üçün o yaşadığı yeri tərk edir.

Müqəddəs Davıd öz şagirdi Lukyan ilə birlikdə axtardığı sakit, insanlardan uzaq münasib yeri bozqırlı Qarayazı təpələrində bulur. Onlar burada özləri üçün yeni bir daxma tikirlər. Uzun müddət otlarla və bitki kökləri ilə qidalanırlar, susuzluq yanğılarını isə yağış suyu ilə söndürürlər. Rəvayətə görə, aclıqdan zəifləyib əldən-ayaqdan düşdükdə onlara üç ana maral yaxınlaşır. Müqəddəs Davıd Lukyana marallardan hər ikisini doyduracaq qədər süd sağmağı tapşırır. Bundan sonra marallar onların daxmasından aralanmırlar. O zaman Gürcüstanda Kürün sağ tərəfində yaşayan türklərin Babakər adlı rəisi və ya vəkili Qarayazı təpələrində ovda olarkən, təsadüfən Müqəddəs Davıdın daxması olan çuxura enir və yaxın məsafədə daş üstündə bir kəklik görür. O dərhal özü ilə bir yerdə olan qırğını kəkliyin üstünə buraxır. Kəklik yırtıcı düşmənindən xilas olaraq Müqəddəs Davıdın daxmasına qonur. Babakər kəkliyin ovlandığını təxmin edib daxmaya tərəf getir və onun içərisinə daxil olanda çox heyrətlənir. O daşın üstündə oturmuş mötəbər görkəmli bir insan və bu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

insanın ayaqları altında ona başı aşağı şəkildə, qanadları düşük halda qırğıdan xilas olmaq üçün yalvarırmış kimi təsir bağışlayan kəkliyi görür.

Müqəddəs Davıdın Tiflisdə, hamının gözü qarşısında ona şər atan qızla bağlı öz suçsuzluğunu sübut etmək üçün etdikləri barədə yuxarıda demişdik. Bu əhvalat onu bütün Gürcüstanda şöhrətləndirmişdi. Babakər də onu görən kimi tanıyır və dərhal diz üstə çöküb göz yaşları içində ölüm ayağında olan tək oğlu üçün Allahdan mərhəmət diləməsini xahiş edir. Müqəddəs Davıd ona belə cavab verir: «Əgər sən mənim Allahıma şübhələnmədən və tam ürəklə inanırsansa, evə qayıdanda oğlunu bütün xəstəliklərdən uzaq görəcəksən».

Ağıllı Babakər inandığı ehkamların səhv olduğunu çoxdan başa düşmüşdü və gizlicə ürəyində təkallahlılığa inanırdı. Ona görə də Allaha tam səmimiyyətlə inanır. Bol ümidlərlə kefi kök halda o öz evinə qayıdır və qapıdaca tam sağlam vəziyyətdə onu qarşılamağa çıxan yeganə oğlunu sevnclə bağrına basır. O göylərin möcüzəsini öz üzərində sınamışdı. Ona görə də heç bir tərəddüd etmədən ailəliklə xristianlığı qəbul edir və ömrünün sonuna qədər bu dinə qulluq edir …

Ölümündən bir az qabaq Müqəddəs Davıd Allaha səcdə etmək üçün Qüdsə səyahət edir. Oradan qayıtdıqdan sonra öz daxmasında vəfat edir və elə oradaca torpağa tapşırılır…

Babakər Müqəddəs Davıdın ölüm xəbərini eşidib öz xərci hesabına onun daxmasını kiçik bir kilsəyə çevirir. Sonralar bu kilsə bir neçə dəfə böyüdülür və indi Davıd Qareca çölünün ən əsas və böyük məbədidir.

## KASIB KİŞİ İLƏ MUSA PEYĞƏMBƏR

Keçmiş zamanlarda bir kasıb kişi var imiş. O, hey meşədən odun qırıb bazara aparar, satıb külfətini dolandırarmış. Bir gün kişi odun qırıb qayıdan zaman Musa peyğəmbər onun qabağına çıxıb xəbər alır:

– Sən niyə həmişə çiynində odun şələsi aparırsan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kasıb kişi cavab verir ki, Allahdan danmadığımı səndən nə danacam. Mən bunu satıb balalarımı dolandırıram.

Musa peyğəmbər çıxarıb ona bir qızıl verib deyir:

– Apar bu qızılı sat, xərclə, bir də bura gəlmə.

Kasıb kişi qızılı torbaya qoyub dalına atır. Bu zaman iki qarğa boğuşa-boğuşa gəlir, torbanı götürüb gedir. Kasıb kor-peşiman geri qayıdır. Musa peyğəmbər yenə də onun qabağına çıxır, ondan soruşur ki, sən yenəmi gəldin? Kasıb kişi deyir ki, torbanı aparan zaman yolda qarğalar əlimdən aldı.

Musa peyğəmbər çıxardıb ona bir qiymətli üzük verir. Deyir ki, apar sat, xərclə, bir də bur gəlmə.

Kasıb üzüyü barmağına taxıb gedir. Yolda çaydan keçməli olur. O, əl-üzünü yuyanda üzük əlindən suya düşür. Kasıb kişi yenə kor-peşiman meşəyə qayıtmalı olur. Musa peyğəmbər yenə onun qabağına çıxıb soruşur:

– Yenəmi gəldin?

Kasıb kişi başına gələnləri Musa peyğəmbərə danışır. Bu zaman Musa peyğəmbər yenə çıxarıb ona bir parça qızıl verir. Deyir ki, apar özünə lazım olan şeyləri al.

Kasıb aparıb qızılı bir dükançıya verir. Dükançı da "kərpicdi" deyərək atır, o da bir su qabına düşür. Kasıb kişi yenə də kor-peşiman gəlir. Musa peyğəmbər yenə ondan nə üçün gəldiyini soruşur. Kasıb kişi başına gələn əhvalatı Musa peyğəmbərə danışır. Musa peyğəmbər deyir ki, sən get evinə. Mən sənin haqqında Allah-Təala ilə danışaram.

Musa peyğəmbər Allah-Təalanın yanına gedir, əhvalatı ona danışır. Bu zaman Allah-Təala ona deyir ki, sən verirsən, mən alıram, gərək mən verəm. Get ona denən ki, üç dəfə "tövbə" desin.

Musa peyğəmbər kasıb kişinin yanına gəlib söyləyir ki, Allah-Təala deyir ki, üç dəfə "tövbə" desin, mən verəcəyəm.

Bir gün kasıbın arvadı deyir ki, a kişi, bir bağa çıx. Kasıb bağa gəlib görür ki, həmin torba bağda ağacın dibindədi, qızıl isə torbadadı. Torbanı götürüb sevinə-sevinə evə gətirir. Arvadı qızılı götürüb dükana gedir, lazım olan şeyləri alır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün kasıbın arvadının ürəyi balıq istəyir. Ərinə deyir ki, get balıq al gəti. Kişi gedir balıq alıb gətirir. Arvad balığı təmizləyən zaman, balığın qarnından həmin üzük çıxır. Onlar üzüyü götürüb dükana gedirlər. Bu zaman dükançı fikirləşir ki, su qabına atdığım birdən qızıl olar. Gedib baxırlar, görürlər ki, qızıl adamın gözünə işıq salır. Kasıb bu qızılı da götürüb evinə qayıdır. Kişi bu qızıl ilə özünə böyük bir imarət tikdirir.

## KİMİNİ QALDIRIR, KİMİNİ ENDİRİR

Belə rəvayət edirlər ki, qədimlərdə Fərhad adlı zülmkar bir padşah olur. Onun zülümündən xalq dəridən-sümükdən çıxmışdı.

O, bir gün vəziri Nəbini çağırıb deyir:

– Vəzir, məni maraqlandıran bir Allahdı. Get gör o haradadı, nə işlə məşğuldu?

Vəzir yalvar-yapış edir ki, mən Allahı hardan tapım, gəl məni gedər gəlməzə göndərmə.

Amma Fərhad əl çəkmir ki, çəkmir.

Çarəsiz qalan vəzir yol tədarükü görür. Ailəsi ilə halal-hümbət edib çıxır yola. Az gedir, çox gedir, gəlib bir yol ayrıcına çatır. Bir az dincəlib yatır. Gözünü açanda görür ki, bir qoca başının üstə durur. Salaməleykidən sonra qoca soruşur ki, oğul, qərib adama oxşayırsan, uğur olsun, səfərin haradı?

Dünyagörmüş bu qocanı aldatmaq mümkün olmayacağını görən vəzir başlayır əvvəlcə padşahın qəddarlığından, xalqa necə zülm etdiyindən, sonra ona verdiyi çox çətin tapşırıqdan danışır.

Qoca deyir:

– Oğul, get ona de ki, qibleyi-aləm sağ olsun, Allahı tapdım. Özü də iş görən zaman, nə qayırdığını da bir şərtdən sonra deyərəm. Padşah deyəcək o nə şərtdi? De ki, sən taxtdan düş, mən taxta çıxım, sonra deyəcəm.

Vəzir soruşur:

– Əmi, bəs taxta çıxanda nə deyim?

Qoca deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bala, o gün ki, sən taxta çıxdın, onda padşahlıq çatır sənə. Sən də o zaman cəllad çağırtdır. Vurdur o zülmkarın başını.

Bu sözlər vəzirin başına batır. Ordan birbaş padşahın yanına qayıdır.

Vəzir padşaha deyir:

– Qibleyi-aləm sağ olsun, Allahı tapdım. Özü də iş görən zaman.

Padşah deyir:

– Bəs Allah nə işlə məşğul idi?

Vəzir:

– Padşah sağ olsun, sabah car çək bütün camaatı yığ bir yerə, onların gözlərinin qabağında tacı başıma qoy, sonra deyim. Yoxsa deməyəcəyəm.

Padşah görür ki, vəzir dediyindən dönməyəcək. Çar-naçar bu işə razı olur. Car çəkib camaatı yığırlar. Vəzir camaatın gözü qarşısında taxta çıxır. Tacı başına qoyur. Üzünü padşaha tutub deyir:

– Ey padşah, getdim, gördüm Allah pilləkan düzəldir. Kimini yuxarı qaldırır, kimini aşağı endirir. İndi o səni endirdi, məni isə qaldırdı. Vəzir bunu deyib cəlladı çağırıb əmr edir ki, zalım padşahın boyununu vursun.

## SƏBR

Bir kənddə bir oğlan vardı. Bu oğlan evlənir, sonra oxumağa gedir. On altı il oxuduqdan sonra geri qayıdır. Bir də yolda bir çobana rast gəlir. Çobanla salamlaşdıqdan sonra çoban xəbər tutur ki, o oxuyub, indi də evinə qayıdır. Çoban oğlandan soruşur ki, elm nədi? Oğlan cavab verir:

– Bunu bilmirəm , bunu bizə keçməyiblər.

Çoban deyir:

– Gəl mənə bir ay çobanlıq elə, sonra mən sənə deyərəm.

Oğlan razı olur, çobanlıq eləyir. Bir də bir ayın tamamına bir gün qalır, oğlan çobana deyir ki, o daha burda qala bilmir, ailəsi üçün darıxıb. Çoban oğlana deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bir belə dözmüşdün, bir günə də dözəydin, səbr eləyəydin. Mənim bu sözlərimi yadında saxla, elmin başı da səbrdi, sonu da.

Oğlan evlərinə gəlir. Axşam düşür. Bir də pəncərədən baxıb görür ki, bir cavan oğlanın başı onun arvadının qolu üstündədi. Baltanı götürüb evə girmək istəyir, birdən çobanın sözləri yadına düşür, səbr edir. Öyə girəndə arvadı onu baltalı görüb deyir ki, bu sənin züryətindi, sən nə edirsən?

Oğlan sevinir, çobanın sözlərini yadına salıb öz-özünə deyir: "Hər şeyə gərək səbr edəsən. Elmin başı da səbrdir, sonu da".

## MƏRDANOĞLU İSMAYIL

Deyirlər, Borçalıda Mərdanoğlu adlı varlı bir ağa olur. Hörməti, izzəti yerində olan bu adamın tale başına olmaz oyun gətirir. Mərdanoğlu düşmənni olduğuna görə başını götürüb Türkiyəyə keçir. Onun bir oğlu, bir qızı və həyat yoldaşı yurdda qalası olur. Mərdan oğlu nə qədər çalışır, ailəsini keçirə bilmir.

Türkiyədə müflisləşmiş ağa Mərdanoğlunun oğlu İsmayıla haqdan vergi verilir. O, gözəl saz çalıb-oxuyur, həm də şeir yazır. Elə olur ki, İsmayıl atasının dostunun qızını sevir. Ağa öz qızını kasıb aşiqə vermək istəmir. Mərdanoğlunun vəfalı dostları ağanı dilə tuturlar ki, axı İsmayıl kasıb olsa da ağa oğludu, tanıdığımız Mərdanoğlunun oğludur. Nə üçün qızını vermirsən. Həm də İsmayıl haqq aşığıdır. Dostlarının sözünü kəsmək üçün ağa deyir:

– Mən bir söz demirəm. Gəlin onu sınayaq. Əgər o, sınaqdan çıxsa qızı ona verirəm, çıxmasa özündən küssün.

Mərdan oğlunun bütün dostları cəm olub hadisəni maraqla izləyirlər. Qızın atası İsmayılın bacısı Şərəbanını bəzəyib arabada oturdur, üzünü də örtürlər. Ağa İsmayıla deyir:

– Sevgilin yaylağa gedir, ona bir tərif de.

İsmayıl haqq aşığı olduğuna görə o dəm bilir ki, arabadakı öz bacısı Şərəbanıdır. Görür, Şərəbanını elə bəzəyiblər, gəl görəsən. Hələ belinə də gümüş kəmər taxıblar. İsmayılı od götürür. Sazı sinəsinə basıb görək nə deyir (Şərəbanı doğrudan da gözəl bir qız olur):



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir üzün Günəşdi, bir üzün Aydı,
Yoxdu bərabərin, ay Şərabanı.
Bəxtəvərsən, gümüş kəmərin də var,
İncidir belini, ay Şərabanı.

Bir xana qurmuşam ağlı-qaralı,
Üstündə əyləşib dünya maralı,
Səni sevən neylər dövləti, varı,
Varmı görən sənə tay, Şərəbanı.

Atan Mərdanoğlu, qardaşın ağa,
Araban yüklənib gedir yaylağa,
Hava buludludu, qorxuram yağa,
İslana üzündə xal, Şərəbanı.

Biçarə İsmaylın bax budur sözü,
Sinəmə yar vurub atəşi, közü,
Mən Mərdan oğluyam, sən Mərdan qızı,
İncimə sözümnən, ay Şərəbanı.

Deyilənə görə, bundan sonra bütün bəylər, ağalar İsmayıla küllü miqdarda xələt verir, ağa öz qızını İsmayıla ərə verir. Mərdan oğulları Türkiyədə indi böyük bir nəsildilər.

## MƏNDƏ NƏ GÖRDÜN, GƏLMƏDİN

Keçmişdə Başkeçiddə bir gözəl, lakin dəli-dolu qız olur, hər tərəfdən elçilər tökülür, qız heç birinə razılıq vermir. Günlərin bir günü qonşu kənddə yaşayan igid bir oğlan yoldan keçəndə atını suvarmağa bulağa enir. Qız bulaqda sənək doldururmuş. Oğlan qıza baxmaq üçün su istəyir. Qız oğlana su verir. İkisi də bir könüldən min könülə aşiq olur. Oğlan geri, kəndə dönən kimi atasını və kəndin ağsaqqallarmı qızgilə elçi göndərir. O vaxtın el adətinə görə gələn elçilər qıza dolça verirlər ki, qızım, apar bu dolçanı sənəyin dibinə qoy.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız dolçanı götürüb sənəkdən su tökərək özü içir, boş dolçanı sənəyin yanına qoyub gedir. Bunu görən elçilər durub sakit qayıdırlar kəndə. Söz-söhbət gəzir ki, qızın elçiləri gəlməz olub. Qız çox sarsılır, axı oğlanı sevirdi. Yana-yana oxuyur:

Ay elçilər, yalançılar,
Məndə nə gördün gəlmədin.
Sənin görüm keçsin çıran,
Dərdindən öldüm, gəlmədin,
Məndə nə gördün, gəlmədin.

Hürü mənəm, pəri mənəm,
Yeddi qızdan biri mənəm,
Kim deyir ki, dəli mənəm,
Məndə nə gördün, gəlmədin,
Dərdinnən öldüm, gəlmədin.

Saldın elin qınağına,
Lənət gəlsin sınağına,
Nələr çatıb qulağıma,
Məndə nə gördün, gəlmədin,
Dərdinnən öldüm, gəlmədin.

## OĞLAN, DUR GET, SABAH OLDU

Belə nağıl edillər, Başkeçidin indiki Qızılkilsə, əvvəlki Dəmirçi Hasanlı kəndində bir Oruc kişi yaşayırmış. Onun Xanım adında gözəl bir qızı var imiş. Onu qonşu kəndə bir oğlana nişanlayıblarmış. Oğlan bir gün gizli qıznan çardağın üstdə görüşürlər. O qədər söhbət edillər, yayın günü imiş, ikisini də yuxu aparır. Sən demə oğlanın atasının düşməni var imiş. Oğlan yuxuya gedəndə (pusquda durublarmış), oxnan iki qaşının arasından vurur. Gecə yarı Ay doğur, süd kimi işığını qızın üzünə salır. Qız yuxudan oyanır ki, nişanlısı al qana boyanıb. Axı, onlar gizlin görüşürdü. Qız atasının, anasının, nənəsinin xəcalətindən, nişanlısı-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nın ölümündən sarsılıb saçlarını yola-yola əllərini oğlanın qanına bələyib belə bir qoşqu deyir:

Qaşlarının qarasınnan,
Bir ox dəyib arasınnan,
Qan sızılır yarasınnan,
Oğlan, dur get, sabah oldu,
Yandı bağrım kabab oldu.

Gecə keçər, xoruz bannar,
Nənəm gələr, bizi dannar,
Geri dönməz gedən cannar,
Oğlan. dur get, sabah oldu,
Yandı bağrım, kabab oldu.

Qulağımda toy sədası,
Əllərimdə qan xınası,
Ahım kimləri tutası,
Oğlan. dur get, sabah oldu,
Yandı bağrım kabab oldu.

## AĞ SAP

Günlərin birində bir kişi atla evlərinə gəlirmiş. Kəndə çatanda artıq qaranlıq düşübmüş. Atlının yolu qəbirsanlıqdan keçirmiş. Qəbristanlığa yaxınlaşanda kişini qara qorxu tutur. Ətrafa boylanır. Bir də yan tərəfdən bir ağ şeyin ona sarı yeridiyini görür. Kişi atını qamçı ilə vurur. At nə qədər qaçırsa, ağ da onun dalınca qaçır. Qorxusundan kişinin ürəyi sıxılır.

Ayılanda görür ki, ətrafında heç nə yoxdu.

Qalxır, papağını düzəldir. Bir də nə görsə yaxşıdı. Papağı yan qoyub, böyürə baxır. Bir də görür ki, kəfənə bürünmüş ölü hesab etdiyi ağ, papağından asılan sap imiş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## OVÇU ƏHMƏDLƏ AYI

Bir kənddə Əhməd adlı bir kişi yaşayırdı. O, ovçuluqla məşğul olub ailəsini dolandırardı. Əhməd heyvanların dilini bilirdi. Bir dəfə Əhməd ova gedəndə qaranlığa qalır, meşədə gecələyəsi olur. Ocaq qalayıb yanında oturur, ovladığı ovdan bişirib yeyir. Bir də, bu iyə ayılar toplaşır. Ayılardan biri ovçu Əhmədə yaxınlaşır. Ovçu Əhməd özünü itirməyib ayıdan onun adını soruşur. Ayı cavab verir ki, adı "Özüm"dü. Əhməd də öz adını ayıya deyir. Ayı ovçu Əhmədə deyir:

– Sən burada nə gəzirsən, mənəm bu meşənin sahibi, sən nə ixtiyarla burada oturubsan?

Ovçu Əhməd cavab verir ki, sən yox, mənəm bu meşənin sahibi, istəyirsən gəl güləşək.

Ayı razı olur. Ovçu Əhməd gövdəsini piylə yağlayır. Ayı da belə edir. Ovçu Əhməd ocaqdan kösöv götürüb gövdəsinə yaxınlaşdırır, ayı da belə edir. Ayı qıllı olduğundan od onun gövdəsini yandırır, yoldaşlarının yanına qaçır. O gündən xalq arasında bir məsəl dolaşır: "Özüm-özümə, külü gözümə".

## DOST SEÇƏNDƏ MƏRDİ SEÇ

Deyirlər, lap qədimdə Borçalı çökəyi başdan-başa cəngəlliklərə bürünmüşdü. Dərin, qaranlıq dərələrdə, çınqıllıqlarda vəhşi heyvanlar yaşayırdı. El qocalarının söylədiyinə görə, Sadaxlı obasında iki igid vardı. Hər ikisi qoçaqlıqda, vurub-tutmaqda ad-san qazanmışdı. Barmaqla göstərirdilər onları. Bir gün igidlər yaraq-yasaq götürüb obaya hücum edən pələngin izinə düşürlər. Qalın cəngəllik meşələrə, uca, hündür, sıldırım qayalara çıxırlar. Pələng heç yerdə tutaş vermir. Axşam düşür. Soyuq hər ikisini üşüdür. Qurumuş ağaclardan ocaq çatıb isinirlər. Bir az söhbətdən sonra xurcunlarını yastıq eləyib yatırlar. Ocaq yavaş-yavaş öləziyir. İgidlərdən biri qarmaqarışıq yuxu görüb ayılır. "Asta qaçan namərddi" – deyə, yoldaşını yuxuya verib birbaşa obaya qaçır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İkinci igid bir müddət yatandan sonra ayılır. Yan-yörəsinə baxıb yoldaşını görmür. Onu adıyla çağırır. Səs verən olmur. İkinci dəfə səsləyəndə uzaqdan işıq gəlir. İgid işığa sarı gedir. Gözləri qızmış pələng gecənin qaranlığında ona hücum edir. İgid sol qolundan yaralanır. Lakin iradəsini itirmir. Sağ əli ilə pələngi boğur.

Ac-susuz qalmış, yorğunluqdan səndirləyərək addımlayan igid yoldaşının xurcununu cəngəllikdən kənarda – obaya gedən yolun kənarında görür. Bilir ki, yoldaşı onu qoyub qaçıb.

Sadaxlı obasından qayıdan bir kişi igidi görür. Ona yaxınlaşır. Xoş-beşdən sonra əhvalatı xəbər alır. Yaralı igid ah çəkib bu bayatını deyir:

Qərənfil kəsdi neylim,
Səbrimi kəsdi neylim,
Dili dost, qəlbi batil
Mən belə dostu neylim.

Xəbər alırlar ki, ayə, yoldaşın kimiydi, sən nə üçün ona bel bağladın? – deyəndə, igid:

Ağlamazdım,
Gülərdim, ağlamazdım,
Bilsəydim vəfasızdı,
Ona bel bağlamazdım, – deyir.

İgid atını minib obaya qayıdır. Muşul bulağının başında qaçan yoldaşını görür. Sinəsi qövr eyləyir, yaralı-yaralı:

Ay dolandı il oldu,
Göz yaşlarım sel oldu,
Məni səndən ayıran
Hansı namərd əl oldu.

*    *    *

Vəfalı dost,
İgid olar vəfalı dost.
Dünyada qismət olsun –
Vəfalıya vəfalı dost, –

deyərək, ondan uzaqlaşır, bir daha onunla dostluq, yoldaşlıq etmir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## CƏMŞİD SULTAN DƏRVİŞ LİBASINDA

Rəvayətə görə Cəmşid Sultan camaatın güzəranını yoxlamaq məqsədi ilə dərviş libasında şəhəri gəzirmiş. O, bir bərbərin yanına gedib, kasıb dərviş olduğunu söyləyir və onu pulsuz təraş etməsini xahiş edir. Dəllək razılaşır, Cəmşid Sultanın üzünü sabunlayıb ülgücü çəkərkən içəri başqa bir müştəri girir, tələsdiyini bildirib üzünü təcili qırxdırmaq istədiyini söyləyir. Dəllək də «dərviş»i buraxıb tələsən müştərinin üzünü qırxır. Sonra üçüncü müştəri gəlir. Bərbər onu da yola salır, dördüncünü də həmin qaydada... Axırda üzü yarımçıq qırxılmış dərvişə yaxınlaşır və onu təraş edir. «Dərviş» qarşısında əyləşdiyi güzgünün arxasına keçərək gizlicə yazır:

Parasız Cəmşid olanın
Kimsə baxmaz üzünə,
Mərifət manqıra dəyməz,
Simuzər dövranıdır.

## QAÇAQ KƏRİM VƏ GÜRCÜ QIZI

Borçalının Qasımlı kəndində Kərim adında qoçaq, cəngavər igid olub. Sovet hökumətindən xeyli irəli onu ağaların, knyazların vaxtında incidirlər. Kərim isə məcbur olub qaçaq düşür. O silahlanır, başlayır çöllərdə gəzməyə. Belə bir vaxt olur ki, Qoşakilsə kəndində Dövlət xan adında bir nəfər şəxs Tamaranın hökmranlığı vaxtında Tamara ilə dost olur. Abbas adında bir pəhləvan Tamaranın qardaşının nişanlısını Türkün paşasına göndərir. Çox düşünürlər ki, qızı kim qaytara bilər, bu işin öhdəsindən kim gələ bilər? Dövlət xan cavab verir ki, mənim bir dostum var Borçalıda, adına qaçaq Kərim deyirlər. Bu işin öhdəsindən gəlsə o gələcəkdir, başqa heç kim buna əlac edə bilməz. Kərimi çağırtdırıb Tamaranın yanına aparırlar. Tamara soruşur:

– Bu işə əlac olarmı?

Qaçaq Kərim başınnan razılıq verir. Ona bir qədər yol xərcliyi verirlər. Qaçaq Kərim üç ay müddətində Gürcüstandan Türkiyə torpağına keçir. O məmləkəti çox dolanır, elə bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yer qalmır ki, keçməmiş, xəbər almamış ola. Ancaq bu nişana heç kim cavab vermir. Baxır ki, vaxtının iki ayı gedib, bir ayı qalıb. Deyir əgər geri qayıtsam, məni öldürəcəklər, yenə gəzə-gəzə gedim, görüm bir şey öyrənə bilərəmmi. Şəhərdən çıxıb başqa bir kəndə gedir. Axşam tərəfi baxır ki, bir qoca qarı qapıda cəhrə əyirir. Kərim atdan düşür, qarıya salam verir, qarı salamını alır.

Kərim deyir:

– Nənə, qərib adamam, məni bu gecəliyinə qonaq eylə.

Qarı deyir:

– Oğul, qonaq Allah qonağıdır, qonaq edərəm, amma atına yer yoxdur.

Kərim əlini cibinə salıb qarının ovcuna iki dənə onluq qızıl qoyandan sonra qarı razılıq verir. – Oğul, – deyir, – ata da yer taparıq.

Allah verəndən yeyib-içirlər, söhbət edirlər. Sözarası Kərim qarıya qandırır ki, nənə, Gürcüstan torpağından deməzsənmi, bura belə bir gözəl adladıblar. Bəlkə onun yerini billəsən. Qarı cavab verir ki, ay oğul, eşitmişəm, bax bu yaxınlarda olurlar. Ay səni xeyir xəbər olasan, nənə, sənə nə ki, lazımdır hörmət eliyəcəm. Amanın bir günüdür, ordan mənə bir xəbər.

Kərim Gürcüstan torpağından çıxanda əlinə belə bir namə verimişdi ki, bunu qızı tapsan ver oxusun. Əgər razıdır, gəlsin, razı deyilsə arxasına yazsın ki, mən gəlmirəm. Bu kağız da Kərimin üstündəydi.

Qarı kəndin qırağındakı bulağın başına gedir, görür ki, burada çoxlu qızlar var. Qarı görür ki, bunların içərisində dünya gözəli bir qız da var. Soruşur ki, bu kimdir görən. Deyirlər ay nənə, bu gürcü gözəlidir, şaha gələndir. Çox gözəl, deyir, elə axtardığımızı tapmışıq.

Qarı deyir:

– Ay qızlar, siz dağılın, buna bircə kəlmə sözüm var.

Qızlar dağılandan sonra, qarı deyir:

– Qızım, bizə bir qonaq gəlib, onda gürcü dilində bir namə var. Sənə çatmalıdı. Qız soruşur ki, nəçidir, nə karədir?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı deyir:

– Gürcüstandan gəlib, adına Kərim deyirlər.

Qız deyir:

– Sabah günorta vaxtı bulağın başına gəlsin.

Qarı şad xəbərlə gəlib Kərimi muştuluqlayır. Kərim ona lazımınca hörmət eyləyir. Sabahı gün, deyilən vaxt həmin bulağın başında qıznan görüşür. Məktubu çıxaranda qız görür ki, Tamara yazıbdır. Qız deyir:

– Çox gözəl, siz Kərimsinizmi?

– Bəli.

– Paşa bu gün gələcək, səfərə çıxıb, sabah günorta məni gözlə.

Həmin gün paşa gəlir dincəlməyə. Sabahı gün qız atı yəhərləyib, paşa paltarını geyinib Kərimlə yola düşür. Gəlirlər düz sərhədə. Sərhəddə gözləyən keşikçilər yolu kəsəndə Kərim deyir ki, görmürsünüz paşadır? Keşikçi onlara bir şey demir, çünki qadın paşa libasında idi, bilmirlər ki, bu qadındır. Paşanın özünə bir şey demirik, deyirlər, çünki paşanın özünün əmridir, sərhədi keçmək olmaz.

Qaçaq Kərim görür ki, işin üstü açılacaq. Üç nəfər də bunlardır. Bu zaman vuruşma başlanır. Mərd igidin əlində nə olasıydı. Kərim üçünün də başını qılıncla vurur, sərhədi pozur, qızla bərabər adlayırlar. Kərim birbaş gəlir Dövlət xanın evinə. Xəbər gedir çatır Tamaraya. Tamara bunlara böyük hörmət edir. Tamara Qoridə oxuyan qardaşını gətirdir. Qızla oğlan görüşən vaxtı, oğlan qızın qolunun üstündə vəfat edir. Bu işə çox peşiman olurlar. Xeyli müddət keçir, qız qara geyinir, gözləyir, bunun qırxı, ili çıxır. Tamara qızı çağırır, məsləhət görür ki, mənim qardaşımın canı sənin qucağında çıxdı. Cavansan, mən sənin bəxtini bağlamıram. Kimə istəyirsən ona da get. Toyunu özüm eləyəcəm. Qız belə cavab verir ki, mən heç kimə getmək istəmirəm. Tamara deyir:

-Yox, elə şey ola bilməz, cavansan, bəxtin bağlanmasın.

Qız onda deyir ki, bircə söz deyəcəyəm, amma acığın tutmasın. Məni kim gətiribsə, ona da ver. Odur ki, Dövlət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xanı çağırır ki, bunu gətirəni çağır gəlsin. Qaçaq Kərimi çağırırlar. Tamara buna məsləhət eləyir ki, qızın fikri budur. Çox da mənim qardaşımın sevgilisidir, indi Tanrı belə gətirdi. Qəbul edirsinizsə, buyurun, sizin halalınızdır. Odur ki, bunlar evlənirlər. Tamara onların toyunu eyləyir. Borçalı torpağını Tamara Qaçaq Kərimə bağışlayır. Ona bəylik verilir. Kərim bəy gürcü qızı ilə gəlir Qasımlı kəndinə. Onunla başlayır yaşamağa, oğlu-qızı olur.

## AŞAĞI AXAN DEYİL

Bir kişi yeddi il idi evlənmişdi. Bu yeddi ildə kişinin on bir övladı olur. Bunun da altısı qız, beşi oğlan olur. Bunlar evlənəndən, demək olar ki, arvad hələ bir dəfə də atasının qapısını tanımayıb, getməyibmiş. Bir gün kişi bazardan gəlib görür ki, arvadın qaş-qabağı yer süpürür. Kişi: «Ay qapıdakı var-dövlət sənə qurban olsun, yenə nə olub sənə?» – deyə qadının könlünü almaq istəyir. Qadın deyir ki, sən də kişisənmi? Deyir: «Kişi olmayanda nə olub mənə?». Deyir: «Nə təhər kişisən ki, bu yeddi ildə mən bir dəfə atamın evini görməmişəm». Kişi deyir, arvad, atanın evinmi yadına düşüb? Arvadı deyir, bəli. Deyir, gəl atın tərkində otur. Arvadı atın tərkinə alır. Bir xeyli müddət bunlar yol gedirlər. Qabaqda böyük bir çaya rast gəlirlər. Yaz vaxtı olur, çay lap möhkəmcə daşıbmış. Kişi atın başını çəkir. Arvad sual edir ki, a kişi, atın başını niyə çəkdin. Deyir, arvad, at çox arıqdır, biz də iki nəfərik. Qorxuram atı su yıxar. Deyir, a kişi, yuxarıda su gülür, bax ora dayaz olacaq. Kişi deyir, yox, ora çox güclüdür. Amma kişinin fikri bu idi ki, hara dərindi atı oraya sala, bəlkə arvadı axıda bilə, yaxası qurtara. Kişi bir az da atı başı üstə sürəndə görür ki, su gəlir, bir yerə birləşir, yarğanın altından su elə bil qaynayır. Deyir, elə burdan dərin yer tapılmayacaq. Burada bunu axıtmasam, başqa yerdə axıda bilməyəcəm. Atı su iki-üç dəfə buranda arvad su ilə axır. Kişi yəhərin başından yapışır,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

suyu qırağa çıxır. Arvadı su baş aşağı aparır, kişi isə dik yuxarı səyridir atı. Qabağından bir adam gəlir, deyir:

– A kişi, nə yaman tələsik sürürsən atı, nəmər-zadmı alacaqsan?

Cavabında deyir:

– Evim yıxılıb.

– Nə olub ki?

– Evim yıxılıb, arvadı suda axıtdım.

– Arvadı axıtdın baş aşağı gəz.

– Başına gəlsin, bizim arvadda elə üz görmüşəm ki, qorxuram suyun altı ilə dik yuxarı gedər. Onun üçün dik yuxarı gəzirəm, aşağı gedən deyil.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VI. ALQIŞLAR (DUALAR)

**A**

- Allah səni bizə çox görməsin.
- Allah səni söyündürsün.
- Ata-anan barını dərsin.
- Allah yarıyannan eləsin.
- Allah balalarını saxlasın.
- Allah başından töksün.
- Allah qısmatını versin.
- Allah əməyini itirməsin.
- Allah əysiy gün verməsin.
- Allah oğul versin.
- Allah ruzqu versin.
- Allah quat versin.
- Allah səni şərdən qorusun.
- Allah səni pənahında saxlasın.
- Allah sənə dar gün verməsin.
- Allah balanı bərk əlinnən versin.
- Allah üstündə dursun.
- Allah üstünə işıx salsın.
- Allah sənə köməy versin.
- Allah səni nəzərində saxlasın.
- Allah səni min budax eləsin.
- Allah səni xəcalət etməsin.
- Allah səni oğulnan söyündürsün.
- Allah başının üstündə dursun.
- Allahın nəzərinnən düşmüyəsən.
- Allah gözünə işıx, qoluna qüvvət, qıçına taqət versin.
- Allah hoyuna çatsın.
- Ağ əppəy yiyəsən.
- Ağ günnər görəsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Ağzının ağrısını alım.
- Ağlına gələn başına gəlsin.
- Ağrı-ajıdan uzax ol.
- Ağ günlərə çatasan.
- Ağlına-kamalına qurvan olum.
- Ayağın düşərli olsun.
- Ayağının altında ölüm.
- Anan kimi ana olasan.
- Arzuların başa varsın.
- Arzun gözündə qalmasın.
- Atana-anana irəhmət.
- Atalı-analı böyüyəsən.
- Ata-ana kölgəsi üstündən əysiy olmasın.
- Axar sular qapından axsın.
- Axırın xeyirli olsun.
- Ajı gün görmüyəsən.
- Ağrı-ajı görmüyəsən.

**B**

- Bağın barrı, bağçan güllü olsun.
- Bayramın xeyirliklə gəlsin.
- Balan sağ olsun.
- Balan bəla görməsin.
- Balalarından yarıyasan.
- Balalarının barını dərəsən.
- Balalarının toyunu görəsən.
- Balan bərk-beşik olsun.
- Balan bərxudar olsun.
- Bazarrı olsun.
- Barmaqların var olsun.
- Baharın şaddıxnan gəlsin.
- Baxtın ağ gəlsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Baxttı olasan.
- Başın dövlətli olsun.
- Başına dolanem.
- Başın xeyir işdərdən açılmasın.
- Başın xeyir işdərə qarışsın.
- Başının sadağası olsun.
- Balan baş qaxıncı olmasın.
- Baxtın yüyrək olsun.
- Baxtın üzünə gülsün.
- Baxtın ağ gəlsin.
- Baxtına gün doğsun.
- Bir balan min butax olsun.
- Bir əlinlə qazanıb, min əlinlə yeyəsən.
- Bir toxumun min olsun.
- Biriniz pir olsun.
- Biriniz min olsun.
- Böyüy kişi olasan.

**C**

- Canına qurvan olom.
- Canım saa sadağa olsun.
- Canını Allah qorusun.
- Cavan canına Allah qıymasın.
- Cavan canın qada-baladan uzax olsun.
- Cavan canına qurvan olom.
- Camalının şöləsi əysiy olmasın.
- Canına canlar qurvan.
- Canına bu qoja canım qurvan.
- Cənnətin qapıları üzünə açıx olsun.
- Cənnət-məkan olasan.
- Ciyərparanı Allah saxlasın.
- Civin dolu olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Ç**

- Çırağın yanar olsun.
- Çırağının odu sönməsin.
- Çırağın gur yansın.
- Çəməninin gülü solmasın.
- Çəmənin güllü-çiçəyli olsun.
- Çətinnikdən uzax ol.
- Çörəyin bişmiş, suyun gəlmiş olsun.

**D**

- Damazdıxlı olsun.
- Dərdin alem.
- Damınız dolu olsun.
- Dediyinə yetib, murazına çatasan.
- Dərdin ürəyimə gəlsin.
- Dərddən-qəmnən uzax olasan.
- Dilin uzun, sözün ötgün olsun.
- Diləyin, Xıdırnəbin qəbul olsun.
- Dizinə təpər gəlsin.
- Duzuna, çörəyinə bərəkət.
- Dürr dağı kimi durasan.
- Dünyan başına dar olmasın.
- Dostun dost olsun, düşmənin kor olsun.
- Dölənin, döşənin, oğullu qızlı olun.
- Düşmənə möhtac olmuyasan.

**E**

- Evinə gəlin gəlsin.
- Evin çil-çırax olsun.
- Evin qonax-qaralı olsun.
- Evindən şaddıx əysik olmasın.
- Evin-eşiyin şad olsun.
- Evinizə şaddıx aparın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Evinə toya-şana gələy.
- Evinnən körpə səsi əysik olmasın.
- Evinin ojağı yanar olsun.
- Elinizə toya-şana gələy.
- Eldən əysik olmuyun.

**Ə**

- Əzizlərinnən yarıyasan.
- Əziz olasan.
- Əziyyətinin savabını Allah versin.
- Əlin, qolun var olsun.
- Əlin xeyirli, ayağın yüngül olsun.
- Əlin ətəyindən uzun olsun.
- Əlinin ağrısını alem.
- Əməyin itməsin.
- Əməyinin bəhrəsini görəsən.
- Ərinnən qoşa qarıyasan.
- Əysik gün görmüyəsən.
- Əkdiyin bərəkətli olsun.
- Əkininin suyu kəsilməsin.
- Əhdinə çatasan.

**F**

- Falın boş çıxmasın.
- Fələy sənə dağ çəkməsin.
- Fəhminə qurvan olom.
- Fələy səni darda qoymasın.
- Fələyin toruna düşmüyəsən.
- Fərəhin yerə-göyə sığmasın.

**G**

- Getdiyin yer şen olsun.
- Getdiyin yollara gül döşənsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Getdiyin evdən səni bel ilə kürək ayırsın.
- Gözəgörünməz pənahında saxlasın.
- Gözünüz yaxşılıqlar görsün.
- Gözün yamanlıq görməsin.
- Gözün işıq görsün.
- Gözünə nur gəlsin.
- Gözünün işığı kəsilməsin.
- Günün ağ olsun.
- Göy yaylağın, sərin bulağın olsun.
- Göylər pənahın olsun.
- Günü-gündən yaxşı olasan.
- Günlərin xoş gəlsin.
- Günün gündən xoş keçsin.
- Gülün solmasın.

**H**

- Haqqın dərgahında üzün ağ olsun.
- Haqqa qovuş.
- Haqqın qapısı üzünə açıx olsun.
- Haqqın üzü səndən dönməsin.
- Haqqın nəzəri üstündə olsun.
- Halal süd əmmişə urcah olasan.
- Hörmətdən düşmüyəsən.
- Himin möhkəm olsun.

**X**

- Xalxalın boş qalmasın.
- Xeyir-duam üstündən əysiy olmasın.
- Xeyir-bərəkət öyünnən əysiy olmasın.
- Xudam balalarını saxlasın.
- Xuda sənə dar gün verməsin.
- Xudam səni nəzərinnən salmasın.
- Xırmanın boş qalmasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**İ**

- İlahi sənə yar olsun.
- İmanın kamil olsun.
- İlin ildən xoş gəlsin.
- İtə-qurda rast gəlmiyəsən.
- İllər-aylar həsrətinə qovuşasan.
- İmamlar köməyin olsun.
- İmamlar hoyuna çatsın.
- İmanına qurvan olom.
- İnəyin südlü, öküzün güclü olsun.
- İstəkli olasan.
- İstəklinnən qoşa qarıyasan.
- İstəklinnən bir yastıxda qocalasan.
- İstəklinnən yarıyasan.
- İşin avand olsun.
- İşığın yanar olsun.
- İşığın sönməsin.

**K**

- Kamalının ağrısını alem.
- Kamalına qurvan olom.
- Kamına çatasan.
- Kefdə-damaxda ol.
- Kefinə soğan doğranmasın.
- Kəlamına şükür.
- Kəllən sağ olsun.
- Kəllənə qurvan.
- Kəreminə min şükür.
- Keçdiyin yollar gülə bürünsün.
- Köməy əlini Allah kəsməsin.
- Köməy əlin var olsun.
- Körpəni Allah saxlasın.
- Körpələrin min budax olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Körpənin toyunu görəy.
- Körpələrin ağ günlər görsün.
- Körpələrin boya-başa çatsın.
- Körpələrini gülərüzdü görüm.
- Köçün uğurlu olsun.
- Kösöyün qaralmasın.

**Q**

- Qadan alem.
- Qada görmüyəsən.
- Qadan-balan canıma gəlsin.
- Qadan-balan dağlara, daşdara getsin.
- Qabağında ölöm.
- Qazanc qənşər gəlsin.
- Qazancın ailənə qismət olsun.
- Qazancın xeyirə qısmat olsun.
- Qapınızı elçilər açsın.
- Qapının qulu-nökəri olum.
- Qələmin qırmızı çəkilsin.
- Qismətdi-baxtdı ol.
- Qızın qızıl baxt üstündə otursun.
- Qız köçür, gəlin gətir.
- Qızın qızıl qırığı olsun.
- Qızının üzü ağ olsun.
- Qılıncın kəsərri olsun.
- Qoşa qarıyasınız.
- Qohumluğunuz başa varsın.
- Qohumluxda Allah sizi utandırmasın.
- Qurvanın qoç olsun.
- Qucağın balalı, dilin mayalı olsun.

**L**

- Layla dilindən əysik olmasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Laylana qurvan.
- Laylan şirin olsun.
- Ləyaqətdi olasan.

**M**

- Malın azar-bezardan uzax olsun.
- Mallarını Allah saxlasın.
- Malının dırnağı bərk olsun.
- Malının-qoyununun xeyrini görəsən.
- Malın yamannamasın.
- Mənzilin çil-çırax olsun.
- Mərd canına qurvan olom.
- Mərəkələrdən əysik olmayasan.
- Murazına çatasan.

**N**

- Nəvələrin əlinin hasası olsun.
- Namərd fitvasından uzax olasan.
- Nəvə-nəticədən yarıyasan.
- Nəvə-nəticə toyu görəsən.
- Niyətinə çatasan.
- Niyətin qəbul olsun.
- Niyətinə qurvan olum.
- Niyətin başa varsın.

**O**

- Oğlun sağ olsun.
- Oğlunu Allah saxlasın.
- Oğlunun toyunu göröm.
- Oğullu-qızdı olasan.
- Oğullu-uşaxlı olasan.
- Oğlun yarıyannan olsun.
- Oğlun-qızın sağ olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Oğlunun gözü aydın olsun.
- Ojağına bərəkət.
- Ojağın yanar olsun.
- Ojağın şen olsun.
- Ocağın yansın, suyun axsın.
- Ocağından köz, bucağından dən əysiy olmasın.
- Oğul öyləndir, qız köçür.
- Otun bitsin, suyun axsın.
- Odun, ojağın sönməsin.

**Ö**

- Öyün-eşiyin şen olsun.
- Öyün qonax-qaralı olsun.
- Öyüdün başa varsın.
- Ölənnərin cənnət-məkan olsun.

**P**

- Pərənin pozulmasın.
- Pir olasan.

**R**

- Rəhmətliklərin cənnətdiy olsun.
- Rəhmin artıx olsun.
- Rəhm əlini Allah doldursun.
- Ruzun bol olsun.
- Ruzigarın sərt üzünü görmüyəsən.
- Ruzigar üzünə gülsün.
- Ruzunu Allah versin.

**S**

- Saqqalın ağarsın.
- Sağ get, salamat gəl.
- Sağın, solun sağ olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Sağılanının döşü qurumasın.
- Sadağan olsun.
- Sevinc yaşı axsın gözündən.
- Sevincdən göz açmıyasan.
- Saa gələn, maa gəlsin.
- Səni sevənə qurvan olom.
- Səni yamannıx görmüyəsən.
- Səsinə-nəfəsinə qurvan.
- Səpdiyinin xeyrini görəsən.
- Səsin-sədan uca olsun.
- Sinəndə ağ tük bitsin.
- Səxavətin artıx olsun.
- Səni istəmiyəni dərd tapsın.
- Sözün ötgün olsun.
- Suyun axsın, otun bitsin.
- Surun yerisin.
- Süfrənə bərəkət.
- Süfrənnən duz-çörək əysiy olmasın.

**Ş**

- Şan-şöhrətti olasan.
- Şərdən-böhtannan uzax olasan.
- Şeytan şərindən Allah saxlasın.

**T**

- Taxtın boş qalmasın.
- Təzə-təzə bayramlara çatasan.
- Toyunu görüm.
- Toyunda oynayım.
- Toylarda görüşəy.
- Toyun toya calansın.
- Torpağı sanı yaşayasan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**U**

- Uğurun xeyirli olsun.
- Uğurun qızıla dönsün.
- Uğuruna qurvan olom.
- Uğurunnan yarıyasan.
- Ulu Tanrı saa yar olsun.
- Ulularının ruhu şad olsun.
- Uzun ömrün olsun.
- Urvatın artıx olsun.
- Uşaxlarının toyunu göröm.
- Uşaxlarının axırı aydın olsun.
- Uşaxlarını Allah nazardan saxlasın.

**Ü**

- Üzün ağ olsun.
- Üzün gülsün.
- Üzünə gün doğsun.
- Üzünün nuruna qurvan olom.
- Üzüm ayağının altına.
- Üzünə xeyirli savaxlar açılsın.
- Üzünün nuru əysiy olmasın.
- Ürəyinin qadasını alem.
- Ürəyinə xal düşməsin.
- Ürəyinə görə Allah payını versin.
- Üstünə gün doğsun.
- Üstünnən ajı yellər əsməsin.
- Ürəyinin sevinci tükənməsin.

**V**

- Vay-şivən görmüyəsən.
- Var-dövlətin suya dönməsin.
- Verən əlin var olsun.
- Vətən həsrəti çəkməyəsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Y**

- Yaman yeyənin olsun, yaman deyənin olmasın.
- Yaman gün görmüyəsən.
- Yaxşılıx sənnən olsun, yamannıx düşməninnən.
- Yarıyannan olsun.
- Yaraşığına qurvan olom.
- Yaman gözə gəlmiyəsən.
- Yaradan sənə yar olsun.
- Yeyif-işdiyin halalın olsun.
- Yığvallı-baxtdı olun.
- Yığvalın yüyrək olsun.
- Yığvalınnan yarıyasan.
- Yeddi oğulla bir süfrəyə əl uzadasan.
- Yoluna nur çilənsin.
- Yolun uğurlu olsun.
- Yerin-yurdun sayalı olsun.
- Yerişinə quzu kəsərəm.
- Yağı bağrı yaran olasan.

**Z**

- Zəhmətin başa varsın.
- Zəhmətin hədər getməsin.
- Ziyarətin qəbul olsun.
- Züryətdərini Allah saxlasın.
- Züryətdərinin barını dərəsən.
- Ziyannıx görmüyəsən.
- Ziyannıxdan Allah səni uzax eləsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## VII. QARĞIŞLAR

**A**

- Adın batsın.
- Adın adlara qoyulsun.
- Ağlın qar suyuna dönsün.
- Ağzın heç şirin dadmasın.
- Ağzını gözəgörünməz kişi əysin.
- Ağzını qara molla yusun.
- Ağ günə həsrət qalasan.
- Ağ günün göy əskiyə bürünsün.
- Axır yerişin olsun.
- Axırın suya dönsün.
- Allah başını qoyub ayağına daş salmasın.
- Allah qənim olsun.
- Allah qotur versin, dırnax yox.
- Allah nəslini kəssin.
- Amanın üzülsün.
- Andıra qalasan.
- Analıq umuduna qalasan.

**B**

- Baxtın zil düyünə düşsün.
- Baxtını göy əsgiyə büküm, yandırıb kül eləyim, külünü çaya töküm.
- Başına kül olsun.
- Bərəkətini qara yel aparsın.
- Bir başmaxnan yeddi qapı ayaxlıyasan.
- Bir əlin olsun, bir yaxan.
- Boyunu boz iplə ölçüm.

**C**

- Canına qara başlı qurdlar düşsün.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Cavan öləsən.
- Civinin küncü dəlik olsun.

**Ç**

- Çörək tapmayasan.
- Çırağın keçsin.

**D**

- Dalınca bir qara daş.
- Dilin-ağzın qurusun.
- Dilin ağzında qalsın.
- Dilinə düyün düşsün.
- Dirsəyin dizində, əlin üzündə qalsın.

**E**

- Eninə oturum, uzununa ağlayım.
- Eldən daşın atılsın.
- Evin yığılsın.
- Evin-eşiyin dağılsın.

**Ə**

- Əkib-bişdiyini şirin ağız ilə yeməyəsən.
- Ələyin ələnsin, xəlbirin göydə fırlansın.
- Əlin qara xınalı qalsın.
- Əlin qurusun.
- Əlinin barını yemiyəsən.
- Əməlin başını yesin.
- Əhdin gözündə qalsın.
- Ətin tökülsün.

**G**

- Gərdəyin qurulu qalsın.
- Geri yanın dağılsın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Gorun çatlasın.
- Günün göy əsgiyə dönsün.
- Günün qara gəlsin.
- Gül əkəsən, tikan dərəsən.

**X**

- Xeyirini başqaları görsün.
- Xeyrin şərə dönsün.

**İ**

- İçin yansın.
- İki gözdən olasan.
- İmanın özünün olmasın
- İmanına qorxaq tula bağlayım.
- İmansız olasan.

**K**

- Kağızın qara yazılsın.
- Kitavın bağlansın.
- Kor olub yedəkdə gəzəsən.
- Kökün kəsilsin.
- Köhlənin mənzil kəsməsin.

**Q**

- Qabırğana güllə dəysin.
- Qanına bələnəsən.
- Qanın daşlara yayılsın.
- Qapı açıb girməyəsən.
- Qapın bağlı qalsın.
- Qara yara.
- Qara yerdə qal.
- Qara vurğun vursun.
- Qazancın qana dönsün.
- Qazancını yellər aparsın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Qızın yeddi qapını gəzsin.
- Qolun qurusun.
- Qoltuqlarda qalasan.
- Qulağın Quran səsi eşitməsin.

**M**

- Mərifətin atan öyündə qalsın.
- Murazın gözündə qalsın.

**O**

- Ocağın qaralsın.
- Ocaqlar qırağında qal.
- Oğul görüb, gəlin görmüyəsən.

**Ö**

- Ömrün binə tutmasın.
- Öyün başına uçsun.
- Öyünə vay çöksün.

**P**

- Papağın boş qalsın.
- Pərənin pozulsun.

**S**

- Sağ gedib, salamat gəlməyəsən.
- Səni su aşağı axıdım, su yuxarı gəzim.
- Səni görüm oğul toyu görməyəsən.
- Suyun axıb, otun bitməsin.

**Ş**

- Şahın-şahmarın qara boyansın.
- Şil olub yedəklərdə qalasan.
- Şil-küt olasan.
- Şirin canından heç xeyir görməyəsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**T**

- Tayın ölsün, taykeş qalasan.
- Tikələrin torvada gəlsin.
- Torpağa qismət olma.
- Toyun yasa dönsün.
- Toyun qara çalınsın.

**U**

- Umudunu Allah kəssin.
- Urvatsız öləsən.
- Uğurun qara gəlsin.

**Ü**

- Üstün örtülməsin, qarnın doymasın.
- Üzün gülməsin.
- Üzünə daş yamansın.
- Üzünü bir yuyan görsün, bir də qəbrə qoyan.
- Üzünü Əzrayıl görsün.

**V**

- Vayına oturum.
- Vurğun səni vursun.

**Y**

- Yazın qara yazılsın.
- Yanın yerdə qalsın.
- Yarımayasan.
- Yeddi il yatasan, yanın çürüsün.
- Yığvalın qara gəlsin.
- Yurd bayquşu olasan.

**Z**

- Zavala gedəsən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VIII. ELAT DODAQQAÇDILARI

## ƏYSİL, A SƏFƏR

Darvazlı Səfər Tiflisdə tikintilərdən birində fəhləlik edərkən bir axşam qaraçöplü həmkarlarının başını qatır: "Bizim kənd sıx meşələr qoynundadır. Meşələrimiz ceyran-cüyürlə, dovşanlarla doludur. Dovşan əlindən tərpənmək olmur. Mən mənim Allahım, bir dəfə meşəyə getmişdim, bir də baxdım ki, bir ağacın altındakı deşikdən çoxlu dovşan qulaqları görünür. Tez çuvalı tutdum deşiyin ağzına, deşiyin üstündən də çubuqladım. Dovşanlar çuvala doldular. Ağzını bağlayıb evə gətirdim, saydım, düz 25 dovşan idi". Bu zaman çörək almağa getmiş Gümüş adlı başqa bir darvazdı qayıdır və həmyerlisinin sözlərinə qapı arxasından qulaq asır. "25 dovşan idi", – deyəndə Gümüş içəri girir və Səfərə "25 dovşan olmaz, bir az əysil, a Səfər", – deyir. Səfər dovşanların sayını 20-yə, Gümüş yenə "Əysil, a Səfər" deyəndə 15-ə, daha sonra isə 10-a endirir. Gümüş bir daha "Əysil, a Səfər" deyəndə "5 dovşan idi, bir də əysilənin dədəsinə lənət", – deyə Səfər qətiyyətlə dillənir.

Kənd camaatının ağzına düşən bu əhvalat sonradan bütün Borçalıya bəlli olur. Odur ki, kimsə əhvalatı həddən artıq şişirtsə, danışığında ifrat qondarmaya yol versə, ona "Əysil, a Səfər" deyirlər.

## BAYRAMINKI OLMASIN

Hamamlıda Bayram adlı bir kişi olur. Günlərin bir günü Bayram kişi meşəyə oduna gedir. Meşənin tünnük yerində odun doğradığı vaxt şaqqıltı eşidir. Başını qaldıranda görür ki, nəhəng bir ayı pəncələri üstə qalxıb onu haxlayıb. Qəfil hücum kişini çaşdırır. Bayram ayı ilə aymalaşmalı olur. Xeyli tutaşırlar. Bayram ayını basır. Kəndə hay-haray düşür, camaat tökülüb meşəyə gedir. Görürlər ki, Bayram yıxıb ayını böyrü üstə, özünün də üst-başı cırıq-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

cındır, oturub ayının sinəsində. Bayram camaatı görəndə kövrəlib ağlayır. Soruşurlar ki, ayə, evi tikilmiş, sən igidlik göstərib ayı basıbsan, bə bu ağlamaq nədi? Bayram cavabında deyir:

– Məni yandıran o döy, məni ağladan odu ki, bu qədər qohum-əqrabası olan adamın da üstünə ayı gələrmiş?

İndi adamlar qohum-əqrabası ilə öyünərkən deyirlər: „Bayramınkı olmasın!”

## XALASTOYNAN GƏLİBSƏN

Bir gün Hürü arvad nədən ötrüsə Bolnisə getməli olur. Yola çıxıb maşın gözləyir. Bu zaman bir minik maşını dayanır. Hürü arvad maşına minir. Yol boyu söz-söhbət əsnasında sürücü öyrənir ki, bəs bu hazırcavab Hürü arvaddı. Qorxusundan daha dillənmir. Bolnisə çatırlar. Hürü arvad maşından düşəndə deyir ki, a başına dönüm, nə qədər pul verəcəm. Sürücü bildirir ki, iki manat. Hürü arvad çıxarıb sürücüyə bir manat verir.

Sürücü deyir:

– Bu nədi, ay xala, sənə dedim iki manat verəsisən.

Hürü xala kefini pozmadan deyir:

– Bura bax, ə. Elə bilmə ki, Hürü qarı heç nə qanmır. Bu yolun yarısını sən xalastoynan gəlibsən!

## PİR TƏPƏSİNİN BAŞINA BAX

Örmeşən kəndində varlı-hallı bir adam olur. Qapısındakı sürülərin, naxırın sayı-hesabı olmur. Deyirlər inəklərinin yelini yer süpürər, erkəklərinin quyruğu batman gələrmiş. Gəl ki, bu şəxs sir-sifətdən kasad imiş. Evlənmək vaxtı da çatıbmış. Valideyinlərinin him-cimini hiss edən oğlan anasına bildirir ki, filankəsin qızına elçi gedin. Sən demə bu qız da elə gözəl imiş ki, aya deyirmiş sən çıxma mən çıxım, günə deyirmiş sən çıxma mən çıxım. Anası oğlunun sözündən heyrətə düşür. Bir qədər gerçək, bir qədər zarafatla deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay oğul, bu sir-sifətnən, bu daz başnan o qız sənə gələrmi?

Oğlan halını pozmadan deyir:

– Rəhmətliyin qızı, mənim sir-sifətimə, başıma niyə baxırsınız?! Pir təpəsinin başına baxın.

Pir təpəsinin başındakı ilxı-ilxı atını, naxır-naxır mallarını, sürü-sürü qoyununu görən ana məsələni başa düşür. Elçilər gedir, xoş xəbərlə qayıdırlar.

Var-dövlətli olub sir-sifətdən gözəl olmayanların evlənmək vaxtı „Pir təpəsinin başına baxın" sözü işlədilir.

## NƏ TÖKƏRSƏN AŞINA

Bir qoca qarı varmış. Onun aman-zaman bir oğlu varmış. Gəlini əzazil imiş. Hər gün özlərinə yaxşı yemək hazırlayırmış. Amma qayınanasına verməzmiş. Gedib gölməçədən qurbağa tutub bişirər, qayınanasına verərmiş. Qarı da gözləri görmədiyindən qabağına qoyulanı yeyərmiş.

Belə-belə günlər keçir. Qarı ölür. Gəlin də yaşa dolur. Oğullarını evləndirir. Gəlini qanacaqlı gəlin imiş. Hər dəfə xörək bişirəndə xörəyin yaxşısını qayınanasına aparırmış. Amma qoyduğu xörək qaynanasının qabağına gələndə qurbağa olurmuş. Bir gün belə, beş gün belə, bir gün gəlin açıb məsələni qaynanasına danışır. Arvad deyir:

– A bala, o xörəyi tökmə, ver yeyəcəm. Bu mənim öz əməlimdir. Atalar yaxşı deyib ki, „Nə tökərsən aşına, o da çıxar qaşığına".

## MURAD KİŞİNİN XİYAR SÖVDASI

Bir gün Murad kişi arandan gəlirmiş. Bir bostanın yanından keçəndə ayaq saxlayır. Bostana girir. Bostançıynan hal-əhval tutur. Xiyar almaq istədiyini bildirir. Bostançı deyir ki, qardaş, tərəzim yoxdur, mən xiyarı saynan satıram. Razılaşırlar. İkisi köməkli 50 xiyar dərir. Murad kişi xiyarı xurcununa doldurur, birdən təəssüflə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bildirir ki, üstündə pulu yoxdu. Nə edəcəklərini bilmirlər. Hər ikisi karıxıb qalır. Birdən Murad kişi əlini əlinə vurub gülür:

– Pah, rəhmətliyin oğlu, iki dünyagörmüş kişi bir balaca işin üstündə başımızı itirmişik. Buna nə var ki, mən xiyarın 20-sini girov qoyaram, qalar səndə. Pulu gətirəndən sonra onu da aparıb gedərəm.

Hər ikisi bu çıxış yolndan razı qalır. Murad kişi xiyarı gətirib oğul uşağa yedizdirir. Bağban da bu günə kimi onun yolunu gözləyir.

## MƏNİM ŞƏKLİMİ DƏ ŞƏKDİR

Başkeçidin bir kəndindən bir oğlan rayona gedirmiş. Qonşusu onu görüb haraya getdiyini soruşur. Oğlan bildirir ki, rayona şəkil çəkdirməyə gedir. Qonşusu sevinir. Əlini cibinə salıb bir manat çıxarıb oğlana verir, deyir:

– Bıy, sənin başına dönüm. Mənə də şəkil lazımdı.Vaxtım yoxdu çəkdirməyə, onsuz da sən gedirsən, mənim şəklimi də çəkdir gəti.

## BİRDƏN BAŞIMA TÖKƏRSƏN

Hürnisə nənə ləzətli xəngəl bişiribmiş, yeznəsi də elə o vaxt qonaq gəlir. O, bir sini xəngəl çəkib qoyur yeznəsinin qarşısına.

– Təmiz ye haa, sinisi təmiz olanın nişanlısı da göyçək olar, – deyir.

Oğlanın iştahası yoxmuş, bir az yeyib, süfrədən çəkilir.Bu Hürnisə nənəyə yer eləyir. Ürəyində deyir: ,,Necə olan işdi, mənim xəngəlimi bəh-bəhnən yeyirlər, sinini barmaqları ilə yalayırlar. Bu heç yarılamadı da”. Qarı yeznəsi ilə incişir.

Gün keçir, həftə dolanır, yeznəsi bir də gəlir. Özü də toxmuş, Hürnisə nənənin isə heç nədən xəbəri yoxmuş. Bir sini xəngəl çəkib yeznəsinə deyir:

– Təmiz yeməsən başına tökəcəyəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan elə bilir ki, zarafat eləyir, bir-iki yarpaq alıb, ağzını silir. Cin vurur Hürnisə nənənin beyninə. Sinini qeyzlə götürüb yeznəsinin başınadan aşağı endirir. Oğlan abırdan çıxır.

İndi hər dəfə xəngəl bişiriləndə Hürnisə nənəni xatırlayırlar. Sinisini boşaldan gülə-gülə deyir: ,,Sinisi təmiz olanın nişanlısı da göyçək olar”. Yeyə bilməyən isə dörd yanına boylanıb deyir:

– Birdən başıma tökərsən haa!

## SƏNİ GƏTİRƏN ÖLSÜN

Kənd-kənd dolaşan səyyar aşıqlardan biri Darvazlı Aşıq Yunusun evində gecələyir. Aşıq deyəndə saz götürüb başına fırladanlardan imiş. Məclis düzənlənir. Bu aşıq başlayır çalıb-oxumağa. Ancaq ifası məclis əhlinin xoşuna gəlmir. Elə hey səsini zilə qaldırıb “ölürəm, ölürəm” deyirmiş. Artıq bundan cana doyan ev yiyəsi dözə bilməyib deyir:

– A bala sən niyə ölürsən, səni bura gətirən ölsün.

## DAVAY BİYAR

Ayorta kəndində bir qlava Qara var idi. Bir gün qlava Qara bir neçə adamla kəndin içində söhbət edirmiş. Bu vaxt hökumət məmurları kəndə biyar yığmağa gəlir. Onlar rusca soruşurlar:

– Kto qlava?

Ancaq yerli əhali rusca bilmədiyinə görə cavab verə bilmir. Bu vaxt birisi zarafatyana başqasını göstərib deyir ki, ,,vot qlava”. O adam isə deyir: ,, net, net, ya qlava”. Məmurlar isə ,, davay biyar” – deyərək, onu qamçı ilə döyməyə başlayırlar. Onda döyülən şəxs qalxıb onu göstərənin boğazından tutur ki, əgər mən qlavayamsa, onda davay biyar.

## BİLSƏYDİM ZƏRDƏ SƏPƏRDİM

Hamamlı kəndində bir gəlmə tat olurmuş. Adına Xalaoğlu deyirlərmiş. Onun yaxşı xiyar bostanı varmış. Birinci ili o bostan-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dan yaxşı xiyar götürür. Onun qonşuluğunda Süleyman adlı bir kişi yaşayırmış. Süleymanın Alı adlı on-on iki yaşlı bir oğlu varmış. Xiyar vaxtı Alı bostançıdan xiyar istəyir. Bostançı ona xiyar vermir. Sonrakı ili tat yenə bostan əkir. Çiçək vaxtı Alı gəlib ona deyir ki, Xalaoğlu, keçən il də mənə xiyar vermədin, vallah, bu çiçəklərin hamısını yolacam.

Elə də edir. Xalaoğlu olmayanda fürsətdən istifadə edib başlayır çiçəkləri yolmağa. Xalaoğlu işi biləndə Süleymana şikayət edir ki, sənin oğlun mənim bostanımın çiçəyini yolur.

Süleyman deyir:

– Ə, zalım oğlu, tut öldür onu.

Xalaoğlu başlayır uşağı pusmağa. Görür ki, uşaq yavaş-yavaş bostana yaxınlaşır. Uşağın üstünə hücuma keçir. Bunu oğlanın atası Süleyman da görürmüş. Uşaq cavan, Xalaoğlu qoca. Atası görür ki, Xalaoğlu uşağa yetirir. Onda bağırır ki, Alı, qaç.

Görür ki, uşaq aralaşdı, tata deyir ki, əyə öldürsənə.

Nəhayət, bunlar aralanırlar. Uşaq gəlib bostanın qırağında durub deyir ki, Allah, ziyarətə nəzir verəcəm, tatın bağını dolu vursun. Aradan bir az keçir. Göy üzünü qara bulud alır. Tatın bostanını dolu elə vurur ki, heç bir əsər-əlamət qalmır. Tat xeyli ağladıqdan sonra tutur ağzını Allaha:

– Ey müxənnət fələk, bir uşağın sözü ilə məni vardan-yoxdan çıxartdın. Bilsəydim belə

eyləyəcəksən, zərdə səpərdim, dişinlə də çəksən, çıxara bilməzdin.

## ÖZÜNÜZ NƏ QƏDƏR YEMİSİNİZ?

Bir neçə yoldaş çobanlıq eliyirlərmiş. Xörək bişirəndə yoldaşlarından birinə bir qab qoyarlarmış. O da gəlib gileylənirmiş ki, özünüz şox yeyibsiniz, mənə az qoyubsunuz.

Bir gün yoldaşları götürüb ona bir badya xörək saxlayırlar. Gəlib bunu görəndə o nə desə yaxşıdır:

– Aya, mənə bu boyda qoyanda, gör özünüz nə qədər yemisiniz?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BƏY ATININ OĞURLANMASI

Hamı ona Gecədələn Məhəmməd deyərdi. Çox hazırcavab olubmuş. Qoçaqlıqda ona tay

adam yox imiş. Onun bir ayağı Qarabağda, bir ayağı Qazaxda imiş. Varlılara qənim kəsilərmiş. O, bir gün gəlir görür ki, bir bəy oturubdu meşənin qırağında, yanında da gümüş yüyənni-yəhərri bir at var. Gecədələn Məhəmmədin ata gözü düşür. Bir az fikrində götür-qoy edir, bəyə yaxınlaşır. Deyir, a bəy, bu atı oğurlamazlarmı?

Bəy cavab verir ki, ə, nə təhər oğurlayarlar, kəndir əlimdə, özüm də oturmuşam yanında.

Gecədələn Məhəmməd deyir indi gör necə oğurlayırlar bu atı. "Bax – deyir – kəndiri alarlar (özü də kəndiri əlinə alır).

– Düzdümü, a bəy

Bəy deyir "düzdü".

– Sonra bəy, kəndiri yığışdırıb yəhərin qaşına bağlayarlar. Olarmı, ay bəy?

Deyir: nə olsun ki.

– Hə, hələ sonrasına bax. Sonra bax, beləcə ayağını üzəngiyə qoyub minərlər ata (Özü də minir ata). Bir daha soruşur: "düzdümü, a bəy?". Bəy deyir: "düzdü". Sonra deyir: "O qamçını mənə ver". Qamçını bəyin əlindən alır. Ata bir qamçı çəkir ki, atın sağrısında iz qalır. At götürülür. Sahibinə acığı tutubmuş kimi sürətlə aradan uzaqlaşır. Bir az getmiş Gücədələn Məhəm-məd papağını çıxarıb havada yellədərək "salamat qal, a bəy", deyir. Bəy görür ki, at getdi. Peşiman-peşiman atın arxasınca baxıb köksünü ötürür.

## FAYTONÇU

Bir gün Gecədələn Məhəmməd dağları gəzməyə gedir. Yolda ona bir fayton rast gəlir. Fikirləşir ki, faytonla tez gedər. O, nə qədər əl eləyir amma fayton saxlamır. Öz-özünə deyir ki, bu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

faytonun atını oğurlamaq mənə borc olsun. Faytonun izi ilə gedib çıxır həmin kəndə. Yolda libasını dəyişir ki, faytonçu onu tanımasın. Həmin kişinin qapısını döyərək səslənir:

– Ay ev yiyəsi, qonaq istəmirsinizmi?

Kişi əvvəl razılıq vermir. Ancaq arvadı deyir ki, qoy gəlsin, atların tövləsində-zadda yer verərik, yatar. O zamankı qara damlar da iç-içə açılırdı.

Atlar bağlanan dam da axırıncı imiş. Axşam olur. Ev sahibi ona atların damında yer verir, özləri də damın girəcəyində yerləşən birinci damda yatırlar. Hamı yatsa da Gecədələn Məhəmməd yata bilmir. Fikirləşir ki, nə təhər eləsin atları oğurlasın. Atları açıb aparacaq, ev sahibi ayılacaq. Bəs nə etsin? Elə bu fikirdə ikən bürünüb yatdığı yapıncı yadına düşür. Tez durub yapıncını doğrayır. Doğranmış yapıncıların bir hissəsini atların ayaqlarına, qalanını da faytonun təkərlərinə sarıyır. O tərəfə, bu tərəfə baxır. Bir qədər ip tapır. Cəld hərəkətlə atların quyruğunu bir-birinə bağlayıb eşiyə çıxarır. Təkərləri bağlanmış faytondan heç səs gəlmir. Qoşulmuş faytonda rahatlıqla oturub kəndlərinə qayıdır. Yol gedərkən fikirləşir: ,,Gəlsin, görüm necə tapacaq”.

## XEYİRXAHLIQ

Kəndlilərə kömək etmək məqsədi ilə Gecədələn Məmməd gedir bir bəyin malından bölüb gətirir. Mal sahibi bu işdən xəbər tutan kimi atını minib Məmmədin dalınca düşür. Təqib olunan Məmməd çıxış yolu tapır. Elə ki görür atlılar ona çathaçatdı, tez çuxasını sərib namaz qılmağa başlayır. Bəyin adamları özlərini yetirənə kimi Məmməd malları dərəyə ötürmüşdü. O, əzbərdən bildiyi Quranın ayələrini tez-tez söyləyərək əyilib qalxır. Guya onun heç nədən xəbəri yoxdu.

Bəy atlıları ona yaxınlaşıb soruşur ki, burdan mal keçdimi. Onları azdırmaq üçün Məmməd başqa səmti göstərir. Atlılar bu tərəfdə axtarmaqda olsunlar. Məmməd tez malları yığşırıb yoluna davam edir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yolu elə bir kəndə düşür ki, buranın camaatı çox pis yaşayırmış. Məmməd kəndin qırağında dayanır, bərkdən kəndliləri səsləyir. Hamı tökülüb gəlir. Məmməd bütün malların hamısını kəndlilər arasında bölüb kəndlərinə qayıdır.

## CEHİZSİZ TOY

Günlərin birində Gecədələn Məmməd Qazağa getməyə hazırlaşır. Ora getməkdə onun məqsədi var idi. Oğlu Həsən Qazax bəylərindən birinin qızını istəyirdi. Həsən seminariyanı təzəcə qurtarıb kəndlərinə qayıtmışdı. Onu evləndirmək fikirinə düşən atası Qazağa elçi gedir. Bəy qızı hara, Gecədələn Məmmədin oğlu hara?!. Heç ağıla batası iş deyildi. Amma Məmməd bu işdən əl çəkmir. Hər necə olsa da bəy qızını oğluna almaq istəyir.

Elçi yolu ilə qızı ala bilməyəndə Məmməd başqa çarəyə əl atır. Bir böyük ağacın ucuna parçanı bağlayıb üstünə neft tökür. Onu əlinə götürüb bəyin damlarının qıraqlarında gəzdirir. Bunu görən bəy arvadı ərindən sotuşur ki, a kişi, o nə edir? Heç nə başa düşə bilməyən bəy arvadına cavab verə bilmir. Arvad əl çəkmir ki, evin yıxılsın, onun fikri evimizi yandırmaqdı. Get dilə tut, bəlkə bir təhər yola gətirdin. Bəy yaxınlaşıb soruşur ki, a kişi, sən nə edirsən?

Məmməd cavabında deyir ki, bəs bilmirsən sabah sənin qızının toyudu. Buraların tozunu almaq istəyirəm. Bəy arif adam imiş. İşin nə yerdə olduğunu başa düşür. Deyir, nə istəyirsən verim, əl çək mənim həyətimdən. Məmməd bildirir ki, mən heç nə istəmirəm. Mənim məqsədim sənin qızını oğluma almaqdı.

Bəy arvadının üzünə baxır. Qorxudan sapsarı saralan arvadın dillənməyə halı qalmamışdı. Ayalına çiyinlərini çəkməklə cavab verir. Naəlac qalan bəy evdən nökərləri çağırır ki, qızın əynini geyindirib eşiyə çıxardın. Gecədələn Məmməd qızı ata mindirib nağarasız, zurnasız evinə gəlin aparır.

Kənddə sayılan kişilərdən biri də Gecədələn Məmməd idi. O, gəlinini toysuz gətirsə də, özünə sığışdıra bilmirdi. Əvvəlcədən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hazırlıq gördüyünə görə üç gün, üç gecə toy edib, kəndin bütün kasıbları başda olmaqla, hamını yedizdirib-içirdir.

Bəy ailəsində böyüyən qız ev işlərindən heç nə bilmirdi. Ona yavaş-yavaş ev işləri öyrətməyə başlayırlar. Bir gün bəy qızı hana toxumağa başlayan zaman hananın yanına saldığı kilimi tərsinə salır. Evin yuxarı tərəfinə kilimin aşağı hissəsi düşür. Gəlin bu işdən xəbərsiz halda öz işində ikən Gecədələn Məmməd keçib hananın o biri tərəfində oturub başlayır tərsinə toxumağa. Gəlin bunu görən kimi deyir ki, ay qayınata, düz oturmamısan. Məmməd cavab verir ki, yox sən tərsinə oturmusan. Mübahisə düşür, nəhayət kişi gəlini başa salır ki, kilimi sən tərsinə salmısan. Gəlin səhvini başa düşür.

## VƏLİ QARA

Bir gün Vəli Qaraoğlunun dişi də, saçı da tökülür. Gedir həkimə. Həkim deyir ki, sənə zərdə yemək lazımdı. Vəli gəlib bazardan bir maşın zərdə alır, xarab olmasın deyə yerə basdırır. Ancaq onun dişləri yox idi, zərdəni necə yeyə bilərdi. Ona görə də arvadı zərdəni çeynəyir, həll olanda Vəlinin ağzına tökür. Bu minvalla altı ay keçir. Ancaq Vəlinin nə saçı yerinə gəlir, nə dişi. Bu vaxt o yenə həkimə gedir. Deyir ki, mən altı aydı zərdə yeyirəm, nə dişim yerinə gəlib, nə saçım. Həkim ondan soruşur ki, bəs sənin dişin yoxdu, zərdəni necə yeyirsən. Vəli hamısını söyləyir. Həkim işi başa düşdükdən sonra deyir ki, arvad şirəni özü içib, kötükləri isə sənə yedirib. Ona görə də heç vaxt sənin başına tük, ağzına diş gəlməyəcək.

## MƏN DƏ SƏNİ YOXLAYIRDIM

Bir gün Vəli Qaraoğlunun arvadı qonşu arvadla söhbət eləyir. Onlar Vəlini sınamaq istəyirlər ki, görək Vəli arvadını çox istəyirmi. Arvadı baxır ki, Vəli gəlir, o saat yorğan-döşəyin içinə girib, özünü xəstəliyə vurur. Vəli evə gəlib xəstələnmiş arvadını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gördükdə tez kəndir tapır, özünü göydən asmaq istəyir. Bu vaxt arvad yerindən tullanır ki: ,,A kişi, nə edirsən, mən səni sınayırdım". Vəli Qara da deyir ki, ,,elə mən də səni sınayırdım".

## SEVİNDİYİMDƏN ÖLƏRƏM

Vəli Qaranın bədəsil bir arvadı varmış. Vəli dostunnan söhbət edəndə dostu arzulayır ki, Vəlinin arvadı tez ölsün.

Vəli Qara deyir:

– Yox! O ölməsin. Əgər o ölsə mən də sevindiyimdən ölərəm.

## AY SƏNİN DƏRDİN, AY MƏNİM DƏRDİM

Bir kənddə ər-arvad yaşayırdı. Bir gün arvad ərinə deyir:

– Ay kişi, bizim vəziyyətimiz çox ağır keçir. Get pul qazan. Bəlkə güzəranımız düzələ.

Demə arvadın fikri başqaymış.

Kişi çıxıb dostunun yanına gedir. Ona deyir:

– Ay dostum, mən bir kələyə düşmüşəm.

Dostu soruşur:

– Ayə, nə kələkdi? Bir dərdini danış, görüm.

Kişi dərdini dostuna danışır. Dostu belə cavab verir:

– Sən qayıt geri. Get dağarcığına bir neçə çörək qoy. Çıx evdən. Mən yaxşı bilirəm ki, arvadının fikri başqadı. Mənim dediyimə fikir ver. Gözünlə görərsən.

Kişi evinə qayıdır. Qapıya çatan kimi, pəncərədən görür ki, bir boz papaq evdə əyləşib. Kişi qapını döyür. Kişi qapını döyəndə bozpapaq arvada deyir:

– Bəs indi mən neyləyim?

Arvad cavab verir:

– Gəl bu küpə gir.

Evdə altı küp var idi. Arvad bozpapağı küpə salır. Küpün ağzını bağlayır. Qapını açır. Kişi girir içəri. Arvad soruşur:

– Ay kişi, niyə yolun yaxından düşdü? Sən ki, uzağa gedirdin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi cavab verir:

–Ay arvad, xərcliyim azdı. Uzaq səfərə gedəcəyəm. İstəyirəm ki, bu küplərin birini aparıb satam.

Arvad soruşur:

– Hansı küpü aparacaqsan?

Kişi bozpapağın gizləndiyi ortadakı küpü göstətib deyir:

– Ortadakını.

Arvad deyir:

– Ay kişi, o küp bizim evimizin yaraşığıdı. O biri küplərdən hansını istəyirsən apar.

Kişi deyir:

– Yox, mən elə o küpü aparacağam.

Kişi həmin küpü arxasına alıb, əlində bir saz Xramın qaşı ilə getməyə başlayır. Fikirləşir ki, küpü harda dığırlasın. Bir də görür ki, aşağıda, çayın qırağında bir gəlin yun yuyur. Elə bu vaxt yunun altından bir oğlan çıxır, gəlinlə öpüşür, yenə yunun altına girir. Küp sahibi bir qədər onlara tamaşa eləyir. Bu vaxt görür ki, bir atlı gəlib gəlinin yanında dayanır. Bu, gəlinin əri imiş. Küp sahibi işi başa düşür. Görür ki, ikisinin də dərdi birdi. Küp dalında enib aşağı gəlir, atlının yanına. Ədəb-ərkanla atlıya salam verir. Salamına əleyk alır. Atlı ondan soruşur:

– Qardaş, belindəki nədi, əlindəki nədi?

Küp sahibi cavab verir:

– Belimdəki küpdü, əlimdəki dərd dağıdan.

Atlı deyir:

– Bir çal, oxu. Dərdimizi dağıt.

Kişi küpü yerə qoyub başlayır çalmağa:

***Ay sənin dərdin,***
***Ay mənim dərdim.***

Atlı deyir:

– Yenə oxu.

Kişi yenə də həmin sözləri oxuyur. Bundan sonra atlı deyir:

– Ayə, mağıl söz oxu. Dərdim dağılsın. Sən öl, küpü qıracağam.

Kişi deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mənim bacardığım budu. Sən küpü qırarsan, mən də yunu dağıdaram.

Bu savaşda söz atlının xoşuna gəlmir. Qılıncıynan küpü qırır. Qıran kimi bozpapaq çıxıb qaçır çölə. Küp sahibi də hirislənib yunu dağıdır. Yunun altından da həmin oğlan çıxıb qaçır. Atlı bu işə mat-məəttəl qalıb deyir:

– Ayə, bu nə işdi?

Kişi deyir:

– Mən ki, oxuyuram: „Ay sənin dərdin, ay mənim dərdim". Bəs sən başa düşmürsən? İndi get onları tut görüm necə tutursan. Sən küpü qırmasaydın, mən də yunu dağıtmazdım.

## ASAN SÜRÜLƏN MAŞIN

Axşam çağı əkindən evə qayıdan Kərim əmi bir neçə nəfərin nə barədəsə bərk mübahisə etdiklərini görür. Yaxınlaşıb öyrənir ki, mübahisə hansı maşının daha asan sürülməsi üstündədi. Onları bir qədər dinləyən Kərim əminin səbri tükənir, hamının sözünü kəsərək ciddi halda:

– Heç biriniz doğru deyilsiniz, ən asan sürülən maşın traktordu, – deyərək, əlindəki boyunduruq samılarını göstərir, – iki samıdı, sağa getmək istəsən sağdakını çək, sola getmək istəsən, soldakını.

Bununla da mübahisə bitir.

## QAMÇI

Hər gün gecənin bir vədəsində Darvazın yuxarı məhəlləsinin sakinləri qamçı şaqqıltısına gözlərini açmalı, dəng halda deyinməli idilər: „ Kərim əminin qamçısıdı, mal fermasından evə qayıdır. Evi tikilmiş qoymaz ki, bir gecə rahat yuxumuzu alaq...".

Nəhayət bir gün Kərim əminin qarşısını kəsib xahiş edirlər ki, gecələr qamçını şaqqıldatmasın. Kərim əmi də gülərək:

– Mən qamçımla itləri qorxuduram ki, mənə yaxın gəlməsinlər. Adam da qamçıdan qorxar? Siz rahatca yatın, qorxub eləməyin, siznən işim yoxdu, bala, – deyib qamçısını oynadaraq aralanır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## KƏNDİ MƏNDƏN SORUŞMAYANIN DƏDƏSİNƏ LƏNƏT

Binələrə hay düşür ki, Musa kişi arandan gəlib. Bunu eşidən yaxın dostlarından bir neçəsi yığılıb Musa kişini axşamın soyuğunda üşütmək qərarına gəlirlər. Qaranlıq düşür. Musa kişi soyunub yenicə taxta uzanan kimi, onu bayıra çağırırlar. Di, bunu tutasan sorğu-suala, nə tutasan: "Ay Musa, Kəpənəkçidə nə var, nə yox, filankəs gəldimi? Filan elə, filan belə". Musa kişi də bir xeyli suallara cavab verir, üşütmə tutur, suallar da ki, ara vermir, hiyləni duyur. "Məni bircə dəqiqə gözləyin" – deyərək tez dəyəyə girir, yorğana bürünmüş halda qayıdır ki:

– İndi bütün kəndi məndən soruşmayanın dədəsinə lənət.

## MƏNİ YASDAN ÇIXARDIN

Borçalıda şan-şöhrət sahibi olan Kəpənəkçi Emin ağanı Sarvana şərəfli bir ziyafətə çağırırlar. Bu, Emin ağanın anasına yas tutduğu bir vaxta düşür. Odu ki, o, şən, zarafatcıl Dəli Nəbini çağıraraq deyir:

– Mən belə qəmli halda elə böyük məclisə gedə bilmərəm. Ora çatana kimi məni güldürməsən, özünü ölmüş bil. Gərək məni yasdan çıxarasan.

Yazıq Dəli Nəbi yol uzunu min hoqqa çıxarır, nə illah edirsə, ağasını güldürə bilmir. Qonaq evinə çatanda Dəli Nəbinin canına vəlvələ düşür. Fikirləşir ki, "ölmək ölməkdi, xırıldamaq nəyə gərək, onsuz da mənimki keçib".

Birdən pilləkanla ikinci mərtəbəyə qalxan sərt, qaraqabaq ağasının qarşısını kəsərək bağırır:

– Ay anası gorbagor olmuş, niyə gülmürsən?

Bunu Dəli Nəbidən gözləməyən Emin ağa dayanır, əyyara baxır, birdən əlini-əlinə vuraraq gülməkdən uğunur:

– Halal olsun sənə verdiyim çörək, Dəli Nəbi! – deyir, – axır ki, məni yasdan çıxardın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HÖRMƏT OLAN YERDƏ

Bir qoca kişi öz kasıb komasında gözəl, ağıllı qızıyla yaşayırmış.

Günlərin birində, Novruz bayramı qabağı qapı döyülür. Kişi qapını açıb görür ki, eşikdə üç nəfər dayanıb. Qonaqlardan biri qayıdır ki:

– Biz üç qardaşıq, özü də ayrı məmləkətdən gəlmişik. Birimizin adı Hörmət, o birininki Dövlət, üçüncününkü də Şöhrətdi. Vaxtsız olduğuna görə bizi bağışla, gərək birimizi bu gecə qonaq saxlayasan.

Kişi qalır məəttəl, bilmir neyləsin. Nə Şöhrətdən keçə bilir, nə Dövlətdən, nə də Hörmətdən. Xeyli fikir-xəyaldan sonra cavab verir ki:

– Bir hovurluğa gözlüyün, ev adamlarıynan məsləhətləşim.

İçəri girib əhvalatı qızına danışır. Qızı o saat məsələnin nə yerdə olduğunu anlayır. Qayıdır ki:

– Ata, sən Hörməti qonaq elə, dalısıynan işin yoxdu. Kişi dinməzcə eşiyə çıxır, üzünü qonaqlara tutur:

– Mən bu gecə Hörməti qonaq saxlayacam. Hörmət hansınızdısa, buyurun!

Qonaqlardan biri irəli yeriyir, qapıdan içəri girəndə o birilər də onun dalınca evə daxil olurlar. Kişini təəccüb bürüyür. Onlardan biri:

– Sağ ol qardaş, – deyir, – ağıllı adamsanmış, səni sınağa çəkirdik. Hörmət olan yerdə şöhrət də, olmalıdı, dövlət də.

## İT ÖYÜN QULAĞIDI

Günlərin bir günü bir aşıq çiynində saz Kürdən keçib Qarayazıya gedirmiş. Şər qarışanda Dəmirçihasannıya çatır. Baxır görür günə ki, indi gecdi. Deyir bu gecə burda qalım, sabah tezdən (üstümüzə xeyirli sabahlar açılsın) yola düşərəm. Elə də eləyir. Bir evə səmitdəşib ev sahibini çağırır. Görür eşiyə çıxan yoxdu. Səm-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tini dəyişib ayrı qonşuyu çağırmar istəyir. Bir balaca qız uşağı görür.

Xəbər alır: – A bala, bəyaxdan sizi çağırıram, niyə eşiyə çıxmırsınız?

Qız deyir: – Ay baba, evimizin qulağı yoxdu. Kişi heç nə başa düşmür, amma arif adammış, üstünü vurmur.

Deyir: – Bə, dədən hara gedib?

Deyir: – Meşədən odun gətirməyə gedib.

Deyir: – Tezmi gələr, gecmi gələr?

Deyir: – Yaxına gedibsə gec gələr, uzağa gedibsə tez gələr.

Kişi yenə üstünü vurmur.

Deyir: – A bala, bə cijin hara gedib?

Qız deyir: – O da tükənməzdədi.

Aşıq fikirləşir ki, gərək mən bunları öyrənəm. Axşam düşür. Kişi gəlir, arvad gəlir, qonağa "xoş gəldin" eləyirlər. Sonra Allah verənnən süfrəyə düzürlər.

Aşıq deyir:

– Bu qız məni bağladı.

Deyirlər: – Niyə?

Deyir:

– O sözlərin mənasını mənə deyin, öymüzün qulağı yoxdu nə deməkdi?

Deyirlər:

– İt öyün qulağıdı. Çağıranda qabaqcana o eşidir. Bizim də itimiz yoxdu. Onun üçün də çağıranın səsini eşitmirik.

Qonaq deyir:

– Bə meşəyə niyə yaxına getsə gec gələr, uzağa getsə tez?

Deyirlər:

– Yaxında odun az olur, uzaqda çox. Onun üçün deyib uzaqdan haravasını tez doldurub gələr.

Aşıq deyir:

– Bə tükənməz nədi?

Deyirlər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bizim arvadlardı. Kürdən su gətirməyə gedəndə bir yerə yığılırlar. Onların gapı tükənmir. Həmişə evə gec gəlirlər. Su yoluna tükənməz deyirlər.

Aşıq bu işə mat qalır. Sonra çörəyini yeyib sazı köynəkdən çıxardır. Çalıb oxuyur.

## BELƏ AŞIQ OLMAQDANSA...

İki aşıq dost olur. Bir gün bu aşıqlardan biri o birinin evinə gedir. Aşığı çağırır-çağırır, aşığın əvəzinə evdən cavan oğlu çıxır. Salam-kəlamdan sonra aşıq dostunun oğlundan soruşur ki, a bala, dədən hanı? Uşaq aşığa deyir ki, atam minib doğmaz gedib bərəkətsiz gətirməyə, yaxına gedibsə gec gələcək, uzağa gedibsə tez gələcək. Aşıq uşağın üzünə baxa-baxa qalır. Uşağın nə dediyini başa düşmür. Fikirləşə-fikirləşə evə gəlir. Arvad soruşur ki, a kişi, nə olub yenə fikirləşirsən, gəmin dəryada batıb-etməyib ki? Kişi deyir ki, ay arvad, aşıq dostumun evinə getmişdim, dostumun oğlu mənə belə dedi, cavabını tapa bilmirəm. Arvad kişiyə deyir:

– A kişi, mən sənə deyəcəm, qulaq as. O uşaq ki, doğmaz deyir, bu çatırdır. Bərəkətsiz – odundur, yanır, bir az istisi var, heç bir bərəkəti yoxdur. Yaxına gedib gec gələcək – yəni yaxında odun azdır, çünki hər gedən kəsib gətirib. O, arabanı doldurub gətirənə kimi gec olacaq. Uzağa gedibsə gec gələcək – yəni uzaqda odun çoxdur, arabanı tez doldurub tez də gələcək. Və arvad ərinə deyir ki, əgər bir də belə etsən əlindən sazını alıb qıracam.

Aradan bir müddət keçir. Həmin aşıq yenə dostunun evinə gedir və dostunu çağırır. Yenə oğlu çıxır. Kişi yenə soruşur ki, a bala, dədən hanı? Oğlan cavab verir ki, dünya oxundan çıxıb, ordu dombalıb, atam gedib ordunu boşaldıb gətirməyə. Kişi yenə qalır məəttəl. Bilmir neynəsin. Suyu süzülə-süzülə evə gəlir. Arvad baxır ki, kişi yenə nə isə fikirləşir. Soruşur ki, a kişi, nə olub, niyə elə durursan? Kişi deyir:

– Arvad, yenə dostumun evinə getmişdim, oğlu mənə belə dedi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad kişiyə dedi ki, sözümüz sözdür, mən dediyimi edəcəm. İndi sən qulaq as. Dünya oxundan çıxıb – yəni dəyirman dayanıb. Ordu dombalıb – yəni kisəsi un ilə dolub, kişi də gedib onu gətirməyə. Arvad bu tapmacanın cavabını da açıb kişinin sazını gözünün qabağında daşa çırpır. Kişi bununla da aşıqlıqdan əl çəkir. Çünki onu uşaq qarşılayıb bu cür tapmacalarla bağlamışdı, əgər dostu qarşısına çıxsa nə edərdi. Belə bağlanıb qalmaqdansa, heç aşıq olmamaq hər şeydən yaxşı idi.

## GETDIM, GÖRMƏDIM, DEDIM, GƏLƏCƏK

Bir neçə cavan oğlan bir yerdə oturub söhbət edən zaman biri durub bir dostuna deyir ki, get, görmə, de gəlsin. Dostu gedib sonra da qayıdır. Göndərən oğlan soruşur ki, nə oldu? Gedən deyir: “Getdim, görmədim, dedim, gələcək”.

Aradan bir müddət keçir. Heç kim görünmür. Göndərən oğlan gedən oğlandan soruşur ki, ayə, nə oldu ki, gəlmədi? Gedən oğlan cavabında deyir: “Deməli gəldi ki, gəlmədi”.

*Cavabı:* Nişanlı oğlan dostuna deyir ki, get, qayınanamı görmə, nişanlıma de gəlsin. Dostu gedir, oğlanın qayınanasını görmür, qıza deyir, qız gələcəyini bildirir. Bəli, aradan bir müddət vaxt keçir, heç kim görünmür. Nişanlı oğlan dostundan soruşur ki, ayə, nə oldu ki, gəlmədi? Dostu cavabında deyir ki, yəqin qayınanan gəldi ki, qızı gəlməyə qoymadı.

## KORADAN ASILI QALIF

Keşəli Qulu kişi günlərin bir günündə bazara papaq almağa gedir. Papaqçı dükanına girəndə soruşurlar:

– Ay bava, nə buyurorsan?

– Papax dükəninnən papaq alallar, – deyir, – ay bala.

Papaxçı asılı papaxları göstərib deyir ki, buyur hansını istəyirsənsə seç.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qulu bava başdıyır bir-bir papaxların qiymətini xavar almağa. Görür ki, hamısını da birə beş baha qiymətə deyir. Axırıncı papağın qiymatını da xavar alıf kirmişcə eşiyə çıxmaq istəyəndə papaqçı deyir:

– Olmuya papaxları bəyəmmədin?

Qulu bava deer:

– Bəyəndim.

Deyir:

– Bə niyə almadın?

Deyir:

– Qiymətini bəyəmmədim.

Deyir:

– Niyə?

Deyir:

– Baha dediyin üçündükü elə papaxlarıyın hamısı koradan asılı qalıf.

## ENNƏMƏSİNƏ GƏLSEYDİ...

İki çoban bir sürü qoyun otarırdı. Dəmir yolunun təzə çəkilən vaxtıydı. Bu çovannar nəvələtiydi, dəmiryolunun, qatarın nə olduğunu bilmerdilər. Sürü yol boyu yayılıf otdamaxdeydı. Çovannarın hərəsi yolun bir tərəfindəydi. Bir də görürlər ki, nəysə bir uzun yekə qara şey tüstüləyə-tüstüləyə, bağıra-bağıra gəlib lap üstərini aldı. Hərəsi yolun bir tərəfinə ağzı üstə uzanıb gözlərini yumor.

Qatar keçənnən sonra özlərinə gəlif əəğa durollar. Sürünün yarısı xurd-xaşıl olur. Çovanın biri o biri yoldaşını çağırmax istəyəndə görör yoldaşı dua oxuyur: “Allah, atam-anam. Allah, sana min şükür...”.

O biri deer:

– Əə, zalım oğlu, zalım, nəyə şükür oxuyursan, sürünün yarısı əldən gedif.

Şükür oxuyan toxtaxlı adammış. Ona axıra qədər qulaq asannan sonra deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Allaha ona görə şükür oxuyuram ki, bu uzunda yekə dəmir nə yaxşı ki, uzunnamasına gəldi. Ennəməsinə gəlseydi, nə biz salamat qalardıx, nə də bu sürüdən bir heyvan.

## MİNƏK DAYLAĞA , GEDƏK YAYLAĞA

El yaylağa çıxmışdı. Keşəli dəmirçi Musa arançı olmax fikrindəydi. Arançı gərək əkinçi də olsun. O da bir xeylax torpax götürüf pambıx əkdi. Noolajax, yavaş-yavaş işə girişdi. Əmma gördü ki, ay dadı-bidad, iki adam bu işin öytəsinnən gələmmiyəjək. Ala (alaq) əkini batırer. Büyün-savax da göydən od yağajax. Sinəsi qövr elədi, aldı görək nə dedi:

***Aşdım sandığı***
***Səpdim pambığı,***
***Pitdi biyan,***
***Yoxdu ziyan.***
***Yanındakı sarmaşıx,***
***Oldu ona yaraşıx.***
***Pitdi çayır,***
***Yüyür hü, yüyür.***
***Bitdi kalış,***
***Yüz də çalış.***
***Çəhmə dad,***
***Ay arvad.***
***Yır-yığış,***
***Günnər hələ***
***Qızmamış,***
***Minək daylağa,***
***Gedək yaylağa.***

## NƏ DURUBSAN?

Davadan qabaq camaatın Orucoğlu çağırdığı bir şəhərli Qaraçöp Sovetliyində vergi yığanmış. Ayaqnan gəzməsin deyə hökumət ona



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

at veribmiş. Həmişə atı minib kəndə çıxanda Orucoğlu rastlaşdığı hər adamın yanında dayanar, ya vergini alar, ya da elə-belə söhbət eləyərmiş. At o qədər öyrəşibmiş ki, yolda bir nəfərə rast gələndə yiyəsi cilovunu çəkməmiş dayanarmış. Odu ki, indi kənddə bir nəfər yeri oldu, olmadı, hər rastlaşdığı adama ilişəndə soruşurlar ki:

– Nədi ə, Orucoğlunun atı kimi nə durubsan yenə?!

## MƏN DƏ SƏDRƏM, AMMA...

Davadan sonra İbrahim kişi Düzəyrəm kəndində kolxoz sədri, Cəfəroğlu isə kənd Sovetinin sədriymiş.Günlərin birində kolxozun mal-qarası qonşu kolxozun biçənəyinə düşür, qoruqçu onları aparıb dama salır. İbrahim kişiynən Cəfəroğlu məsləhətləşib, atlarını minib gedirlər qonşu kolxozun sədrinin yanına, üzrxahlıqdan sonra mal-qaranın buraxılmasını xahiş eləyirlər. Kolxoz sədri soruşur ki:

– Yaxşı, deyin görüm, siz kimsiniz, hansı qulluqdasınız?

Birinci Cəfəroğlu dillənir:

– Mən Düzəyrəm zəhmətkeş deputatları Soveti icraiyyə komitəsinin sədriyəm.

İbrahim kişinin Cəfəroğlunun özünü belə təqdim eləməsinə gülməyi tutur. Gülə-gülə qayıdır ki:

– Vallah, mən də sədrəm, amma bu qədər uzunundan deyiləm.

## ÜZLÜ QONAQLA XƏSİS EV YİYƏSİ

Günlərin birində birinin evinə qonaq gəlir. Ev yiyəsi çox xəsis adam olduğuna görə qonağın gəldiyinə bikef olur, qonağı qova bilmədiyi üçün ona qandırmaq istəyir ki, tez getsin. Qonağın fikri isə gəldiyi evdə çox qalmaq imiş. Ev yiyəsi bunu duyub deyir:

***Pişiyim, pişiyim evinə,***
***Aş bişirər evinə,***
***Bu gün bizə qonaqdı,***
***Sabah gedər evinə.***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qonaq ev yiyəsinin nə demək istədiyini başa düşüb

*Pişiyim, pişiyim babəsər,*
*Eşiyə çıxma, yel əsər,*
*Bu il sizə qonağam,*
*Gələn il də sərbəsər.*

Qonağın bu sözünü eşidən kimi ev yiyəsi pərt olur, daha nə deyəcəyini bilməyib susur.

## SİZİN ÇUĞUNDURU

Keçmişdə Bakıya iş axtarmaq üçün gəlmiş bir kişi öz yerlərini təriflәyərək deyir:

– Bizim yerlərdə meyvə-tərəvəz çox böyük olur. Bir çuğundurun kölgəsində yüz sərbaz yata bilər.

Bu ağ yalanı eşidib özünü saxlaya bilməyən yerlilərdən biri qonağa deyir:

– Qardaş, sizdə təəccüb ediləsi bir şey yox imiş ki, bizim şəhərdə misgər bazarında elə qazanlar qayırırlar ki, gecələr ay onun içində yatır.

Qonaq gülməkdən özünü güclə saxlayıb soruşur:

– Görəsən, onun içində nə bişirirlər.

Bakılı cavabında deyir:

– Sizin yerlərdə bitən çuğunduru. Elə çuğundurların da belə qazanı olar.

## İKİ KAR

İki kar yolda bir-birinə rast gəlir. Onlardan biri o birindən soruşur:

– Salam a kişi, hara gedirsən? Bazara gedirsən?

O biri kar yoldaşının nə dediyini başa düşməyərək cavab verir:

– Yox, bazara gedirəm.

Bu sözü eşitməyən birinci kar deyir:

– Get, elə bildim bazara gedirsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## YOLU İTİRSİN

Bakıda bir nəfər pişiyini torbaya salıb azdırmağa apararkən yolda yoldaşına rast gəlir. Yoldaşı hara getdiyini soruşduqda o, Qaraşəhərə getdiyini söyləyir. Yoldaşı bunu eşidib təəccüblə soruşur:

– A kişi, sən ki, İçərişəhərə gedirsən. Qaraşəhər hara, bura hara?

Pişikazdıran kişi barmağını ağzına tutaraq dostunun susmasını xahış edir, yavaşcadan deyir:

– Səs salma, mən belə deyirəm ki, pişik Qaraşəhərə getdiyimizi bilib, yolu itirsin.

## SƏN DEDİN BAX

Belə deyirlər ki, Qara Qulunun gəlini çənədən boşuymuş, ağzı harda ilişsə, orada da qalarmış.

Bir kərəm də yağ əridən gəlin taxtın üstündə mütəkkəyə dirsəklənmiş qayınatasına:

– Ay Qulu əmi, bu yağa bax, bu saat gəlirəm, – deyib evdən qonşuya gedir.

Aradan ara keçir. Yağ daşıb sobanın üstünə tökülür. Otaqda göz-gözü seçmir. Qonşuda başı gapa qarışan gəlin hannan-hana xatırlayır ki, sobada kərə yağı əritməyə qoyub. Tələsik özünü evə salır. Qapını açanda görür ki, qazanda yağ nə gəzir. Üzünü qayınatasına tutub gileylənir:

– A Qulu əmi, bəs bu zəhrimara baxmadınmı? Mən ki, sənə tapşırmışdım.

Qara Qulu :

– A bala, sən dedin bax, mən də sən gedəndən gözümü ondan çəkməmişəm, – deyə cavab verir.

## DEYƏN OLA Kİ...

Qara Qulunun öz qarısına acığı tutur. Çəliyə tərəf yönəlir ki, arvadı bir əl əngəzdəsin. Qulu ağacı götürənədək arvad cıvrax



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tərpənib qapıdan çıxır. Kişi eşiyə çıxanda görür ki, qarı obanın ayağına çatır. Yüyürüb çəliyi atır ki, bəlkə tolamazlıynan bir şey eləyə, ürəyi soyuya, o da baş tutmur. Ağac yaxına düşür. Qulu gəlib çəliyi götürəndə hiss eləyir ki, yox, daha yüyürməyə halı qalmayıb. Yol uzunu başlayır öz-özünə söylənməyə:

– Mənə deyən ola ki, ayə, a Qulu, belə-filan oğlu, özüyün gözüyün qabağında bunu iki sərhəd qarovulçusu Sarıqamışdan belə atnan qoyladı tuta bilmədi, sən bunun dalıynan hara yüyürürsən!

## İSMARIC

Keçmişdə Qazax bəylərindən Annax bəy Təhlədə yaşayan Məşədi Xanəhməd adlı bir nəfər itiağıllı, hazırcavab şəxsə ismarıc göndərir:

– Əziz qardaşım Məşədi Xanəhməd, mənə bir boyun öküz alarsan, nə qırmızı, nə boz, nə ağ, nə qara, nə sarı, nə yaşıl, nə göy, ümumiyyətcə, rənglərin birindən olsun.

Məşədi Xanəhməd cavab göndərir ki, qardaş, öküzü almışam, hazırdı, nə bazar günü, nə şənbə günü , nə xas günü, nə cümə günü, nə cümə axşamı, nə də adna günü gəl, nə bazar ertəsi. Ümumiyyətcə günlərin birində gələrsən, apararsan.

## TÜLKÜNÜNKÜ ALLAHA QALIB

Kəndin çıxacağında dəmirçi Əlləznən rastlaşan Molla Bayram marağını gizlədə bilmir:

– Hara belə?

Dəmirçi Əlləz soyuqqanlılıxnan dillənir:

– Köndələnnərdə tülkü görmüşəm. Yuvasını da bələddəmişəm. Onu tutmağa gedirəm.

– Bə bu nə yarax-yasaxdı?

– Bu köşəndi. Qabaxca tülküyə tüstü verəcəm. Çıxdı ki, çıxdı. Çıxmasa belnən qazıb torpağı lapatqıynan təmizdəyəcəm. Tülkü qaçacax. Tula onu qovanda tülkünün canı bu tüfəngdədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Pahoo, daa denən tülkününkü Allaha qalıb, – deyə Molla Bayram gülümsünür.

## AŞIQ SÖYÜNLƏ NADİR

Aşıx Söyün arannan qayıdırmış. Onun mindiyi atı qan-tər içində görən Nadir (Şair Nəbinin oğlu) özünü saxlaya bilmir:

***Aə, bu gələn Arıxdımı,***
***Əynindəki çarıxdımı?***
***Altındakı yağır yavı,***
***Böyründəki nöyüt qavı,***
***Nə minifdi çərrəmişi***
***Baldırrarı qırıxdımı?***

## ƏNGİMNƏNMİ VURAYDIM

Əhmədin rəngi-ruhu Güləsəri açmır. Maraq üstün gəlir: – Ə kişi, nə olub, – deyir.

– Arvad, çaqqal “haqq” elədi, mənm ürəyim “taqq” elədi. Yaman qorxdum.

– Bə niyə vurmadın?

– Ay atası rəhmətlik, belimdə qatar, çiynimdə tüfəng, əlimdə qəmə, əngimnənmi vuraydım, – deyə Əhməd acıqlanır.

## ŞAİR İLƏ DƏLİ

Bir gün bir şair çəmənlikdə əyləşib şərab içərək təbiətdən ilham alır. Bu vaxt onun yanına bir dəli gəlir. Şair onu kefləndirmək fikrinə düşür, dəliyə şərab təklif edir.

Dəli təəccüblə şairə baxıb deyir:

– Sən şərabı mənə oxşamaq üçün içirsən, bəs mən kimə oxşamaq üçün içməliyəm?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ELƏ ALDIĞIM QİYMƏTƏ

Bir kişi oğurladığı paltarı bazara gətirir. Bir müştəri oğrunun istədiyi qiymətin yarısını təklif edir. Oğru deyir:

– Sənin verdiyin qiymət paltarın mayasını da ödəmir.

Müştəri aralandıqdan bir qədər sonra iş elə gətirir ki, oğrunun satmaq istədiyi paltarı başqası oğurlayır.

Müştəri oğru kişinin bazardan əli boş qayıtdığını görüb soruşur ki, paltarı neçəyə satdın?

– Elə aldığım qiymətə, – deyə oğru cavab verir.

## KÖKƏNİ KİM YESİN

Biri varmış, biri yoxmuş, keçmiş zamanlarda bir dəvə, bir keçi, bir də tülkü varmış. Bir gün onlar bir kökə tapırlar. Kökəni kimin yeməsi üstündə mübahisə düşür. Bu qərara gəlirlər ki, kim yaşının daha çox olduğunu isbat etsə, kökəni də o yesin. Keçi tez söhbətə başlayır. Deyir ki, Nuh gəmisinə birinci dəfə mən minmişəm. Tülkü gülüb bildirir ki, Nuh gəmisinin qayrılmasında iştirak etmişəm. Bu hapdan-gopdan matı-qutu quruyan dəvə yalan uydura bilməyəcəyini duyur, öz-özünə düşünür ki, bu balacaların yaşı bu qədər olanda, gör mənimki nə qədər olar. Belə düşünən dəvə kökəni ağzına atıb udur.

## MƏN ARVADIMIN YANINA GEDİRƏM

Bir nəfər yaxşı yeyib-içdikdən sonra axşam üstü evdən çıxıb meşənin ətəyində yerləşən binəyə yola düşür. Kəndi təzəcə çıxıbmış ki, görür itləri də dalınca gəlir. Nə qədər çalışır ki, iti geri qaytarsın, mümkün olmur. Axırda hirslənib deyir.

– Yaxşı, tutaq ki, mən arvadımın yanına gedirəm, bəs sən hara gedirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## DİRİ TUTMAQ İSTƏYİRLƏR

Kənddən bir müəllim şəhərə gəlir. Qayıdanda televizor alıb gətirir. Kənddə hələ televizorun nə olduğunu bilən yox imiş. Müəllim evə çatan kimi televizoru işə salır. Səs-küyə qonu-qonşu yığılır. Ekranda xokkey oyunu göstərilirmiş. Bu möcüzəyə hamı təşvişlə baxır. Oyunçuların bir-birini döyüb yıxılması, nəyinsə dalınca basabas salmaları hamını təəccübləndirir. Kəndlilərdən biri özünü saxlaya bilməyib soruşur:

– Müəllim, başına dolanım, bu xalq bir-birini niyə qırır? Bir desən, bəlkə bizim də köməyimiz lazımdı. Nədi onlar tutmaq istədikləri?

Ev sahibi bir qədər özünü itirsə də, namını yerə vermir. Çoxbilmiş kimi yığışanlara üz tutur:

– Ay camaat, niyə başa düşmürsünüz? Görmürsünüzmü hamı bir şeyin dalınca düşür. Tutmaq istədikləri nədi, mən də bilmirəm. Amma onu bilirəm ki, o yumru şey nədirsə, onu diri tutmaq istəyirlər.

## AZAR TORBA DEYİL Kİ

Bir hazırcavab kişinin arvadı xəstəymiş, hıqqıltısı yerə-göyə sığmırmış. Ərinin ona məhəl qoymadığını görüb gileylənir:

– A kişi, ürəyin daşdı, nədi sənin? Heç halıma yanmırsan.

Kişi qollarını yana açıb, umudsuz-umudsuz deyir:

– Əlimdən nə gəlir, rəhmətliyin qızı?! Azar torba deyil ki, belimə alım.

## HAZIRCAVAB ADAM

İtlərin hürüdüyünü görən kələkbazlar hazırcavab kişidən soruşurlar:

– Deməzsənmi, bu itlər niyə hürür?

Kişi bilir ki, onu sarıyırlar, o da keçir sarığa:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məni qorxutmaq üçün, – deyir.

Başqa bir vaxtda da itləri göstərib maraqlanırlar:

– Deməzsənmi, bu itlər niyə quyruqlarını bulayır?

Kişi əlüstü dillənir:

– Məndən qorxduqları üçün.

* * *

Hazırcavab dağa gedibmiş. Dağ adamları bulaq başında ondan soruşurlar:

– Biz burda suyu içəndə "oxqay" deyirik. Sizlərdə nə deyirlər?

– Qurt-qurt...

* * *

Bir gün hazırcavab yoxuş çıxırmış. Uşaqlardan biri yalandan yolun ortasına yıxılıb zarıyır ki, kişi onu dalına alsın, diki qaldırsın.

Kişi ona yaxınlaşıb soruşur:

– Bala, nə olub?

Uşaq dillənir:

– Ayağım burxulub.

– Kimin oğlusan?

– Lal Bayramın.

Hazırcavab başını bulayıb, söyün-söyün söylənir:

– Bu sifət ki səndə var, bala, gərək tülkü Məmmədin oğlu olaydın.

* * *

Hazırcavab qaynar südü görüb oğluna deyir:

– Aya, a bala, qazanı çölə çıxart, qoy bir hovur soyusun.

Oğlu qazanı eşiyə çıxarır.

Bir az keçmiş kişi soruşur:

– Nooldu, a bala, süd soyudumu?

Oğlu həyətə çıxmadan dillənir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Soyuyub, ay bava!
Kişi hirslənib deyir:
– Hardan bildin, bir çıx yoxla.
Oğlu qeyzlə qapını açıb bildirir:
– Gərək elə baxasanmı? Görmürsənmi it hancarı marthamart içir! Soyumasa içə bilərmi?

## XƏSİS EV YİYƏSİ İLƏ QONAQ

Səfərdə olan bir kişi axşama yaxın yornuq, ac halda gəlib tanımadığı bir kəndə çatır. Bir evdə gecələməli olur. Ev sahibi çox xəsis imiş, odu ki, qonağa yemək vermək istəmir. Qonağın başını qatmaq məqsədilə qazanı su ilə doldurur, içinə də yekə bir daş salıb ocaqdan asır. Aradan bir xeyli keçir, qonaq yatmır ki, yatmır, elə gözünü qazana zilləyib yemək gözləyir. Bunu görən ev sahibi qonağa eşitdirmək məqsədilə oxuyur:

***Qayna qazanım, qayna,***
***Bişərsən yaza kimi.***

Qonaq da hazırcavab imiş. Özünü o yerə qoymayıb cavabında deyir:

***Atım arıq, özüm yornuq,***
***Oturram payıza kimi.***

Xəsis ev sahibi çar-naçar qalıb arvadına xörək bişitdirir.

## AMMA NƏ QANDIN

Bolnis rayonunun kəndlərindən birində uzun müddət işə düzəlmək get-gələ salınan müəllimlərdən biri rayon təhsil şöbəsində işləyən azərbaycanlı inspektora deyir ki, mənim pulum yoxdur deyə işə düzəltmirsiniz.

İnspektor deyir ki, pul nədir, sadəcə səni işə düzəltmək üçün boş yer yoxdur. Dediklərini təsdiq etmək üçün söhbətdə iştirak edən başqa bir müəllimə üzünü tutur:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Müəllim, səni də işə düzəltdik. Allaha and verirəm, düzünü de, səndən pul aldıqmı?

Müəllim deyir:

– Ay inspektor, indi ki, and verirsən, düzünü deyəcəm, min manat vermədimmi?

İnspektor hirslənərək deyir:

– Amma sən nə qandın!..

## ÇOBANIN QOLTUĞUNDAKI

Günlərin birində çoban bir bəyin beş-altı qoyun-quzusunu itirir. İtən qoyun-quzunun əvəzində bəy çobandan yüz manat pul tələb edir. Çoban nə qədər yalvarırsa, bəyin ürəyinə rəhm gəlmir. Axır iş qazıya düşəsi olur.

Bəy gizlincə qazıya on manat verib, işi onun xeyrinə həll eləməyi tapşırır. Divana gedən çobansa qoltuğuna iri bir çaylaq daşı qoyur. And içir ki, bəy deyən olsa, daşı çarpacam qazının kəlləsinə.

Divan başlanır. Çoban görür ki, qazı da bəy deyəni deyir. Qazıyla gözləşib əlini qoltuğuna salır, sonra göyə qaldırır, sonra da onu göstərir. Yəni işi mənim xeyrimə həll eləməsən Allaha and olsun, qoltuğumdakı daşla kəlləni dağıdacam. Qazı da elə başa düşür ki, çoban ona işarə verir, yəni işi mənim xeyrimə həll eləsən, and içirəm qoltuğumdakı pulu verəcəm sənə. Ürəyi atdana-atdana sözünü dəyişir, yüz bəhanə gətirib çobanı bəyin cəngindən qurtarır.

Divanı qurtarandan sonra qazı çobanı yanlayıb deyir:

– Yaxşı qurtardın, di pulları bəri ver!

Çoban gülür, qoltuğundan çaylaq daşını çıxarıb qazıya göstərir.

– Sən yaxşı qurtarmısan, mən yox!

## GÖR BULAQDA NƏ DANIŞIRLAR

Bulağa su gətirməyə gedən arvad hər gün evə təzə xəbərlə qayıdarmış. Onun söylədiklərinə əri əvvəlcə inanmasa da sonradan görürmüş ki, arvadı deyən düz çıxır. Bir gün də arvad gəlib deyir ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bəs bulaqda danışırlar ki, müharibə başlayacaq. Bir neçə gündən sonra doğrudan da müharibə başlayır, onun ərini də davaya aparırlar.

Cəbhədən məktub yazan kişi arvadından soruşur:

– Arvad, bir gör bulaqda müharibənin qurtarması haqqında nə danışırlar?

## İNSAFIN YOXDUMU?..

Payızın tozanaqlı günü ot tayasının gündüşərində iki nəfər tayaya dirsəklənib, arabir bir-birinə tərəf əyilir, pıçıldaşırdı. Yan-yörələrində bir inni-cinni yox idi. Gendən baxan elə bilirdi ki, ya qiybətdi, ya da oğurluq planı tökülür. Biri bir az hündürdən dedi:

– Tanrının işidi, özü bilən yaxşıdı. Bir gün yaranan bir gün öləcək, ona qarışmaq olmaz! Amma dediyim odu ki, ölən öldü, canını qurtardı, gərək geri yanında qalana gün ağlayasan. İndi düzmü elədi Fərzalı? Atama qırx verirəm deyə sağlam inəyin boğazına bıçaq çəkdi. Uşağın apartısını kəsdi.

O birisi də bir az öskürüb, başını buladı.

– Hə, düz deyirsən, atan rəhmət.Tutumsuz adamdı Fərzalı! Deyən ola ki, ayə, beli qırılmış, bir anrı o təpələrə çıx, gözünü aç bax, dərələr, düzlər qoyunla doludu, nə olsun ki, özüyün döy, hərlən beş-onunu gətir, işini də qaydasınnan yola ver. Hazırı tükətmək kişi işidimi sən görürsən? Bir külfətin gözü o inəyin ağartısında döydümü? İnsafın yoxdumu sənin, tanrı sənə insaf versin!

## ALLAH XEYİR VERSİN, MƏNİM İŞİM YOXDUR

Bir nəfər inək alıb aparırmış. Yolda inək satanın qonşusu ilə rastlaşır. Hal-əhvaldan sonra aralarında belə söhbət olur:

– İnəyi də sənin qonşundan aldım. Sən bilərsən, necədi, südü yaxşıdırmı?

– Yaxşı eləyib almısan, Allah xeyir versin, mənim işim yoxdur, amma məməsinin biri kordur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HÖYSƏLƏN OLSUN...

Kənd mağazasında işləyən Məşədiqulunun yanına bir dostu gəlir. Məşədiqulu halalına mağazaya yemək gətirməsini tapşırır. O da süddü aş bişirib gətirir. Dostu ac olduğundanmı, ya süddü aş yemədiyindənmi qaşığı dərindən salıb ağzına alır. Aş ağzını yandırır. O da ağzının yandığını üzə vurmamaq üçün yuxarı baxıb deyir:

– Qardaş, deyəsən mağazan təzədi.

Bunu bayaqdan başa düşən Məmmədqulu kişi dönüb deyir:

– Hə, bu atmaların hər dənəsi iki üfürcək, bir səbrə başa gəlib.

## ON BİRİNİ DƏ SAYMIŞDIM

Bir nəfər kənddən Tiflisə gəlibmiş. Şəhərdə on bir mərtəbə kimi məşhur olan binanın yanından keçəndə dayanıb heyrətlə mərtəbələri sayır. Kənardan bu mənzərəni seyr edən polis ona yaxınlaşıb nə etdiyini soruşur. O, binanın mərtəbələrini saydığını söyləyir. Polis başlayır onu dolamağa:

– Mərtəbələri saymaq olmaz, qadağandır. Ona görə də neçə mərtəbə saymısansa hər mərtəbəyə görə cərimə olaraq bir manat verməlisən.

Sadəlövh kəndli and-aman edir ki, beşinci mərtəbəyə qədər saymışam və çıxarıb beş manat verir.

Kəndə qayıdanda ondan soruşurlar ki, şəhərdə nə var, nə yox? O da öyünərək cavab verir:

– Şəhərdə polisi yamanca aldatdım. On bir mərtəbəni saydığıma görə hər mərtəbəyə bir manat cərimə verməli idim. Amma mən də hərif deyiləm, on birini də saymışdım, amma yalandan dedim ki, beşini saymışam və beş manat cərimə verdim.

## XOŞA, XƏNNİ YAXŞI DEYİB

Bir gün Xənni yaylaqdan arana gələsi olur. Kənddə ölü düşübmüş. Binalərə səs yayılır ki, deməzsənmi, Xənni arana gedir. Nə olacaq, hərə bir bağlama pendirdən, şordan, süzmə qatıqdan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ətdən, kimin nəyə gümanı gəlir, düzəldib gətirirlər ki, ay Xənni, onsuz da ayağın gedir, bunu da apar bizim evə. Belə-belə sovqatlarla kişinin qapısına bir dəvənin yükü yığılır.

O başdan Xənni sovqatları xurcuna yığıb, aşırır eşşəyin belinə, “ya Allah“ deyib, yola düşür. Kişi heyvanı hey dəhmərləyir ki, kəndə bir az vaxtlı, ışıq gözüykən çatsın. Elə Barmaqsızı keçib Xədiyə dikələndə eşşək yıxılıb ayaqlarını uzadır. Xənni nə qədər əlləşirsə, bir şey çıxmır, eşşək ölür. Kişi xurcunu birtəhər özü çiyinləyir. Yayın qorabişirən vaxtı göydən od ələnir, torpaqdan, sudan, daşdan hənir qalxırdı. Xənni birtəhər, ölüm-zulum şər qarışana özünü kəndə salır. Qapısına çatıb həyətdəki iri daşın üstünə çullanır. Papağını dizinə keçirir, başından buğ qalxır. Hirsindənmi, yorulduğundanmı, yadından çıxardığındanmı xurcunu çiynindən salmır. Arvad eşiyə çıxanda görür ki, kişi gəlib.

– Boy, ay kişi, xoş gəlibsən, – deyə-deyə Xənninin dörd tərəfinə hərlənir.

Kişi köntöy-köntöy baxır, birdən hirsdi-hirsdi bozarır arvadın üstünə ki, əə xoşunu mələdim, xurcunu çiynimdən götür, mənim hənirim kəsilib, sən nə başlayıbsan xoş, ha xoş!

Odu ki, indinin özündə də yersiz hərəkət edib, məzəmmət olunanda xoşum belə çəkdi deyənə deyirlər: Xoşa, Xənni yaxşı deyib.

## QONAQ SƏNİ YEYƏCƏKMİ

Birinin evinə qonaq gəlir. Ev sahibi qonağı qarşılamaq üçün həyətə çıxır. Zəncirdəki itin dartınaraq hürdüyünü görüb deyir:

– Niyə hürürsən, ay çər dəymiş, qonaq səni yeyəcəkmi?

## KEÇİLƏRİ ƏSGƏR APARIRLAR

Darvazlı aqronom Orucun kök bir keçisi varmış. Qorxur ki, bir gün oğurlayarlar. Odur ki, keçini kəsmək qərarına gəlir. Keçini örüşdən gətirərkən yolda ağbirçək bir qarı soruşur ki, ay Oruc, günorta vaxtı keçini niyə evə aparırsan. Oruc deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Heç kəs bilməsin, bircə sənə deyirəm. Dünən rayonda iclas olub, qərara gəliblər ki, keçiləri yığıb davaya göndərsinlər.

Qarı təəccüblənir:

– Ay bala, bir şey anlamadım, axı keçinin davada nə işi var?

Oruc deyir?

– Hitlerin qoşunu Qafqaz dağlarına yaxınlaşıb. Əsgərlərimizin gedə bilmədiyi sıldırım qayalardan keçmək üçün keçilərin belinə mina bağlayıb buraxacaqlar almanlar tərəfə.

Orucun sözləri qarının beyninə batır. Oruc həmin sözləri qarşılaşdığı bir başqasına da deyib möhkəm-möhkəm tapşırır ki, heç kim bilməsin.

Ancaq ox yaydan çıxmışdı. Qısa müddətdə kəndə yayılır ki, keçiləri əsgər aparacaqlar. Hamı keçisini kəsir.

Ağsaqqallardan Maqa Əhmədlə Kötük Əhməd Orucun yanına gəlib soruşurlar ki, bu nə işdir, deyirlər keçiləri əsgər aparacaqlar. Aqronom Oruc deyir:

– Boş sözdür, haradansa camaatın ağzına düşüb. Hökumətin əsgərinə, texnikasına nə gəlib ki, keçiləri aparsınlar?!

İki gündən sonra rayondan nümayəndə gəlib Orucu çağırır ki, sən adamları aldadıb keçiləri kəsdirmisən. Oruc deyir, yalandır, inanmırsınız ağsaqqallardan soruşun. Maqa Əhmədlə Kötük Əhməd gəlib şahidlik edir ki, Aqronom Oruc bizə düzünü başa saldı, dedi ki, boş sözlərə inanmayın. Bununla da Oruc kişi canını qurtarır.

## KEÇİ YEDDİ YAŞINDAN SONRA NƏ OLUR?

Aqronom Oruc Gəncədə Kənd Təsərrüfatı İnstitutunda oxuduğu vaxtlar tələbələr yığışıb imtahanqabağı biliklərini yoxlamaq üçün sual-cavab edirlərmiş. Oruc onlara yaxınlaşıb deyir ki, mən bir sual verərəm, cavabını tapa bilməzsiniz. Deyirlər sualını de. Oruc:

– Keçi yeddi yaşından sonra nə olur?

Biri deyir qocalır, biri deyir tükü ağarır. Nə isə çox cavab verirlər. Oruc heç biri ilə razılaşmır. Bu söhbət böyüyüb bütün instituta yayılır. Müəllimli-tələbəli hamı bu suala cavab axtarır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün Oruc imtahan verirmiş. Müəllim deyir:

– Ay bala, bu nə sualdır camaata vermisən, indi cavabını özün de.

Oruc deyir:

– Müəllim, qiymət yazın, cavabı deyim.

Müəllim razılaşır. Oruc deyir:

– Keçi yeddi yaşından sonra səkkiz yaşına keçir, başqa nə olasıdır ki?!

## SİZİN KİMİ QIZ OLUR

Borçalıda az adam tapılardı ki, Aqronom Orucu tanımasın. Bir gün o, qatarda Bakıya gedirmiş. Vaqonda onu tanıyan tələbə qızlardan biri deyir:

– Oruc əmi, keçi yeddi yaşından sonra nə olur?

Oruc kişi baxır ki, qızlar onu tanıyıb, qəsdən ona bu sualı verirlər. Deyir:

– Nə olacaq qızım, sizin kimi qız olub sonra da instituta oxumağa gedir.

## XURCUNU VER, GEDİRƏM

Kəndlərin birində çox kasıb kişi yaşayırdı. Onun gözəl arvadı vardı. Deyirlər kasıbın var-dövləti arvadıdı. Bir gün arvad ərinə deyir:

– Belə dolanmaq olmaz. Gəlsənə səni varlandırım.

Arvad fikrini ərinə söyləyir. Onlar birlikdə razılığa gəlib qurğu qururlar. Arvad çox gözəl olduğundan kəndin mollası, cuvarı, meşəbəyisi ona aşiq olmuşdular. Bir gün arvad yeddi cür qələmlə özünə zinət verib, su gətirməyə gedir. Mollanın evinin yanından keçəndə molla ona sataşır. Arvad mollaya deyir:

– Ərim uzaq səfərə gedib. Bu gecə əli dolu bizə gəl.

Arvad molla ilə vədələşir. Sonra cuvar, meşəbəyi ilə də vədələşir. Evə qayıdıb bir böyük qazanda su qızdırır. Axşam düşür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əri çıxıb həyətdə gizlənir. Vədələşdikləri vaxt molla gəlib çıxır. Özüylə də çoxlu pul-para gətirir. Arvad onu içəri buraxıb deyir:

– Kül sənin arvadının başına. Səni niyə belə saxlayır. Soyun, səni çimizdirim.

Molla soyunub çimməyə hazırlaşanda qapı döyülür. Molla bilmir nə etsin. Arvad onu evin küncündəki kartof quyusuna salır.

Bir azdan cuvar gəlir. Cuvar da özüylə xeyli pul-para gətirmişdi. Arvad mollaya dediyi sözləri buna da deyir. Cuvar soyunub çimməyə başlayanda qapı yenə döyülür. Arvad cuvarı da quyuya salır. Cuvar quyuda mollanı görüb soruşur:

– Buraya necə düşmüsən.

Molla cavab verir:

– Sən necə, mən də elə.

Sonra da meşəbəyi gəlir. O da əli doluydu. Arvad həmin yolla onu da quyuya salır. Meşəbəyi quyudakıları görüb soruşur:

– Siz burada nə gəzirsiniz?

Quyudakılar cavab verirlər:

– Belə, canına dərd gəzirik.

Arvadın əri içəri girib deyir:

– Bu daşdı, nədi? Səhərdən qaynadırsan.

Bunu deyib kişi, qaynar suyu kartof quyusuna tökür.

Molla, cuvar, meşəbəyi cəhənnəmə vasil olur.

Kişi deyir:

– Arvad, sənin məni varlandıran günün olmayaydı. İndi biz neyləyək?

Arvad deyir:

– Çarəsi məndə.

Bunu deyib arvad sənəyi götürüb suya gedir. Arvad dağdan gələn çobanla bulaq başında rastlaşır. Deyirlər ki, çobanlar bir dağa gedəndə, bir də dağdan gələndə eşqli olurlar. Çoban arvadı görüb bir yanıqlı fit çalır.Arvad çobana deyir:

– Mənim ərim ölüb. Gəl onu basdır, sonra mən səninəm.

Çoban razılaşır. Axşam bir qoç kəsib, cəmdəyini xurcuna qoyub arvadın yanına gəlir. Arvad mollanın ölüsünü kəfənləyib



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verir çobana. Çoban ölünü aparıb bir quyuya atır. Quyunu ağzına qədər daşla doldurub geri qayıdır.

Evə çatanda arvad deyir:

– Evin yıxılsın, basdırdığın ölü özündən qabaq gəlib.

Çoban söylənə-söylənə bu dəfə cuvarın ölüsünü götürüb aparır. Ölünü dərin bir dərəyə atıb xeyli gözləyir ki, görsün, qayıdacaq ya yox. Qayıtmadığını görüb geri gəlir. Ona qədər arvad meşəbəyinin ölüsünü kəfənləyir. Çobanın gəldiyini görüb deyir:

– Gorbagor olmuş yenə geri qayıdıb.

Çoban bu dəfə də ölünü götürüb gedir. Bir yerdən hündürdən su tökülürdü. Buna da el arasında Sutökülən deyirdilər. Çoban ölünü Sutökülənə gətirir. Demə, bu zaman bir molla, adəti üzrə, Sutökülənin aşağısında dəstamaz alırmış. Çoban ölünü yuxarıdan tullayanda molla görür ki, bir adam su ilə əl-qol ata-ata gəlir.

Qorxusundan aftafasını qoyub qaçır. Molla ağ paltarda olur. Çoban bunu görub elə bilir ki, yenə həmin ölüdü. Nə qədər onun dalınca qaçır, çata bilmir. Molla gözdən itir.

Çoban kor-peşman arvadın yanına qayıdıb acıqlı-acıqlı deyir:

– Məndə daha can qalmadı. Sən də öl, ərin də ölsün. Xurcunun içindəki sənin olsun. Xurcunu ver, mən gedirəm.

## YASTIĞI AYAĞIMIN ALTINA QOY

Öz müdrik kəlamlarıyla bu gün də Darvaz camaatının yaddaşında yaşayan Qara Məhəmməd bir axşam evə yorğun qayıdır. Taxtda uzanıb arvadına deyir:

– Bir yastıq gətir, qoy ayağımın altına.

Arvadı soruşur:

– Ay kişi, heç yastığı da ayağın altına qoyarlar?

Məhəmməd kişi cavab verir:

– Ay arvad, sən bilməyən işlər çoxdur. Başımın ucbatından ayaqlarım bu gün çox gəzib, yorulub. Odur ki, dincəlsi bir iş görə bilməyən baş yox, nahaqdan əziyyət çəkən ayaqlardır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MƏN İNDİ OTURURAM

Cavan bir oğlan avtobusda özündən yaşlıların ayaq üstə durmasına məhəl qoymadan oturur. Bunu görən bir qoca ucadan öz-özünə deyinir:

– Eh, indiki cavanlarda abır-həya qalmayıb, böyük-kiçik sayan yoxdur. Demirlər ki, alxıb böyüklərə yer verək.

Sözün ona vurulduğunu anlayan cavan oğlan sakitcə cavab verir:

– Doğru deyirsiniz ağsaqqal. Mən də elə ona görə indi otururam ki, qocalanda onsuz da yer verən olmayacaq.

## O DA TÜSTÜLƏTMƏYƏ ÇIXIB

Rusiyaya qazanc dalınca getmiş Qarayazı aysorularından biri orada dünyasını dəyişir. Qarayazıdakı qohum-əqrəbası yığılıb cənazəni gətirmək üçün Moskvaya kimi göndərsinlər deyə məsləhətləşirlər. Bəziləri işindən ayrıla bilmədiyi üçün, bəzilərinin isə sənədləri düz olmadığı üçün belə qərara gəlirlər ki, qonşularında yaşayan və işsiz-gücsüz bir aysoruya və bir qarapapağa artıqlamasıyla təyyarə bileti üçün pul, yemək, yatmaq və cib xərcliyi, cənazəni gətirmək üçün gərəkən məbləği verib Moskvaya göndərsinlər. Elə də edirlər.

Moskvaya gələn qarapapaq və aysoru fürsəti əldən verməyib başlayırlar yeyib-içib kef çəkməyə, pullarını sağa-sola xərcləməyə və bir də görürlər ki, nə cənazəni sinklətmək üçün, nə də təyyarəyə bilet almaq üçün pulları yetmir. Məcbur olurlar qatarla qayıtsınlar. Hərəsi cəsədin bir qolundan girərək onu dəmiryolu vağzalına gətirir, qatar bələdçisinə sərxoş olduğu üçün yatdığını bildirib bir təhər qatara mindirir və kupenin yuxarı çarpayısına uzadırlar. Özləri isə aşağı çarpayılarda özlərinə yer edirlər. Qatar yola düşür.

Yolüstü stansiyaların birində qatara öz peşə alətləri əlində bir rus arxeoloq minir və bu qarayazılıların kupesində bir boş yer



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olduğu üçün bələdçi tərəfindən oraya yerləşdirilir. Bir müddət tanışlıqdan, hal-əhvaldan sonra aysoru və qarapapaq yol yoldaşları olan rusa üst qatda yatan yoldaşlarının sərxoş olduğunu deyib onu qurdalamamağı tapşırırlar, özləri isə siqaret çəkmək üçün kupedən çıxırlar. Bunlar çıxandan sonra bu rus başlayır öz peşə alətlərini yerləşdirməyə və yuxarı çarpayıda yataq yerini düzəltməyə. Bu məqamda qatar kəskin tormoz verir və cəsəd yuxarıdan yerə düşür. Başı qazmaya dəyir. Arxeoloq yoxlayıb görür ki, nəbzi vurmur, ölüb. Təntiyir, fikirləşir ki, ondan görəcəklər. Kupenin pəncərəsini aşağı salır və cəsədi götürüb bayıra atır.

Siqaret çəkməyə çıxanlar geri gələndə görürlər ki, yoldaşları yoxdur. Rusdan soruşurlar ki, bəs o hanı? Rus da kefini pozmadan deyir:

– O da sizin kimi siqaret tüstülətməyə çıxıb.

## FARASI QIRIQ MOTOSİKLET GÖRDÜM

Qarayazıdan bir neçə nəfər göldən elektriklə balıq tutmaq fikrinə düşür. Elektriklə balıq tutmaq qadağan olduğu üçün bunu gecə vaxtı etməyi qərarlaşdırırlar. Şər qarışandan sonra generatoru eşşəyə yükləyib gizlicə gölə gəlirlər. Generatoru düşürüb təzədən yükləməyə ərindiklərinə görə, eşşəyin belindəcə işə salırlar. Elə generator işə düşəndə eşşək xıncıb aradan götürülür. Nə qədər sağı-solu axtarırlar eşşəyi tapmaq mümkün olmur. Korpeşiman geri qayıdırlar. Alatoranda qarşılarına bir naxırçı çıxır. Ondan eşşəyi görüb-görmədiklərini soruşurlar. Naxırçı deyir:

– Vallah, eşşək-zad görməmişəm. Amma gecəykən farası qırıq bir motosiklet elə getdi ki, az qaldı məni də vura.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# IX. ANDLAR

**A**

- Allaha and olsun
- Allah haqqı
- Anamın//atamın//bavamın südü haqqı
- Anamın//atamın//bavamın goru haqqı
- Anamın//atamın//bavamın canı haqqı (and olsun)
- Anamın//atamın//bavamın urfu haqqı
- Anamın//atamın//bavamın qavırı haqqı
- Anamın//atamın//bavamın//balamın başıçün
- And olsun yeri-göyü yaradana
- And olsun çörəyə
- And olsun duaya
- And olsun getdiyim ziyarata
- And olsun göydəki Allaha

**B**

- Balamın(larımın) başına and olsun
- Bərəkət haqqı
- Bavamm goru haqqı
- Başım haqqı
- Başım üçün
- Başına and olsun
- Bu axşam haqqı
- Bu axşamın qarıvı haqqı
- Bu əziz gün haqqı
- Bu gejə haqqı
- Bu gün haqqı
- Bu yol haqqı

**C**

- Cavan canınçün



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Canımçün
- Cəddin(m) haqqı

**Ç**

- Çayın piri haqqı
- Çörək haqqı
- Çörəyin bərəkəti haqqı

**D**

- Dayımın(nın)//əmimin(nin) başıçün
- Dayımın(nın)//əmimin(nin) canı haqqı
- Dayımın(nın)//əmimin(nin) urfuna and olsun
- Dədəmin(nin) urfuna and olsun
- Duz-çörəy haqqı
- Düz demerəmsə ojaxda yanem
- Dostluğumuza and olsun
- Dinim-imanım haqqı

**Ə**

- Əzizlərimin canıçün
- Əmdiyim halal süd haqqı
- Əppəy haqqı

**G**

- Gözüm o ojaxda yansın ki
- Göy haqqı
- Göydəki Allah haqqı
- Gün haqqı

**H**

- Hajıəfəndi haqqı
- Halal adın haqqı
- Halal südün haqqı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Halal duz-çörəyin (süfrən) haqqı
- Halal çörəyin haqqı
- Haqqa and olsun

**X**

- Xıdır-Əlləz haqqı
- Xıdır-Nəvi haqqı
- Xıdır Nəvinin yeli haqqı

**İ**

- İmanım haqqı
- İnandığımız haqqı
- İşıq haqqı
- İşığa kor baxım

**K**

- Kəllən haqqı
- Kəllənə and olsun
- Kəramətim haqqı
- Kəsdiyimiz çörəyə and olsun
- Kümbəz haqqı

**Q**

- Qağamın başı üçün
- Qardaşımın canı üçün
- Qardaşdarı ölsün yalan deyənin
- Qardaşımın tək başıçün
- Qaranər haqqı
- Qıvlamıza and olsun
- Qızıl Quran haqqı
- Qıvla haqqı
- Qıldığım namaz haqqı
- Quran haqqı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**M**

- Məsləyim(in) haqqı
- Məscid haqqı

**N**

- Nakam ölənlərimin goruna and olsun
- Namusuma and olsun
- Nəvələrimin başına and olsun

**O**

- Od haqqı
- Oğlumun//qızımın başıçün
- Oğlumun cavan canıçün
- Ojax haqqı

**Ö**

- Öz başımçün
- Öz canımçün
- Özüm ölüm
- Ölümümü görəsən ki
- Ömrümdən, günümdən xeyir görməyim ki
- Ömrümdən Allah kəssin, əyər yalan deerəmsə

**P**

- Papağım ləçək olsun yalan deyirəmsə
- Pərvərdigar haqqı
- Pərvərdiyara and olsun
- Pir haqqı

**R**

- Rəhmətliklərin goru haqqı
- Rəbbimizə and olsun
- Ruzi-bərəkət haqqı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**S**

- Seyidin ocağı haqqı
- Sənin canınçün
- Su haqqı
- Suyun axarı haqqı
- Suyun salamı haqqı
- Süfrəndə yediyim duz-çörək (bərəkət) haqqı

**T**

- Tanrı haqqı
- Tanrının yaratdığı halal nemət haqqı
- Tanrının göndərdiyi qızıl Quran haqqı
- Torpax haqqı
- Torpağın bərəkəti haqqı

**U**

- Unum-urvam(n) haqqı
- Urvatım(n) haqqı
- Unumun bərəkəti haqqı

**Ü**

- Üzümün(nün) urvatı haqqı
- Üyütdüyüm unun bərəkəti haqqı

**V**

- Vallah

**Y**

- Yalan deyirəmsə, işığa həsrət qalım
- Yalan deyirəmsə, əlim qələm olsun
- Yaradan haqqı
- Yer-göy haqqı
- Yeri-göyü yaradan Allah haqqı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## X. HƏDƏ-QORXULAR

- Sən öl, çəneyin çüyünü çıxardaram!
- Allah and olsun beyninin qatığını yerə tökərəm!
- Sən öl, səni bir günə salaram ki, gəldiyin yolu da yanılarsan!
- Vallah-billah, boğazını cücə boğazı kimi üzərəm!
- Başın üçü, başını it başı kimi əzərəm!
- Dədəmin goru haqqı, səni gürcü qıvlasına boğazdıyaram!
- Bir Allah haqqı, sana ot yolduraram!
- İmirheydar ağanın cəddi haqqı, təpəni dağıdaram!
- Bərəkət haqqı, süysününü qıraram!
- Çörək haqqı, dilini boynunun ardından çıxardaram!
- Vallah, sana elə toy tutaram, sümüklərin yallı gedər!
- Həzrət Abbas haqqı, elə toy tutaram, erməniyə dayı deyərsən!
- Vallah, qanını özünə yaladaram!
- Özüm ölüm, gözdərini pırtdadaram!
- Qağamın başı üçün, səni o hala salaram, yeddi arxa dönənini tanımazsan!
- İnan inandığımız Allaha, barmaxlarımın beşini də gözünə soxaram!
- Özümün ölümünə, qavırğalarını içinə salaram!
- Dədəmin goru haqqı, sənə Allahını yanıldaram!
- Tanrımız haqqı, sənə bir gəliş gələrəm, adın da yadınnan çıxar!
- Sən öl, qulağını çəkif eşşək qulağına döndərrəm!
- Başın üçü, tanrının da, bəndənin də hayıfını sənnən alaram!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XI. NAĞILLAR

## İNSANLA İLANIN NAĞILI

Xoca Əhməd adlı bir kişi səyahətə çıxdı. Səfər zamanı böyük bir meşədən keçməli oldu. Meşənin içində onun gözünə tüstü və alov dəydi, yanğın olan yerdən kimsə ara vermədən, həyəcanla səsləyib kömək istəyirdi: "Ay Allah, məni buradan xilas eylə!". Xoca Əhməd gördüyü bu qəribə hadisənin səbəbini öyrənmək və marağını boğmaq üçün səs gələn yerə getdi. O, ətrafını alov bürümüş bir kol gördü, kolun budaqlarına bir ilan sarılmışdı, kömək istəyən də həmin ilan idi.

Xoca Əhmədi görən kimi ilan insan diliylə yalvarıb əvvəldən dediklərini bir daha təkrar etdi. Xoca Əhməd ilanın koldan aralanmağına kömək edib onu yanğından uzaqlaşdırdı. İlan sürünərək insana yaxınlaşdı və dedi ki, bu xeyirxahlığın əvəzində ona xəzinə saxlanan yeri öyrətmək istəyir, ancaq ucadan deyə bilmir, başqaları eşidə bilər. İlan Xoca Əhməddən xahiş etdi ki, aşağı əyilsin, o, xəzinənin yerini onun qulağına pıçıldayacaq. Heç nədən zərrəcə şübhələnməyən Xoca Əhməd ilana tərəf əyildi. İlan bir an içində insanın boğazına dolanıb onu boğmağa başladı. Öz səhvini sonradan başa düşən Xoca Əhməd bağırıb söylədi ki, ilan haqsızlıq edir və ona göstərilən xeyirxahlığın əvəzini pisliklə ödəyir. İlan dedi:

– Məgər sən bilmirsən ki, biz ilanlar insanların qatı düşməniyik. Onu da bilmirsənmi ki, siz insanlar arasında da yaxşılığa yamanlıq etmək adi haldır? Sən niyə sadəlövhlük edib mənə inandın? Mənim sənə mükafatım ancaq ölüm ola bilər.

Xoca Əhməd gördü ki, onun yalvarışları heç bir fayda verməyəcək, odur ki, hiyləyə əl atdı, ilana təklif etdi ki, yolla getsinlər və rastlaşdıqları ilk üç nəsnədən ilanın haqlı olub-olmadığını soruşsunlar. Əgər onların hər üçü Xoca Əhmədin günahkar olduğunu desə, onda ilanın insanı öldürməyə haqqı var.

İlan Xoca Əhmədin təklifiylə razılaşdı və insan boğazına dolanmış ilanla birlikdə yola düşdü. Onlar meşədən çıxıb geniş bir düzənliyin ortasında tənha çinar ağacına rast gəldilər. Çinarın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaxınlığından kiçik çay axırdı. Xoca Əhməd çinarın yanında dayandı, ilan çinardan insanın ona etdiyi yaxşılığın əvəzini nə ilə çıxmasını soruşdu. Çinar cavab verdi:

– Buna insanların özləri kimi əməl etmək lazımdır. Onlara edilən yaxşılığın əvəzini insanlar həmişə yamanlıqla ödəyirlər.

Çinarın bu cavabından kədərlənən Xoca Əhməd ağaca dedi:

– Doğrudanmı səni kiçik bir çubuq parçası şəklində torpağa basdıran, təmiz su ilə sulayıb indiki ucalığına çatdıran insana yamanlıq diləyirsən?

–Məni torpağa heç bir insan əli basdırmayıb, – deyə çinar cavab verdi, – mən özüm heç bir insan köməyi olmadan böyümüş və bu düzənliyin yaraşığına çevrilmişəm. Yaxınlığımdan keçən insanlar tez-tez mənim köklərimin su aldığı çeşmədən su içərək yanğılarını söndürür, mənim budaqlarımın kölgəsində dinclərini alırlar. Mən onlara sərinlik verirəm, qızmar günəşdən qoruyuram, onlar isə bu xeyirxahlığımın əvəzində mənim budaqlarımı qırır, bəziləri də heyfsilənir ki, yaşayış yerləri çox uzaq olmasaydı məni kəsər və istifadə edərdilər.

Xoca Əhməd gördü ki, çinarın bu ədalətli sözlərinin qarşısında aciz qaldı, ilana "yolumuza davam edək" dedi. Onlar çinardan xeyli aralıda bir camışa rast gəldilər. İlan çinara verdiyi sualı camışa da verdi və eyni cavab aldı. Camışın cavabını eşidən Xoca Əhməd həyəcanla dilləndi:

– Naşükür! Sən hər şeyinə görə insana borclu deyilsənmi? Səni qışda aclıqdan və soyuqdan qoruyan insan deyilmi? Yayda səni şehli çəmənliyə insan ötürmürmü?

Camış cavab verdi:

– Dediklərin doğrudur, ancaq insanı südlə və yağla təmin edən mən deyiləmmi, əkin işlərində ona yardımçı olan, qulluq edən mən deyiləmmi? Əvəzində hansı mükafatı alıram? Mənim beş balam var idi, sahibim beşini də satdı, kəsdi. İndi də məni bu halsız və arıq çağımda düzənlikdə özbaşına buraxıb. Eşidəndə ki, yamyaşıl çəmənliklər məni hala gətirib və əvvəlki gücümə qaytarıb, qəssabı buraya gətirib məni satdı. Sabah məni buradan aparıb öldürəcəklər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İlan dilləndi:

–İkisi səni günahlandırdı, gedək görək üçüncü nə deyəcək.

Elə Xoca Əhməd bir neçə addım atmışdı ki, qabağına bir tülkü çıxdı, ilan həmin sualı ona da verdi. Hiyləgər tülkü ilana cavab verdi ki, o gərək bütün əhvalata təfsilatı ilə qulaq asa və ancaq ondan sonra öz fikrini deyə bilər. İlan bütün əhvalatı çinarın və camışın söylədikləri ilə birlikdə ona danışdı. Tülkü:

– Ancaq siz ilanlar çox hiyləgərsiniz və həqiqəti gizlədirsiniz, mən sənə inanmıram, – dedi.

İlan dilləndi ki, mənə inanmırsansa, onda insanın özündən xəbər al, o mənim dediklərimi təsdiq edər.

– Yaxşı, – deyə tülkü cavab verdi. Ancaq sən əvvəlcə onun boynundan açılıb düşməlisən, insan ağrıdan və qorxudan hər şeyi gərəyincə söyləyə bilmir axı.

İlan tülkünün tələbini yerinə yetirdi. İnsanın boynunu buraxıb yerə düşən kimi Xoca Əhməd onun başını qılıncla kəsdi. Özünün qəfildən xilas olmasına sevinən Xoca Əhməd xilaskarı tülküyə dərin minnətdarlığını bildirdi və bütün toyuqlarının onun sərəncamında olduğunu söylədi.

– Mənə heç nə lazım deyil, – deyə tülkü cavab verdi. Səndən tək xahişim odur ki, məni gördüyünü meşədəki ovçulara deməyəsən.

Xoca əlbəttə razılaşdı və tülkü kolluqda yenicə gizlənmişdi ki, ovçular peyda oldu. Bu, öz itləriylə ova çıxmış varlı bir Xan idi. O, Xoca Əhmədi görən kimi ondan vəhşi heyvanı görüb-görmədiyini soruşdu. Xoca Əhməd Xana itaətini və qulluğunu göstərmək məqsədiylə dedi ki, elə indicə bir tülkünün bu kolluqda gizləndiyini gördü. Ovçular itlərlə həmin kolluğa atıldılar və itlər tülkünü tutdu. Tülkü insan diliylə qışqırıb deyirdi ki, onu öldürməmişdən qabaq yerini nişan verən insanı ona göstərsinlər. Xan tülkünün arzusunu yerinə yetirdi. Xoca Əhmədi gətirən kimi tülkü soruşdu:

– Sən niyə mənim yaxşılığımın əvəzinə yamanlıq etdin?

Tülkünün sözləri Xanı çox maraqlandırdı və o, hər şeyi ətraflı söyləməyi tülküyə əmr etdi. Tülkü Xoca Əhmədin başına gələn əhvalatı təfsilatı ilə Xana danışdı. İnsanın etdiyi namərdlik və



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xəyanət Xanı qeyzləndirdi. Xan Xoca Əhmədi cəzalandırdı. Onun dabanlarına çubuq vurdular, tülkünü isə buraxdılar.

## KASIB KİŞİ İLƏ İLAN

Biri vardı, biri yoxdu, keçmiş zamanlarda bir kasıb kişi vardı. Bu kasıb kişinin doqquz uşağı vardı. Bu kişi orda-burda işləyib kasıblıqla uşaqlarını saxlayırdı. Elə ki, uşaqlar bir az böyüdü kişidən daha çox yemək-içmək istədilər, kişinin vəziyyəti daha da ağırlaşdı. Artıq bir şey yox idi ki, uşaqları yedirdə-içirə, geydirə. Bu kişi gördü ki, vəziyyəti çox çətindi, nəhayət öz özünə fikirləşib dedi:

– Eh! Mən nə edim ki, pul tapıb bu uşaqları saxlayım. Bu uşaqlar belə ac-susuz üzümə baxanda mənim ürəyim qana dönür. Yaxşısı budu başımı götürüm gedim, özümü uçurumdan atıb öldürüm.

Kişi belə deyib az getdi, üz getdi, dərə-təpə düz getdi, iynə yarım yol getdi. Dərələrdən yel kimi, təpələrdən sel kimi gedib bir dərənin ağzına çatdı. Dərənin enişinə baxdı, yoxuşuna baxdı, dərənin yanında olan elə bir uçurum tapa bilmədi. Kişi baxdı ki, dərənin o biri tərəfində uçurum var.

Dedi:

– Kişi o biri tərəfə, o tərəfdəki uçurumdan atılım. Kişi o biri tərəfə keçib yoxuşu çıxmaq istəyirdi ki, qulağına səs gəldi. Dönüb arxaya baxdı, amma bir şey görə bilmədi, başladı yolunu davam etməyə. Kişinin qulağına yenə səs gəldi:

– Ə, səninlə deyiləm , niyə geri dönmürsən.

Kişi geri dönüb gördü ki , bir ilandı.

Dedi:

– Nə istəyirsən məndən?

İlan dedi:

– Bura quş gəlsə qanad salar, qatır gəlsə dırnaq. Sən kimdən icazə alıb gəlibsən? Bu saat səni parça-parça edib öldürəcəm.

Kişi dedi:

– Elə mən ölüm istəyirəm. Allah xətrinə məni tez öldür.

İlan soruşdu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Niyə ölüm istəyirsən?

Kişi dedi:

– Ona görə ki , kasıb yaşayıram , uşaqlar ac-susuzdu. Heç olmazsa ölsəm onların bu halını görmərəm.

İlan dedi:

– Hə, sən ölümdən qorxduğun üçün elə deyirsən.

Kişi dedi:

– Xeyr, mənim heç ölümdən qorxum yoxdu, mən ölümün lap acısını istəyirəm.

Dedi:

– Görürəm sən doğrudan da ölüm istəyirsən. Sən ki, belə ürəkdən ölüm istəyirsən, mən sənə yaxşılıq edəcəm.

İlan sonra dedi:

– Bax bu təpəni çıxarsan. Keçərsən o yana. O yanda bir gözəl şəhər var. Elə ki şəhərin qırağına çatdın görəcəksən ki, orada xüsusi adamlar var, özləri də bağırırlar: "Ay yuxu yozan, ay yuxu yozan". Sən onda deyərsən ki, mən yuxu yozanam.

Kişi:

– Mən nə bilirəm yuxu yozmaq nədi?

İlan dedi:

– Qorxma, mən sənə öyrədərəm.

Kişi dedi:

– Yaxşı, bir de görək o nə yuxudu.

İlan dedi:

– O şəhərin padşahı yuxusunda görüb ki, göydən yerə canavar yağır.

Kişi dedi:

– Göydən canavar yağmaq nədi?

İlan dedi:

– Canavar yağmaq odu ki, o şəhərin adamları bir-birini çapıb-talayır, bir-birini öldürürlər. Gedib padşaha deyərsən ki, padşah sağ olsun! Böyük adam böyük yuxu görər. Göydən canavar yağmaq o deməkdi ki, sənin şəhərində adamlar bir-birini çalıb-çapır, bir-birini



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

öldürürlər. Onda padşah başa düşəcək ki, sən yuxunu düz açıbsan. Padşah sənə bir pud qızıl verəcək, yarı sənə, yarı mənə.

Kişi ilanla razılaşıb yola düzəldi. Az getdi, düz getdi, dərə təpə düz getdi, iynə yarım yol getdi, axırı gəlib ilan deyən şəhərin kənarına çatdı. Gördü ki, burda doğrudan da çağırırlar: "Ay yuxu yozan, ay yuxu yozan".

Kişi cavab verdi:

– Mən yuxu yozanam.

Bu kişini tutub apardılar padşahın yanına ki, padşah sağ olsun, bu kişi yuxu yozandı.

Padşah dedi:

– Əgər sən mənim yuxumu düzgün yozsan, mən sənə xələt verəcəm. Yox, əgər yoza bilməsən boynunu vurduracam.

Doğrudan da bu padşah elə padşah idi ki, kim yuxunu düz yozmasa, mütləq onun boynunu vurdurardı.

Kişi dedi:

– Padşah sağ olsun, mən yol gəlmişəm. Halım yoxdu. Bir az çörək ver yeyim, sonra sənin yuxunu yozum.

Padşah əmr elədi, kişiyə yemək-içmək gətirdilər. Kişi yeyib-içəndən sonra dedi:

– Padşah sağ olsun, nə yuxu görübsən?

Padşah dedi:

– Yuxumda gördüm ki, göydən yerə canavar yağır.

Kişi dedi:

– Padşah sağ olsun! Böyük adam böyük yuxu görər. Sənin şəhərində adamlar bir birini çalıb-çapır, bir-birini öldürürlər. Ona görə də sən yuxunda görübsən ki, göydən canavar yağır.

Padşah baxıb gördü ki, doğrudan da kişinin dediyi kimidi, o saat kişiyə bir kisə qızıl verib yola saldı. Kişi yolda fikirləşdi ki, "Ey dadi-bidad, mən nə edirəm. Əgər mən gəldiyim yolla qayıtsam, gərək qızılın yarısını ilana verəm. Hazır başqa yolla gedim qızılın hamısını özümə götürərəm".

Kişi başqa yolla gedib qızılı evinə gətirdi. Oğluna-qızına paltar , yemək-içmək aldı. Uşaqlar başladı sevinib gülməyə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İndi bunlar sevinib-gülməkdə olsun, sizə kimdən deyim, kimdən xəbər verim, yenə həmin padşahdan. Padşah yenə yuxu gördü. Vəziri yanına çağırıb dedi:

– Vəzir, filan yerdə belə bir adam var. Get onu tap gətir, mənim yuxumu yozsa, təkcə o yozacaq.

Vəzir yola düşdü. Gəlib kişini tapdı, dedi:

Padşah səni çağırır. Yenə yuxu görüb , deyir təkcə o adam mənim yuxumu yoza bilər.

Kişi öz-özünə fikirləşib dedi:

– Ey dadi-bidad, mən nə bilirəm yuxu açmaq nədi. Indi mən nə edim. Mənə də ilan öyrətmişdi. Mən padşahın yuxusunu düzgün aça bilməsəm, mütləq mənim boynumu vurduracaq. Onsuz da mənimki elə də ölümdü, belə də ölümdü. Gedim yenə məni ilan öldürsün. Vəzirə dedi:

– Get, sabah gələrəm.

Sabah açıldı, üstünüzə xeyirli sabahlar açılsın, kişi yenə gəldi ilan olan yerə, yolu çıxmağa başlayanda ilan səsləndi:

– Gəl, gəl.

Kişi dedi:

– Gəlirəm, özüm də ölümdən qorxmuram.

İlan dedi:

– İndi mən səni elə öldürüm ki, heç izin-tozun da qalmasın.

Kişi dedi:

– Mən dedim ki, ölümdən qorxmuram. Məni padşah öldürüncə sən öldürsən yaxşıdı.

İlan baxıb gördü ki, bu kişi ölümdən yenə qorxmur. Dedi:

– Padşah yenə yuxu görüb, nə deyəcəksən?

Kişi dedi:

– Mən heç bir şey bilmirəm . Ona görə də sənin yanına gəlmişəm. Ya öldür, ya da mənə bir yol göstər.

İlan dedi:

– Yaxşı, mən sənə bu dəfə də yol göstərərəm. Padşah yuxusunda görüb ki, göydən yerə qılınc yağır. Bilirsən qılınc yağmaq nədi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi dedi:

– Xeyr, bilmirəm nədi.

İlan dedi:

– Bil, agah ol ki, o padşah padşahlığa başladığı gündən o şəhərdə qonşu-qonşunu çapıb, qardaş-qardaşı öldürdü. O şəhərdən ölüm əskik olmadı. Ona görə də padşah belə yuxu görüb. Gedərsən padşah bu dəfə sənə iki pud qızıl verəcək, gətirərsən, yarı sənə, yarı mənə.

Kişi ilanla razılaşıb yola düzəldi. Az getdi, düz getdi, iynə yarım yol getdi. Axırı gəlib padşahın sarayına çatdı. Padşah yenə əmr elədi, kişiyə yemək-içmək gətirdilər. Kişi dincini alandan sonra dedi:

– Padşah sağ olsun, yenə nə yuxu görübsən?

Padşah dedi:

– Yuxumda gördüm ki, göydən yerə qılınc yağır.

Kişi dedi:

– Padşah sağ olsun, böyük adam böyük yuxu görər. Sənin şəhərində qonşu-qonşunu öldürür, qardaş-qardaşı öldürür. Hamı bir-birini çapıb talayır. Ona görə də sən yuxuda görübsən ki, göydən yerə qılınc yağır. Padşah gördü ki, kişi deyənlərin hamısı doğrudur.

Padşah dedi:

– Mən sənə iki pud qızıl, üstəlik bir qılınc, bir dənə də at verirəm.

Kişi qızılı atdı atın belinə, özü ata minib, qılıncı belinə qurşadı, dərələrdən yel kimi, təpələrdən sel kimi gəlib düz çatdı ilan olan yerə. Öz-özünə fikirləşdi ki, mən niyə iki pud qızılı ilana verməliyəm. Yaxşısı budu ilanı öldürüm, qızılın hamısı mənə qalsın.

Elə ki, kişi ilanın yanına çatdı, qılıncı çəkib ilanı öldürmək istədi. İlan yuvasına qaçan zaman quyruğu eşikdə qaldı. Kişi qılıncı atıb ilanın quyruğunu qopardı, qızılları evinə gətirib böyük evlər tikdirdi, yaxşı yaşamağa başladı. Bu kişi yaxşı yaşamaqda davam etsin, indi sizə kimdən xəbər verim, yenə də həmin o padşahdan. Padşah yenə yuxu gördü, vəziri yanına çağırıb dedi:

Get həmin o adamı yanıma çağır, gəlsin yuxumu yozsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vəzir gəlib həmin kişini tapıb dedi:

– Padşah yuxu görüb yenə səni çağırır.

Kişi bir ah çəkib dərdini fikirləşməyə başladı. Bir az fikirləşib öz-özünə dedi:

– Mən indi nə edim, kimin yanına gedim. Məni padşah çağırıb, mən nə cavab verim. Cavab verə bilməsəm mütləq padşah məni öldürəcək.

O çox fikirləşdi, yadına yenə ilan düşdü. Dedi:

– Yenə qoy gedim, öldürsə də məni ilan öldürsün. Kişi az getdi, üz getdi, ilan olan yerə çatdı. İlan kişini görüb səsləndi. İlan səsi çıxanda kişinin dizləri əsməyə başladı. Bu kişi iki dəfə ilanın yanına gələndə ölüm istəyirdi, indi isə yaşamaq istəyir. Kişi qorxa-qorxa ilana yaxınlaşanda ilan dedi:

– Qorxursan?

Kişi dedi:

– Niyə qorxmayım, mən sənə çox pislik etmişəm. Bir dəfə qızılı apardım, bir dəfə də quyruğunu kəsdim.

İlan dedi:

– Eybi yoxdu, qonşu-qonşunu öldürür, qardaş-qardaşı öldürür. Sən də mənim bir parça quyruğumu kəsdin. Bilirsənmi padşah nə yuxu görüb?

Kişi dedi:

– Xeyr, bilmirəm.

İlan dedi:

– Padşah yuxusunda görüb ki, göydən yerə quzu yağır. Quzu yağmaq bilirsən nədi?

Kişi dedi:

– Xeyr, bilmirəm. Nədi?

İlan dedi:

Göydən quzu yağmaq odu ki, daha padşahın şəhərində qonşu-qonşu ilə dalaşmır, qardaş-qardaşı öldürmür. İndi padşahın şəhərində əmin-amanlıqdı. Gedib padşaha deyərsən ki, padşah sağ olsun, indi papağını yan qoyub rahat yata bilərsən. Sənin şəhərində hər şey öz qaydasındadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi ilana razılıq edib yola düzəldi. Gəlib padşahın sarayına çatdı. Padşah əmr elədi, kişiyə yemək-içmək gətirdilər. Kişi dincini alandan sonra dedi:

– Padşah sağ olsun, nə yuxu görübsən?

Padşah dedi:

– Yuxuda gördüm ki, göydən yerə quzu yağır.

Kişi dedi:

– Padşah sağ olsun. Böyük adam böyük yuxu görər. Göydən quzu yağmaq odu ki, sənin şəhərində daha qonşu-qonşu ilə dalaşmır, qardaş-qardaşı öldürmür. Padşah sağ olsun, indi siz rahat yata bilərsiniz.

Padşah gördü ki, hər şey doğrudan kişinin dediyi kimidi. Padşah kişiyə bir at verdi, üç pud qızıl verib yola saldı. Kişi qızılı atın belinə atıb yola düzəldi. Axır ki, ilan olan yerə çatdı. İlan kişini görüb səslədi:

– Hə, qardaş, gəldin?

Kişi atın belindən endi, xurcunu açıb qızılı tökdü ilanın qabağına, dedi:

– Bu qızılın hamısı sənindi. Birinci dəfə bir pud qızıl apardım, ikinci dəfə iki pud qızıl apardım . Bu həmin üç pud qızıldı ki, gətirmişəm sənə.

İlan dedi:

– Mənə qızıl lazım deyil. Bu qızılları apar evinə xərclə, kasıblığın daşını at. Sən elə vəziyyətə düşmüşdün ki, özün ürəkdən ölüm istəyirdin. İndi isə gedib sakit yaşaya bilərsən. Amma heç zaman yaxşılığı unutma.

Kişi evinə gəldi, xoşbəxt həyat sürməyə başladı. Sizdə deyingülün xoşbəxt həyat sürün.

Göydən üç alma düşdü. Bir mənim, biri sizin, biri də nağıl danışanın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BALIQLARIN SİRRİ

Biri vardı, biri yoxdu, Allahdan qüdrətli heç kim yoxdu. Bir şəhərdə bir balıqçı vardı. Balıqçı balıqçılıqla məşğul olub, ailəsini dolandırırdı. Bir gün balıqçı yenə balıq tutmağa getmişdi. Bu səfər toruna dörd ala bəzək balıq düşdü. Kişi balıqları götürüb evinə gəldi. Arvadına tapşırdı ki, balıqları təmizləyib bişirsin. Arvad balıqları görən kimi ərinə dedi:

– Ay kişi, apar bu balıqları padşaha ver, o sənə əvəzinə qızıl verər.

Kişi balıqları götürüb padşahın yanına gətirdi. Dedi:

– Qibleyi-aləm sağ olsun, sənə balıq gətirmişəm.

Padşah balıqları aldı, kişiyə bir qədər pul verib razı saldı. Padşah vəzirə dedi:

– Vəzir, apar bu balıqları aşbaza ver, de ki, bunları qızartsın.

Vəzir balıqları aşbaza verdi. Aşbaz balıqları təmizləyib, tavanın içinə saldı. Balıqlar qızarmağa yaxın divar yarıldı, içindən bir qız çıxdı, əlində çubuq. Divardan çıxan qız çubuğu tavaya vurdu, o saat balıqlar başlarını qaldırıb, "itaət edirik", "itaət edirik" dedilər. Sonra qız yox oldu. Bunu görən aşbaz bihuş olub yerə yıxıldı.

Vəzir gəlib gördü ki, aşbaz yerə yıxılıb, balıqlar da qapqara yanıb. Tez onu ayıltdı. Aşbaz başına gələn əhvalatı vəzirə nağıl etdi. Vəzirdə padşaha danışdı. Padşah dedi:

– Gərək mən öz gözlərimlə görəm.

Balıqçını çağırıb yenə balıq gətirməsini tapşırdı.

Balıqçı gedib dörd balıq gətirdi. Balıqları verdilər aşbaza, vəzirnən padşah da gizləndilər. Aşbaz balıqları təmizləyib tavaya saldı. Balıqlar qızarmağa yaxın divar yarıldı, divardan əlində çubuq bir qız çıxdı, çubuğu tavaya vurdu. Balıqlar o saat başlarını qaldırıb, "itaət edirik", "itaət edirik" dedilər. Sonra qız divarın içində yox oldu. Padşah dedi:

– Gərək bu sirri öyrənəm.

Balıqçını yanına çağırıb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– O balıqları haradan tutubsan?

Balıqçı dedi:

– O iki dağın arasında bir göl var, oradan tutmuşam.

Padşah hökm etdi ki, tədarük görün, balıq tutmağa gedirik. Tədarük görüldü, qoşunla yola düşdülər. Az getdilər, üz getdilər, gəlib həmin gölün yanına yetişdilər. Padşah gördü ki, gölün içində o qədər rəngarəng balıq var, gəl görəsən. Vəzirə dedi:

– Vəzir, sən qoşunla çıx get məmləkətə, mən də sonra gələrəm.

Vəzir qoşunla çıxıb gedəndən sonra padşah gölün ətrafını gəzməyə başladı, lakin bir insana rast gəlmədi. Gördü yaman acıb. Dedi ki, gedim görüm buralarda evdən-zaddan bir şey yoxdurmu, bir az çörək yeyəm. Gəzə-gəzə gəlib bir böyük imarətə çıxdı. Gördü imarətin qapıları açıqdı. Həyətdəki fəvvarələr qızıldan, hovuzun ətrafı gümüşdəndi. Amma evdə heç kəs yoxdu. O yana baxdı, bu yana baxdı, ev yiyəsini səslədi, heç kəs səs vermədi.

Padşah başladı otaqları gəzməyə. Birdən aşağıdan qulağına bir zarıltı gəldi. Düşdü aşağı, gördü bir cavan oğlan, gözəllikdə onun tayı-bərabəri yoxdu. Qurşaqdan aşağı daşdı. Padşah oğlana salam verib əleyk aldı. Oğlan padşahdan haradan, nəyə görə gəldiyini soruşdu. Padşah dedi:

– Oğul, mən buradakı balıqların sirrini öyrənməyə gəlmişəm.

Oğlan dedi:

– Mən balıqların sirrini bilirəm, orada otu, mən sənə danışaram.

Oğlan başına gələn əhvalatı nağıl etməyə başladı:

– Qulaq as mənə, vaxtı ilə atam bu şəhərin padşahı idi. Əmim də vəzir idi. Əmimin bir qızı var idi, gözəllikdə tayı-bərabəri yox idi. Biz bir-birimizi uşaqlıqdan sevirdik. Nəhayət, biz evləndik. Evlənəndən sonra atam da, əmim də öldü. Mən atamın yerinə padşah oldum. Biz getdikcə bir-birimizi daha çox sevirdik. Çox yaxşı gün keçirirdik. Bir gün əmim qızı mənə dedi ki, əmioğlu, mən hamama gedirəm. O, hamama getdi. Mən iki qulluqçu çağırdım. Qulluqçular yanımda oturdular. Onlar şirin-şirin söhbətlər edirdilər. Mən bunların söhbətinə qulaq asa-asa məst düşdüm. Qulluq-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çular məni yatmış bilib başladılar söhbət etməyə. Eşitdim ki, qulluqçunun biri o birisinə deyir: "Hayıf bizim bu ağamıza ki, bu məlun əmisi qızını saxlayır. Hər gecə bu fahişə ağaya bir piyalə şərab verir. Şərabın içinə bihuşdarı töküb ağanı yuxuya verir. Yazıq ağamızın xəbəri olmur, qız gecə durub bir murdar qara qulun yanına gedir. Gərək ağamız şərabı gizlincə içməsin, sonra özü görər ki, nələr var". Bu sözləri padşah yaxşıca eşidir. Bu vaxt arvadı hamamdan gəlir, ərini qaldırır. Qulluqçular yemək-içmək gətirib düzürlər, sonra çıxıb gedirlər. Ərlə arvad başlayırlar çörək yeməyə. Yeyib qurtarandan sonra qız ərinə də, özünə də şərab süzür. Ərinə bihuşdarı olan piyaləni verir, özünə başqasını götürür. Oğlan şərabı içmir, gizlincə yerə tökür, arvadı elə bilir içdi. Oğlan axşamnan yerinə uzanır, ozünü yuxuluğa vurur. Arvadı elə bilir ki, əri yatır. Gecədən xeyli keçmiş durur yerindən, ərinin paltarını geyinib qılıncını da götürüb evdən çıxır. Padşah da tez bunun arxasınca çıxır. Qız gəlib bir xarabaya girir. Padşah xarabanın bacasından baxıb görür ki, xarabanın içində cüzam xəstəliyinə tutulmuş bir qara qul yatır. Arvadı içəri girən kimi qara qul qışqırır ki, ey ağların ən murdarı, niyə yubandın, mənim qara qohumlarım gəlmişdi.

Qız başlayır yalvarmağa:

– Bağışla məni, qurban olum sənə, mənim əzizim.

Qız deyir:

– Yeməyə nəyin var?

Qul deyir:

– Tavada siçan sümüyü var, götü gəmir, küpədə də şərab var, iç.

Qız götürüb siçanın sümüklərini yeyir, şərabı da içir, sonra qara qulun yanına girib yatır. Bu vaxt padşah bacadan enir, qılıncını götürür, qara qul yatdığı yerdə qılıncı elə vurur ki, qulun şah damarı kəsilir. Oğlan oradan çıxıb bir başa evə gəlir. Qız qulu vuranı görmür, qul da ölümcül yaralanır, lakin ölmür. Oğlan səhər açılanda görür ki, qız yanındadı, özü də yaman pərişandı, için-için ağlayır. Oğlan soruşur:

– Əmiqızı nə olub ki, ağlayırsan?

Qız deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– İki qardaşım ölüb, onlar yadıma düşüb, indi mən qırx gün yas tutmalıyam, qırx gün məni danışdırma, mən nə edərəm, özüm bilərəm. Bir də sabah burda bir gümbəz tikdirməlisən, içinə də bir sandıq qoyacam. Hər gün gedib orada ağlayacağam.

Oğlan deyir:

– Yaxşı, sən deyən olsun.

Səhərisi gümbəz tikilməyə başlayır. Bir neçə gündən sonra gümbəz hazır olur, içində də bir sandıq. Qız hər gecə gedib gümbəzin içində ağlayır, gündüz gəlir. Bir gün gördüm ki, əmim qızı yaman ağlayır, özü də gündüzlər də evə gəmir. Sən demə, qara qulu gətirib sandığın içinə qoyub gecə-gündüz ağlayır. Qul da danışa bilmir. Axır bir gün cana gəlib dedim:

– Ay əmiqızı, bu qədər ağlamaq yaxşı deyil, yetər. Qız mənə çox hirsləndi. Dedi ki, itil gözümdən, murdarın biri murdar.

Mən çıxıb bu otağa gəldim. Bir də gördüm ki, əmim qızı əlində bir cam su gəlir. Gəlib mənim yanımda bir vird oxudu, suyu da üstümə səpdi. Mən o saat qurşaqdan aşağı daş oldum. Bu sirri heç kim bilməsin deyə bütün şəhərin adamlarını balıq edib gölə doldurubdu. İndi bir səhər, bir axşam gəlir, məni qamçı ilə o qədər döyür ki, canımdan qanlar axır. Sonra qədildən, keçi qılından paltar geydirir. Bu paltar da məni yandırır.

Padşah cavan oğlandan soruşdu ki, yaxşı, indi o nə vaxt gələcək. Oğlan dedi:

– İndi onun gələn vaxtıdı, sən bir yerdə gizlənməlisən.

Arvad ərinin yanına gələndə padşah başqa yolla gedib tez qulun başını kəsib meyidini gizlədir, onun paltarını geyinib, yerinə uzanır. Sonra qız gümbəzə gəlir, soruşur:

– Ey mənim əzizim, ey mənim sevgilim, niyə danışmırsan?

Padşah qulun səsinə oxşar səs çıxararaq deyir:

– Mən ona görə danışmıram ki, sən cavan ərini hər gün döyürsən, onun günahı mənə əziyyət verir, get onu azad et.

Qız padşahın səsini eşitcək sevinib deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mənim əzizim, itaət eylərəm, təki sən danışasan. Qız əlində bir cam su ərinin yanına gəlir, bir vird oxuyur, suyu oğlanın üstünə səpir, oğlan daşdan təmizlənir.

Arvad qulun yanına gəlib deyir:

– Ey mənim əzizim, dur, danış. Qulun yerinə yatan padşah deyir get, indi də şəhərin adamlarını balıqdan təmizlə.

Qız deyir:

– Baş üstə, itaət eylərəm.

Bir cam su götürür, gəlir həmən gölün yanına, bir vird oxuyur, suyu səpir. Bütün balıqlar adam olur, hərə öz işinə gedir. Arvad qulun yanına gəlib deyir:

– Ey mənim əzizim, ey mənim sevgilim, barı indi danış, söylə, dur ayağa.

Padşah deyir:

– Gəl əlimdən tut, qalxım. Qız əlini verən kimi padşah qılıncla qızın başını kəsir. Padşah oradan çıxanda görür daş olan oğlan yazıq-yazıq qapının yanına durur. Padşah deyir:

– Oğul, onu öldürdüm.

Yenidən oğlanı padşah seçirlər. Burada da bir neçə gün qaldıqdan sonra padşah deyir:

– Oğul, daha mən getməli oluram. İndi mənimlə gedirsən, yoxsa burada qalırsan?

Oğlan deyir:

– Bir halda ki, sən məni bu dardan qurtardın, mən səninlə gedəcəyəm. Nə qədər yoldu buradan ora?

Padşah deyir:

– Bir günə gedib çatarıq.

Oğlan deyir:

– Xeyr, səni o arvad tilsimə salıb gətirib, buradan oraya bir illik yoldu.

Bir illik azuqə götürürlər, başlayırlar yol getməyə. Az gedirlər, üz gedirlər, dərə-təpə düz gedirlər, nəhayət, gəlib padşahın vilayətinə çatırlar. Sirr açılır. Padşah balıqçını çağırır, özünə vəzir edir. Oğlana da yarım padşahlıq verir. Yaxşı kef edib ömür sürürlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri nağıl deyənin. Siz sağ, mən salamat, siz yüz yaşayın, mən iki əlli, hansı çoxdu onu siz götürün.

## QƏMSİZ ƏHMƏD

Biri vardı, biri yoxdu, allahdan qüdrətli heç kim yoxdu. Bir şəhərdə iki qardaş yaşayırdı. Böyük qardaş padşah, o biri qardaş isə onun vəziri idi. Bu qardaşların malları, dövlətləri, yaşamaqları, yemək-içməkləri bir idi. Ümumiyyətlə, çox mehriban qardaşlar idilər. Günlərin birində hər iki qardaşın arvadlarının sancısı tutur. Padşahın qızı, vəzirin oğlu olur. Rəmmallar yığılıb qızın adını Sənəm, oğlanın adını Əhməd qoyurlar. Qardaşlar əhd bağlayırlar ki, beşikkərtmə olacaqlar.

Bəli, uşaqlara xüsusi dayələr ayrılır, bunları böyütməyə başlayırlar. Günü-gündən uşaqlar boy atır, böyüyürlər. Bir gün vəzir xəstələnir, yeganə oğlunu padşaha tapşırıb ölür. Bunun yerinə başqası vəzirliyə keçir.

Əhmədlə Sənəm böyüyüb həddi-buluğa çatırlar. Əhmədlə Sənəm bir-birini elə saf, dərin məhəbbətlə sevirlər ki, bir dəqiqə bir-birlərini görməyəndə darıxırlar. Əhməd görür ki, artıq vaxt gəlib çatmışdır. Ona görə də əmisinin yanına adam göndərib, Sənəmi özünə istəyir. Padşah buna çox sevinir, hələ cavab verməmişdən qabaq vəzirlə məsləhətləşməyi vacib bilir. Demə vəzir də hiyləgərin biri imiş. Vəzir padşaha deyir:

– Padşah sağ olsun, nə olsun ki, qardaşın oğludu. Atası yox, heç bir şeyi yox, onun nəyinə sustayıb, qızını bədbəxt edirsən? Elə isə gətir ver mənim oğluma.

Vəzirin sözləri padşahın beyninə batır, Əhmədə “yox” cavabı verir. Əhməd nə qədər adam göndərirsə, mümkün olmur. Axırda Əhməd hirslənib atasının malını, dövlətini istəyir. Padşah Əhmədə heç nə verməyib onu evdən qovur. Əhmədin anası bu dərdə dözməyib xəstələnib ölür. Əhməd görür ki, hər yerdən əlacı kəsildi. Əlinə bir çomaq alıb başlayır yol getməyə. Az gedir, üz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedir, dərə-təpə düz gedir. Gəlib bir dağın ətəyində meşəyə rast gəlir. Burada qalmağı məsləhət bilir. Meşənin gizlin yerində özünə bir daxma düzəldir. Əhməd görür ki, yaman acıb, deyir gedim bir az ov ovlayım gətirim. Əhməd gedib bir az quş ovlayıb gətirir. Bu vaxt qabağına bir tülkü çıxır. Əhməd tülkünü vurmaq istəyir, amma tülkü yazıq-yazıq düz onun gözünün içinə baxır. Əhmədin tülküyə yazığı gəlir, onu vurmur. Ovladığı quşun içalatını tülkünün qabağına atır. Hər gün Əhməd gedib ov ovlayır, gətirdiyi ətdən tülküyə də verir. Bir gün tülkü meşədə gəzdiyi yerdə qabağına bir ayı çıxır.

Ayı deyir:

– Ay tülkü bəy, sən nə yeyirsən ki, belə qıpqırmızı qızarıbsan.

Tülkü deyir:

– Ey sağ olmuş, mən qızarmayanda bəs sən qızaracaqsan? Mənim elə ağam var ki, ov ovlayıb gətirir. Gətirdiyi ətlərdən mənə də verir.

Ayı deyir:

– Ay tülkü bəy, bir məni də aparsana onun yanına, acından yeriyə bilmirəm.

Ayı ilə tülkü bərabər Əhmədin yanına gəlirlər. Əhməd ayını görən kimi qorxur, tez gətirdiyi ov ətindən kəsib, bunlara verir.

Günlərin birində də ayı ilə tülkünün qabağına bir pələng çıxıb deyir:

– Ay tülkü bəy, ay ayı bəy, siz harda yeyirsiniz ki, belə qıpqırmızı qızarırsınız.

Ayı ilə tülkü bir ağızdan deyirlər ki, bizim elə ağamız var ki, hər gün ov gətirib bizə də verir. İstəyirsən gəl sən də gedək. Pələng də bunlara qoşulur. Bu yolla bunlara canavar, zümrüd quşu da qoşulur. Heyvanların hamısı Əhmədin yanına gəlirlər. Əhməd bunları görən kimi qorxuya düşür ki, məni bu saat yeyəcəklər. Tez gətirdiyi ov ətinin hamısını kəsib heyvanlara atır. Hər gün Əhməd gedib ov ovlayır, gətirib bir az özü yeyir, qalanlarını isə heyvanlara verirdi. Axşamlar isə dərdli- dərdli daxmada otururdu. Heyvanlar isə daxmanın dörd tərəfində keşik çəkirdilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Günlərin bir günündə yenə Əhməd fikirli oturduğu zaman heyvanlar öz aralarında danışırlar ki, görək bizim ağamız niyə hey fikirləşir? Heyvanlar razılaşıb, tülkünü Əhmədin yanına göndərirlər. Tülkü içəri girib görür ki, Əhmədin qaşqabağından zəhrimar tökülür.

Tülkü soruşur:

– Ay ağa, səbəb nədi ki, sən hey belə dərdli oturursan? Bir bizə də desən, bəlkə sənin dərdinə əlac elədik.

Əhməd deyir:

Mən özüm öz dərdimə əlac edə bilmədim, siz nə əlac edəcəksiniz?

Bunu deyib o, gətirdiyi ov ətindən heyvanlara paylayır. Lakin tülkü ətə dişini də vurmur. Gözünün yaşını sel kimi axıdır. Əhməd naəlac qalıb, tülküyə deyir ki, mən bu ölkənin padşahının qızını sevirəm. O da mənim əmim qızıdı. Lakin bizi bir-birimizdən ayırdılar. Buna görə də mən dərdliyəm. Tülkü eşiyə çıxıb əhvalatı heyvanlara söyləyir, bu işdə Əhmədə kömək etməyə söz verirlər. Səhər açılır, tülkü zümrüd quşuna deyir ki, get şəhərə, kimin qapısında qırmızı parça varsa, caynağınla qap gətir. Zümrüd quşu uçub gedir. Bir azdan sonra qırmızı don cırığı tapıb gətirir. Tülkü bu parçanı geyinib, özünə bəzək-düzək verir. Quşla pələngə deyir ki, mənimlə gəlin. Mən özümü qızın həyətinə salıb oynayacağam. Qız çıxıb eyvandan mənə baxanda, quş tez onu götürüb pələngin üstünə atsın, pələng də bura gətirsin.

Heyvanlar razılaşıb yola düşürlər. Az gəlirlər, üz gəlirlər, gəlib padşahın imarətinə çatırlar. Tülkü tez bir yolla özünü həyətə salır. Başlayır hovuzun qırağında oynamağa. Quş göydə, pələng isə pusquda durur. Tülkü elə gözəl oynayır ki, bunu görən qarabaş tez xanımı çağırır:

– Xanım, xanım bir eyvana çıx, gör tülkü necə gözəl oynayır.

Xanım eyvana çıxıb tülkünün oynamağına baxır. Bu vaxt zümrüd quşu tez qızı qapıb pələngin üstünə atır. Pələng isə qızı düz Əhmədin daxmasına gətirir. Heyvanlar yığılırlar ki, Əhməd ovdan hələ gəlməyib, tez onun qabağına gedirlər. Əhməd görür



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, heyvanlar ona tərəf gəlir. Öz-özünə deyir, yəqin acdılar. Gətirdiyi ətdən kəsib heyvanlara verir. Heyvanlar ətə əhəmiyyət verməyib Əhmədin qabağında hoppanmağa başlayırlar. Tülkü Əhmədin başından o yana-bu yana sıçrayır. Əhməd deyir ki, yəqin bunlarda bir iş var. Nəhayət, gəlib daxmaya çatırlar. Əhməd içəri girəndə gözlərinə inanmır. İki sevgili bir-birinə sarılır. Haçandan haçana ayılıb söhbət edirlər.

Bunları burada qoyaq, görək padşah nə elədi. Bəli, elə ki qızı heyvanlar gətirdilər, padşaha xəbər getdi ki, deməzsənmi qızı bir zümrüd quşu caynağına alıb apardı. Padşah qoşun çəkib haray salır, heç bir fayda vermir. Araya adamlar salır, qızı axtarır, heç qızı gördüm deyən olmur. Padşah əlacdan kəsilib, bir küpəgirən qarı çağırır, ona özü ağırlıqda qızıl verəcəyini söyləyir ki, qızından bir xəbər gətirsin. Qarı razı olur. Küpəsinə girib göyə qalxır. Bir qədər yol gedəndən sonra gəlib bir meşənin üstünə çatır. Görür meşənin içində bir şey qaralır. Meşənin qırağına enib, daxmaya sarı getməyə başlayır. Qız qarını görən kimi sevindiyindən bilmir nə etsin. Deyir:

– Ay nənə, nə yaxşı gəldin, burada heç adam yoxdu ki, barı söhbət edəsən. Yaxşı oldu gəldin, yaman darıxırdım.

Qarı bir neçə gün qızın yanında qalır. Bir gün qarı qıza deyir:

– Qızım, gəlsənə bir bu meşəni gəzək.

Qız razı olur. Bunlar bir az daxmadan aralanırlar. Birdən qızın gözü küpənin içinə sataşır. Deyir:

– Ay nənə, burada nə gözəl şəkillər var.

Qarı sevincək halda qızı küpəyə salır ki, yaxşı bax, çoxdan bir şey görmürsən.

Qız küpəyə girən kimi qarı tez küpədən yapışıb göyə qalxır. Qızı düz atasının evinə gətirir.

Axşam Əhmədlə heyvanlar evə gəlirlər ki , nə qız var, nə qarı. Oğlan qarının kələyini başa düşür. Qarını evdə tək qoymağına peşiman olur. Yenidən Əhməd qəm-qüssəyə, yasa batır. Bu vaxt tülkü quşa deyir:

– Get indi də sarı parça gətir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Quş göyə qalxır, bir az keçmir ki, bir sarı don gətirir. Tülkü bu donu geyinib, özünə bəzək-düzək verir. Quş, pələng, tülkü yola düşürlər. Bu yandan da Sənəmin toyudu. Qızı vəzirin oğluna verirlər. Qız isə qara geyib, yas tutur. Heyvanlar o vaxt yetişir ki, bu toy bir tamaşadı ki, gəl görəsən, çalan kim, oynayan kim, yeyən-içən kim. Xülasə, tülkü özünü düz həyətə salır, başlayır hovuzun qırağında oynamağa. Qarabaş bunu görən kimi qışqırır:

– Ay xanım, ay xanım, bayıra çıx, tülküyə bax, bir az üzün gülsün.

Sənəm bilir ki, bu həmin tülküdü, tez eyvana çıxır. Zümrüd quşu tez qızı qapıb pələngə atır. Qızı Əhmədin yanına gətirirlər. Toy yasa batır. Padşah bilmir nə etsin, qoşun çəkir, haray salır, heç bir fayda vermir. Axırda yadına qarı düşür. Qarını yanına çağırtdırır, deyir:

– Qarı, nə istəyirsən verirəm, mənim qızımı tap gətir.

Qarı deyir:

– Padşah sağ olsun, daha mən gedə bilmərəm. Çünki oraya getsəm, o heyvanlar məni parça-parça edərlər.

Padşahın hər yerdən əlacı kəsilir. Nəhayət, qonşu padşahlara namə göndərir ki, hərəniz mənə bir qoşun verin, bizim şəhərdə çoxlu canavar, pələng peyda olub. Zümrüd bundan xəbərdar olub, əhvalatı heyvanlara danışır. Tülkü deyir:

– Quş, sən get bütün quşları yığ, hərəsinin də caynağında bir daş, ayı getsin bütün ayıları, canavar isə bütün canavarları yığsın. Tülkü də gedir o qədər tülkü yığır ki, bütün yer-göy tülkü ilə dolur. Padşah da bu tərəfdən qoşun çəkir. Tülkü şəhərə girəndə heyvanlara tapşırır ki, quşlar göydən daş yağdırsınlar, ayılar adamların belini qırsın, canavarlar qarınlarını dağıtsın, pələnglər də parçalayıb yesin, tülkülər də üzlərini-başlarını cırsın. Bu yolla heyvanlar bütün qoşunu darmadağın edirlər. Gedib qızla Əhmədi də meşədən gətirirlər. O gündən Əhməd olur padşah, Sənəm olur padşahın arvadı. Əhməd muradına yetir, siz də muradınıza yetin. Bunda sonra Əhməd qəmini unudur, Qəmsiz Əhməd adlanır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ATA ÖYÜDÜ

Biri varmış, biri yoxmuş, bir dövlətli kişi varmış. Bu kişinin gözünün ağı-qarası bir oğlu varmış. Oğlan həmişə dostları ilə yeyib-içib gəzər, çoxlu pul xərcləyərmiş. Bir gün atası oğlunu yanına çağırıb deyir:

– Oğlum, boş gəzib pul xərcləmə. Bir peşə sahibi ol. Mən öləndən sonra var-dövlət dağılıb gedəcək, sən də küçələrdə qalacaqsan.

Oğlan cavab verir ki, mənim elə sədaqətli dostlarım var ki, məndən ötrü canlarından da keçərlər.

Yavaş-yavaş kişi qocalır, hiss edir ki, yaxın zamanlarda öləcək. Kişinin yaxşı bəzənmiş səkkiz otağı varmış. Otağının birində bir quyu qazdırır, quyuya qapaq qayırtdırır. Bu qapağın ortasında bir çəngəl qoydurur, oğlunu çağırıb deyir:

– Oğlum, mən öləndən sonra bütün var-dövlət xərclənib gedəcək. Ona görə də o zaman zəlil yaşamaqdansa, gəlib özünü burdan asıb öldürərsən.

Oğlan gülüb deyir:

– Bəh, bəh, atam mənim fikrimi çəkir. Daha demir ki, mənim yaxşı dostlarım məni heç vaxt darıxmağa qoymazlar.

Çox çəkmir ki, oğlanın atası xəstələnib ölür. Onun dostları başına yığılıb ona ürək-dirək verirlər, yeyib-içməyə çağırırlar. Oğlan kefdən, yeyib-içməkdən də bezir. Sonra qumara aparırlar. Oğlan bütün var dövlətini qumara qoyur. Oğlan bir neçə gün ac qalır, sonra dostlarının yanına gəlir. Gəlib görür ki, dostları yeyib-içir. Dostları oğlanı görəndə gülüb lağa qoyurlar. Biri gülüb deyir ki, səndən yaxşı hambal olar. Mənim heybəmi apar, sənə üç manat verim. Oğlan görür ki, dostları ona gülürlər. Atasının sözünü yadına salır, qəbiristanlığa, atasının qəbrinin üstünə gəlib ağlayır, deyir:

– Ata, məni bağışla. Sən deyəni edəcəyəm. Zəlil yaşamaqdansa, namuslu ölmək yaxşıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan həmin otağa gəlib özünü asmaq istəyir. Ayağının altına kötük qoyub, boğazından kəndirlə asılmaq istərkən kötük ayağının altından qaçır, qapaq düşür. Oğlan görür ki, burada çoxlu mal-dövlət, qızıl var. O fikirləşir ki, atası onu ölməyə yox, mal-dövlət sahibi olmağa çağırırmış. Oğlan bu mal-dövlət ilə dükan açır. Dostları bunu eşidib gəlirlər, ondan bu mayanı haradan almasını soruşurlar. Oğlan deyir:

– Mənim mayam vardı. Atam qoymuşdu. Mən sizi yoxlayırdım. Siz dar gündə mənə kömək edənlərdən yox, müftə yeyənlərdənsiniz.

Bundan sonra oğlan ailə qurur, ağıllı yaşamağa başlayır.

## AĞILLI QIZ

Biri varmış, biri yoxmuş keçmiş zamanlarda bir yəhudi taciri varmış. Bu tacirin arvadı ölür. Tək bircə qızı qalır. Tacir daha arvad almır. O, öz qızına baxır, qız həddi-buluğa çatır. O, atasını çox istəyir, ancaq tacir fikir edir ki, bu gün-sabah qızı ərə gedəcək, var dövlət əldən çıxacaq, yaxşısı budu ki, kim nə bilir, qızı ələ keçirim, sonra isə evlənim. Bəlkə bir oğlum ola, mən öləndən sonra var dövlətə sahib ola.

O, öz çirkin əməllərini qızına açmağa başlayır. Qız nə qədər yalvarır, ağlayırsa, tacir əl çəkmir. Qız çox ağıllı, savadlı idi. Görür ki, atası əl çəkməyəcək. Bir gün atası qıza deyəndə ki, hazırlaş nikah kəsdirəcəm, qız deyir ki, o ki, belədi mənim sənə bir tapşırığım var, əgər onu yerinə yetirsən razılıq verəcəm, yerinə yetirməsən özümü öldürəcəm.

Tacir deyir:

– Nədi tapşırığın?

Qız deyir:

– Dənizin qırağında dördmərtəbəli bir bina tikdirərsən, hər mərtəbədə on otaq, cəmi qırx otaqdan ibarət olsun, hər otaqda birillik yemək şeyi olsun, suyu-çırağı hər nəyi lazımsa olsun. Evin dörd qırağına poladdan elə bir hasar çəkdirərsən ki, top



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dağıtmaz olsun. Bircə qapısı olsun. Ancaq elə qapı olsun ki, açıb içəri girəndə bağlansın. Eşikdən açılmasın, dəniz tərəfdən nərdivan qoyarsan, dənizə enməyə qapısı olsun, örtəndə açılmasın. Əgər bu şeyləri düzəltsən, sənə gedərəm.

Tacir sevindi, söz verdi ki, üç aya hamısı hazır olacaq. Üç ay ərzində saray hazır oldu. Gəlib qıza dedi ki, hər nə demişdinsə hazırdı. Qız dedi ki, gəl gedək, baxaq. Açarları da götürüb getdilər. Qız bütün hər şeyə baxdı, bəyəndi, dedi ki, indi nikah olar. Onlar evdən çıxdılar, qapı açıq qaldı. Bunlar darvazaya çatdılar. Qız dedi:

– Sən qabağa çıx.

Tacir qapıdan bayıra çıxan kimi, qız tez içəri tərəfdən vurub qapını bağladı. Özü də gedib evə girdi, ev qapısını da bağladı. Tacir nə qədər çalışdısa da, qız qapıları açmadı. Belə olanda tacir gedib Sultana şikayət elədi ki, arvadım mənim başıma iş açıb. Sultan yüz atlı göndərdi ki, gedib qapıları qırıb qızı gətirsinlər. Ancaq onlar gəlib nə qədər çalışdılarsa, qapını aça bilmədilər. Qız yuxarıdan dedi:

– Gedin Sultana deyin ki, özü dəniz tərəfdən gəlsə mən onunla gedərəm, yoxsa heç kəsnən getməyəcəyəm.

Bunlar gedib Sultana xəbər verdilər ki, qız deyir ki, Sultan özü gəmi ilə gəlsin. Sultan gəmiyə minib lap evin yanına gəldi, qızı çağırdı. Qız enib düz Sultanın yanına getdi. Bütün başına gələn əhvalatı Sultana danışdı. Qız Sultana dedi ki, məni də özünlə apar. Sultan qızı da götürüb getdi. Taciri də qovdu.

Sultanın bir çirkin qızı var idi. Bu qızı da özünə ikinci qız elədi. İndi gəlin sizə xəbər verək Şah Abbasdan .

Şah Abbas Sultana elçi göndərir ki, qızını ona versin. Sultan razı oldu. Şah xəbər göndərdi ki, filan günü gəlib qızı gətirəcək. Sultan bütün yollara qəbələr saldırıb hər yanı bəzətdi. O fikir elədi ki, öz çirkin qızını ərə verər.

Şah gəldi. Toy düyün başladı. Şaha həmin tacirin qızını görsətdilər. Şah ona baxan kimi bəyəndi. Qız çox gözəl idi. Gəlin gedən vaxtı çirkin qızın başını bəzəyib kəcavəyə qoydular. Şah



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qızın üzünə baxanda dəli oldu, qılıncını çəkib Sultana hücum etmək istəyəndə vəzir qoymadı, həmin tacirin qızını gətirib Şaha verdilər. Şah yoluna davam edib İrana getdi.

Bunlar burada qalsın, gəlin sizə xəbər verim tacirdən. Tacir bütün əhvalatı bilib öz-özünə dedi ki, gərək qızımdan intiqam alam. Tacir çox bahalı mallarnan karvan çəkib gəldi İrana. Şəhərin kənarında əyləşdi. Artıq axşam düşdü. Ən bahalı qızıldan-gövhərdən bir bağlama düzəldib şaha bəxşiş apardı.

Bir qədər söhbətdən sonra şah tacirə dedi ki, bu gecə qonaq qalsın. Tacir də bunu istəyirdi. Şah evə gəldi. Tacirlə bərabər axşamdan yedilər, içdilər, vaxt keçirdilər. Şah o biri otağa girib arvadına dedi ki, bir otaqda tacirlə özünə bərabər bir yer düzəltsin. Qız hər ikisinə yatmaq üçün yer düzəltdi. Qız şaha ərə gələndən sonra 9 ayın tamamında bir oğlan uşağı doğdu. Dünya yaranandan bəri hələ belə gözəl uşaq olmayıb, başının yarısı qızılı, yarısı gümüş rəngə çalırdı. Uşaq beşikdə yatanda, atası gecədə bir neçə dəfə yırğalayırdı.

İndi isə tacirdən xəbər verək. Tacir o qədər gözlədi ki, Şah yuxuya getdi. Tez yerindən qalxıb asta-asta gəldi qız olan otağın qapısını açdı, tez cibindən almaz bıçağı çıxardıb uşağın boğazını kəsdi. Uşaq heç cınqırını da çıxartmadı, başı yerində qaldı. Tacır həmin bıçağı qızın döşəyinin altına qoydu. Sonra isə gəlib öz yerinə girdi. Qız səhər vaxtı oyandı. Gedib beşiyə baxanda gördü ki, beşiyin içi dolu qandı. Öz-özünə sakitcə ağlamağa başladı. Şah oyandı. Tacirdə qalxdı. Şah arvadının otağına girdi gördü ki, arvadı ağlayır. Arvadı Şaha xəbər verdi ki, uşağın başı kəsilib. Şah qəzəblənib gözətçi başçısını çağırtdırdı ki, mənim yataq xanəmə kim girib. Gözətçi başçısı and-aman elədi ki, heç quş da girməyib. Şah çox qəzəbli idi. Tacir dedi ki, Şah sağ olsun, niyə qəzəblənirsən? Burada üç nəfərik, axtarış aparaq, kimnən qanlı bıçaq çıxsa, sənin uşağının boğazını o kəsib. Şah qabaqcadan taciri yoxladı, sonra isə tacir Şahı yoxladı. Axırda gedib qızı yoxlayanda qanlı bıçaq qızın döşəyinin altından çıxdı. O saat Şah əmr etdi ki, qızın boynu vurulsun. Vəzirlər yığılıb dedilər ki, Şah



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sağ olsun, zənən xaylağına belə zülm etmə. Gözlərini çıxart, uşağı da ver qucağına sərhəddən çıxart. Qızın gözlərini çıxarıb cibinə qoydular. Uşağı da qucağına verib bir qalın meşəyə buraxdılar. Axşam düşdü. Qız bir ağacın dibində oturub ağladı.

Qız burada ağacın dibində oturan zaman ağacın başına iki göyərçin qondu. Göyərçinlər bir- birnə dedilər ki, gəl çağıraq, əgər yatıbsa, oyansın, oyaqsa qulaq assın. Qanadlarımızdan iki lələk buraxacağıq, gedib qucağına düşəcək. Ayağının altında bulaq var, oradan su axır. Həmin lələyin birini o suya batırsın, gözlərini də yerinə qoysun, sonra isə sulu lələyi gözlərinin üstünə çəksin, gözü sağalacaq. Sonra o biri lələyi də suya batırıb, uşağın başının düzgün yerinə qoyub, kəsilən yerinə hərləmə çəksin, uşaq diriləcək. Qız göyərçinlərin sözlərini eşidib, tez əlini qucağına aparıb lələkləri tapdı. O, cibindən gözlərini çıxardıb yerinə qoydu, əyilib lələyi suya batırıb gözünə çəkdi, o saat gözləri sağaldı. Qız tez o biri lələyi də suya batırıb, oğlunun başını düzəldib, kəsilən yerinə çəkdi. Uşaq o dəqiqə dirilib "ana" dedi. Sonra isə əmmək istədi. Qız su içib uşağa döş verdi, allaha şükür edib yalvardı. Gecə burada qalıb, sabahısı bütün günü yol gedib, axşam üstü bir açıqlıq yerə çatdı. Qız fikirləşdi ki, indi mən harada qalım ki, qurd-quş yeməsin. Gördü ki, bir balaca hündür yerdə bir qaya var. Qız gəlib bu qayanın yanına çatanda gördü ki, qayanın altı deşikdi. Qız dedi ki, yaxşı oldu. Girərəm burada səhərə kimi qalaram. Qız mağaraya girəndə gördü ki, bir qapı var, qapını açıb gördü ki iki çarpayı, ipəkdən yorğan-döşək var. Divardan isə iki qılınc asılıdı. Qız buna məəttəl qaldı, çox qorxdu. Fikrinə gəldi ki, yəqin buranın sahibi iki nəfərdi. Gəlib məni burda görsələr necə olar? Qız baxdı gördü bir qapı da var, açanda gördü ki, iki cavan at, gözləri par-par yanır. Ozü də atlar həmişə arpa yeyirlər. İki yəhər var qızıldan. Başqa bir qapını açdı gördü ki, böyük tövlədi, iki tərəfli axuru var, bağları qızıldan. Sonra saydı ki, yüz bağdı. Qız dedi ki, yəqin o ikisinin yüz adamı var. Yenə bir qapını açdı gördü ki, yüz çarpayı var, hamısı qızıldan. Daha bir qapını açanda gördü ki, bir böyük otaqdı, yüz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ədəd qızıldan oturmaq üçün kürsü, miz var. Başqa bir qapını açdı. Bu böyük bir mətbəx idi. Hər nə istəsən orada vardı. Onu da saydı ki, yüz boşqab, yüz qaşıq, yüz çəngəl, yüz nəlbəki, hər nə saydısa sayı yüz oldu. Hamısı da qızıl. Gecə oldu. Qız naəlac gedib iki çarpayı olan otaqda yatdı. Gördü ki, həmin gün heç kəs gəlmədi. Qız burada yaşamağa başladı. Oğlu on beş yaşına çatdı. At minməkdə, qılınc oynatmaqda tayı-bərabəri yox idi.

İndi sizə kimdən xəbər verək, Şah Abbasdan.

Şah Abbas vəzir Allahverdi xanı çağırıb dedi ki, mənimlə bərabər yüz nəfər çıxaq ov etməyə. Yüz adam atlanıb düşdülər yola. Meşədə bir ceyrana rast gəldilər, nə qədər çalışdılar, vura bilmədilər. Dalınca düşdülər, axırda gəlib bir səhraya çıxdılar. Bunlar çadır qurub dayandılar.

Bir tərəfdən də qız qayanın başından hər şeyi görürdü. Tez oğlunu çağırıb dedi:

– Oğul, o çadırları görürsənmi. Ata min get, orada olan o qırmızı çadırdakı adamlara ədəb-ərkanla salam ver. O qırmızı çadırda olan adam qoşunun başçısıdı. Sən de ki, mən sizi bu gecə qonaq çağırıram. Anam deyir ki, buyursunlar, özgə bir şey demə.

Oğlan atı minib düz Şah olan çadıra çatdı, ora yaxınlaşıb atdan düşdü. Şaha ədəblə salam verdi. Şah bu oğlanı görəndə heyran qaldı, onun təklifini qəbul etdi. Şah vəzir Allahverdi xana əmr etdi ki, çadırları söksünlər, atlarını minib oğlanın dalınca getsinlər. Oğlan atdan düşüb onları evə təklif etdi. Hamı atdan düşdü, atları da özləri ilə mağaraya çəkdilər. Atları tövləyə bağladılar. Özləri isə yemək otağına daxil oldular. Axşam yeyib-içib yatdılar. Səhər hamı süfrə kənarında əyləşdi. Arvad oğlunu çağırıb dedi ki, o başda oturanı görürsənmi, elə et ki, bilməsin. Bu qızıl bıçağı onun cibinə qoy. Oğlan bıçağı Şahın cibinə elə qoydu ki, o heç nə hiss etmədi. Yeyib içəndən sonra qalxdılar ki, getsinlər. Qız oğluna dedi ki, get o böyüyə de ki, biz sizə heç bir pislik etmədik, nə üçün bizim bir qızıl bıçağımızı oğurladınız. Oğlan gedib dedi:

– Biz ki, sizə heç bir pislik etmədik, bəs siz nə üçün bizim bir qızıl bıçağımızı oğurladınız?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah qəzəblənib vəzir Allahverdi xana əmr etdi ki, yoxla, kimin üstündən bıçaq çıxsa, boynu vurulsun. Vəzir hamını yoxladı, heç nə tapmadı, Şaha dedi ki, Şah sağ olsun, heç kəsdə yoxdu. İndi ikimiz qalmışıq, gəl məni də sən yoxla. Şah vəziri yoxlayıb heç nə tapa bilmədi. Şah vəzirə dedi:

– Gəl sən də məni yoxla.

Vəzir əlini Şahın cibinə salanda bıçaq əlinə gəldi. Şah baxdı ki, günahkardı.

Belə olanda qız qapını açıb Şaha dedi:

– Ay utanmaz Şah, heç ana da öz oğlunun başını kəsərmi?! İndi bil ki, allah məni saxladı. O həmin oğlan sənin oğlundu.

Belə deyəndə Şah özündən getdi. Ayılanda öpüşdülər, görüşdülər. Oğlanı bağrına basdı. Orada olan atın birinə oğlan, o biri ata isə anası minib Şahla bərabər saraya qayıtdılar. Şah yəhudi taciri tapdırıb, qatırın quyruğuna bağlatdı, parça-parça etdirdi. Özləri isə şad, xoşbəxt dövran sürdülər.

## ƏHMƏDİ-BİQƏM

Biri vardı, biri yoxdu, bir padşah vardı. Bu padşahın yeddi oğlu, bir qızı vardı. Bir gün padşah xəstələnir, oğullarını yanına çağırıb deyir:

– Mənim var dövlətimi yeddiniz də aranızda bölərsiniz. Ancaq bir vəsiyyətim var. Gərək yeddiniz də dünyanı gəzib dərdsiz-qəmsiz oğlan tapasınız. Bir bacınız var, qızı o oğlana verəsiniz ki, xoşbəxt olsun. Dünyada onun dərdi-qəmi olmasın.

Bunu deyib padşah ömrünü oğlanlarına tapşırır. Oğlanlar atalarını el qaydası ilə dəfn edirlər. Bir az keçəndən sonra fikirləşirlər ki, artıq səyahətin vaxtıdı. Bəli, qardaşların hərəsi bir padşahın vilayətinə sarı yol getməyə başlayırlar. Az gedirlər, üz gedirlər, çaylar keçirlər, dağlar aşırlar, nəhayət kiçik qardaşdan savayı hamısı geri qayıdır. Xəbər gətirirlər ki, dünyada dərdsiz adam yoxdu. Hər yerdə dərd boğaza çıxır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyirlər kiçik qardaş şeytan olur. Kiçik qardaş gəzə-gəzə gəlib Misir padşahının vilayətinə çıxır. Əvvəlcə şəhərin gözəlliyinə məəttəl qalır. Bir az getdikdən sonra görür ki, bir bağ var, bir bağ var, gül gülü çağırır, bülbül bülbülü. Xülasə, nə başınızı ağrıdım, bağ nazlı, bəzəkli bir gəlinə bənzəyir. Oğlan öz-özünə deyir.

– Aha, deyəsən mən axtardığımı tapmışam.

Gəzə-gəzə gəlib padşahın imarətinə çıxır. Bu vilayətin padşahının adı Əhməd idi. Oğlan qapını döyür. Padşah bunu yaxşı qarşılayır. Oğlanı evə aparır, süfrə açdırır. Oğlan əlini çörəyə vurmur, deyir:

– Padşah sağ olsun, mən heç nə yeyən deyiləm, elə bir məqsəd üçün gəlmişəm.

Padşah deyir:

– Məqsədin nədi?

Oğlan başlayır danışmağa ki, biz yeddi qardaşıq, bir bacımız var. Atamız da padşah idi. Atam öləndə vəsiyyət etdi ki, gərək yeddiniz də dünya səyahətinə çıxıb, bacınızı ərə vermək üçün qəmsiz adam tapasınız. İndi mən də soraqlaşa-soraqlaşa buraya gəlib çıxmışam. Görürəm ki, siz dünyada ən xoşbəxt, dərdsiz, qəmsiz adamsız. Bu barədə sizin fikrinizi bilmək istəyirəm.

Əhməd oğlanı götürüb bir otağa aparır, otaq nə otaq, qızıl-gümüşlə bəzədilib, adamın gözünü qamaşdırır. Oğlan görür ki, otağın içində bir kəlpeysər qara qul məleykə təki bir qızla yatır. Əhməd oğlana deyir:

– İndi dalımca gəl, mən başıma gələni sənə söyləyim.

Əhməd deyir:

– Cavan oğlan, bu qulla yatan qız mənim əmim qızıdı. Uşaq vaxtından deyikli idik. Biz həddi-büluğa çatandan sonra evləndik. Özü də bir-birimizi elə sevirdik ki, bir dəqiqə belə ayrı dura bilmirdik. Evləndikdən sonra bir gün qızı bərk qızdırma xəstəliyi tutdu. Elə oldu ki, qız ölüm ayağına gəldi. Dedi:

– Əmioğlu, artıq mən ölürəm, vəsiyyətim budu ki, məndən sonra heç kimlə evlənmə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən getdim özümü axtalatdım ki, evlənməyəcəyəm. Sonra elə oldu ki, qız sağaldı. Bir müddət keçdikdən sonra qız mənə dedi:

– Əmioğlu, mənə niyə yaxın gəlmirsən?

Qıza dedim:

– Sən ölüm ayağında olanda özümü axtalatmışam, ona görə sənə yaxın gələ bilmirəm.

Sonra əmiqızı dedi:

– Mən ərsiz yaşaya bilmərəm. Mən əmim qızına çox yalvardım ki, bizi el içində rüsvay etmə, bu fikrini başından at. Lakin qız razı olmadı. Axırda çarəsiz qalıb, gedib bazardan bir qul aldım. Ev verdim, yemək, paltar verdim. İndi qul mənim arvadımla yaşayır, lakin bu sirri heç kim bilmir. İndi mən sizin gördüyünüz, fikirləşdiyiniz kimi xoşbəxt deyiləm. Mən dünyanın ən dərdli adamıyam.

Oğlan kor-peşiman qardaşlarının yanına qayıdır. Görürlər ki, dünyada dərdsiz adam yoxdu.

Göydən üç alma düşdü, bir mənim, biri nağıl deyənin, biri də özümün. Yerdə qalanı siz götürün. Mən yüz yaşayım, siz də iki əlli. Hansı çoxdu onu siz götürün.

## PADŞAHLA HƏKİM

Günlərin bir günü padşah xəstələnir. Başqa bir məmləkətdən bir həkim bunu eşidib gəlir. Gəlib padşaha deyir ki, qibleyi-aləm sağ olsun, mən sizi öz torpağımda sağaldaram. Dərd əlindən çarəsiz qalan padşah razı olur. Onlar tədarük görüb gəlirlər həkim yaşadığı torpağa, həkimin evinə. Həkim başlayır padşahı öz evində sağaltmağa. Həkim bir neçə ayın içində padşahı tam sağaldır. Padşah ayaq üstə qalxır. Həkimə deyir ki, anabir, atabir qardaş olaq. Bunlar qardaş olurlar.

Sonra həkim deyir ki, indi də gedək bizim şəhəri gəzək. Bunlar başlayırlar şəhəri gəzməyə. Şəhəri gəzən zaman padşahın gözünə iki qız sataşır. Padşah həkimə deyir:

– Qardaş, qızların birinə aşiq oldum. Həmin qızın evini mənə göstərərsənmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həkim deyir:

– Göstərərəm.

Həkim padşahla gəlir, həyəti göstərir ki, qız bu həyətdə yaşayır. Sonra həkim qızın yanına gedib deyir:

– Ay qız, sizə aşiq olan adam filan torpağın padşahıdı. İndi mənim fikrim səni ona almaqdı.

Qız deyir:

– Sən bilirsən alırsan al.

Sən demə bu da həkimin öz nişanlısı imiş. Həkim bunları evləndirir, toy edir. Günlərin bir günü öz torpağına yola salır. Yola salanda padşah deyir:

– Qardaş, mən sənə məktub yazacam gələrsən, sənin xəcalətindən çıxaram.

Bir vaxt keçəndən sonra padşah həkimə məktub yazır ki, qardaş, durma gəl.

Həkim tədarük görüb yola düşür. Yolda dərya təlatüm edir. Bütün gəmi əhli dənizdə qərq olur. Həkim paltarını soyunub üzə-üzə dənizdən quruya çıxır. Bir neçə aydan sonra gəzə-gəzə gəlib padşahın şəhərinə çıxır. Çılpaq, üz gözünü tük basmış halda padşahın evinə gedir. Padşah onun qabağına çıxır. Baxır ki, bu onu müalicə edən həkimdi. Bağırır:

– Sən kimsən, dilənçinin biri, get burdan, axmağın biri axmaq. Sənin kimisi mənim həyətimə ayaq basmamalıdı.

Həkim kor-peşiman geri qayıdır. Bu zaman padşahın qardaşı yanında imiş. Tez padşah qardaşına deyir ki, bu məni qurtaran həkimdi. Tez get onu evinə apar, çörək yedir, padşahyana libas geyindir evində saxla. Padşahın qardaşı gedib ona deyir:

– Qardaş, gedək mən qonaq ol.

Həkim deyir:

Çox sənin kimilər mənə qardaş demişdi, ancaq sonra mənim üzümə də baxmadı.

Padşahın qardaşı deyir:

– Gedək, mən sənə qardaş olaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Apardı padşahın qardaşı bunu yaxşı yedirtdi, içirtdi. Ondan sonra hamama apardı, padşahyana libas geyindirdi.

Günlərin birində padşah çağırdı qardaşını. Dedi:

– Qardaş, sən get o həkimə denən ki, sənə burada xəstəxana tikdirək, burada işlə.

Bunu həkimə təklif edəndə o dedi:

– Kef sizindi.

Padşah əmr etdi, xəstəxana tikildi. Həkim başladı burada işləməyə. Ancaq həkimə də yaxşı bir imarət tikdirdi. Onda padşah öz anasını da qoydu həmin imarətə ki, sən burda bir qoca qarı kimi hərlənərsən, o gələndə deyərsən ki, mən də sənin anan. Qoy sənin paltarını yuyum, yeməyini hazırlayım.

Həkimi gətirirlər həmin imarətə. Qoca arvad ona deyir ki, mən də sənin anan olum. Həkim deyir ki, nə olar, sən də ol mənim anam. Padşah qardaşına deyir ki, get sən o həkimə de ki, gəl səni evləndirək. Həkim deyir ki, siz bilərsiniz. Padşah əl edir, iki qız gəlir. Qızın biri həkimin xoşuna gəlir. Padşah o saat əmr verir, toy başlanır. Həkim padşahın toya çağrılmasından narazı qalır. Bu vaxt padşahın qardaşı deyir ki, toya dost da gələr, düşmən də. Toyda padşahı masabəyi seçirlər. Həkim məclisdə padşaha çoxlu söz vurur. Axırda padşah söz alıb deyir ki, indi mənə qulaq asın. Görün, mənmi buna yaxşılıq etmişəm, yoxsa bumu mənə yaxşılıq edib?! Bax, mən xəstəydim. Məni müalicə etdi, öz nişanlısını da mənə verib toy etdi. Sonra mən yazdım, o bizim vilayətə gəldi. Gecə vaxtı çılpaq halda, dilənçi şəklində. Bu vaxt mən onu həyətdən qovdum, ona görə ki, mənim arvadım onun nişanlısı olmuşdu. Əgər bu halda onu mənim arvadım görsə ürəyi çatdardımı, çatdamazdımı? Hamı dedi ki, padşah düz deyir.

Sonra dedi ki, o imarəti tikdirən də mənəm. O imarətdə yaşayan qoca da mənim anamdı, ona verdiyim qız da bacımdı.

Həkim bu söhbətdən sonra qalxıb padşahla görüşüb öpüşdü, qardaşlıqlarını daha da möhkəmləndirdilər. Bir yerdə yaşayıb xoşbəxt dövran sürdülər. Sizi də xoşbəxt dövrana çıxasınız.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ALLAHALMIŞ

Biri varmış, biri yoxmuş, bir cavan oğlan varmış. Bu cavan oğlan çox kasıb olur. Hara gedirsə onun işi sarımır. Bazarın qırağında mollalar, kitabaçanlar vardı. Gələnə-gedənə dua yazırdılar, Quran oxuyurdular. Bu oğlan gedir bazarın yanına, görür bir adamdı, deyir: "Əmi, nə olar bir mənə baxginən". Deyir: "Oğul, nəyinə baxım". Deyir: "Hara gedirəm işim sarımır, cibimin də bərəkəti yoxdu". Deyir: "Oğul, səndən Allah alıb, səninki açılmayacaq". Deyir: "Daha neyləyim, mənim adım qaldı Allahalmış".

Allahalmış hara gedirsə işi gətirmir. Bir gün bazara çıxanda görür ki, bir qoca kişidi, qaratikan gətirib bir abbasıya satır. Camaat bunu növbə ilə alır. Deyir mənə nə olub, can məndə, qan məndə, qüvvə məndə. Gedib elə bir şələ düzəldir ki, bir araba çəkməz. Gətirir bazara, heç deyən olmur ki, sabahın xeyir. Tikan da orda qalır, alan olmur. Deyir: "Bəli, yatan bəxt burda da xəbər elədi".

Əlacsız qalır, şəhərin başında bir tacirin dükanına gedir. Deyir: "Bir aylığına mənə yüz manat pul ver. İşim sarımır, bəlkə əlinin bərəkəti mənə düşə". Tacir yüz manatı verəndə deyir: "Mənim şərtim var: – Ayın başında yüz manatı gətirməsən qolundan yüz qram ətini kəsəcəm. Razısan apar, razı deyilsən aparma". Deyir: "Ver, vaxtında gətirəcəm".

Bir yüzlük verir, qol çəkdirir. Allahalmış yüz manatı alır, bazara gəlir. Çörək dükanına girir, çörək alanda yüzlüyü verir. Dükançı deyir ki, xırdam yoxdu, dükanı yenicə açmışam. Şəkərçay dükanına girir, dükançı deyir xırdam yoxdu. Halva dükanına girəndə oğrular bunu görür. Biri qapıdan girib onun kürəyindən itələyir ki, bir qırağa dur, işim var, tələsirəm. Sonra barmağını salır, yüzlüyü onun cibindən çıxarır. Allahalmış parça dükanına girir, əlini cibinə salır ki, pulu xırdalasın, baxır ki, cibi boşdu, yüzlüyü aparıblar. Görür ki, bəxti yatıb, oyanmır. Bir ay nə qədər çalışırsa pul tapa bilmir. Ayın başında gedir tacirin yanına.

Tacir soruşur:

– Oğul, pulu gətirdinmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan deyir: " Xeyr, elə sən verən günü cibimdən çıxartdılar, əlinin bərəkəti yox imiş". Tacir deyir: "O mənə borc deyil, qolunu çirmələ, yüz qram ətini kəsəcəm". Allahalmış bağırır ki, a kişi, gözüm baxa-baxa ətimi gözümün qabağındamı kəsəcəksən?

Oğlanın səsinə camaat yığılır, deyirlər:

– Ay tacir, kişinin bağrını niyə yarırsan. Qazı var, get şikayət elə, nə divan kəsər, ona da baxarsan.

Tacir Allahalmışı götürüb qazının yanına gedir. Şikayətə gələn zaman yolda görürlər ki, kimsə qışqırır ki, ay Allahını istəyən, mənə kömək elə. Allahalmış deyir, onsuzda məndən Allah alıb, gedim kömək eləyim. Sən demə, həmin kişi də uzunqulaq arabası ilə odun gətirirmiş. Araba palçığa batıb çıxmır. Allahalmış da gedir uzunqulağın quyruğundan tutur ki, çıxartsın, birdən quyruq qırılır əlində qalır. Arabanın sahibi durur bunu ağacın dibinə çəkib döyür. Deyir: "Uşağı bununla saxlayırdım niyə mənim evimi yıxdın? Allahalmış deyir: "Məni qınama, a kişi, məndən Allah alıb işim sarımır. Bax bu tacir də şikayətə gedir, gəl sən də gedək".

Amma Allahalmış quyruğu tullamır, qatlayıb cibinə qoyur. Qoca bunlara qoşulub şikayətə gedir, araba da orda qalır. Xeyli gedəndən sonra Allahalmış baxır ki, bir hündür qaya var, qayanın üstünə çıxır, deyir, onsuz da qazı bunların ikisindən birinin sözünə baxacaq, mənə divan tutacaq. Elə buradan özümü tullayım, ölüm, canım da qurtarsın. Elə bu vaxt bir cavan oğlan atası ilə bərabər ot biçirmi. Otu biçirlər, günorta çörəyini yeyib, qayanın altında arxası üstə uzanıb dincəlirlər. Allahalmış qayanın üstündən atılanda kişinin üstünə düşür, onun qarnını dağıdır. Bu zaman oğlu durub kərəntini əlinə alır ki, a kişi, niyə mənim evimi yıxdın. O, Allahalmışı vurmaq istəyəndə Allahalmış deyir: "Oğlan , yuxarıdan baxanlar da şikayətə gedir, məndən Allah alıb, işim sarımır, gəl sən də gedək". Bu da atasını qoyub onlarla gedir.

Qazının divanxanasına yaxınlaşanda Allahalmış yalvarır ki, amandı ay qazı əfəndi, məndən Allah alıb sənsə insaf elə. İstəyir qapını açsın, görür ki, qazının yanında başqa bir qonaq var. Tez qapını örtür, qapının dəstəyindən bərk tutur. Deyir: "Hələ gəlməyin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qazı namaz qılır”. Qazı bunu eşidir. Yanındakını o biri qapıdan buraxır. Hərlənir gəlir divanxanaya. Deyir: “Qazı namaz qılır deyən kim idi?”. Allahalmış cavab verir ki, mən idim. Deyir: “Oğul, deyəsən sirr saxlayan adamsan”. Allahalmış deyir: “Ondan nigaran olma, çox da məndən Allah alıb, sirr saxlamağı bacarıram”. Qazı deyir: ”İndi qoy şikayətçilər buyursunlar”. Tacir irəli durur, deyir ki, məndən yüz manat pul alıb, hələ verməyib. Şərtimiz var ki, yüz qram ətini kəsməliyəm. Qazı “Çox gözəl”, – deyib əmr edir ki, tərəzi gətirsinlər. Dedi: “Yüz qramlıq daş da qoyun”. Ay bala, dedi, adın nədir? Dedi: “Allahalmış”. Dedi: “Qolunu çirmələ”. Qazı tacirə dedi: “Bircə dəfə vuracaqsan bıçağı, tullayacaqsan tərəzinin gözünə. Vay gününə bir misqal ağır, ya bir misqal yüngül gəlsin”. Tacir dedi: “Belə şey olarmı, ağırı-yüngül olmasın”. Dedi: “Bəs elə şey olmaz, bunun bağrını niyə yarırsan? Yüz manat da ver!” Yüz manatı tacirdən alıb deyir: “Sən çıx get!”

Qalır heyvanının quyruğu qırılan. Qazı soruşur, a kişi, sən nə gəzirsən? Kişi baxır ki, şikayət tərsinə gedir. Deyir: “Vallah, bunlar gəlirdi, mən də bunlara qoşulub gəlmişəm”. Belə deyəndə qazı Allahalmışa deyir: “Düzdümü?”. Deyir: “Xeyr”. “Bəs nə təhərdi?”. Deyir: “Yolla gəlirdik, gördüm səs gəlir ki, ay Allahını istəyən, mənə kömək elə. Tacir durdu, mən getdim, gördüm ki, uzunqulaq arabası batıb. Heyvanın quyruğundan tutdum ki, çəkəm, quyruq qırıldı, əlimdə qaldı. Məni döydü ki, niyə heyvanımın quyruğunu qırdın”. Qazı soruşur: “A kişi, düzmü deyir?”. Kişi deyir: “Yalan deyir, cavan oğlandı, anadangəlmə mənim heyvanımın quyruğu olmayıb”. Deyəndə Allahalmış quyruğu çıxarır. Deyir: “Bəs bu mənimmi quyruğumdu?”. Qazı: “ A bala səni döydümü?”. Deyir: “Bəli”. Qazı deyir: “Yüz manat ver bunu döydüyünə görə. Bu da yüz manat verib çıxıb gedir.

Qalır atası ölən oğlan. Qazı deyir: “Oğlan, bəs sən nə gəzirsən?”. Oğlan deyir: “Atamla ot biçirdik, günorta çörəyini yedik, gəldik qayanın altında dincəlməyə. Qayanın üstünə çıxıb oradan atılanda kişinin qarnı dağıldı”. Qazı soruşur: “Döydünmü?”. Oğlan deyir: “Canını da aldım. Atam ölüb, necə döyməyim?”. Qazı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyir: “Nahaq döyübsən, yüz manat ver!” Deyir: “Niyə verirəm?” Qazı deyir: “Mən deyəcəm”. Yüz manatı da atası öləndən alıb deyir: “Apararsan bu Allahalmışı, dədənin meyitini ordan götürərsən, bunu da uzadarsan dədənin yerinə, özün də çıxarsan həmin dağın başına, hoppanarsan onun üstünə. Qarnı dağılar, atanla bərabər olar, dağılmaz, buraxarsan gedər”. Oğlan deyir: “Qazı əfəndi, bəlkə mən hoppananda bu qalxıb qaçacaq”. Qazı deyir: “Atan da qaçaydı da”.

Bununla Allahsaxlamışın bəxti açılır, oradan sevinə-sevinə çıxıb evlərinə gəlir.

## ƏHMƏDLƏ QIZIL BALIQ

Biri varmış, biri yoxmuş, bir padşah varmış. Günlərin bir günü padşah xəstələnir. Həkim gəlib deyir ki, dəryada bir balıq var. Quran ayəsi ilə yazılıbdı. Onu tutub gətirib ətini yesən, qanı ilə çimsən, həm bu dərddən azad olarsan, həm də cavanlaşarsan.

Padşah o saat əmr edir, üç qəvvas gəlir. Padşahın oğullarından ikisinin anası dururdu, birinin anası isə ölmüşdü. Qəvvaslar dəryaya tor atırlar. Padşahın oğullarının hərəsi bir torçunun yanında durur. Anası ölmüş oğlanın yanındakı torçu tor atanda həmin balığı tutur. Oğlan balığı tutub deyir ki, bu da bir gözəl canlıdı, atır dəryaya. Padşaha xəbər verirlər ki, qibleyi-aləm sağ olsun, oğlunuz Əhməd balığı tutub yenidən dəryaya atdı. Padşah qəzəblənir. Cəllad çağırır, dar ağacı qurulur. Vəzir, vəkil tədbir görürlər. İrəli yeriyib deyirlər:

– Qibleyi-aləm sağ olsun, sən belə hallı oğlunu camaatın gözü qarşısında dara çəkdirsən hörmətdən düşərsən. Bunu başqa torpağa sürgün et.

Padşah vəzirin, vəkilin təklifinə razı olur. Odu ki, sürgün vaxtı gələndə oğlan hazırlaşır, tədarük görüb yola düşür. Bir qədər getdikdən sonra gəlib bir yol ayrıcına çıxır. Görür ki, qarşı tərəfdən də özü kimi bir cavan oğlan gəlir. Salam-kalamdan sonra oğlan Əhmədə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaş, hara gedirsən? Əhməd qayıdıb deyir ki, pul qazanmağa gedirəm. Bunlar ilqar edirlər ki, birgə gedərik, qazandığımızı birgə bölərik. Hər ikisi az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, gəlib bir şəhərə çatdılar. Oğlanlar bir xurcun aldılar. Xurcunu çiyinlərinə saldılar, başladılar şəhəri gəzməyə. Bu zaman carçı car çəkib bildirdi ki, padşahın qızı lal olub. Kim onu sağaltsa, padşah qızını ona verəcək. Yoldan gələ oğlan Əhmədə dedi ki, sən qorxma, de ki, mən təbibəm. Oğlan başladı qışqırıb haray salmağa ki, mən təbibəm. Küçədən keçənlər padşaha xəbər verdilər ki, şah sağ olsun, dünəndən şəhərdə iki həkim peyda olub. Padşah o saat adam göndərdi. Oğlanları hüzuruna çağırıb dedi:

– Oğul, çox həkim gəlib, qızımı danışdıra bilməyib. Kim danışdırsa qızımı ona verəcəyəm.

Oğlan dedi:

– Qibleyi-aləm sağ olsun, gündə tək bircə kəlmə danışdıra bilərəm.

Sabah açıldı, hamının üstünə xeyirli sabahlar açılsın, oğlanlar gəldilər. Vəzir, vəkil də gəldi görsünlər həkimlər nə edəcəklər. Yoldan gələn oğlan dedi:

– Qədim zamanlarda iki qardaş vardı. Birinin üç oğlu, birini bir qızı vardı. Bu qızı oğlanların üçü də istədi. Əmisi bu işə məəttəl qaldı. Qızını heç birinə vermədi. Oğlanlar baş götürüb hərəsi bir tərəfə getdilər. Biri getdi bir həkimin yanında həkimlik sənətini öyrəndi. Biri getdi bir rəmdarın yanında rəmdarlıq sənətini öyrəndi. Biri gedib qasidin yanında qasidlik oxudu. Günlərin birində bu rəmdar rəm atıb dedi ki, görüm əmiqızı durur, yoxsa ölüb. Rəmdar gördü ki, əmisi qızı ağır xəstədi. Gəlib həkim qardaşına dedi ki, qardaş, əmimiz qızı ölüm yatağındadı.

Həkim qardaş dedi:

– Məndə elə dərman var ki, canı çıxmamış ağzına töksələr sağalar.

Gəldilər qasidin yanına, dərmanı verdilər qasidə. Qasid dərmanı aparıb qıza yetirdi. Qız dərmanı içən kimi sağaldı. İndi qız hansı oğlana düşür? Lal qız dilləndi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Rəmdar rəm pulunu alsın, həkim dərman pulunu, qız qasidindi.

Padşah şad oldu, dedi: – Məni istəyən, bunlara xələt versin.

Xələt verdilər. Oğlan dedi ki, birini də sabah danışarıq. Üstünüzə xeyirli sabahlar açılsın, sabah açıldı. Oğlanlar gəlib yenə başladılar danışmağa:

"Bir gün bir dülgər, bir molla, bir dərzi yol gedirdi. Axşamüstü bir meşəyə çatdılar. Meşədə yaşamalı oldular. Dülgər öz-özünə dedi: "Ağacdan bir adam düzəldim, qoyum bunların başının üstünə qalxanda qoy bunlar qorxsunlar". Dülgər alətlərini işə saldı. Ağacdan bir qız düzəltdi, yıxılıb yatdı. Dərzi durub gördü ki, başının üstündə bir qız durur. Yaxınlaşdı ki, qız ağacdan yonulan heykəldi. O saat başa düşdü ki, bu dülgərin işidi. O da başladı iynəsini işə salmağa. Bu qıza yarpaqdan bir don tikdi, sonra yıxılıb yatdı. Molla qalxdı gördü ki, budu, başlarının üstündə bir qız durur. Yaxın getdi ki, doğurdan da gözəl qızdı. Çox təəssüf ki, ağacdandı. O saat yönünü çevirdi qibləyə, Allaha sitayiş edib oturdu dəst-namaza. Barı qıza can verdi. Səhər açıldı. O dedi ki, qız mənimdi, bu dedi mənimdi. İndi qız kimindi?

Lal qız dilləndi:

– Dülgər əmək haqqını alsın, dərzi iynə, bez haqqını. Qız mollanındı.

Qız dillənəndə padşah sevindi, bunlara ənam, xələt verdi. Qızı da bunlara qoşub xüsusi təmtəraqla yola saldı. Bunlar gəlib yol ayrıcına çıxanda Əhməd öz-özünə dedi ki, oğlan ya qızı mənə verə, ya dünyanın malını. Yoldan gələn oğlan dedi:

– Qardaş, ilqar vaxtı gəlib çatıb. İndi gəl qazancımızı yarı bölək. Dünya malını böləndən sonra hərəsi qızın bir ayağını tutdu. Yoldan gələn oğlan qızı qılıncla vurmaq istəyəndə qız qorxdu. Ağzından bir ilan sivrilib düşdü. Oğlan qızı qaldırdı ayaq üstə. Bütün var-yoxunu da, bu qızı da verdi Əhmədə, dedi:

– Qardaş.

Dedi:

– Bəli:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məni tanıyırsanmı?

– Xeyr, tanımıram.

Dedi:

– Mən həmin balığam ki, sən mənə qıymadın. Tutub yenidən suya atdın. İndi bir qab gəti, qanımdan verim, üç dəfə suya qatıb atanı çimizdir, qoy sağalsın. Qanı verəndən sonra xudahafizləşdilər.

İndi sizə kimdən deyim, padşahdan. Padşah tutduğu işdən peşman olmuşdu. Oğlunun gəldiyini eşidəndə muştuluqçuya çoxlu xələt verdi. Səxavətli əlini açdı. Acları, fəqirləri, yetimləri doydurdu. Oğlan gəldi. Atasını qanla çimizdirdi. Atası da sağaldı. Oğlu ilə gətirdiyi qıza qırx gün, qırx gecə toy elədi. Onlar yedilər, içdilər, arzularına çatdılar. Cəmi insanlar da muradına çatsın.

## XOŞBƏXT ADAM

Biri varmış, biri yoxmuş, bir padşah varmış. Bu padşahın bir oğlu varmış. Bir gün padşahın oğlu ağır xəstələnir. Padşah dünyanın bütün alimlərini çağırır, amma oğlunun dərdinə əlac tapa bilmirlər. Qoca bir münəccim gətirirlər. Münəccim deyir:

– Qibleyi-aləm sağ olsun, buna bir xoşbəxt adamın köynəyini geyindirsəniz sağalar.

Padşah əmr edib adamlarını çağırtdırır. Hərəyə bir kisə qızıl verir, xoşbəxt adamın sorağı ilə ölkələrə salır. O zaman kim varlı imiş, onu xoşbəxt sayırlarmış. Padşahın adamları vilayətlərə, kəndlərə düşüb soruşurlar ki, buranın dövlətli adamı kimdi? Çox dövlətli adamın qapısına gəlib soruşurlar ki, sən özünü xoşbəxt sayırsan? Cavab verirlər:

– Haradan xoşbəxtəm. Var-dövlətim çoxdu, amma özüm xəstəyəm.

Başqa dövlətli adamın evinə gedib ondan soruşurlar. O da cavab verir ki, hardan xoşbəxt olum. Var-dövlət var, ancaq arvadım xəstədi. Əgər arvad salamat olsaydı, onda xoşbəxt olardım.

Başqa bir adamın qapısına gedib soruşurlar: “Sən özünü xoşbəxtmi sayırsan?” O da deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Eh, hardan xoşbəxtəm. Bir oğlumuz yoxdu ki, var-dövlətimizə sahib olsun.

Padşahın adamları ən axırda nişan verilən başqa bir adamın qapısına gedirlər. Ondan soruşurlar: "Özünü xoşbəxtmi sayırsan?" O da cavab verir ki, haradan xoşbəxt oldum. Min bir ocağa nəzir verdik ki, bir uşağımız olsun. Axır ki, gəlib bir qızımız oldu. Qızımız böyüyüb on səkkiz yaşına çatana kimi özümüzü ən xoşbəxt adam sayırdıq. Elə ki, qız on səkkiz yaşına çatdı, onu yaxşı bir yerə ərə verdik. Qız altı aydan sonra qaçıb gəldi ki, onlara xoşum yoxdu. Dedik, bala, belə olmaz. Uşağın-zadın olar, qaynayıb-qarışarsan.

***Yer kimindi – oturanın,***
***Söz kimindi – götürənin.***

Qızımız bizim sözümüzə baxmadı. Sonra bir oğlana qoşulub qaçdı. Orada da bir il qaldı, sonra başqasına qoşulub qaçdı. El içində biabır olduq. Bundan sonra mən hardan xoşbəxt ola bilərəm?

Padşahın adamları şəhərə qayıdırlar. Küçədən keçəndə görürlər ki, bir evdən səs gəlir:

– Özüm cavan, canım salamat, yeyib-içib yatıram.

Fikirləşirlər ki, deyəsən bu adam həyatından çox razıdır. Onu qapısına gedib, qapını döyürlər. Həmin adam qapını açıb deyir:

– Sizə kim lazımdı?

Deyirlər sizdən bir söz soruşacağıq. De görək, sən özünü xoşbəxtmi sanırsan? O cavab verir ki, əlbəttə xoşbəxtəm. Padşahın adamları deyirlər ki, onda köynəyini ver, bir köynəyin əvəzinə sənə yüz köynəyin pulunu verəcəyik. Bunu eşidən adam yaxasını açıb deyir:

– Vallah, qazandığım ancaq boğazımı görür, artırıb köynək ala bilmirəm.

Göndərilən adamlar qayıdıb bir yerə yığışırlar. Padşaha deyirlər ki, ölkədə xoşbəxt adam tapa bilmədik. Tək bircə xoşbəxt adam tapdıq, onun da köynəyi yox idi. Hərə bir murazın dalındadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## TƏSBEH KİMƏ ÇATMALIDI?

Günlərin birində padşah öz vəziri ilə səfərə çıxır. Atbaşı gedirdilər. Birdən vəzir yolda bir təsbeh gördü. Bu vaxt təsbehi padşah da gördü. Vəzir tez atdan düşdü, təsbehi götürdü dedi ki, təsbeh mənimdi., onu birinci mən görmüşəm. Padşah dedi ki, xeyr, səndən qabaq mən görmüşəm, təsbeh mənə düşür. Vəzir dedi ki, o ki elədi, gəl hərəmiz başımıza gələn bir əhvalat danışaq. Kiminki maraqlı olsa, təsbeh ona düşsün. Padşah razılaşdı. Vəzir padşaha dedi ki, əvvəlcə sən başla.

Padşah danışmağa başladı:

– Mənim bir yaxşı köhlən atım var idi. Atı bir mehtər bəsləyirdi. Səfərə çıxanda mehtəri çağırardım. O da atı gətirərdi, minib gedərdim. Bir gün tövləyə girdim, gördüm ki, at çox arıqlayıb. Mehtərdən xəbər aldım ki, bu at niyə belə sınıxıb. Dedi: – Qibleyi-aləm sağ olsun, necə sınıxmasın, atı gecə də minirsiniz, gündüz də. Onda mən çox qəzəbləndim. Mehtərə dedim ki, sənin ağlın azalıb, yoxsa nədi? Mən ancaq atı səhər minirəm. Axır ki, evə qayıtdım. Gecənin bir vaxtı gördüm ki, arvadım mənim bir dəst paltarımı geyindi, silahımı qurşandı, saraydan çıxdı. Tez mən də bunun dalınca həyətə çıxdım. Gördüm ki, arvadım mehtəri çağırıb ata mindi. Mən də tez bir ayrı ata mindim onun arxasınca getdim. Biz o qədər getdik ki, gəlib bir kolluğa çıxdıq. Arvad atdan düşüb bir evə girdi. Mən də onun arxasınca girib gördüm ki, arvadım qara bir qulla qucaqlaşıb yatır. Mən qəzəblənib qılıncla bunları öldürmək istədim, bu vaxt qara qul bir göz qırpımında qalxıb məni qamçı ilə vurub dedi ki, görüm səni köpək olasan. Mən oldum bir balaca köpək. Məni çarpayının ayağına bağladılar. Üç il çarpayıya bağlı qaldım. Bunların bir uşağı oldu. Uşaq da mənimlə – küçüklə oynamağa başladı. Bir gün uşaq mənimlə oynayanda uşağın əlini-ayağını yalayıb, iylədim ki, zənciri boğazımdan açsın. Uşaq zənciri boğazımdan açdı. Mən tez qaçdım. Gəlib öz şəhərimə çıxdım. Fikirləşdim ki, indi bu şəkildə hara gedim. Axır ki, gəlib qəssab dükanının yanına çıxdım. Qəssab mənə sümükdən-ətdən tökdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən qəssabın əlini-ayağını yaladım. Qəssabın bundan xoşu gəldi. Axşam məni evlərinə apardı. Qəssabın bir qoca anası vardı. Qəssab dedi ki, bir ağıllı it gətirmişəm. Lap adam kimi dil qanır, nə deyirsən edir. Anası dedi ki, bir o iti yaxın gəti, görüm necə itdi. Qarı itə baxıb dedi ki, ay sağ olmuş, bu ki, bizim padşahdı. Neçə il idi yox olmuşdu. Onu tilsimə salıblar. Belə deyəndə mən onların əlini-ayağını yalayıb başım ilə təsdiqlədim. Qəssab tez anasına dedi ki, anacan, bəs sən buna kömək edə bilərsənmi? Anası dedi ki, buna kömək edərəm. Get sən qırx erkəyin cəmdəyini gəti. Məni bu evin içindəki quyuya salarsan, o qırx cəmdəyi də mənimlə salarsan. Mən orada rəngli parçalardan qamçı toxuyacağam. Qəssab getib rəngli parçalar da aldı. Axır ki, qarını quyuya saldılar. Otuz doqquz gün keçdi. Qırxıncı gün qarının quyudan səsi gəldi. Tez qarını quyudan çıxartdılar. Qamçını da toxuyub gətirmişdi. Qarı qamçı ilə küçüyü vurub dedi ki, səni görüm, əvvəlki kimi padşah olasan. Mən də yenidən padşah oldum. Sonra mən qarıya yalvardım ki, qamçını mənə ver, gedim mən də onları köpək edim. Belə deyəndə qarı dedi ki, bala, sən ehtiyatlı ol. Mən ikinci dəfə səni xatadan qurtara bilmərəm. Artıq mən ölüm ayağındayam. Axır ki, mən qamçını götürüb getdim həmin yerə. Qamçıyla vurub onları tez qatır elədim. İndi mənim həyətimdə su daşıyan erkək ilə dişi qatır həmin onlardı. Padşah dedi ki, indi təsbeh mənə düşür. Vəzir dedi ki, a kişi dayan, bir qoy mən də danışım.

Vəzir başladı danışmağa:

– Cavan oğlan idim, on yeddi, on səkkiz yaşlarında, qüvvətli bir vaxtım idi. Bir gün bazara çıxmışdım ki, özümə iş tapım. Bir də gördüm ki, bir nəfər çığırır: “otuz doqquz gün səfa, bir gün cəfa – kim istəyir gəlsin yanıma”. Otuz doqquz gün yeyib-içəcək, bir gün işləyəcək. Mən tez kişinin yanına gedib dedim ki, mən gedərəm. Kişi məni apardı bir evə. Gözəl, təmiz bir otaq verib dedi ki, burada ye, yat. Doğrudan da mən gündə üç dəfə yeyib-içib yatırdım. Otuz doqquzuncu gün gəlib çatdı. Bir də gecə qapı döyüldü. Kişi soruşdu:

– Oğul, bu gün neçənci gündü?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedim:

– Qırxıncı.

Dedi:

– Bu gün nə günüdü?

Dedim:

– Cəfa.

Axır kişi dedi ki, sən yat. Səhər gəlib qaldıracağam. Bir də gecənin bir vaxtı gəldi ki:

– Oğul, di dur.

Mən tez qalxdım. Kişi dedi:

– İndi çıx bayıra.

Çıxdım ki, bayırda qırx qatır var. Hərəsinin belində bir xurcun. Axır ki, gecə yola düşüb gəlib bir dərəyə çıxdıq. Kişi mənə dedi ki, düş aşağı. Aşağı düşdüm. Kişi dedi ki, indi gəl bu daşı qaldıraq. Daşı qaldırdıq, altından bir quyu çıxdı.

Kişi dedi:

– Bala, gəl indi bu quyuya düş. Orada xəzinə var. Bu kisələri doldur, aparaq ömrümüzün sonuna qədər gözəl yaşayaq.

Quyuya endim, gördüm bura doğrudan da xəzinədi. Xurcunun qırxını da doldurdum, kişi yuxarı çəkdi. Axırıncıda dedim ki, indi kəndiri salla mən də çıxım.

Dedi:

– Sənin yerin elə oradı. Bu sirri heç kim bilməməlidi. Sən bildin, elə orada da qalmalısan. Daşı çevirib çıxıb getdi. Əlimi atdım ki, hər yer insan sümüyüdü. Sən demə bu adam həmişə belə edirmiş. Bir az getdim, baxdım ki, xırıltı gəlir. Bir də gördüm bir tülkümü, canavarmı sümük yeyir. Mən tez özümü ölülüyə vurdum. O mənə yaxınlaşanda tez hoppanıb quyruğundan tutdum. O qaçdı, mən qaçdım, o qaçdı, mən qaçdım, axırda gəlib bir deşiyə çıxdıq. O özünü buradan bayıra verəndə quyruğu qırılıb əlimdə qaldı. Dedim ki, aha, deməli, buradan çıxmağa yer var. Gedib insanların sümüklərindən gətirib buranı eşdim-eşdim genişləndirdim. Bir səhər baxdım ki, işıq düşdü. Axır ki, çətinliklə bayıra çıxdım, ancaq tamam çılpaq idim. Sən demə, burada çoban



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qoyun otarırmış. Qoyunlar məni görəndə hürküşdülər. Çoban itləri üstümə qıs vurdu, qışqırdı ki, ey oradakı, cinsən, şeytansan, nəsən, bir cavab ver. Mən tez qışqırıb yalvardım ki, mən insanam, gəl itlərini qoyma. Çoban yanıma gəlib dedi ki, aya, bu nə haldı, niyə bu gündəsən. Dedim başıma gələnləri söyləyərəm. Axır ki, çoban paltarından verib məni binəyə apardı. Mənə çörək verdi. Mən yeyib doyandan sonra dedi ki, indi danış. Mən dedim ki, bu qoyunları apar yiyəsinə ver. Mən sənə çoxlu var-dövlət verəcəm. Kişi aparıb ağanın qoyunlarını özünə verib gəldi. Müxtəsəri, çobana başıma gələnləri danışdım. Aparıb quyunu da ona göstərdim. Dedim ki, qırxıncı gün burada ol. Mən də getdim bazara ki, həmin adam yenə deyir: "otuz doqquz gün səfa, bir gün cəfa – kim istəyir gəlsin". Yenə getdim dedim ki, gedərəm, əmi. Otuz doqquz günü burada yenə yaşadım. Qırxıncı gün yenə həmin yerə getdik. Çoban da gizlənib bir yerdə. Kişi mənə yenə dedi ki, indi düş aşağı. Mən dedim ki, yox, sən qocasan, gücün çatmaz dolu çuvalı dartmağa. Sən düş doldur, mən çəkim. Axır ki, onu saldım quyuya. Çuvalların hamısını çəkdik yuxarı, kişini də qoyduq quyuda. Daşla da ağzını örtüb çobanla çıxıb getdik. Ondan sonra gəlib mən də, çoban da gözəl imarət tikdirdik. Qalxa-qalxa gəlib sənin vəzirin oldum.

İndi təsbeh kimə düşər?

Təsbeh əlbəttə, vəzirə düşür. Ona görə ki, o öz gücü ilə qalib gəlib, ancaq padşah özgənin köməyi ilə qalib gəlib.

## TƏNBƏL MƏHƏMMƏDLƏ ŞAH QIZI

Biri vardı, biri yoxdu, bir padşah vardı. Bu padşahın üç qızı vardı. Padşah bir gün qızlarını çağırıb deyir:

– Qızlarım, daha sizin vaxtınızdı. Gəlin sizi ərə verim. Kimə ərə getmək istəyirsiniz deyin.

Böyük qız deyir:

– Mən İran şahzadəsini sevirəm.

Ortancıl qız deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən Hindistan şahzadəsini sevirəm.

Kiçik qız deyir:

– Mən Məhəmmədi sevirəm.

– Hansı Məhəmmədi?

– O quyudakı tənbəl Məhəmmədi.

– A bala, dəli olubsan, nədi. Mən padşah, Məhəmməd isə tənbəlliyindən heç quyudan çıxmır. Sən hara, Məhəmməd hara?

Kiçik qız deyir:

– Ata, mənim sözlərimə yaxşı qulaq as. Kişini kişi eləyən də arvaddı, kişini kişilikdən salan da arvaddı.

Padşah hirslənib deyir:

– Yaxşı, daha san adda mənim qızım yoxdu. Rədd ol, hara istəyirsən get!

Kiçik qız pal-paltarını yığıb Məhəmmədgilə gəlir.

Bu Məhəmmədin bir qoca anası varmış, ona-buna cəhrədə yun əyirib pul qazanırmış. O pula da şey-şüy alıb öyə gətirərmiş, Məhəmmədin əlinə verərmiş, o da elə quyudaca yeyərmiş. Kiçik qız gəlir arvada deyir:

– Ay bibi, mən sənin oğluna gəlmişəm.

Arvad bu işə mat qalır. Bundan sonra da Məhəmmədə xörəyi padşahın qızı aparmağa başlayır. Qız birinci dəfə xörəyi aparıb quyunun başına qoyub deyir:

– Budu bax, xörəyi gətirmişəm, bura qoyuram.

Çıxıb gedir evə, Məhəmməd gözləyir, görür günorta yeməyinə az qalmış amanı kəsilib. Sürünə-sürünə gəlir, çörəyi yeyir. Amma qabı oraya qoymur, yanına aparır. Günorta vaxtı qız yenə xörəyi gətirib qoyur. Deyir:

– A Məhəmməd, qabı neynəyibsən?

– Burdadı.

– Onu bəri ver.

– Gəl özün götü.

– Yox, qavı verməsən xörəyi verməyəcəm.

Birtəhər Məhəmməd sürünə-sürünə qalxıb qabı verir. Qız da günorta xörəyini bir az quyudan aralı qoyur. Beləliklə, onu xeyli



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

quyudan aralayır. Bir gün qız gizlənir. Məhəmməd qabı götürəndə, qız gizləndiyi yerdən çıxaraq Məhəmmədi tutur. Onu bir təhər evə aparır. Qız deyir:

– A bədbəxt, sən insansan. Bir gözünü aç, camaata bax. Gör bir nə günə düşübsən.

Padşahın qızı Məhəmmədi bəzəndirir, onu işə düzəldir. Məhəmməd işləyir, hər gün bir abbası qazanır. Ona da çörək alır. Bir gün bazara gələndə görür bazar dağılıb. Lakin təkcə bir nəfər qışqırır:

– Ay söz alan, ay söz alan!

Məhəmməd deyir:

– Nə sözdü?

– Bir abbası ver, deyim.

Məhəmməd bir abbası verib sözü alır:

– Sevgili sevgiliylə oynar.

İkinci günü yenə bir abbası qazanıb bazara gedir. Yenə bir söz alır:

– Hər şeyin bir aslanı var.

Üçüncü gün Məhəmməd bir abbası qazanıb bazara gedir. Yenə bazardan bir söz alır:

– Hər şeyin bir səbri var.

Dördüncü gün işə gedəndə bir tacirə rast gəlir. Tacir ona deyir:

– Oğlum, işləmək istəmirsənmi?

Məhəmməd deyir:

– İstəyirəm. Aylıq nə qədər verərsən?

– Halal pul 10 manat, haram pul 100 manat.

– Gedim evdə anamla, arvadımla razılaşım.

O, evə gedir, əhvalatı arvadına danışır. Arvadı deyir:

– Halal pul 10 manata razılaş.

Sabahısı gün Məhəmməd gedib tacirə deyir ki, halal pul 10 manata razıyam. Tacir dəvələri yükləyir, yola düşürlər. Onlar az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, gəlib bir səhraya çıxdılar. Bu səhrada bir sehrli quyu varmış. Adamlar bu quyuya düşüb dəvələrə su verərmiş. Bütün dəvələri suladıqdan sonra



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kəndiri çəkərlərmiş, kəndirdə adamın meyidi çıxarmış, başı isə orda qalarmış. Bunu köhnə nökərlər bilirlər. Kim düşsün, kim düşsün, hamı deyir təzə nökər düşsün, Məhəmmədi quyuya salırlar. Qabları çəkib dəvələri sulayırlar. Məhəmməd quyuda pilləkən görür. O, pillələri düşməyə başlayır. Bir qapıya çatır. Qapını açır görür ki, bir qoca oturub. Məhəmməd qoca ilə salamlaşır. Elə bu vaxt iki tısbağa oynaşa-oynaşa onların yanına gəlir.

Qoca soruşur:

– Onlar niyə belə edir?

– Ay baba, sevgili sevgiliynən oynar. Bunlar da yəqin sevgilidirlər.

Bu zaman tısbağalar cavan oğlana, qıza çevrilirlər. Kişi cibindən iki nar çıxardır, Məhəmmədə verir. Deyir:

– Halal olsun bala, bu sirri heç kim aça bilməmişdi, amma sən açdın. Nökərlər kəndiri çəkirlər, görürlər Məhəmməd diridi. Hamı sevinir. Məhəmməd yoldan keçən bir nəfərlə narları evə göndərir. Karvan yola düşür. Bunlar getməkdə olsun, sizə kimdən deyim, Məhəmmədin arvadından.

Məhəmmədin arvadı narları alır. Onlardan birini kəsir ki, yesinlər, görür ki, bu narın içi ləl-cəvahiratla doludu. Qız narları aparıb sandıqda gizlədir. Bu narlardan birinin yarısını xərcləyib atasının imarətindən də uca imarət tikdirir. Həm də bu zaman bunun bir oğlu olur.

Bunlar burada qalsın, sizə xəbər verək Məhəmməddən. Bunlar getdikləri şəhərə çatırlar, padşahın mətahını xərc eləyirlər. Tacir nökərə aylıqlarını verir. Məhəmməd bazara gedib görür ki, heç nə yoxdu. Təkcə bir kişi qışqırır:

– Ay pişik alan, ay pişik alan.

– Neçəyədi?

– On manat.

Məhəmməd pulu verir, pişiyi alır. Yoldaşlarının yanına gəlir. Onlar işlərini qurtardıqdan sonra geri qayıdırlar. Yenə səhraya çatırlar. Məhəmməd sehrli quyuya düşür. Dəvələri sulayırlar. Mə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həmməd yenə aşağı düşüb, həmin kişini görür. Salamlaşırlar. Qoca həmin nardan iki dənəsini çıxardıb Məhəmmədə verir. Deyir:

– Get, yaşa.

Məhəmməd quyudan çıxır, yola düşürlər, gəlib bir imarətə çıxırlar. Tacir deyir:

– Burada düşüb çörək yeyək.

Onlar dəvələrdən düşüb içəri keçirlər. Bunlara çörək gətirirlər. Onların başının üstündə əli əsalı adamlar dayanır. Tacir soruşur:

– Siz niyə başımızın üstünü kəsdirib durmusunuz?

Onlar deyir:

– İndi görərsiniz.

Bu zaman divarın deşiklərindən siçanlar çıxıb çörəyi yeməyə başlayır. Tacir bunu görüb deyir:

– Bunlar üçün pişik lazımdı. Çağırın Məhəmmədi. Qoy öz pişiyini də gətirsin.

Məhəmməd pişiyi gətirir. Pişiyi buraxırlar. Pişik bir-bir siçanları boğmağa başlayır. Bu zaman Məhəmmədin yadına aldığı söz düşür.

– Hər şeyin bir aslanı var:

Ev sahibləri Məhəmmədə yeddi dəvə yükü mal, üç pişik ağırlığında qızıl verirlər. Karvan yola düşür. Gəlib öz yerlərinə çatırlar. Tacir Məhəmmədi evlərinə qonaq aparır. Məhəmməd tacirgildə bir gün qalıb bir nökərlə evlərinə yola düşür.

Məhəmməd evlərinə gəlib görür ki, evlərinin yerində yeddi mərtəbəli bir imarət ucalıb. İmarətin eyvanında da bir qadın qucağında uşaq gəzinir. Məhəmmədin gözləri qaralır, onlara hücum çəkmək istəyəndə nökər tək səbir gətirir. Birdən aldığı söz Məhəmmədin yadına düşür:

– Hər şeyin bir səbri var.

Məhəmməd qadına diqqətlə baxır. Görür ki, bu öz arvadıdır. Evə qalxıb arvadından soruşur:

– Bu imarəti nə ilə tikdiribsən?

– Sən göndərdiyin narlarla.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd özündəki narları da arvadına verir. Bir gün arvad Məhəmmədə deyir:

– Gəl, padşaha pay göndərək.

Padşaha pay göndərirlər. Padşah görür ki, böyük qızlarının payından kiçik qızının payı qat-qat üstündü. Padşah bir gün qızlarına baş çəkməyə yola düşür. Nəhayət o, kiçik qızının yanına gəlib görür ki, qızının imarəti bunun imarətindən ucadı, içi də qat-qat gözəldi. Padşah soruşur:

– Bunu necə düzəldibsən?

– Ata, yadındadırmı, mən sənə dedim kişini kişi edəndə arvaddı, kişini kişilikdən salan da arvaddı.

Padşah öz səhvini boynuna alır.

– Göydən üç alma düşdü. Biri mənim, biri nağıl söyləyənin, biri də dinləyənlərin.

## VƏZİR QIZININ SƏRGÜZƏŞTİ

Biri vardı, biri yoxdu, bir padşah vardı. Bu padşahın vəziri çox qocalmışdı. Bir gün vəzir padşaha dedi:

– Padşah sağ olsun, mən daha qocalmışam, yaxşı işləyə bilmirəm. İcazə ver gedim oğlumu göndərim. O sizə qulluq etsin. Dara düşəndə gəlib kömək edərəm.

Vəzirin oğlu yoxdu, üç qızı vardı. O, evə çox fikirli gəldi. Qızlar atalarından nə üçün fikirli olduğunu soruşdular. Vəzir hər şeyi olduğu kimi qızlarına danışdı. Böyük qız dedi:

– Fikir çəkmə ata, qırx gündən sonra mən padşaha vəzir gedərəm. Qiyafəmi dəyişərəm, padşah elə bilər ki, sənin oğlunam.

Qırx gün keçdi. Böyük qız əyninə oğlan paltarı geyindi, ata minərək yola düşdü. Vəzir qızını sınamaq məqsədi ilə qiyafəsini dəyişdi, kəsə yolla gəlib, onun qabağını kəsib dedi:

– Buraya qatır gəlsə dırnaq salar, quş gəlsə qanad salar, sən nə cürətlə bura gəlmisən. yaxşısı budu ki, sağ-salamat geri qayıt.

Böyük qız sakitcə geri qayıdıb getdi. Kişi də kəsə yolla gəlib evinə çıxdı. Qız evə qayıdanda bacıları soruşdu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nə oldu, niyə geri qayıtdın?

Böyük qız cavab verdi:

– Yolda bir pəhləvan var. Yolu kəsib nə gələni buraxır, nə gedəni.

Ortancıl qız dedi:

– Yaxşı, indi mən gedərəm.

O da böyük qız kimi qiyafəsini dəyişdi, ata minib yola düşdü. Vəzir yenə üzü niqablı yolda qızının qabağını kəsib dedi:

– Sən kimsən, nə cürətlə bura gəlmisən? Bura qatır gəlsə dırnaq salar, quş gəlsə qanad salar. Yaxşısı budu ki, sağ ikən burdan geri qayıt.

Ortancıl qız da heç nə demədi, sakitcə geri qayıtdı. Evdə bacıları soruşdu:

– Nə oldu, niyə belə tez geri döndün?

Ortancıl qız da bacısının dediyi kimi dedi. Bu vaxt kiçik qız dedi:

– Yaxşı, indi mən gedəcəyəm.

O, qiyafəsini dəyişdi, qılıncını götürüb ata minib yola düşdü. Vəzir yenə üzü niqablı kəsə yolla gəlib qızın qabağını kəsib dedi:

– Sən kimsən, nə cürətlə bura gəlmisən?

Kiçik qız qılıncını qaldırdı ki, qarşısındakının başına endirsin, üzü niqablı kişi dedi:

– Dayan, davanın şərtini bilirsən?

Qız dedi:

– Bəli, bilirəm, əvvəl güləş, sonra qılınc davası. Bundan sonra onlar güləşməyə başladılar. Qız qaldırıb atasını arxası üstə yerə vurdu, qılıncını çıxartdı ki, kişinin başına endirsin. Bu vaxt niqab kişinin üzündən düşdü. Qız atasını tanıdı. Tez soruşdu:

– Ata, sən niyə belə edirsən?

Vəzir dedi:

– Qızım, mən səni sınamaq istəyirdim. İndi gördüm ki, doğrudan da qoçaq qızsan. Sənin adını qoydum Məhəmməd. Get padşaha vəzirlik elə.

Qız yenidən atına minib saraya getdi. Padşaha muştuluqçu getdi ki, padşah sağ olsun, vəzirin oğlu gəlib, özü də elə gözəldi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, yemə-içmə, xətti-xalına, gül-camalına tamaşa elə. Təzə vəzirdən ötrü otaq bəzədilər.

Bir neçə gün keçdi. Padşahın qızı bir könüldən min könülə Məhəmmədə – vəzirə vurulmuşdu. Bir dəfə o, atasının yanına gəlib dedi:

– İcazə ver, mən bir bu oğlanı sınayım.

Padşah icazə verdi. Qız Məhəmmədi götürüb öz otağına getdi. Otaqda Məhəmmədə dedi:

– Məhəmməd, gərək sən mənimlə evlənəsən.

Məhəmməd dedi:

– Mən bura vəzirlik eləməyə gəlmişəm, evlənməyə yox. Get yerində rahat otu.

Qız bundan çox hirsləndi. Oğlanı yox eləmək üçün çox fikirləşdi, axırda bir həkimə dedi:

– Mən özümü xəstəliyə vuracam. Sən gəlib deyərsən ki, bu qız dünya gözəlinin bişirdiyi çörəyi yeməsə sağalmayacaq. Onda bəlkə oğlan çörək dalınca gedə, dünya gözəli də onu öldürə. Heç olmazsa onu gözüm daha görməz.

Qızın dediyi kimi də oldu. Padşah bərk təşvişə düşdü, bütün ölkəsindəki igidləri yığıb dedi:

– Ey mənim pəhləvanlarım! Qızım bərk xəstədi, həkim buyurub ki, o, dünya gözəlinin bişirdiyi çörəyi yeməsə sağalmayacaq. İndi mənim ümidim sizədi. Kim gedib dünya gözəlinin bişirdiyi çörəyi gətirə bilər.

Heç kəs dillənmədi. Axı dünya gözəli tilsimliydi. Təkcə Məhəmməd irəli yeriyib dedi:

– Padşah sağ olsun, mən gedib dünya gözəli bişirdiyi çörəkdən sizin qızınız üçün gətirərəm.

Padşah Məhəmmədə izin verdi. Düzdü, Məhəmməd bu çətin işi boynuna götürdü, ancaq hələ də, bilmirdi ki, dünya gözəlindən çörəyi necə alacaq. Fikirli-fikirli atının yanına gəldi. Bu vaxt möcüzə baş verdi. Məhəmmədin atı adam kimi dil açıb soruşdu:

– Məhəmməd, sənə nə olub, niyə belə bikefsən?

Məhəmməd hər şeyi olduğu kimi ata danışdı. At dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən sənə kömək edəcəyəm. Min belimə gedək. Bir xeyli yol getdilər. Birdən at dayandı, Məhəmmədə dedi:

– Bax, o tüstü çıxan yerdə dünya gözəli çörək bişirir. Get sinə-sinə bir çörək götür, geri mənim yanıma qayıt. Amma tez qaç ki, dünya gözəli səni kösövlə vurmasın, əgər sənə kösöv dəysə daş olacaqsan.

Məhəmməd sinə-sinə gedib çörəyin birini oğurladı, geriyə atın yanına qaçmağa başladı. Bunu dünya gözəli gördü, kösöyünü götürüb onun dalınca düşdü. Məhəmməd tez atın belinə qalxdı. Dünya gözəli kösövü onun başına vurmaq istəyəndə, Məhəmməd onun qolundan tutub möhkəm sıxdı, kösöv yerə düşdü. Sonra da tez o biri əli ilə kösövü götürdü, geriyə qayıtmaq istədi. Dünya gözəli dedi:

– Ey qoçaq oğlan, tilsimimi sındırdın, bəs indi məni qoyub hara gedirsən? Məni də özünlə apar. Məhəmməd qızı da götürüb geriyə qayıtdı. Gətirib çörəyi padşahın qızına verdi.

Qız bundan daha çox hirsləndi, yenə həkimi yanına çağırtdırıb dedi:

– Mən yenə özümü naxoşluğa vuracam. Sən gedib deyərsən ki, bu qız Simovar padşahın əhvalatını bilməsə dirilməyəcək.

Qız yenə özünü xəstəliyə vurdu. Həkim də gəlib baxıb dedi ki, qız gərək Simovar padşahının əhvalatını bilə, yoxsa sağalmayacaq. Padşah bu dəfə də bütün igidlərini toplayıb dedi:

– Ey mənim igidlərim, ümidim sizədi. Kim gedib Simovar padşahının əhvalatını öyrənib gətirə bilər?

Bu dəfə də Məhəmməd irəli çıxıb dedi:

– Padşah sağ olsun, icazə verin mən gedim.

Padşah Məhəmmədə icazə verib yola saldı. Məhəmməd yenə atın yanına gəlib hər şeyi danışdı. At dedi:

– Min belimə, mən sənə kömək edərəm.

Onlar yola düşdülər. Gəlib bir dəryanın qırağına çatdılar. At dedi:

– Məhəmməd, sən məni acışdır ki, mən dəryadan atlana bilim. Bax, yadında saxla ki, haramız suya dəysə oramız daş olacaq.

Məhəmməd atı acışdırdı, at dəryadan hoppandı, ancaq onun quyruğu suya dəydi, o dəqiqə də daşa döndü. Məhəmməd bunu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görəndə çox bikef oldu. Onlar dəryanın kənarındakı şəhərə girdilər. Gördülər ki, şəhər əhalisinin hamısı daşa dönüb. Bir də gördülər ki, bir qapı var, çox sürətlə açılıb örtülür. At dedi:

– Gərək biz elə sürətlə keçək ki, heç yerimiz qapının arasında qalmasın.

At çox sürətlə qapıdan içəri keçdi, lakin quyruğu qapının arasında qaldı. İçəridə at Məhəmmədə dedi:

– İndi bura bir arvad gələcək, onun əlində bir tilsim qamçı var, nəyə vursa daşa dönür. Mən o bura gələndə təpiklə vuracağam, sən onda tez qamçını onun əlindən dartıb alarsan. Bütün arzularını yerinə yetirtdirərsən, sonra da öldürərsən. İndi isə gəl buraları gəzək.

Onlar bir az gəzib gördülər ki, bir adam var; yarı daş, yarı adam. Məhəmmədi görəndə həmin kişi dedi:

– Oğlan, yazıqsan, özünü tilsimə salmamış burdan uzaqlaş, yoxsa mənim günümə düşəcəksən. Məhəmməd soruşdu:

– Ay əmi, sən kimsən, niyə bu günə düşmüsən?

Kişi dedi:

– Oğul, mənə Simovar padşah deyirlər. Bu günə də mənim arvadım salıb. Həmişə mən tövləyə girəndə görürdüm ki, at tərlidi. Mehtərdən soruşurdum ki, bu niyə belə tərləyib. O da cavab verirdi ki, hər axşam arvadınız nökərlə minib harasa gedir. Bir də səhərə yaxın qayıdır. Bir dəfə arvadımın bu sirrini öyrənmək üçün nökərin paltarını geyindim, tövlədə atın yanında uzandım. Gecədən xeyli keçmiş arvadım gəlib dedi:

– Nökər, atı hazırla gedək.

Biz ata minib yola düşdük. Gedib bir dağın dibindəki mağaraya girdik. Mağarada xeyli div varıydı. Onlar bizi yeməyə dəvət etdilər. Mən arada bir fürsət tapıb divlərin yeməyinə bihuşdarı qatıb, onları bihuş elədim. Sonra arvadım gördü ki, divlər yatdılar, mənə dedi ki, daha gedək. Bayıra çıxanda mən bir şeyi bəhanə eləyib yenidən mağaraya qayıdıb divlərin başını kəsib qurtardım ki, arvadım içəri girdi. Əlindəki qamçı ilə məni



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vurub yarı daş elədi. Bu qamçını ona divlər vermişdi. Bax bütün bu şəhərin camaatını da o daşa döndərib.

Bu vaxt at dedi:

– Məhəmməd, arvad gəlir. Dediyim kimi elə.

Doğrudan da arvad əlində qamçı gəldi. Məhəmməd cəld tərpənib qamçını aldı. Sonra arvada dedi:

– İndi mənim arzularımı yerinə yetir. De ki, buraya quyruğu kəsik gələn quyruqlu olsun. Buraya qız gələn oğlan olsun, bu şəhərdə daşa dönənlər yenidən adama çevrilsinlər.

Arvad Məhəmmədin bütün arzularını yerinə yetirdi. Məhəmməd qılıncını çıxarıb onu öldürdü.

Bayıra çıxanda gördü ki, bayaq daş olan şəhər indi tamamilə canlanıb.

Məhəmməd ata minib geriyə yola düşdü. Gəlib saraya çatdı. Başına gələni danışdı. Sonra padşahın qızı və dünya gözəli ilə evləndi. Şad, firavan yaşamağa başladılar.

## QARA QULAM İLƏ SULTAN SÜLEYMAN

Biri varmış, biri yoxmuş, Sultan Süleyman adlı bir padşah varmış. Günlərin bir günündə bir cavan oğlan gəlib Sultan Süleymanın elçi daşının üstündə oturdu. Bunu görən padşah vəzirinə dedi ki, çıx gör o cavan nə istəyir.

Soruşdular.

Oğlan dedi:

– Vallah, yetim uşağam. Sahibim yoxdu. Süleyman padşahın yanına gəlmişəm.

Sultan Süleyman oğlanı yanına çağırtdırdı. Soruşdu:

– De görüm, mala gedə bilərsənmi?

Oğlan dedi:

– Yox.

– Ata gedə bilərsənmi?

– Yox.

– Qapını təmizləyə bilərsənmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan dedi:

– Süpürərəm.

Oğlanın adı Qara Qulam idi. O, qapını elə təmiz saxlayırmış ki, yağ töksən yalanarmış. Sultan Süleyman nə qədər istəyirdi ki, görsün oğlan qapını nə vaxt təmizləyir, amma görə bilmirdi. Oğlanın elə səliqəli olması padşahın nəzərindən qaçmadı. Padşah oğlanı hesabdar qoydu. Bir vaxtdan sonra Sultan Süleyman camaatın içinə çıxdı ki, ay camaat bu oğlandan heç narazılığınız varmı? Dedilər ki, xeyr, bu oğlandan bizim heç bir narazılığımız yoxdu.

Sultan Süleymanın din-iman bir qızından savayı heç nəyi yox idi. Onun qızı elə gözəl idi ki, aya deyirdi sən çıxma, mən çıxım, günə deyirdi sən çıxma, mən çıxım. Qara Qulam padşahın qızını sevir. O, qızı sevdiyini vəzirə bildirir. Vəzir padşahın nökərinin – Qulamın onun qızını sevdiyini xəbər verəndə padşah qəzəbləndi:

– Mən nə günə qalmışam ki, qızımı qapımdakı nökərimə verim, – dedi.

Sonra padşah vəzirinə dedi ki, tez bir tədbir tökmək lazımdı. Belə qərara gəldilər ki, Günəşə bir namə yazıb Qulamdan göndərək. Belə də etdilər. Qulamı çağırıb naməni ona verdilər. Qulam əlini öpüb alnına qoydu, yola düşdü. Axşamüstü gəlib bir meşəyə çıxdı. O burada böyük bir mağaraya rast gəldi. Gördü ki, mağaranın üstündə bir ceyran durub. Qulam ceyrana yaxınlaşıb salam verdi. Ceyran onun salamını alıb dedi:

– Ey bəni insan, bu ay qaranlıq gecədə burada nə gəzirsən, dərdin nədi?

Qulam dedi ki, Günəşə məktub aparıram, bu gecə məni mağarada mehman eylə.

Ceyran mağaranın başından düşüb Qulamı qəbul eylədi. Ceyran Qulama dedi:

– Ey bəni insan, məndən də Allah-Təalaya bir-iki söz apar. De ki, yeddi ildi ki, balalayıram, amma bala üzünə həsrət qalmışam.

Gecəni yatdılar. Sabah açılanda ceyran Qulama dedi:

– Qarşına dərya çıxacaq, səni oradan yalnız balıqların padşahı keçirə bilər. Yoxsa oranı keçmək mümkün deyil.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qulam yola düşdü. Az getdi, çox getdi, gəlib həmin dəryaya çatdı. Orada durub çox gözlədi, lakin balıqların padşahı gəlib çıxmadı. O, gecəni orada qaldı. Sabahısı balıqların padşahı gəldi. Salam verib dedi:

– Ey bəni insan, nə şikayətin var?

Qara Qulam cavab verdi ki, Günəşə məktub aparıram. Balıqların padşahı dedi:

– Məndən Allah-Təalaya bir-iki söz apar. Ona de ki, su altında yaşayıram. Amma suların üzündə ağzıaçıq qərq olmuşam. Mənim bu sözlərimi mütləq çatdırarsan.

Sonra balıq Qulamı belinə mindirib dedi:

– Nə vaxt desəm gözünü aç, onda açarsan.

Elə də etdilər. Sahilə çıxanda balıq Qulama dedi:

– Sən məktubu Günəşə çatdıra bilməyəcəksən. Əgər bir dəfə "Ağaməli" desən, o vaxt Göydəmir at gələr sənin yanına, səni yalnız o at Günəşin yanına apara bilər.

Qulam getdi. "Ağaməli" deyəndə bir Göydəmir at gəldi. Qulam istədi ki, tez atılıb atı minə. At dedi:

Dayan, kərəm eylə. Nə vaxt mən deyəcəm min, o vaxt da minərsən. mən səni Günəşin qabağına düşürəndə Günəş anasının qoynundan çıxıb nərə vuracaq. Gah başın gedəcək, gah da ayağın. Qorxma, üstünə qurğuşun töküləcək, alov töküləcək, qorxma, irəli get.

Günəşin yanına çatanda oğlan atdan atılıb düşdü. Günəş nərə vuranda gah başı getdi, gah da ayağı. Qara Qulam Günəşi tutdu, kağızı ona verdi. Günəş açdı, oxuyub dedi:

– Biz varıq, şərikimiz yoxdu, yazıya da pozu yoxdu. Qız Qara Qulamındı.

Günəş çəkilmək istəyəndə Qulam dedi:

– Şükür olsun sənin dərgahına, bir balığa rast gəldim. Deyir ki, mən suyun altında bir həşəratam, suyun üzündə ağzı açıq qərq olmuşam.

Günəş dedi:

– O balığın burnunda ləl var. O səni yenə boynunun dalına mindirəcək, qırağa bir-iki metr qalmış o lələ vurarsan. Olmaya-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olmaya ortada vurasan, sahilə yaxın vurarsan, ləl qumun üstünə düşəcək. Gözdən qoyma itməyə, balıq özünü suya verəcək.

Qulam elə də etdi. Sahilə bir-iki meti qalmış balığı vurdu, ləl quma düşdü, balıq özünü suya verdi. Qulam ləli götürüb ceyranın yanına gəldi. Ceyran soruşdu:

– Mənim xəbərimi Allah-Təaladan gətirdinmi?

– Bəli, gətirmişəm. Allah-Təala dedi ki, onu o qədər şirin yaratmışam ki, camaat onun adını eşidəcək, özünü görrməyəcək. Bircə bala verəcəm.

Allah-Təala ceyrana bir bala verdi. Qulam ceyranın yanından gedəndə ceyran öz südündən ona verdi ki, bəlkə lazımın oldu. Qulam gedib südü götürdü, ləli də bir tacirə xırdalatdı. Bir qəflə-qatır düzəltdi. Sultan Süleymanın şəhərinə getdi. O gəlib elçi daşının üstündə oturdu. Sultan Süleyman dedi:

Görün, o cavan kimdi, nə istəyir?

Soruşdular. Oğlan dedi:

– Filan padşahın oğluyam dincəlməyə gəlmişəm, qəflə-qatırıma yer versinlər, ev tikim, gedəndə də qalsın padşaha.

Ona yer verdilər. O başladı evi tikməyə. Günlərin birində Sultan Süleyman Qulamı qonaq çağırdı. O, cavanı görüb vəzirə dedi ki, mənim qızımı kaş bu oğlan alaydı. Belə də oldu. Padşah qızını ona verdi. Günlərin birində padşah qızı ilə yeznəsini qonaq çağırmışdı. Yaxşı yeməkdə idilər. Birdən vəzir dedi:

– Gör qızını nə oğlana verdik.

O belə deyəndə Qara Qulamın dərdi təzələndi. Əlini saldı, qoyun cibindən naməni çıxardıb onların qabağına qoydu. Baxdılar, gördülər ki, namə onların öz yazdıqlarıdı. Kağızı alıb oxudular: “Biz varıq, şərikimiz yoxdu, yazıya da pozu yoxdu, qız Qara Qulamındı, bu sirdi”.

Qara Qulam palçıqdan qayırma idi. Belə düşündülər ki, guya Qara Qulam kağızı qəflə-qatırçılara verib. Dedilər ki, sənə bu kağızı kim verib. Oğlan dedi:

– Siz verdiniz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O vaxt idi ki, Sultan Süleyman üç yüz yaşa gəlib çıxmışdı. Bir gün Qulam arvadına deyir ki, sən heç atana-anana yaxşı baxmırsan, qocalıb əldən-ayaqdan düşüblər. Deyirlər ki, ana qızı üçün çox şirindi. Qız əvvəlcə anasını çağırdı, onu çimizdirdi, baş-gözünü təmizlədi. Anasını yola salanda Qulam ona bir stəkan süd verdi. Ana südü içəndən sonra on beş yaşında bir qız oldu. Sultan Süleymanın yanına getdi. Sultan Süleynman dedi:

– Ay bacı, ay qızım, şikayətin nədi?

– Mən sənin həyat yoldaşınam.

Sultan Süleyman dedi:

– Sən hardan oldun mənim həyat yoldaşım? Sonra o getdi qırxıncı otağa.

Sabahı günü qız atasını çağırdı, su qoydu, çimizdirdi. Yenə atası gedən vaxtı Qulam ona da bir stəkan süd verdi. Atası südü içib cavan oğlan oldu. Gəzdiyi yerlər yadına düşdü. Atını yəhərləyib öz mülkünə getdi. Onun gözünə ceyran donunda bir zənən əhli göründü. O gül-çiçək dərirdi. İstədi ki, əlini zənən əlinə atsın, gördü ki, o əlini qaldırıb dedi:

– Ayıb olsun sənə, belə olmaz..

Dedi:

– Necə olar?

Zənən əhli dedi:

– İlqar-iman keçirək.

Beş günün vaxtı tamam olanda atı mindi, həmin yerə getdi. Çatanda gördü ki böyük bir alaçıqdı. Bunun qabağında bir qoca durub. Sultan Süleyman nərə çəkib dedi:

– Salam, ey qarı.

– Əleyküməsalam, ay Sultan Süleyman.

– Qarı nənə, sən nədən bildin ki, mənim adım Süleymandı?

Qarı dedi:

– Bəs sən nədən bildin mənim qarı olduğumu?

– Baxıb gördüm ki, bir qarısan.

– Mən də baxıb görürəm ki, sən də Sultan Süleymansan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Süleyman belə düşündü ki, yəqin bu, qızın anasıdı. Alaçıqdan içəri girəndə gördü ki, alaçıqda heç bir şey yoxdu. Amma onun gözünə çoxlu ləl-cəvahirət göründü, fikirləşdi ki, bu gecə gəlib bu qarını öldürərəm, bu qızıl-gümüşü də yığıb apararam. Bu zaman səs gəldi:

– Sabaha salamat çıxsan, üç yüz il yenə yaşayacaqsan.

Süleyman mülkünə çatanda daşa, kəsəyə, suya, hər bir şeyə səcdə elədi. Hamısı dedi:

– Get yat, Süleyman, topuğundadı. Get, çim, təmizlən, beş səcdə namazını öz əlin ilə qıl, yerini aç, yıxıl yat.

Yenə bu dünya şirindi. Getdi qızıl xəzinəsinə. Salam verdi. Xəzinə yeddi dildə salamını alıb dedi:

– Ay Süleyman, nəyə gəlmisən, şikayətin nədi?

Sultan Süleyman dedi:

– Səni qazanıb bura yığmışam.

Xəzinə dedi:

– Yazıqsan, dizinə gəlib. Gedib pak olarsan, namazını qılarsan, öz əlin ilə yerini salarsan, yatarsan.

Sultan Süleyman gəldi, pak oldu, namazını qıldı, yerə yıxıldı. O vaxtı gəlib siniyə çatan zaman qayda var ki, adam tez-tez başını qaldırıb salır, boylanır. Sultan Süleyman axır nəfəsində başını qaldırıb dedi: “Ax, Sultan Süleymana qalmayan dünya kimə qalacaq”.

## MƏHƏMMƏDLƏ DİNMƏYƏN QIZ

Biri varmış, biri yoxmuş, bir məmləkətdə Məhəmməd adlı bir kasıb oğlan anası ilə yaşayırmış. Həmin məmləkətin padşahının qızı axır vaxtı dillənmirmiş. Məhəmməd bir dəfə bazara gedib görür ki, bir ölünün başına çatı salıb sürüyürlər. Yaxınlaşıb bunlardan soruşur ki, niyə belə eləyirsiniz, bu ölünün günahı nədi? Deyirlər ki, bu bizə xeyli pul borcluydu. Pulu verməmiş öldü, ona görə də sürüyürük. Məhəmməd soruşdu:

– Nə qədər pul borcluydu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyirlər ki, filan qədər. Məhəmməd pulu çıxardır, ölünün borcunu ödəyir. Sonra gedib bazardan bir molla tapır, müsəlman adətinnən ölüyü basdırır. Sonra çıxıb evlərinə gedir.

Padşahın qızının sədası hər yerə yayılır. Bunu Məhəmməd də eşidir. Padşah belə şərt kəsibmiş ki, kim qızımı dilləndirsə, ona verəcəm. Məhəmməd anasına deyir ki, mən gedib padşahın qızını dilləndirib alacam. Anası deyir:

– Oğlum, oraya o qədər bilikli həkimlər gedir ki, heç nə eliyə bilmirlər. Padşah da boyunlarını vurdurur. Sən də sağalda bilməzsən, boynunu vurdurar.

Oğlan razı olmur. Çuxasını geyinir, cibinə bir tikə çörək qoyub yola düşür.

Az gedir, üz gedir, dərə-təpə düz gedir, bir təpənin yanına çatır. Birdən eşidir ki, kimsə onu çağırır:

– Aya, a qardaş, bir əylən.

Məhəmməd geri dönür ki, heç kim yoxdu. Yoluna davam eləyir. Bir az gedəndən sonra həmin səsi yenə eşidir. Səsə tərəf gedəndə görür ki, bir siçandı. Siçan salam verib soruşur ki, haraya gedirsən.

Məhəmməd deyir:

– Nə bilim, elə belə.

Həm də çox təəccüb edir ki, siçan da danışarmı. Siçan deyir:

– Gəl yoldaş olaq, nə qazansaq yarıya bölək.

Məhəmməd razılaşır, siçanı əlinə götürüb cibinə qoyur. Sonra yollarına davam edirlər. Nəhayət onlar gəlib padşahın sarayı yaxınlığında dayanırlar. Siçan Məhəmmədə deyir:

– Oğlan, bilmirəm buraya nəyə gəlmisən, şəhərə girəndə sol tərəfdəki evi görürsənmi? Orda qonaq olarsan.

Məhəmməd siçanın dediyi kimi də elədi. Evə yaxınlaşıb sahibindən soruşdu:

– Qonaq istəyirsinizmi?

– Qonaq Allah qonağıdı buyurun, – deyə onu içəri dəvət etdilər. Çay-çörəkdən sonra siçan Məhəmmədə dedi ki, gecə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yerini eyvanda saldırarsan. Məhəmmədin xahişi ilə ev sahibi onun yerini eyvanda saldı. Gecə yatanda siçan Məhəmmədə dedi:

– Bilirəm sən padşahın qızını sağaltmağa gəlibsən. Sən saraya gedəndə hamı deyəcək ki, buyur oğlan, başda əyləş, gördüyündən, bildiyindən danış. Onda sən yuxarı keçməzsən. Aşağıda taxtın üstündə əyləşərsən, bir mütəkkə istəyərsən. Ona dirsəklənərsən, məni də çıxardıb mütəkkənin altına qoyarsan. Sonra da deyərsən ki, ay camaat, mən nə danışım, qoy mütəkkə danışsın, siz də qulaq asın. Onda camaat mənə qulaq asacaq, mən da danışacağam. Mən danışdığım nağılda bir qız olacaq, bu qız üç adamın arasında qalacaq. Onda müəyyənləşdirə bilməyəcəklər ki, qız kimə düşəsidi. Padşahın qızı da gərdəyi aralayıb deyəcək ki, qız kimə düşər. Onda sən də deyərsən ki, sən də mənə düşərsən. Atan belə şərt kəsib ki, kim səni dilləndirsə, ona da verəcək. Beləcə də deyərsən.

Sabah açılır, Allah hamının üzünə xeyirli sabahlar açsın. Məhəmməd siçanı da cibinə qoyub yola düşür. Padşahın sarayına gəlib çıxır. Görür ki, padşah da, arvadı da, qohumları da qara geyiniblər, Məhəmmədi görəndə hamı sevinir ki, təzə adam gəlib, bəlkə bu qızı dilləndirə. Adamlar deyir ki, buyur, oğlan, başda əyləş. Məhəmməd deyir ki, xeyr, elə bir mütəkkə verin, bu taxtın üstündə oturacam. Məhəmmədə mütəkkə verdilər. O, mütəkkəyə dirsəklənib gizlincə siçanı çıxardaraq onun altına qoyur. Camaat deyir:

– Oğlan, buyur, gördüyündən, bildiyindən danış.

Məhəmməd deyir:

– Ay camaat, mən nə danışım. Mütəkkə danışsın, siz də qulaq asın.

Siçan başlayır mütəkkənin altından danışmağa:

– Ay camaat, üç nəfər yolnan gedirmiş. Bir dülgər, bir dərzi, bir molla. Hər kəs öz alətini götütübmüş. Molla heybəsini, dərzi iynə ilə parçasını, dülgər baltasını, rəndəsini, isgənəsini. Gedirlər, gedirlər, bir talaya çatanda axşamlayırlar. Belə qərara gəlirlər ki, gecəni üç yerə bölsünlər. Növbəynən keşik çəksinlər. Çöp atırlar. Birinci növbə çəkmək dülgərə düşür. Dülgər yuxusu gəlməsin deyə baltasını götürür, ağacın bir adam boyu parçasını kəsir, gəti-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rir bunu yonur, rəndələyir, bir adam heykəli düzəldir. Elə bu vaxt onun yatmaq növbəsi gəlir, dərziyi qaldırır, özü isə yatır. Dərzi görür ki, bir çılpaq qız heykəli var. Tez ona paltar tikir. Bu zaman da onun yatmaq növbəsi gəlir, o, mollanı oyadıb özü yatır. Molla qalxanda görür ki, bir qız var, amma onu nə qədər danışdırırsa, qız dillənmir, heybəsinin gətirir, kitabını çıxardır, oysun eliyərək ona dil verir. Səhər açılanda onlar başlayırlar qızın üstündə dava eləməyə. Dülgər deyir ki, qızı mən düzəltmişəm, qız mənimdi. Dərzi deyir ki, ona paltarı mən tikmişəm, qız mənimdi. Molla deyir ki, ona dili mən vermişəm, mənim olmalıdı. Ay camaat, indi deyin görək qız kimə düşür. Hamı fikirləşir, lakin heç kim doğru müəyyənləşdirə bilmir. Bu zaman qız gərdəyi tullayıb deyir ki, qıza dil verən molladı, qız da ona düşməlidi.

Onda Məhəmməd tez qıza deyir:

– Onda sən də mənə düşürsən.

Qız isə deyir ki, oğlan, əgər məni ikinci dəfə dilləndirə bilsən, sənə getməyə razıyam. Məhəmməd geriyə, qonaq qaldığı evə qayıdır. Axşam yatanda siçan Məhəmmədə deyir:

– Bilirsən nə var? Otağın ortasında bir dirək var idi, sən onu gördünmü?

Məhəmməd deyir:

– Bəli, gördüm.

Siçan deyir:

– Həmin dirəyin sağ tərəfində bir deşik var. Sabah səni yenə yuxarı başa çağıracaqlar. Ancaq sən getməzsən. Deyərsən ki, bir şey verin, elə bu dirəyin dibindəcə oturacam. Məni də dirəyin deşiyinə qoyarsan. Sonra camaat deyəndə ki, buyur danış, sən deyərsən ki, mən nə danışım, dirək danışsın, siz də qulaq asın.

Səhər tezdən Məhəmməd siçanı cibinə qoyub padşahın sarayına yollanır. Onu yenə yuxarı başa dəvət edirlər, lakin Məhəmməd yuxarı keçmir, deyir:

– Bir şey verin, elə burda dirəyin dibində oturacam. Ona gətirib xalça verirlər. Məhəmməd dirəyin dibində oturur, siçanı deşiyə qoyur. Camaat deyəndə ki, oğlan buyur danış, Məhəmməd deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay camaat, mən nə danışım, dirək danışsın, siz də qulaq asın.

Siçan dirəyin içindən başlayır danışmağa.

Deyir:

– Ay camaat, üç dost varmış: bir yerdinləyən, bir yelaparan, bir həkim. Bu üç yoldaş yolnan gedirlərmiş. Yerdinləyən deyir ki, Hindistan padşahının qızı ağır xəstədi, ölümünə iki saat var. Padşah belə şərt kəsib ki, kim qızımı sağaltsa, ona verəcəm. Gəlin gedək onu sağaltmağa. Yelaparan bizi tez ora apar, həkim də dərman verib qızı sağaldar. Biz də qızı alarıq. Üçü də razılaşır. Yelaparan onları belinə alır, iki saatdan tez padşahın sarayına çatırlar. Həkim qıza baxıb deyir ki, buna qara qoçun qanından dərman qayırıb içirtmək lazımdı. Padşah əmr verir, qara qoç kəsirlər, həkim dərman qayırır, qıza içirdən kimi qız sağalır. Sonra da qızı üç dosta verir. İndi ay camaat, deyin görək, bu qız kimə düşəsidi; yerdinləyənəmi, yelaparanamı, həkiməmi?

Camaat yenə müəyyənləşdirə bilmir. Qız indi lap bərk hirslənib deyir:

– Siz necə adamlarsınız ki, bunu da bilmirsiniz. Qız həkimə düşməlidi.

Bunu eşidəndə Məhəmməd deyir ki, onda sən də mənə düşürsən. Qız yenə razı olmur, deyir:

– Oğlan, üçüncü dəfə də məni dilləndirə bilsən , sənə getməyə razı olacam.

Məhəmməd bu dəfə də qıznan razılaşır, geri qonaq qaldığı evə qayıdır. Gecə yatanda siçan Məhəmmədə deyir:

– Məhəmməd, sən başda buxarı varıydı, onu gördünmü?

Məhəmməd deyir:

– Hə, gördüm.

Siçan deyir:

– Sabah qız həmin buxarının qabağında stol qoyduracaq. Stolun üstündə də şüşə qablar düzəcəklər, ortaya da şamdan qoyulacaq. Sən sakitcə oturarsan, şam keçsə, qablar kül-ayaq olsa, onda qız sənindi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səhər açılanda Məhəmməd siçanı cibinə qoyub saraya gedir. Görür doğrudan da yuxarı başda üstündə şamdan, şüşə qab-qacaq qoyulan bir stol var. Məhəmməd deyir:

– Hə, siçan, dediklərin doğruymuş.

Siçan deyir:

Məhəmməd, məni cibindən çıxardıb stolun üstünə qoyarsan. Mən səsimi çıxardanda mənim düşmənim pişik dalımca düşəcək, onda stolun üstündəki lampa, qab-qacaq qırılacaq. Sən də məni tez götürüb cibinə qoy ki, pişik yeməsin.

Stol arxasında oturanda Məhəmməd siçanı çıxardıb stolun üstünə qoyur. Siçan səsini çıxardanda pişik onun üstünə atılır. Siçanın arxasınca qaçan pişik stolun üstündəki lampanı, qab-qacağı sındırır. Siçan tez özünü Məhəmmədin üstünə atır. Məhəmməd onu götürüb cibinə qoyur, durub qızın yanına gedir. Qız deyir ki, oğlan, daha sənə sözüm yoxdu.

– Padşah qırx gün, qırx gecə toy edib qızını Məhəmmədə verir. Sonra onların hərəsinə bir ağ at, bir qılınc, xeyli qızıl-gümüş verib yola salır.

Bir xeyli getdikdən sonra siçan Məhəmmədə deyir:

– Siz asta-asta gəlin. Mən qarşıdakı təpədə sizdən ötəri bir alaçıq tikəcəm.

Bunu deyəndən sonra o, Məhəmmədin cibindən sürüşərək yerə düşür, otların arasında itir. Məhəmməd təpənin yanına çatanda görür ki, doğrudan da bir alaçıq tikilib. Siçan deyir:

– İndi gəl qazancımızı yarı bölək.

Məhəməd qızılları götürüb qızla bərabər alaçığa girir. Qızılları iki yerə bölür. Qalır bircə qız. Siçan deyir:

– Gəl indi də qızı bölək.

Məhəmməd deyir:

– Qızı nə təhər bölək?

Siçan deyir:

– Necə nə təhər bölək. Qılıncı götür qızı ortadan iki yerə ayır. Yarısı sənin, yarısı mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd naəlac qalır, qılıncı əlinə alır, lakin qızı öldürməyə ürəyi gəlmir. Elə bu vaxt siçan böyüyür, böyüyür, açılaraq gözəl bir oğlana çevrilir. Qılıncı Məhəmmədin əlindən alır, qızın başına endirmək istəyəndə, qız üzünü yana çevirib qusur. Sonra oğlan qızın qolundan tutub Məhəmmədə deyir:

– Bax, qızı dillənməyə qoymayan elə bu ilan zəhəriydi. Mən səni ona görə qıza yaxın getməyə qoymurdum ki, o zəhər sənə də keçə bilərdi. Sən də bunun kimi danışa bilməyəcəkdin. Yadına düşürmü bazarda bir ölünün başına çat salıb sürüyürdülər. Sən ölünün borcunu verdin, özünü də basdırdın. Bax həmin ölü mən idim. Sən mənə elə yaxşılıq elədin, mən də sənə belə yaxşılıq elədim. Yaxşılıq heç vaxt yerdə qalmaz. Bunu deyəndən sonra oğlan qızılları Məhəmmədə verir, qızı da qaldırıb atın belinə qoyur. Deyir:

– İndi gedə bilərsiniz.

Bundan sonra o yenə siçana çevrilir, təpədəki deşiyə girir. Məhəmməd də qızı götürüb evlərinə qayıdır. Göydən üç alma düşdü, bir mənim, biri nağıl söyləyənin, biri də eşidənin.

## KEÇƏLLƏ PADŞAHIN QIZI

Biri varmış, biri yoxmuş, keçmiş zamanlarda bir padşah varmış. Bu padşah bir gün xəstələnir. Onun dərdinə heç bir loğman əlac edə bilmir. Bir yəhudi loğman gəlib padşaha deyir ki, mən sənin dərdinə əlac edərəm. Ancaq bu şərtlə ki, qızını mənə verəsən. Padşah bu işə razı olur. Qıza xəbər çatır ki, atan səni yəhudiyə verir. Qız da bir stəkan zəhər doldurub saxlayır. Padşah qızının yanına minnətçi göndərir ki, deyin atanı sağaldır, necə olsa da razı olmalıdı.

Bunlar burda qalsın, sizə kimdən xəbər verim, yəhudi loğmandan. Yəhudi loğman padşahın həyətindəki keçəllərdən birini çağırıb deyir ki, apar bu kağızı anama ver, bizə filan-filan xörəkləri hazırlasın. Arvad xörəkləri tələsik hazırlayır, keçəli çağırıb deyir ki, xörək hazırdı, gəl apar. Keçəl xörəyi ocağın qırağından götürəndə bir kömür də götürür. Keçəl həyətə çıxıb xörəyi yerə qoyur, kömürlə qapıya bu sözləri yazır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Qazan-qazan, qaz savabı,*
*Sirəsində söz savabı,*
*Hələ bu kiçik balası,*
*Allah saxlasın böyük balasından.*

Keçəl xörəyi öz evinə aparıb nənəsi ilə bərabər yeyir. Sonra keçəl paltarını dəyişib yenə padşahın həyətinə gedir. Yəhudi görür ki, keçəl gəlmədi, axırda özü getməli olur. O, hirsli-hirsli qapıya vuraraq içəri girir, anasına deyir ki, xörəyi niyə göndərməyibsən? Arvad cavab verir:

– Kağızı alan kimi xörəyi tələsik bişirdim, keçəlnən göndərdim.

Yəhudi geri qayıdanda qapının üstündəki yazıları oxuyur, gəlib padşaha xəbər verir.

Sizə xəbər verim padşahın qızından. Padşahın qızı da deyir ki, mən yəhudiyə ərə getmərəm, bir gözü kor olsun, keçəl olsun, ancaq müsəlman olsun, gedərəm. Keçəl bunu eşidəndə nənəsinin paltarını geyinib qızın yanına gedir. Lakin onu içəri buraxmırlar. Keçələ deyirlər ki, qız heç kəsə qulaq asmır, indi sənmi ona ağıl verəcəksən? Qız bunların səsini eşidəndə əmr edir ki, bayırdakı kimdirsə buraxın gəlsin. Keçəl içəri keçib qıza deyir:

– Bax, mən keçələm, sən deyirsən ki, belə adama ərə gedərəm. Əgər istəyirsənsə mənə gəl.

Qız da keçəlin dediklərinə razı olur. Keçəl qıza deyir ki, gəl paltarımızı dəyişək, sən mənim paltarımı geyin, əmr et ki, səni aparıb küçənin başına qoysunlar. Mən də sənin paltarını geyinib sənin əvəzinə gedib padşaha deyərəm ki, mən yəhudiyə ərə getməyə razıyam.

Qız qarı paltarını geyinir, çoxlu pul götürüb çıxır. Onu aparıb qarının evinə qoyurlar.

Sizə kimdən xəbər verim, keçəldən. Keçəl qızın paltarını geyinib qızın yerində oturur. Bu zaman minnətçi gəlir ki, yəhudiyə ərə getməyə razılıq versən, yəhudi atanı sağaldacaq. Qız razı olur. Padşaha xəbər gedir ki, qız razıdı. Toy başlayır, qırx gün, qırx gecədən sonra qızı yəhudinin evinə aparırlar. Qız atasına deyir ki, mən atamın sərhədini gəzmək istəyirəm, atam əmr versin, bütün



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şəhər bağlansın. Qızla oğlan şəhəri gəzməyə çıxırlar. Onlar gəzə-gəzə gedib dar ağacının yanına çatırlar. Qız yəhudidən bu ağacın nə olduğunu soruşur. Oğlan da cavab verir ki, sənin atanın kimə acığı tutarsa, onu bu ağacdan asdırır. Qız deyir ki, onda qoy, mən özümü boğazımdan asım, görüm necə olur. Yəhudi isə deyir ki, yox, qoy mən edim, görək necə olur. Yəhudi boğazını kəndirdən keçirən zaman, keçəl kötüyü onun ayağının altından çəkir. Yəhudi ölür. Keçəl geri öz evlərinə qayıdır, gecəni qalır, səhər yenə keçəl paltarını geyinərək padşahın həyətində gəzir.

Bunlar qalsın burada, sizə xəbər verək padşahdan. Padşaha xəbər çatır ki, qız yoxdu. Padşah bunu eşidəndə çox hirslənir, qırx nəfər atlı göndərir ki, harda olsa qızı tapıb gətirsinlər. Atlılar gəzməmiş yer qoymurlar, lakin qızdan heç bir soraq çıxmır. Keçəl bunların qarşısına çıxaraq deyir ki, bu paltarda sizə kim qızın yerini deyər. Mən özüm olsam heç mən də deməərəm. Götürün, bu dərviş libasını, geyinib qapı-qapı gəzin, bəlkə onda tapa bildiniz. Keçəl onları aldadaraq paltarlarını yığıb bazara satmağa aparır.

Padşahın üstünə başqa bir padşahdan namə gəlir ki, sən bir lotunun əlində qalmısan. Biz sənin üstünə qoşun çəkirik. Padşah öz adamlarını başına yığaraq onlardan məsləhət isləyir, deyir ki, kim mənə kömək edə bilər? Keçəl xalqın arasından qalxır ki, mən o padşahı sənin yanına gətirsəm nə verərsən? Padşah cavab verir ki, bu dünyalığını verərəm, o dünyalığında işim yoxdu. Bu zaman keçəl deyir ki, onda bu dediklərini yaz, altından qol çək, sonra gedim. Keçəl sonra padşahdan bir cüt at, xərclik istəyir. Keçəl istədiklərini aldıqdan sonra, atını aparıb bir mehtərə verir ki, qırx gün ata yaxşı baxsın. Keçəl bundan sonra o biri padşahın yanına yola düşür, bir neçə gün yol getdikdən sonra padşahın sarayına çatır, deyir ki, padşahımızın qızını aparıblar, başı bərk qarışıb, odu ki, bizə yaxşı baxmır. Sənin adını deyib gəlmişəm. Keçəl bu minval ilə bir müddət burada yeyib-içib gəzir, padşahın ən yaxın adamlarından biri olur.

Qırx gün yaxınlaşanda keçəl bir keçi alır, ətini qəssaba verir, dərisini isə təmizlədib özü götürür. Sonra keçəl keçinin dərisinə zınqırov bağlayır, padşahın yatdığı yeri ölçür, həmin uzunluqda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir sandıq qayırtdırır. Qırx gün tamam olanda keçinin dərisini geyinir, sandığı da padşahın yanına qoyur. Bu zaman padşah gözünü açıb soruşur:

– Kimsən?

Keçəl deyir ki, Əzrayılam, canını almağa gəlmişəm, dur bu sandığa gir.

Keçəl padşahı sandığa salır, ağzını qıfıllayır, atın belinə sarıyır. O biri atı da özü minib yolu əlinə alıb gedir. Vaxt tamam olanda bir də görürlər ki, budu keçəl, yanında da bir sandıq gəlir. Bütün camaatı başına yığır, dərini də geyinib sandığı açıb deyir:

– Dur, gəldik, o dünyaya çatdıq.

Sonra keçəl paltarını dəyişib xalqın arasına keçir. Padşah durub deyir ki, Allah sənə şükür, o dünyada da adamlar varmış. Qızın atası deyir ki, ağlını başına yığ, sən hələ bu dünyadasan. Padşah bu zaman deyir ki, Allah sənə şükür, o dünyada da dama öyüd-nəsihət verirlər. Sonra ona öz göndərdiyi kağızı oxutdururlar, deyirlər ki, bu o dünya deyil, ağlını başına yığ. Bu lotu o padşahın başına gətirdiyini sənin də başına gətirir.

Sonra keçəl qızın atasının boğazından tutub deyir:

– Ver mənim dünyalığımı.

Padşah ondan nə istədiyini soruşur. Bu zaman keçəl deyir ki, yəhudini öldürən, atlıları soyan, qızını aparan mən olsaydım qızını mənə verərdinmi? Padşah cavab verir ki, səndə ki belə hünər var, sənə nəinki qızımı, hətta padşahlığımı da verərəm. Bundan sonra padşah qızını keçələ verir, onlara qırx gün, qırx gecə toy edir. Onlar yeyib-içib yerə keçirlər. Siz də yeyin-için dörə keçin.

## OVÇU İLƏ PADŞAH

Biri vardı, biri yoxdu, bir ovçu vardı. Onun kimsəsi yox idi, ovçuluq edib birtəhər başını dolandırırdı. Ovçu günlərin birində gedib bir göyərçin vurdu. Boğazını üzmək istəyəndə quş dilə gəlib dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mənim boğazımı üzmə, sənə xeyrim dəyər. İndi isə üzümə bir şillə vur.

Ovçu quşun üzünə şillə vurdu. Bu bir gözəl qız oldu. Qızı da götürüb qayıtdı. Bir neçə gündən sonra ovçu dedi:

– Mən gedirəm yenə ov ovlayım.

Qız razı olmadı, dedi ki, ova getmə, indi sən evdə otu, mən işləyim.

Axşam oldu oğlan yatdı, qız yatmadı, başladı xalça toxumağa. Qız elə bir xalça toxudu ki, kəndlərin, şəhərlərin nə ki rəssamlıq işləri var idi, toxuduğu xalçanın naxışlarında tapmaq olardı. Səhər qız xalçanı gətirib verdi oğlana. Dedi:

– Bu xalçanı apar şəhərdə sat. Hər kim nə qiymət desə, razılaş, qiymət kəsmə.

Oğlan xalçanı götürüb şəhərə gəldi. Hər baxan deyirdi ki, bu xalçaya heç kim pul tapmaz. Bu zaman padşahın qızı bazara gəldi, qızın xalçadan xoşu gəldi. O xalçanın qiymətini soruşdu. Oğlan dedi: "Nə verirsən ver". Qız olan pulunu xalçaya verib xalçanı aldı, evə gətirəndə padşah baxıb gördü ki, rəssamlıq işləri var, bu xalçanın naxışlarında toxunmuşdur. Qızını çağırıb xəbər aldı:

– Qızım, bu xalçanı kimdən aldın?

Qız cavab verdi ki, xalçanı bir ovçudan aldım. Padşah məəttəl qaldı ki, bu ovçunun necə arvadı var ki, belə xalça toxuyub. Çağırdı vəzirini, əhvalatı ona danışdı, dedi:

– Vəzir, gedək baxaq, görək bu ovçunun necə arvadı var ki, belə xalça toxuyub.

Onlar ovçunun evinə gəldilər. Ayaqlarını içəri qoyan kimi qızı gördülər, qızın gözəlliyinə heyran qaldılar. Padşah baxdı ki, dünyada bu qıza tay olan gözəl tapılmaz. Qız onları içəri dəvət elədi. Padşah qızın gözəlliyinə o qədər heyran olmuşdu ki, qızın sözlərini eşitmirdi. Xeyli durduqdan sonra dönüb geri saraya qayıtdılar. Padşah taxta əyləşərək vəziri çağırıb dedi:

– Vəzir, ovçunun başına bir iş gətirmək lazımdı ki, ovçu ölsün, qız qalsın mənə.

Vəzir dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Padşah sağ olsun! Bundan asan nə var ki, filan meşədə bir alma ağacı var. Hər kəs bu almadan yesə iyirmi yaşında cavan olar. Ora gedən geri qayıtmaz. Ovçu əgər ora getsə ölər, arvadı da qalar sənə.

Padşah ovçunu çağırtdırdı. Ovçu padşahın əmri ilə saraya gəldi.

Padşah dedi:

– Ovçu, sən gedərsən filan meşəyə, mənə o almadan gətirərsən.

Ovçu kor-peşiman evinə qayıtdı. Başladı düşünməyə ki, oraya gedən sağ qayıtmır. O çox düşündü, daşındı, baxdı ki, bir şey çıxmır. Qız onu belə görüb soruşdu:

– Niyə belə kədərli durursan? Niyə kefin yoxdu?

Ovçu dedi:

– Nə olacaq, padşah məni elə yerə yollayır ki, oraya gedən sağ qayıtmır.

Qız dedi:

–Hara yollayır?

Ovçu dedi:

– Padşah deyir ki, get filan meşədən filan almanı gətir.

Qız dedi:

– Fikir etmə, sən yat dincəl, mən bu işin yolunu bilirəm.

Oğlan yatan kimi qız çıxdı getdi bir dərənin kənarına. Ora çatan kimi nə ki suda yaşayan var qızın başına yığıldı. Qız başına gələnləri qoca qızıl balığa danışıb dedi:

– Padşah ərimi filan yerə göndərir, nə edək?

Balıq dedi:

– Ora getmək çox çətin yoldu. Bax, o görünən adada bir qurbağa xalan yaşayır. O qurbağa həmin yolu tanıyır.

Qız qayığa oturub gəldi qoca qurbağanın yanına. Dedi:

– Xala, padşah mənim ərimi elə yerə göndərir ki, gedib oradan sağ qayıtmayacaq.

Qurbağa qıza dedi ki, oğlan getsin almaları gətirsin. Orada yaşayan qurbağa mənim bacımdı, sənin də xalandı. Mən oğlana



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir dəsmal verərəm. O orada çimib qurulanar, onda bacım tanıyar ki. Bu dəsmal mənimdi. Oğlan sağ-salamat qayıdar geri.

Qız geri evə qayıdıb oğlana dedi:

– Gedərsən həmin meşəyə, heç nədən qorxmazsan, əvvəlcə qoca qurbağa səni çimizdirəcək, sonra isə səni yemək istəyəcək. Dəsmalı göstərərsən, onda o səni tanıyıb sağ-salamat buraxacaq.

Oğlan meşəyə getdi, almanı dərib qayıdarkən, qurbağa başladı qışqırmağa:

– Dayan görüm, kimsən, nəçisən? Bura quş gəlsə qanad salar, qatır gəlsə dırnaq. Bu adada məndən icazəsiz nə cürət edib gəzirsən?

Oğlan qorxmadı. Qurbağa onu götürüb apardı. Çimizdirdi ki, yesin, elə bu vaxt oğlan dəsmalı çıxartdı. Qurbağa gördü ki, bu dəsmal onun bacısınındı. Soruşdu:

– Oğlan, necə olub ki, sən gəlib buralara düşmüsən? Oğlan başına gələnlərin hamısını qurbağaya danışıb dedi ki, əgər bu almaları aparmasam, padşah mənim boynumu vurduracaq, məni bura sənin bacın göndərdi.

Bunu eşidən kimi qurbağa oğlanı yaxşı yedirtdi, içirtdi, həmin almalardan da verdi, oğlanı yola saldı. Oğlan almaları götürüb gətirdi padşaha verdi. Padşah almaları görəndə məəttəl qaldı. Vəziri çağırdı ki, oğlan almaları gətirib. İndi nə tədbir?

Vəzir dedi:

– Padşah sağ olsun, oğlana de ki, get oraya, bilmirəm haraya, get gətir, onu, bilmirəm nəyi.

Padşah oğlanı çağırtdırıb vəzirin sözlərini oğlana olduğu kimi dedi:

– Get oraya – bilmirəm haraya, gətir onu – bilmirəm nəyi.

Oğlan məəttəl qaldı. Kor-peşiman evə qayıtdı. Arvadı onu bu halda görəndə soruşdu:

– Nə olub, niyə fikirlisən?

Oğlan dedi:

– Padşah deyir ki, get ora – bilmirəm hara, get gətir onu – bilmirəm nəyi. Bu nə sirdi başa düşmürəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız dedi:

– Get yat, dincəl.

Oğlan yatdı. Qız yenə getdi qurbağanın yanına. Dedi:

– Xala, padşah ərimi elə yola göndərir ki, ora gedən sağ qayıtmır.

Qurbağa dedi:

– Qızım, heç fikir etmə. Mən ona üç dənə ağac verərəm. Filan meşədə bir yapı* var. Ora gedən sağ qayıtmır. Oğlan gedər həmin yerə. O yapı onu yemək istəyəcək. Oğlan həmin ağacdan birini onun ağzına verər. Birinci ağac əyiləcək. Sonra ikincisini verər. Bu da əyiləcək. Nəhayət üçüncü ağacı onun ağzına verər. Bu ağac əyilməyəcək, o tanıyacaq ki, bu ağac onun bacısınındı.

Qız həmin ağacları gətirib oğlana verdi. Dedi:

– Gedərsən həmin meşəyə, orada bir yapı var. Sən bu ağacları bir-bir verərsən onun ağzına.

Oğlan ağacları götürüb yola düşdü. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Gəlib həmin meşəyə çatdı. Yapı oğlanı yemək istədikdə oğlan birinci ağacı verdi onun ağzına, ağac əyildi. İkinci ağacı verdi, ikinci ağac da əyildi. Oğlan üçüncü ağacı verdi, amma üçüncü ağac əyilmədi. Belə olduqda yapı oğlanı tanıdı, soruşdu:

– Sən necə oldu ki, gəldin bura çıxdın? Bura quş gəlsə qanad salar, qatır gəlsə dırnaq.

Oğlan başına gələn əhvalatı söylədi, dedi:

– Padşah mənə deyir ki, get ora – bilmirəm hara, gətir onu – bilmirəm nəyi.

Həmin yapı dedi ki, o mənəm. O ki, bacımın qızının ərisən sənin xətrinə gedərəm. Gedək görək o padşah səndən nə istəyir.

– Yapı danışanda gözə görünmürdü.

O, oğlandan soruşdu:

– Yemək istəyirsənmi?

Oğlan dedi:

– Bəli, yemək istəyirəm, anam.

---

* yapı – ifritə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yapı dedi:

– Onda de ki, açıl süfrəm açıl, dadlı yeməklər gətir.

Oğlan bunu deyən kimi süfrə açıldı, dünyada nə kimi ləzzətli yeməklər var idi, o süfrədə hazır oldu. Oğlan başladı yeməyə. Sonra dedi:

– Yığıl, süfrəm, yığıl.

Süfrə yığıldı. Onlar getməyə başladılar. Oğlan yanına baxdı ki, heç kəs yoxdu. Bu zaman arxasından səs gəldi ki, get oğlan mən səninlə gəlirəm. Oğlanla yapı evə gəldi.

Qız soruşdu:

– Nə oldu, gətirdin?

Yapı dedi:

– Bacımın qızı, gəldim, gəldim.

Gecə yatdılar. Səhər tezdən qalxıb getdilər padşahın yanına.

Padşah oğlandan soruşdu:

– Gətirdinmi?

Yapı arxadan soruşdu:

– Nə istəyirsən bu oğlandan?

Padşah dörd yanına baxdı ki, heç kəs yoxdu.

Yapı dedi:

– Niyə dörd yanına baxırsan. Sən dediyin "Get ora – bilmirəm hara, gətir onu – bilmirəm nəyi" həmin o mənəm.

Padşah heç bir söz demədi. Yerində donub qaldı, üzr istəyib ovçunu buraxdı.

Onlar bərabər evə gəldilər. Yedilər-içdilər. Səhər açıldı.

Bunlar burada qalmaqda olsun, sizə kimdən xəbər verim padşahdan.

Padşah dedi:

– Vəzir, mən o qızsız yaşaya bilmirəm. Bir tədbir tök.

Vəzir çox fikirləşdi, bir şey tapa bilmədi. Sonra bir dostunun yanına getdi. Əhvalatı olduğu kimi ona danışıb bir tədbir istədi. Dostu iki gün möhlət istədi. İki gündən sonra vəziri çağırıb dedi:

– İndi siz oğlanı göndərərsiniz o dünyaya. Özünüz də deyərsiniz ki, get gör padşahın babası o dünyada yenə padşahlıq edir-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mi. Oğlan o dünyaya gedər daha geri qayıtmaz. Padşah da istədiyinə nail olar.

Vəzir gəlib əhvalatı padşaha danışdı. Padşah oğlanı çağırtdırıb ona dedi:

– Gedərsən o dünyaya. Öyrənərsən mənim babam bu dünyada olduğu kimi o dünyada da padşahlıq edirmi.

Oğlan kor-peşiman yenə qayıtdı evə. Arvadı onu kədərli görüb soruşdu:

– Yenə nə olub. Niyə belə fikirlisən?

Oğlan padşahın dediklərini qıza danışdı. Qız fikirləşib dedi:

– Sən yat dincəl, mən bir çıxış yolu taparam.

Qız yenə gəldi qurbağanın yanına, qurbağaya dedi:

– Xala, padşah mənim ərimi o dünyaya göndərir ki, get gör mənim babam o dünyada yenə padşahdı, ya yox.

Qurbağa qızı da götürüb qoca qurbağanın yanına gəldi. Qoca qurbağa qıza bir üzük verdi. Dedi ki, apar bu üzüyü ver oğlana. Oğlan üzüyü diyirləndirər, özü də onun arxası ilə gedər. Üzük gözdən itəndə orada padşahın babasını görəcək. Ancaq gedəndə özü ilə mütləq vəziri də aparsın.

Qız qayıdıb üzüyü oğlana verdi, qurbağanın dediklərinin hamısını oğlana danışdı. Səhəri gün oğlan padşahın yanına gəlib dedi:

– Padşah sağ olsun! Mən o dünyaya gedirəm, amma bir şərtlə: gərək vəzir də mənimlə getsin. Padşah vəziri çağırıb dedi ki, sən ovçu ilə o dünyaya getməlisən.

Vəzir qorxusundan padşaha bir söz deməyib ovçu ilə o dünyaya getməyə razı oldu. Oğlan üzüyü diyirləndirdi, başladılar üzüyün arxasınca getməyə. Üzük gözdən itəndə dayandılar. Bir də gördülər ki, şeytanlar padşahın babasının belinə odunlar yığıb eşşək yerinə işlədirlər. Oğlan şeytanlara dedi:

– Əgər olarsa, bu adamı bir dəqiqəliyinə verin söhbət edək.

Şeytanlar dedilər:

Onda yanındakı adamı ver bunun yerinə işləsin.

Vəzir kişinin yerinə işləməyə məcbur oldu. Şeytanlar vəzirə daha çox odun yüklədilər. Oğlan padşahın babasına dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məni sənin oğlun göndərib ki, get gör mənim babam o dünyada nə işnən məşğuldu.

Qoca dedi:

– Oğul, gördün ki, mən nə işlə məşğulam. Mənim o dünyada etdiyim pisliklər indi qarşıma çıxır. Şeytanlar gündə üç dəfə məni şələləyib meşədən odun daşıdırlar. Oğluma de ki, heç zaman pislik etməsin.

Oğlan vəzirlə padşahın yanına qayıtdı. Oğlan bütün gördüklərini padşaha danışdı.

Padşah vəziri yanına çağırıb dedi:

– Vəzir, indi nə tədbir?

Vəzir dedi:

– Padşah sağ olsun, daha nə tədbir, qoşunu tök, ovçunu öldür, qızı gətir.

Padşah qoşun töküb ovçunun evinə hücum çəkdi, qızı istədi. Oğlan üç gün möhlət istədi. Padşah razı oldu.

Qız məsləhət üçün yenə xalasının yanına getdi. Qarı qurbağa xeyli fikirləşəndən sonra iki ağac, bir qılınc gətirdi, dedi:

– Gedərsən qoşunun içinə, deyərsən "qalxın ağaclar, qoşunu döyün", "qılınc qoşunu qır". Onda ağaclar qoşunu döyəcək, qılınc isə qıracaq. Ancaq qılınc qoşunu yox padşahı öldürsün.

Üç gün sonra qoşun gəldi. Oğlan ağaclara, qılınca əmr etdi, başladılar padşahı döyməyə. Qılınc isə padşahın başını vurdu.

Zalım padşahın əlindən təngə gəlmiş camaat ovçunu padşah seçdi. Oğlan yenidən özünə qırx gün, qırx gecə toy etdi. Onlar yedilər, içdilər, murada çatdılar, siz də yeyin için murada yetişin.

## XIDIR İLYAZ

Günlərin birində padşah vəzirinə əmr etdi:

– Mən Xıdır İlyazla görüşmək istəyirəm, bir tədbir.

Vəzir dedi ki, gərək onu tapa biləcək adamı axtarıb tapaq. Sonra car çəkib hamıya bildirdi ki, kim Xıdır İlyazı tapıb padşahın yanına gətirsə, özü ağırlığında qızıl alacaq. Bir kasıb kişi irəli çıxıb dedi ki, mən gətirərəm. Həmin kişini padşahın yanına apardılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah soruşdu:

– A kişi, bilirsənmi bura niyə gəldiyini?

– Bilirəm, – dedi:

Əgər Xıdır İlyazı buraya gətirə bilsən, özün ağırlıqda qızıl verib səni xoşbəxt edəcəm, yox gətirə bilməsən özünü ölmüş bil.

Kişi dedi:

– Padşah sağ olsun, mənə qırx gün möhlət ver, qırx günlük də azuqə. Kasıb adamam, oğul-uşaq sahibiyəm, azuqəni onlara əyləyim, özüm isə rahat Xıdır İlyazı axtarmaqla məşğul olum.

Kişiyə qırx günlük yemək-içmək verib araba ilə evinə göndərdilər. Arvadı bu boyda azuqəni görüb təəccüblə soruşdu:

– A kişi, bu boyda dövləti hardan almısan?

– İndi onun vaxtı deyil, sonra danışaram, bunları yığ evə – dedi:

Otuz doqquz gün arxayınca yaşadılar. Qırxıncı gün kişi arvadına dedi ki, biz bu gün bir-birimizlə həmişəlik vidalaşmalıyıq. Kişi əhvalatı olduğu kimi arvadına söylədi. Arvadı ağlayıb dedi ki, neynirdin bu yeməyi? Qırx gündə yediyimizi haram edəcəklər, səni cəzalandıracaqlar.

Kişi onu sakitləşdirdi:

– Arvad, qırx ildi aclıqla dolanırıq, heç olmasa, qırx gün adam kimi yaşayaq, heç nə olmaz, Allah kərimdi.

Belə götür-qoyla sabah açıldı. Səhər tezdən padşahın adamları qapını aldılar, bildirdilər ki, qırx günün tamam olub, padşah səni çağırır. Kişi arvad-uşağı ilə vidalaşıb yola düşdü. Yolda onlara bir uşaq qarışdı. Kişi elə başa düşdü ki, uşaq padşahın oğludu, atlılar isə onu kişinin yaxın adamlarından biri hesab etdilər.

Padşah Xıdır İlyazı görmək ümidi ilə saray əyanlarını başına topladı, qarşısında yalnız kişini görəndə təəccüblə soruşdu:

– Niyə tək gəldin? Bəs Xıdır İlyaz hanı?

Kişi cavab verdi:

– Padşah sağ olsun, qırx ildi onu görməmişəm, qırx gündə necə görə bilərdim?

– Sən hansı cürətlə məni aldatdın, indi cəzanı alarsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qırx ildə əskiklik-kasıblıq dolanırdım, bu qırx gündə isə xoş gün gördüm. Qırx il yoxsulluqla yaşamaqdan, qırx gün xoşbəxt yaşamaq üstündü. Hazıram cəzalandır.

Padşah birinci vəzirdən soruşdu:

– Bir adam ki, padşaha yalan söyləsin, onu necə cəzalandırmaq olar?

Vəzir dedi:

– Bir adam ki, padşahı aldadır, onun başı əzilməli, bədəni yandırılmalı, sonra üyüdülməli, külü yelə verilməlidi. Belə etsək başqalarına görk olar.

Bu vaxt kişinin yanında duran uşaq irəli yeriyib dedi: "Külli çeyi, yalçu ilə əsli hu", yəni "küpük içində nə var, o da axıb töküləcək" və yaxud "nəslindən nə keçib, nəyi öyrənibsə, onu da edəcək". Bəli, uşaq bunu deyib gizləndi.

Padşah cəza tədbirini ikinci vəzirdən soruşdu. Vəzir dedi:

– Onun dərisini soydurmaq, samanla doldurmaq, meydandan asdırmaq lazımdı ki, başqalarına da görk olsun. Bundan sonra heç kəs cürət edib padşahı aldatmasın.

Həmin uşaq irəli durdu, eynilə həmin sözləri təkrar etdi, sonra da gizləndi.

Padşah üçüncü vəziri dinlədi. Vəzir dedi:

– "Kiçikdən xata, böyükdən ata". Kiçik bir səhv edərsə, padşah böyüklük edib alicənablıqla onu bağışlamalıdı.

Vəzir sözünü bitirən kimi uşaq yenə qalxıb həmin sözləri təkrar etdi. Bu vaxt padşah uşağı yanına çağırıb soruşdu:

– Söylə görüm, kimsən, kimin uşağısan, dediyin sözlərin mənası nədi?

Uşaq dilləndi:

– Padşah sağ olsun, sizin birinci vəziriniz qəhvəçi balasıdı. Onun atası həmişə qəhvə qovurur, üyüdür, ələyir. Bu zaman qəhvənin tozunu da yel aparır. Oğlu da atasından elə onuca öyrənib. Onun cəza tədbiri də bundan irəli gəlir. İkinci vəzir qəssab balasıdı. Onun atası heyvanı kəsir, soyur, asır, ətini parça-parça edib satır, dərisinə isə saman təpir. O da atasından bu işi öyrənib. İrəli sürdüyü cəza



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tədbiri də bununla bağlıdı. Üçüncü vəzir isə savadlı, mehriban, namuslu kişinin oğludu. Bu xeyirxahlıq ona atasından keçib. Ona görə də o, kişinin azad olunmasını təklif etdi.

Padşah təəccübləndi:

– Bəs sən bu vəzirlərin valideynlərinin kim olduqlarını haradan bildin?

– Böyük padşah, sən bu kasıb kişiyə Xıdır İlyazı axtarıb tapmağı tapşırdın. Buyur, gəlmişəm, mənəm Xıdır İlyaz. Bu dünyaya gəlmişəm ki, darda qalanlara kömək əlimi uzadam, onları bəladan xilas edəm.

Uşaq bu sözləri deyib yoxa çıxdı. Kasıb kişi getmək istəyəndə padşah ondan xahiş etdi ki, xahiş edirəm getmə, onu ikinci dəfə göstər mənə, səni dünya malına qane edəcəyəm. Kişi dedi:

– Yox, padşah sağ olsun, mən bir dəfə görsətməyə söz vermişdim, ikinci dəfə bacarmaram. İndi isə siz də verdiyiniz sözə əməl edin.

Padşahın əmri ilə kasıb kişiyə özü ağırlığında qızıl verib yola saldılar.

## MƏN QURD GÖRDÜM

İki qardaş var idi. Hər ikisi evli idi. Bir-birindən ayrı, hər kəs öz ailəsində bir təhər dolanırdı. Soyuq qış günlərindən birində kiçik qardaşın arvadı ərinə dedi:

– Yanacağımız təmiz qurtarıb, gedib meşədən odun gətirmək lazımdı. Kiçik qardaş baltasını götürüb meşəyə yollandı. Gördü ki, bir çoban qoyun otarır. Çobanın yanına getdi, ordan-burdan söhbət etdilər. Bu zaman qoyunlardan biri hürküb qaçdı. Çoban nə qədər çalışdısa, onu saxlaya bilmədi. Kiçik qardaş dedi:

– Sən sürünü buraxma, qoyunun dalınca mən qaçıb qaytararam.

– Bir az qaçdıqdan sonra qoyun bir mağaraya girdi. Kiçik qardaş da qoyunun arxasınca mağaraya girib nə görsə yaxşıdı – mağarada haldan düşmüş ac bir qurd var idi. Qoyun gedib qurdun qabağına sərildi. Qurd onu yeyib dirçəldi. Kiçik qardaş bu əhvalatı görüb çaşbaş qaldı, özünü itirdi, odunsuz evə qayıtdı. Arvadı soruşdu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bəs nə üçün odun gətirmədin?

– Mən qurd gördüm, – deyə əri cavab verdi.

– A kişi, qurd nədi, niyə odunsuz gəldin, dur meşəyə get, yandırmağa bir şey yoxdu.

Kiçik qardaş elə "Mən qurd gördüm" deyib dururdu.

Ərinə buyurmaqdan bezən arvad onun başını buraxdı, gedib qayını arvadından xahiş etdi ki, gedib birlikdə meşədən odun gətirsinlər. Onlar birlikdə meşəyə getdilər, odun yığıb hazırladılar. Bu vaxt onların gözünə bir küp dəydi. Onlar küpün ağzını açıb baxdılar, gördülər ki, qızılla doludu. Məsləhətləşib belə qərara gəldilər ki, əvvəlcə odunu evə aparsınlar. Evə qayıtdılar. Kiçik qardaşın arvadı tənbəl ərinə dedi:

– A kişi, meşədə qızılla dolu bir küp görmüşük, tez ol, köməkləşib onu gətirmək lazımdı.

– Arvad, mən canavar görmüşəm, qorxma, qızılı heç kəs aparmaz, – deyə kişi cavab verdi.

Arvad hirsləndi, əri ilə möhkəm dalaşdı.

Böyük qardaşın arvadı qızılla dolu küp haqqında ərinə söz açıb dedi:

– Gedək gizlicə küpü gətirək. Qoy onların xəbəri olmasın. Düşünəcəklər ki, yəqin başqası aparıb.

Onlar gizlicə meşəyə gedib küpü evlərinə gətirdilər. Küpün ağzını açanda dəhşətə gəldilər: küpün içi ilan-qurbağa ilə dolu idi. Qorxub kənara çəkildilər. Arvad ərini sakitləşdirdi ki, küpün içinə meşədə qayını arvadı baxdı, yəqin gözləri onu aldadıb, bu həşərat gözünə qızıl kimi görünüb.

Onlar küpü götürüb gizlicə kiçik qardaşın həyatinə qoydular. Səhər tezdən kiçik qardaşın arvadı həyatlərində küpü gördü, ağzını açıb baxdı ki qızılla doludu. Tez sevincək tənbəl ərini yuxudan oyadıb əhvalatı ona söylədi. Kiçik qardaş qızıllara baxıb dedi:

– Axı sənə dedim ki, mən qurd gördüm. O qoyun qurdun qisməti olan kimi, bu qızıl da bizim qismətimiz imiş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## VERMƏDİ MƏHBUD, NƏ ETSİN MAHMUD?

İstanbulda körpü qulağında iki kor üzbəüz oturaraq sadağa istəyirdilər. Birisi deyirdi: “Sadağa ver, Mahmud”. Mahmud isə o dövrün sultanı idi. İkinci dilənçi deyirdi: ”Sadağa ver, Məhbud”, yəni “ilahi, Allah”. Birinci dilənçi Mahmudun adını ona görə çəkirdi ki, bir gün olar sultan bu körpüdən gəlib keçər, onda adını eşidib ona çoxlu hədiyyələr verər. Günlərin birində Sultan Mahmud seyrə çıxır, körpüyə yaxınlaşanda həmin iki kor dilənçini görür. Eşidir ki, dilənçilərin biri onun adını çəkir, o birisi isə Allahın.

Sultan Mahmud saraya qayıtdı, vəziri çağıraraq dedi:

– Lavaşa bükülü qızardılmış bir qaz gəti, bir də içi çıxarılmış bir qarpız. Qarpızın içini qızıl pulla doldur, kəsilmiş yerini də səliqə ilə qapa. Qazı da qarpızı da apar körpüyə. Orda iki dilənçi oturub. Onlardan hansı mənim adımı çəkirsə, qarpızı ona ver, qazı isə Allahın adını çağırana verərsən.

Vəzir sultanın əmrini yerinə yetirdi.

Axşam düşdü, dilənçilərin evlərinə qayıtmaq vədəsi gəldi. Hər ikisi əlləri ilə yığdıqları pulları yoxladılar. Sultan Mahmudun adını çəkən dilənçi soruşdu:

– Nə nədər yığmısan?

– Deyəsən həmişəkindən bir az çox. Puldan başqa bükülü nə isə var, yeməyə oxşayır. Hə, qazdı, qızardılıb, iyindən bilirəm. Sən nə qədər yığmısan?

– Eh, həmişəkindən bir az az , bir qarpız da veriblər. Qardaş, al bu qarpızı verim sənə, əvəzində o əti mənə ver. Çoxdandı ki, ət üzünə həsrətik.

– Yaxşı, elə olsun, nə deyirəm ki, deyə Allahın adını çağıran dilənçi razılaşdı.

Dilənçilər qarpızla qazı dəyişib öz evlərinə yollandılar. Evdə Mahmudun adı ilə dilənən arvadına dedi:

– Gəl say, görək nə qədərdi.

Arvad saydı, dünənkindən az olduğunu söylədi. Dilənçi dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Darıxma, arvad, əvəzində qızardırılmış qaz var, gətir yeyək, qarnımızı doyduraq.

Onlar qazı yedilər, "şükür" deyə-deyə yatdılar.

Məhbudun adı ilə dilənən də evdə pulunu arvada saydırdı. Pul həmişəkindən bir az çox çıxdı. Sevindilər, şam etdikdən sonra kişi dedi: – Gətir o qarpızı da kəs, çoxdan yemirik.

Arvad qarpızı xonçaya qoyub gətirdi. Kəsəndə qarpızın içindən qızıl pullar töküldü, şadlıqları yerə-göyə sığmadı. O gündən həmin dilənçi dilənməyə getmədi.

Ertəsi gün sultan maraqlanıb körpüyə getdi. Nə görsə yaxşıdı? Dilənçi onun adını çəkərək yenə dilənir. Sultan heyrətləndi. O düşünürdü ki, onun adını çəkən dilənçi artıq ömürlük təmin olunmubdur. Dilənçiyə yaxınlaşıb soruşdu:

– Çoxdandırmı burada dilənirsən?

– Çoxdan, iyirmi ildi buradayam.

– Dünəndə burada idin?

– Bəli, burada idim.

– Nə verdilər, nə qədər yığdın?

– Bir az şaha-quruş, bir qarpız da vermişdilər, yoldaşıma verib əvəzinə qızardılmış qazı aldım. Allah köməyi olsun, qarnımız doydu.

Sultan Mahmud hər şeyi başa düşüb dedi:

– Vermədi Məhbud, nə etsin Mahmud?

## PİNTİ MAHMUD

Ahısqada adlı-sanlı, alicənab bir paşa yaşayırdı. Onun saraydakı xidmətçiləri arasında Pinti Mahmud adlı səfeh, lakin hazırcavab, nayqara bir nəfər də var idi. Günorta çörək yedikləri zaman paşa Pinti Mahmudu yanına çağırırdı, məzəli əhvalatlar söylədirdi, gülməkdən uğunurdu, beləliklə məzələnib meylənirdi. Paşa Pinti Mahmuda söz vermişdi ki, onu özünə çıraq, yəni şəyird edəcək, varlandıracaq. Paşanın bu vədi Mahmudun yadından çıxmırdı. O, paşanın xoşuna gəlməkdən ötəri min hoqqa çıxarırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bayramqabağı gün idi. Pinti Mahmud düşündü ki, sabah qonaqlar paşanı təbrik etməyə gələndə mən də təbrik edərəm, verdiyi vədi bir daha yadına salaram. Bayram günü saraya çoxlu qonaq gəldi. Məclisin şirin yerində Pinti Mahmud beli bükülü halda paşanı təbrik etdi, dedi ki, bundan yaxşı gün olmaz, böyük bayramdı, sözünə əməl et, məni xoşbəxtləndir. Paşa bir qədər düşünüb qonaqlara müraciət etdi:

– Əfəndilər, bu Mahmuda söz vermişəm ki, onu çıraq edəcəyəm. İstəyirəm sözümü yerinə yetirəm. Ancaq necə edim ki, Mahmud razı qalsın, işimiz də xarab olmasın?

Qonaqlar dilləndi:

– Əgər söz vermisənsə, əməl etməlisən, biz belə məsləhət edirik. Mahmudu üç günlüyə sədrəzəm – ölkəni idarə edən təyin edək.

Məsləhət paşanın xoşuna gəldi. Bir dəst sədrəzəm paltarı gətirdilər, Mahmudu geydirdilər, belinə qılınc taxdılar, başına papaq qoydular, yaxşı bəzədilər, bərk içkilərdən verib əməllicə kefləndirdilər, əlinə bir qamçı verib dedilər:

– Mahmud, sən artıq üç günlüyə ölkənin hökmdarısan, necə istəyirsən, eləcə də et.

Mahmudu saraydan buraxdılar. O, hökm sahibi olduğunu bilib əlində qamçı meydana çıxdı, ucadan bağırmağa başladı: “Yol verin, mən sədrəzəməm, gəlirəm, mənə tabe olun, vergini verin...”. Birinci gün belə keçdi.

İkinci gün Mahmud əmr edərək vergini öz xeyrinə toplayır. Üçüncü gün o görür ki, qəbiristanlığa bir cənazə aparırlar. Pinti Mahmud tez onların yolunu kəsdi: “Vergi verin, yoxsa bu yoldan getməyə icazə vermərəm, sözümə baxmasanız, başınızı kəsərəm”. Camaat yoldan çəkildi, başqa yolla getdi. Cənazəni qəbiristanlığa gətirdilər. Molla Quran oxudu. Dəfn edənlər içərisində bir ağıllı, çoxbilən adam var idi. O, oradakılara üz tutaraq bildirdi ki, mərhumla vidalaşmaq istəyir. Həmin kişi əvvəlcə mərhumun mehriban, ədalətli, gözəl insan olmasından danışdı, sonra qəbrə sarı əyildi, ucadan dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qəlbi qırıq, kədərli halda səninlə vidalaşıram, qardaş. O dünyada qohum-qardaşlar səni qarşılayacaqlar. Bizdən salam apar. Xüsusən Əhməd əfəndiyə, Əli ağaya, babaya, dədəyə, Hüseynə. Soruş, gör necə yaşayırlar güzəranlarını öyrən. Bəlkə bizim dolanacağımızı soruşdular, necə var eləcə də söylə. Uzun-uzadı danışma, kəsədən de ki, Pinti Mahmudu ölkənin idarəçisi seçiblər. Onlar biləcəklər biz necə yaşayırıq.

## BƏZİRGAN ARVADI

Bir kişi varmış. Bu kişinin də çox yeyən bir qızı varmış. Bu qız gündə səkkiz çörək, bir sıxım da tərə yeyirmiş. Günlərin bir günündə bu kişi varlı bir bəzirganı qonaq çağırmaq fikrinə düşür. Kişi arvadı ilə belə məsləhət edirlər ki, qonağı çağıranda qızımızı yükün arxasında gizlədək.

Qonaq yeyib-içən zaman qız yükün arxasından çığırır:

*Səkkizim para,*
*Bir sıxım tərə.*

Bəzirgan soruşur ki, qız niyə çığırır. Ev yiyəsi deyir ki, qızımız gündə səkkiz düyçə əyirir. İndi yun qurtarıb, ona görə çığırır. Bəzirgan ev yiyəsinə deyir ki, bu qızı mənə ərə verin, nə istəyirsiniz verim.

Qızı bəzirgana ərə verirlər. Bəzirgan qızı evinə gətirir. Ona bir dam yunun əyirməsini tapşırır, özü isə səfərə çıxır.

Bəzirgan gedəndən sonra qız yeyib-yatır, heç bir iş görmür. Bəzirganın gəlmək vaxtı yaxınlaşır.

Söhbət burda qalsın, sizə kimdən xəbər verim – padşahdan. Padşahın bir oğlu var imiş. Bu oğlanın boğazından yara çıxıbmış. Loğmanlar belə məsləhət ediblərmiş ki, uşağı güldürmək lazımdır. Çox gülməsə yarası deşilən deyil. Buna görə də uşağı qapı-qapı gəzdirməli olurlar. Bəzirganın arvadı bu məsələni eşidir. Gətirib bir yekə kömbə bişirir, boğazından asır, padşahın adamlarını görən zaman belə bir mahnı oxuyur:

*Göydə təpə göyərdi,*
*Ərim məni döyərdi.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Nəziy əyirirəm iyə dolaşır,*
*Yoğun əyirirəm çal köpək dalaşır.*

Sonra "maff" eyləyib boğazından asdığı yekə kömbədən dişləyir. Uşağı gülmək tutur və yarası deşilir. Tez muştuluqçular xəbər verirlər ki, padşah sağ olsun, uşağın yarası deşildi, sağalacaq. Padşah tez əmr edir ki, qızı yanına gətirsinlər. Qızı gətirirlər. Padşah qızdan nə istədiyini soruşur. Qız isə cavab verir ki, mana heç nə lazım deyil, bir azca əyriləsi yunum var.

Car çəkirlər, bütün camaat bir yerə yığılır. Yaxşı yun əyirən arvadları seçib ona verirlər ki, yunu bəzirgan gələnə kimi əyirsinlər. Əldən iti, dildən yüyrük arvadlar tez bir zamanda yunu əyirib qurtarırlar.

Bəzirgan səfərdən qayıdır. Görür arvadı bütün yunu əyirib qurtarıb. Soruşur ki, bu nə haqq-hesabdı?

Arvad cavab verir ki, canıma cəfa basdım, əyirib qurtardım. Bəzirgan çox razı qaldı.

Bir gün bəzirgan arvadı ilə söhbət edirmiş. Elə bu zaman bir qara cücü taxtın üstü ilə yeriyir. Arvad tez yerindən durub bir gəvə gətirir, taxtın üstünə sərir və cücüyə deyir ki, gəl otur. Kişi bunun səbəbini soruşur. Arvad cavab verir ki, bu mənim xalamdı. Biz bu dünyada çox işləyirik, çalışırıq, axırda qara cücü oluruq. O gündən bəzirgan arvadını çox işləməyə qoymur.

## YOXSUL KİŞİNİN TOYUQ BÖLGÜSÜ

Biri var idi, biri yox idi. Bir yoxsul kişi var idi. Bu kişinin vardan-yoxdan, olannan-qopannan vur-tut bir toyuğu var idi. Bir gün bu kişi arvadına deyir ki, arvad, bu toyuğu kəs, hazırla, aparıb şaha verəcəm. Arvad kişi deyən kimi eyləyir. Toyuğu xonçaya qoyub, üstünə də qırmızı parça salıb şaha göndərir. Kişini şah qəbul edir və deyir ki, sən bu toyuğu elə böl ki, hamıya bərabər çatsın.

Şahın bir oğlu, bir də qızı var idi. Kişi toyuğun başını kəsib şahla arvadına verir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu sizin, adil hökmdar, çünki siz ailənin başçısısınız, iki siz, bir də baş, bu oldu üç.

Toyuğun budlarını kəsib şahın oğluna verir və deyir:

– Sən bu evin dirəyisən. Bir sən, iki də bud, bu da oldu üç.

Qanadları kəsib qıza verir və deyir:

– Sən qızsan, bugün-sabah uçub gedəcəksən. Bir sən, iki də qanad, bu da üç.

Sonra kişi deyir:

– Bir mən, bir arvadım, bir də toyuğun qalanı, bu da üç. Razısanmı, adil hökmdar?

Şah fikirləşib gördü ki, doğrudan da bu kişi hər şeyi düz bölüb. Əmr elədi ki, məni istəyən bu kişiyə dövlət versin. Day bu kişiyə o qədər xələt verildi ki, kişi onları evinə zorla apardı çıxartdı.

Ər-arvad toyuğun qalan hissəsini yeyib, şahın verdiyi xələtlə ömür-gün sürdülər.

## DƏRİSİ VƏ GERİSİ

Biri var imiş, biri yox imiş, bir qoca kişi var imiş. Bu kişinin vardan-yoxdan bir toyuğu var imiş. Günlərin bir günü bu kişi fikirləşir ki, əşşi, varını verən utanmaz, gəlsənə mən də bu toyuğu kəsib şaha aparım, nağayrar-qayrar. Bu kişi fikirləşdiyi kimi edir. Toyuğu bir xonçaya qoyub şaha aparır. Şah bunu qəbul edir və bu qoca kişiyə deyir:

– Əgər sən mənə düz desən bu toyuğun harası dadlıdır, mən sana çoxlu xələt verəcəm, yox, əgər düz deməsən, onda boynunu vurduracam.

Kişi fikirləşir və şaha deyir:

– Şah sağ olsun, toyuğun bir dərisi, bir də gerisi çox dadlıdır.

Şah kişinin sözlərini bəyənir və ona çoxlu xələt verir. Bunu eşidən qonşu fikirləşir ki, əşşi, bu şah bir toyuğa görə bu kişiyə bu qədər xələt verdi, mən də öz camışımı kəsib şaha aparacam. Onda mənə də çoxlu xələt verəcək.

Bu kişi də fikirləşdiyi kimi edir. Camışını kəsib şaha aparır. Şah birinci qocaya dediyi sözləri buna da deyir. Bu qoca kişi də



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

cavab verir ki, şah sağ olsun, bizim camışın bir dərisi, bir də gerisi çox dadlıdır. Şah buna çox qəzəblənir və kişinin boynunun vurulmasını əmr edir.

## İRİ BUĞDANIN SİRRİ

Bir gün Misir padşahı ölür. Bunun cavan oğlu onun yerinə padşah keçir. Oğlan bir gün atasının xəzinəsini yoxlayıb görür ki, xəzinədə yumurta boyda buğda var. Oğlan buna çox təəccüblənir və vəzirləri bir yerə yığıb soruşur ki, belə buğda harada bitir. Onların hamısı susur, cavab verə bilmirlər. Onlar deyirlər ki, bu taxıl ya bizdən qabaq, ya da biz olmayan vaxtı gəlib. Padşah əmr edir ki, sizə iki kisə qızıl verirəm, ölkələrə düşüb bu haqda mənə bir məlumat gətirin.

Onlar ölkələri gəzməyə başlayırlar. Padşahın adamları belə qərara gəlirlər ki, bu məlumatı qocalardan öyrənmək olar. Bir kəndə gəlib soruşurlar ki, burada ən qoca adam kimdir, evini bizə nişan verin. Bir qoca kişinin evini nişan verirlər. Padşahın adamları soruşa-soruşa həmin qocanın evini tapırlar. Qapını döyürlər, evdən bir arvad söyə-söyə eşiyə çıxır və nə istədiklərini soruşur. Padşahın adamları ev yiyəsi ilə işləri olduqlarını söyləyirlər. Arvad söylənə-söylənə onları evə aparır. Padşahın adamları içəri girəndə görürlər ki, kişini yeşikdə pambığın içinə qoyublar, təkcə başı eşdədir. Padşahın adamları çox çətinliklə kişini başa salırlar ki, belə əhvalat olub. Həmin kişi birtəhər qandırır ki, məndən də böyük qardaşım var, gedin ondan soruşun. Padşahın adamları getdikcə fikirləşirdilər ki, bunun özü belədi, böyük qardaşı nə halda olar.

Nəhayət gedib həmin evi tapırlar. Qapını döyürlər. Eşiyə sakit bir qadın gəlir və soruşur ki, nə istəyirsiz? Padşahın adamları deyirlər ki, ev yiyəsi ilə işimiz var. Arvad bunları evə aparır. Onlar içəri keçəndə görürlər ki, kişi evdə altında döşək, oturub-dura bilir. Onlar bu kişiyə əhvalatı danışırlar. O kişi deyir ki, bizim ikimizdən də böyük qardaşımız var, ondan soruşun, bəlkə o bildi. Padşahın adamları o biri qardaşın qapısına gedirlər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

və qapını döyürlər. Eşiyə bir arvad çıxır, çox hörmətlə soruşur ki, nə buyurursuz? Onlar deyirlər ki, ev yiyəsi ilə işimiz var. Arvad cavab verir ki, ev yiyəsi bazara gedib, gəlin əyləşin, bu saat gələr. Onlar evə gedirlər və bu işə mat qalırlar ki, kiçik qardaş pambıq içində, ortancıl qardaş oturub-durmağı bacarmır, böyük qardaş isə bazara gedib. Bu necə ola bilər? Kişi bazardan gəlir və soruşur ki, nə buyurursuz? Padşahın adamları bu kişiyə də əhvalatı danışırlar və deyirlər ki, əgər bu haqda xəbər versəniz, sizə bir kisə qızıl bəxşiş var. Kişi fikirləşib deyir:

– Mən uşaqdım, on yaşım olardı. Bizim bu kəndin qırağında bir adam öz ata-baba yerini satırdı. Başqa bir adam da bu yeri aldı. Bir gün alan adam yeri əkirdi. Əkən zaman kotan yerin ortasında bir daşa ilişir. Kişi daşı yerdən çıxardanda görür ki, burada bir küpə qızıl var. Kişi qızılı görən kimi, yer sahibinin yanına gedir ki, gəl qızılına sahib dur. Yer yiyəsi cavab verir ki, o yer bizim ata-baba yerimizdir, əgər qızıl bizə çatsaydı, bizə qismət olardı. Sənin kotanına keçib, deməli qızıl sənə çatır. Bunların işi qazıya düşür. O deyir qızıl ona çatır, o birisi deyir yox, ona çatır. Qazı bu zaman yeri alandan soruşur ki, oğuldan-uşaqdan nəyin var. O cavab verir ki, bir qızım var. Yer satan da deyir ki, mənim də bir oğlum var. Qazı deyir ki, izin verin onların kəbinini kəsim və hər ikiniz qızıla sahib durun. Bax, həmin ili də o yerin taxılı yumurta boyda oldu. Ola bilsin ki, xəzinəyə də ordan gedibdir.

Padşahın adamları bu məlumat üçün bu kişiyə çox sağ olun deyirlər. Sonra onlar kişidən onların başqa bir sualına da cavab vermələrini xahiş edirlər. Onlar soruşurlar ki, nə üçün sənin kiçik qardaşın pambıq içində, ortancıl qardaşın oturub-durur, siz isə bazara gedirsiz? Bunun səbəbi nədir? Kişi cavab verir ki, onun arvadının dili onu o günə salıb, ortancıl qardaşımın arvadının da dili onu orda saxlayıb. Mənim arvadımın dili də məni bu cür saxlayıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XII. TAPMACALAR

Ağ quş bir-bir seçildi,
Qaçıb suya töküldü.

***(Düyü)***

Ağ toyuq burda oynadı,
Silkindi suda oynadı.

***(Paltar)***

Ağac başında çarrı gəzər.

***(Çən)***

Ağac başını oydular,
Kəndə koxa qoydular.

***(Çanax)***

Ağacdan atı var,
Dəmirdən qatı var.

***(Ələm)***

Ağacını tutmaq olmaz,
Ətirindən yatmaq olmaz.

***(Qızılgül)***

– A qız, a qız, a günü qara,
O nəyindir ki, tərkinə
minibsən?
– Bunun arvadının qardaşı
dayımdı,
Gör, onda özü nəyimdi?

***(Atası)***

Alçaq dağdan qar yağar.

***(Ələk)***

Adı nədi?
Adnanın adı nədi?
Dəryada bir məscid var,
Mollanın adı nədi?

Ayağı yoxdu qaçır,
Qanadı yoxdu, uçur.

***(Bulud)***

Alnı qırmızı,
Cəsədi yox, qanı qırmızı.

***(Çay)***

Altı abbası,
Üstü abbası,
Onu tanımayan
Eşşək sıpası.

***(Tısbağa)***

Altı dəmir,
Üstü dəmir,
Dörd ayağı,
Bir başı.

***(Tısbağa)***

Anası boğaz, anasının
qarnında balası da boğaz.

***(Çiyid)***

Arşın əpə,
Qızıl küpə,
Dərələ çiçək,
Dəyirmi təpə.

***(Alaçıq, dəyə)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Atam bir fənd eləyib,
Zülfün kəmənd eləyib,
İyirmi dörd ulduzu
Dörd aya bənd eləyib.

Atdan hündür,
İtdən alçaq.

***(Yəhər)***

Atdım atdan düşdü,
Şalvarı buddan düşdü.

***(Qoz)***

Atlı gələr – hürküdər,
Yiyəsi gələr – bərkidər.

***(Külək, Yağış)***

Axanı baxana ver.

***(Su)***

Aşağıdan gün doğdu,
Aşıq aşığı boğdu,
Anası oğlan doğdu.

***(Arı)***

Baldırı papaq,
Arxası bucaq.

***(Diş)***

Barmaq boyda misiri,
Bəylər onun yesiri.

***(Yuxu)***

Bizdə bir kişi var,
Ağzında iki dişi var.

***(Maşa)***

Bağlıyıram gedir, açıram yatır.

***(Ayaqqabı)***

Başı fındıq,
Dalı qayçı.

***(Qaranquş)***

Biz biz idik,
Yüz qız idik,
Bizi büzdülər,
Bir ipə düzdülər,
Qırğın qırmadı,
Bıçaq xırp elədi.

***(Gəbə, xalça)***

Bizdə bir adam var,
Gələni də öpər, gedəni də.

***(Su qabı, dolça)***

Bizdə bir dodu var,
Əyricə budu var,
Gedəsən görəsən,
Gülməkdən öləsən.

***(Qurbağa)***

Bizdə bir kişi var,
Ağzında üççə dişi var.

***(Sacayağı)***

Bir itim var,
Nə dinir, nə hürür,
Adamı da evə buraxmır.

***(Qıfıl)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bizdə bir kişi var,
Dik oturuşu var.

***(Səhəng)***

Bizdə bir kişi var,
Köndələn yatışı var.

***(Farmaş)***

Bizdə bir kişi var,
On beş dişi var.

***(Hüyə)***

Bizdən sizə ciyrıx.

***(Sacayağı)***

Bir atım var, gecə - gündüz yol gedir.

***(Saat)***

Bir balaca misiri,
Hamı onun yesiri.

***(Yuxu)***

Bir qazanım var,
Dörd əppək tutur.

***(Qoz)***

Bir qamçım var,
Vura bilmirəm.

***(İlan)***

Bir qarı təpədə oturub hey palaz çırpır.

***(Kirpik)***

Bir qırıq ağı daşı,
Yandırır dağı-daşı.

***(Günəş)***

Bir qırıq midi,
Vurdu, yıxdı iyidi.

***(Tüfəng)***

Bir quyum var,
Ağzınacan buğda dolu.

***(İtburnu)***

Bir damım var – içi dolu ağ yarmaça

***(Ağız, diş)***

Bir damım var – ağzınacan pərdi ilə dolu

***(Diş, ağız)***

Bir damım var – tək dirəkli

***(Köbələk)***

Bir dərədə yeddi təpə,
Hər təpədə yeddi yuva,
Hər yuvada yeddi tülkü,
Hər tülkünün yeddi balası,
Neçə tülkü balası var?

Bir donum var – tikişi yox.

***(İnsan dərisi)***

Bir yumurtam var,
Yüz cücə çıxarır.

***(Nar)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir kişi var,
Köndələn yatışı var.
***(Kilim)***

Bir çoban dağdan ilxı endirir.
***(Dəllək)***

Bir kişi,
Əlinə aldı bir şişi,
Bir qoyun aldı –
Nə erkək oldu, nə dişi.
***(Tüfəng)***

Bir gün doğdu
Gürcüstandan,
Bir gün doğdu
Türküstandan,
Usta bir yemiş gətirdi
Əlli lövün bostandan.
***(Arx)***

Bir öküzüm var, quyruğun-
dan tutmasan otlamaz.
***(Ülgüc)***

Bir sinidə iki toyuq,
Biri isti, biri soyuq.
***(Gün, Ay)***

Burda bir midi var,
Əyri-üyrü budu var,
Gəl gör,
Gülməkdən öl.
***(Qurbağa)***

Bir təhnə almaz,
Sabaha qalmaz.
***(Ulduz)***

Bir comuşum var, üç çulu var.
***(Sac)***

Biri gedər göyə, biri yatar
yerə.
***(Tüstü, kül)***

Bu gün adnadı,
İşlər avandınadı,
Səksən ayaq qırx buynuz,
Tap görüm adı nədi.
***(Kotan öküzləri)***

Boz öküz getdi gəlmədi,
Qırmızı öküz yatdı, qalxmadı.
***(Tüstü, köz)***

Bu gün bizə qonaq gəldi,
Yemi özündən qabaq gəldi.
***(Uşaq)***

Burdan vurdum baltanı,
Ordan çıxdı qaltanı,
Anam bir oğlan doğub,
Yerin-göyün sultanı.
***(Günəş)***

Qat-qat döşək,
Onu tapmayan eşşək.
***(Kələm)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaya altda qızıl qamçı.
*(İlan)*

Qaya dibindən quş qalxdı,
Qanı qurumuş qalxdı.
– Qanın niyə quruyub?
– Tanrı belə buyurub.
*(Qoyun quyruğu)*

Qayış qatlanır,
Quyruq bulanır,
Qum ələnir.
*(Xəşil)*

Qan ayağı,
Bülbülün qan ayağı,
Aşıq bir hikmət görüb
Üç başı var, on ayağı.
*(İnək, buzov, sağıcı)*

Qara quş qaqqıldar,
Qanadları şaqqıldar.

Qara nədir?
Qaş üstə qara nədir?
Gönü göy, əti qırmızı,
Sümüyü qara nədir?

Qaranlıq yerdə qan üyüşər.
*(Qatıq)*

Qaraca-qaraca qarğalar,
Hər qapıya yorğalar.
*(Sac)*

Qırmızı divar, ağ fərələr.
*(Ağız, diş)*

Qırmızı xoruz bağda,
Dimdiyi torpaqda.
*(Turp)*

Qıfıl qıfıl içində,
Qıfıl sandıq içində,
Xorasana od düşdü
Biz də yandıq içində.
*(Alışqan)*

Quyu,
İçində suyu,
Suyunda ilan –
Ağzında od.
*(Çıraq)*

Dağdan gəlir, daşdan gəlir,
Nərildəyən astan gəlir.
Xan oğlunu mindirməz,
Ağzına yüyən vurdurmaz.
*(Sel)*

Dağdan gəlir dadır suyu,
Mən heç ondan
dadmamışam.
Kətan-köynək culfa toxuyur,
Mən heç ondan geyməmişəm.
*(Hörümçək toru)*

Əyri ağacda qar durmaz.
*(Camış buynuzu)*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağdan gəlir, daşdan gəlir,
Bir bölük astan gəlir,
Nə ayağını qaldırmaq olur,
Nə başını sındırmaq.

***(Sel)***

Dadlıdan dadlı,
Şəkərdən qənnadı,
Nə çərçi gətirib,
Nə bəzirgan satı.

***(Ana südü)***

Damda dana böyürər,
Qızlar ona yüyürər.

***(Toy)***

"Dəy" deyirəm dəymir,
"Dəymə" deyirəm dəyir.

***(Dodaq)***

Dən üzündən durdum,
dəndələk qurdum.

***(Yun yığmaq)***

Dörd dərviş bir quyuya daş
tökür.

***(Süd sağımı)***

Düzüm-düzüm nar,
Dizə çəpər qar,
Əsdi sədəf,
Qondu dilbar.

***(Kündələr, xəmir,
ələk, un)***

Ey kişi,
Bilirsənmi birnən beşi,
Anası erkək, balası dişi,
Al, pul verim, ət al gətir,
Nə erkək əti olsun, nə dişi.

Eydən (gedən) kişi,
Əlində dəmir şişi,
Mana bir öküz yolla,
Nə yazı görsün, nə qışı.

***(Qarpız)***

Eləmi, su deyin ağlar,
Sünbülüm su deyin ağlar,
Dəryada bir gül bitib
O da su deyin ağlar.

***(Taxıl)***

Eşiyi qara alamət,
İçi qırmızı qiyamət.
Höyüş vurdum, quru çıxdı,
Ya bismillah, Məhəmməd.

***(Fırın)***

Eşiyinə,
Bələnib beşiyinə,
Damda bir çıraq yanır,
Şoxu düşür eşiyinə.

***(Elektrik lampası)***

Əyəndə, ha əyəndə,
Budağını əyəndə,
Yeyilsə kal yeyilir,
Heç yeyilməz dəyəndə.

***(İnnab)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlim ətə,
Gözüm gölə.

***(Qoyun sağımı)***

Əllə əkilir, gözlə biçilir.

***(Yazı)***

Ənvər ağanın bir çustu var,
Nə altı var, nə üstü var.

Ərşin ayaq, bənövşə qulaq.

***(Siçan)***

Ərşin əpə,
Gümüş küpə,
Dərədə çiçək,
Dəyirmi təpə.

***(Təndir, çörək)***

Əhətdən əhətə,
Səs verər kəndə.

***(Xoruz)***

Zər zəbə yapışdı,
Zər divara yapışdı,
Zərgər oğlu gəlməsə
Zər divardan enməz.

***(Açar)***

Zir kilim, zincir kilim,
Nə qaldıra bilirəm, nə sala.

***(Yer)***

İki çatağım, bir bağlamağım.

***(Şalvar)***

Bir ağacda beş alma,
Gün düşər ikisinə.

***(Namaz)***

İnsan əlaməti var,
Tanrı qüdrəti var.

***(Tüfəng)***

İsti dəyməmiş,
Tüstü görməmiş aş yedim.

***(Qatıq)***

İtələdim – qapı açıldı,
Qızıl düymə saçıldı.

***(Ulduzlar)***

İçi soyulur,
Üzü yeyilir.

***(Pöt-pötə)***

Yayda quruyar,
Qışda əriyər.

***(Qurud)***

Yarğan altda dörd düdük.

***(İlan yelini)***

Yarpaq yeyər, torpaq üyüdər.

***(Qəlyan)***

Gedən leylək,
Gələn leylək,
Dabanı üstə
Duran leylək.

***(Qapı)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yarı yağdı, yarı duz,
İçi tüklü, eşiyi düz.

***(Motal)***

Yer altında yağlı böyrək.

***(Siçan)***

Yer lülə, ət güllə.

***(Siçan və deşik)***

Yerir-yerir – izi yox,
Topuq çalır, dizi yox,
Söyüdlükdə qışlayar,
Dərisi var, dizi yox.

***(Balıq)***

Yeddi deşik toxmaq,
Onu tapmayan axmaq.

***(Göz, qulaq, burun, ağız)***

Yol qırağında qazan qaynar.

***(Qarışqa)***

Yol üstə yoğun arvad.

***(Fırnı)***

Yumru təkər, əldə gəzər.

***(Qazan)***

Kür mələdi,
Kür keçdi, Kür mələdi,
Sağıyla çaldı sonam,
Soluyla kürmələdi.

***(Əl iyi)***

Yumru mərmər daşı,
İçində bəylər aşı.

***(Yumurta)***

Yuxarı qaldıranda ağlayır,
Aşağı endirəndə kiriyir.

***(Zəncir)***

Yüyürdüm o təpəyə,
Yüyürdüm bu təpəyə,
Ayağım düşdü qızıl küpəyə.

***(Çəkmə)***

Yük arasında para kömbə.

***(Ay)***

Kəsdikcə uzanar,
Yonduqca canlanar.

Kor öküz koldan baxır.

***(Tüfəng)***

Köbək köbəyə, ürək ürəyə.

***(Kirkirə)***

Göydən gəlir inir-inir,
Yerə düşür halqa dəmir.

***(Qoz)***

Nizam ilə qurular,
Taxta üstə bənd olar.
Sinəsindən səs verər,
Qulağından vurular.

***(Saz)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gündüz yatar,
Gecə işləyər.
***(Yorğan-döşək)***

Meşəyə gedər qudurar.
***(Balta)***

Mən aşıq, dadı nədir,
Doğması, yadı nədir?
İki başı, dörd ayağı,
Tap görüm, adı nədir?

Mili-mili düyməsi,
Mili mərcan düyməsi,
Hər kim onu tapmasa
Altı şaha cəriməsi.
***(Moruq)***

Min milit,
Qapı kilid,
Ya bunu tap,
Ya burdan it.
***(Qəbir)***

Nar da var, nar da var,
Nardan şirin harda var?
Əl tutmaz, bıçaq kəsməz,
Ondan şirin harda var?
***(Yuxu)***

Nədəndi, ay nədəndi,
Bağrı zədən-zədəndi,
Özü ellər doydurur,
Özü doymaz, nədəndir?
***(Dəyirman)***

Nə qapısı var, nə bacası,
İçi dolu sərçə balası.
***(Qarpız)***

Nə yerdədi, nə göydə,
Qəndildədi, qəndildə.
***(Pəncərə)***

Nənəm durdu, belinə vurdu.
***(Sənək)***

Ovuc-ovuc tökərəm,
Xır-xır çıxardaram.
***(Kirkirə)***

O nədir ki, bir yaşında
qocalır.
***(Hacıleylək)***

Onun tükü incədi,
Tükləri narıncadı,
Axşam anadan oldu,
Səhər durub yeridi.

O nədir ki, yetmiş iki dil bilir?
***(Saz)***

O nədir ki, göydən yerə
sallanır?
O nədir ki, hər nə versəm
allanır,
O nədir ki, göbəyindən
nallanır?
***(Yağış, uşaq, pul)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ordan vurdum baltanı,
Burdan çıxdı qaltanı,
Bir oğlan, bir qız çıxdı –
Yerin-göyün sultanı.

***(Günəş, Ay)***

O toyda durur bir kişi,
Əlində var şişi,
Deyir bir hoqqa ət ver,
Nə erkək olsun, nə dişi.

***(Göbələk)***

Özü əyri, yolu düz.

***(Kotan)***

Ölməz, itməz, çürüməz.

***(Əzrayıl)***

Pır-pır uçar,
Saldığı dədənin ağzına.

***(Dəyirman, un)***

Rəngsiz boyanıb,
Yerdən göyə dayanıb.

***(Göy qurşağı)***

Sağsağan səkər,
Quyruğunu bükər,
Qaz qaqqıldar,
Yumurta tökər.

***(Cəhrə)***

Səhəngin bir qızı var,
Gələn gedəni öpür.

***(Dolça)***

Sarı atı yağlaram,
Yarğan altda bağlaram.

Sarı saqqal, uzun hoqqal,
Onu bilməyən olsun çaqqal.

***(Qarğıdalı)***

Sarf qayadan sandıq asılar.

***(Qıfıl)***

Sən burada durursan, o gedir,
Dağları, daşları gəzir, gəlir.

***(Göz)***

Səkkizi sazana,
Dördü mazan dərəsinə,
İkisi xurma dərəsinə.

***(Qancıq, mal və qoyun əmcəkləri)***

Səkkizi səndərən,
Doqquzu döndərən,
İkisi ramazan,
Dördü xizək.

***(İlin ayları)***

Səpdim palıd,
Bitdi şabalıd,
Yarpağı tünd,
Özü armud.

***(Sarımsaq)***

Təpikləməsən iş görməz.

***(Bel)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Axşam üç ayaqlı.

*(İnsan)*

Səhər tezdən qızıl it ananın
başına atılar.

*(Sənək)*

Suya girdim – çıppıdım,
Sudan çıxdım – çıppıdım,
Qığılcımdan don geydim,
Qıxmıqcığını tapmadım.

*(At quyruğu)*

Suya girər millənər,
Sudan çıxar dillənər.

*(At quyruğu)*

Tappa dedim, tapış dedim,
Gülbahara yapış dedim,
İlan yalı, keçi qılı,
Noxtalanıb gedən nədir?

*(Durna qatarı)*

Tat tatı götürər,
Tat oğlunu götürər,
Oğlu yarpaq götürər,
Qızı torpaq götürər.

*(Ev tikmək)*

Uzun qız oba gəzir.

*(Ələm)*

Uzun ox, kölgəsi yox.

*(Yol)*

Uzun-uzun ulama,
Ucuna qıl dolama,
Gedər Hasan Hüseynə,
Gələr mənə salama.

*(Yol)*

Ustakar,
Usta sənsən, ustakar,
Ərşdə bir hikmət gördüm,
Şəyirdi az, usta kar.

Xanımın bir donu var,
Qatlamaq olmaz,
Yaxasından şırması var,
Sanamaq olmaz.

*(Göy və ulduzlar)*

Xaral-xaral öküzüm,
Çəpər yarar öküzüm.

*(Tısbağa)*

Hallanar, hullanar,
Qızıl kimi sallanar.

*(Zoğal)*

Hansı quşdur qanadında xalı
var?

*(Kəpənək)*

Həstə gördüm,
Quyruğunda dəstə gördüm,
İki canlını bir cansızın
Üstə gördüm.

*(İki quzğun və leş)*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hapışdırım, hupuşdurum,
Dizlərinə yapışdırım.

***(Yamaq)***

Hədiyavanı, hüdyavanı,
Lal ayağı, dörd davanı.

***(Tərəzi)***

Hənir-hənir hanayım,
Sən nərdivan qoy,
Mən çıxım sanayım.

**(Ulduzlar)**

Himil it, qapı kilit,
Ya bunu tap, ya burdan it.

***(Açar)***

Hüt dedim, hüt dedim,
Get qapının dalında yat
dedim.

***(Süpürgə)***

Çatı su içdi, dana köpdü.

***(Balqabaq)***

Çıxdım təpəyə, düşdüm
küpəyə.

***(Çəkmə)***

Şarabanı,
Şartdabanı,
İki ayağı,
Dörd dabanı.

***(Peşqun)***

Şeşbərindən bar verər,
Yatanda ağır yatar.
Qalxanda əz asdan kimi,
Burnundan qızıl tökülər,
Damağından qan kimi.

***(Sünbül, dəyirman, buğda
və un)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## XIII. BAYATILAR

Alça çiçəkdimi,
Çiçəyi göyçəkdimi.
Deyirlər nişanlısan,
Sən Allah gerçəkdimi?

Ağ almanı dişlədim,
Dişlədim, gümüşlədim.
Qardaş gəldi – qıymadım,
Yar gəldi – bağışladım.

Ağ alma da allandı,
Budağından sallandı,
Ağ almanın yiyəsi
Yenicə xəyallandı.

Ağ çuxan ağlı qalsın,
Boxçada bağlı qalsın.
Məndən başqa yar sevsən
Ürəyin dağlı qalsın.

Ağ gülü atdım çaya,
Camalın bənzər aya,
Cavan ömrüm çürüdü,
Ayları saya-saya.

Ağardıb yalı dağlar,
Gül açıb salı, dağlar.
Qərib öz balasını
Çöllərə salıb dağlar.

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi,
Xəzəl olub tökülləm
Virana bağlar kimi.

Ağ dəvənin oyunu,
Çoban, qaytar qoyunu.
Çoxdandı görməmişəm
Nazlı yarın boyunu.

Az adamda,
Qulam da, azadam da,
Var-dövlət çoxunda var,
İnsanlıq az adamda.

Aya bax, ulduza bax,
Suya gedən qıza bax.
Qız, Allahı sevərsən,
Çevir üzün, bizə bax.

Ay Alxas,
Gün xoş keçər, ay al, xas.
Ər başı ərşə dəyər,
Öydə olsa əyal xas.

Ay baba, dur sabahdan,
Çadrını qur qabaqdan,
Açılsın haqq qapısı,
Tökülsün nur qabaqdan.

Ay sarı kəkil oğlan,
Dayıları vəkil oğlan.
Atam sənə qız verməz,
Dur, burdan əkil, oğlan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ay haray, yanan getdi,
Min dərdi qanan getdi.
Ömrümüzün yolunda
Can qoyan anam getdi.

Ay dolandı, il oldu,
Yaş gözümdə sel oldu.
Məni səndən ayıran
Hansı namərd əl oldu.

Arı damı,
Damları aradamı?
Özün sev, özün bəyən,
Ev yıxar ara adamı.

Aralandım,
Ox dəydi, yaralandım,
Mən səndən ayrılmazdım,
Zülümnən aralandım.

Aram nədi,
Dərdim çox, yaram nədi?
Düşmüşəm dərd əlinə,
Çəkirəm, çaram nədi.

Armud ağacı haça,
Əlim dolaşdı saça,
Bir mərd oğlan istərəm,
Məni götürə qaça.

Arxalığın qədək, yar,
Mən biçmişəm gödək yar,
Get, atını yəhərlə,
Mən də gəlim, gedək yar.

At gəlir boza-boza,
Üstündə qızıl qoza,
Yavaş get, a çər dəymiş,
Yarı bulama toza.

Ahımdı, günahımdı,
Öz suçum, günahımdı.
Ulduz gecə sitəmim,
Gün gündüzlər ahımdı.

Açılmışam gül kimi,
Ötürəm bülbül kimi,
Dəymə mənim könlümə,
Sarallam sünbül kimi.

Aşdı dağlar,
Hər yanın daşdı dağlar,
Sənin vaxtın var idi,
Karvanın köçdü dağlar.

Aşıq bulaqda qaldı,
Səsim bulaqda qaldı,
Yarı düşmən apardı,
Ahı qulaqda qaldı.

Aşıq deyər sərdə yox,
Qocalıqda pərdə yox,
Viran olsun yoxsulluq,
Ürəkdə var, əldə yox.

Aşıq deyər bu suda,
Yeddi can var bu suda,
Dördü göyə çəkildi,
Üçü qaldı bu suda.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıqdı, ay aşıqdı,
Stol üstə qaşıqdı.
A xala, nədi günahım,
Qızın mənə aşıqdı.

Aşıq gedər hər yana,
Sözün deyər mərdana,
İyidə ürək verər,
Dar ayaqda mərd ana.

Aşıq nədən dəm oldu,
Sözüm-sovum qəm oldu.
Bəd gündə, dar ayaqda,
Yar mənə həmdəm oldu.

Bacım gələ saç tökə,
Kirpik çala, yaş tökə,
Bircə qardaş istərəm,
Məzarıma daş tökə.

Bağça bar üstən gəlir,
Heyva nar üstən gəlir.
Aşıq deyən mahnının,
Hamsı yar üstən gəlir.

Baxdı yara,
Yol gedir Baxdıyara,
Başım cəllad əlində,
Gözlərim baxdı yara.

Başı cunalı qızlar,
Əli xınalı qızlar,
Əllərində sərniclər
Bərənin yolunu gözlər.

Baş açıq,
Ayaq yalın, baş açıq.
Doqquz say bu yana qoy,
Onunda vur başa çıx.

Belə dağlar,
Köysümdə belə dağlar,
O çəhlimə, bu yala
Kim olsa bələd, ağlar.

Bəlgəli dağlar,
Dibi kölgəli dağlar.
Bir gəldim, qana düşdüm,
Bir də kim gəli, dağlar?

Bərdən gəl,
Uzaq düşmə, bərdən gəl,
Düşmüşəm qəm oduna,
Xilas eylə, bərdən gəl.

Bir atım var onunda,
Qulun saxlar donunda,
Allah muraznı versin,
Gələn ayın onunda.

Bir-bir düşər,
Atlanan bir-bir düşər,
Keçirdiyim o günlər,
Yadıma bir-bir düşər.

Bir qız gördüm göyəmdə,
Budaqları əyəndə,
Bir də nə vaxt görəcəm –
Şamamalar dəyəndə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Boz araba yan gedər,
İçində bir can gedər.
Qardaş gələn yollara
Bacılar qurban gedər.

Bozatı minənə bax,
Enişdən enənə bax.
Murazı hasil olub,
Çırası yanana bax.

Bostanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Nə qədər sağam ağlaram,
Ölsəm, torpağım ağlar.

Bu dağlar yasdı dağlar,
Qar gəldi basdı dağlar.
Üç ay toylu-bayramlı,
Doqquz ay yasdı dağlar.

Bu dağnan,
Bu bağçaynan, bu bağnan,
Lap ölsəm məzarım da
Yaxın qoymaz bu dağnan.

Bu damaxda,
Bu kefdə, bu damaxda,
Nər maya sevdasında,
Löh qanqal budamaxda.

Bu oba Sadaxlıdı,
Çörəkli, qonaxlıdı.
O gözələ söz demə,
Özgəyə adaxlıdı.

Bulaq başı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Yarama məlhəm dedim,
O gətirib buz bağlar.

Bulaq başı buturaq,
De yara gəlsin oturaq.
Bir o desin, bir də mən,
Bəlkə dərddən qurtulaq.

Bulaq üstü lilipar,
Yaylıq gətir, gül apar.
Danışmağnan doymursan,
Kəs dilimdən dil apar.

Bulaqsan, ax onnan get,
Şimşəksən çax, onnan get.
Uğuruna pir çıxsın,
Yarına bax, onnan get.

Bu kol-kosu bağlayım,
Dibinə su bağlayım,
Arxı dəhnəmdən hündür,
Suyu nəynən bağlayım?

Bu sular axmağilə,
Daş-qaya yıxmağilə.
Mən yardan necə doyum,
Qıraqdan baxmağilə.

Qaza qaldı,
Qılmadım, qaza qaldı.
Nə ovçu ovun buldu,
Nə dünya qaza qaldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qazan ağlar,
Od yanar, qazan ağlar.
Bel batmaz, külüng kəsməz,
Qəbrimi qazan ağlar.

Qaladan endim ancaq,
Əlimdə qızıl sancaq.
Nə quzu oldum südə
doydum,
Odlara yandım ancaq.

Qal bu yerdə,
Su durmaz qalbı yerdə,
Sənə kimlər qarğadı,
Ki, qarı qal bu yerdə.

Qara atın kəkili,
Belinə örkən çəkili,
Allah murazın versin,
Böyük öyün vəkili.

Qara bat,
Batdağa bat, qara bat,
Ömrünə ilmə salar,
Yaman arvad, arığ at.

Qara baxdım,
Oxudum, qara baxdım.
Ya sənin gül talahın,
Ya mənim qara baxtım.

Qara-qara qazanlar,
Qara yazı pozanlar.
Torba taxsın, dilənsin,
Aramızı pozanlar.

Qara yazı,
Sərt olar qar ayazı,
Məskənim Lök dərəsi,
Oylağım Qarayazı.

Qar a dağlar,
Bürünüb qara dağlar,
Səndən keçə bilmədim,
Yol verdin sara, dağlar.

Qar altıdı,
Qar yağıb, qar altıdı.
Görən deyir adamdı,
Demir ki, qaraltıdı.

Qar altına,
Qar düşüb qar altına,
Adın elnən bir olsun,
Sığınaq qaraltına.

Qar qalandı,
Qar yağdı, qar qalandı.
Qarğalar laçın oldu,
Laçınlar qarğalandı.

Qara yazı,
Sərt olar qar ayazı.
Məskənim – Lök dərəsi,
Oylağım – Qarayazı.

Qarqamışa,
Qar yağır qar-qamışa.
Yüz min alqış neyləsin
Bir fələk qarğamışa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarılar, ay qarılar,
Söz deməyin, darılar.
Əgər qazancın olsa,
İkiəlli sarılar.

Qaşa dolsun,
Sürmə çək, qaşa dolsun.
Yarı yardan ayıranı,
Nə gülsün, nə şad olsun.

Qəza qaldı,
Qılmadım, qəza qaldı.
Bir yanımı Kür kəsdi,
Bir yanım qaza qaldı.

Qızıl üzük laxladı,
Verdim anam saxladı.
Anama qurban olum,
Məni tez adaxladı.

Qışdan yaza nə qaldı,
Ərzim yazana qaldı.
Qələm işini işlər,
Mürvət yazana qaldı.

Qoşa gələ,
Qismətim qoşa gələ,
Mərəm yelin gətirə,
Quzusu qoşa gələ.

Qurbanam gülyanağa,
Get deməzlər qonağa.
Qırx qaşıq salardılar
Əvvəllər bir çanağa.

Qurud aşı,
Yeməyə qurud aşı,
Fələyin köylü olsa,
Göyərdər quru daşı.

Dağ başını qar aldı,
Dağ dibini bar aldı,
Gül tək rəngim var idi,
Yarpaq kimi saraldım.

Dağda bitər kəkotu,
Çığnamayın bu otu
Ağır otu, ağır dur,
Ağzıyın ipini çək otu.

Dağda qan,
Dağda bitər dağdağan,
Ovçu balasın vurub,
Göl-göl olub dağda qan.

Dağda dirək qayınana,
Tövlədə kürək qayınana.
Oğlu evə gələndə
Məndən zirək qayınana.

Dağda itirdim izi,
Yar qoydu getdi bizi,
Qara duvaqlı qalsın,
Yarı öyrədən qızı.

Dağın qarı qalmadı,
Bağın narı qalmadı,
Dilim Allah deməkdən,
Canım yarı qalmadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağlar başı işıqdı,
Yar əlində qaşıqdı,
Qaynanam sevməsə də,
Oğlu mənə aşıqdı.

Dağlar başı çən oldu,
Çən oldu, duman oldu.
Yar məndən üz döndərdi
Dərdim bir ümman oldu.

Dağlar dağladı məni,
Görən ağladı məni.
Zəncir tab eyləməzdi,
Zülfün bağladı məni.

Dağlarda haramısan,
Saçını daramısan,
Çox da ki, varın yoxdu,
Könlümə yaramısan.

Dağları aşan mənəm,
Əlimdə yovşan mənəm.
Çox da yarım kasıbdı,
Əhdim var, boşanmanam.

Dağlarda gözüm qaldı,
Bulaqda izim qaldı.
Gedirəm həsrətliyəm,
Ürəkdə sözüm qaldı.

Dağların qarı mənəm,
Gün vursa ərimərəm.
Qəbrimi qüzeydə qaz,
Cavanam, çürümərəm.

Dalğalandı,
Yel əsdi, dalğalandı,
Dəydi namərd gülləsi,
Qan axdı, dalğalandı.

Dam tikdim – yalan oldu,
Ömür-gün talan oldu,
Nə dəyəmi bərkidən,
Nə keçəmi salan oldu.

Dan yeri söküləndə,
Zülf üzə töküləndə,
Şeh qonmuş gülə bənzər,
Ağ üzdən öpüləndə.

Dar gündü, dedim, dağlar,
Hər dərdi yedim, dağlar.
Yardan bir xəbər verin,
Mənə rəhm edin, dağlar.

Daşa çalar,
Qar yağar, daşa çalar,
Yemə namərd nanını,
Qaytarıb daşa çalar.

Daşdı canı,
Kəkliyin daşdı canı,
Dərdi pünhan çəkirəm,
Deyirlər daşdı canı.

Dediyim demiş olaydı,
Yediyim yemiş olaydı.
Mən getdiyim qapının,
Dəstəyi gümüş olaydı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dəyə-dəyə,
Qurulub dəyə-dəyə,
Qapına dada gəldim,
Daşlara dəyə-dəyə.

Dərd götürdü dərdləndim,
Dərddən qar tək ələndim,
Anam, özünü yetir,
Yetim oldum təkləndim.

Dəsmal asdım dirəkdən,
Bir qız sevdim ürəkdən,
Məni yardan edənin,
Əli düşsün biləkdən.

Dolu gözlər,
Dolu döş, dolu gözlər.
İstəkli yarı olan
Yer salar, yolu gözlər.

Düyə damı,
Tikməyə düyə damı,
Nə nökər tək haqq aldım,
Nə oldum öy adamı.

Düşən yeri,
Atlanıb düşən yeri,
Göz yaşım oda dönüb,
Yandırır düşən yeri.

Elə yağı,
Kəməndi el ayağı
Düşmən mənə bir yağı,
Sən də oldun elə yağı.

Elə yeri,
Elə sallan, elə yeri,
Bülbül ötməz, gül bitməz,
Dağılsın elə yeri.

Eləmi, ayda tutdum,
Badyanı çayda tutdum,
O qədər fənihdirdin,
Sənə də qayda tutdum.

Eləmi, asan dağlar,
Qar örtüb basan dağlar,
Yetim çətin gülsə də,
Ağlasa asan ağlar.

Eləmi, qalam qardaş,
Dərdinə qalam, qardaş.
Top atıldı, bürc sındı,
Uçuldu qalam, qardaş.

Eləmi, İrəvana sarı,
Yollar İrəvana sarı
Kəs başımı qanım axsın
Qədrimi bilənə sarı.

Eləmi, yanar gedər,
Əlində fanar gedər,
Əli alçaq olandan
Dostu da kənar gedər.

Eləmi, yurdu üstə,
Barama qurdu üstə,
Hər kəsin öz övladı,
Dolana yurdu üstə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eləmi, kamanıdı,
Qaş gözün kamanıdı.
Gizlətmə ay üzünü,
Dərdimin dərmanıdı.

Eləmi, nəziy ağlar,
Gəzməyə nəziy ağlar.
Məni anam ağlasın,
Yar məni nəziy ağlar.

Eləmi, ötərəm mən,
Gül olub bitərəm mən,
Ya sizdə can verərəm,
Ya yara yetərəm mən.

Eləmi, sərin ayaz,
Dərs oxu, sərinə yaz,
Dosta gələn qadanı
Düşmənin sərinə yaz.

Endim bulaq başına,
Dizim qoydum daşına.
Özüm qurban, el qurban
Qaynımın qardaşına.

Eşdim-eşdim qum çıxdı,
Qumdan minara çıxdı.
Bildirki sınıq köylüm
Bu il kənara çıxdı.

Əzən yeri,
Mollanın əzən yeri
Kor olub görməyəydim
Sevgilim gəzən yeri.

Əzizim, ayaz olmaz,
Buludu, ayaz olmaz.
Mən ki, qəm tapdağıyam,
Qəm məndən ay az olmaz.

Əzizim, ay məməndən,
Tər axar ay məməndən,
Olaydım qış quzusu,
Əməydim ay məməndən.

Əzizinəm anam ağlar,
Günümü sanar ağlar.
Donu göy göyərçinlər
Qəbrimə qonar ağlar.

Əzizim, anan olmaz,
Küsdürsən anan olmaz.
Canı yanan olmasa
Adını anan olmaz.

Əzizim ağlağandı,
Qaraxaç, Ağlağandı.
Gedək dərdli yanına,
Görək kim ağlağandı.

Əzizim, arı şanda,
Beçələr arı şanda.
Mələklər şadlıq edər,
İki yar barışanda.

Əzizim, belə baxdı,
Neylərəm belə baxtı.
Heç kəsnən işim yoxdu,
O baxan belə baxdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzizim, bir-bir düşər,
Ox yaydan bir-bir düşər.
Qürbətdə keçən günlər
Ömürdən bir-bir düşər.

Əzizim, qanadından
Qan gedir qanadından.
Fikrim gəzən yerləri
Quş gəzməz qanadınnan.

Əzizim, Qarabağı,
Qış tutar qara bağı.
Bir tərlan itirmişəm
Boynunda qara bağı.

Əzizim, Qaracalar,
Ağ çalar, qara çalar.
Elə gözəl sevmişəm
Yanağı qara çalar.

Əzizim, yaman oxlar,
Yaman yay yaman oxlar,
Çirkinin kamandarı
Gözəldən yaman oxlar.

Əzizim, yarı gördüm,
Çox baxdım – yarı gordüm.
Dünyada əhdinə düz
Yüzdə biz yarı gördüm.

Əzizim, yolda qala,
Tikilməz yolda qala.
Mərd mənzilinə çata,
Namərdsə yolda qala.

Əzizim, işin düşər,
Gediş-gəlişin düşər.
Yemə namərd çörəyin,
Ağzında dişin düşər.

Əzizim, yada saldı,
Düşmənə, yada saldı.
Dedim ki, qəmdən qurtar,
O gəldi oda saldı.

Əzizim, gözdən mən,
Qoruyun gözdən məni.
Hamıya baxan xuda
Salıbdı gözdən məni.

Əzizim, gündə yara,
Hoy çəkər gündə yara.
Yaxşı həmdəmim ola,
Bağrımı gündə yara.

Əzizim, maralım yar,
Gözüm yar, qəralım yar.
Necə rəva görürsən,
Gün təki saralım, yar.

Əzizim, mən yazığı,
Yazginən mən yazığı.
Dərd verən dərman da ver.
İncidir mən yazığı.

Əzizim, nədən gəlmir,
Qürbətə gedən gəlmir.
Hamı gedənlər gəldi,
Yar gedib, nədən gəlmir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzizim oda baxdı,
Düşündü, o da baxdı.
Elə bildim bir mənəm,
Gəzirdi o da baxtı.

Əzizim, o da yandı,
Mən getdim, o dayandı.
Ayrılığa dözmədi,
Kərəm tək oda yandı.

Əzizim, o damaqda,
Mən dəmdə, o damaqda.
Mən ona yalvarmaqda,
O məni budamaqda.

Əzizim, oyma məni,
Nar kimi soyma məni,
Gəl öz kölgəndə saxla,
Pis günə qoyma məni.

Əzizim, ötmək olmaz,
Köhləni ötmək olmaz.
Elin atdığı daşı
Yerdən tərpətmək olmaz.

Əzizinəm, adalar,
Evlər yıxar ədalar.
Ağılsız ad batırar,
Ağlı olan ad alar.

Əzizinəm ayazdı,
Ulduz çıxdı, ay azdı.
Kimiyə qış yay olur,
Kimiyə yay ayazdı.

Əzizinəm, anamı,
Yada salıb, anamı.
Xəstə könül can istər,
Mən istərəm anamı.

Əzizim, qoru yandı,
Qəlyanı, qoru yandı,
Gəl öldürmə bağbanı,
Sənə gül qoruyandı.

Əzizinəm, dan yeri,
Qızarıbdı dan yeri,
Burda bir cavan yatır,
Bir az astadan yeri.

Əzizim, dərd əlindən,
Oysandım dərd əlindən.
Fələk mənə dərd verdi,
Bir cavan mərd əlindən.

Əzizinəm, düz dərə,
Ola bilməz düz dərə.
Əyrilər quyu qazar
Yer üzündə düzdərə.

Əzizinəm, düz əlli,
Sayan saydı yüz, əlli,
Dolanmaq asand olar
Hamı olsa düz əlli.

Əzizinəm, dür burdan,
İnci burdan, dür burdan,
Elə yerdə otu ki,
Deməsinlər dur burdan!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzizinəm, dürüst din,
Dürüst məzhəb, dürüst din.
Məclisdə lal ol, dinmə,
Dinirsənsə dürüst din.

Əzizinəm yara sarı,
Məlhəm gətir yara sarı.
Yüz iyirmi yaram olsun,
Sürünərəm yara sarı.

Əzizinəm, göyəm gəz,
Bağda bitər göyəm gəz.
Nə fələyə bel bağla,
Nə övlada güvən gəz.

Əzizinəm, oyandı,
Yatmış idi, oyandı.
Sinəmdə yanan odu,
Sən söndürdün, o yandı.

Əzizinəm, mən yetim,
Sən dədəli, mən yetim.
Özün muraza yetdin,
Dua qıl ki, mən yetim.

Əzizinım, nə qara,
Nə ağ gördüm, nə qara.
İndi köçüb gedirəm,
Getdiyim yer nə qara.

Əzizinəm, sarı qız,
Qayıt bizə sarı qız.
Aç belindın qurşağı,
Cənazəmi sarı qız.

Əzizinəm, söysənə,
Yaşım çatır səysənə.
Yaxşı din, deməsinlər
İtil burdan, səysən, ə!

Əzizinəm, səs eylər,
Quşlar uçar, səs eylər.
Yar əlindən dərdliyəm,
Bu dərd mənə bəs eylər.

Əzizinəm, sim ağlar,
Saz inildər, sim ağlar,
Sən öldün, mən ağladım,
Mən ölsəm, bəs kim ağlar?

Əzizinəm, hay məni,
Həşir məni, hay məni.
Fələk, sənə neynədim,
Tapdı yenə vay məni.

Əzizinəm, harayçı mən,
Küyçü mən, harayçı mən.
Məmələr döyüşəndə,
Olaydım harayçı mən.

Əzizinəm, həm qana,
Bu yol gedir həmqana.
Oğul ona demişəm
Həm qandıra, həm qana.

Əzizinəm çən gələ,
Duman gələ, çən gələ.
Bir kimsədən kömək yox,
İşim düşüb əngələ.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzizinəm, filan kəs,
Bir qulaq as, filankəs,
Elin xeyir-şərindən,
Kim deyir gen dolan-gəz.

Ələklər, ay ələklər,
Çirmənib ağ biləklər.
Düşmənə xəbər olsun
Hasil olub diləklər.

Əlində bayda tutar,
Baydanı çayda tutar.
Yığılar qohum-qardaş,
Hərə bir qayda tutar.

Əlində hol oynadar,
Cibində pul oynadar,
Kül başına, ay oğlan,
Qızı qoyub, dul oynadar.

Əsdi fələk,
Dilimin dostu fələk,
Harda çadırmı qurdum,
Tənəyni kəsdi fələk.

Əsən yellər,
Yolumu kəsən yellər,
Açım, qoynuma dolsun
Üstündən əsən yellər.

İncidi,
Ya ləldi, ya incidi,
Yüz gözələ söz atdım,
Tək gözaltım incidi.

İrəvan çini-çini,
Öpəm ağzın içini.
Gedibdi, gələcəkdi
Qoynumun göyərçini.

İstəkanım qannıdı,
Toxunma dərmannıdı,
Burda bir qız sevmişəm
Anası Şirvannıdı.

İt yatar, oğru gələr,
Gör, kimə doğru gələr,
Yad döy, yabançı döyül,
Öz xalam oğlu gələr.

Yara bağlar,
Yar çəkər, yara bağlar.
Gözlərim qan ağlayır,
Ürəyim yara bağlar.

Yara mənnən,
Öt bülbül, yara mənnən.
Nə sənnən ox tükəndi,
Nə bitdi yara mənnən.

Yaradan var,
Quran var, yaradan var,
Təbib, dəymə yarama,
Məndə hər yaradan var.

Yaxanda büz ilməni,
Üstündə düz ilməni,
Vəfalı yar yad olmaz
Görməsə yüz il məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yediyin yemiş olsun,
Dediyin demiş olsun,
Söykəndiyin dirəklər
Qızılnan gümüş olsun.

Yetim öldü götürün,
Kənd arası ötürün.
Yetimin yox xəbərin,
Dost-aşnaya yetirin.

Yüz incidi,
Yüz sədəf, yüz incidi.
Yanağında bir xal var,
Qiyməti yüz incidi.

Yük üstündə kilim var,
Kilim üstə dilim var,
Ay qara qurşaq oğlan,
Qurşağında gülüm var.

Kavab ağlar,
Od yanar, kavab ağlar,
Yarı yardan ayıran
Şümr olar, gava bağlar.

Keçəlin ala baxdı,
Aldı güzgüyə baxdı.
Özünkünü ört-basdırdı,
Bizimkini başa qaxdı.

Kəhər atın kəkili,
Üstə ipək çəkili,
Oğlan sevir, qız gedir,
Kimdi onun vəkili?

Kimə gedim,
Kimim var kimə gedim?
Dərdi verən xudadı,
Dərmana kimə gedim?

Kim sənəm var,
Kimim var, kimsənəm var.
Nə mən kimin kimsəsi,
Nə mənim kimsənəm var.

Küşvərəni bükmüşəm,
İsti suya tökmüşəm,
Gəldiyim bir ay deyil,
Qayınanamı döymüşəm.

Gedənə bax, gedənə
Gedən nəzik bədənə,
Üç arşın boya qurban,
Yarım arşın gərdənə.

Gədə dərdi,
Çəkdiyim gədə dərdi.
Zəhmət çəkdim, gül əkdim,
Dərmədim, gədə dərdi.
Gədə dərsin,
Oxumaz gədə dərsin.
Oxumaz vecsiz gülləri
Hər yetən gədə dərsin.

Gözdə nəm,
Görünməsin gözdə nəm.
İtiyimi tapmasam,
Koram, iki gözdənəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözlərimdə pərdə mən,
Qafil düşdüm dərdə mən.
Öyrəndim sinən üstə
Necə yatım yerdə mən.

Göy bağlar,
Göy bağçalar, göy bağlar,
Bu yerin gözəlləri,
Ağ buxağa göy bağlar.

Göydə ulduz tək gedər,
Gah əyləşər, gah gedər.
Qorxma, ürəksiz oğlan,
Üstündə Allah gedər.

Güzgü atdım bayıra,
Şoxu düşdü çayıra,
Bura yığışan qızlar,
İşiniz dönsün xeyirə.

Gündə keçər,
Ay keçər, gün də keçər.
Bir dərdə tutulmuşam,
Çırağım gündə keçər.

Günü gəldi,
Ağlamaq günü gəldi,
Bulud inada düşdü,
Üstümə günü gəldi.

Maralam dağ gəzirəm,
Bülbüləm bağ gəzirəm.
Yüz yerdən yaralıyam,
Deyillər sağ gəzirəm.

Maralı qoyma,
Ovçu, maralı qoyma,
Gedirsənsə pünhan get,
Hoydu, yaralı qoyma.

Maralım,
Elçim getsin, maralım.
Gəlməsən ilan göndər,
Ondan zəhrimar alım.

Marallar gələr keçər,
Dumanı dələr keçər.
Oğulsuz bir ananın
Qəlbindən nələr keçər.

Mən aşiqəm, baxtı kəm,
Bağbanım yox bağ tikəm.
Mən fələyə neylədim,
Fələk mənə baxdı kəm.

Mən aşıq, yarımgilə,
Qan qalıb yarım gilə.
Tanrı səbəb olaydı,
Gedəydim yarım gilə.

Mən aşıqəm küs sənə,
Gül sənə, sünbül sənə,
Yüz dəfə ağlamasan,
Bircə dəfə gülsənə.

Mən aşıq, sona yeri,
Göllərdə sona yeri.
Yüz yannan yanan olsa,
Verəmməz ana yeri.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən aşiqəm kamana,
Bu tara, bu kamana.
Yaxşı yaxşıya gedir,
Yaman qalır yamana.

Mənim yarım yaxşıdı,
Yaxşıların başıdı.
Atlananda bəy oğlu,
Düşəndə yüzbaşıdı.

Mərd atası,
Doldur ver mərdə tası.
Namərd oğul mərd olmaz,
Olmasa mərd atası.

Min oxu,
At kamanla min oxu,
Bilənə bir pərdə çal,
Bilməyənə min oxu.

Mülkü qardaş,
Geyibsən kürkü, qardaş,
Qıraqda şir olursan,
Öyündə tülkü, qardaş.

Nağıl-nağıl nağılbaz,
Qara inəyim sağılmaz.
Bağa girdi, çıxmadı
Buna bircə dua yaz.

Namərd əli,
Heç tutma namərd əli,
Mərd əli evlər tikər,
Ev yıxar namərd əli.

Nənəm, a gəlin qoyun
Quzuna təlin qoyun.
Yiyən sənin dərdindən
Gətirib gəlin, qoyun.

Nənəm, a urdu qoyun,
Otdadı, durdu qoyun.
Zil qarannıx gecədə
Görübdü qurdu qoyun.

O dağda gəzdim gəldim,
Daşını düzdüm gəldim.
Yarı beybafa gördüm,
Əlimi üzdüm gəldim.

O dumanlar,
O çənlər, o dumanlar,
Dərd ki, məni yandırdı,
Külümdə, oy, dumanlar.

Oğlan eylədi nalə,
Əlində var piyalə,
Məndən eyini gördü,
Düşdü özgə xəyalə.

Oydun məni,
Nar kimi soydun məni.
Nə kölgəndə yaşatdın.
Nə bir günə qoydun məni.

O görünən Ağdamdı,
Qara damdı, ağ damdı,
Yar yoluna baxmaqdan,
Gözlərimə ağ damdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O toyda quzu gördüm,
Tükü qırmızı gördüm.
Çıxdım çinar başına,
Sevdiyim qəzə gördüm.

Oxu mənnən,
Sən yara oxu mənnən,
Ox vurdun yaraladın,
Barı çək oxu mənnən.

Öy ağlasın,
Yağıyı söy, ağlasın,
Belinə qılınc qurşa,
Döy oğlu döy ağlasın.

Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi,
Vətən viran olsa da,
O cənnətdən gözəldi.

Saya dağlar,
Quş uçdu saya dağlar,
Tor qurub ov qaçırdı,
Gördüm bir sayad ağlar.

Samovarım qızırdı,
Altından su sızırdı.
Mən sevdiyim oğlanın
Qabaq dişi qızıldı.

Sandıq üstə gəzərəm,
Sandığa gül düzərəm.
Ağır elin qızıyam,
Qəribliyə dözərəm.

Sadaxlıyam, mərdəm mən,
Vəfalıyam hər dəm mən.
Dostlarıma can qurban,
Düşmənlərə dərdəm mən.

Sadaxlıda yaz yaxşı,
Payız yaxşı, yaz yaxşı.
Kimdə nə var bilmərəm,
Məhəmməddə saz yaxşı.

Səksəndilər,
Yüzdülər, səksəndilər,
Kənddən qız qaçırıldı,
Subaylar səksəndilər.

Sinə nar,
Yanaq alma, sinə nar,
Qorxuram ki, göz dəyə,
Alma sala, sinə nar.

Sözün demə tərsinə,
Tər təni qoy tər sinə,
Su öz səmtinə axır,
Dövran gedir tərsinə.

Sığıra verim sağrını,
Yeyim qara bağrını,
Sığırçılar almasa,
Özüm alım ağrını.

Suvar gəl,
Dəhnəmizdə su var, gəl.
Buluda bel bağlama,
Bostanımı suvar, gəl.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Su gəlir zimi-zimi,
Xəzəl örtüb üzünü.
Nolaydı ölməyəydim,
Görəydim yar üzünü.

Təkərim,
Öz köçüm, öz təkərim,
Qardaşlılar qayıtdı,
Harda qaldı tək ərim?

Ustadı,
Bilmişdikdə ustadı,
At görəndə axsadı,
Su görəndə susadı.

Üzdü qeylü-qal məni,
Hərdən yada sal məni.
Mən səni mərd bilmişəm,
Namərd olma, al məni.

Üzüyüm-üzüyüm laxladı,
Xalama verdim, saxladı.
Toy günü, bayram günü
Yar bizi qonaqladı.

Üzüyü atdım bayıra,
Şoxu düşdü çayıra.
İtənlər də tapılsın,
İşlər dönsün xeyirə.

Ürəyim ah bulağı,
Gözlərim şah bulağı.
Qürbətdə yar sevənin
Qara gəlsin duvağı.

Üstü qönçəli dağlar,
Dibi yoncalı dağlar,
Qürbət elə gedənlər,
Sizdə dincəli, dağlar.

Fələk kəsdi aranı,
Başa saldı qaranı,
Özün minnət etməsən,
Soyunmaram qaranı.

Xara bağlar,
Al geyək, xara bağlar,
Qoy məni yar ağlasın,
Özgələr xarab ağlar.

Xoruz ban verən yerə,
Yara qan verən yerə,
Ana gəlsin yetişsin,
Oğul can verən yerə.

Hay sallam, dada gəlləm,
Sirr vermə yada, gəlləm.
Ağlama, xumar gözlüm,
Ya ölləm, ya da gəlləm.

Haray ellilər, haray,
Şana tellilər, haray.
Köçümü sel apardı,
Əli bellilər, haray.

Hacı Alı,
Hac köynəyin hacı alı,
Atam Hacı Əmirastan,
Ulu babam Hacıalı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Henişdən, ha henişdən,
Üzəngisi gümüşdən,
Qardaşa şax bəzərəm
Əlli lövün yemişdən.

Həvə qardaş,
Qurulub gəvə, qardaş.
Anama oğul oldun,
Atama nəvə qardaş.

Çalaram mən,
Oynaram, çalaram mən,
Bir yaxşının hayfını
Min zalımdan alaram mən.

Ceyran çölə dolan gəl,
Sonam, gölə dolan gəl.
Yad ellərdə dözməsən
Bizim elə dolan gəl.

Şam ağlar,
Piltə yanar, şam ağlar.
Qəribin qürbət eldə,
Qəbrində şam ağlar.

Şamdüyə, başın yansın,
Torpağın, daşın yansın.
Məni yardan edənin
Ürəynin başı yansın.

Şamdüyənin başı yansın,
Ətəyinin daşı yansın,
Məni yardan ayranın
Ürəynin başı yansın.

Şaftalıyam, dəyməmişəm,
Qanadımı əyməmişəm.
Quran gətirin and içim,
Mən bu qıza dəyməmişəm.

Şaftalıyam, kalam mən,
Dilim yoxdu, lalam mən,
Qonşumuzda üç qız var,
Pulum yoxdu, alam mən.

## Ağılar

Aşıq ay, günü burda,
Dolan say, günü burda,
Qəbrinə çəpər ollam,
Qallam yay günü burda.

İrəfə düzdüm kasa,
Əlimə aldım hasa.
Öldün düşmən sevindi,
Yığıldı gəldi yasa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XIV. AŞIQ RƏVAYƏTLƏRİ

## ŞAİR AĞACANIN «QIRMIZI» DİVANİSİ

Günlərin birində Quşçu Aşıq İbrahim Körpülüdə Aşıq Hüseyn Bozalqanlı ilə qabaqlaşır. Orada İbrahim Ağacanın bir-iki kəlmə sözünü oxuyur. Aşıq Hüseyn Bozalqanlı onun cavabında «Qırmızı» üstündə bir divani oxuyur. İbrahim isə ona cavab verə bilmir.

Toy qurtarır. İbrahim ustadı Ağacanın yanına gələndə deyir:

-Ustad, mən səndən nə qədər dərs almışamsa, yenə də acizəm.

Ağacan soruşur:

-Niyə, oğul?

İbrahim deyir:

-Sənin bir «Qırmızı» təcnisin var, onu oxudum. Bozalqanlı Aşıq Hüseyn mənə cavab verdi, bundan sonra bir «qırmızı» divani oxudu mənə. Mən onun qarşısında aciz qaldım. Nə təhər ola bilər ki, mən neçə ildi səndən dərs alıram, bu rədifdə, bu rəngdə məndə divani olmasın.

Ustad cavab verir ki, oğul, aşıqlığın yolları hələ çoxdu. Aşığın gərək hər bir şeydən məlumatı, biliyi olsun. Səndə gərək bir neçə rədifdə divanilər, təcnislər olsun ki, sən yoldaşın qarşısında aciz qalmayıb, cavab verə biləsən. Zərər yoxdu, yazıram, bir də yeri düşəndə oxuyarsan.

İbrahim qələmi götürür, ustad «qırmızı» üstündə divani deyir:

Əzəl başdan nur yaratdı qadir sübhan qırmızı,
Aya-günə qərar qoydu, oldu asman qırmızı.
Əmir oldu mələklərə, səcdə etdi Adəmə,
Ayə gəldi Məhəmmədə, endi Quran qırmızı.

Götürübən bir dəstindən, atdı bağlı heybəni,
Ərşin-gürşün səmavəti, yerin-göyün ləngəri.
Adı Bülbül, qolu qənbər Leylim dillər əzbəri
Din islama şəfa verdi, şahi-mərdan qırmızı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şair Ağacan, nəzər qıl sözün doğru sazına,
İbrahimxəlil İsmaili çəkdi Mina dağına.
Haqq yolunda qurban üçün vədə qıldı oğluna,
O xudadan əmir oldu, gəldi qurban qırmızı.

Oğul, dedi, bu da sənin «Qırmızı» divanin, hansı məclisə düşəndə oxu, özgə məndən nə istəsən, baş üstə hazırdı qocaman ustadın.

## ŞAİR AĞACAN QARAÇÖPDƏ

Tuthatut dövründə hökumət mollaları da incitməyə başlayır. Şair Ağacan da Quran oxuyarmış. Onu da molla adlandıraraq tutmaq istəyirlər. O qaçıb Qaraçöpə gedir. Oraya gedən vaxtı iş elə gətirir ki, keçmiş şagirdi Aşıq İbrahimlə Aşıq Məsim orda toyda olurlar. Bu vaxt onlar şair Ağacanın şerlərini oxuyurlar. Camaat maraqlanır ki, bu adı çəkilən Ağacan kimdi, haralıdı. Aşıq İbrahim cavab verir ki, o mənim ustadımdı, özü də Borçalıdandı. Camaat maraqlanır ki, bəs necə ola bilər ki, Borçalıda belə bir ustad sənətkarın sədasını alaq, adını eşidək, üzünü görməyək.

Belə qərara gəlirlər ki, şairi öz ellərinə qonaq çağırsınlar. Aşıq İbrahimlə Aşıq Məsim söz verirlər, böyük hörmətdən sonra onları yola salıb, həsrətlə şair Ağacanın yolunu gözləyirlər.

Elə həmin vaxtlar şair Ağacanın Quran əhli olduğuna görə incitdikləri üçün baş götürüb Qaraçöpə getdiyi günlər idi. Bu vaxt şair heç kimi tanımır, heç kim də bilmir ki, bu, şair Ağacandı. Köhnə paltarla Qaraçöp camaatının arasına daxil olur. Baxır görür ki, bir qapıda böyük bir yığıncaq var. Şair öz-özünə fikirləşir ki, kaş xeyir iş olaydı. Bu şair tayfalı, aşıq tayfalı sənətkarlar həmişə xeyir iş sevər. Yaxınlaşanda görür ki, bəli, xeyir işdi. Şükür-sənasını yerinə yetirib bir tərəfdə əyləşir. Bir nəfər görür ki, qərib adamdı. Deyir:

- Əmi, kənarda durmayın, buyurun süfrəyə gəlin.

Çaydan-çörəkdən sonra deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

-Bağışlayın, toy damı var. Aşıqlar oxuyur, istəyirsən ora get, istəmirsən bayırda toya qulaq as.

Ağacan cavab verir:

-Oğul, mən ağsaqqal adamam, elə aşıqlar məclisinə aparın.

Kişi gəlir məclisə daxil olur, baxanda görür ki, Qaraçöp camaatı dolubdu otaqlara, yer yoxdu. Qapının arxasında özünə birtəhər yer eləyir, aşıqlara qulaq asır. Baxır ki, cavan aşıqlar oxuyurlar, aşığın biri söz tapmır ki, camaatı güldürsün. Odur ki, o hərlənib gəlir şair Ağacanın yanına, ona sataşır. Ağacan baxır ki, buna sataşdılar, qəriblik bir yandan, heç kimi də tanımır, bir də ki, dostlarından aralı düşüb. Bu zaman bir ağsaqqal dillənir:

-Oğul, səni gətirmişik məclisi yola salasan, gətirməmişik ki, gələn camaata lağ eləyəsən. O kişi qərib adamdı, gəlib bura çıxıb.

Bunu eşidən Ağacanın ayağı yer alır. Deyir mən tərəfə də danışan oldu, görəsən bu kimdi, bundan icazə alıb bir kəlmə söz deyim. Bu vaxt ayağa qalxır, soruşur:

-Ay kəndxuda, başına dönüm sənin, bu yerlisənmi?

Deyir:

-Bəli.

Ağacan deyir:

-Mənim tərəfim ol, mən qərib adamam, gəlib çıxmışam bura, heç kimim yoxdu.

Həmin adam cavab verir ki, a kişi, bu nə sözdü, qərib düşmüşəm, bu kənd, bu kəsək, hamımız, Allaha şükür, müsəlman döyülükmü, kimdi sənə bikar bir söz deyən, sənin xətrinə dəyən.

Ağacan elə orda götürüb deyir:

Baxginən fələyin bərk sitamına
Mərd yerini namərd aldı, ay hayıf.
Aşıq deyər, ay hayıf,
Kimdi gülən, ay hayıf,
Getdi daha qalmadı
Qədir bilən, ay hayıf.
Qədir bilən, şirin gülən dostları
Fələk vurdu ayrı saldı, ay hayıf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məcnun Leyli deyib gəzər o dağı,
Sinəmdədi müxənnətin o dağı,
Aşıq deyər o dağı,
Məcnun gəzər o dağı.
Qanlı fələk boş qoydu,
Çox eyvanı, otağı.
Fərhad Şirin deyib çapdı o dağı,
Cəfa çəkdi, nakam qaldı, ay hayıf.

Şair Ağacan, istə haqdan köməyin,
Haqdan qeyri kimdi sənin köməyin?
Aşıq deyər köməyin,
İstə haqdan köməyin.
Namərddən kömək gözləmə.
Gözlə mərddən köməyin.
Əbəs yemə namərd alan çörəyi,
Qaytarıb başına çaldı, ay hayıf.

Ağacan adını eşidəndə həmin ona kömək çıxan adam ayağa qalxır, deyir bir il əvvəl bizim kənddə iki cavan aşıq oxuyurdu. Birinin adı Aşıq İbrahim idi, o birininki – Aşıq Məsim. Sənin adını çəkdilər. Deyilən Borçalı şair Ağacan sən-sənmi? Deyir, bəli, mənəm, danmağın yeri yoxdu. Deyir, a kişi, səni biz göydə gəzirdik, yerdə əlimizə düşübsən. Xoş gəlib səfa gətirmisən. Qaraçöp mahalında sənə böyük hörmətlər olacaq. Ayrı bir şeyin varmı, başına dönüm sənin. Deyir, icazə olsa, birini də deyərəm. Buyurun deyirlər. Götürüb həmin cavan aşığa deyir, oğul, bir yerə ki getdin, bir adamı tanımırsan, bir adamı bilmirsən, görmədiyinə, tanımadığına, bilmədiyinə sataşma, bikar söz demə.

Götürüb deyir:

Əhli ustad məclisində aridən urhan durur,
Kimi alçaq, kimi yüksək, hər cürə insan durur.
Çarələr dəmdərgahını kəsdiyim oldu aşkar,
Fələk mənə qara baxdı, indi bu cavan durur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Düşdüm zülmət qalasına, dəryalardan bac aldım,
Bac vermədim heç kimsəyə, baş əymədim, ucaldım,
Çərxi-fələyin işidi, bir gör nə günə qaldım,
Üçnən-dördü anlamayan qarşımda nadan durur.

Urvatdan gəc olanları noxtaladım, çulladım,
Ağzı maftar olanları dilindən qıfılladım.
Çəkdim ərəbi-farsa da əlifbey sualladım,
Seyraqıb, çıxma aradan, gözümə şeytan durur.

Ağacan, cənnətə ziynət hansı gül budağıdı?
Yenicə gəlib əcəl təri, yaman müşkül çağıdı,
Elə sanki bu meydan bir ərəsət ayağıdı,
Qəbir durur, zindan durur, ədalət, divan durur.

Aşığın biri cavab verir ki, ay ustad, başına dönüm, bağışla, bilməmişik, sən də qocalıbsan. Xətrimizə dəymə. Qoca sözünü şair eşidib daha da qəmgin olur. Odu ki, «bəhri-divaniyi» çalır, ayağa qalxır, deyir:

Qocalmışam, dünya mənə nə lazım innən belə,
Xoş getmir zimistanım, nə yazım innən belə,
Mən ki oldum bir turanə, əldən gedir sənətim,
Uyğun gəlmir sinəm üstə bu sazım innən belə.

Bir zaman ki, cavan idim, hamı deyirdi bəli,
Oğul-uşaq baxmır sözümə, daha deyirlər dəli,
Özün yetiş harayıma, ya şah, ya mərdan Əli,
Çəkən olmaz innən belə, nə lazım innən belə.

Cavanlıq bir keçən gündü, daha düşməz əlimə,
Diz tutulub, qulaq batıb, ağrı gəlib belimə,
Şair Ağacan, tarix çatdı, vədə gəldi ölümə,
Qoy qazılsın bir səhrada məzarım innən belə.

Oğul, deyir, aşıqsınız, ustaddan dərs alıbsınız, bir məclisdə bacarın mərifətli dolanın, söz-söhbət edin, yaxşı şeirlər deyin, xalq «afərin!» desin. Lağ eləməyin, bunun daşını atın. Mənə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dolaşmazsınız, elə bir adama dolaşarsınız ki, gəldiyinizə peşiman olarsınız. Götürüb bir şeir də deyir:

Urufatın, bəzirganın xudaynan işin nədi,
Əlifbeyi oxumamış hecaynan işin nədi,
Xalqalanıb, vurğalanıb, çox da öymə kəndini,
Hələ sən ki, bir cocuqsan, qocaynan işin nədi?

Götür sazı, al dəstinə, sən ki, gəldin meydana,
Həqiqətdən, urufatdan danış görüm mərdana,
Uca dağam çovğunum var, səni sallam borana,
Alçaqları məskən eylə, ucaynan işin nədi?

Ağacanın sözlərini saxla adda vəsiyyət,
Ver qadağa sən dilinə, məndən eylə nəsiyyət,
Qürrələnmə hər məclisdə sən eyləyibən adət,
Gündüz düzdə gəzəmmirsən, gecəynən işin nədi?

Cavan aşıq elə bil dediyinə peşiman oldu. Ay usta, dedi, başına dönüm, bağışla bizi, işdi oldu, ağzımızdan çıxdı. Daha bundan sonra böyük ustadımızsan, böyük ağsaqqalımızsan. Bir də heç bir məclisdə bir insana sataşmarıq, bekar bir söz danışmarıq. Elə bil həm ustadımız, həm də atamızsan. Səndən də bu dərsi aldıq. Bağışla, tanımamışıq.

Onun üçün yerbə-yerdən camaat kişiyə böyük nəmər, böyük xələt verir. Ona qaydası ilə hörmət edirlər. Şair Ağacan sağ-salamat qayıdıb gəlir Borçalıya.

## FAXRALI ŞAİR NƏBİ İLƏ AŞIQ HEYLİ

Dostlarından biri şair Nəbiyə deyir ki, pulum çatmır, mənimlə şərik ol, kömür düzəldib sataq. Şair razılaşır, dostu işləri qaydaya salıb kömür alverinə başlayır. Kömürün çoxunu nisyə alan tiflislilər onu aldadırlar, get-gələ salırlar. Şair Nəbi borcunu istəməyə gedir, onu da başlarından eləyib yola salırlar. Kor-peşman geri qayıdan şair Meydandan keçərkən aşıq səsi eşidib meyxanaya daxil olur. Meyxanaçı onu xam



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

adam hesab edib dolamağa başlayır. Elə ki, bir azdan onun şair Nəbi olduğunu bilir, məclisdə olan bir aşıqla tanış edir. Aşıq saymazyana qayıdır ki:

-Eləsindən sinəmdə otuzu yatır!

Şair Nəbi onun yekə qarnını dümsükləyib cavab qaytarır:

-Burda yeddi boyun camışın bir qışlaq samanı yatır.

Meyxanaçı araya nifaq düşəcəyini hiss edib şair Nəbiyə məsləhət görür:

-O Cənubi Azərbaycandan gəlmiş məşhur aşıq Heylidi, üzr istə.

Şair Nəbi özünü sındırmır. Bunu görən lotular onu incidirlər. Belə ağır məqamda şair Nəbi Qızılhacılı Ceyrə oğlu Qaranı yadına salır.

Hardan alım Ceyrə oğlu Qaranı,
Çəkə xəncərini, kəsə aranı.

Sən demə, Qara da Meydanda imiş. Xəbər ona çatanda özünü yetirir, lotuları pərən-pərən salır, meyxanaçıya möhkəm qulaqburması verir. Sonra şair Nəbidən gəlişinin səbəbini soruşur. Şair Nəbi kömür əhvalatını dnışır. Qara şair Nəbiyə ürək-dirək verib Aşıq Heylini göstərir:

-Onunla deyişərsənmi?

Şair Nəbi deyir:

-Sənin kimi arxam var, niyə deyişmirəm.

Nəbi sazı Heylinin əlindən alıb oxumağa başlayır:

Bu gün bir şəhərə vardım, çahardı başdan əzəl,
Aləmindən xəbər verim, hər biri üçdən əzəl.
Həqiqətdən bir söz deyim, rəml at, yet yerinə,
Kərəmindən oda yandı, gəl oldu daşdan əzəl.

*Heyli:*

Əvvəl ləini məlum şəriəti tutdu zəlil,
Mərifət olmasına bir dahi yoxdu dəlil.
Adəmə düşmən oldu, istədi yüz min bəla,
Haqq verdi, tələb etdi öz başına getdi zəlil.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Nəbi:*

O kim idi dünyada cəmi qullardan ziyad,
Qələmini götürüb xəttinə vurdu savad.
Yetişmədi elminə, natəmamdı ibadət,
Ruzu-şəb azad olmaz, düşdü ilacdan əvvəl.

*Heyli:*

Çoxları ona tabe oldu, qoydu etiqadını,
Qurulanda şahi məşhur, görərlər fəryadını.
Cəzası cəhənnəmdi, çəkəcək dam odunu,
A bədul abət yanacaq, atəşə atdı Cəlil.

*Nəbi:*

O kim idi hidayətdə kəndi gəzərdi dəstnən,
Arifsənsə dur meydanda, ver cavabını şəstnən.
Şair Nəbidi bu kəlamı sənə deyən qəsdnən,
Aləmini mən bilirəm, de görüm qaçsın əzəl.

*Heyli:*

Aşıq Heyli, qafil olma, dost tutmusan dünyanı,
Çoxlar gördüm mənəm deyib gen açaraq meydanı.
Kamanından karı olmaz, nişana qoydu canı,
Neçə müddət cəng elədi, axırda oldu zəlil.

Söz tamama yetəndə Ceyrə oğlu Qara üzünü məclisdəkilərə tutur:

-Necədi, sinənizə yatdımı?

Yerbəyerdən razılıq eşidilir. Qara bir onluq çıxarıb deyir ki, kim nə qədər bacarırsa, o qədər pul versin. Hansı aşıq bağlasa, onunkudu. Aşıqlar yenidən üzbəüz gəlirlər.

*Heyli:*

O çün gəldin bu meydana, ustadını biləsən,
Gecə-gündüz qəm içində, bilməm haçan güləsən.
Daha yoxdu bu mümkünün, düşdün aslan əlinə,
Sənin üçün əcəb olur, bir təqsirin diləsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Nəbi:*

Bahara bələ məni, bir boranlı qardasan,
Şah yanında şadlıq olmaz, ağla ahu-zardasan.
Yolumsuz cəbəllərin bələdiyəm, gəzmişəm,
Hasarından keçmək olmaz, yan ki, atəş-nardasan.

*Heyli:*

Həm uşaqsan, həm cavansan, mən ustadın, qoymaram,
Həqiqətdən dərs almışam, bir numuda qoymaram.
Hərcayil sözlərin var, səni insana saymaram,
Kəsmişəm ətrafını, cəsədi zindandasan.

*Nəbi:*

Səni kimi çarpanları çuxurlara atmışam,
Hərfin bilməz, söz anlamaz, qul eləyib satmışam.
Neçə qatar karvanım var, oysarından tutmuşam,
Əlin yetməz, ünün çatmaz, yəqin bil ki, gerdəsən.

*Heyli:*

Öz-özünə şair olub tərfi dastan düzübsən,
Bu yolların çilləkəndi, düz cığırdan azıbsan.
Ustadından nakammısan, biyabanda gəzibsən,
İstəsəm qərq eylərəm, yel götürən qalasan.

*Nəbi:*

Təvarixlər cəm eyləyib bu sinəmdə yazmışam,
Bağlayıb bəndərgahın əhdazdarı düzmüşəm.
Abucəddən açarım var, çox xısımlar pozmuşam,
Rey versin sənə tanrı, hara getsən dardasan.

*Heyli:*

Şahmara yaxın getmə, zəhərindən dadarsan,
Hicrandan məşq eyləyib, şərbətindən udarsan.
Bu sövdada karın yoxdu, çox zərərlə gedərsən,
Daha bir də inanmıram, bu Tiflisə gələsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Nəbi:*

Bir zamanda qılınc çaldın, qara bəxtin dönübdü,
İdrakından işıq gəlmir, eşq əsərin sönübdü.
Əcəl quşun pərvaz edib, külahına qonubdu,
Nə ölüsən, nə dirisən, bir zülmətli yerdəsən.

*Heyli:*

Zəid-zəhnin Əflatundur, həqiqətdə yerin var,
Nə qədər cəhd edirəm, cavab verən dilin var.
Neyləsin Aşıq Heyli, köməyində elin var,
Çıxıram bu məclisdən, sən meydanda qalasan.

*Nəbi:*

Şairəm düşüb birdən dəryalara bataram,
Cəsəd üçün çəngəlim var, çox xasımlar tutaram,
Qoyaram bir cam içinə, burulğana ataram,
Səsin gəlməz, sədan çıxmaz, bilən olmaz hardasan.

Aşıq Heyli cavab verə bilmir. Camaat onu huya basanda, o qaçır. Qara şair Nəbiyə deyir:

-Onu elə qaçırtdın ki, indi Arazın o tayındadı. Götür pulları, elə bil ki, kömüründü. Alacağınızdan qat-qat artıqdır, apar kömürçünü sevindir.

## AŞIQ MUSANIN NİKAH ƏHVALATI

Günlərin birində Aşıq Musanı bir məclisə qonaq çağırırlar. Sən demə, Türkiyədən gəlmiş sinli bir əfəndi özündən çox cavan bir qadınla evlənirmiş. Ev yiyəsi əfəndinin, Aşıq Musa da gəlinin vəkili təyin edilibmiş. Adətə görə, hər iki vəkil dizi üstə oturub, baş barmaqlarını söykəyirlərmiş bir-birinə. Oğlan vəkilinin baş barmağı, qız vəkilinindən bir azca hündürdə dururmuş. Molla kəbini kəsəndən sonra oğlan vəkili həmin yuxarıda qalan hissəni bükürmüş, bununla da nikah mərasimi qurtarırmış.

Aşıq Musa ilə ev yiyəsi qaydaya əməl etməyə başlayırlar. Molla hıqqana-hıqqana kəbin kağızını yazanacan Aşıq Musa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yarımcan olur. Ağır gövdəli olduğuna görə kişinin dizləri ağrıyır, qolu sızıldamağa başlayır. Canını dişinə tutub birtəhər dözür, amma ürəyində deyir ki, ölərəm, bu hayıfı əfəndidə qoymaram.

Məxləs, molla kəbini kəsib qurtarır. Hamı əfəndiyə mübarəkbadlıq eyləyir, Aşıq Musa da həmçinin. Sonra qayıdır ki:

-İcazə versəniz bir-iki kəlmə söz deyərdim.

Əfəndinin dalağı sancır.

-Əşi, bura toy məclisi deyil ki, çalıb-oxuyasan. Vəkillik elədin bəsdi, çıx get,-deyir.

Aşıq Musa bir də təvəqqə eləyir. Onun xasiyyətinə bələd olan məclis əhli birtəhər əfəndini yola gətirir.

Alır görək, Aşıq Musa əfəndiyə nə deyir:

Səbəb nədir, hərə bir yol tutubsuz,
Beləmi buyurub Allah, əfəndi?
Bir dində nə qəddər məzhəb olarmış,
Məni də eyləyin agah əfəndi!

Əfəndi başlayır tasalanmağa. Aşıq Musa bığaltı gülüb sözün o biri bəndini deyir:

Nəfsə uyub, fitnələrə dalırsız,
Ölü ölməyəndə pərşan olursuz,
Hiylə ilə xumsi-zəkat alırsız,
Nə güclüdü sizdə, tamah, əfəndi?!

Qədəm qoyub Alosmannan gəlibsən,
Çal xəddinə gözəl sığal veribsən,
Yetmişində təzə bəyə dönübsən,
Halal olsun, çox maşallah, əfəndi!

Əfəndi çuğundur kimi qızarır. Amma dillənib bir söz deyə bilmir. Aşıq Musa götürür sözünün tapşırmasını:

Musa deyər, bu cahana yetişdik,
Əkdi ata, doğdu ana, yetişdik,
Neçə-neçə toy-nişana yetişdik,
Görməmişdim belə nikah əfəndi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamama yetəndə əfəndi ev yiyəsindən xəbər alır ki, bəs, kimdi bu şəxs? Ev yiyəsi gülə-gülə qayıdır ki, əfəndi, Aşıq Musadı, səniynən tanış olmaq istəyir. Aşıq Musa özünü əfəndiyə belə nişan verir:

Ellər aşiqiyəm, ellər şairi,
Alışıb odlara yanasıyam mən.
Harda nanəcibi gözüm görəndə,
Onun ilqarından dönəsiyəm mən.

Bir qəvvasam dəryalara dalanda,
Xofa düşmə sən sədamı alanda.
Əcəl gəlib peymanıma dolanda
Əyilib qəddimnən sınasıyam mən.

Zənn eylə tərlanın necə canandı,
Hesab eylə qırx yaş səndən cavandı,
Yəqin ki, ariflər mətləbi qandı,
Qaraçöp elinin Musasıyam mən.

Aşıq Musa sözünü bitirib məclisi tərk etdi.

## AŞIQ ŞENLİK QƏMƏRLİDƏ

Sizə hardan xəbər verim, kimnən xəbər verim əzizlərim adı dillərdə gəzən aşıq Şenlikdən. O Şenlikdən ki, toy-düyünün böyüklüyü, dəbdəbəsi onun məclisdə tapılıb tapılmamasınnan ölçülərdi. Hə, nə başınızı ağrıdım, gün o gün olur ki, Şenlik Borçalıda adını-sanını eşitdiyi bir neçə aşıqla görüşüb imtahan olmaqdan ötrü dayısı İbrahimlə bərabər yola çıxırlar. O vaxtı o üznən bu üzün yolu-izi Başkeçiddən idi. Bəri üzə aşıb Qəmərli kəndinə çatanda şər qarışır. Oydu ki, bu kənddə bir ağanın qapısını döyüb qonaq olurlar. Onda da kənd-kəsəyin qaydasıydı, sayılan adamların evinə yığılıb söhbət edərdilər. Burda da belə toplaşıb söhbət edirdilər. Şenliyin dayısı iri boylu, bazburtlu, görkəmli bir adam idi. Saz da onun əlində olduğundan İbrahimi aşıq hesab eliyib baş tərəfdə oturtdurlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Amma, nəki düzü-düz, necə Allah haqdı, Şenlik zəif, görkəmsiz bir adam idi. Əynində kələ-kötür tikilmiş yırtıq bir kürk var idi. Hamı qapının yanında uşaqların arasında qalan Şenliyi unutmuşdu. Dayısı İbrahimlə məşğul idilər. O idi ki, İbrahimin bir-iki xana oxumasını xahiş edirlər. İbrahim, «Şair mən deyiləm, o qapının ağzındakı adamdır, ondan xahiş eləyin», deyir.

Varlığını unutduqları adama baxanda nə görsələr yaxşıdır?! Cəhal-cümrülər, uşaqlar bu əcaib, balaca adamın başına toplaşıb zarafat eliyir, kimisi papağını götürüb qaçırır, kimisi də kürkünün yırtığından bədəninə iynə soxurdu.

Hə, əzizdərim, bundan çox inciyən Şenlik ağaların da ona doğru baxdıqlarını görüb sazını götürür, zilini zil, bəmini bəm eləyib görək nə deyir:

Qədirbilməz məclisində oturmam yəqin bilin,
Şad ikən, könlümü qəmə batırmam yəqin bilin,
Meylimi salmışam haqqa, uylaşır turab ilə
Hər gedənin qismətini bitirməm yəqin bilin.

Dünyadan beyxəbər olan gəzər əhli-həvayi,
Leylaya müzəyyən olan sürməz zövqi-səfayi,
Düşmüşəm qürbət elə çəkərəm cövri-cəfayi,
Ayarlıq edərsiniz, ayarlıq yetirməm yəqin bilin.

Səfil Şenlik hərf içində meyl verdi yasinə,
O səbəbdən abdal olub düşdü qəm dəryasına,
Dərdli könlüm Məcnun kimi gəzir eşq havasına,
Elinizdən töhmətli söz götürməm yəqin bilin.

Söz tamam oldu. Gördülər ki, ay dili qafil, son bənddə Şenlik adı çəkildi. Oturanlar əvvəlcə çaşdılar, sonra özlərinə gəlib Aşıq Şenliyin əlinə, ayağına sarıldılar: «Amandı Şenlik, bizi bağışla, səni tanımadıq» dedilər. Əlindən tutub onu baş tərəfdə oturtdular.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XV. DASTANLAR

## MEHRALI BƏY

Bəli, Sizə haradan, kimdən xəbər verim, xəbəri sizə göydə qartalı gözündən vuran, yağıların-yadların anasını ağladan, gavurlara ağzında süfrə açıb məclis quran Borçalının – qarapapaxların qəbir qazan, Alosmanda, Qafqazda ad-san alıb, paşalar-sultanlarla Anadolu şir-aslan balası Darvazlı Mehralı bəydən deyim.

Mehralı bəyin atası Məmli kişi Borçalı ağa-bəyləri içərisində ad-san sahibi idi. Məmli kişinin el-obada bir sözünü iki edən olmazdı. Bolusda məclislər yaraşığı idi. Allahverdi oğlu Məmlinin oğul-qız züryəti sarıdan da bəxti gətirmişdi. Məmli kişinin Mehralı, İsa, Məhəmmədəli, Alı adlı dörd oğlu, Hürü, Tükazban adlı iki qız züryəti vardı. Məmli kişi Bolusda əsl-nəsli, səxavəti ilə sayılan duz-çörəkli, olduqca qoçaq, vuran-tutan, dosta həlim, düşmənə qənim sayılan kişilərdən idi.

Ustad deyir ki, Borçalı yaylaqlarında gül-gülü, bülbül-bülbülü çağıran, borçalıların dəyə qurub yaylayan vaxtı idi. Bu o vaxtlar idi ki, Qazax, Şəmşəddin sultanlığı, Borçalı artıq Urusetin tərkibinə qatılmışdı. Hər yerdə ağalar, bəylər, tavatlar, naiblər xalqı ağır vergi verməyə məcbur edirdilər. Torpaq vergiləri xalqı müflisləşdirmişdi. «Dinmə ver» vergisi xalqı can-boğaza yığmışdı. O idi ki, Dağ, Bağ, Aran Borçalıda ardı-arası kəsilməz kəndli üsyanları baş verirdi.

Bu dövrlərdə Məmli kişininin böyük oğlu Mehralının da artıq bığ yeri tərləmiş, on səkkiz yaşlı, orta boylu, dolu bədənli, bənövşəyi bığlı qız qaytaran, dəliqanlı, özünü bozartmış bəynişan bir oğlan olmuşdur. Toy-nişanlarda, su suatlarında telli-toqqalı kəmər və bəstə-sultan nigar qızların gözaltısına çevrilmişdi. Mehralı tay-tuşları arasında ədəb-ərkanı ilə seçilirdi. Onun da atası Məmli kişi kimi ov-şöləndə atdığı güllə boşa çıxmazdı. Mehralıdan söz-söhbət düşəndə ağsaqqal-ağbirçəklər ürəkdolusu deyərdilər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Allah saxlasın. Əsil kişi oğlu kişidir. Alma budağından kənar düşmədiyi kimi, o da Allahverdi oğlu Məmli kişidən kənarda qalmamışdır. Mehralını görən ağbirçəklər, analar əl götürüb Tanrı-təaladan ona uzun ömür, xoşbəxtlik diləyərdilər. Çox anaların, nənələrin könlündən ılıq, kövrək, qızları, nəvələri üçün isti bir dilək də keçərdi.

Hə, mənim əzizlərim! Bayaq dediyimi davam etdirim, Qafqaz basarığının hər yerində olduğu kimi, adı hər yerdə car olan, neməti bol olan Borçalı mahalında və bu mahalın meşəli dağlar qoynunda yerləşən və dağların abu-havasını alan Darvaz kəndində də qarışıqlıq idi. Camaat uruslara qarşı tez-tez üsyan eyləyirdi. Çar qazaqlarının belləri Məmli kişidən bərk deyildi. O idi ki, hər necə olursa-olsun fürsət düşən kimi onu aradan götürmək qərarına gəlmişdilər.

Bəli, belə bir üsyan hərəkatında Allahverdi oğlu Məmli kişi qəhrəmanlıqla həlak oldu. Urus qazaqları Məmli kişinin ölüsündən də qorxaraq, onun meyidini kəndin qəbirstanlığında deyil, Darvazın qonşuluğundakı Örmeşən kəndinin gavur-duxoborlar uyuyan xaçpərəst qəbirstanlığında dəfn etdilər*. Məmli kişinin qəbrini qorumaq üçün iki qazaq əsgərini qaravul qoydular.

Məmli kişinin xristyan qəbirstanlığında dəfn edilməsi uruslara qarşı xalqın amansız qəzəbinə səbəb oldu. Ustad deyir ki, elə dəfn gecəsi Allahverdi oğlu Məmili kişi gəlib girdi oğlu Mehralının vayğasına. Başladı ona tənə-töhmətə:

– Utanmırsan, dörd oğul atası da gavur qəbirstanlığında uyuyarmı? Əgər üç günə qədər məni gavurların içərisindən çıxarıb müsəlman qəbirstanlığında dəfn etməsən verdiyim duz-çörək sənə haram olsun.

Yuxudan hövələng qalxan Mehralı gördü ki, anası Zöhrə xanım kəsdirib yastığının yanını. Mehralı anasına dedi: «Aney-i-mehriban! Atam məni vayğamda tənbeh edib dedi ki, oğul, əgər sən məni bu gavurların içərisindən çıxarmasan başıyın

---

* O dövrdə iki Örmeşən kəndi olub, onların birində qarapapaqlar, digərində isə duxoborlar yaşayırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

papağı sənə haram olsun. Bil və agah ol! Bu ata deynidir ana! İndi razılıq səndən, qəbrin yerini dəyişmək məndən». Zöhrə xanım kövrəlib göz yaşlarını tökdü. Mehralı bəyin ürəyi eylədi qubar. Götürdü görək yuxusuna binəm anasına sözlə nə dedi, anası nə cavab verdi, biz deyək, sizə könül xoşluğu.

*Aldı Mehralı:*

Canım ana, bu gecə yuxu gördüm,
Atam nalə çəkir qəbir içində.
Onun o naləsi məni yandırır,
İnan, qalmayıbdır səbir içimdə.

*Aldı Zöhrə xanım:*

Canım-ciyərim, gəl çıxma sözümdən,
Getmə oğlum, getmə qoymaram səni.
Gəl, yazığam, ayrı düşmə gözümdən,
Getmə, oğlum, getmə qoymaram səni.

*Aldı Mehralı:*

Könlüm yasdan çıxmır, qəlbim qaradan,
Kömək olsun mənə ulu yaradan,
Atam dedi, çıxar məni buradan,
Qalmışam gavurla qəbir içində.

*Aldı Zöhrə xanım:*

Oğul bu dərdimin çarası sənsən,
Vuran ürəyimin parası sənsən,
Görən gözlərimin qarası sənsən,
Getmə, oğlum, getmə qoymaram səni.

*Aldı Mehralı:*

Mehralıyam, qəm dəryaya dalaram,
Pərvanə tək özümü oda salaram,
Gavurlardan qisasımı alaram,
Pərişan qalmışam abır içində.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı Zöhrə xanım:*

Gəl, yazıq Zöhrəni salma azara,
Tutulsan sinəmə vurarsan yara,
Yaradan dərdinə eyləsin çara,
Getmə, oğlum, getmə, qoymaram səni.

Söz tamama yetdi. Çox yalvar-yaxardan sonra Zöhrə xanım Mehralıya razılıq verdi. Elə Mehralıya da bu lazım idi. O altdan geyib üstdən, üstdən geyib altdan qıfıllandı. Götürdü yar-yasağını, gecənin oğlan çağı yetirdi özünü xristyanların qəbirstanlığına. Etdi hər iki qazaq gözətçisini qanına-qəltan. Çıxardı Məmli kişinin nəşini. Gətirib dəfn etdi müsəlmanlar uyuyan qəbirstanlıqda.

Nağılçıların dili yüyrək olar. Dan yeri qızaranda söz-söhbət yayıldı Darvaza. Urus saldatları qomazladılar Darvazı. Kəsdilər dağlara gedən bəndi-bərələri. Aldılar bütün Darvaz ətrafı kəndləri göz altına. Əhvalatı belə görən Mehralı anası, bacı-qardaşları ilə halal-hümmət etdi. Yatdı dar gününün gərəyi Qarakötük adlı atının yalmanına. Ya mədəd səndən deyib, üz qoydu pənahı Xram meşələrinə, Başkeçid dağlarına. Bir qədər dağlarda-ormanlarda gəzib-dolaşdı, adıbəlli qaçaq oldu. Günün bir günündə Allahın xoş saatında, xoş dəqiqəsində yaylaqdan endi Soyuqbulağın başına. Baxdı ki, tanrıtəala xoş anında hüsnü-camalına qələm çəkdiyi sərv boylu, maral baxışlı, ürkək yerişli bir qız gəldi bulaq başına. Qız nə qız?! Günəş xəcalətindən, ay utandığından üzünü bürüyüb. Ulduzların gözü olub qırpıq. Mehralının gözləri sataşdı qızın gözlərinə, ürəkləri söz alıb danışdı.

Mehralının kəsildi səbri-qərarı. Qızın xiffətini çəkməkdən saralıb sapa, incəlib ipə döndü. Öyrəndi atası Məmlinin dar gününün yaxın dostu, Keçəli kəndinin, düz çörəkli el-oba ağsaqqalı Əhməd ağanın evinin yerini. Üz tutdu Əhməd ağanın evinə.

Ustad deyir ki, Əhməd ağa dostu Məmlinin oğlu Mehralını basdı bağrına. Başladı duz kimi yalamağa. Əhməd ağa baxdı ki, ey dili-qafil qardaşoğlunun halı özündə deyil. Əvvəl-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əvvəl elə bildi Mehralı ac-susuzdu. Oydu ki, yox olsun yoxsulluğu, kəsdi bordax bozuğu, çəkdi şişlərə. Əhməd ağa adına layiq bir süfrə açdı ki, kababın ətrindən yeməyənin də yeyəsi gəldi. Amma Mehralının halı düzəlmədi. Əhməd kişi Mehralıdan niyə kefsiz olduğunu soruşanda Qaçaq Mehralının dərdi tüğyan eylədi, halına binəm Əhməd ağaya utana-utana aldı görək nə dedi, tərəfindən biz deyək, sizə könül xoşluğu:

İstəyirəm sirrim sənə söyləyim,
Mənim bu dərdimi biləsən, əmi!
Bir gözəlin sevdasına düşmüşəm,
Bu dərdimə əlac edəsən, əmi!

Əhməd kişi dedi, oğul, başına dönüm, bu nə sirrdi, nə dərddi açıq de görüm. Aldı Mehralı:

Sevdiyim gözəlin ismi Bahardı,
Elə bil açılmış yeni səhərdi,
Gəl qıyma çəkməyə mənə bu dərdi,
Qəmimə bir qənxar olasan, əmi!

Mehralıyam, mən çəkirəm qəhəri,
Yatammıram nə gecə, nə səhəri,
Canı-dildən mən sevirəm Baharı,
O dildarı mənə alasan, əmi!

Əhməd kişi gördü ki, qardaşoğlunun dərdi ayrı dərddəndir. O dünya görmüş, çox belə işləri yorub-yozub yoluna qoymuşdur. Soraqlayıb öyrəndi ki, qardaşoğlunun könül verdiyi Bahar xanım kəndin mötəbər ağsaqqalı Osman katdanın qızıdır. Dedi:

– Qardaşoğlu! Bil və agah ol! Bir ölümə çarə yoxdur. Qalan dərdlərin çarəsi var. Fikir eləmə! Qoca əmin elə bu axşam ağsaqqallar ilə gedər Katta Osmanın evinə. Bir mübarək saqqal tərpədər. İnşaallah, hər şey olar ürəyincə.

Bəli, qaş qaralanda Əhməd ağa kəndin sözləri ötən ağsaqqalları ilə kəsdi Osman katdanın qapısını. Açdı gəlişinin mətləbini. Çaylar süzüldü, söz-söhbət uzandı. Çox söz-söhbətdən sonra razılıq əlaməti olaraq ortalığa iki rəngli çay gəldi, içdilər Mehralıyla Bahar xanımın şirin-şəkər şərbətini.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gələn bahara toy tədarükünün görülməsi oldu məsləhət. Bu o vaxt idi ki, uruslar bildilər ki, Qaçaq Mehralı Əhməd ağanın qonağıdı. Qomardılar Əhməd ağanın evini. Mehralı gördü ki, işi çox çətinə düşdü, dedi, mənim atımı tövlədə yəhərləyin. Əhməd ağa fürsəti-fövtə vermədi keçdi evin arxasına. Tövlədə Mehralının atını yəhərləyib, yüyənlədi. Aynalı tüfəngini də keçirdi yəhərin qaşında bağlanan qancırğaya. Yol tədarükü üçün üç günlük azuqəni də qoydu heybəsinə. Çəkdi atını evin arxa tərəfindən cövlana. Qaçaq Mehralı bayaqdı qırğı kimi qondu Qarakötüyün yəhərinin qaşına, yatdı yalmanına, bir nərə çəkib aldı görək nə dedi:

Yağı düşman, nə düşübsən izimə,
Bu qovğadan dönsəm mənə ar olsun!
Düşmənimdən qisasımı almasam,
Qoy, bu geniş dünya mənə dar olsun!

Düşmənin qanından içsəm doymaram,
Qisasımı qiyamətə qoymaram,
On beş saldatdan beşini saymaram,
Təki, yaradanım mənə yar olsun!

Mehralıyam, hər savaşa dözərəm,
Qartal təki zirvələrdə süzərəm,
Tanrım yar olarsa, səflər pozaram,
Qoy, arxamda Xaliq mənlə var olsun!

Mehralı sözünü qurtarıb atın qarnı altından çıxıb sırtı ustə qalxan kimi bir neçə saldatı öldürüb aradan çıxdı. Ya mədəd səndən deyib, üz qoydu qaçaqların, qoçaqların darda sığındığı dağların damanına. Çox keçmədi, yerli hakimiyyətin, ağa-bəylərinin, qazaqların əzab-əziyyətindən zinhara gəlmiş Dalaverlı Mansur, Dovşanqulu oğlu Hüseyn, Kələ oğlu Hüseyn başının adamları ilə qoşuldular Mehralının dəstəsinə. Uzun müddət birlikdə gəzib dolandılar dağları. Mehralı bir gün üzünü tutdu qaçaq yoldaşlarına, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mənim əziz dostlarım! Bilin və agah olun. Qaçaqlıq asan deyil. Qaçaq olan həm özünü, həm silahdaşlarını, həm də müqəddəs ana torpağı yağılardan, yadlardan didəsi kimi qorumalıdır. Atalar yaxşı deyib: «Qaçaqdan nə naçaq, nə də qorxaq olmaz». Odur ki, bir anlığa baxın gözlərinizin içinə. Göz qənimini daha yaxşı tanıyır…

Mehralı qaçaqlar haqqında bu söhbəti gəlişi xoş sözlər üçün deməmişdi. Mehralı hər bir insanın üzünə bir dəfə baxanda ürəyini, dölək-diləyini gözündən doğru-dürüst oxuyurdu. O, Dovşanqulu oğlu Hüseynin, Dalaverli Mansurun namərd adamlar olduqlarını da üz-gözlərindən dürüst oxumuşdu. Mehralı yalnız yerliliyi Darvaz sunurunun kəndlərindən olan Kələnin oğlu Hüseynə inanırdı. O idi ki, Mehralı Kələ oğlu Hüseyni etmişdi özünə qulaq-həyan. Kələnin oğlu da öz növbəsində duymuşdu Mehralının fikrini. O bilirdi ki, Mehralı bu günlərdə Alosmana getməyə hazırlaşır. O idi ki, Kələnin oğlu söhbətin şirin yerində Mehralıya dedi:

– Qardaş, deyəsən uzaq səfərə hazırlaşırsan. Səfərin mübarək. Rüxsət versən uğur qabağı gedib ailəmlə görüşərdim. Ata-anamdan halallıq alardım. Uğurdu, sonra düşər-düşməzi olar.

Kələ oğlunun sözləri qara tikan olub yapışdı Mehralı bəyin ürəyinin başına. Gətirdi ana-bacılarını, qardaşlarını, sevgilisi Baharı gözləri önünə. O idi ki, verdi Kələnin oğluna rüxsət.

Hə, qardaşlar! Söz var deyərlər:

– Sən saydığını say, gör fələk nə sayır?! Çuğullar yatmamışdı. Kələnin oğlu evə yenicə çatmışdı ki, onun gəlişini çatdırdılar qazaqlara. Bayaqdı qazaqlar aldılar Kələnin oğlu Hüseynin evini mühasirəyə. İşin pis nəticə verəcəyini duyan Kələnin oğlu özünü verdi evin arxasındakı ot tayasına. Düzəltdi özü üçün bir sığınacaq yeri. Qazaqlar başladılar evi atəşə tutmağa. Vurdular ot tayasına od. İşin pisləşdiyini görən Kələnin oğlu ot tayasından çıxaraq bir neçə qazaqı sərdi yerə. Özü də oldu qazaqların gülləsinə tuş.

Ən sadiq dostu Kələ oğlu Hüseynin mərdliklə ölüm xəbəri sarsıtdı Mehralını. Vəfalı dostu hər vaxt tapmaq olmur,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hüseyn, umudum tək sənə gəlirdi, sən də belə oldun – deyə çox kədərləndi, ağladı. Bu münasibətlə götürdü görək nə dedi, ərz eyləyək qulluğunuza:

Zalım əcəl səni tez yaxaladı,
Alıb kəməndinə saldı Hüseyn!
O müxənnət sitamkarın gülləsi,
Əzrayıl cənginə saldı Hüseyn!

Deyirdim, dağları qoşa gəzərdik,
El yolunda hər cəfaya dözərdik,
Zalım qazaqların başın əzərdik,
Xəzan vurdu, gülün soldu Hüseyn!

Yəqin haqq yolunda etmişəm günah,
Sən ol mənə dayaq, ey yaradan şah.
Ümidim sən idin, pənahım Allah,
Mehralı da sənsiz qaldı Hüseyn!

Bəli, əzizlərim! Artıq gavurlara qarşı, Qafqazın hər yerində, Şəmşəddində, Qazaxda, Loruda, Qaraçöpdə, Qarayazıda, Başkeçiddə, Ağbabada Dəli ağanın, Kor İsmayılın, Mehralının, İskəndərin, Dəli Yusufun qaçaq dəstələri təki hökumətə qarşı çıxan dəstələr çar üsuli-idarəsindən təngə gələn kasıb-küsubların hesabına günü-gündən artırdı. Mehralının şan-sədası artıq təkcə Borçalını deyil, Qars, Ərdahan, Çıldır, Şörəyel, Ağbaba, Axısxa, Axalkələk, Qazax, Gəncəbasar, Açıqbaş, Pənbək mahallarını də bürümüşdü. Tiflisdə, İstanbulda, Moskovada, Peterburqda, Ərzurumda çıxan qəzetlər hər gün Qaçaq Mehralının ən qorxulu düşmən olduğunu yazıb-yayırdılar.

Hökümət əsgərləri qaçaqların öhdəsindən gələ bilmirdilər. Odur ki, uruslar hiyləyə əl atdılar, Onlara qarşı günah-suçları nisbətən az olan qaçaqları əfv etdilər. Mehralını tutub onlara əsir verənləri çoxlu ənam, rütbəylə mükafatlandıracaqlarına söz verdilər.

Məsələni eşidən Mansurla Dovşanqulu oğlu xəlvəti danışığa girib, oldular hökümətə təslim və urusa dedilər ki, Meh-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ralını tutmaq bizim boynumuza. Mehralı gördü ki, yoldaşları namərd çıxdı. Ona görə də Borçalıda durmayıb keçdi Alosmana, Çıldır mahalındakı qarapapaq dostlarının yanında özünə sığınacaq tapdı. Bunu bilən və Mehralının hünərindən lərzəyə gələn urus hökuməti Osmanlı padşahı Sultan Əbdüləzizə bir məktub yazıb xahiş etdi ki, Mehralını təcili versinlər uruslara. Əbdüləziz Paşa sədrəzəmə, o da öz növbəsində Ərzurum valisinə göstəriş verdi ki, Paşanın əmri yerinə yetirilsin, Mehralı bəyi təcili tutub Urusetə versinlər.

Bunu eşidən Mehralı təzədən keçdi urusların əlindəki torpaqlara. O fürsəti-fövtə verməyib özünü verdi ailəsi ilə görüşmək üçün Darvaza.

Mehralının Uruset sunurlarına keçməsini duyan Dalaverli Mansur, Dovşanqulu oğlu Hüseyn, Musa Çavuş, Qərib ağa başladılar hər yerdə Mehralını qarabaqara izləməyə.

Günlərin bir günü, elə oldu ki, Musa Çavuş Mehralıyla üzüzə gəldi. Ancaq Mehralı istədi ki, döyüşdən yayınsın, dəfələrlə Musa Çavuşa bildirdi ki, etmə-eləmə. İstəmirəm əlim qanına bulaşsın. Bilirəm bu gavur uruslar sənə pul veriblər, gəl tamahına təp de. Məndən sənə xeyir gəlməz. Kimə deyirsən, Çavuş Musa ay qandı ha. İşin bəd gətirdiyini görən Mehralı dedi, gəl buna bir neçə kəlmə söz de, əgər yenə qanmasa onda Allah ya ona verər, ya da mənə. Aldı Mehralı görək nə dedi:

Musa Çavuş, gəl əl götür davadan,
Kəsilər biləyin, əldən olarsan!
Alıb caynağıma tutaram səni,
Cənnət tək mahaldan-eldən olarsan!

Qartalın zirvədə olar yuvası,
Tülkünün aslanla olmaz davası.
Gəl mənimlə savaşmaynan, qadası,
Vuraram qılıncı, beldən olarsan!

Mehralıyam, indi girrəm meydana,
Koroğlu tək qılınc vurram hər yana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir nərə çəkərəm Rustamzalyana,
Tutular qulağın dildən olarsan.

Söz tamama yetişər-yetişməz Musa Çavuş əl çəkməyib yenə həmlə edəndə Mehralı atının başını geri çəkib döndü və dönən kimi də ilk həmlədə Musa Çavuşu qılıncıyla yaraladı. Amma yenə rəhmi gəldi, təkrar zərbə vurub öldürmək istəmədi, atını çapıb sürətlə uzaqlaşdı. Musa Çavuş yaralanıb atdan yerə düşəndə onun dəstəsində olan əsgərlərdən yarısı atlarından enib başçılarının hayına qaldılar. Yarısı da Mehralının dalınca düşüb onu tutmaq istədi. Mehralı gördü ki, qabaqda bir yarğan var, ata bir acı təzyana vurdu. At elə sıçradı ki, yarğanın o toyuna düşdü. Onu izləyən qoşunun isə çoxu yelini saxlaya bilməyib yarğandan uçub öldü. Sağ qalan atlılara Mehralı uçurumun o toyundan dedi: « Mənim siznən heç bir işim yoxdur, siz də məni daha izləməkdən əl çəkin. Günah Musa Çavuşun özündə oldu, mən onu vurmaq istəmirdim, Allahdan diləyim odur ki, ona bir şey olmasın» və atını çapıb gözdən itdi. Kor-peşiman geri qayıdan bu atlı əsgərlər Musa Çavuşu yaralı vəziyyətdə öz kəndinə apardılar. Yolda çox qan itirdiyinə görə atasının və qardaşlarının yanında canını tapşırdı.

Bu işdən sonra Mehralını daha çox izlədilər, hökumət hər yanda onu gəzirdi. Günlərin birində, urusun puluna suslayıb namərdlik edən ata dostu Qərib ağanın dəstəsi ilə Mehralı üzləşdilər. Düzənlik olduğundan Mehralı gözdən yayına bilmədi. Yenə döyüşə girməyib davasız-şavasız aralaşmaq istədi. Ancaq Qərib ağa ondan əl çəkmədi. Elə oldu ki, Qərib ağaynan Mehralının atı yan-yana qaçdı. İşi belə görən Mehralı öz-özündə fikirləşdi ki, gəl buna da bir neçə kəlmə söz de, əgər baxmasa sonrasına baxaram. Üz tutdu Qərib ağaya:

Qərib ağa! Eşit mənim sözümü,
Gəl əl götür, bu davadan, geri dön.
Sənin ilə çox duz-çörək kəsmişik,
Gəl əl götür, bu davadan, geri dön.

Əzəlindən belə deyib babalar:
Çörək basan el gözündə xar olar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənə yaraşmaz belə səs-sədalar,
Gəl əl götür, bu davadan, geri dön.

Gəl düşməynən Mehralının izinə,
Dözəmməzsən alovuna, közünə,
Bir qılınc vuraram sənin dizinə,
Gəl əl götür, bu davadan, geri dön.

Söz cavabını tamam eylədi. Qərib ağa elə hey dediyini dedi:

– Ya sən, ya da mən! Başqa cür ola bilməz.

Mehralı bəy dedi:

– Qərib ağa! Sən pulun əl çirki olduğunu yaxşı bilirsən. Urusların fitvasına getmə. Nə qədər istəsən pul verim sənə. Babamla duz-əppək kəsibsən. Aramızdakı haqq-salama and olsun, mən qan tökmək istəmirəm. Bu kişi sözümdür. Qərib ağaya heç nə kar etmədi, yenə dedi:

– Yox, Mehralı! Dağ, Bağ, Aran Borçalıda, qarapapaq ellərində iki qoçun başı bir qazanda qaynamaz. Ya sən, ya da mən.

Mehralı çox dedi, Qərib ağa az eşitdi. Qərib ağa nə qədər hücum çəkdisə, Mehralı əl qaldırmaq istəməyib hamısından sovuşdu. Mehralı axırda gördü ki, daha mümkün deyil, bunun gözünü qan örtüb, dedi:

– Qərib ağa, qoy birdi-bir olan Tanrı-Təala aramızda şahid olsun ki, mən əlimi sənin qanına bulamaq istəmirdim, o ki sən başa düşmədin, onda özündən küs. Səni gərək elə edəm ki, nə öləsən, nə də ki, sağ qalasan, bütün yaşadığına peşman olasan.

Sonra da – Ya rəbbim! Özün ol şahid – deyib, bayaqdı qılıncını hərlədi, Qərib ağanın sağ qıçını dizdən üzdü. Qərib ağanı qan götürdü. Gətirdilər evinə. Qərib ağa ayılanda dedi:

– Bu işdə Mehralının heç bir günahı yoxdur. Günah məndədir. Nəhlət gəlsin şeytana. O məni yoldan çıxartdı.

Bəli, Mehralı elə ki, Qərib ağanı etdi qanına qəltan, üz qoydu evlərinə. Ana, bacı-qardaşları ilə görüşdü. Anasına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nişanlısı Baharı qaçırtmaq fikrində olduğunu dedi. Anası da cavabında dedi:

– Oğlum, bu işdən əl çək. Sənin başın hələ qalmaqaldadır. Qaçaqsan. Bahar orada durur, işin düzələndə sizə elə bir toy edərik ki, sədası Alosmandan, Əraseydən gələr.

Anası, eləcə də kənd ağsaqqal-ağbirçəkləri çox dedi, Mehralı sözə baxmadı. Getdi nişanlısı Baharın yanına. Hər iki sevgili bir-birini görüb çox sevindi, Allah da hamınınzı sevindirsin. Bir qədər söhbətdən sonra Mehralının sinəsi dəmirçi kürəsi kimi od alıb, qəlbi coşa gəlib götürüb görək Bahara nə deyir və Bahar cavabında nə söyləyir, hər ikisinin tərəfindən ərz eyləyək, siz sağ olun.

*Aldı Mehralı:*

Sevgilim gəl bu dağları,
Birgə gəzək qoşa sənlə,
Qartal kimi zirvələrə
Çıxaq dağa-daşa sənlə.

Bahar xanım ipəyi saçından üç tel ayırdı. Basdı sineyi sandığa:

Sevgilim, məndən incimə,
Gedə bilməm hələ sənlə.
İşin hələ qalmaqaldı,
Çıxa bilməm yola sənlə.

*Aldı Mehralı:*

Gəl verək birgə əl-ələ,
Necə ki, biz sağıq hələ.
Düşmənə qurarıq tələ,
Ta dolunca yaşa sənlə.

*Aldı Bahar xanım:*

Demə, bu yoldan bezərəm,
Leyli tək səhra gəzərəm,
Hər cəfana mən dözərəm,
Düşsəm çöldən-çölə sənlə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı Mehralı:*

Mehralının vəfadarı,
Unutmam əhd-ilqarı,
Bir dolanaq bu dağları,
Vuraq ömrü başa sənlə.

*Aldı Bahar xanım:*

Bahar dərdə dözmək istər,
Zirvələrdə gəzmək istər,
Sona kimi üzmək istər,
Əgər düşsə gölə sənlə.

Bəli, hər ikisinin sözü qurtardı. Bahar da anasının dediklərini dedi. Amma Mehralı, ağanı Allah saxlasın deyib Bahar xanımı bayaqdı Qarakötüyün aldı tərkinə, üz qoydu Alosmana. Bunu eşidən düşmənlər sevindi ki, indi Mehralını tutmaq asan olacaq. Başladılar axtarışa. Bir gün elə oldu ki, Dovşanqulu oğlu Hüseyn bildi ki, Mehralı Qaraxaç yaylağındadır. Yoldaşları ilə gəlib yol qırağında iri daşların arxasında gizləndi. Bir də gördü ki, budur, Mehralıyla Bahar gəlirlər. Xəlvətcə çıxıb qılıncını Mehralıya endirdi. Bunu görən Bahar əlini qılıncın qabağına tutdu. Qılınc Baharın üç barmağını üzdü. Mehralı tez geri dönüb Hüseyni vurmaq istədi. Ancaq at yan qaçdı. Qılınc Hüseynin atının quyruğunu dibindən üzdü. Mehralı Dovşanqulu oğlunun yoldaşlarının bir neçəsini öldürdü. Özünün isə arxasınca düşsə də öldürə bilmədi. Bahar maneçilik etdi. Mehralının əl-ayağına dolaşdı.

Bu döyüşdə Mehralı yaralanmışdı. Buna görə də Baharı aparıb Çıldırdakı bir dostunun evinə qoydu və yarasını sarıyıb saxladı. Özü də ağır yaralı olduğundan bir yana tərpənə bilmədi. Atalar deyib: «Çuyğul nə ölüb, nə də öləcək». Gedib xəbər verdilər hökumətə. Mehralını yaralı olub əl-ayağını tərpədə bilmədiyi üçün aparıb saldılar Qars türməsinə. Mehralı o yerdə özünə gəldi ki, əl-qolu bağlı zindandadır. Burada istədilər ki, onun yarasını sağaldalar. Ancaq Mehralı qoyma-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dı. Qorxdu ki, daha da zəhərli dərman qoyarlar, öldürərlər. Ona görə də özü ara parpısı eyləyib sarıdı.

Qalada məhbusların içində Əhməd adında bir aşıq var idi. Onun arvadı tez-tez onlara əppək gətirirdi. Mehralı bu qadından xahiş etdi ki, ona bir yeyə gətirsin. Qadın yeyəni çörəyin içində keçirdi. Mehralı başladı yeyə ilə qapını bir tərəfindən kəsməyə. Başqa bir yerdən də yeri eşib özünə pünhanı bir deşik açdı. Qapını kəsəndən sonra məhbusları öyrətdi ki, keşikçiyə hücum edib qaçsınlar. Məhbuslar Mehralının dediyi kimi edəndə, Mehralı da eşdiyi deşikdən qaçıb qaladan beş-on addımlıqda olan ot tayalarında gizləndi. Bildilər ki, Mehralı qaçıb, başladılar uzaqlarda onu gəzməyə. Ta nə biləydilər ki, dörd bir yanda arayıb-axtardıqları qalanın böyründəki ot tayasındadı. Sizə xəbəri verim Mehralıdan. Mehralı üç gün iki gecə həmin ot tayasında qaldı. Sonra da fikirləşdi ki, artıq yat-küt olar. Gizləndiyi yerdən çıxdı. Ot tayasının yanında ən yaxşı cins atların saxlandığı tövlə var idi. Oradan özünə yaxşı bir at seçib minib tərpəndi. Ancaq gecə olduğu üçün heç özü də bilmirdi haraya gedir. Yarası tam sağalmamışdı. Üstündə yarağı-yasağı da yox idi. Hər an tuta bilərdilər. Özü də bilirdi ki, bu dəfə ələ keçsə, qalada üsyan təşkil edib qaçdığı üçün edam edəcəklər. Bir bulağın yanında atı saxlayıb aşağı endi. Əl-üzünü yudu. Sonra ötən günləri, bütün başına gəlmiş hadisələr gözünün qabağından keçdi. Bahar, ailəsi, qohum-əqrəbası, yurdu Borçalı, kəndi Darvaz yadına düşdü. Kövrəldi, ürəyi qübarlandı. Öz-özünə dedi, deyirlər insan dara düşəndə ərənlər pirini çağırır, o da dada yetir, gəl sən də çağır, bəlkə sənə də bir yol açıla. Üzünü göyə, Allaha tutub alır görək nə deyir:

Çağırdım adını ya şahi-mərdan,
Dar günü dadıma yetiş sən mənim.
Sənsən, xəlq eyliyən aləmi-cahan,
Bu darda dadıma yetiş sən mənim.

Hayana gedirəm, əl çəkmir qada,
Cavankən ömrümü vermişəm bada,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yetiş imdadıma ya sirli xuda,
Bu darda dadıma yetiş sən mənim.

Çağırram dadıma qadir-sübhanı,
O Xıdır Əlləzi sahib-zamanı,
Dağıldı atamın ol xanimanı,
Bu darda dadıma yetiş sən mənim.

Mehralının bəxti niyə yatıbdır,
Mən görürəm tale məni atıbdır,
Yoxsa cavan ömrüm başa çatıbdır,
Bu darda dadıma yetiş sən mənim.

Mehralı sözünü qurtarıb yoluna davam etdi. Dar cığırla bir az getmişdi ki, qarşısına geniş bir yol çıxdı. Bu yolu əlinə alıb bir az getmişdi ki, gəlib bir kəndə çıxdı. Həmin kənddə ilk qarşısına çıxan bir qapını döydü. Fələyin işinə bax ki, Mehralının gəlib çıxdığı bu kənd Maraslı kəndi, qapısını döydüyü ev də yaralayıb öldürdüyü Musa Çavuşun atasının evi idi. Baxdı ki, bir qoca nurani kişi çıxdı qapını açmağa. Mehralı bu kişidən xahiş elədi ki, onu Allahın qonağı eyləsin bir günlüyünə. Kişi də bunu çox mehriban qəbul eylədi, dəvət etdi evinə, tez buna süfrə açdı. Mehralı üç gün idi heç nə yeməmişdi. Doyunca yeyib aclığını öldürdü. Sonra adı Mustafa olan bu kişi Mehralını sorğu-suala tutdu. Gördü ki, bu oğlu Musanı öldürən Qaçaq Mehralıdır. Amma hələ ki, heç nə bildirmədi. Gətirib su qızdırdı, Mehralını yaxalayıb yaralarına məlhəm sarıdı. Sonra da yatağını salıb qonağını rahatladı. Mustafa kişinin Musa Çavuşdan başqa altı oğlu var idi. Mehralı yatandan sonra o, oğullarının hamısını başına yığıb qonağının kim olduğunu söylədi və tapşırdı ki, ona xəyanət etməsinlər. Çünki Musa Çavuşu yaralı halda evlərinə gətirənlər günahın Mehralıda yox, onun özündə olduğunu atasına və qardaşlarına söyləmişdilər.

Sübh açıldı, üstünüzə xeyirli sabahlar açılsın, Mehralı oyandı ki, yarası dincəlib. Çox keçmədən Mustafa kişi altı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

oğluyla birlikdə Mehralının yanına gəldi və özünü tanıtdı. Mehralı karıxdı, pərişan oldu. İşi belə görən Mustafa kişi aldı əvəzində görək ona nə dedi:

Tanrı saxlayana xətər toxunmaz,
Yaşayar hər zaman ölməz, ay oğlum!
Haqqın qəhərindən yayınmaq olmaz,
Bunları hər nadan bilməz, ay oğlum!

İnam bağla ərənlərin pirinə,
Qorxu gəlməsin qoy sənin sərinə,
Səni qoyduq Musa Çavuş yerinə,
Bizdən sənə xəta gəlməz, ay oğlum!

Mustafayam, artıq ötübdür yaşım,
Qəzanın işidir, ağarıb başım,
Oğlanlarım olsun sənin qardaşın,
Mərdlərə heç zaval olmaz, ay oğlum!

Mustafa kişi sözünü qurtarıb dili ilə də dedi ki, oğlum, heç qəlbinə qaraltı gəlməsin, biz bilirik ki, günah mənim oğlumda olub, ona görə də biz səni Musa Çavuşun yerinə qoyduq, bundan sonra sən də mənim oğlum sayılırsan, bu oğlanlarım da sənin qardaşın sayılacaq. Mehralının minib gəldiyi at damğalı idi, Mehralını tez ələ verə bilərdi. Ona görə də Mustafa kişi oğullarına tapşırdı ki, aparıb bu atı azdırsınlar. Düz bir ay Mehralıya baxdılar. Sonra Mehralı daha burada qala bilmədi, vətən şirindir, vətəni yadına düşdü. Getmək üçün Mustafa kişidən izn istədi. Mustafa kişi dedi:

– Oğlum, mən səni başa düşürəm, bilirəm ki, darıxırsan. Amma sənə məsləhətim var. Eşitmişəm ki, uruslar sənin haqqında fərman verib ki, könüllü təslim olsan sənə çoxlu ənam verəcəklər, özünü də edəcəklər knyaz. Belə şeylərə oğlum Musa Çavuş kimi suslama. İnsanın şərəfi hər şeydən üstündür. Bu günə kimi qeyrətli ömür yaşayıbsan, bundan sonra da belə davam et. Heç kəsə boyun əymə. Yalnız ehtiyatlı ol. Ehtiyat igidin yaraşığıdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sonra da Mehralıya yaxşı bir at, bir də Musa Çavuşun qılıncını verdi, xeyir-duasını əsirgəməyib Borçalıya yola saldı. Altı qardaş da Mehralıyı tək qoymadı. Ona qoşulub Arpa çayı keçdilər, vardılar Ağbabaya, ordan da dağlarla-dərələrlə yol gedib gecənin birində özlərini yetirdilər Darvaza. Kənd əhli onları toy-bayramla qarşıladı. Hamı qonaqlıq vermək üçün sıraya düzüldü. Mehralı bəyin gəlişinə ən çox sevinənlərdən biri o tutulduqdan sonra Darvaza, evlərinə gəlib çıxmış sədaqətli atı Qarakötük oldu.

Bu o vaxt idi ki, Uruset-Osmanlı davası təzə başlamışdı. Uruslar qaçaqları öz tərəflərinə çəkmək üçün dəridən-qabıqdan çıxırdılar. Bu məqsədlə Mehralıya da çoxlu məktublar göndərmişdilər. Amma Mehralı onların təkliflərini qəbul etmirdi, öz din, dil qardaşlarına qılınc vurmaq, güllə atmaq istəmirdi. Ona görə də Osmanlı ordusunun başçısı marşal Muxtar Paşaya bir namə yazıb xəlvəti bir adamla göndərdi. Mehralı bu məktubda görək nə yazdı, biz deyək, eşidənlər şad olsun:

Muxtar Paşa, bir ərzim var sizlərə,
Qəbul qılsan bir arkadaş bilərəm.
İstəmirəm gavurlara qarışam,
İzin versən, sizin elə gələrəm.

Ta ölüncə vicdanımı satmaram,
Müxənnətin kölgəsində yatmaram.
Gavurlarla sizə güllə atmaram,
Verərəm özümü selə gələrəm.

Fələk qatıb Mehralının sərini,
Pünhan saxla, bilməsinlər sirrini,
Çağırmışam, ərənlərin pirini,
Ölsəm də, müsəlman-türk tək ölərəm.

Muxtar Paşa məktubu oxudu və əvəzində cavab yazdı ki, Osmanlı ordusunun sənin kimi igidlərə çox ehtiyacı var, ancaq əvvəlcə sənə Osmanlı Sultanının bir fərmanını göndərəcəm, onu Qafqazın quzeyində yaşayan müsəlman dağlılara çatdır-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

malısan. Əgər bu tapşırığı yerinə yetirsən, onda biləcəm ki, bizlərdənsən və o zaman gözümüz üstündə yerin var. Mehralı Muxtar Paşanın tapşırığını yerinə yetirmək üçün gəldi Qaraçöp mahalının Yor-Muğanlı kəndinə. Bir neçə gün orada atasının dostu olan mahalın hörmətli və mərd ağalarından Alı Ağakişi oğlunun evində qonaq qaldı. Sonra da onun köməkliyi ilə Dağıstan və Çeçenistan dağlarına qalxıb Osmanlı hökmdarının məktubunu çatdırdı oradakı naiblərə.

Bundan sonra Mehralı kəndinə dönüb Alosmana keçmək üçün başladı hazırlığa. Darvaz dərəsində qərar tutan 12 para kəndin ruhanisi Hacı Molla Məhəmməd, kənd ağalarından Rəfi ağa, Bayram ağa, İdris ağa və Cəfər ağa, Darvaz kəndinin kəndxudası Eyyub oğlu Alı Mehralıya uruslar işgəncə verməsinlər deyə ən yaxın qohum-əqrəbasını özü ilə aparmağı məsləhət gördülər. Mehralı da bu ağsaqqalların dediyi ilə razılaşdı. Yır-yığışdan sonra Mehralının qəfiləsi Darvazda Hərşənin ocağını və Boyalı pirini ziyarət etdi, nəzir-niyaz verdi və hava qaralan kimi kənddən Şindilər dağına tərəf yol aldı. Bir az gedib Quyubulaqda dayandılar. Mehralı – bəlkə sonuncu dəfədir – deyib Quyubulağın suyundan doyunca içdi və ovuc-ovuc üz-gözünə vurdu, buradakı ağacları, daşları öpdü. Mehralının Bahardan bir oğlu olmuşdu, adını Rüşdü qoymuşdu. Hələ çağa idi. Mehralı düşündü ki, uşaq yolda ağlayıb onlara çox maneçilik edə bilər, uşağın səsini duyub onlara zərər yetirə bilərlər. Ona görə də Bahara dedi ki, Rüşdünü aparmaq olmaz, bəlkə uşağın bələyinə çoxlu qızıl, pul-para qoyub saxlayaq bu qoca vələsin dibində, tapan olsa, pula görə uşağa dəyməsin. Sizi addadım Arpa çayının o tayına, sonra qayıdıb inşallah Rüşdünü apararam. Bunu eşidən Bahar ahu-nalə çəkib görək Mehralıya nə dedi:

Ay Mehralı, and verirəm Allaha,
Yalvarıram, gəl ayırma balamı.
Aləmi xəlq edən o gözəl şaha!
Yalvarıram, gəl ayırma balamı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aləmin təbibi, ədalət şahı,
Külli aləmdə islamın pənahı,
Təmənnam budur ki, çəkdirmə ahı,
Yalvarıram, gəl ayırma balamı.

Əzizdir Vətənin torpağı-daşı,
Yunisi dəryadan qurtaran kişi,
Balam çox uşaqdır, körpədir yaşı,
Yalvarıram, gəl ayırma balamı.

Baharın bulud tək gözü dolubdur,
Ah-naləsi göyə bülənd olubdur,
Bu bəlalar bizə haqdan gəlibdir,
Yalvarıram, gəl ayırma balamı.

Mehralı dedi, indi bir çağadan ötəri bu qədər xalqı badamı verək? Bahar, eləcə də Mehralının qardaşı İsa, bacısı Hürü nə qədər yalvardılarsa Mehralı həmişə olduğu kimi dediyindən dönmədi. Uşağı sonra gəlib götürmək ümidi ilə vələs ağacının dibinə qoyub yaxınlarıyla Alosmana doğru yola düşdü. Qəfilə bir qədər gedib Şindilər dağının ətəyindəki Sınıq körpüyə çatanda Bahar çağanın ayrılığına dözməyib hönkür-hönkür ağlamağa başladı. Bunu görən baldızı Hürü gizlicə döndərdi atının başını geriyə və qoyduqları yerdən götürdü qundağı, uşağın dil-dodağına bayaqdı çəkdi bal. Uşaq hıçqırıb mışıl-mışıl yatdı. Sonra da Hürü qundaqla bərabər Mehralının gözünə görünmüyüb qarabaqara başladı köçü izləməyə. Qəfilə Osmanlı torpağını keçdi. Bir az dincəlmək üçün dayandılar. Elə bu vaxt Hürü uşağı gətirib Mehralının qucağına qoydu. Mehralı bacısını bağrına basdı. Onun üz-gözündən öpüb dedi, elə bil dünyanı mənə verdin. İndi gör ana necə olar da. Bahar Hürünün ayaqlarına döşəndi. Uşağını bağrına basdı, sevinci həddən aşdı. Bir az dincələndən sonra təzdən yola düşdülər.

Beləliklə Mehralının köç qəfiləsi gəlib çatdı Çıldır mahalına, ustadlar-ustadı Aşıq Şenliyin kəndi Suxaraya. Bunları görən Aşıq Şenlik tez qarşılarına çıxdı, evinə dəvət eylədi. Ustad deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Suxarada Aşıq Şenlik qarapapaq qəhrəmanı Qaçaq Mehralının şərəfinə elə bir ziyafət düzəltdi ki, hələ indiyə qədər Alosmanda belə ziyafəti rüzgarın gözü görməmişdi.

Aşıq Şenlik bildi ki, Mehralı Osmanlıya kömək üçün gəlib, odur ki, – əfəndim, sinəmə bir neçə xanə söz gəlib, izn verin sizə ərz eyləyim – deyib basdı sineyi-sandığa imrandilli bülqurlu sazını. Aldı görək «Mehralı bəy atlıları» türküsündə nə dedi, biz deyək, siz şad olun:

Əhli-islam olan eşitsin, bilsin,
Can sağ ikən yurd vermənih düşmana.
İstər ki, Uruset nə var ki, gəlsin,
Can sağ ikən yurd vermənih düşmana.

Qurşanın qılıncı, geyinin donu,
Qovğa buludları sardı hər yanı,
Doğdu qoç iyidin şan almaq günü,
Can sağ ikən yurd vermənih düşmana.

Əsgər olan bölük-bölük bölünər,
Qars qalası sandızmı alınar?
Boz atlar üstündə qılınc çalınar
Can sağ ikən yurd vermənih düşmana.

Qovğa günü namərd sapa yer arar,
Ər olan köhsünü düşmana gərər,
Cəmi ərvah biznən meydana girər,
Can sağ ikən yurd vermənih düşmana.

Hələ Alosmanın görmüyüf zorun,
Din qeyrəti olan tədarük görün,
At təpin, baş kəsin, qazağı qırın,
Can sağ ikən yurd vermənih düşmana.

Men-Əsfərdi bilin urusun əsli,
Orman yabanısı, balıxçı nəsli,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xınzır sürüsünə dalıf qurd misli
Can sağ ikən yurd vermənih düşmana.

Şennih, nə durursan, atları minin,
Sıyra qılınc düşman üstünə dönün,
Artajaxdı şanı bu Alosmanın,
Can sağ ikən yurd verməniн düşmana.

Şenlik bundan sonra zilə çəkib belə bir sicilləmə-bayatı da dedi:

Aşıq der, amanım var,
Canım var, imanım var.
Əhdim var, peymanım var,
Nəzrim var, qurvanım var,
Bu ah urusa qalmaz,
Qurtulmax gümanım var,
Şannı Alosmanım var!

Ustad deyir ki, söz tamam olar-olmaz, Mehralı həmin şeri yazıb götürdü ki, əsgərlərimə marş kimi əzbərlədib oxudacam, qoy ruh gətirsin. Elə də elədi. Mehralı Ağbaba, Çıldır, Şörəyel mahallarından öz ətrafına üç yüz qarapapaq igidi topladı. Onlara Borçalıdan da bir o qədər atlı gəlib qoşuldu. Sonra da əli qılınc, silah tutan Suxarada yatdılar səmənd atlarının yalmanına, günə bir mənzil-teyi mənzil qıldılar yolun damarına. Dərələrdən sel kimi, təpələrdən yel kimi qaş qaralanda çatdılar Muxtar Paşanın barigahında çəkdilər səmənd atlarının başını.

Mehralının altı yüz atlıyla gəlişini verdilər Muxtar Paşaya xəbər. Ustad deyir ki, Muxtar Paşa çox hörmət-izzətlə qarşıladı Mehralı bəyi. Soruşdu:

– Əfəndim! Nasıl oldu ki, Qafqaz kimi cənnət məkan bir gülüstanı qoyub da Alosmana gəldin? Mehralı arif adam idi, oxudu Paşanın ürəyini.

– Paşam! Rüxsət versən sinəmə bir neçə xanə söz gəlib, ərz eyləyərdim mübarək qulluğunuza.

Muxtar Paşa dedi:

– İzindəsiniz, Əfəndim!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Götürdü görək Mehralı halına münasib Muxtar Paşaya nə dedi, ərz eyləyək qulluğunuza:

Canımız bir, qanımız bir bilib mən,
Ol səbəbdən sizə gəldim, əfəndim!
Rusu, ermənini qəbul qılmadım,
Sizi bizə arxa bildim, əfəndim.

Gavurlar çox susadılar qanıma,
İnan, qan qusdurdum mən düşmanıma,
Türkə güllə atmağı vicdanıma,
Namus-qeyrətə ar bildim, əfəndim!

Din yolunda əsirgəməm canımı,
Töksə də, qoy türklər töksün qanımı,
Qan qardaşım oxusun quranımı,
Qoy desinlər şəhid oldum, əfəndim!

Çox şükür, xudanın haqqı-sayına,
Ol kərəmin qismətinə, payına,
Aşıq Şenlik qonaq etdi öyünə,
Lütf eyləyib, ülfət qıldı, əfəndim!

Haqqın dərgahına şükür etmişəm,
Allahımın ətəyindən tutmuşam.
Mehralıyam, öz arzuma çatmışam,
Qismətimə qəni oldum, əfəndim!

Söz tamama yetdi. Muxtar Paşa dedi:

– Əfəndim, belə cəsarətlə danışırsan, bu saat Qars mühasirədədir. Anadolu qarapapaqlarının səcdəgahı Qarsı erməni general Loris-Melkon gecə-gündüz qorxu altında saxlayır. Əhli-şəhər təşviş içindədir. Gavurları çaş-baş salmaq üçün ora qəflətən arxadan hücum etmək lazımdır. Gedə bilərsənmi?

Mehralı dedi: «Canla-başla hazıram, əfəndim». Muxtar Paşa dedi: «Haydı, onda sənin igidliyini görək. Səni Qarsa milis başkomandanı qoydum. Qarsı mühasirədən qurtarmağı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sənə həvalə edirəm». Mehralı Muxtar Paşanın belə bir dar gündə Qarsın taleyini ona həvalə etməsindən vəcdə gəldi. Qeyrəti coşa gəlib üzünü tutdu silah yoldaşlarına:

Hay vurun hər yandan qoç igidlərim,
Dağıdın düşməni, diri qalmasın.
Qırın gavurları, aman verməyin,
Viran olsun, eli-yurdu qalmasın.

Meydana girəndə şir-aslan olun,
Düşmənin üstünü qurd kimi alın,
Ələ keçənləri atından salın,
Qoymayın, yüzündən dördü qalmasın.

Görməyiblər Mehralının dadını,
Çəkdirəcəm cəhənnəmin odunu,
Gavurlar duysunlar türkün adını,
Şad olsun Osmanlı, dərdi qalmasın.

Söz sona yetdi. Sonra Mehralı bir nərə çəkib yoldaşlarına hücum əmri verdi. Urusları eylədilər darmadağın, pərənlərini pozub qırdılar çoxunu, sağ qalanlar da zorla qurtardı canını. Bundan sonra Muxtar Paşanın Mehralıya inamı birə beş artdı. Ona minbaşı, qardaşı Alıya da yüzbaşı rütbəsi verdi. Ən çətin tapşırıqlara onu göndərdi. Çünki bilirdi ki, hər bir döyüşdən qələbəylə çıxacaq.

Ustad deyir, bir tərəfdən Mehralı öz dəstəsindəki qarapapaqlar ilə, o biri tərəfdən general Musa Paşa Kunduxov və 50 il Dağıstanda-Çeçenistanda uruslara qan uddurmuş Şeyx Şamilin oğlu Qazı Məhəmməd öz dəstələrindəki dağlı igidlərlə, digər tərəfdən də Qurd İsmayıl Paşa və Muxtar Paşa nizamlı qoşunlarıyla Qars ətrafında özlərindən sayları və silahları qat-qat üstün olan yağı düşmənə tutdular olmazın divan. Mehralı onların bütün əməllərini əvvəlcədən öyrənib bildi. Davanın ən qızğın çağında Tiflisin həndəvərinə qədər gəlib urusları saldı vəlvələyə, teleqraflarını kəsdi, ən yaxşı cins döyüş atlarını keçirdi türk tərəfə, nə qədər mühasirəyə düşsə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

də düşməni qırıb sağ-salamat qayıtdı geri. Mehralı satqınlıq edib uruslara gizli yolları göstərən Hacı Vəli, Tülü Musa, Lətif bəy kimi müsəlmanları tutub Muxtar Paşaya etdi təslim. Satqınlıq edib uruslar tərəfdə vuruşan Dalaverli Mansura da divan tutdu. Urusların komandanı erməni əsilli generallar Loris-Melkon və Kişmişov Mehralının əlindən zara gəlmişdilər, onun qorxusundan gecə-gündüz yatammırdılar. Elə bilirdilər ki, bu dəqiqə yanlarından çıxacaq.

Yerli camaat Mehralının xətrini çox istəyirdi. Ustad deyir ki, əli saz, dili söz tutan aşıqlar elə bil bir-biri ilə Mehralını tərif etmək üçün girmişdilər bəhsə. Qarslı Aşıq Sadıq da Qars qovğasından vəcdə gələrək etdi sazını bəm-zil, götürdü görək Mehralını necə öydü, tərəfindən biz deyək, siz şad olun:

Ey ağalar, bəylər, bizim ellərdə,
Qoçaqlıqdan yana birdi, Mehralı.
Cahallıq eyləyib dağlarda gəzdi
Epey zaman qaçaq durdu Mehralı.

İbtida gözündən düşdü dövlətin,
Sonu gözə girib buldu rəğbətin,
Cahana tanıtdı şanın, şövkətin,
Bir eşsiz namıdar, ərdi Mehralı.

Qan-qovğa qopanda Qarsın başına,
Doxsanüçdə baxdı yurdun işinə,
Dörd-beş yüz atlıyı aldı peşinə,
Moskovun cənginə girdi Mehralı.

Muxtar Paşa qıydı ona nişanı,
Başladı tökməyə xain düşmanı,
Şanı tutdu bütün Qafqazistanı,
Qoçaqlardan düzdü ordu Mehralı.

Orduyi-İslama rəhnümün oldu,
Tanrı Arslanı şad, məmnun oldu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Düşmən güzərgahı həp pürhun oldu,
Leşlərini yerə sərdi Mehralı.

Komandir, qazağı həp bidar etdi,
Rahat yatammadı, can-bezar etdi,
Loris də əlindən əl-həzar etdi,
Gecə qərargahlar yardı Mehralı.

Moskov ordusuna çox dəhşət saldı,
Hər hərəkətlərin kəşf edib bildi,
Osmanlı əsgəri tədabir aldı,
Düşmana tuzağı qurdu Mehralı.

Adını dünyada rusun saldatı,
Qoparırdı «Mamaa» deyin fəryadı,
Moskova xof saldı mərdanə adı,
Gözlərin qurdunu qırdı Mehralı.

Rusu Şürəgəldə peşman eylədi,
Yollarını kəsib hüspan eylədi,
Taburların yerlə-yeksan eylədi,
Ən dilavərlərin yordu Mehralı.

Məlun Hacı Vəli gör nə iş tutdu,
Beş qəpiyə dinin, namusun satdı,
Qarsın təsliminə çox qayrət etdi,
Onu, sağ, Paşaya verdi Mehralı.

Mehralının davada göstərdiyi qəhrəmanlıqlar Sultan II Əbdülhəmidin də qulağına çatdı. O cəbhədə ilk dəfə Mehralıya orden verdi, özünü də şəxsən İstanbula görüşə çağırdı. Mehralı iki həftəliyinə Qarsdan İstanbula Sultanın görüşünə yollandı. Sultan sarayı Dolmabaxçada Sultan II Əbdülhəmid Mehralı bəyi çox hörmət-izzətlə qarşıladı. Basdı onu bağrına. Mehralı orta boylu adam idi. Odur ki, Sultan dedi:

– Ey Mehralı! Ey Borçalı-qarapapax qartalı! Mən elə bilirdim sənin boyun etdiyin qəhrəmanlıqlar qədər ucadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözlərimə inanmıram, oğlum, nasıl oldu ki, bu boy-buxunla, bu qədər şan-şərəfi Alosmanda qazandın?

Mehralı arif adam idi. Söz altında qalan deyildi. O idi ki, dedi:

– Sultanım! Sinəmə bir neçə xanə söz gəldi, icazə versəniz deyərdim.

Sultan II Əbdülhamid dedi:

– İzndəsən.

Aldı görək Mehralı halına binəm nə dedi, tərəfindən biz deyək, sizə könül xoşluğu:

Boyum qısadırsa, qolum uzundur,
Qılıncım hər zaman kəsir əfəndim!
Düşmənin üstünə yeriyən zaman,
İnan, yarpaq kimi əsir əfəndim!

Hayana üz tutdum, açıldı yolum,
Ərənlər piridir qanadım-qolum,
Qadir mövlam qoymadı ki, mən ölüm,
O, eyləyib məni cəsur əfəndim!

Mehralıyam, haqq yoluna qalandım,
Türk oğluyam, türk adına dolandım,
Hər zaman düşməni biganə sandım,
Çoxlarını etdim yesir, əfəndim!

Bəli, Sultan II Əbdülhamid Mehralının sözlərindən məmnun qaldı. Onu yenidən basdı bağrına. Bəyin şərəfinə Dolmabaxça sarayında elə bir ziyafət verdi ki, rüzgarın gözü hələ Alosmanda belə şadyanlıq görməmişdi.

Bu görüşdən sonra Mehralı daha da ruhlanıb cəbhəyə qayıtdı, yenidən başladı qırıb tökməyə türkün düşmənini. Tezliklə rütbəsi yüksəlib miralay, general oldu. Ancaq ruslar öz əsgərlərinin və toplarının sayını birə beş artırdılar. Sonra Qarsa dörd tərəfdən hücum etdilər. Əhməd Muxtar Paşa çox itgi verməmək üçün Ərzuruma doğru geri çəkildi. Uruslara bir ucdan kömək gəlməkdə davam eyləyirdi. Ona görə də onlar əl



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çəkməyib Ərzurumu da işğal etdilər. Ərzurum döyüşlərində Mehralı çox igidliklər göstərsə də ayağından yaralandı. Ondan sonra o axsadı. Mehralı yaralananda uruslar elə bildilər ki, o ölüb, ona görə də sevinclərinin həddi-hüdudu yox idi.

Ustad deyir ki, müharibə sona çatanda Sultan Mehralıya ismarladı ki, öz qarapapaqlarınla kefin Alosmanın harasında istəsə, orada binələnə bilərsən. Mehralı yurd salmaq üçün seçdi aşıqlar məskəni Sivas vilayətini. Çünki bura havasına, suyuna görə öz doğulduğu, boya-başa çatdığı yerin havasına-suyuna oxşar idi. Həm də müharibə dostu general Musa Paşa Qunduxov da burada yaşayırdı. Fikirləşdi ki, dar gündə bir-birimizə həyan olarıq. Sivas vilayətinin Qanqal qəzasında Mehralıya ucsuz-bucaqsız torpaq sahələri verildi. O burada altmış kəndə ağalıq etməyə başladı. Mehralı bəy burada özündən və özü ilə gəlmiş ən yaxın adamlarından ötəri bir kənd saldı və adını da qoydu Acıyurd. Ona görə ki, əvvəlcə Borçalıdan, sonra da Qarsdan ağrılı-acılı gəlmişdilər. Mehralı Anadolunun ən hörmətli, şöhrətli, nüfuzlu adamlarından biri hesab olunurdu. Hamı ona Mehralı Paşa deyirdi. Sivas əhli Mehralı bəy kimi adı dillərdə dastan olan qoçaq bir adamın onların obasında yaşamasına çox sevindi. Aşıq Püryanı Mehralı bəyin gəlişi münasibəti ilə aldı görək nə dedi:

Nasıl mədh etməyim Mehralı bəyi,
Sivas ölkəsinin bəyi gəlibdir.
O zalım düşmənin əlində qalmaz,
Sivas ölkəsinin bəyi gəlibdir.

Hər kəs qədərinə boynunu əyə,
Səsi yayılmışdı şəhərə, köyə,
Zərər-ziyan gəlməz Mehralı bəyə,
Sivas ölkəsinin bəyi gəlibdir.

Əcəm igididir, yaxşıdır, yaxşı,
Göstərir kəndini kamalı, şəxsi,
Əhbabı, yaranı gedərlər qarşı,
Sivas ölkəsinin bəyi gəlibdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Püryanı bu anda söylər, bitirər,
Haqqın birliyinə şükür yetirər,
Yurdun şərəfini bəylər artırar,
Sivas ölkəsinin bəyi gəlibdir.

Hə, mənim əzizlərim! Ustad deyir ki, Qarapapaqların şanlı oğlu Sivasda elə bir mülk inşa etdi ki, göz istəyirdi tamaşasına.

Bu malikanənin inşasında əhli-Sivas cani-dildən qol çərməmişdi. Bu inşada kasıb ustad Aşıq Ruhsəti də işləyirdi. Tanınmış aşıq olan Ruhsətinin əsil adı Mustafa idi. Sivas vilayətinin Acıyurdun qonşuluğunda yerləşən Dəlikdaş kəndindən idi, 12 yaşından yetim qalmışdı. O, sazı-sözü ilə inşaatçıların əl-ayağını güməşdirirdi. O idi ki, inşaatçılar Mehralı bəyə şikayət etdilər ki, Aşıq Ruhsəti onların başını qatır, ona görə də iş ləng gedir. Söz-söhbəti eşidən Mehralı bəy Ruhsətini edir işdən azad. Bunu görən Rühsəti qəhərlənir. Götürür halına binəm Mehralı bəyə belə bir dördlük söyləyir:

Adanada duydum: sıtmasıyla dərdi var,
Ağdağa getdim: tülküsü var, qurdu var,
Avşara getdim: çərkəzi var, kürdü var,
Burada da, bəyim, müzəvirin dördü var.

İşdən azad olunmağına baxmayaraq Aşıq Ruhsəti inşaatdan aralanmır, elə hey şeirlər söyləyib mahnılar oxuyur, gününü beləcə yola verirdi. Belə günlərdən birində Mehralı bəy Ruhsətidən xeyli aralıda ustalara göstəriş verirdi. Ruhsəti fikirləşdi ki, daha belə davam edə bilməz, ömrü yoxsulluq, aclıq, səfalət içində keçib, indi burada da işdən qovuldu, düşündü ki, gəl Mehralı bəyə vəziyyətini de, bəlkə yazığı gələ. Aldı görək dərdini nə təhər söylədi, ərz eyləyək qulluğunuza:

Vaqif ol halıma, mənim əfəndim,
Bir aclıqdan başqa deyəcəyim yox.
Yoxsulluq oduna yandım, alışdım,
Axşamdan sabaha yeyəcəyim yox.

Ah etməkdən bağrım başı sızıllar,
Loğman deyə gəldim, bəylər, qazılar!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Evdə mələşirlər körpə quzular!
Qazana bir ovuc qoyacağım yox…

Nə xəyala doldığımı bilmənəm,
Ruzu şəb ağlaram, bir dəm gülmənəm,
Yol üstə durub karvan vurmanam,
Mənim səndən başqa umacağım yox.

Bütün əhvalımı yazdım varağa,
Atma, Ruhsətini gözdən irağa,
Bir top bez istərəm, bir az nafağa,
Ölərsəm, qəbirdə geyəcəyim yox.

Bəli, Aşıq Ruhsəti Mehralı bəyə yazacağını yazdı, deyəcəyini sözlə də dedi. Ruhsətinin sözləri Mehralı bəyi aldı. Sonuncu bənd ona lap çox təsir etdi, yadına düşdü ki, aşığa bir at söz vermişdi, dediyinə əməl etmədiyi bir yana qalsın, hələ zavallını işdən də çıxarıb. Sanki Mehralı bəyin fikri Ruhsətiyə çatdı, bəyin pərişanlığını duyan aşıq aldı ucadan görək nə dedi:

Kəndi içərimdə neştərim mənim,
Hər qəzada vardır işdərim mənim,
Sivasdan da çoxdur müştərim mənim,
Bir kabab yedirib ətə, qıyammaz.

Yaz gəldi ortalıq güllük, gülüstan,
Yenə mənim başım qurtulmaz yasdan,
Mehralı bəyə də yazdım bir dastan,
İqrar verər, amma ata qıyammaz...

Ciddi bir adam olan Mehralı bəy bu yerdə özünü saxlaya bilməyib, ucadan qəhqəhə çəkdi, aşığı yanına çağırıb könlünü aldı:

– Aşıq, bilirsən ki, mən saza-sözə vurğun adamam, özüm də sənin xətrini çox istəyirəm, havalar yaxşı keçir, yağmur-filan başlamamış inşaatı tamamlamaq, evin üstünü çatmaq lazımdır. Bu sarayın həmişə gözlənilən və ən əziz qonağı sən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olacaqsan, sənsiz, aşıqsız bu cah-cəlalın ləzzəti heç olar. İndi mənim çox xoşladığım o dastan-vaqeəni bir də söylə – dedi.

Mehralı bəyin dediklərini eşidən Ruhsətinin gözləri güldü, könlü açıldı. Qəribə bir yuxunu təsvir edən on iki bəndlik mənzum dastanı söyləməyə başladı. Bu dastanın son bəndini ərz eyləyək qulluğunuza, dinləyənlər var olsun:

Ruhsətiyəm, kəndi kəndimdən keçdim,
Bu gecə mənamda çox yerdən uçdum ,
Bir də, röya imiş, gözümü açdım
Bəyim, həvəs etmə bu rəzilkara.

Mehralı bəyin ürəyi açıldı, kefi duruldu, «Əhsən, ey vallah!» deyib Ruhsətiyə bir öküz bağışladı, ondan yenə nə istədiyini soruşdu. Ruhsəti çəkinməyib dedi:

– Bəyim, sənin mərd və sözünə düz adam olduğun hamıya bəllidir. Mənə Dəlikdaşa gedib-gəlmək üçün söz verdiyin atı istəyirəm, ayaqlarım ağrıyır, yola dözə bilmirəm. Bir də, külfətimi aclıqdan qurtarmaq üçün bir sağmal inək versən, ömrüm boyu sənə duaçıyam.

Mehralı bəy aşığa bir yəhərli-yüyənli at, xeyli əl xərcliyi, sağmal inək, bir də xeyli azuqə və əkin-səpin üçün toxumluq verdi. Dedi:

– Aşıq, halalik bunları apar, Dəlikdaşda əhli-əyalına ver. Ək-səp, inşallah gələcəkdə vəziyyətin daha yaxşı olar. Səni heç bir şeydən korluq çəkməyə qoymayacam. Bu gündən sonra səni özümün ən yaxın dostlarımdan hesab edirəm və sarayın inşaatında işləyən ustaların başı üstünə nəzarətçi təyin edirəm.

Ustadlar deyir ki, elə o gündən Aşıq Ruhsəti ilə Mehralı bəyin arasında şirin və sədaqətli dostluq əlaqəsi yarandı. Ruhsəti Mehralı bəyin sarayının xeyrində-şərində məclisinin başında oturdu.

Mehralı bəyin oğlu Rüşdü bəy də atasına layiq igid, boylu-buxunlu, yaraşıqlı bir gənc idi. Mehralı bəy onu Sivasda yaşayan çərkəz Həmid bəyin qızı Pəmbə xanıma nişanlamışdı. Tədarük edib toya hazırlıq görülürdü. Toyun vaxtı da təyin edilmişdi. Alosmanın ən hörmətli paşalarına, bəylərinə dəvət-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

namələr paylanmışdı. Ancaq əcəl elə gətirdi ki, Rüşdü bəyin on beş yaşında olan nişanlısı qəflətən vəfat etdi. Toy tədarükü yas tədarükünə çevrildi. Toyu aparmağa dəvət olunmuş Aşıq Ruhsəti bu xəbərdən sarsıldı. Toyda söyləməyə hazırlaşdığı duvaqqapama əvəzinə yas mərasimində aldı görək hansı ağıyı söylədi:

Mehralının bir dənəsi
Oyan, nazlı xanım, oyan,
Rüşdü bəyin pərvanəsi
Oyan, nazlı xanım, oyan.

Cehizini sarıb denklə,
Beş yüz atlı gəlir cənglə,
Bahar anan gəldi, bəklə,
Oyan, nazlı xanım, oyan.

Qalx, dur salını-salını,
Rüşdü bəyin gör halını,
Mehralı bəyin gəlini,
Oyan, nazlı xanım, oyan.

Cümlə bəylər yasa gəldi,
Qara geydi, tasa gəldi,
Nişanlın Sivasa gəldi,
Oyan, Pəmbə xanım, oyan.

Nə enişin dibindəsən,
Nə yoxuşun başındasan,
Hələ on beş yaşındasan,
Oyan, gözəl xanım, oyan.

Donatdılar, bəzətdilər,
Bir taxtaya uzatdılar,
Axirətə gəlin etdilər,
Oyan, gözəl xanım, oyan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məzarına dikdilər daş,
Götürdülər yavaş-yavaş,
Rüşdü bəy başında göz yaş,
Oyan, nazlı xanım, oyan.

Ruhsət də bu dərdə şaşdı,
Qəzəvət qazanı coşdu,
Ellər gəldi halallaşdı
Oyan, nazlı xanım, oyan.

Mehralı bəy sarayında aşıqlarla yanaşı, pəhləvanlar da saxlayırdı, tez-tez cıdır yarışları, güləş yarışları keçirirdi. Onun sarayında yaşayan Sicimoğlu adlı pəhləvanın kürəyini heç kəs yerə qoya bilmirdi. Sivasda böyük torpaqlar, var-dövlət, şöhrət-hörmət sahibi olmasına baxmayaraq, Mehralı bəyin vətəni Borçalıdan, doğma kəndi Darvazdan ötrü burnunun ucu göynəyirdi. Amma heç cür oraya gedə bilməzdi. Çünki ruslara olmazın divan tutmuşdu. Ancaq hərdən bir Darvazdan Acıyurda gələnlər olurdu. Mehralı bəy onları böyük hörmətlə qarşılayırdı, Borçalıda nələr baş verdiyini soruşurdu, darvazlıların hamısının tək-tək kef-əhvalı ilə maraqlanırdı, hələ onlara mümkün qədər pul köməkliyi də edirdi.

Bəli, beləcə Mehralı bəyin gün-güzaranı Sivasda xoş keçirdi. Amma, onun da şöhrətinə ağız buranlar vardı. Bir gün qəza mərkəzində qonaqlıq idi. Mehralı bəy də bu qonaqlıqda idi. Bir azdan Qanqal rəisi də gəldi. Hamı hörmət əlaməti olaraq ayağa qalxdı, Mehralı bəy isə qalxmadı. Rəis pərt oldu. Başladı Mehralı bəyə ağır-artıq deməyə. Mehralı bəy verdi Qanqal rəisinin aşının suyunu və dedi:

– Mən, gavurlarla ölüm-dirim döyüşündə olanda sən qalayçı yanında şəyird idin.

Bu cavabdan sonra rəis məclisdən başı alovlu üz qoyur vali Rəşid Paşanın yanına və deyir:

– Mehralı bəy Sivasın valisi siz Rəşid Paşanı əhli-məclisdə qalayçı, məni də sizin şəyirdiniz adlandırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O idi ki, Rəşid Paşa əhvalatın üstünə artıq-əskik qoyub çatdırdı Şövkətli Sultan Əbdülhamid Paşaya. Rəşid Paşanın hirsini-hikkəsini görən Əbdülhamid Paşa dedi:

– Paşa, sən bilirsən ki, Mehralı bəy Alosmanın yenilməz, böyük qəhrəmanıdı. O Alosmanın ən hörmətli qarapapağıdır. Bizim məmləkətin qarapapaqları, Sivas vilayətində, Şərqi Anadoluda yaşayan müsəlmanlar onu çox istəyir. Elə mən də. Mehralı mənim sərbəst, azad aslanımdır. Bəyəm, bir igidi mənə çoxmu görürsən?!

Bəli, Sultan Əbdülhamiddən ağzı yanan Rəşid Paşa kor-peşman qayıdır Sivasa. Bu əhvalatdan sonra Anadolu ağzında Mehralı bəyin bir sözü iki olmur. Amma, Rəşid Paşa da kin-küdurətini unutmur.

Əhvalatı eşidən Aşıq Püryanı götürür görək Mehralı bəyin şəninə nə deyir, əvəzindən biz deyək, sizə könül şadlığı:

Nasıl mədh etməyim Mehralı bəyi,
Hər yerdə şərəfi, ünü söylənir.
Yapdığı igidlik ağlıma düşdü,
Üzərindən keçən günü söylənir.

Bəyin çoxdu anladarsaq davası,
Titrətdi əlində qoca Sivası,
Sürüyü saxladı Qanqal ağası,
Hər yerdə şərəfi, şanı söylənir.

Mehralı bəy ata minər, yürərdi,
Düşmən görsə, qorxusundan ərərdi,
Doxsan üçdə gələnləri qorardı,
Əsaləti, cinsi, dini söylənir.

Mehralı bəyimi bilənlər bilir,
Güclü idi bir orduya baş gəlir,
Ol hər yerdə qəhrəmanlıq söylənir,
Böylə qəhrəmanın halı söylənir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mehralı bəy səni nasıl duyuram,
İgidlərdən səni seçəm, ayıram,
Yaradandır səni böylə yaradan,
Püryanı bu gün də bunu söyləyir.

Sivasda tez-tez at yarışları keçirirdilər. Bu yarışlarda hey Mehralı bəyin Qarakötüyü birinci yeri tuturdu. Amma bu atın da bir tərs xasiyyəti varıymış, güllə atmasan yaxşı qaçmırmış. Qarakötüyün bu xasiyyətini Rəşid Paşa öyrənir və bir də at yarışı keçiriləndə şərt qoyur ki, güllə atmaq olmasın. Hamı razılaşır. Yarışda Qarakötük geridə qalır. Yarışa baxan Çopur Əhməd adında bir qarapapaq buna dözə bilmir. Öz-özünə fikirləşir ki, ayə, bu nə təhər ola bilər, Mehralı bəyin atı olsun, özü də geridə qalsın və piştoyunu çıxarıb göyə bir güllə buraxır. Qarakötük güllə səsini eşidən kimi yel təki götürülür və birinci yeri tutur. Bu əhvalatdan sonra Mehralı bəynən Rəşid Paşanın arası lap pis olur.

Ustad belə ərz eyləyir ki, Mehralı bəy Alosmanda onun şanına mübarək sözlərdən vəcdə gəlir. Sivasda Alosmana layiq şanlı süvari ordusu düzəldir. Bu orduya Qarapapaq Həmidiyyə Alayları deyirdilər. Hansısa bir vilayətdə dövlətə qarşı üsyan baş verəndə o saat onu yatırtmaq üçün Mehralı bəyin bu alayını göndərirdilər.

Bir dəfə Bağdadda ərəblər Alosmana qarşı üsyan eyləyir. Üsyanın başında Cəfər adında amansız bir eşkiya dururdu. Ona görə də marşal Qurd İsmayıl Paşa sultanın tapşırığı ilə özünü yetirdi kömək istəmək üçün Acıyurda, Mehralı bəyin hüzuruna. Mehralı bəy Qurd İsmayıl Paşanı görüb çox sevindi. Ustad deyir ki, Sivasın, Qeysəriyyənin, Ərzincanın, Toqatın ən hörmətli paşalarını, bəylərini, ağalarını yığıb onun şərəfinə yeddi gün, yeddi gecə qonaqlıq verdi. Sonra bərabər Bağdada yollandılar. Bağdad valisi onları hörmət-izzətlə qarşıladı. Mehralı bəy eşkiya Cəfərə təslim olmaq üçün üç gün möhlət verdi. Cəfər Mehralı bəyin adını-sanını çox eşitmişdi. Ona görə də Mehralı bəyə ismarladı ki, əgər məni cəzalandırmasan ömrümün axırına kimi sənin sədaqətli qulunam. Mehralı bəy



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kişi sözü verdi ki, səni qurdalamayacam. Ondan sonra eşkiya Cəfər Mehralını yanına gəldi və ona ən yaxşı cins ərəb atları hədiyyə etdi.

O zamanlarda bütün Ərəbistan Alosmanın əlində idi. İngilislər türklərin gücündən qorxub Yəməndə aranı qatdı. Orada yaşayan ərəblər türklərə qarşı üsyan qaldırdılar. Çoxdandan qəlbində kin bəsləyən Rəşid Paşa Mehralı bəydən qurtulmaq üçün sultana yazdı ki, bu üsyanı yatırsa, yalnız Mehralı bəy yatıracaq. Sultan Rəşid Paşanın yazdığını oxuyub Mehralı bəyi görüşmək üçün ikinci dəfə İstanbula dəvət etdi. Yaşı altmışı ötmüş Mehralı bəy öz hərbi geyimini geyindi, qılıncını da bağlayaraq alayından üç-dörd nəfəri götürüb yollandı yeddi təpədə yerləşən İstanbula. Mehralı bəy Sultan sarayının mərmər pillələrini qalxanda, axsadığı üçün onun qılıncındakı gümüş ucluq pillələrə dəyib səslənirdi: «tıq», «tıq», «tıq», «tıq»,... Bu tıqqıltını Sultan Əbdülhəmid da eşitdi, gördü ki, gələn gözlədiyi Mehralı bəydir. Tez ayağa qalxıb onu qarşılamağa hazırlaşdı. Mehriban görüşüb xeyli səmimi söhbətləşəndən sonra Sultan dedi:

– Aslanım, düşmənlərimiz Alosmanı parçalamaq istəyir. Yəməndə ərəbləri üsyana qaldırıblar. Hamı deyir ki, bu üsyanı yatırtsa Mehralı bəy yatıracaq. Ona görə səni çağırdım ki məsləhətləşəm. Mən bilirəm ki, sən onsuz da məmləkətimiz üçün əvəzsiz işlər görübsən. İndi yaşının da o vaxtı deyil. Yəmən çox isti yerdir. Sən elə istilərə alışmayıbsan. Bu məsələdə sərbəstsən. İsəyirsən get, istəmirsən getmə. Kef sənindir.

Mehralı bəy Yəmənə getməyə «yox» deməyi şərəfinə sığışdırmadı. Sivasa qayıdıb alayını topladı. Hazırlıq işlərinə başladı. Mehralı bilirdi ki, bu səfər çətin səfərdi. Hamı deyirdi ki, Yəmənin istisi dözülməzdir, oraya gedən bəri başdan ölmüş sayılır. Odur ki, dedi, uzaq səfərdi, nə olar, nə olmaz, yaxşısı budur gəl qohum-əqrəbayla halallaş-vidalaş. Aldı görək Mehralı bəy yaxınlarına nə dedi, biz deyək, eşidənlər şad olsun:

Gəlin halallaşaq, qohum-qardaşım,
Uzaq yerə bir zamana gedirəm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ya qismət sağ gələm, ya da gəlməyəm,
llahı deyib amana gedirəm.

Mən ölsəm də vicdanımı atmaram,
Namərdlərin kölgəsində yatmaram,
Millətimi ərəblərə satmaram,
Əgər düşsəm çən-dumana gedirəm.

Mehralıyam artıq ötübdür yaşım,
Neçə-neçə qovğalar çəkib başım,
Mənim ilə gedir igid qardaşım,
Ərəb eli o Yəmənə gedirəm.

Mehralı sözünü qurtarıb bütün qohum-qəlrəbəsi ilə görüşüb-halallaşdı. Sonra üzünü oğlu Rüşdü bəyə tutub dedi:

– Oğlum, bilirsən ki, Yəmənə gedənin çoxu geri qayıtmır. Şər deməsən xeyir gəlməz. İşdi gəlməsəm, çalış el içində hörmət-mərifət yiyəsi ol. Bu tərəfin qarapapaqlarından muğayat ol. Onda mənim də ruhum şad olar. Əmin Alı bəy də mənlə getmək istədi. Ona görə də bu gündən məni bu torpaqlarda sən əvəz etməlisən.

Mehralı bəy Rüşdü bəyə öyüd-nəsihət verəndən sonra tullanıb ata mindi. Ordusuna nizamla düzülməyi əmr etdi. Mehralı bəyin özü rəsmi geyimdə alayın lap qabağında dururdu. Mehralı bəy tərpənmək istəyəndə həyat yoldaşı Bahar xanım gözlərinin yaşını abu-leysan kimi töküb onun qabağını kəsdi. Elə bil Bahara dedilər ki, Mehralı bu səfərdən qayıtmayacaq. Odur ki, siyah zülfündən üç tel ayırıb görək Mehralıya nə deyir və Mehralı nə cavab verir. Hər ikisinin tərəfindən ərz eyləyək, dinləyənlər sağ olsun.

*Bahar xanım:*

Sən gedirsən xudam üstünlə getsin,
Get, Mehralım, sağlıq ilə gələsən,
Yaradanım nicat versin işinə,
Get, Mehralım, sağlıq ilə gələsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Mehralı bəy:*

Allahı çağırıb düşürəm yola,
Qorxma, yarım, sağlıq ilə gələrəm,
Talehimi fələk mənlə verərsə,
Qorxma, yarım, sağlıq ilə gələrəm.

*Bahar hanım:*

Sən gəlincə gözüm yolda olacaq,
Rəngim-ruhum saralacaq-solacaq,
Rüşdü bəyim sənsiz yalqız qalacaq,
Get, Mehralım, sağlıq ilə gələsən.

*Mehralı bəy:*

Yapışmışam ətəyindən Allahın,
İslamın pənahı o gözəl şahın,
Din yolunda götürmüşəm silahı,
Qorxma, yarım, sağlıq ilə gələrəm.

*Bahar xanım:*

Müşküldə qoydun Baharın işini,
Axıtdın gözündən qanlı yaşını,
Aparırsan özünlə qardaşını,
Get, Mehralım, sağlıq ilə gələsən.

*Mehralı bəy:*

Qırx beş ildi nə ki qovğa etmişəm,
Allahımın ətəyindən tutmuşam,
Mehralıyam, artıq yaşa dolmuşam,
Qorxma, yarım, sağlıq ilə gələrəm.

Hər ikisinin sözü tamam olmuşdu ki, Mehralı bəyin gözü geridə durub gözləri yaşla dolmuş oğlu Rüşdü bəyi aldı. Dedi ki, gəl bir-iki kəlmə sözlə bunun da könlünü al. Götürdü görək Mehralı bəy oğlu Rüşdü bəyə nə söylədi:

Mən gedirəm Rüşdü bəyim ağlama,
Köz qoyub da ciyərimi dağlama,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Alay getdi məni burda əyləmə
Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyil mi, vallah kimə nə?

Ta əzəl əzəldən yaslıyam, yaslı,
Çiftə al qılıncın ucları paslı,
Mehralıyı sorarsan, əzəldən yaslı
Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyil mi, vallah kimə nə

Mən gedirəm, Rüşdü bəyim sənə bir nişan,
Susuzluqdan alayları pərişan,
Heç iflah olurmu Yəmənə düşən?
Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyil mi, vallah kimə nə?

Yəmən çölündə tabur qurayım,
Zalım düşmanlara hesab sorayım,
Fərman padişahdan orda öləyim,
Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyil mi, vallah kimə nə?

Yəmən çölü viran olsun, dağ olsun,
Bizim ellər yaşarsın da bağ olsun,
Mən ölürsəm, Rüşdü bəyim sağ olsun,
Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyil mi, vallah kimə nə?

Mehralı bəy sarayında heç kəsin xətrinə dəyib-dolaşmırdı. Bütün işçiləri, mehtərlər, qulluqçular, kənizlər ondan razı idilər. Heç biri istəmirdi ki, Mehralı bəy Yəmənə getsin. Ona görə Bahar xanım bir yandan Mehralı bəyə yalvar-yapış eyləyib saxlamaq istəyəndə, qulluqçular, mehtərlər də bir tərəfdən alayın Yəmənə getməsinin qarşısını almaq istəyirdilər. Aldı görək baş mehtər Alı bəyi qardaşını Yəmənə getməkdən çəkindirməkdən ötəri nə təhər dilə tutmağa çalışdı, biz deyək, eşidənlər şad olsun:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mehralı bəy Həmidiyyə alayı,
Düşmənlər çıxardı türlü bəlayı,
Nədir, Alı bəyim, bunun qolayı?
Yəmənə de, mənim ağam, Yəmənə,
Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.

Mehralıyı sokaklarda tutdular,
Ağamı da bir qurşuna satdılar,
Mehralıyı Yəmənə də atdılar
Yəmənə de, mənim ağam, Yəmənə,
Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.

Dövlətə bağlıdır onun bu başı,
Cahanda arasan bulunmaz eşi,
Zira altmışı ötübdü yaşı
Yəmənə de, mənim ağam, Yəmənə,
Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.

Ərəb atlar gəldi bağlanmaq istər,
Kömüşlərin gəldi yağlanmaq istər,
Rüşdü bəy böyüdü, evlənmək istər
Yəmənə de, mənim ağam, Yəmənə,
Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.

Qum təpəsi oldu görünməz otlar,
Aclıqdan ölürlər küheylan atlar,
Qardaş şəhid düşdü neçə igidlər
Yəmənə de, mənim ağam, Yəmənə,
Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Alay Yəmənə yola düşdü. Onların keçdiyi yerlərdə hamı yolun qırağına tamaşaya düzülürdü ki, Mehralı burdan keçəcək. Bir müddət sonra quru ilə, dənizlə gedib çatdılar Yəmən elinə. orada da igidlik göstərib düşməni qırıb-çapdılar. Ancaq qarapapaqlar isti yerin havasına alışıq deyildilər. Ona görə də Mehralı bəy Ərəbistanın istisinə, susuzluğa dözməyib xəstələndi. Gördü ki, işi çox ağırdı. Bir gün elə oldu ki, su yoluna çıxdı. Bir də gördü ki, iki murğu quşu gəlib bunun qarşısına qondu və başladılar öz dillərində ötməyə. Mehralı bəy öz-özünə dedi, ey dili-qafil! Deyirlər bəzi hallarda məleykələr göyərçin, bir də ahu olub bu donda adamın gözünə görükürlər. Olmaya bunlar da məleykədirlər, gəl Sivasa bir namə yaz at bunlara. Əgər məleykə olsalar bu naməni aparıb çatdırarlar. Yox əgər adi quşlardısa, onda məktubum qalar. Alır görək Mehralı bəy nə yazır, tərəfindən ərz eyləyək, eşidənlər şad olsun.

Murğu quşu, bir Allahın eşqinə,
Mənim halımı Sivasa yetirin,
Qohuma, qardaşa, dosta, yarana,
Yol gözləyən vəfadara yetirin.

İşdi gedər olsan bizim ellərə,
De ki, gözünü tikməsin yollara,
Həsrətin çəkdiyim şirin dillərə,
Vəfadarım o Bahara yetirin.

Xalqımın yolunda çəkmişəm cəfa,
Din-islamın zamınkarı qıl şəfa,
Dada yetiş Məhəmməd əl Mustafa,
Əli yollu ələmdara yetirin.

Özün məleykəsən murğu donunda,
Bəlkə sözün keçər haqqın yanında,
Yardım istəyərəm mənşər günündə,
Etmə məni günü qara, yetirin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mehralı çəkdiyi dad ilə ahdı,
Hər şeyi xəlq edən qadir Allahdı,
Mənim qayıtmağım haqqa pənahdı,
Acıyurddakı dostlara yetirin.

Mehralı bəy sözünü tamamlayıb dil cavabında bir neçə söz yazıb naməni büküb atdı həmin quşlara. Özü dönüb geri getdi. Quşların biri şığıyıb naməni aldı dimdiyinə, pərvaz edib uçmağa başladı. Gecəni gündüzə qatıb gəldi Sivas elinə. Məktubu aparıb düz Bahar xanımın oturduğu imarətin qarşısında yerə atdı, özü isə ağaca qonub tamaşa eylədi. Naməni aparıb çatdırdılar Bahar xanıma. Bahar naməni oxuyub bilir ki, onu quş gətirib. Başına-dizinə döyə-döyə alır görək Murğu quşuna nə deyir:

Murğu quşu, bu naməni gətirdin,
Söylə görüm Mehralımı neylədin?
Gətiribən arzusuna yetirdin,
Söylə görüm Mehralımı neylədin?

Bir de görüm bu nə sual-sorğudur,
Bu yazılar haqdan gələn qurğudur,
Özün məlaikə, donun murğudur,
Söylə görüm Mehralımı neylədin?

Yetirdinmi sən ağzına, dilinə,
Söylə, nə vəsiyyət etdi elinə,
Mən yazığı niyə saldı zülümə,
Söylə görüm Mehralımı neylədin?

Eşitmədim vəsiyyətini, sözünü,
Ağlar qoydu bu Baharın gözünü,
Çoxmu solğun gördün onun üzünü,
Söylə görüm Mehralımı neylədin?

Bahar sözünü qurtarıb başladı ağlamağa. Qulluqçuları böyür-başına yığışıb sakitləşdirməyə başladılar. Dedilər ki, hələlik bir səda-soraq yoxdu, niyə ağlayırsan? Bahar da dedi ki, mən o naməni oxuyan kimi bildim ki, Mehralının başında qaranlıq var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İndi sizə xəbər verim Mehralı bəydən. Mehralı bəy istiyə dözməyib ömrünü bağışladı oğluna. Onu Yəməndə dəfn etdilər. Mehralı bəyin alayındakı igidlərin çoxu da istiyə tab gətirməyib bu dünyadan köçdülər. Təkcə yüzbaşı Əhməd, çavuş Mahmud, çavuş Göyçə, çavuş Məhəmməd, Yetim İsmayıl, Turan Ağca və Quşqayası kəndindən Hüseyn sağ-salamat geri qayıtdılar.

Mehralı bəyin ölüm xəbəri hər yana ildırım təki yayıldı. Anadolu ellərində, Borçalı kəndlərində ehsanlar verildi. Acıyurda başsağlığına dövlət adamları gəldi. Aşıqlar, şairlər yas saxladı, ağılar dedi. Mehralı bəyin yaxın dostu, onun sarayının ən hörmətli qonağı, saraydakı məclislərdə daim başa çəkilən Dəlikdaşlı Aşıq Ruhsəti də bu xəbərdən sarsıldı, göz yaşlarını sel-su kimi axıtdı və aldı belə bir ağı dedi:

Bəlloldu getdiyin, mənim əfəndim,
İndelhan olanlar səni arayır.
Yıxıldı bir yanı qoca Sivasın,
Dərvişan olanlar səni arayır.

Pozuldu əlvanı uca binanın,
Qəmi artdı içindəki çobanın,
Kəsildi qisməti xanə viranın,
Cənnətdə qılmanlar səni arayır.

Yüklədi köçünü can Məmmədalı,
Bir zaman dillərdə söylənsin halı,
Mehralı qızının qırıldı qolu,
Axıtdı al qanlar, səni arayır.

Qayri-şahin uçdu, dalda yar qaldı,
Vəfasız dünyanın ömrü az qaldı,
Bağlar çiçək açmış, güllü yaz gəldi,
Baxçavan olanlar səni arayır.

Nə müxalif dəydi fələyin daşı,
Nasıl yaxdı ayrılığın atəşi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yenə eşkiyalar qaldırdı başı,
Bəzirgan olanlar səni arayır.

Hanı sənin kimi ellərdə rəhbər,
Səndən ziya umar günlər, gecələr,
Çarşılarda əsnaf, köylərdə rəncbər,
Dağlarda çobanlar səni arayır.

Olanca muradın məhşərə qaldı,
Fələk bu bəlayı bizlərə saldı,
Aşıq Ruhsəti də məddahın oldu,
Neçə pəhləvanlar səni arayır.

Hə, mənim əzizlərim! O vaxtdan aylar keçdi, qərinələr, illər ötdü, bu sədalar çatdı qədim-qayım türk yurdu Borçalıda ömür sürüb gün keçirən Aşıq Məhəmməd Sadaxlıya. Aşıq Məhəmməd Sadaxlı da bir qədər qəmlənib-kədərlənib götürdü alim qardaşı, akademik Valeh Hacıların «Borçalı Mehralı bəy tarixi həqiqətlərdə» kitabını oxudu və ondan təsirlənərək tanış olduğunuz «Mehralı bəy» dastanını düzüb-qoşdu, sonda da Mehralının əvvəlcə igidliyini, sonra da ölümünü nəzmə çəkib bir duvaqqapma ilə görək nə dedi, biz söyləyək, eşidənlərə könül şadlığı:

İstəyirəm saz götürüb
Belə bir dastanı deyim!
Söyləyim mahallara
Eşitsin hər yanı deyim!
Öz mahalı Borçalıdır
Darvazdı məkanı deyim!
Əsil adı Mehralıdı,
Ləqəbi bəy, xanı deyim!
Dörd bir yana səda saldı,
Bir yan, Alosmanı deyim!

Borçalının igid oğlu,
Bir can qoydu bu cahana,
Çoxlarına divan tutdu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Düşmən qaldı yana-yana,
Dolaşdı İran-Turanı,
Ordan keçdi Alosmana,
Dörd bir yana tel vurdular,
Çox axtardılar bəhana,
Xaliq özü pənahında,
Saxladı o canı deyim!

Ər oğlu tək ad qazandı
Aldı dağın havasını;
Qartal kimi zirvələrdə
Saldı məskən-yuvasını.
Uruslarla cəng eylədi
Qazandı hər davasını;
Belə qəhrəman igidlə,
Heç kim etməsin bəhsini;
Dağıdıb səfləri pozan,
Böylə bir aslanı deyim!

Köç eylədi qoç Koroğlu,
Çənlibel oylağı qaldı.
Rüstəm öldürdü oğlunu,
Sinəsində dağı qaldı.
Nə Nəbi, nə Qaçaq Kərəm,
Nə də Qandal Nağı qaldı.
Dağladın neçə sinələr,
Nə ürəyinin yağı qaldı,
Neçələrini yola saldın,
Alosman aslanı deyim.

Məmlinin qəhrəman oğlu,
Tək gəlmişdi bu dünyaya.
Gavurlara qan uddurdu
Düşmən qaldı yana-yana.
Ya ilahim, necə qıydın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Belə igid qəhrəmana.
Mehralı tək igid oğlu
Bir də doğacaqmı ana?
Vaxtsız getdi bu cahandan,
Etmirdim gümanı deyim.

Ey vəfasız fani dünya,
Söylə, səndə mürvət hanı?
Vaxtsız çox yola salıbsan
Neçə-neçə qəhrəmanı!
Tarix boyu kim unudar,
Mehralı tək bir insanı?
Ələsgər yazdı-yaratdı
Dəli Alıya dastanı,
Sadaxlı aşıq Məhəmməd
Qoşdu bu dastanı deyim!

## CƏLAL-SAYAD SƏLVİNAZ

Atı üryan, kəndi üryan olan da,
Zəhmər ayda qarlı dağlar aşarmı?
Öksüzün yarası dərin olanda
Kimsə neştər vurub onu deşərmi?

Xoş cavabın düşün, söymə bir kəsə,
Sarala heyvatək, sərkəndə gəzə,
Bu dünyada dəftər versək iblisə
O dünyada yaxasından düşərmi?

Şivğa sözü nəsihətdir bilənə,
Hər keş öz dinincə namaz qılana,
Qəlbi, xülqi sidqi təmiz olana
Cənnət yolu bir cəddədi, şaşarmı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ustadlar ustadnaməni bir yox, iki deyərlər, biz də deyək iki olsun:

Bir iyid bus etsə şah damənini,
Təkdir etmək adı-şana düşərmi?
İyidin olmasa həyatda dərdi,
Dərman üçün o loğmana düşərmi?

Həsrət didələrin dəmdə olmasa,
Tuti-qəmzələrin canda olmasa,
Pərvanənin meyli şamda olmasa
Dönə-dönə nar içinə düşərmi?

Şeydayi der, şükrün kəsmə mövladan,
Məcnun da nə bafa gördü Leyladan,
Səfil bayquş ləzzət alsa dünyadan,
Piral olub viranəyə düşərmi?

Ustadlar ustadnaməni iki yox, üç deyərlər, biz də deyək üç olsun, xainin ömrü püç olsun:

Ağır məclisdə çalmağa sazım yox, nedem, nedem,
Aşığınən dilləşməyə sözüm yox, nedem, nedem,
Dostlarımı mehman etsəm, layiq etsələr məni,
Kəsib də kabab etməyə quzum yox, nedem, nedem.

Havalanma dəli göylüm, çıxma dağlar başına,
İyid var ki, cavab verər bizim kimi beşinə,
Deməyinən təkcə mənəm, öyünmə boş-boşuna,
Qutni-qumaş sahavıyam, bezim yox, nedem, nedem.

Əl əldən üstün, Vladimer, vardır eyidən eyi,
İki qoşma deməyinən qabarma aşıq deyin,
Saz-kaman olmayan yerdə çarasız eydir meyi,
O da ellərdə bulunur bizim yox, nedem, nedem.

Vərani-əkbər, şiruni-şəkər, şəkəri-şirin, şirini-dirtap, belə rəvayət, belə hekayət edirlər ki, Qəndəhərdə Mahmud paşa adlı bir padşah hökmranlıq edirdi. Mahmud paşanın on beş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaşında bir oğlu var idi, adı Cəlal idi. Padşahın özünün yetmiş yaşı var idi. Elə oldu ki, Mahmud paşa ağır xəstələndi, başını əcəl yastığına qoydu, vəzir-vəkillərini yanına çağırıb dedi:

– Sağala bilməsəm, rica edirəm ki, oğlum Cəlala 25 yaşına qədər taxt-tacı tapşırmayasınız. O çox cavandı. Xalqı yola apara bilməz. 25 yaşına çatar, ondan sonra taxta çıxararsınız.

Ertəsi gün Mahmud paşa ömrünü bağışladı.

O zamanlar ölən padşahın yerinə təzə padşah qoymamış, cənazəni yerdən qaldırmazdılar. Gətirib vəzirin birini padşah təyin etdilər, dedilər ki, Cəlal 25 yaşına çatana kimi, on il müddətində padşahlıq edəcəksən. Vəzir də başladı ölkəni idarə etməyə.

Günlər keçdi. Cəlal da yasdan çıxıb başladı dükanda-bazarda gəzməyə. O, bir gün baxıb gördü ki, küçədə beş-altı uşaq yığılıb aşıq-aşıq oynayır. İçlərində bir keçəl var idi. Keçəl uşaqların hamısının aşığını uddu, sonra da əllərindən alıb aradan çıxdı. Uşaqlar keçəlin arxasınca gedib ona yalvarmağa başladılar ki, bir az aşıq ver, üstünə artırıb sabah yenə oynayarıq. Keçəl onlara acıqlanıb dedi ki, haramzadalar, mən qumardan aşıq qazanım, yenə gerimi qaytarım. Sonra da uşaqların hərəsinə bir şillə vurdu. Cəlal uşaqların ağladığını görüb, onlara yazığı gəldi, dedi:

– Ay keçəl, vermirsən vermə, daha uşaqları niyə döyüb ağladırsan?

Keçəl dedi:

– Balam, bu qumardı, mərifətin varsa, sən də oyna.

Cəlal:

– Mən sənin balan oldum, ha? Mən Mahmud paşanın oğlu ola-ola sən mənə bala deyirsən ha, – deyib keçəlin ağzına bir şillə çəkdi. Keçəl ağlaya-ağlaya anasının yanına getdi. Anası soruşdu ki, nə olub, bala, səni kim vurdu. Keçəl dedi ki, məni Cəlal bəy döydü.

– Hansı Cəlal bəy?

– Mahmud paşanın oğlu Cəlal bəy.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Deməli belə hə, keçinin əcəli yetişəndə başını çobanın çomağına sürtər. Mən onun başına elə iş gətirim ki, adı da yadından çıxsın.

Keçəlin anası soğan əzdi, burnuna tutdu, sarımsaq əzdi gözlərinə sürtdü, ağlaya-ağlaya gəlib Cəlala dedi:

– Cəlal bəy, ayıb sənin kamalına, ayıb sənin camalına. Hayıf ki, sən Mahmud padşahın oğlu ola-ola taxt-tac haqqında düşünmürsən, küçələrə düşüb bizim keçəli döyürsən. Kim deyir ki, ağıl artır, get-gedə azalır, 25 yaşında da indiki ağlınla padşah olacaqsan. Get, atanın taxt-tacına sahib ol.

Arvadın sözləri Cəlalın çox xoşuna gəldi. O, çıxarıb qarıya bir qızıl da verdi. Atasının qılınc-qalxanına qurşandı, zorla taxta çıxdı. Tanışlardan kimisini vəzir təyin etdi, başladı ölkəni idarə etməyə.

Günlər ötdü, həftələr yetdi, aylar tamam oldu. Üç il ərzində, ölkəni idarə etmək əvəzinə, Cəlal Mahmud paşanın 15 xəzinə qızıl-gümüşünün altından vurub üstündən çıxdı. Hörmətdən düşdü, üzünə baxan da olmadı. Ölkə də qaldı başlıbaşına. Bir gün o gəlib anasından soruşdu.

– Axşam yeməyinə nə hazırlamısan?

Anası dedi ki, sən yemək soruşan deyildin, indi nə olub ki, soruşdun:

– Ana, cibimdə pulum yoxdu, dost-tanış da üzümə baxmır.

Anası dedi:

– Ata malını suya verənin axırı həmişə belə olar, bala. Get, indi bir peşədən-zaddan öyrən, başımızı bir təhər saxlayaq.

Anasının sözləri Cəlalın ürəyini qana döndərdi, təsirləndi, ağlamağa başladı. O qədər ağladı ki, yorulub əldən düşdü, öz otağında yuxuya getdi. Gecənin bir vaxtında bir nurani pir gəlib durdu başının üstündə, dedi:

– Cəlal, nə yatmısan, dur gözlərini aç, gör dünyada nələr var.

Cəlal gözünü açıb gördü ki, bir nurani qocadı, əlində də bir badə, başının üstündə durub deyir:

– Al, bala, bu badəni nuş et.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəlal dedi:

– Zəhrimara qalsın o badəni, o deyilmi məni bu günlərə salan. And içmişəm, baba, daha ağzıma vurmaram.

Qoca dedi:

– Balam, bu o badələrdən deyil. Bu, murad badəsidi.

– Murad badəsinin mənə nə xeyri?

– Murad badəsi Arzuyu Qəmbərə, Vərqanı Gülşaya, Leylini Məcnuna, Əslini Kərəmə, Aşıq Qəribi Şahsənəmə buta verən badədi.

Cəlal badəni götürüb başına çəkmək istəyəndə, nurani qocı dedi ki, dayan, oğul, bir duasını da verim.

Dedi:

– Nə duasıdır?

– Bunu içərsən səni, məni yaradan Mövlanın eşqinə.

Cəlal içdi. Qoca badəni bir də doldurdu:

– Bunu da iç qırxların, pirlərin eşqinə.

Cəlal bunu da içdi.

Qoca üçüncü badəni də doldurdu:

– Bunu da nuş et Şiraz şəhərində Əhməd paşanın qızı Sayad-Səlvinazın eşqinə.

Cəlal bunu da içdi.

Qoca dedi:

– Oğul, nə gördün?

– Nə var, nə görüm? Üç badə, bir pir gördüm.

– Oğul, mən barmağımı hayana uzatsam, sən ora bax.

Barmağını uzatdı, dedi:

– Oğul, nə görürsən?

– Dağlar, dərələr, təpələr, kəndlər, bir də şəhərlər.

– İrəli bax yenə nə görürsən?

Qoca Şiraz şəhərini xəlbir boyda yerdən Cəlalın düz gözünün qabağına gətirdi. Bu yerdə Cəlal dedi:

– Bir gözəl şəhər görürəm.

– Oğul, bu şəhərdə sənə nə verim?

– Çox gözəl şəhərdi, elə şəhəri mənə versən yaxşı olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, oğul. Bu şəhərdə sənin kimi minlərlə adam yaşayır. Bu boyda şəhərdə özünə layiq bir şey tapa bilmirsənmi?

Cəlal bu vaxt öz otağında qızıl taxtın üstündə əyləşmiş Sayad-Səlvinazı görüb dedi:

– Əllərinə qurban olum, baba. Əllərini tərpətmə, gözəl bir qız görürəm. Gözlərimdən itsə, evim yıxılar.

– Bax, onu sənə məşuq etmişəm, səni ona aşiq. Çox çövri-cəfa çəkərsən, amma, inşallah, murada yetərsən.

Cəlal əlini uzatdı ki, qızdan yapışsın. Bu vaxt əli boşa çıxdı, üzüquylu yıxıldı.

Sabah açıldı, üstünüzə xeyirli sabahlar açılsın. Anası baxdı ki, Cəlal otaqdan çıxmadı. Cəlalın otağına qalxıb nə görsə yaxşıdı? Oğlu bihuş olub yatır, ağzından da köpük daşlanır. Anası saçlarını yolub şivən qopardı. Bütün alim-üləmaları çağırtdırdı, bir şey baş aça bilmədilər. Soruşdu ki, yenə çox-bilmiş, dünyagörmüş bir kəs qaldımı? Dedilər: Tək bir qoca qarı qalıb, 200 yaşında. Ondan sinni heç kəs yoxdu, bir onu da çağırtdır. Getdilər, qarını gətirdilər. Qarı baxıb soruşdu ki, bəs bu təbib-loğmanlar nə dedilər?

Dedilər ki:

– Nə bilək, baş açan olmadı, kimi deyir dəmlənib, kimi deyir qudurub, kimi də deyir cinşəridi.

Qarı dedi:

– Ət-mət bişirəniniz dəmlənsin, külü döşürəniniz dəmlənsin, evi süpürəniniz dəmlənsin. On səkkiz yaşında belə bir sevda səri mənim də başıma gəlib. Onda getdilər sazbənddən bir saz gətirdilər. Saza təzyanə vuran kimi qalxıb dərdimi bir-bir söylədim. Gedin, bir saz tapıb gətirin.

Tapıb gətirdilər. Qarı nənə sazı səsləndirən kimi Cəlal gözlərini açdı. Anası onun gözlərindən öpüb dedi:

– Bala, dərdin nədi? Dərdini söylə görək.

Cəlal dedi:

– Nənənin əlindəki sazı verin, söyləyim.

Sazı verdilər. Aldı, görək Cəlal anasına nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yatırkən üstümə gəldi ərənlər,
Ana, halal eylə, mən gedər oldum.
Göründü gözümə yarı verənlər,
Ana, halal eylə, mən gedər oldum.

Anası gördü ki, oğlu əməlli-başlı saz çalır. Dedi ki, deyəsən aşıqlıq eləməyə gedəcək. Aldı görək oğluna nə cavab verdi:

Qürbətə gedərsən, bağrım dağlanar,
Oğul, sən gedəndə necolur halım?
Bir iyid görəndə dilim bağlanar,
Oğul, sən gedəndə necolur halım?

*Aldı Cəlal:*

Peykan vurub bu sinəmi paralar,
Göründü gözümə qaşı qaralar.
Haramımdı indən belə buralar,
Ana, halal eylə, mən gedər oldum.

Anası düşündü ki, bir soruşum, görüm, oğlum hara getmək istəyir, fikrinə haralar düşüb:

Baş qoyuban yastıq üstə yatanam,
Baş götürüb vilayətdən itənəm,
Söylə, oğul, gedəcəyin vətəni,
Oğul, sən gedəndə necolur halım?

*Aldı Cəlal:*

Bu dərd məni hərəkətdən salıbdı,
Gülüstanda güllərimiz solubdu,
Şiraz şəhərində Sayad qalıbdı,
Ana, halal eylə, mən gedər oldum.

Anası öz-özünə fikir elədi ki, Şiraz hara, bura hara? Düşündü ki, bir hədə-qorxu gəlim, qarğış eyləyim, bəlkə bu yoldan çəkinə:

Oğul, sən gedəndə bilməm neylərəm,
Xançal alıb bağrım başı teylərəm.
İltimasa durub qarğış eylərəm,
Oğul, sən gedəndə necolur halım?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı Cəlal:*

Cəlalam, sözümü söyləyərəm xoş,
Bir badə içmişəm, olmuşam sərxoş.
İstər alqış elə, istərsə qarğış,
Ana, halal eylə, mən gedər oldum.

*Aldı anası axır sözünü necə dedi:*

Anşayam, ağlaram, gündüzlə gecə,
Sənə dərs verənlər bir neçə xoca,
Qurusun dillərim, qarğayım necə,
Oğul, sən gedəndə necolur halım?

Cəlal sazla dediyi kimi sözlə də son sözünü dedi:

– Ana, yol tədarükü gör, mən gedəsiyəm.

Anası düşündü ki, bu yəqin uzaq getməyəcək. Bir neçə günlük tədarük görərəm, gedər hərlənər-fırlanar, sonra da qayıdıb gələr.

Tədarük gördü. Cəlal getdi şəhərin darğasından bir illik yol təzkirəsi aldı, tədarükünü götürüb şəhərdən çıxdı. Gəzdi, gəzdi, o qədər gəzdi ki, yoruldu, gözünə bir uca çinar ağacı sataşdı, ağacın altında da gözəl, sərin bir bulaq. Əlini, üzünü yaxaladı, çörəyini yedi, elə ağacın kölgəsində də yuxuya getdi.

Sən demə bu tərəflərdə qırx haramı-quldur çalar-çapar, əllərinə keçəni gətirib bu bulağın başında bölüşdürərlərmiş. Haramılar elə həmin gün də eyni vaxtda bulağın başına yığıldılar, gördülər ki, cavan bir oğlan bulaq başında yatıb. Haramıbaşı yoldaşlarına dedi ki, mən bunu oyadacam, siz ehtiyatlı olun. Haramıların qırxı da qılınclarını siyirib oğlanın başı üstə hazır dayandılar. Haramıbaşı ayağını yerə vuraraq Cəlala – Qalx! – dedi. Cəlal yuxudan oyanıb gördü ki, başının üstündə 40 qılınc 40 ulduz kimi parıldayır.

Haramıbaşı dedi:

– Qorxma, oğul, biz də insanıq, adamyeyən deyilik. Kimsən, nəçisən? Haradan gəlib, haraya gedirsən?

Cəlal dedi ki, icazə versəniz bir iki kəlmə sazla deyərəm.

Buyur dedilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı görək Cəlal haramıbaşıya nə dedi:

Baş götürüb o canana gedirəm,
Mövlanın eşqinə incitmə məni.
Yoxsa susamısız mənim qanıma,
Mövlanın eşqinə incitmə məni.

Dörd bir yana baxdım, dağlar dumandı,
Cananı görməyə can arzumandı,
Bu bir ayrılıqdı, axır zamandı,
Mövlanın eşqinə incitmə məni.

Əgər suçum varsa, buyur fərmanı,
Yaradan yetirsin dərdə dərmanı,
Bir Cəlaldı qırxınızın qurbanı,
Mövlanın eşqinə incitmə məni.

Haramıbaşı dedi:

– Oğul, bir dil cavabı söylə görək getdiyin yer haradı?

– Şiraz şəhəri.

– Oğul, sən payi-piyada, nabələd bir adam, iyirmi canın olsa belə birini aparıb sağ-salamat Şiraza çıxara bilməzsən. Bil, agah ol, bizim qırxımız da şirazlı idik. Sarayda qulluq edirdik. Hökmdara tabe olmadığımıza görə məmləkəti tərk etdik. İndi burda qaçaqlıqla başımızı dolandırırıq. O torpağa lənət demişik. Bir də ora qayıtsaq bizə haram olsun! Atın tərkinə alıb səni Şirazın torpağına çatdıra bilərik. Amma ondan o yana gedə bilmərik. Görürəm, yaxşı oğlansan, odu ki, köməyimizi əsirgəmərik.

Haramıbaşı Cəlalı öz atının tərkinə götürdü. Neçə gün, neçə gecə yol getdikdən sonra Şiraz şəhərinin sərhəddinə çatdılar. Haramıbaşı bir meşədə Cəlalı düşürüb dedi:

– Üç gün yol gedib meşədən çıxarsan. Üç gün də ondan sonra piyada yol gedərsən, Şiraz şəhərinə çatarsan.

Sonra haramılar halallaşdılar, geri döndülər.

Cəlal şər qarışana qədər dayanmadan yol getdi, meşənin ortasına çatdı. Gecə düşdü, meşə zülmətə döndü. Cəlal düşün-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dü ki, indi mən neynəyim, yəqin ki, burada qurda-quşa yem olacam. Aldı görək bu yerdə nə dedi:

Yerin, göyün, bu dünyanın sahabı,
De, mən Sayadımı kimdən istəyim?
Yaratdın Kəbəni, Şamı, Mehrabı,
De, mən Sayadımı kimdən istəyim?

Haqqa doğru çevirmişəm yönümü,
Qızıl qana bələmişəm donumu,
Ya ver Sayadımı, ya al canımı,
De, mən Sayadımı kimdən istəyim?

Mən Cəlalam, canım getdi beyhuda,
Atmışam özümü bir sönməz oda.
Həsrətəm Sayada fani dünyada,
De, mən Sayadımı kimdən istəyim?

Söz tamama yetdi. Cəlal yıxılıb bir ağacın altında yatdı. Səhər tezdən yuxudan oyanıb yoluna davam etdi. O qədər getdi ki, axırda meşədən çıxdı. Gördü ki, nə şəhər var, nə kənd var, nə cütçü var, nə də çoban. Navalası tükəndi, yorulub əldən düşdü. Birdən gözünə uzaqda bir çadır dəydi. Düşündü ki, bu ya meşəçi çadırıdı, ya əkinçi çadırıdı, ya da çoban çadırıdı. Yavaş-yavaş başladı çadıra sarı yol getməyə. Yaxınlaşıb gördü ki, uzaqdan çadıra oxşamaqla, bu böyük bir imarət kimi şeydi. Üç-dörd otağı var. Otaqlardan birinə girdi. Nə görsə yaxşıdı. Otağın ortasında süfrə açılıb: quş iliyi, can dərmanı, nə desən burda tapılar.

– Ay sənin babana rəhmət – deyib, gümüş qaşığı əlinə aldı ki, plovdan yesin, bu vaxt otaq yırğalandı, qapı açıldı, otağa bir əcəm oğlu daxil oldu. Cəlalı görcək bağırdı:

– Ayə, o plov sahavının bir deyişi var, bir döyüşü var, bir güləşi var. Dayana bilərsənmi ki, o qaşığı əlinə götürmüsən?

Cəlal dedi:

– Qardaş, əylən qoy qarnımı doydurum, ondan sonra deyişini də edək, döyüşünə də.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əcəm oğlu:

– Yox, əvvəl qaşığı yerə qoy, deyişini deyək, görüm cavab verə bilərsənmi, - deyib görək nə soruşdu:

Çünki, oğlan meydanıma gəlmisən,
Əylən oğlan, öldürəyim səni mən.
Kəsərəm kəlləni, düşər bir yana,
Əylən oğlan, öldürəyim səni mən.

Cəlal baxdı ki, bu yaraqlı-yasaqlı pəhləvanın səsi qız səsinə oxşayır. Öz-özünə düşündü ki, olmaya bu qızdı. Aldı görək Cəlal nə dedi:

Arzulayıb səni deyib gəlmişəm,
Neyçün, xanım, öldürürsən məni sən?
Arayıban sən gözəli tapmışam,
Neyçün, xanım, öldürürsən məni sən?

Əcəm oğlu:

– Ay anasını ağlatdığım, xanımın kimdi? – deyib aldı görək nə dedi:

Çünki, oğlan, dava qıldın məninən,
Ağ gərdənin boyadaram qaninən,
Otuz doqquz, qırx tamamdı səninən,
Əylən oğlan, öldürəyim səni mən.

*Aldı Cəlal:*

Qulac-qulac huylarından hörərəm,
Gahdan-gahdan ləblərindən əmərəm,
Əl bağlayıb qulluğunda duraram,
Neyçün, xanım, öldürürsən məni sən?

Xanım fikirləşdi ki, yeddi ildi yolları kəsib neçə adamı soymuşuq. Hələ belə bir babayi-igid əlimizə düşməyib. Buna təklif edərəm, məni alar, bərabər burada yaşayarıq. Aldı görək nə dedi:

Xanzadə xanımam, sol ilə sağa,
Oğlan, yonun çevirginən bu dağa,
Gəl gedək otağa, sən mənə ağa,
Qıymam oğlan, öldürməyə səni mən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı Cəlal:*

Mən Cəlalam, yon çevirdim bu dağa
Fələk məni bağban etdi bu bağa,
Gəl verək dil-dilə, dodaq-dodağa,
Neyçün, xanım, öldürürsən məni sən?

Bunu eşitcək qız yaxına gəldi, Cəlalın qolundan tutub o biri otağa apardı. Yemək-içmək, demək-gülməkdən sonra yatmaq vaxtı gəldi. Yatağa uzandılar, amma qız nə illah elədisə, oğlan heç ona tərəf baxmadı. Qız düşündü ki, yəqin məni bəyənmədi. Yerindən qalxıb yaraq-əsbabını geyindi, çığırdı:

– Ədə, zalım oğlu, qalx, əynini geyin!

Cəlal qalxdı.

Xanzadə dedi:

– Dalımca gəl!

Cəlal qızın arxasınca getdi. Qız bir qapını açdı. Oğlan gördü ki, 39 iyid zirzəmiyə salınıb. Dizəcən palçığın içində, dizdən yuxarı suyun içindədilər. Qız başqa bir qapını açdı. Cəlal gördü ki, otaq qızılla, ləl-cəvahiratla doludu.

Qız dedi:

– İndi kefin istəyir məni al, bu var-dövlətə sahib ol, kefin istəmirsə, onda bu 39 dustağın qırxıncısı sən olacaqsan.

Cəlal dedi:

– Canım sənə fəda olsun, Xanzadə xanım. Mənim bir muradım var, ona çatmamış and içmişəm ki, əlimi başqasına vurmayacam.

Xanzadə soruşdu:

– Oğlan, nə muraddı, söylə görüm!

Cəlal dedi:

– Şiraz şəhərində Əhməd paşanın qızı Sayad-Səlvinazdı mənim muradım. Onu alıb sağ-salamat geri dönsəm, and olsun allaha ki, səni də götürəcəm.

Xanzadə dedi:

– Oğlan, olmaya aldadasan.

Cəlal dedi:

– Bu and, bu şəriət, mən yalan danışmaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xanzadə dedi:

– Onda allah sənə yaxşı yol versin, uğur olsun! Bu pulu da götür, sənə lazım olar.

Cəlal dedi:

– Xanım, mənə pul-zad lazım deyil, amma xahiş edirəm, bu dustaqları buraxasan. Bəlkə ağzı dualısı oldu, sağ-salamat geri dönə bildim.

Nə başınızı ağrıdım, Cəlal bir neçə gün yol getdi, gəlib Şiraz şəhərinə çatdı. Başladı küçənin biri ilə getməyə. Çayçı gördü ki, birisi saz əlində gedir, soruşdu:

– Ayə, bir bəri gəl görüm, aşıqsanmı?

Cəlal yaxına gəldi.

Çayçı dedi:

– Bala, görürəm aşıqsan, sənin də xeyrin olar, mənim də. Gəl, bu gecə mənə qonaq ol.

Cəlal razılıq edib oturdu. Qərib adamın evi ya çayxana olar, ya qəhvəxana. Çaydan-çörəkdən ağzına aldı. Bu vaxt çayxanaya beş-altı adam girdi, soruşdular:

– Adə, çayçı, bu saz kimindi?

Çayçı oğlanı göstərdi ki, bunundu.

– Olarmı, bir neçə kəlmə söz oxusun?

Cəlal dinməz-söyləməz sazı əlinə götürdü, görək nə dedi:

Dərdli düşüb dərdlərini bilənlər,
Heç olmasa bir evini göstərin.
Sayad-Səlvinazın üzün görənlər,
Heç olmasa bir evini göstərin.

Çayxanada oturanların arasında Mirzə bəy adlı birisi var idi. Altı ay idi ki, Əhməd paşaya elçi göndərirdi, ancaq nə qız gedirdi, nə də atası verirdi. O, Cəlalın sözlərini eşitcək yerindən dik atıldı:

– Adə, belə şelə oğlu, mənə Mirzə bəy deyərlər. Mən burda ola-ola sən nə cürətlə o qızın adını dilinə gətirirsən?

Mirzə bəy bunu deyib Cəlala bir şillə çəkdi. Çayçı bunu görcək əlinə bir palıd yarmaçası götürdü, düşdü Mirzə bəyin canına, nə yeyibsən turşulu. Aldı görək bu yerdə Cəlal nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cida düşdüm vətənimdən, elimdən,
Çox bəlalar çəkdim mən bu dilimdən,
Xəbərim yox, döngəsindən, yolundan,
Heç olmasa bir evini göstərin.

Bu Cəlalın dərdi çoxdu canında,
Baş qoyub yataydım yar qucağında,
Yasdıq olub yaslanaydım yanında,
Heç olmasa bir evini göstərin.

Camaat Cəlal adını eşitcək: – Adə, durun burdan çıxaq, – dedilər. Çayxanada bir nəfər də qalmadı. Hamı dağılışdı.

Sən demə, Əhməd paşa şəhərdə Cəlal adlı kim varsa, hamısını şəhərdən qovmuş, bu adı çəkməyi qadağan edibmiş. Bütün bunların hamısını çayçı Cəlala danışdı.

Səhər açıldı. Çayçı xəlvətcə Cəlalı yanına çağırıb dedi:

– Şəhərin mərkəzindəki o yaşıl evlər ki var, onlar qızın evləridi. O gördüyün qırmızı evlər isə atasınındı. Dur, allah xatirinə burdan çıx, istəyirsən qızın evinə get, istəyirsən atasının. Oğul, tez getməsən, sənin şərin mənə də toxunar.

Cəlal dinmədən sazını götürüb çayxanadan çıxdı. Yol aldı Əhməd paşanın imarətinə sarı. Əhməd paşanın qapısında bir murad daşı var idi, bir elçi daşı. Elçi daşının üstündə padşahın bir köçəsi qızı var idisə, elçi düşənlər otururardı. Murad daşının üstündə isə əyər-əskikliyi olanlar oturardı. Onlara xərclik verib yola salardılar.

Cəlal gedib düz elçi daşının üstündə oturdu. Qapıçılar bunu görüb, ona yaxınlaşdılar, dedilər ki, sən bu daşın üstündə səhv oturmusan. Bu elçi daşıdı. Murad daşı o biri daşdı, onun üstündə otu. Biz padşaha xəbər verərik, o sənə bəxşiş verib yola salar.

Cəlal cavab verdi:

– Mən bu daşları sizdən yaxşı tanıyıram. Özüm də düz oturmuşam.

Qapıçılar acıqlanıb padşaha xəbər apardılar ki, padşah sağ olsun, bir cavan aşıq elçi daşının üstündə oturub.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah dilləndi:

– Yaxşı, o bir nabələd adamdı, siz niyə demədiniz ki, o biri daşın üstündə otursun, bəxşişdən-zaddan verərdik, gedərdi.

Qapıçılar dedi:

– Qibleyi-aləm sağ olsun, biz dedik, amma o hamımızı təhqir edib qovdu. Özü də dedi ki, elçiliyə gəlmişəm.

Padşah qəzəbləndi:

– A kişi, padşahlar qırılıb-tükənib ki, aşıqlar bizim elçi daşında otururlar.

Əhməd paşa yerindən qalxdı, iki cəllad da götürüb elçi daşına yaxınlaşdı, diqqətlə aşığın boy-buxununa baxdı, öz-özünə fikirləşdi ki, balam, bunun əlində saz olmasa, bu ya padşah balasıdı, ya vəzir oğludu, amma neynim ki, bunun əlində saz var. Əylən, buna bir-iki kəlmə söz deyim, bəlkə öz xoşu ilə çıxa gedə. Aldı görək padşah burda nə dedi:

Əylən, oğlan, səndən xəbər alayım,
Söylə, balam, nə murada gəlmisən?
Dərd əlindən səni dərdə salayım,
Söylə, balam, nə murada gəlmisən?

Aldı Cəlal cavabında görək nə dedi:

Heç gözəl görmədim bu məhəbbətdə,
Padişahım, bir murada gəlmişəm.
Badəsini içdim qamü-qəflətdə,
Padişahım, bir murada gəlmişəm.

*Aldı padşah:*

Səni tapşırıram şahlar şahına,
Nəslini kəsərəm qibləgahına.
Olmaya ki, gəldin pul tamahına,
Söylə, balam, nə murada gəlmisən?

*Aldı Cəlal:*

Bir gözüm qan ağlar, biri yaş indi,
Çox bəla var mən aşiqin başında,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sidq ilə oturdum elçi daşında
Padişahım, bir murada gəlmişəm.

Padşah düşündü ki, bir bunu cəlladla da qorxudum, bəlkə çıxa gedə. Aldı görək nə dedi:

Padişaham, səni sallam zillətə,
Bu dünyadan göndərərəm əxrətə.
Verrəm səni qaniçici cəllada,
Söylə, balam, nə murada gəlmisən?

*Aldı Cəlal:*

Cəlaldı öz adım, haxdı imdadım,
Ərşə havalandı dadi-fəryadım.
Düzü, Sayad-Səlvinazdı, muradım,
Padişahım, bu murada gəlmişəm.

Bunu eşitcək Əhməd paşa bağırdı:

– Tez olun, bu əclafı götürün, atın zindana!

Cəlladlar Cəlalı götürüb saldılar zindana.

Əfidə adında topal bir qız var idi. Özü də bilirdi ki, Sayad-Səlvinaz Cəlal deyib yanıb-tökülür. Əfidə yadında yaxşı qalsın deyə topallaya-topallaya adı təkrar edirdi: - Cəlal, Cəlal, Cəlal...

Əhvalatdan xəbər tutan Əfidə tez özünü yetirdi Sayad-Səlvinazın yanına, dedi:

– Muştuluğumu ver, sənə xoş bir xəbər gətirmişəm.

Qız baş örtüyünü verdi, yun paltarını verdi, dedi:

– Tez ol, bağrım çatladı, nə xəbərdi, tez ol de, canım çıxdı.

Əfidə dedi:

– Atanın elçi daşının üstündə bir aşıq gəldi oturdu. Atan cəlladlarla getdi soruşdu ki, kimsən, nəçisən? O da cavab verdi ki:

Cəlaldı öz adım, haxdı imdadım,
Ərşə havalandı dadi-fəryadım.
Düzü, Sayad-Səlvinazdı, muradım,
Padişahım, bu murada gəlmişəm.

Sonra atan onu götürüb zindana saldırdı.

Bu xəbəri eşitcək Sayad-Səlvinaz qaravaşları yanına çağırıb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gedərsiniz, o zindanbaşıya deyərsiniz ki, Sayad-Səlvinaz buyurdu ki, buraya gətirib saldıqları aşığı buraxsınlar, gəlsin yanıma. Əgər razılaşmasa, zindanbaşını öldürüb, zindanı qırarsınız, aşığı mənim yanıma gətirərsiniz.

Qızların hərəsi əlinə səkkiz kiloluq əmud götürüb zindanbaşının üstünü aldılar. Nə illah elədilərsə, zindanbaşı razı olmadı, olmadı ki, olmadı. Naəlac qalıb qızların hərəsi bir əmud ilişdirdi onun başına, cəhənnəmə vasil etdilər. Zindanın qapısını sındırdılar, məhbusları bir-bir bayıra çıxardıb adını soruşdular. Cəlal adını deyən kimi qolundan tutub qızın yanına apardılar.

Amma o biri tərəfdən padşaha xəbər getdi ki, nə durmusan, qızın zindanı sındırdı, zindanbaşını öldürdü. Həmin aşıq Cəlalı öz yanına apardı. Padşah qəzəblənərək başının adamlarına «Arxamca gəlin!» deyə, əmr etdi. «Qızımı da öldürəcəm, onu da».

Qız gördü ki, atası, yanında da dörd cəllad budu gəlir, tez özünü atdı irəli, dedi:

– Atacan, öldürürsən, əvvəlcə məni öldür ki, Cəlalın ölüsünü gözüm görməsin. Onun günahı yoxdu. Zindanbaşını öldürən də mənəm, zindanı qıran da.

Yenə hər nə olsa da atadı. Öz övladına qıymadı, düşündü ki, bunu elə burda rəzil eləsin, sonrasına da baxar, aldı görək nə dedi:

Üzümün töhməti, saçımın ağı,
Əylən, qızım, öldürəyim səni mən.
Üzüm qara oldu ixtiyar çağı,
Əylən, qızım, öldürəyim səni mən.

Zülfünü saz edən qız görək nə dedi:

Dərdli gərək mən dərdlini dindirə,
Ölən mənəm, verə bilməm yarı mən.
Öz əlimlə özüm girrəm kəndirə,
Ölən mənəm, verə bilməm yarı mən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı padşah:*

Fikir verin ədəbsizin sözünə,
Daha övlad deyin baxmam üzünə,
Bir aşığı tay eyləmiş özünə,
Əylən, qızım, öldürəyim səni mən.

*Aldı Sayad-Səlvinaz:*

İyidlər başına sevda bəladı,
Siyah zülfü yar başına doladı,
O bir padişahdı, səndən əladı.
Ölən mənəm, verə bilməm yarı mən.

*Aldı padşah:*

İyidlər başına sevda bəlasa,
Siyah zülfü yar başına dolasa,
O bir padşahsa, məndən əlasa,
Allahın əmriylə verdim səni də.

*Aldı Sayad-Səlvinaz:*

Sayad çəkər ah çəkənin yasını,
Qoy edənlər etsin iltimasını,
Qul necə pozacaq haqq yazısını,
Ölən mənəm, verə bilməm yarı mən.

Əhməd paşa həqiqəti öyrəndi, gətirib bunların kəbinini kəsdirdi, şəkər-şərbət, yemək-içmək, iki aşiq muradına yetdi, gül bağındakı imarətdə dövran sürməyə başladılar. Üç ay gül bağında yeyib-içib kef çəkəndən sonra Cəlal dedi:

– Sayad-Səlvinaz, indi gərək atandan icazə alaq, biz öz məmləkətimizə getməliyik.

Qız bu xəbərdən sarsıldı, ancaq üzə vurmadı, atasının yanına gedib məsələni danışdıqdan sonra əlavə etdi:

– Cəlalın dediyinə görə, onların var-yoxu əllərindən çıxıb. Tək bircə anası var, onu da gətirsin bura, sənin də oğul züryətin yoxdu bərabər yaşayarıq.

Atası dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, qızım. Bir halda ki, mən səni ona verdim, ixtiyar Cəlalındı. Onun da yurdu var, yuvası var, gözü yolda qalanı var, tərəfi var, təfliqatı var, gərək gedəsiniz. Mən sizə iki at yükü qızıl verəcəm, bir qat da yorğan-döşək. Harda qonaq qalsanız, öz yorğan-döşəyinizdə yatarsınız. Bu var-dövlətlə orda əyər-əysikliyinizi düzəldərsiniz.

Padşah təzədən bunlara qırx gün, qırx gecə toy edib yol tədarükü gördü, onları yola saldı.

Qız ağıllı qız idi, Cəlaldan soruşdu:

– Cəlal, yola yaxşı bələdsənmi? Birdən azarıq.

Cəlal dedi:

– Gəldiyim yolu yaddan çıxartmayacağam ki. Sən heç narahat olma, Səlvinaz.

Bir neçə gün yol gedib, gəzə-gəzə böyük şəhərə çatdılar. Gördülər ki, şəhərdə ev-eşik, hər şey necə varsa eləcə də durur. Ancaq bəni-insan görünmür. Cəlal başa düşdü ki, yolu azıblar, ancaq utandığından qıza heç nə demədi. Atdan düşdülər. Cəlal Sayad-Səlvinaza dedi:

– Bu şəhərin ətrafında yaxşı ağ quş var. Gəl, bu gecə burada gecələyək, ağ quş ovlayıb ətindən kabab çəkək.

Qız razı oldu. Bir evə girib atı tövləyə çəkdilər. Xurcunları içəri gətirdilər. Qız döşəyi sərdi. Cəlal ağ quş ovlayıb gətirdi, yedilər-içdilər, gözlədilər ki, kimsə rast gələ, bunlar harda olduqlarını soruşalar.

Bu vilayətdə doxsan beş yaşında qoca bir xan var idi. Xan ağ quşun ətini çox sevərdi. Həmin o viranə şəhərin camaatını köçürüb öz şəhərinə gətirmişdi ki, ağ quşlar hürküb oradan qaçmasınlar. Xan ağzında dişi olmadığına görə üç gün, üç gecə ağ quşun ətini qaynadıb suyunu içərdi. Şəhərin camaatı növbə ilə iki-iki gedib xan üçün ağ quş ovlayıb gətirərdilər.

Bir gün yenə iki nəfər ox ata bilməyənə dedilər ki, hə, gərək indi siz gedib xan üçün ağ quş ovlayıb gətirəsiniz. Ovçuluqdan başları çıxmayan bu adamlar nə qədər gəzdilərsə bir şey tapa bilmədilər. Tapa bildilərsə – vura bilmədilər. Axtara-axtara gedib Cəlalgil gecələyən viranə şəhərin ətrafına çıxdılar. Bax-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dılar ki, bir yerdən tüstü çıxır. Düşündülər ki, bu nə ola bilər. Yavaş-yavaş gedib tüstü çıxan evin pəncərəsindən içəri boylandılar, gördülər ki, ayə, bir oğlanla bir qız kabab bişiriblər, qız oğlana kabab yedirir, oğlan da qıza. Amma qızın gözəlliyi evə şölə saçır. Götürüldülər, eləmi götürüldülər. Düz Batal şəhərinə. Özlərini verdilər xanın imarətinə. Xan soruşdu:

– Balam, siz kimsiniz?

Cavab verdilər:

– Biz ağ quşa göndərdiyiniz adamlarıq.

Xan soruşdu:

– Nə xəbər var?

Dedilər:

– Xan sağ olsun, viranə şəhərdə bir qız gördük, bir qız gördük, əyər onu sən alsan, 25 yaşında bir dəliqanlıya dönərsən. O elə bir gözəldi ki, yer üzərində tayı tapılmaz.

Xan əmr etdi:

– Tez qoşun hazır olsun!

Ravilər belə rəvayət edirlər ki, bir anda üç min əskər əmrə müntəzir oldu.

Xan dedi:

– Gedərsiniz, o oğlanı öldürərsiniz, qızı isə yanıma gətirərsiniz.

Qoşun gəldi. Şər qarışanda şəhəri mühasirəyə aldılar. Səhər açılanda Sayad-Səlvinaz pəncərələri açdı ki, otaq sərinlənsin. Açdı, bayıra çıxdı ki, şəhərin dörd yanı deyəsən alışıbyanır. Hamısı da əskərlərdi. Gördü ki, Cəlal yatır.

Aldı görək Sayad-Səlvinaz bu yerdə nə dedi:

Xab içində yatan oğlan,
Oyan, bir gör nələr oldu.
Bu qovqaya dayan, oğlan,
Oyan, bir gör nələr oldu.

Cəlal oyanıb qalxdı. Bayıra baxdı, gördü qoşun dörd yanı bürüyüb. Dedi, eşit, mən də deyim. Aldı, görək nə dedi:

Ağlama, Sayad-Səlvinaz,
Dərdlərini bilər oğlan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Düşməni yaxar atəşə,
Göz yaşını silər oğlan.

*Aldı qız:*

Varıb sənə bildirərlər,
Didən yaşın sildirərlər,
Yazıq, bizi öldürərlər,
Oyan, bir gör nələr oldu.

*Aldı oğlan:*

Ərəb at altda yaşına,
Çıxaram meydan başına.
Gör ki, bu qədər qoşuna
Ac qurd kimi dalar oğlan.

*Aldı qız:*

Sayadam, səni sınaram,
Mən bir qoçağa dönərəm,
Köhlən atımı minərəm,
Oyan, bir gör nələr oldu.

*Aldı Cəlal:*

Bax bu Cəlalın ününə,
Girərəm aslan donuna,
Qoca xanın qoşununa
Ac qurd kimi dalar oğlan.

Elə içəridə ikən atları bəzədilər. Yeddi yerdən zərqoranını sıxıb, səkkizinci üzənginin kabına ayaq basıb atların başını buraxdılar, biri qoşunun bir tərəfini kəsdi, biri o biri tərəfini. Qırdılar, elə qırdılar ki, təkcə üçünü sağ tutdular. Birinin burnunu kəsdilər, birinin dodaqlarını kəsdilər, birinin də qulaqlarını. Özlərinə də dedilər ki, gedib xana söyləyərsiniz ki, bu heç, bir sabahlıq yenə göndərsin.

Üçü də götürüldü. Qulaq acısı, burun acısı, dodaq acısı, eləmi qaçırlar. Şəhərdə də gözləyirlər, görən qızı nə vaxt gəti-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rəcəklər. Baxdılar gördülər ki, hə, üç adam elə gəlir, elə gəlir. Dedilər, yəqin mücdəçilərdir. Dodaqları kəsik ayaqdan bir az yeyin idi. O birilərini ötüb özünü yetirdi. Düşündülər ki, yüyürərkən yıxılıb ağız-burnunu qanadıb. Diqqətlə baxdılar ki, ayə bunun dodaqları elə dibindən kəsilib. Soruşdular:

– Nə xəbər var?

Dodaqları kəsik «hı, hı...» edə-edə bir şey başa sala bilmədi. Burunu, qulaqları kəsiklər özlərini yetirdilər. Dedilər:

– Hamını qırdılar, tək üçümüz əllərindən qurtulduq, o da belə. Dedilər ki, xana deyin mərifəti varsa, bir sabahlıq da göndərsin.

Oho, qoca xan başa düşdü ki, beləliklə yüz qoşun da göndərsə, qıracaqlar. Əl atdı hiyləyə. Əmr verdi, cadugər qarı gəlsin. Gəldi.

Xan soruşdu:

– Nənə, oğlanın, qızın əl-qolunu bağlaya bilərsənmi?

Qarı cavab verdi:

– Xan sağ olsun, on iki yaşımdan sənətim, işim peşəm budu.

Xan dedi:

– Nə vaxta bunu edə bilərsən.

Qarı dedi:

– Üç günə!

Xan əmr etdi:

Qarıya çəkisi qədər qızıl verin!

Qızılı aparıb tökdülər qarının evinə. Düşündülər ki, qarı gedən kimi qızılları oğurlayıb geri apararıq. Qarı hiyləni başa düşdü. Qapını bağlayıb qızılları bacadan tökdürdü. Oxuduüfürdü, oxüdü-üfürdü, qızıllar ilana çevrildi, quyruq buladıqca şəhəri lərzəyə saldılar. Başladılar yalvarmağa:

– Nənə, qurban sənə, yenə nə qədər istəyirsən sənə pul verək, təkcə bizi bu ilanların əlindən qurtar.

Qarı dedi:

– Mən getdim, indi hünəriniz var, qapını qırın.

Dedilər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Lənət bir də o fikrə düşənə, kim yaxın gedər, ora ilanla doludu.

Qarı dedi:

– Gözləyərsiniz, elə ki, ot tayalarına od vurdum, bilərsiniz ki, oğlanla qızı bağlamışam, tez gələrsiniz.

Qarı küpə minib oxudu. Gedib viranə şəhərin ətrafında yerə düşdü. Cəlal oraları gəzirdi. Birdən gözünə qoca qarı sataşdı. Ona yaxınlaşdı. Qarı başladı ağlamağa. Cəlal yaxınlaşana kimi qarı nura-ipəyə döndü. Cəlal fikirləşdi ki, deyəsən yazığın oğlunu öldürmüşük, ona görə də belə ağlayır. Soruşdu:

– Nənə, niyə ağlayırsan?

Nənə ikiqat büküldü:

– Nənən ölsün, oğul. Evi yıxılsın qoca xanın. Bir oğul sahabı idim. Əsgər getdi. İndi leşini də tapa bilmirəm ki, bir heç olmasa yana-yana ağlayam.

Cəlal dedi:

– Nənə, kim bilsin oğlun hansı dərədə öldü. Gəl mənimlə gedək. Sayad-Səlvinaz da yaxşı qızdı. Öz oğlun kimi saxlayaram səni.

Qarı ürəyində sevindi, dedi:

– Olar, oğulcan, niyə olmaz, gedərəm səninlə.

Bu zaman Sayad-Səlvinaz yeməyi hazır edib Cəlalı gözləyirdi. Qarını görən kimi qılıncını siyirib onun boynunu vurmaq istədi. Qarı özünü Cəlalın ayaqlarına saldı, dedi:

– Oğul, yalvarıram, məni öldürməyin.

Sayad-Səlvinaz Cəlaldan soruşdu:

– Bu ifritəni hardan gətirdin?

Cəlal dedi:

– Oğlunu öldürmüşük. Bunun ahı bizi tutar. Qoy bizimlə qalsın.

Qız dedi:

– Yox, olmaz!

Cəlal bir də xahiş etdi. Sayad-Səlvinaz:

– Di, yaxşı. Günahı sənin boynuna, - deyib razılaşdı. Gecə qız otağa girib barmağının birini kəsib yerinə duz basdı. Saba-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hı gün o biri barmağını kəsib duz basdı ki, yatmasın. Düz beş gün, beş gecə belə etdi. Alma yanaqlı Sayad-Səlvinaz saraldı sapa döndü, incəldi ipə döndü.

Cəlal dedi:

– Allahı sevirsən, bu gecə sən yuxula, mən gözləyəcəyəm.

Sayad-Səlvinaz inandı. Şirin yuxuya getdi. Aradan xeyli keçmiş, Cəlal gördü ki, yorğan qızın üstündən sürüşüb, tər burcax-burcax olub qızın alma yanağına, ətir buxağına, qəndab dodağına, sürməli gözlərinə süzülüb. Düşündü ki, bir mənə bax, belə qızın yanında yatmayıb, kaftar bir qarı ilə söhbət edirəm. Girib qızın yanında yatdı. Elə sarılıb yatdı ki, heç qızın xəbəri də olmadı. Qarı xeyli keçəndən sonra qalxdı, səsləndi-elədi, gördü ki, bunların xəbəri yoxdu. Getdi, ləzgi kəndirlərini gətirib onların qollarını, qıçlarını möhkəm bağlayıb bir-birinə sarıdı.

Sonra özlərinə də bir təpik ilişdirdi:

– Qalxın, belə-belə uşağı!

Hər ikisi oyandı. Qız dedi:

– Cəlal, gördünmü?

Cəlal dilləndi:

– Nənə, mən ki sənə yaxşılıq elədim, sən niyə mənə pislik edirsən?

Qarı dedi:

– Mənim suçum yoxdu, oğul. Aldığım qızıllardı səni bağlayan.

Qarı bayıra çıxdı. Ot tayalarına od vurdu. Tüstünü görən şəhər əhli yeridi, nə yeridi. İçəri doldular. Oğlanla qız bir-birlərinə baxdılar. Oğlanı, qızı ayrı-ayrılıqda möhkəm bağlayıb, qarının bağladığı kəndirləri açdılar. Qız gördü ki, Cəlal ağlayır. Aldı bu yerdə görək Sayad-Səlvinaz nə dedi:

Yar oluban heç baxmadın sözümə,
Sevdiyimdən ayrı ağlar gedərəm.
Bir su səpin ürəyimin közünə,
Sevdiyimdən ayrı ağlar gedərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gör nə talan idi, düşdü güllərə,
Zalım qarı bizi saldı dillərə,
Gözü yaşlı götürürlər yollara,
Sevdiyimdən ayrı ağlar gedərəm.

Yetən yoxdu bu Sayadın halına,
Baş qoyan yox qovğasına, qalına.
Yesir düşdüm qoca xanın əlinə,
Sevdiyimdən ayrı ağlar gedərəm.

Bəli, Sayad-Səlvinazı apardılar xanın imarətinə. Qarı, Cəlal, atlar qaldılar viranə şəhərdə.

Qoca xan gördü ki, bu qızın yanında yatıb-duran ölməz.

Əmr etdi:

– Toy qurulsun!

Sayad-Səlvinaz dedi:

– Xan sağ olsun, Cəlal kimi yardan ayrı düşmək mənə çox ağırdı. Qırx gün keçsin, qırx birinci gün söz sənindi.

Xan çar-naçar razı oldu. Bəs, qırx gün, qızı kimə tapşırsınlar? Bir namuslu xidmətçi saqi var idi. Sayad-Səlvinazı tapşırdılar ona. Düz qırx gün qız saqi ilə bir yerdə qalıb bacı-qardaş kimi yaşadılar.

Bunlar burada qalsın, sizə hardan xəbər verim, Cəlalla qarı nənədən. Qarı xörək bişirib bir qaşıq özü yeyirdi, bir qaşıq da Cəlala yedirdirdi. Bir gün Cəlal dedi:

– Nənə, çıxıb getsənə.

Qarı dedi:

– Oğul, mən getsəm sən burada ölərsən.

Cəlal dedi:

– Onda əl-ayağımı aç, rahat oturaq.

Qarı cavab verdi:

– Yox, əl-ayağını açsam, məni öldürərsən.

Cəlal dedi:

– Nənə, əl-ayağım qurusun sənə əlimi vursam. Təkcə ayaqlarımı aç, get. Əllərimi də başqasına açdıraram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı düşündü ki, bunun ayaqlarını açım, tərpənənə kimi küpə atılıb qaçaram. Gətirib bir qıçını küpə qoydu. Əlini uzadıb kəndiri kəsdi. Kəsən kimi Cəlal qarını təpiyin altına aldı. Dedi:

– Əllərimi də aç!

Əllərini də açdırdı. Qarı dedi:

– Oğul, bəs sən deyirdin ki, əl vursam əlim qurusun.

Cəlal dedi:

– Sənə əl vurmuram ki.

Müxtəsəri, Cəlal ilanın başını əzən kimi qoca qarının başını təpiklə əzdi, leşini bir tərəfə tulladı. Özünü atlara yetirdi. Birini mindi, o birini yedəyinə aldı. Yavaş-yavaş gedib axşam qaranlığında Batal şəhərinin qırağına çatdı. Gördü ki, bir qoca qarı su aparır, dedi:

– Nənə, qonaq götürərsənmi?

Qarı cavab verdi:

– Qonağı sevməyən allahı sevməz. Buyur, oğul.

Cəlal atdan düşdü, atları çəkib bağladı, qarıya dedi:

– Nənə, o xana gətirdikləri qızın axırı nə oldu?

Qarı eymməndi:

– Oğul, olmaya sən elə həmin Cəlalsan?

Cəlal cavab verdi:

– Sən olasan sənin rəbbin, mən elə həmin Cəlalam.

Qarı dedi:

– Bala, bilsələr ki, sən mənim evimdəsən, həmin dəqiqə məni öldürərlər.

Cəlal dedi:

– Qorxma, nə qədər ki, mən sağam, sənə bir şey deməzlər.

Qarı dilləndi:

– Sayad-Səlvinaz amanatdadı, ay oğul. Bir saqi ilə bacı-qardaş olub yaşayırlar.

Cəlal soruşdu:

– Nənə, oranı mənə göstərə bilərsənmi?

Qarı dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, şər qarışandan sonra küçədə gəzmək qadağan edilib. Əl-ayaq çəkilsin, sonra görək nə olur.

Qarı gecənin bir vaxtında Cəlalı yanına aldı, gedib bir bağın kənarında dayandılar. Nənə sakitcə dedi:

– Bu evdədi, bala.

Cəlal dedi:

– Sən get, nənə. Sağlıq olsa, gəlib yaxşılığından çıxaram.

Cəlal sazı köynəyindən çıxardı, düşündü ki, görəsən qız yuxudadı, yoxsa oyaqdı, görək nə dedi:

Yerin, göyün, aləmlərin sahavı,
Sayad-Səlvinazım burda varmıdı?
Yaratdım Kəbəni, Şamı, Mehrabı,
Sayad-Səlvinazım burda varmıdı?

Səda qulağına dəyən kimi Sayad-Səlvinaz dik qalxdı, dedi:

– Saqi qardaş, deyəsən qulağıma Cəlalın səsi gəldi.

Saqi dedi:

– Cəlal heç sənin yadından çıxmır. Kim Cəlalı gecənin bu vaxtı, əli-ayağı bağlı buraya gətirə bilər?

Qız dedi:

– Deyirsən ki, bacı-qardaşıq, bacı-qardaşlıq bu gün üçündü. Bir şamı yandır, ürəyimə söz gəlib, onu deyim.

Sayad-Səlvinaz pəncəyərə yaxınlaşdı, aldı görək nə dedi:

Burdayam, Cəlalım, haqq amanatım,
Qəm etmə Cəlalım, mövla kərimdi.
Ölsəm də, bil sənə yox xəyanətim,
Qəm etmə Cəlalım, mövla kərimdi!

Cəlal sevindi – yaxşı ki, Sayad-Səlvinaz məndən küsməyib. Cavab verdi:

Bu cahıl ömrümü eylədim yarı,
Şükür, yar da baxdı bir bizə sarı.
Dağıtdı binamı bir qoca qarı
Sayad-Səlvinazım burda varmıdı?

*Aldı Sayad-Səlvinaz:*

Keçdi keçən aylar, yaza deyilməz,
Əski yaralara təzə deyilməz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İyidin ayıbı üzə deyilməz,
Qəm etmə Cəlalım, mövla kərimdi!

*Aldı Cəlal:*

Bir gözüm haramı, biri yağinən,
Mən Cəlalam, gəldim çöl yabaninən.
Atı silahınan, sərəncaminən,
Sayad-Səlvinazım burda varmıdı?

*Aldı Sayad-Səlvinaz:*

Sayad Səlvinazın xoşdur avazı,
Daha ağlamaram sən tək şahbazı,
At minək, daşınaq yaşı namazı
Qəm etmə Cəlalım, mövla kərimdi!

Qız dedi:

– Saqi, mən getdim.

Saqi yalvardı:

– Xan məni öldürəcək. Mən sizinlə getsəm məni saqiliyə qəbul edərsinizmi?

Qız dedi:

– Niyə saqiliyə, vəzirliyə qəbul etsək pismi olar?

Kəndir tapıb, pəncərədən yerə endilər. Cəlal onları götürüb nənənin evinə gətirdi. Saqi bir göz qırpımında at-silah hazır etdi. Saqinin doqquz qardaşı var idi. Onlardan biri vəzir idi, biri də mehtərbaşı.

İki idilər, oldular üç. Nənənin peşkəşini verib, allah kərimdi deyib yola düzəldilər.

Sabah açıldı. Üstünüzə xeyirli sabahlar açılsın. Baxdılar ki, nə saqi var, nə də qız. Xan vəzirə əmr etdi:

– Ya sənin kəllən, ya qardaşıyın kəlləsi. Qardaşın qızı aparıb.

Vəzir dedi:

– Xan sağ olsun, vallahı, mənim qardaşım qız aparan deyil. Mənə qoşun ver, bu saat onları tutum.

Qoşun verdilər. Vəzir düşdü onların arxasınca.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Saqi Cəlalla qızı irəli buraxıb bir təpəyə qalxdı, gördü ki, qoşun gəlir. Baxdı ki, qoşunun önündə də qardaşı Qara Vəzirdi. Cəlalgilə söylədi ki, düşmən gəlir, mən qardaşımın üzünə necə çıxım?

Cəlal dedi:

– Sən gözə dəymə.

Döyüşə hazır dayandılar. Vəzir gördü ki, qızı aparan özgəsidi, qardaşı yox. Dedi, əylən, bir-iki kəlmə söz deyim, qorxudum, aldı görək nə dedi:

Qaçıb hayana gedirsən,
Sayadı göndər bu yana.
Ölümdən qurtarammazsan,
Sayadı göndər bu yana.

*Aldı Cəlal:*

Laf etmə, namərdin oğlu,
Gəlsənə girək meydana,
Üç günlük fani dünyadı,
Minnətim yoxdu bir cana.

*Aldı Qara Vəzir:*

Yaman etdim işinizi,
Bişirmişəm aşınızı.
İndi kəsim başınızı,
Mücdəçi yollayım xana.

*Aldı Cəlal:*

Bu sinəmə salma acı,
Padşahlardan aldım bacı,
Çalaram əyri qılıncı,
Səsi çıxar asimana.

*Aldı Qara Vəzir:*

Çıxmışam vətən-elimdən,
İndi kəsərəm dilindən,
Mən Qara Vəzir əlindən
Gələrsən allah-amana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı Cəlal:*

Cəlaldı, bilginən, adım,
Yanımda Sayad cananım.
Yar olarsa yaradanım
Götürrəm xakı yeksana.

Söz tamama yetdi. Cəlal bir tərəfdən, Sayad-Səlvinaz o biri tərəfdən girdilər qoşuna. Altdan girdilər, üstdən çıxdılar. Saqi özünü yetirdi ki, amanın bir günüdü, qardaşımı mənə bağışlayın. Bağışladılar.

Hər üçü atları minib xeyli yol getdilər, gəlib çıxdılar Xanzadənin mülkünə. Cəlal fikirləşdi ki, Xanzadəyə söz verdiyimi Sayad-Səlvinaza deyim, ya deməyim. Düşündü ki, desəm yaxşıdı. Aldı görək nə dedi:

Sənə qurban olum, Sayad-Səlvinaz,
Bu yerlərdə bir gözəlim var mənim.
On bir aydı yar həsrətin çəkərəm,
Bülbül mənəm, qönçə gülüm var mənim.

Qız dedi:

– Vay, zalım oğlu, sənin yarın ola-ola mənim dalımca niyə düşübsən?

*Aldı Sayad-Səlvinaz:*

Çünki məndən özgə yarın var imiş,
Geri dön, Cəlalım, yar olmam sənə.
Bülbül sənsən, qönçə gülün var imiş,
Geri dön, Cəlalım, yar olmam sənə.

*Aldı Cəlal:*

Bir gözüm qan ağlar, birisi də yaş,
Gəl, zalım, sən mənlə eyləmə savaş,
O mənə həmşirə, mən ona qardaş,
Bir əhdinən dil ixralım var mənim.

*Aldı qız:*

Əcəm ölkəsindən gəldin yanıma,
Nə gətirdin şöhrətimə, şanıma,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Girdin məvalıma, batdın qanıma,
Geri dön, Cəlalım, yar olmam sənə.

*Aldı Cəlal:*

Mən Cəlalam, atma məni irağa,
Kəs kəlləmi, qoy durmayım ayağa,
Bir canım var, Sayad, sənə sadağa,
Bil ki, səndən özgə yarım yox mənim.

*Aldı qız:*

Bu qış belə getməz, çıxarıq yaza,
Nə düzən eylədin mən Səlvinaza.
İndi çıxar gedər şəhri-Şiraza,
Geri dön, Cəlalım, yar olmam sənə.

Qız küsüb döndü geriyə, başladı getməyə. Saqi Cəlala baxdı, Cəlal saqiyə.

Cəlal dedi:

– Saqi, mən sənə baxıram, sən kimə baxırsan? Bu bəlkə sənin sözünlə geri qayıda.

Saqi qıza çatıb dil-ağız edəndə qız qəzəbləndi:

– Saqi, yolumdan çıx, yoxsa elə qılınc vuraram ki, qətlə qanın da yerə düşməz.

Saqi dedi:

– Beləmi, bacı-qardaş bilirdik bir-birimizi. Əylən, bir-iki söz deyim, sonra get:

*Aldı saqi:*

Mən fağır saqinin baxıb sözünə,
Gəlsənə geriyə dönəsən, bacı.
Piyandaz qədəmin sən bas üzümə,
Gəlsənə geriyə dönəsən, bacı.

*Aldı qız:*

Sən fağır saqinin qırıb sözünü,
Qayıdıb geriyə dönən deyiləm.
Nahaq yerə qırıb-tökmə özünü,
Qayıdıb geriyə dönən deyiləm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı saqi:*

Döndüm ucunuzdan yetim nana mən,
Bunun üçün geyinmişəm qara mən,
Tərk eylədim qohum, qardaş, ana mən,
Gəlsənə geriyə dönəsən, bacı.

*Aldı qız:*

Bir gözüm haramı, bir gözüm yağı,
Gənə canım olsun canlar dustağı,
Qırmaram sözünü, qardaşım saqi,
Qayıdıb geriyə dönərəm qardaş.

Sonra saqiyə dedi:

– Gedib ona deyərsən ki, mənim hirsim yatana qədər dörd tarla boyu bizdən aralıda gedər ki, üzünü görməyim.

Saqi gedib qızın sözlərini Cəlala çatdırdı. Cəlal dedi:

– Səkkiz tarla boyu aralı gedərəm, təki sən onu gətir yavaş-yavaş.

Di gəl ki, başqa yerdən yol olmadığına görə, mütləq ordan keçməli idilər. Bu vaxt Xanzadə gördü ki, Cəlal gəlir, yanında da iki atlı. Özünü yetirdi, Cəlalın atının boynuna sarıldı. Hamısına sevinə-sevinə «xoş gəldin» eləyib, atları içəri çəkdi. Xanzadə gördü ki, deyəsən bu qızla Cəlal küsülü kimi hərlənirlər. Dedi, bir xəbər alım, görüm nə olub, nə baş verib.

Aldı Xanzadə, görək nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Sevdiyim Cəlalım, sən səfa gəldin.
Çoxdan bəri mən yolların gözlərdim,
Sevdiyim Cəlalım, sən səfa gəldin.

Sözləri eşidən kimi Sayad-Səlvinaz dedi:

– Saqi qardaş, deyəsən dediyi qız bu imiş, daha mən getdim.

Saqi dedi:

– Səbr et, bacı, mən də gedəcəm, durmaram burada. Gözlə görək bir axırı necə qurtarır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəlal gördü ki, Sayad-Səlvinaz gedəcək. Dedi, əylən, Xanzadə xanım, gör nə deyirəm:

Sənə qurban olum, Xanzadə xanım,
Gör ki, nə qovqaya, qala gəldim mən.
Sayad-Səlvinazı yolda küsdürdüm,
Güclə köylün ala-ala gəldim mən.

*Aldı Xanzadə:*

Sən getdin, baxmadım aya-günə də,
On bir ay gözlədim zindanxanada.
Qurban olum Sayada da, sənə də,
Əzizim Cəlalım, sən səfa gəldin.

*Aldı Cəlal:*

Yetər, bu canıma salma bir azar,
Təzədən səninlə quraq bir bazar,
Hələ bu saqiyə sən eylə nəzər,
Bu oğlana layiq bilə gəldim mən.

Xanzadə gördü ki, yox, iki qoçun başı bir qazanda qaynamayacaq. Gözaltı baxdı ki, saqi də çox gözəl oğlandı. Düşündü ki, mən də buna gedərəm. Nə o məndən küsər, nə mən ondan. Aldı görək nə dedi:

Təzə çıxmış aya bənzər şəkili,
Gərdəninə tökülmüşdü kəkili,
Qardaşıdı Xanzadənin vəkili,
Qardaşım, Cəlalım, sən səfa gəldin.

Söz tamama yetişdi. Hamının üzü güldü. Aldı Cəlal, bu yerdə görək nə dedi:

Cəlal deyər, bağda güllər açılsın,
Toy qurulsun, şəkər-şərbət içilsin.
Dərzi gəlsin, boya libas biçilsin,
Toy-düyünə gülə-gülə gəldim mən.

Xanzadəni saqiyə verdilər. Onlar da murada yetişdi. Yarım ay burada qaldıqdan sonra hazırlıq gördülər Cəlalgilin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məmləkətinə getməyə. Gəlhagəl-gəlhagəl, gəlib yetişdilər Qəndəhar dağlarına. Sayad-Səlvinaz dedi:

– Ayə, bu evi tikilənin evi haradadı? Dünyadan bayıra çıxdıq, yollarda qocaldıq, yenə mənzilə çatmadıq.

Cəlal gördü ki, görünən dağlar öz dağlarına oxşayır.

Aldı görək nə dedi:

Saqi qardaş, Sayad canan, Xan bacı,
Bax, bu dağlar bizim dağa bənzəyir.
Oxuyur kəkliyi, ötür turacı,
Bax, bu dağlar bizim dağa bənzəyir.

İyidlərim vardı mini silahlı,
Həzəran qalxanlı, çiyni silahlı,
Süsənli, sünbüllü, soyuq bulaqlı,
Bax, bu dağlar bizim dağa bənzəyir.

Adamlarım vardı əli peşəli,
Otaqlarım vardı altun peçəli,
Süsənli-sünbüllü, mor bənövşəli,
Bax, bu dağlar bizim dağa bənzəyir.

Bir çobanı mücdəçi göndərdilər.

Cəlal gedəndən sonra anası olan-qalanını da satıb bir balaca daxmaya girmişdi. Ayaqlarını da külə soxub otururdu.

Mücdəçi özünü yetirdi ki, gözün aydın, oğlun gəlir.

Anası dedi:

– Cəhənnəmə gəlsin, gora gəlsin. Ayaqlarım üşüyür, tez ol, qapını ört, rədd ol burdan.

Cəlalgil gəlib anasının daxmasına çatdılar. Atdan düşdülər. Anası heç bunların üzünə də baxmadı. Ocağa iki söyüd kötüyü qoydu. Burnunun suyu da tökülüb ocağı söndürdü. Xanzadə dözə bilmədi ki, bu necə anadı, oğluna bir «xoş gəldin» də eləmədi. Dedi buna bir-iki kəlmə söz deməsəm, partlaram. Aldı görək nə dedi:

Belədirmi sizin yerin adəti,
Nənə, neçün bir «xoş gəldiz», demədin?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qərib qonaqların yox məhəbbəti,
Nənə, neçün bir «xoş gəldiz», demədin?

Arvad bir söyüd kötüyü götürdü, cavabında görək nə dedi:

Qara ikən ağ eylədi saçımı,
Oğul bədövlətdi, siz niyə gəldiz?
Yoxsullara tay eylədi köçümü,
Oğul bədövlətdi, siz niyə gəldiz?

*Aldı Xanzadə:*

Məgər belə imiş bu sizin adət,
Başındamı qopub məhşər, qiyamət,
Bizləri demirəm, qəribdi Sayad,
Nənə, neçün bir «xoş gəldiz», demədin?

*Aldı anası:*

Cəlal bir zamanlar taxtda oturdu,
Lotuları muradına yetirdi,
On beş xəznə pulu birdən bitirdi,
Oğul bədövlətdi, siz niyə gəldiz?

Xanzadə gördü ki, yoxsulluq nənəyə yaman kar edib. Aldı Xanzadə:

Xanzadəyəm neyləmişəm eylərəm,
Xançal alıb bağrım başın teylərəm.
Bir daş pozub on beş xəznən edərəm,
Nənə, neçün bir «xoş gəldiz», demədin?

Anşa arvad gördü ki, xurcundakıların hamısı qızıl-gümüşdü. Peşiman oldu, görək son sözünü necə dedi:

Şükür ki, yetişdiz yurdunuza da,
Heç yetə bilmədik dərdinizə də,
Anşayam, qurbanam dördünüzə də,
Öldü başım, bir «xoş gəldiz» demədim.

Xanzadə cibindən bir mücövhər çıxarıb Cəlala verdi ki, apar xərclik üçün pozdur. Gəzdi, gəzdi, bir qiymət qoyan olmadı. Axırda bir ixtiyar zərraf Cəlala dedi:

– Sən daşın qiymətini bilirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəlal dedi:
– Əlbəttə bilirəm.
Zərraf dedi:
– Daşın qiymətini bilirsənsə, daha mənim yanıma niyə gətirmisən? On beş yaşında bir uşaq bir yumurta boyda daşı göyə atsa, daşın qalxdığı hündürlükdə pul bunu poza bilər. Oğul, bunu padşahlara göstər, mən poza bilmərəm.
Cəlal daşı geri gətirdi ki, daşı poza bilmədim. Sonra onlar kiçik bir daşı iyirmi dörd xəzinə pula pozdular.
Cəlal yolda ona xeyirxahlıq edən qırx qaçağı tapıb onları saraya dəvət etdi. Kimisini vəzir qoydu, kimisini vəkil. Şad, xoşbəxt həyat keçirməyə başladılar. Onlar yedilər, içdilər, yer altına keçdilər, siz də yeyib-içib dörə keçəsiniz.
Ustamızın adı Xıdır, əlimizdən gələn budur.

Bu gün mən bir pəri gördüm,
Yerir, yürür, gəzər əyri.
Tut yükünü, al bacını,
Qurma mənnən bazar əyri.
Ovçusan ovunu gözlə,
Qoymaginən, təzər əyri.
O səbəbdən yaş gözümdən,
Durmaz gələr axar əyri,
Sənəm əyri, sonam əyri,
Cəhənnəmdə yanar əyri.

Hər kimin dövləti çoxsa,
Bu dünyada mənəm deyər,
Hər kimin dövləti azsa,
Çörəyini yavan yeyər,
Hər kimin dövləti yoxsa,
Ah-zar edər, ömrü keçər.
O səbəbdən yaş gözümdən,
Durmaz gələr axar əyri,
Sənəm əyri, sonam əyri,
Cəhənnəmdə yanar əyri.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gecələrim çox uzundu,
Yata bilməm, yerim dardı.
Dönərəm o yan, bu yana,
Heç bilmirəm nə xəyaldı.
Mənə derlər Xəstə Hasan,
Sevdiyin çox zulumkardı,
O səbəbdən yaş gözümdən,
Durmaz gələr axar əyri,
Sənəm əyri, sonam əyri,
Cəhənnəmdə yanar əyri.

## CAHANGİR

Namərdlə yoldaş olma,
Uzun ağrı çəkər başın.
Halal ilə ərsəyə çat,
Daş qalalar sökər başın.

Xain baxma yaradana,
Qibləgahdı ata-ana.
Arxalanma bəyə-xana,
Qoy sağ olsun nökər başın.

Haqdan istə bəxti-iqbal,
Yaradanı yadına sal.
Söz gövhərdi, Miskin Abdal,
Saxla, dürdü, tökər başın.

Ustadlar ustadnaməni bir yox, iki deyərlər. Biz də deyək ki, iki olsun, namərdin beli bükülsün.

Keçən günə günlər çatmaz,
Günü-günə calasan da!
Dərdli adam gecə yatmaz,
Şirin layla çalasan da!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Öz dənini özün üyüd,
Alma, heyva verməz söyüd.
Anlamazlar almaz öyüd –
Şahmar olub çalasan da.

Səfil Şenlik ağlar, gülməz,
Nanəciblər dostu bilməz.
Fani dünya sənə qalmaz,
Altun verib alasan da.

Ustadlar ustadnaməni iki yox, üç deyərlər, biz də deyək üç olsun, namərdin ömrü puç olsun.

Özündən kiçiyi işə buyurma,
Sözün yerə düşər, heç miqdar olmaz.
Hər nə ki kar görsən öz əlinlə gör,
İnsan öz işində cəfakar olmaz.

Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş ərzi-halını,
Amanat, amanat qonşu malını,
Qonşu yox istəyən özü var olmaz.

Soruşun, Qul Abbas, halın necədi?
Gündüzlərin ay qaranlıq gecədi,
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı, budağında bar olmaz.

Sizə hardan ərz eləyim, Misir vilayətindən. Misir vilayətində Əziz şah adlı bir şah yaşayırdı. Əziz şahın var-dövləti həddini aşmışdı. Ömrünün iki payı getmişdi. Ancaq bir züryəti yox idi ki, var-dövlətinə sahib olaydı.

Günlərin birində şah baş-üzünü bərbərdə təraş etdirirdi. Gördü ki, axirət tükü düşdü qabağına. Yanıqlı bir ah çəkib bərbərin aynasını götürüb çaldı yerə.Bundan bərbər bərk qorxdu. Düşündü: «Ey dad, mən şaha nə etdim ki, şah belə qeyzə gəldi?!» Əziz şah bərbərin bərk qorxuya düşdüyünü görüb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ayə, sən niyə qorxursan?

Bərbər yenə bir ah çəkib dedi:

– Şah sağ olsun, necə qorxmayım? Sən hökm sahibisən. Sən naqafil, haqq-nahaq əmr edib, cəllada boynumu vurdura bilərsən. Bir də axı, mənim çörəyim bu aynadan çıxır, neçə baş can saxlayıram. Sən də ki, aynanı çaldın yerə.

Əziz şah çıxardıb artıqlaması ilə aynanın dəyərini verdi. Öz barigahına qayıtdı. Üç gün, üç gecə yatdı. Üstünə nə qədər həkim, cərrah gəldi, dərdindən halı ola bilmədilər. Üçüncü günü barigahın qabağına bir dərviş gəldi. Dedilər ki, bəlkə bu dərviş şahın dərdindən halı ola. Dərvişi şahın yanına gətirdilər. Dərviş ədəb-ərkanla salam verdi, əleyk aldı. Dərviş dayanıb bir qədər şahla həmsöhbət olduqdan sonra əl atdı cibinə, bir dənə alma çıxardıb verdi və Əziz şaha dedi:

– Bu almanı baş yoldaşınla yeyərsən. Sənin bir oğlun olacaq. Ancaq 14-15 yaşlarında onun başında qaranlıq olacaq.

Bunu deyib, dərviş aftafasını da əlinə alıb çıxdı eşiyə.

Dərviş getməkdə olsun, görək şah neylədi. Əziz şah dərvişin dediklərini yerinə yetirdi. Deyərlər ki, aşıq dili yüyrək olar. Doqquz ay, doqquz gün, doqquz dəqiqə tamam olduqdan sonra qadın yükünü qoyur yerə. Əziz şahın bir oğlu olur. Adını qoyurlar Cahangir. Cahangiri verirlər anaya, anadan lələyə.

Gəlir, nə olacaq, oxumalı vaxtı çatır. Şah oğlunu məktəbə tək-tənha buraxmaq istəmir. Düşünür ki, nə olar, nə olmaz. Allah heç kəsin çörəyini təknədə tək etməsin ki, yeyər qurtarar, yeməz acından ölər.

Şah otağının birini pünhan edib oğlu üçün molla gətirir ki, evdə dərs versin. Molla Cahangirə dərs verməklə məşğul olur. Oğlan 13-14 yaşına qədəm qoymuşdu, di gəl ki, doğru-dürüst heç eşik üzü görməmişdi. Bir gün Cahangiri şəhərlə tanış olmağa çıxartdılar. Cahangir gördü ki, bir dəstə cavan oğlan səyahətdən gəlir. Oğlan xəbər aldı:

– Bunlar haradan gəlir?

Molla cavabında dedi:

– Ay bala, gəzməli yerlər var. Gəzib səyahətdən gəlirlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cahangir də səyahətə çıxmaq arzuladı. O, evə qayıdıb atasından xahiş etdi:

– Ateyi-mehriban, icazə ver, mən səyahətə çıxım.

Əziz şah onun başına oğlanlar yığıb göndərdi səyahətə. Ovda onların qarşısına bir ceyran çıxdı. Cavanlar üzük qaşı kimi ceyranı araya aldılar. Cahangir ceyranı görüb belə ərz etdi:

– Uşaqlar, bu mənim ilk ovumdur. Bunu mən diri tutub babama aparacam. Ceyran kimin sağ tərəfindən qaçsa sağ qolunu, kimin sol tərəfindən qaçsa sol qolunu kəsərəm.

Cavanlar ceyranı dövrəyə alanda ceyran yol alıb Cahangirin öz tərəfindən aradan çıxdı. Cahangir başının yığnağına belə ərz etdi:

– O ki, mənim tərəfimdən getdi, əziyyətini mən çəkəcəyəm. Heç kəs zəhmət çəkməsin.

Cahangir bir qədər ceyranın dalınca at sürdükdən sonra ceyranı gözdən itirdi. Bundan o, çox qəmgin oldu. Atdan düşüb bir bulaq başına gəldi. Sudan içib bir qədər ağlayıb yatdı. Cahangir bir qədər yatmışdı ki, bir dərviş əlində badə kəsdi başının üstünü. Dedi:

– Oğul, qalx. Nə xabə bülənd olmusan?

Cahangir diksinib qalxdı. Gördü ki, bir dərvişdi, əlində badə durur başının üstündə. Dərviş Cahangirin oyandığını görüb dedi:

– Oğul, götür bu badəni başına çək, dərd-qəmin dağılsın.

Cahangir dedi:

– Bizə bu badəni içmək olmaz.

Dərviş dedi:

– Oğul, bu dərd-qəm dağıdan badələrdəndir.

Cahangir götürüb badəni başına çəkdi. Gördü ki, süddən ağ, şəkərdən şirindi. Dedi:

– Ağa, olarsa, yandı ciyərim, bir də ver.

Dərviş soruşdu:

– De görüm, nə eşqinə içdin?

Cahangir cavab verdi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Özü bir, adı minbirin eşqinə.

Cahangir dərvişin verdiyi ikinci badəni də başına çəkdi.

Dərviş soruşdu:

– Oğul, bəs, ikincini nə eşqinə içdin?

Dedi:

– Yüz iyirmi dörd min nəbinin eşqinə.

Cahangir üçüncü badəni də içdi. Dərviş sualını yenə verdi:

– Bəs üçüncü badəni nəyin eşqinə içdin?

Cahangir cavab verdi:

– Bu badəni verən ağanın özü bilər.

Bunu eşidən dərviş Cahangirə dedi:

– Oğul, barmağımın arasından bax. De görüm, nə görürsən?

Cahangir dərvişin barmaqları arasından baxıb gördüklərini dedi:

– Uzun-uzadı cadalar görürəm.

Dərviş soruşdu:

– Daha nə görürsən?

Cahangir dedi:

– Bir şəhər görürəm. Şəhərin kənarında bir gülşən bağçası, bağçanın içində bir çarhovuz, çarhovuzun yanında bir nazənin xanım görürəm.

Dərviş dedi:

– O Hindistan padşahının qızı Mələksimadır. Səni ona, onu sənə buta verdim. Başın çox bəlalar çəkər, axır mətləbinə çatarsan. Harda darda qalsan ağanı çağır, imdadına çatar.

Sözünü tamama yetirib dərviş Cahangirdən soruşdu:

– Oğul, o tərəfdən gələn kimdi?

Cahangir çevriləndə dərviş yoxa çıxdı. Cahangir dönəndə dərvişi görməyib bihuş olub yerə çökdü.

Qoşun əhli Cahangiri axtara-axtara gəlib həmin bulağın yanına çatdı. Gördülər ki, Cahangir bihuş uzanıb yerə, ağzından köpük gəlir. Cahangiri bu vəziyyətdə gətirdilər barigaha. Cahangir ayılmırdı. Şah nə qədər həkim-cərrah çağırdı, dərdindən halı olmadılar. Dedilər ki, bunun dərdindən kim halı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ola bilər. Cavab verdilər ki, dünya görmüş qarılar. Qarılar da cürbəcür olur. Qarı var imanquran, qarı var ilan vuran, qarı var saman altdan su yeridən, qarı var küpə minən, küpdən düşən, qarı var qaldırım-qırp, qarı var şıldırım-şırp, qarı var holdurum-hop.

Xülasə, gələn qarılardan biri dedi:

– Bu ya qudurub, ya da quduzluğu var. Buna qızıl göstərin, başına kül ələyin.

Şah bu sözdən qeyzlənib dedi:

– Məni istəyən qarıya bir başmaq nalçası!

Qarıya o qədər çaldılar ki, o dünyalıq oldu.

Bəli, Cahangirin başının üstünə bir iman quran qarı gəldi.

Qarı belə ərz etdi:

– Heç fikir çəkməyin. Buna ağalar ağası badə verib. Başına qız-gəlin toplayın, gözünü açanda qoy şadlıq görsün.

Əziz şah dedi:

– Məni istəyən qarıya xələt!

Qarının yükünü tutdular. Qarı gedi öz işinin dalınca.

İki ötən, üç deyən günü Cahangir gözünü açıb gördü ki, anası başının üstündə ah-fəğan eyləyir. Cahangir dedi:

– Aneyi-mehriban, niyə ağlayırsan?

Anası Diləfruz xanım cavab verdi:

– Oğul, köhnə ölənlərim yadıma düşüb.

Cahangir dedi:

– Rəhmətliyin qızı, niyə təzə ölünü ağlamırsan, köhnə ölünü ağlayırsan?

Diləfruz xanım dedi:

– Oğul, dərdini de, əlac eyləyim.

Cahangir cavab verdi:

– Dərdimi dilnən desəm, dilim od tutub yanar, dərdlilərin çarəsi tut ağacının parçası, başı nimçə, dalı çömçə-ona saz deyirlər. Get ondan tap gəti, dərdimi deyim.

Saz da o vaxt çətin tapılırdı. Diləfruz xanım soruşdu:

– Sazı kim tapıb gətirə bilər?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir keçəl yerindən qalxıb dedi:

– Mən bilirəm. Bir dəfə göy guruldayanda göydən düşən sazı birinin götürüb saxladığını gördüm.

Keçəllər də əlləmbetər olurlar. Allah heç kəndi keçəlsiz etməsin. Keçəlsiz kənddə xeyir-bərəkət olmaz. Necə deyərlər, keçəllər də cürbəcür olur: ayparası, hoduq dırnağı, qavlama, zıflama.

Keçəl bir qədər pul götürüb günə bir mənzil başladı getməyə. Xeyli getdikdən sonra özünü sazbəndə yetirdi. Keçəl sazbənddən soruşdu:

– Ayə, başına dönüm, o sazın fiyəti nədi?

Sazbənd dedi:

– Beş tümən.

Çıxardıb pulunu verdi. Sazı da götürüb özünü yetirdi barigaha.

Sazı görəndə keçəldən soruşdular:

– Ayə, fiyəti nədi bu sazın?

Keçəl cavab verdi:

– Üç yüz tümən. Beş tümən də yoldaşımdan alıb üstünə qoymuşam.

Keçəl pulu aldı, sazı da verib getdi işinin dalınca. Keçəl getməkdə olsun, görək Cahangir neylədi.

Cahangir götürüb sazın zilini-zil, bəmini bəm eyləyib, saza elə taziyanə vurdu ki, elə bil yeddi il ustada qulluq eləmişdi. Götürüb görək anası Diləfruz xanıma nə deyəcək, o da necə cavab verəcək.

*Aldı Cahangir:*

Get, padşah babamdan izin alginən,
Salginən yollara, ay ana, məni.
Misir ellərində olar qeylü-qal,
Açıb sirri, salma bəyana məni.

*Aldı Diləfruz:*

Başına döndüyüm gülüzlü oğul,
Qoymaram gedəsən o yana səni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Açmaram sirrini, eylərəm pünhan,
Qorxma, heç salmaram bəyana səni.

*Aldı Cahangir:*

Çoxdan müştəriyəm bağça, bağına,
Necə tab gətirim qəm-fərağına.
Mən istərəm yetəm yar ovlağına,
Bağışla ol qadir Sübhana məni.

*Aldı Diləfruz:*

Oğul, nə gözəldi bu gül camalın,
Təzəcə açılıb xətteyi-xalın.
Fərasətin olsun, ağıl-kamalın,
Nə deyərlər, burdan qoyana səni.

*Aldı Cahangir:*

Cahangir, dərdini heç yazan olmaz,
Sətirli dəftərə heç düzən olmaz.
Haqqın qurğusunu heç pozan olmaz,
Yandırıb eyləmə pərvan məni.

*Aldı Diləfruz:*

Diləfruz dözəmməz ahu-zarına,
Xilaf qatma namusuna, arına.
Əlin çatsa o gülüzlü yarına,
Qorxuram qoymaya bu yana səni.

Söz tamama yetdi. Anası çox yalvardı, Cahangir baxmadı. Yenə öz dediyini deyib, anasını Əziz şahın yanına göndərdi. Diləfruz xanım Əziz şaha aydın etdi ki, oğlu sevgi dalınca gedir. Əziz şah oğlunu yanına çağırıb dedi:

– Oğul, kimin qızını istəyirsən, de alım. Ancaq mən səni uzaq səfərə göndərə bilmərəm.

Atası çox dedi, Cahangir az eşitdi, dediyindən dönmədi. Oğlunun fikrindən dönmədiyini görən Əziz şah Cahangiri tək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

göndərmək istəmədi. Deyirlər ki, o vaxtlar padşah qızları üçün nənə, oğlanları üçün lələ tutardılar.

Əziz şah Cahangirin lələsini yanına çağırıb dedi:

– Səni qoşunla bərabər Cahangirə qoşuram. Yolu bir qədər getdikdən sonra qoşunu gizlincə geri qaytar. Qalın ikiniz. Bəlkə Cahangir qısqana getməyə.

Cahangir ata-anasıyla xudahafizləşib lələsiylə yola düşdü. Neçə gün yol gəlib bir cəzirədə dayandılar. Gecə burada qalmalı oldular. Baş qoydular yatmağa. Gecənin bir vaxtı lələ qoşun əhlini Cahangirdən gizlin Misirə qaytardı. Sabah açıldı. Üstünüzə xeyirli sabahlar açılsın. Cahangir qalxıb gördü ki, bir lələsidi, bir də özü. Lələ dedi:

– Oğul, tək əldən səs çıxmaz. Qoşun əhli qayıdıb dala. Bəs biz nə edək?

Cahangir lələsinə cavab verdi:

– Lələ, qurddan qorxan qoyun saxlamaz. Ölməyə də varam, öldürməyə də. İstəyirsən sən də qayıt.

Lələ baxdı ki, olmur. Yola düşdülər. Aşıq dili yüyrək olar. Günə bir mənzil teyyi-mənazil, gəlib çıxdılar Hindistan vilayətinə. Hindistanı Cahangirə vaqyasinda dərviş göstərmişdi. Onlar qəflə-qatırla ərdöyy-ətlas, tirmeyi-şal götürmüşdülər. Özünü şəhərə yetirən kimi lələ özü üçün bir dükan tutub mətahını yığdı dükana. Hər şeyi yerbəyer edib lələ mətahdan satmaqda olsun, Cahangir dedi:

– Lələ, sən alverində ol. Mən gedim şəhərlə tanış olum.

Cahangir özünü gülşən bağçasına yetirib çarhovuzun yanında dayandı. Əl-üzünü yuyub, yatdı.

Mələksima gülşən bağçasına çıxmışdı. Gördü ki, yuxusunda gördüyü həmin oğlan çarhovuzun yanında yatır. Oğlan yol gəlib yorulduğundan, qız onu narahat etməyə qıymadı. Mələksima götürüb on dörd yasəmən zülfündən yeddi tel ayırdı, basdı sineyi-sandığa. Götürüb görək nə deyəcək. Ərz eyləyək tərəfindən qulluğunuza:

Xab içində yatan oğlan,
Dur, karvanın köçüb gedər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Malı mətah satan oğlan,
Dur, karvanın köçüb gedər.

Varsa, gəti havadarın,
Tökülər bağçada barın,
Mənəm sənin nazlı yarın,
Dur, karvanın köçüb gedər.

Mələksima, boyum bəstə,
Dərdindən düşmüşəm xəstə,
Xoş gəlibsən gözüm üstə,
Tərlan quşun uçub gedər.

Sözünü tamama yetirdi. Mələksima kağız yazıb saç telilə bağladı. Qoydu oğlanın papağının altına. Qız getdi öz işinin dalınca.

Cahangir yuxudan ayılıb əl-üzünü yaxalamaq istədi. Papağını qaldıranda kağız düşdü qabağına. Kağızı oxuyub, məzmunundan halı oldu. Oğlan qəmgin olub qayıtdı lələsinin yanına.

Lələ Cahangiri qəmgin görüb soruşdu:

– Oğul, niyə belə qəmginsən? Səhərdən hardasan?

Cahangir lələsinin cavabında aldı görək nə dedi:

Lələ, vardım güllü bağa,
Orda bir cananı gördüm.
Hacizət-möcüzətində,
Cəngilə dühanı gördüm.

Sərvi boylu sərvinazı,
Başında cığa pərvazı,
Hindistan şahının qızı,
O Mələksimanı gördüm.

Pərdeyi-ismətdən baxıb,
Cahangiri oda yaxıb.
Bəs deyim cənnətdən çıxıb,
O huri-qılmanı gördüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamama yetdi. Lələ Cahangiri çox danladı. Dedi:

– Oğul, sənə bir nəsihətim var. Qulaq as, gör nə deyirəm.

O zaman ki, vardıq hindin elinə,
Çox nəsihət verdim ellərə, oğul.
Hindistanlılar anlayan, biləndi,
Çox özünü salma dillərə, oğul.

Mərifətli ol, oyatma yatanı,
Çoxdu seyrəqibin ara qatanı,
Dostunu seç, düşmənlərini tanı,
Sirr vermə gədaya, qullara, oğul.

Sənə dedim, oğul, çıxma bazara,
Ya gözə gələrsən, ya bədnazara.
Axır Lələni salarsan azara,
Mail olma incəbellərə, oğul.

Söz tamama yetdi. Lələ işi başa düşüb bu gündən Cahangiri yanından buraxmadı. Cahangir lələnin yanında qalmaqda olsun, sənə kimdən xəbər verim, Mələksimadan. Mələksima ha gözlədi ki, sevgilisi gələcək. Bir gün belə, beş gün belə, yolunu çox gözlədi. Cahangir gəlib çıxmadı. Mələksimanın Ziyrikqız adında bir kənizi var idi. Çağırıb yanına dedi:

– Ziyrikqız, harda olsa Cahangiri tap. Yanıma gəti.

Ziyrikqız saldı özünü şəhərə. O dükandan bu dükana, bu dükandan o dükana gəlib Cahangirin dükanını tapdı. Qız əl atdı cibinə, dedi:

– Ayə, o parça topunun birini bəri endir.

Parça topunun birini alıb dedi:

– Birini də endir.

Parçanın pulunun bir qədərini verdi. Pulu çatmadı. Qız dedi:

– Qoca baba, pulun çatmayanını qoy o oğlan mənimlə gedib gətirsin. Binəmiz yaxındadı.

Lələ Cahangirə icazə verdi. Onlar yola düşdülər. Yolu bir qədər getdikdən sonra parça toplarını yerə qoyub dincəlmək-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

də olsunlar, sizə deyim Ziyrikqızdan. Ziyrikqız bir könüldən min könülə Cahangirə aşiq olub, eşqi pərvaz eylədi. Cahangirə belə dedi:

– Mən səni sevirəm. Sən də məni sevirsən ya yox?

Cahangir dedi:

– Çəpəl, bir az düzgün danış. Yolumuza davam edək.

Ziyrikqız hirslənib parça topunun ikisini də verdi Cahangirin qoltuğuna.

Mələksima güləfirəngidən baxırdı. Gördü ki, Ziyrikqız çox hirsli gəlir. Cahangir çox ağır vəziyyətdədir. Hər qoltuğunda bir parça topu, Cahangir özünü yetirdi qızın barigahına. Parça topunu yerə qoyub dincini aldı. Mələksima on dörd yasəmən zülfündən bir neçə tel ayırıb basdı sineyi-sandığa. Görək Cahangirə necə «xoş gəldin» eylədi.

*Aldı Mələksima:*

Başına döndüyüm gülüzlü oğlan,
Əbrüşündü malın, xara satırsan.
Gizlindi sirrimiz, demə yadlara,
Mən bilirəm, sən aşkara satırsan.

*Aldı Cahangir:*

Başına döndüyüm gülüzlü xanım,
Əbrüşündü malım, xara satıram.
Əgər xəbər alsan sən qiymətini,
Arşını bircə cüt nara satıram.

*Aldı Mələksima:*

Malı-mətahını tökmə çöllərə,
Axdı didəm yaşı, döndü sellərə.
Bir od saldın dəhanımda dillərə,
Elə bildim ləbdə bala satırsan.

*Aldı Cahangir:*

Tayla gətirmişəm tirmeyi sənə,
Könlüm istər yanağından busəni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəlib gördüm mən də Mələksimanı,
Elə sanki ləbdə bala satıram.

*Aldı Mələksima:*

Malı-mətahını verməynən zaya,
Mən dözə bilmərəm həftəyə, aya.
Sən də irəhm eylə Mələksimaya,
Təbibsən, dərdimə çara satırsan.

*Aldı Cahangir:*

Cahangirəm, on dörddü mənim yaşım,
Çoxdu malım, al-əlvandı qumaşım,
Başqalara olmaz mənim peşkaşım,
Onunçün gətirib yara satıram.

Söz cavabı tamama yetirdi. Allah hər həsrətləri belə qovuşdursun. İki sevgili bir-biri ilə görüşdü. Bir vaxtdan sonra Cahangir öz dükanına qayıtmlı oldu. Lələ Cahangiri çox danladı. Bu gündən bayıra çıxmağa icazə vermədi. Bunlar burda qalmaqda olsun, sənə kimdən xəbər verim, Yəmən padşahının oğlu Heydər xandan. Heydər xan çox güclü pəhləvan idi. Günlərin birində Mələksimanın şəkli çatdı Heydər xana. Heydər xan başına on min qoşun götürüb Hindistan kənarında dayandı. Heydər xanın Hafiz Əfəndi adında bir aşığı var idi. Hafiz Əfəndinin qırx şagirdi var idi. Elə deyirdilər ki, Heydər xan aşığını da gətirmişdi. Heydər xan gəlib elçi daşının üstündə oturdu. Hindistan padşahı Məhəmməd şaha belə ərz etdi:

– Özün öz xoşunla ya qızın Mələksimanı ver, ya da davam davadı. Ya da aşığımın qabağına xasım gəti.

Deyirlər ki, Məhəmməd şah heç birinə razı olmayıb dedi:

– Nə qızı verməərəm, nə dava edib torpağıma qan salmaram. Ancaq aşığının qabağına aşıq çıxara bilərəm.

Hafiz Əfəndi meydana girdi. Əlinə keçən aşığı bağlayıb saldı zindana. Beləliklə 39 aşığı bağladı. Bir aşıq çatışmırdı ki, 40 nəfər tamam olsun. Aşıq tapılmadı. Onlar aşıq gəzməkdə olsun, sənə kimdən xəbər verim, Cahangirdən. Cahangir öz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dükanının qabağında oturmuşdu. Gördü ki, dükanın qabağında iki hindistanlı danışır. Biri o birinə deyir:

– Ayə, gəl gedək meydana. Yəmən padşahının oğlu Heydər xanın aşığı bizim Hindistan aşığını bağlayıb salır zindana. Görək nə təhər aşıqdı.

Cahangir bu sözləri eşidib gəldi lələnin yanına. Cahangir dedi:

– Lələ, bu yanda aşıq məclisi var. İcazə ver, gedim qulaq asım.

Lələ Cahangirə icazə verməyib dedi:

– Oğul, sən dayan burada. Mən özüm gedərəm.

Lələ Cahangiri dükanda qoyub özünü yetirdi həmin məclisə. Lələ gördü ki, divarda saz sazın üstündən asıllıb. Özü də bir nəfər aşıq gəzirlər. Lələ dedi:

– Mənim bir oğlum var. Olarsa, gətirim, bu aşıqla görüşsün.

Hafiz Əfəndi dedi:

– Hələ bir sən de görüm hara adamısan? Hindistanlıya oxşamırsan.

Lələ dedi:

– Neynirsən mənim haralı olduğumu?

– Hafiz Əfəndi cavab verdi:

– Bilmək istəyirəm.

Lələ buyurdu:

– Mən özüm Misir vilayətindənəm.

Hafiz Əfəndi dedi:

– Misir xalqı axmaq olur. Simi yerindən tərpədənin aşıq deyib yaxasından tuturlar. Başı gövdəsinə ağırlıq verirsə qoy gəlsin.

Lələ dübarə geri qayıdıb gəldi Cahangirin yanına. Dedi:

– Oğul, bir qocaman aşıq gördüm. Əlinə keçəni bağlayıb salır zindana. Sazları tısbağa kimi qoyublar bir-birinin üstünə. İndi əgər özünə gümanın gəlirsə, gəl gedək. Gəlmirsə, qapını bağlayaq, dalında oturaq. Gəlib çağıran olsa cavab verməyək.

Cahangir lələsinin cavabında dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Lələ, elə şeyi mən göydə gəzirdim, yerdə əlimə keçdi.

Cahangir altdan geyindi, üstdən qıfıllandı, üstdən geyindi, altdan qıfıllandı. Belinə qılınc bağladı. Sazı götürdü çiynınə. Lələ Cahangiri belə görüb dedi:

– Ayə, vallah, qocaman aşıq səni belə görəndə özünü itirəcək.

Dükanı bağlayıb hər ikisi düşdü yola. Həmin məclisə daxil oldular. Hafiz Əfəndi o yerdə gördü ki, bir Hafiz Əfəndi dedi:

– Oğul, gəlibsən, yoxsa gələcəksən?

Cahangir cavab verdi:

– Gələcəyəm.

Hafiz Əfəndi dedi:

– Ayə, gəlibsən. Necə yəni gələcəyəm?!

Cahangir cavab verdi:

– Mənim gələcəyim var. Yetmiş, səksən, yüz il.

Soruşdu:

– Yaxındasan, yoxsa uzaqda?

Cavab verdi:

– Hələ uzaqdayam. Sənin tək qocalanda, gözüm yaxını kəsəcək.

Götürüb Hafiz Əfəndi dedi:

– Nə ağırdı, nə yüngül?
Nəyin səsi uzağa gedər?

Cahangir cavab verdi:

– Mərifət ağırdı, salam yüngül. Çörəyin səsi uzağa gedər.

Hafiz Əfəndi dedi:

– Oğul, aşıqsan?

Cahangir dedi:

– Aşıq qoyunun baldırında olar.

Dedi:

– Bəs ustasan?

Dedi:

– Usta keçinin dalınca güllə atar.

Dedi:

– Bağlaşaq?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cahangir dedi:

– Bağlaşaq, örkənlə, zəncirlə, nə ilə istəyirsən bağlaşaq.

Hafiz Əfəndi dedi:

– Oğul, belindəki nədi, çiynindəki nədi?

Cahangir cavab verdi:

– Belimdəki qılıncdı, çiynimdəki saz.

Dedi:

– Bəs saz nə, qılınc nə?

Dedi:

– Mən qanana sazla qandırıram. Qanmayana qılıncla.

Hafiz Əfəndi belə buyurdu:

– Sən qabağa ddüşürsən, yoxsa mən?

Cahangir dedi:

– Mən həmişə fürsəti düşmənə verirəm. Sən get, mən də gəlirəm.

Götürüb görək Hafiz Əfəndi Cahangirə nə deyəcək. Cahangir ona necə cavab verəcək.

Ərz edək hər ikisinin tərəfindən qulluğunuza.

*Aldı Hafiz Əfəndi:*

Sən bir bəzirganın kiçik oğlusan,
Malı-mətahını satıb gedərsən.
Özünü öz işini salma müşkülə,
Özünü kəməndə salıb gedirsən.

*Aldı Cahangir:*

Mən bir bəzirganın kiçik oğluyam,
Malı-mətahımı satıb gedərəm.
Satınalma çoxdu mənim qullarım,
Səni də içinə qatıb gedərəm.

*Aldı Hafiz Əfəndi:*

Gəl qulaq as yemilimə, andıma,
Qocalmışam gücüm çatır gəndimə.
Düşübsən sən mənim feli-fəndimə,
Bir cana borclusan verib gedərsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı Cahangir:*

Andın qənim olsun sənin başına,
Qırx şagirdi nə düzmüsən yanına,
Ağ saqqalın boyanacaq qanına,
Başını bədəndən alıb gedərəm.

*Aldı Hafiz Əfəndi:*

Hafiz Əfəndiyəm, gəl məni tanı,
Çoxları öz dediyindən utanı.
Ellər görsün baş bədəndən atanı,
Axırda bu yerdə qalıb gedərsən.

*Aldı Cahangir:*

Cahangirəm, özüm də ki şahzadə,
Mən varam bir dərya, sən varsan ada.
Bir aşıq qoymaram fani dünyada,
Hamını qol-qola çatıb gedərəm.

Söz tamama yetdi. Aldı görək Cahangir nə dedi:

Səhər səhraları gəzərkən, usta,
Rast oldum mən biyaların beşinə.
İyirmi kəlmə olan bir vərəq üstə,
Onu ulidin, beşi sulidin, beşi nə?

Hafiz Əfəndi deyir:

– Oğul, nə ki çar de, gəlsin. Mən qırx qazalağa bir tulamazdı atıram.

Cahangir dalını da dedi:

Mən hürufatı oxuram başdan,
Kimə xəbər gəldi daima daşdan .
Usta, gəl xəbər ver mənə on beşdən,
Beşi Quran, beşi mələk, beşi nə?

Cahangirəm , sözümü endirrəm ona,
Geyinib girərəm mən ayrı dona.
İbtida kim gəaldi, de, bu cahana,
Pəşdən ali abadə, bəs beşi nə?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sözünü tamama yetirdi. Usta cavab verə bilməyib Cahangirdən icazə alıb çıxdı eşiyə. Hafiz Əfəndi «asta qaçana ağam qənim olsun» – deyib, əldən çıxdı. Aşığı nə qədər axtardılar, tapa bilmədilər. Hafiz Əfəndinin şagirdləri də Cahangirin əlinə keçdi. Heydər xan baxdı ki, əli tutmadı. Dübarə qoşunu da çəkib qayıtdı geri.

Cahangir Hafiz Əfəndinin şagirdlərini, bağladığı aşıqları buraxdı.

Məhəmməd şah Cahangirin Heydər xana qalib gəldiyini görüb dedi:

– Oğul, məndən istəmə padşahlığımı, xəzinənin bütününü, baş yoldaşımı. Özgə nə istəyirsən, istə. Mətləbinə nail edərəm.

Götürüb Cahangir Məhəmməd şahın cavabında görək nə dedi. Aldı Cahangir:

Bir gün mən ovçuydum çıxmışdım ova,
Qüdrət qılıncını gətdilər sola.
Razı ollam, hər nə versən əlavə,
Ərəb və çin, farsı şuma, türki siz.

Padşah dedi:

– Oğul, açıq-aşkar məndən istə. Elə dilləri başa düşə bilmirəm.

Cahangir aldı, görək nə dedi:

Sudan çıxıb sonalardan seçilib,
Şirin-şərbət badəsindən içilib.
Tər bənövşə, güldən təzə açılıb,
Ərəb ənta, farsı surət, türki üz.

Cahangirəm, eşq oduna dalaram,
Qərib ölkə, bu diyarda qalaram.
İrazıyam, hər nə versən alaram,
Ərəb binti, farsı duxtər, türki qız.

Söz tamama yetdi. Məhəmməd şah gördü ki, bu, qızı diləyir. Belə fikir elədi ki, mən Heydər kimi pəhləvanı geri qaytardım. Bəzirgan oğlu – aşığa qız necə verim?! Padşah məclis əhlinə üz tutub dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Lələ xalqa bəyan etmişdi ki, şahın qızı oğlumun butasıdı.
Məclis əhli, nə olacaq, hərə bir tərəfdən, bir səslə dedi:

– Şah sağ olsun, eşitdiyimizə görə sənin qızın haqq tərəfindən bu adama verilibdi. Sən də razılıq versən daha yaxşı olar.

Məhəmməd şah dedi:

– O ki, qızım haqq tərəfindən mənsiz verilib, desin görüm, mənim qızımın qabaqca adı nə olub? Çünki bizim adətdə var, uşaq xəstələnəndə adını dəyişirlər. Bu bir. İkinci, desin görüm, Mələksimanın dağı haradı, aranı haradı. Mənə nişan versin.

Cahangir dübarə götürüb görək nə dedi:

Bir adı Diləfruz, bir adı Pəri,
Bir adı da onun var Mələksima.
İzzət bəyin bacısı, o şahın qızı,
Qoyun olsun mənə yar, Mələksima.

İsfahanda vardı məskəni, dağı,
Hindistandı onun bağçası, bağı.
Keçdi zimistanı, gəldi yaz çağı,
Bülbülə yağıdı yar, Mələksima.

Cahangir gördü ki, padşah dildə razıdı, qəlbdə yox. Aldı görək nə dedi:

Cahangir də qönçə gülün dərməsə,
Cəlladlar da bu boynumu vurmasa.
Qardaşın razıdı, baban verməsə,
Bir ayrı xəyalım var, Mələksima.

Söz tamama yetdi. Məhəmməd şah dedi:

– Oğul, sən get, mətahını xərc eylə. Mən öz qızımın xərcini özüm çəkərəm.

Cahangir gedib mətahını xərc eyləməkdə olsun, sənə kimdən deyim, Məhəmməd şahdan. Məhəmməd şah belə fikirləşdi ki, Heydər xan qani pəhləvandı. Qızı ona versə daha yaxşı olar. Öz dəsti-xətti ilə bir namə yazıb göndərdi, Yəmən şəhrində Heydər xana. Qasid özünü Heydər xana yetirdi. Xan naməni oxuyub, məzmunundan halı oldu. Bir neçə min qoşun başında düşdü yola. Məhəmməd şah əl altından qızı verdi Heydər xana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cahangirin xəbəri olmadı. Qız getməkdə olsun, sizə kimdən xəbər verim, Cahangirdən. O, öz dükanında yatırdı. Yuxusunu qarışdırdı. Ağalar ağası kəsdi başının üstünü. Dedi:

– Oğul, nə xabə bülənd olmusan? Oyan, gülünü xar apardı.

Cahangir qalxıb lələsinə dedi:

– Lələ, dur, o sazı bəri endir.

Lələ dedi:

– Gecənin bu vaxtında, oğlum, məni narahat etmə, qoy yatım.

Cahangir sazı özü götürüb görək nə dedi:

Yatmış idim xabi-qəflət yuxuda,
Guşimə gəldi o sədalar indi.
Kül olubdu mənim aslan başıma,
Yarımı alıbdı gədalar indi.

Lələ, dərdin əllidimi, yüzdümü,
Pərişan gördüyüm ala gözdümü.
Büllur buxaqlımı, lalə üzdümü,
Məgər mən ölmüşəm, yad alar indi.

Cahangirəm, çağıraram bir ağa,
Mələksima deyib düşdüm sorağa.
Lələ, vallah, Əslim getdi irağa,
Kərəm kimi canım od alar indi.

Söz tamama yetdi. Lələ çox dedi, Cahangir az eşitdi. Cahangir qılıng, qalxan, əmud, nizə, gürz, silaha sarılıb düşdü yola. Cahangir getməkdə olsun, sizə kimdən deyim, Mələksimadan. Mələksima icazə alıb karvanı dayandırdı. Ana vətəndən ayrı düşməyi, sevgilisindən ayrılmağı onu kövrəltdi. Gəcavədən düşüb, gözündən bahar buludu tək yaş tökdü. Onun səsinə üç göyərçin yerə endi. Demə bunlar məleykə olsun. Mələksima bunları görəndə yanındakı kənizə dedi:

– Bəlkə bunlar məleykədirlər? Mən bir neçə xanə söz deyəcəyəm, sən yazarsan. Göyərçinlər çatdırarlar Əziz şaha. Bəlkə Əziz şah mənim dərdimə əlac eyləyə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Götürdü Mələksima, görək nə dedi. Ərz eyləyək tərəfindən qulluğunuza.

*Aldı Mələksima:*

İsminiz Pərzaddı, donu murqular,
Yandım, özünüzü mənə yetirin.
Göz yaşımla yazdım ərzi-halımı,
Misirdəki qaynatama yetirin.

Alışdı sinəmin közü qırmızı,
Qələm qana döndü, yazı qırmızı.
Cahanı qaldıran gözü qırmızı,
Günortaya, ya axşama yetirin.

Şah qızıyam, adım Mələksimadı,
Keçdi bir neçə gün bu gün cümədi,
Sizə yazdığım şikayətnamədi,
Şahi-Mərdan on iki imama yetirin.

Söz tamama yetdi. Qız çıxdı gəcavəyə. Gəcavə tərpənən vaxtı Cahangir özünü yetirdi. Götürdü, görək nə dedi:

*Aldı Cahangir:*

Qoşunun sərkarı, Yəmənin xanı,
Sizin üçün namus olsun, ar olsun.
İnsafdan uzaqdı, mürvət eyləyin,
Bir gədanı vilayətdə xar olsun.

Cavanları qan içində üzdürrəm,
Neçə başı bu nizəyə düzdürrəm.
Cümlənizi əsir edib gəzdirrəm,
Görən deyər, o əllərin var olsun.

Cahangir əl çəkməz, heç olmaz çarə,
Doğrayıb tökəcəm, mən para-para.
Yəmən şəhərini sallam hasara,
Geniş dünya sizin üçün dar olsun.

Söz tamama yetdi. Heydər xan işi belə görəndə lələsinə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Lələ, o adam, deyəsən, torpaqbasdı istəyir. Apar onun hesabını ver, aralaşsın.

Heydər xanın lələsi bir qədər para gətirib Cahangirə dedi:

– Oğul, gəl rusumunu apar. Aralaş bizdən.

Cahangir işarə verib dedi:

– Bir yaxın gəl, görüm sən nə deyirsən?

Cahangir ləl əni lap yaxına çağırıb burun-qulağını kökündən götürüb ovcuna qoydu. Heydər xan gördü ki, lələsi burun-qulaqsız qayıtdı üstünə. Heydər xan bərk qeyzə gəldi. Cəhənnəm kimi zəbanə çəkib kəsdi Cahangirin üstünü. Deyirlər ki, davanın qabağı deyişdi, dalı döyüş. Heydər xan götürüb görək Cahangirə nə deyəcək, Cahangir nə cavab verəcək.

*Aldı Heydər xan:*

Hayfım gəlir, oğul, çıx meydanımdan,
Misirlidə namus olmaz, ar olmaz.
Xırıd eylə mətahın öz yerində,
Burda sənə qazanc olmaz, kar olmaz.

*Aldı Cahangir:*

Gəl sənə söyləyim dil pəhləvanı,
Dağ başında bağça olmaz, bar olmaz.
Ağac bitər öz kökünün üstündə,
Söyüdlərdə heyva olmaz, nar olmaz.

*Aldı Heydər xan:*

Aç gözünü, bir baxginən üzümə,
Pəhləvanam, gümanım var özümə.
Ayaqlayıb mən batırram tozuma,
Dönüb getsən dünya sənə dar olmaz.

*Aldı Cahangir:*

Gəl sənə söyləyim, bir dənə dastan,
Qarğadan qaz olmaz, tülküdən astan.
Kül çobandan sərkar, gədadan sultan,
Qara daşı boyasalar, zər olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı Heydər xan:*

Məgər tanımadın sən bu Heydəri,
Bu sözlərin heç olmadı uyarı,
Bağışlamam sən tək günahkarları,
Bizi kimi ilan olmaz, mar olmaz.

*Aldı Cahangir:*

İndi yəqin bildim sənin halını,
Çox toylusan, artırıblar yalını.
Mən yerə qoymasam sənin dalını,
Mələksima Cahangirə yar olmaz.

Sözü tamama yetirdilər. Əl atdılar kəməndə. Kəmənddən murad hasil olmadı. Başladılar küşkü tutmağa. Bundan da murad hasil olmadı. Keçdilər qılınc-qalxan davasına. Heydər xan dedi:

– İndi sən de, görüm, fürsət səninkidi, ya mənimki?

Cahangir: – Ağam fürsəti düşmənə verib. Fürsət səninkidi. Əlindən gələni əsirgəmə, – dedi.

Heydər xan qılıncı Cahangirə endirəndə Cahangir qalxanı verdi qılıncın qabağına. Qılınc yeddi parça olub töküldü yerə. Cahangir atını cövlana gətirib, endirdi qılıncını Heydər xanın təpəsinə. Qılınc Heydər xanın təpəsini tər xiyar kimi iki biçib, bir qədər yerə işlədi. Heydər xan dedi:

– Uşaq, sən mənə neylədin?

Cahangir dedi:

– O ki, elədi, bir tərpən görək!

Tərpənəndə Hnydər xanın bir şaqqası sağ, bir şaqqası sol tərəfə düşdü. Cahangir ac qurd kimi düşdü qoşunun canına. Sağdan vurub soldan çıxdı, soldan vurub sağdan çıxdı. Qoşunun qırılanı qırıldı. Qalanı qaçıb canını qurtardı.

Mələksima işi belə görəndə gəcavədən düşüb görək Cahangirə nə dedi. Aldı Mələksima:

Ey əzizim, bu cahanda ad aldın,
Yazılıb adına dastan, deyərlər.
Arayarlar, bizim yerdə bulunmaz,
Ya ərəbdən gəlib, farsdan, deyərlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Buruzu İsfəndiyar, Fərəməz Cavansan,
Teymur, Cahan, Baxış, ya Qəhrəmansan.
Dünyada seçilmiş bir pəhləvansan,
Bəyimə Zal oğlu Rüstəm, deyərlər.

Mələksimayam, sevdim on dörd yaşımdan,
Mən də həlak oldum eşq ataşından.
Bir qılınc vurdun, zalım başından,
Qılınc vurmağına aslan deyərlər.

Deyirlər ki, iki həsrət çıxdılar gəcavəyə. Öpüşüb üç doqquzunu çıxartdılar iyirmi yeddiyə. Hər həsrətlər belə qovuşsun. Onlar yön çevirib Misir vilayətinə getməkdə olsunlar, sizə xəbər verim Əziz şahdan.

Əziz şah öz təxti-səltənətində dayanmışdı. Bir də baxdı ki, pəncərədən bir göyərçin, boğazında namə girdi içəri. Dayandı Əziz şahın dizinin üstündə. Əziz şah naməni açıb oxudu. Məzmunundan halı olub, murqunun üzündən-gözündən öpüb yola saldı. Cəhənnəm tək zəbanə çəkdi. Əmr verdi qoşun əhlinə. On min qoşun, başında Əziz şahın özü də düşdü yola. Deyirlər ki, Mələksima gəcavədən gördü ki, qoşun elə gəlir ki, əgər otun sayı varsa, qoşunun sayı yoxdu.

Qoşun gəcavəyə çatan kimi, Cahangir əjdaha təki özünü yetirdi qoşuna. Deyirlər ki, qoşun əhli Cahangiri tanıyıb atasının da gəlmək xəbərini ona çatdırdılar. Cahangir qoşunu aralayıb, gəldi çatdı atasına. Ata-oğul görüşdükdən sonra Əziz şah belə ərz etdi:

– Oğul, yeyib-içdiyin özünün olsun, gördüyündən bir xəbər.

Cahangir götürdü, görək başına gələni atasına necə söylədi. Ərz eyləyək tərəfindən qulluğunuza.

O zaman ki, vardım hindin elinə,
Müştəri cəm oldu, malıma, baba.
İsfəndiyar pəhləvana tuş oldum,
Mən qılınc vurdum o zalıma, baba.

İrast oldum bir aşığın fəndinə
Neçə həqiqətlər dedim kəndinə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir çarə qalmadı qıfılbəndimə,
Tabe oldu, qatdım quluma,baba.

Cahangirəm, xabidən mən oyandım,
Ağam dedi-yarın getdi, mən yandım.
Yadıma düşübdü vətənim, yurdum,
Şükür, əlim yetdi əlinə, baba.

Söz tamama yetdi. Yol aldılar Misirə tərəf. Bir neçə gündən sonra çatdılar vətənlərinə. Yazıq lələ mal-mətahını dəyər-dəyməzinə satıb özünü yetirdi Misirə. Dağlardan toğlu, çəpiş, aranlardan düyü, çəltik. Qırx gün, qırx gecə toy başlandı. Orada bir aşıq tapılıb onların toyunu bu duvaqqapma ilə bağladı:

Dedim ki, sənsən mənim,
Dövlətim, malım, samavar.
Səhər tezdən qaynamasan,
Yamandı halım samavar.

Şəkərim yox, yuxu görüm,
Bircə segah oxu görüm.
Gedirəm kooperativə,
Şirniyyət alım, samavar.

Tanrıdan dövlət istəməm,
Bircə ağ otağım ola,
İçində yeddi səkkiz,
Hər gecə qonağım ola.

Kabablar çəkilə şişə,
Yarla gülüşə-gülüşə.
Bəlkə onda eşqə düşə,
Qaynaya zalım, samavar.

Tovariş, day istakan,
Amxanaqo, xut-şvidi.
Nə səbəbdən qaynamadı.
Əlim, ayağım üşüdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənin bu gec qaynamağın,
Gülüzlü yarın işidi.
İnsafdımı, sən durasan,
Mən çaysız qalım, samavar.

Şairlərdə qayda budu,
Sözünü qiymətli satar.
Sənətində dambat olan,
Sazı çalmaz, yana atar.

Mənim adım Ağacandı,
Xəyal eyləmə ki, xamdı.
Mürvət eylə, insafa gəl,
Uzaqdı yolum, samavar.

## SAM ŞAHZADƏ

Keçmiş zamanda Qəndilqala şəhərində ədalətli bir şah varmış. Bu şahın adına Tərkiman şah deyirlərmiş. O, olduqca ədalətli və səxavətli bir şah imiş. Ona görə bütün şəhər əhli hər vaxt onun ömrünə dua edirlərmiş. Çünki o şah olandan bəri camaatı vergi verməkdən azad edibmiş. Bu cəhətini də ərz eləyim ki, bu şahın heç bir fərzəndi yox imiş. Bu işdən həm şah, həm də xalq çox narahat olurmuş. Ağıllı kişilərdən biri deyir ki:

– Gəlin bir tədbir görək.

– Biri soruşur ki:

– Bu işə nə tədbir olar?

O biri deyir ki:

– Niyə olmaz, gəlin bir elə tədbir eyləyək ki, həm Allaha, həm şaha, həm də camaata xoş gəlsin. Gəlin bir neçə yerdə körpü, məscid və dəyirman saldıraq, şəhərimizdə nə qədər kasıb adam varsa, ona kömək edək. Bir də kim harada yetim görsə, onu öz xərciynən saxlasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu tədbirə hamı razı oldu, dedikləri işə əməl etdilər. Onlar burada qalmaqda olsunlar, indi sizı bir az şahdan danışım.

Tərkiman şah günlərin birində arvadı Dilaramicəng ilə oturub söhbət edən zaman birdən gözü arvadının boğazındakı bir padşahın yeddi ilinin xərcindən əmələ gəlmiş boyunbağıda öz əksini gördü. Bir qədər fikrə gedib dərindən bir ah çəkdi. O saat öz mehribanı işi başa düşüb qolunu şahın boynuna salıb dedi:

– Ey ədalətli şahım, niyə belə dərindən ah çəkirsən, nə olub, Allaha şükür, camaat ki, bizdən çox razıdır.

Tərkiman şah dedi:

– Ey məhbubum, dərdin birini bilirsən, birini bilmirsən. Elə mənim də çəkdiyim xalqın dərdidir. Mən indi başa düşdüm ki, çox qocalmışam. Mənim bir neçə illik ömrüm qalıb. Bir övladımız olsaydı, bizdən sonra o xalqı dolandırardı.

Arvad dedi:

– Kişi, Allah kərimdi, istəsə olar.

Onlar burada qalmaqda olsunlar, indi də sizə bir az şahın bağbanından danışım.

Bu bağban ömrünün çoxunu şahın gülşən bağçasında keçirmişdi. Buna görə də şah onun xətrini çox istəyirdi. Bağban da çox qocalmışdı, ona baxmayaraq yenə də bağa baxan o idi. Günlərin birində bağban gecə yatdığı zaman gördü ki, bir adam başının üstünü kəsib deyir ki:

– Qoca kişi, hasarın dibində bir alma ağacı bitib, onu oradan çıxart, apar çarhovuzun sol tərəfində basdır, ona yaxşı qulluq et, o alma ağacı mətləb-rüzyədir. Çox çəkməz o alma ağacı yekələnər və bir alma gətirər. O almanı dər, apar şaha təqdim et.

Qoca kişi sərsəm qalxıb heç kəsi görmədi və bir qədər fikrə gedib yuxusu dağıldı, durub alma ağacını axtarmağa başladı və tapıb deyilən kimi əməl etdi. Çox çəkmədi, ağac böyüyüb bir dənə alma gətirdi. Qoca bağban şükür-sənasını yerinə yetirib almanı budaqdan üzdü, gətirib şahın imarətinə daxil olub başına gələn əhvalatı şaha nağıl edib almanı təqdim etdi. Şah almanı götürüb bağbana bir qədər qızıl ənam etdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bağban razılıq edib çıxıb getməkdə oldu. O saat şah arvadını hüzuruna çağırıb almanı iki yerə bölüb bir hissəsini özü, bir hissəsini də arvada verib mətləbini söylədi. Müxtəsəri deyək ki, bir qədər vaxt keçəndən sonra Dilaramicəng hamilə oldu. 9 ay, 9 gün, 9 saat, 9 dəqiqə, 9 saniyə tamam olan kimi qadın yükünü yerə qoydu, bir oğlan uşağı oldu. Bütün şəhər əhli toplanıb şaha gözaydınlığa gəldilər. Şah da həmin gün şah sarayında böyük bir ziyafət düzəldib xalqı qonaqlığa çağırdı. Nə ki şəhərdə dükan, bazar, yeməkxana və çayxana var idi, orada yeməklər pulsuz satıldı. Bir neçə gündən sonra camaat yığılıb uşağa ad qoymağa gəldilər. Çox söhbətdən sonra uşağın adını Sam şahzadə qoydular. Uşaq dayəyə verildi. Belə-belə uşaq böyüməyə başladı. Müxtəsəri deyək ki, uşağın 8 yaşı tamam olan kimi onu mollaxanaya qoydular. Bir neçə bilici molla uşağa dərs deməyə başladı. Vaxt gəldi keçdi, Sam on yeddi yaşa doldu. O çox bilici, çox güclü oğlan idi.

Günlərin birində uşağın əlindən mollalar şaha şikayətə getdilər ki, Sam daha bizim sözümüzə baxmır. O saat şah Samı hüzuruna çağırıb oğluna nəsihət verməyə başladı. Sam şahın qarşısında diz üstə çöküb atasına cavab verdi:

– Atayi-mehriban, mənə mollalıq əl vermir, çünki bizim şəhərdən başqa, sarayda 40 molla var. Bir iş olsa bunların özünə düşməz, bəs mən nə edərəm?

Şah soruşdu:

– Oğul, bəs sənə nə iş, nə sənət əl verər?

Sam cavab verdi:

– Mənə pəhlivanlıq xeyirli sənət olar. Bu sənət xeyirlidir.

Şah oğlunun sözünü yerə salmayıb o dəm əmr elədi ki, ona pəhlivanlıq dərsi keçilsin. Bəli, bir neçə vaxt da ona pəhlivanlıq dərsi keçdilər, ta ki Sam 19 yaşa çatdı. Günlərin bir günündə Sam gəzə-gəzə gəlib gülşən bağına çıxdı. Orada bir qədər dolanıb alma ağacının altında dincəldi. Yatıb yuxuya getdi. Bir qədər yatandan sonra bir də gördü ki, başının üstündə bir nurani dərviş durub deyir:

– Oğul, durr bu badəni nuş elə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sam deyir:

– Dərviş baba, o badə bizə layiq deyil. Atamız icazə vermir içək.

Dərviş dedi:

– Oğul, bu badə o badələrdən deyil. Bu sevgini sevgiyə yetirən badələrdəndi.

Oğlan badəni alıb nuş elədi, dedi:

– Ağa dərviş, yandım, bir çarə.

Dərviş şəhadət barmağının arasını göstərdi:

– Oğul, nə görürsən?

Sam dedi:

– Uzaq yollar, böyük bir şəhər.

Dərviş dedi:

– Oğul, daha nə görürsən?

Oğlan dedi:

– Bir imarət, içində də bir gözəl qız görürəm.

Dərviş dedi:

– Oğul, o qızı sənə buta verirəm, səni də ona. Çox çəkməz ona yetərsən. O qız Cəm şəhərinin padşahı Cəmşidin qızı Məsləhət xanımdı. Çox çəkməz ki, sevgilinə yetərsən.

Oğlan bihuş halda üzü üstə yerə yıxıldı. Oğlan yatmaqda olsun, sizə xəbər verim bağbandan. Qoca bağban yavaş-yavaş gəib oğlanı bu halda gördü. Bağban öz-özünə düşünür: «Şükür sənə ya Rəbbi, bədbaxt bu almanı özü verdi, özü də aldı» – deyib birbaş getdi şahın hüzuruna, əhvalatdan şahı hali eylədi. O dəm oğlanı ölü halda imarətə gətirdilər. Nə ki molla, həkim varsa ora topladılar. Biri dedi dəli olub, biri dedi qudurub. Biri dedi bunun duası məndədi. Bu vaxt bir təbib gəlib dedi:

– Bunun xəstəliyini məndən başqa heç kim başa düşməz.

Təbib oğlanın vəznindən bərk sıxan kimi oğlan gözünü açıb gördü ki, nə ki molla, təbib varsa, hamısı bura toplanıb. O saat təbib dedi:

– Oğul, haran çox bərk ağrıyır, mənə de, mən müalicə edərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu sözdən sonra Sam bir saz istədi. O saat ona bir saz tapıb verdilər. Sam götürüb görək təbibə nə dedi:

Ay təbib, əl vurma, haqqı sevərsən,
Nə xəstəyəm, nə də yaralıyam mən.
Bir ala gözlünün fərağındayam,
Pünhanı eşqindən saralıyam mən.

Təbib dedi:

– Oğul, mən ki sənin sözündən bir şey başa düşmürəm, nə demək istəyirsən? Sən ki xəstəsən.

Sam dedi:

– Təbib, haqq ilə danış, mən xəstə deyiləm. Qulaq as, gör nə deyirəm:

Oldum bir gözəlin payi-bəstəsi,
Həm yar ənsuru, dil şikəstəsi.
Qəmin bari keş hicran xəstəsi,
Nə qədər vətənimdən aralıyam mən.

Təbib dedi:

– Oğul, başa düşmürəm, açıq de.

Bir tərəfdən günü keçmiş bir qarı dedi:

– Doğrudu, siz həkimsiz, mollasız siz başa düşməzsiz, amma mən yaxşı başa düşürəm. Rəhmətlik bizim kişi ilə mən də belə olmuşdum, oğul, sən de görüm harada gördün qızı və nə təhər rücah oldun?

Sam götürüb dedi:

Mənə rücah oldu aləm-vağyadə,
Pirimin dəsdindən nuş etdim badə,
Məsləhət ərz etdi, ey Sam şahzadə,
Diyari-Cəmşidin maralıyam mən.

Söz tamama yetdi. Bütün camaat Samın dərdindən hali oldu. Bir neçə gün qalandan sonra Samın ürəyində eşqin dəryası təlatüm elədi, o, dözə bilməyib yola düşməyi qərara aldı; anasının hüzuruna gəlib getmək üçün görək necə icazə istədi:

Ana, Cəm şəhərinə qılıram güzar,
Tərk edib ölkələr, ellər gedirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fələyin tədbiri beləymiş mənə,
Qürbət vilayətə yollar, gedirəm.

Anası Dilaramicəng oğlunun getməsinə razı olmayıb dedi:

– Oğul, bəyəm baban sənin getməyinə razıdırmı?

Sam anasının cavabında dedi:

Böyük şah babamnan qıllam iltimas,
Əfv etsin, hüzurundan oluram xilas.
Zənburun şanına meyl etsə məkas,
Od tutar ahundan çöllər, gedirəm.

Anası dedi:

– Oğul, bu qədər Məcnun kimi nalə çəkmə, bizə yazığın gəlsin.

Anasının cavabında Sam görək nə dedi:

Ana, Samın dərdi əllilər, yüzlər,
Sinəmdə alovlar, atəşlər, közlər.
Sevdiyim Məsləhət yolumu gözlər
Car edər çeşmimdən yollar, gedirəm.

Söz tamam oldu, anası ilə öpüşüb görüşdü. Anası izin verib dedi:

– Oğul, get, uğurlar olsun.

Sam vidalaşıb babasının hüzuruna gəldi, görək babasına nə dedi:

Ey şahi-ədalət, hökmi-vilayət,
Abad olmuş ölkən, el şən qalasan.
Ağ eyvan otaqlar, yanı bağçalar,
Həsrətin çəkdiyim gülşən qalasan.

Seyrangahım olan dağılan daşlar,
Yanır sinəm üstə narı atəşlər.
Nigaran qoyduğum yarı, yoldaşlar,
Həftələr, həm aylar, il şən qalasan.

Tərkiman şah dedi:

– Oğul, hara getmək istəyirsən və kimin yanına gedirsən?

Atasının cavabında görək Sam nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Təklif etmiş Samı bir mələkzadə,
Cəmşidin şəhrinə bə hökmü bada,
Dəmadəm sevdiyim gələndə yada,
Olur göz yaşım sel, şən qalasan.

Sam sözlə dediyi kimi, atasına dillə də dedi, getməyinə icazə istədi. Şah bir qədər fikirdən sonra oğlunu yaxın çağırıb üz-gözündən öpüb icazə verdi və bir neçə nəsihət verdi:

– Oğul, bu uzaq yoldu, nə qədər istəyirsən, qoşun, qızıl götür, sənə lazım olar.

Sam razı olmayıb bircə at istədi, bir də pəhlivanlıq libası. O dəm şah əmr eylədi ilxıdan bir yaxşı at, bir də polad libas gətirdilər. Sam göy polada qərq oldu, atın ziltəkini yeddi yerdən bərkidib ata süvar oldu, babası ilə vidalaşıb yola düşməkdə olsun, bütün şəhər əhli, at minməyi bacaran atına süvar olub hamısı Samın başına toplandı. Şeypur, balaban çala-çala Samı yola salmağa başladılar. O qədər getdilər ki, az qaldılar sərhəddən çıxsınlar. Sonra hamısı bir-bir Samnan öpüşüb-görüşüb dedilər:

– Get, Sam, yaxşı yol, uğurlar olsun.

Sam tək tənha yola düşdü, o qədər at sürdü ki, atasının torpağında olan gözəl, uca, Qeys dağı deyilən dağı aşdı, atasının torpağından çıxdı. Atın başını çəkib əyləndi. Duman, çiskin hər tərəfini bürüyən zaman aldı görək Qeys dağına nə dedi:

Yazın mövsümündə bahar əyyamı,
Müntəzir gözləyir mahalı dağlar.
Açılan bənəfşən, gülün, nərgizin,
Şəbnəmlər çəkibən mahalı dağlar.

Hər dağdan ucadı Qeysin dağı,
Mərdlər məskənidi sol ilə sağı.
Abi-zəmzəm suyu, kövsər bulağı,
Dərdlərə dərmandı bahalı dağlar.

Səndə hasil olur iyidlər kanı,
Səngərlər, qalalar onun məramı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə üçün incidirsən şahzadə Samı,
Sinəm yaralı bey halı dağlar.

Sözünü tamama yetirib Sam yenə yoluna davam etməkdə oldu. O qədər at sürdü ki, bir də gördü tamam ayrı bir qəribə yerə çıxıb. O zaman Sam çox qəmginləşdi. Aclıq, susuzluq yavaş-yavaş ona kar elədi. Bir düz ilə gedirdi, amma bilmirdi hayana gedir. Müxtəsəri, bir gün gedib, günbatan zaman bir şəhərin kənarına çıxdı. Bilmədi nə eyləsin və harada axşamlasın. Çox gəzib dolanandan sonra gəlib dörd yanı böyük hasarla çəkilən bağın kənarına çıxdı. Öz-özünə fikir elədi ki, elə yaxşı oldu gəl bu bağın içinə birtəhər yol tap, gir bu gecə burada gecələ, həm də at acdı, özüm cəhənnəmə, at isə ac qalmasın. Nə qədər dolandısa, yol tapa bilmədi. Axırı atı cövlana gətirdi. Hasardan at quş kimi sıçradı, bağın o tərəfinə düşdü. Gördü ki, bu bağ çox qəşəngdi. Özü də gülşən bağdı. Qərəz, atdan sıçrayıb düşdü. Atın yəhərini belindən alıb, atı bağa buraxdı. Yəhəri başının altına qoyub yatan zaman bağban atın hay-harayına özünü yetirdi. Gördü ki, bir cavan oğlan ağayana dirsəklənib. Salam vermədən:

– Əyə, balam, məyər bu bağ sənin dədəndən qalıb? Bu yekəpər heyvanı da güllərin içinə buraxıb xarab edirsən, – deyib bağban istədi ki, ata yaxın getsin.

Sam şahzadə dedi:

– A kişi, bura bax, dəymə o Allahın heyvanına. Qoy bir az otlasın.

Bağban istədi yenə atı tutsun. Sam cəld yerindən qalxıb bağbanın qolundan tutub elə sıxdı ki, bir də baxıb gördü ki, bağbanın süysünü sallanır. Tez əlindən yerə qoydu. Bağban özünə gələn kimi yalvardı, oğlanın əlinə, ayağına düşdü.

– Məni öldürmə, dədəmin bağçası ki deyil, istəyirsən bir ay da burada qal.

Sam dedi:

– Ədə, səsini kəs, çox uzunçuluq eləmə, başım ağrıyır. Ataların bir misalı var, hələ eşitməyibsən? Atalar deyir ki: ac adamla əcəli yetişmiş danışar. Rədd ol mənim gözümdən o yana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bağban dalı-dalı çəkilib bir təhər özünə bir siçan yolu tapıb qaçdı. Özünü yetirdi bağ sahibinin yanına. Birinin üstə beşini də qoyub xəbər verdi.

Sam o yerə gəlib çıxmışdı ki, həmin şəhərin adına Enzengan şəhəri deyirdilər. Enzengan şəhərinin hökmdarının adına Gavə deyirdilər. Gavə padşahının gözünün ağı-qarası bir qızı var idi. Qızın adı isə Nəzakət xanım idi. Nəzakət xanımın imarəti bir az atasından aralı idi. İmarətin qabağında böyük bir gülşən bağça salınmışdı. Bağçanın ətrafı hündür və möhkəm hasar idi. Ancaq bircə qapısı var idi. Qapının açarı bağın bağbanında olardı. Bağbandan başqa heç kəsin həddi yox idi ora getsin. Həmin bağban idi ki, Sama rast olmuşdu.; bağban özünü yetirdi qızın yanına. Başına gələn əhvalatı qıza nəql elədi.

Nəzakət xanım dedi:

– A qızlar, gəlin bir gedək görək o adam kimdi, nə işin sahibidir ki, cürət edib bağa girib?

Nəzakət xanımın başında qırx kəniz sona kəklik kimi cilvələnmiş bağa daxil oldu, bağbana dedi:

– A kişi, bəs hanı o adam?

Bağban dedi:

– Xanım, başına dönüm , bax o tərəfdədi.

Qız dedi:

– Kişi, bəs hansı tərəfi deyirsən?

– Bağban dedi:

– Xanım, mən ora gedə bilmərəm, çünki onun xasiyyətinə bələdəm, odu bax Səlim ocağı tərəfdə.

Qızlar bu sözə gülüşüb ocağa tərəf getməyə başladılar. Gördülər ki, bir oğlan yatıb, elə bil Xudavəndi-aləm ilk qələmini bu oğlana çəkib. Qızların hamısı bir-birinin üzünə baxdılar. Xanım da baxdı, bir balaca özündə ağırlıq hiss etdi. Qızların hamısı onu başa düşdülər.

Qızlardan biri dedi:

– Xanım, deyəsən bu oğlan şahzadədi ha.

Xanım dedi:

– Qızlar, mən də elə hiss edirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sonra iə o biri qız dedi:

– Xanım, gəlsənə onu oyadaq, görək bu oğlan nəçidi, kimdi?

Xanım dedi:

– Qızlar, yazıqdı, qoy yatsın. Ancaq bir kağız yazıb yanında qoyaq ki, bilsin, bu bağ sahibsiz deyil.

Qızlardan biri dedi:

– Xanım, nə yazaq ki, bu oğlana xoş gəlsin?

Nəzakət xanım dedi:

– Mən bir şey yazaram, oğlana xoş gələr.

Nəzakət xanım görək nə yazmaq istəyir:

Xab içində yatan novrəstə şahzadə,
Gəl bizim ellərə, sor asta-asta.
Mən olum bir ahu, sən də ol səyyad,
Düşüb də peşimə var asta-asta.

Sən məni yandırdın eşqin dağına,
Hicran atəşinə, qəm fərağına.
Nə olu, bağban ol könlüm bağına,
Dər sinəm üstünnən nar asta-asta.

Qızlardan biri dedi:

– Xanım, belə sözdən bir şey çıxmaz, nə bilir sən kimsən, kimin qızısan?

Xanım dedi:

– Qızlar, yəni deyirsiz ki, məsələ aydın olsun. Yaxşı, deyərəm, ancaq bu sirr aramızda qalsın.

Hamısı söz verdi. Xanım arxayın oldu. Aldı xanım:

Şəhri-Enzengandı mənim məkanım,
Babamdı hökmdar, ey mehribanım.
Sənə qurban olsun Nəzakət xanım,
Sevmə məndən qeyri yar, asta-asta.

Söz tamam olub, kağızı oğlanın yaxasını açıb sinəsinin üstünə qoydular. Ancaq oğlanın heç xəbəri olmadı. Sonra isə qızlar getməkdə oldular. Nəzakət xanım qızların hamısına icazə verib dedi:

– Qızlar, siz gedin bir az dincəlin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızlar çıxıb getdilər dincəlməyə, ancaq Nəzakət xanım bir itiyi itmiş kimi dəli-dövran olub bilmirdi neyləsin. Öz-özünə fikir eyləyirdi, yarəbbi, mən nə eyləyim, mənim dərdimə kim əlac eyləyər. Sonra özgəyə deyərəm işin üstü açılar. Deməsəm səbri-qərarım tamamilə kəsilər. Ax, yarəb, sevgi dözülməz dərddir. Mən necə dayana bilərəm – deyib, yenə tək-tənha gəzməyə çıxdı.

Nəzakət xanım gəzməkdə olsun, indi bir az Sam şahzadədən qulluğunuza ərz eyləyim.

Samın nə qədər yatdığını deyə bilmərik. Amma sübhün meh küləyi yavaş-yavaş üzünə dəyib, oğlanı ayıltdı. Sam ayılan zaman əl atdı yaxasını düymələsin açdı. Balaca bir kağız əlinə keçdi. Oxuyub məzmunundan hali olub fikir elədi. Yarəb, bu kim ola bilər, məni bədbəxtlikmi tutub, yoxsa xoşbəxtlikmi, – deyib cəld ayağa durdu və atı yadına düşdü. İstəyirdi ki, atını axtarsın, gördü vəfalı atı başının üstünü kəsib ayağını yerə döyür. Cəld atı tutub, gözlərini sığallayıb, sonra isə öpüb:

– Atalar deyir ki, atnan arvada etibar olmaz. Ancaq mənim atım o atlardan deyil, çox etibarlı heyvandı, -– deyib yenə gözündən öpdü, sonra ziltəngini yeddi yerdən bərkidib yavaş-yavaş getdi, istəyirdi ki, bağdan çıxsın. Qulağına astadan səs gəldi. Ayağını saxlayan zaman nə gördü? Gördü ki, bir qızdı, amma nə qız, misilsiz bir gözəl. Seçmək olmaz huridimi, qılmandımı, yoxsa mələkmi, tovuzmu. On dörd gecəlik ay kimi şölə verir. Bu qızın hilal qaşları can almaqdadır. Bu qaşlardan bir ox açılıb Samın ürəyini xırda-xırda oymağa başlayan zaman eşq dəryası cuşa gəldi, atın başını çəkib, aldı görək qızın belə dəli-dövran gəzməsinə nə deyir:

Səyahət eyləyən Nəzakət xanım,
Seyrəngah sizindi, gəz qayıt indi.
Sən məni gətirdin xaki-payına,
Gəzib sinəm üstün əz, qayıt indi.

Geymisən zər-ziba, yaşıllar, allar,
Tər köynək altından tax həmayıllar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vurdun ürəyimə həbəşi xallar,
Görsənir yaramda vəz, qayıt indi.

Sənə qurban olsun Samı beçara,
Tərəhüm etginən mə tək naçara.
Olginən təbibim, qılgınan çara,
Çək sinəm dağına xəz, qayıt indi.

Söz tamam olan zaman qız gördü ki, haman oğlandı bu sözləri oxuyan. Oğlanın bu sözündən və zəhmindən qız yerində donub qaldı, çox həyalandı. Ancaq oğlan da həyalanırdı, hər iki cavanın arasında bir qədər sakitlik oldu. İkisi də dərin fikrə dalmışdı. Hər ikisinin ürəyi bir ovçudan ürkmüş quş kimi çırpınırdı. Ancaq oğlan qızın o hilal qaşlarından gözünü çəkmirdi. Bir qədər sükutdan sonra az qaldı ki, qızın ürəyi çatlasın. Özündən ixtiyarsız olaraq qız birdən dillənib:

– Ay şahzadə, siz bizim bağçaya xoş gəlmisiniz. Ancaq icazəsiz bağa girdiyinizə görə günahkarsınız. O günahınızdan keçmək üçün gərək xanımnan üzr istəyəsiniz, – deyən zaman şahzadə Sam irəli yeriyib dedi:

– Xanım, mən bu yerə nabələd olduğuma görə sizdən üzr istəyirəm.

Hər iki cavan bir-birinə yaxın gəlib əl tutdular, görüşdülər. Sonra isə hər ikisi bir-birindən utana-utana söhbətə başladılar. Bir qədər söhbətdən sonra qız bağbanı çağırıb dedi:

– Qonağın atını tut, sahmana sal, amma heç kəs bilməsin.

Bağban Samın atını tutdu, amma gözünün altından oğlana çox baxırdı. Öz-özünə dedi: «Bu nə hesabdı».

Qız dedi:

– Ədə, nə fikir edirsən? Sənə mən nə deyirəm, yerinə yetir.

Bağban dedi:

– Xanım, mən bağbanam axı, mehtər ki, deyiləm.

Xanım dedi:

– Ədə, uzunçuluq eləmə, başa düşürəm nə demək istəyirsən, səni razı edərəm. Ancaq heç kəs bilməsin.

Bağban dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Xanım, nə işimə, dəvə gördünmü, izini də yox.

Atı çəkib apardı. Xanım isə Samın qolundan tutub öz imarətinə apardı. O saat kənizin birini çağırıb yemək şeylrəi əmr etdi. Tez yemək hazır oldu. Süfrə layiqincə düzəldi. Samı Nəzakət xanım yeməyə dəvət etdi. Süfrədə Sam və bir neçə cavan qız, bir də xanım əyləşdi, yemək-içmək başlananda bağban özünü içəri verib süfrənin bir tərəfində əyləşdi. Bağbanın bu hərəkətinə xanım hirslənib dedi:

– Ədə, bağban, sənə kim icazə verdi ki, bura gəldin?

Bağban dedi:

– Xanım, məni bağışlayın, mən o səbəbə gəldim ki, bizim qonaq deməsin ki, bura nə təhər məmləkətdi ki, burada heç bir başı papaqlı kişi yoxdu, elə hamısı qızdı.

Bağbanın bu sözünə hamı gülüşdü. Sonra yeyib-içib hərə öz işinə getdi. Bircə oğlanla qız qaldı. Yenə bir az söhbət etdilər. Sonra axşam araya gəldi. Nəzakət xanım iki yer saldı, sonra isə araya pərdə tutdu. Oğlan pərdənin bu üzündə, qız isə o biri üzündə yatağa girdilər. Ancaq ilan vuran yatardı, bunlar yatmadılar. Müxtəsəri, ərz eyləyim ki, bir neçə gün belə qaldılar. Hər cavanın üzündə bir həya pərdəsi var idi. Heç kim istəmirdi ki, o həya pərdəsini üzündən götürsün. Bunların bu məsələsi belə qalmaqda olsun, indi keçək ayrı bir məsələyə.

Günlərin birində Sam ilə Nəzakət xanım imarətin yeddinci mərtəbəsində oturub şəhərin mənzərəsinə baxırdılar, şirin-şirin söhbət edirdilər. Söhbət arasında qız soruşdu:

– Ey Sam şahzadə, sizin şəhərin mənzərəsi yaxşı olar, yoxsa bizim?

Sam bu suala cavab verməyib bir qədər də mənzərəyə təzədən baxdı. Gördü ki, bu şəhərin bir tərəfi böyük meşədi. Meşənin ətəyi ilə bir çay axır. Bir tərəfi isə dağdı. Dağın ən hündür yerində böyük bir qalaça tikilib. Çox gözəl və böyük qalaçadı. Əgər o qalaçadan adam baxsa, bütün dünya insanın ayağının altında görünər. Sam Nəzakət xanımın sualına cavab verdi:

– Xanım, sizin şəhər də yaxşıdı. Ancaq bizim şəhər də pis deyil.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız bir balaca gülümsəyib dedi: – Siz hər halda öz şəhərinizə pis deməzsiniz.

Şahzadə dedi:

– Əlbəttə, xanım, çünki hansı torpaq adamı yetirib, gərək adam o torpağa nankorluq eləməyə. Xanım, bu söhbət öz yerində. Sən mənə de görüm o qalaça sənin babanınmı əlindədi? Bütün bu şəhəri gözəl göstərən bax o qalaçadı.

Qız fikrə gedib dərindən bir ah çəkdi, sonra söhbətə başladı:

– Ey şahzadə, o qalaçanın tarixi çox uzundu. Söz ki düşdü, mən söyləyim, sən də qulaq as.

Şahzadə dedi:

– Hə, xanım, söylə görək nə təhər, yəni uzundu?

Nəzakət başladı söhbətə:

– Ey şahzadə, o qalanın sahibinə Keyxan haramı deyirlər. O haramı başına yüzlər və minlərcə haramı yığıb orada məskən salıb. Onlar xalqa çox ziyan vururlar. Kimin malı və atıo dağın bir qulağına gedib düşsə, ondan yiyəsinə xeyir olmur. Bir də görürsən ki, gecə-gündüz şəhərə basqın eləyirlər. Əllərinə keçən şeyi buraxmırlar, evləri talayırlar. Nə ki yaxşı şey olsa götürüb aparırlar. Şəhərin ən yaxşı göyçək qızlarını şəhərdə qoymurlar, hamısını aparıb o qalaya doldururlar. Gündüzlər dərviş, sail paltarında şəhəri gəzib yeri bələdləyirlər, gecələr isə oranı dağıdıb talayırlar.

Şahzadə dedi:

– Bəs baban bu işə nə deyir?

Qız dedi:

– Babam nə qədər qoşun çəkdirir, bir mümkün olmur.

Sam dedi:

– Hərgah mən oranı dağıtsam, baban mənə nə verər?

Qız gülüb dedi:

– Nə istəsən.

Sonra dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Babam o haqda belə bir qərar çıxarıb ki, kim o haramını öldürsə, gözümün ağı-qarası bircə qız...– utanıb başını yerə dikdi, sözünün dalını demədi.

Oğlan dedi:

– Hə, xanım, utanmayın, sözünüzün dalını deyin görək.

– Sözümün dalını da siz başa düşün, – deyib qız özündən ixtiyarsız oğlana söykəndi.

Oğlan isə utana-utana qızın başını sığalladı. Dedi:

– Xanım, siz mənim ürəyimi xarab elədiniz. Mən sabah onun meydanına gedəcəm. Allah ya ona verər, ya mənə.

O gecəni də başa verdilər. Sabah açılan kimi Sam atını tələb elədi. Atı gətirdilər. Atın ziltəngini yeddi yerdən bərkitdi. Tərlan kimi ata sıçrayıb sonra üzünü Nəzakət xanıma tutub:

– Xanım, siz salamat qalın. Mən bu meydandan bəlkəm qayıtmadım. Əməyinizi mənə halal edin – deyib, ata bir taz-yana çəkdi, at yeldən yeyin, sudan iti gedirdi. Sam bir də gö-zünü açıb gördü ki, həmin qalanın meydanındadı. Atın başını çəkib əylədi.

İndi sizə kimdən xəbər verim Keyxan haramıdan. Haramı gördü ki, meydanda bir cavan pəhlivan dayanıb, elə bil başına hava gəldi. Cəld atını minib meydana girdi. Hər iki pəhlivan meydanda üzbəüz dayandı.

Haramı dedi:

– Oğul, sən mənim adımı eşitmədinmi bura gəldin?

Şahzadə dedi:

– Elə sənin adını eşidib bura gəlmişəm.

Haramı dedi:

– Oğul, meydanın şərtini bilirsənmi?

Sam dedi:

– Nə şərtdi? Bu sən, bu da mən, ya Allah sənə verər, ya da mənə.

Haramı öz-özünə dedi: «Gəl bu cavan oğlana hərbə-zorba gəl, bəlkə qorxa, gedə, hayıfdı belə cavana qılınc vurmaq».

Sonra haramı qılıncı saz əvəzinə sinəsinə basıb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğlan, hələ bir de görüm, sən haralısan və nəçisən?
*Aldı Sam şahzadə:*

Şəhri Qəndilqala mənim məkanım,
Səfərim Cəmədi, Keyxan haramı.
Bəhləmisən Qeysi hərə dağların,
Sanırmısan kəndin bəyxan haramı.

*Aldı haramı:*

Kəndinə güvənib laf eləməynən,
Ey Qəndilqaladan gələn şahzadə.
İçərsən dəsdimdən əcəl şərbətin,
Ahlar əhvalına gələn şahzadə.

*Aldı şahzadə:*

Küsüb də kəndindən et məni dərguş,
Ey sarsaq divana kəndi kərəm huş.
Cəhənnəm mərgini sənə qıllam nuş,
Fayda verməz sənə qəvi xan, haramı.

*Aldı haramı:*

Mənim yurdum dağlar, daşlar bölənlər,
Saysız-hesabsızdı bunda ölənlər.
Danışallar, söyləyəllər, bilələr,
Tarixdə ad qoydum əlan, şahzadə.

*Aldı şahzadə:*

Samın sədasından dağlar titrəşər,
Zərbi-sulətindən tab etməz bəşər.
Dünyanı səninçün mən qıllam məhşər,
Yazallar tarixdə duyxan, haramı.

*Aldı haramı:*

Sənin tək cocuqlar nə bilər cəngi,
Xofumnan unudar tiri-xədəngi,
Keyxan sındırıbdı hindi, firəngi,
Bir varis əlimdə ölən, şahzadə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamama yetişdi, hər iki pəhlivan meydanda atlarını cövlana gətirib qarşı-qarşıya dayandılar. Keyxan haramı bir nərə çəkib dedi:

– Ey cavan oğlan, növbət sənindi, ya mənim?

Şahzadə dedi:

– Bizlərdə qayda budu, əvvəlcə növbəni düşmənə verərik.

Haramı dedi:

– Onda qalxanı çək başına.

Əmud endi Samın başına. Sam əmudu göydəykən vurub yerə saldı. Keyxan gördü əmuddan bir murad hasil olmadı, yenə bir dəli nərə çəkib dedi:

– Cavan, budu gürz gəldi.

Gürzdən də murad hasil olmadı. Qərəz, növbət gəldi Sama. Hər iki qəhrəman silahlarından o silah qalmadı ki, işlətməsin. Müxtəsəri deyək ki, ustadın dediyinə görə səhər tezdən dava gedirdi. Elə bil ki, göyün üzünü bulud tutmuşdu. Hər tərəfi duman, toz bürümüşdü. Nərə səsindən, atların kişnəməsindən bir gurultu var idi ki, qulaq tutulurdu. Əmud, qalxan, gürz, qılınc, nizə bir-birinə dəydikcə göydən qığılcım, od tökülürdü. Sam az qaldı ki, haramının əlində həlak olsun. O, qılıncı Keyxanın harasından vururdu, polada dəyirdi. Gördü ki, olmayacaq, odur ki, haramının qolu yuxarı qalxanda qoltuğunun altından Rüstəmyana bir nərə çəkib elə bir qılınc vurdu ki, Keyxanın sağ qolu tamam bir saat göydə fırlandı, yerə düşdü.

Dalınca da elə bir qılınc vurdu ki, başı bədənindən beş qədəm aralı düşdü, sonra isə geri dönüb qalan haramıların dağıntısını dağnan bir eləyib qalaçaya daxil oldu. Nə gördü? Gördü ki, tamam iki padşahın xəzinəsinin qızılı buraya yığılıb. Sam burada qalmaqda olsun, indi sizə ərz eyləyim şəhər əhlindən.

Bu şadlıq xəbəri bütün aləmə yayıldı. Enzingan şəhərində nə ki ayağı tutan vardısa, hərə bir xurcun, ya çuval götürüb özlərini qalaçaya yetirdilər. Bu qalaçada nə ki qızıl, gümüş, başqa şey var idisə, birini də qoymadılar. Çünki Samın belə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əhdi vardı ki, əgər mən o qalaçanı alsam, orada nə olsa xalqa paylayacam. Elə də elədi.

İndi sizə kimnən xəbər verim, bu şəhərin padşahından. Padşah bu əhvalatı eşidən kimi əmr etdi öz imarətindən qalaçaya qədər payandaz düzüldü, sonra dedi:

– O haramını kim öldürüb gərək mənim yanıma payandazın üstü ilə gəlsin.

Qərəz, elə də elədilər. Sam ta gəlib padşahın yanına çıxdı. Padşah Samı görcək durub alnından öpüb yanında əyləşdirdi. O saat şadlıq məclisi düzəldi. Bir neçə gün yeyib-içmədən sonra Samdan soruşdu:

– Oğul, indi bir de görüm sən kimsən və haralısan? Haradan gəlib hara gedirsən?

Sam haralı olduğunu, haraya gedəcəyini başdan-ayağa padşaha nağıl elədi. Şah məzmundan hali olan kimi bir adam göndərib qızını hüzuruna çağırdı. Nəzakət xanım yüz işvənazla imarətə daxil oldu. Ona yer göstərdilər. Xanım oturandan sonra şah Sama dedi:

– Oğul, bu mənim gözümün ağı-qarası bircə qızımdı. Qızımı bura çağırmaqda məqsədim budur ki, sən də məsələdən hali olasan.

Sam soruşdu:

– Ey qibleyi-aləm, ixtiyar sizindi, buyurun.

Padşah dedi:

– Oğul, mən belə əhd etmişdim ki, kim o haramını öldürsə, qızımı ona verəcəyəm. İndi bu qızım, bu da sən.

Sam razı qaldı. Həmin gündən toy tədarükü görülməyə başlanıldı. Ustadın deməyinə görə qırx gün toy oldu, qızı verdilər oğlana. Bir neçə gün Sam Nəzakət xanımın yanında qaldı. Ancaq Sam onunla bacı-qardaş kimi rəftar edirdi. Qız məsələni başa düşə bilmirdi. Bilmirdi ki, bu nə işdi.

Günlərin birində Nəzakət xanım imarətdə oturub qəmgin halda gəmisi dəryaya qərq olan kimi fikrə getmişdi. Sam Nəzakət xanımı bu halda görüb eşq dəryası cuşa gəldi, aldı görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəldim mehman oldum, səni şad edim,
Oyan bu qəflətdən dur, ala gözlüm.
Peykan kirpiklərin tökər qanımı,
Çək sinəm üstündən vur, ala gözlüm.

Sənin gül camalın dağlar laləsi,
Tökülən dəstindən dost piyaləsi,
Camalın şöləsi, gözün alası,
Salıbdı aləmə şur, ala gözlüm.

Samı bənd elədi zülfü muyuncan,
Sərv olmaz qamətincə, boyunca,
Saxlaram nişanə dünya durunca,
İsrafil çalınca sur, ala gözlüm.

Söz tamam oldu. Nəzakət xanımın könlünü alıb, onu məsələdən hali elədi. Sonra isə dedi:

– Əziz mehribanım, mən öz sevgilimin dalınca gedirəm. Əgər bu yoldan sağ-salamat qayıdaramsa, onda gəlib səni də apararam.

Qız razı olub dedi:

– Sam şahzadə, indi ki, gedirsən, babamnan icazə al, ondan sonra get. Sənə uğurlar olsun. Mən ölənə kimi səni gözləyib, sənin günlərini sanayacam.

Sam həmin gün durub gəldi Gavə padşahın yanına. Bir qədər söz-söhbətdən sonra məsələdən onu hali elədi, getməyə icazə istədi.

Gavə şah bir qədər fikrə gedib dedi:

– Oğul, Cəm şəhəri çox uzaq yoldadı, çox da qorxuludu. Çünki o şəhərnən bizim şəhərin arasında böyük bir təhlükə var. O təhlükə həm bizə ziyan verir, həm də Cəm padşahına. O elə bir şeydi ki, ona güc çatmaz, çünki o tilsim kimi bir işdi. İndi ona görə mən sənin getməyini məsləhət görmürəm.

Sam gördü ki, şah ona icazə vermək istəmir. Sam işi belə görəndə şaha dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ədalətli şah, icazə ver, sinəmə bir xanə söz gəlib deyim, siz qulaq asın.

Şah icazə verdi. Sam götürüb görək nə dedi:

Başına döndüyüm ədalət şahım,
Belə itaətdə yalan deyiləm.
Əhdi-peyman etdim nazlı yar ilə,
Mən ki ilqarıma yalan deyiləm.

İraqdı yollarım, rahimdi uzaq,
Canansız cahan mənim üçün duzaq.
Bənna işi deyil, bəs necə pozaq,
Peymanıma xilaf olan deyiləm.

Belədi Sam üçün haqqın ətası,
Mövlamın dəstindən nuş etdim tası,
Şahi-Cəmşid nazlı yarın atası,
Unudub eşqindən solan deyiləm.

Şah gördü ki, istər-istəməz şahzadə gedəsidi,dedi:

– Oğul, gedirsən get, mən bir şey demirəm, ancaq mən belə məsləhət görürəm ki, sən tək-tənha getməyəsən. Özünlə bir neçə min qoşun və igid sərkərdə aparasan, çünki yol çox qorxuludu.

Sam şahzadə şahın cavabında dedi:

– Ədalətli şah, əgər qoşun götürsəydim, atamın sərkərdələrindən güclü qoşun götürərdim. Çünki bu əziyyəti gərək tək mən çəkəm; qoşunun günahı nədi ki, mənimlə bərabər əziyyət çəksin? Mənə sən yalnız icazə ver, gedim.

Şah dedi:

– Oğul, get, sənə yaxşı yollar olsun, ancaq Nəzakət xanımdan da izin al.

Sam şahla öpüşüb görüşdü, sonra Nəzakət xanımın yanına getdi. Yol tədarükü gördülər. Yola düşən zaman Nəzakət xanım dedi:

– Əzizim şahzadə, uzaq səfərə gedirsən, ola bilsin ki, deyiləsi sözün olar. Ancaq məndən gizlətmə. Çünki mənim ürəyim



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sənə bağlıdı. Mənim borcumdu sənin sözlərini yadımda saxlayım.

Nəzakət xanım bir balaca yana çevrildi, ala gözlərindən yaş tökdü. Şahzadə Nəzakət xanımı belə dözülməz dərddə qoyub getməyə peşimançılıq çəkirdi. Ancaq nə çarə. Üzünü Nəzakət xanıma çevirib:

– Mənim məhbubum, ağlamaqdan keçib, bir neçə söz demək istəyirəm. Bu sözlərimi yadından çıxartma. Hərdənbir məni yadına sal – deyən zaman Nəzakət xanım gözlərini silib dedi:

– Hə, şahzadə, de görüm nə demək istəyirsən?

Nəzakət xanımın cavabında Sam dedi:

– Sənə bir neçə söz tapşırıb gedirəm.

Götürdü görək nə dedi:

Saqın seyrəqibdən alagöz sonam,
Var olsun ellərin, aman, əl aman!
Həsrətindən didarını görməyə,
Qurbanı dillərin, aman, əl aman!

Sən eşqə müntəxibsən, mənə məhbub,
Yaraşır zər-ziba tər əndama xub,
Ayda bir, ildə bir yazginən məktub,
Var olsun əllərin, aman, əl aman!

Yad eylə hərdən bir, bəzən də Samı,
Gövhəri qəflətdən süzəndə Samı,
Məcnun kimi divanə gəzəndə Samı,
Öldürür tellərin, aman, əl aman!

Söz tamam oldu. Nəzakət xanımla vidalaşıb tək-tənha yola düşdü. Gecə-gündüz at sürdü, neçə ay, gün yol gedib, axırı gəlib bir düzə çıxdı. Bir də gördü ki, at əyləndi. Başını qaldıran saat nə gördü? Gördü ki, böyük qalaça kimi yerdə bir günbəz var, ancaq bunun üsdə böyük adama bənzər ifritə durub. Seçə bilmədi ki, bu pəhlivandı, ya ifritə. İstədi ki, atını sürüb getsin, həmin ifritə səsləndi:

– Ey pəhlivan, hara gedirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O, bir at minib şahzadənin qabağını kəsib dedi:

– Əgər mənim əlimdən salamat qurtarsan, gedərsən.

Sam nə qədər yalvarıb-yaxardısa olmadı. Axırı məcbur oldu ki, dava eləsin.

Öz-özünə fikirləşdi ki, ölməyə də mərdlik lazımdı – deyib öz atını cövlana gətirdi. Meydanda onunla üzbəüz dayandı, dedi:

– Növbət sənindi, ya mənim?

Həmin ifritə pəhlivan dedi:

– Ey cavan oğlan, meydanın şərtini bilirsənmi, yoxsa elə-belə davaya başlayaq.

Sam şahzadə dedi:

– O ki meydanın şərtini xəbər alırsan, indi qulaq as, gör nə deyirəm?

Aldı Sam şahzadə görək nə dedi:

Kim mənim cəngimə etsə ictinab,
Ruzigarı siyah tirə tar olar.
Ya Əli, deyibən nərə çəkəndə,
Surəti zərbimdən bimar olar.

*Aldı cavabında ifritə:*

Anla sözüm adam oğlu, dər güzəşt,
Səndə bir nəsiyyət yadigar olar.
Məğrurluq eyləmə, zor düşər sənə,
Xoş xəyal dərrakə dağıdar olar.

*Aldı Sam:*

Səceyi-Rüstəməm, etməm ictinab,
Sahibi-nizəyəm, mən Əfrasiyab.
Pirim imamətdi, o şiri yarəb,
Zinyəti dilimdə aşikar olar.

*Aldı ifritə:*

Mənə gəlmə hərbə-zoru, bilmişəm,
Rüstəmi ləngəhari bilmişəm.
Cəmi cümlə hər məhşuri bilmişəm,
Çağır kimlər sənə pərəskar olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı Sam:*

Mənə qüdrət verib xaliqi-sübhan,
Müxənnət kimsəni kor eyləsin nan.
Sam da rəzmidə cəhl edən zaman,
Heybətimdən şəmşir abidar olar.

*Aldı ifritə:*

Canda bir sahirdi cahan içində,
Yanarsan alovda, sazan içində.
Bir baği-bağçada üryan içində,
Əgər sağ qalsan, iftixar olar.

Söz tamam oldu. Hərbə-zorbadan sonra hər iki pəhlivan əl atdı qılınc-qalxana. Bir qədər vuruşmadan sonra Sam gözünü açıb gördü ki, bir bağın içində üryan yatıb. Cəld durub hərləndi ki, yol tapsın, ancaq mümkün olmadı.

Müxtəsəri deyək ki, otuz doqquz gün bu bağda üryan hərləndi, nə ki ürəyi istəyir, bu bağda tapılırdı. Qırxıncı gün gördü ki, həmin meydanda o ifritəylə dayanıb dava eləyir. Qırx gün də keçən kimi yenə gözünü açıb özünü bağda gördü. Bir neçə belə qırx günlər gəlib keçməkdə olsun. Sam get-gedə zəfəran kimi saraldı. Sonra isə xəstə düşüb yatan zaman öz-özünə fikir elədi. Mən ki özbaşına bu azara düşməmişəm. Məni bu yola dəlalət eləyən kişi var, gəl o kişini çağır, bəlkə sənə köməyi dəydi. Həmin vağyasında gördüyü kişini görək necə çağırdı və nə dedi:

Sən gördün məni qəflətdə,
Aşkar ol ərən, bir gəl.
Mərd igidlər ağasısan,
Diləkləri verən, bir gəl.

Ərənlərin şahı sənsən,
Yerin, göyün mahı sənsən.
Şahın qərargahı sənsən,
Camalı xoş nuran, bir gəl.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sam cidadi xanasından,
Yaxmır qaran hənasından.
Olmamışdan anasından,
Lalə, nərgiz dərən, bir gəl.

Söz tamam olan kimi Sam gördü ki, həmin qoca kişi başının üstündə durub. Sonra Sama dedi:

– Oğul, məni nə üçün çağırdın? Özünə agahdı. Səni tilsimə salıblar. Sənin bu tilsimdən çıxmağının bircə əlacı var, o da öz fərasətindən asılıdır. Bu gün otuz doqquzuncu gündü. Səhər yenə səni ifritə öz meydanına aparacaq, onda sən bacar onun əlindəki qılıncı vur yerə sal, cəld o qılıncı götür, öz qılıncı ilə onu vur. Əgər öz qılıncı olmasa ona ölüm yoxdu. Sonra isə al, sənə bir lələk verim. O lələyi yandıran kimi bir quş gələr sənin yanına. Həmin quş sənin sözündən çıxmaz. Nə istəsən, o yerinə yetirər. Oğul. Daha mən getdim, ancaq dediklərim yadından çıxmasın.

Sam daha qoca kişini görmədi. Öz-özünə: «Əcəba, mən başa düşmürəm bu möcüzədi, ya yuxudu, yoxsa bu bir sirrdi, yarəb, nə ola səhər fürsət əlimə keçə, mən bu zindandan qurtaram» – deyə fikirləşirdi, bir də gördü yenə öz atının belində həmin ifritəynən üz-üzə meydanda dayanıb. Öz-özünə ürək verib, cəld ifritənin qılıncını vurub əlindən yerə saldı. Tez həmin qılıncı götürdü. İfritəyə elə bir qılınc endirdi ki, başından dəyən qılınc bir qədər də torpağa işlədi. İfritəyə dedi:

– Ey məlun, bir hərəkət elə görüm.

İfritə istədi ki, hərəkət eləsin, bacarmadı, ondan bir inilti, gurultu qopdu ki, gəl görəsən. Yıxılan zaman Sam gördü ki, ifritə iki şaqqadı, çəksən bir-birindən oyan-buyan olmaz. Sam başını qaldırıb gördü əyə, burada nə bağ, nə bağça, nə hasar, heç bir şey yoxdu. Elə hamısı bu ifritəynən yox olub.

Müxtəsəri deyək, Sam yenə yoluna davam etməklə oldu. Bir neçə gün at sürdü. Gəlib bir yaxşı mənzərəli yerə çıxdı, dedi:

– Burada bir az dincəlim, atın da yorğunluğu çıxsın. Sonra gedərəm.

Atdan düşdü, atı ota buraxıb özü dincələn zaman, həmin qoca kişinin verdiyi lələk yadına düşdü. Tez lələyi yandıran



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zaman bir murğu quşu güllə kimi özünü yetirib onun yanına düşdü. Sam quşu əlinə alıb başını sığalladı. Sonra öz-özünə fikir eləyirdi ki, yaxşısı budu gecə-gündüz yolumu gözləyən sevgilim Məsləhət xanıma bir məktub yazım, gəlməyimi bilsin, həm də başıma gələn əhvalatdan da hali olsun. Kağız-qələm götürüb görək murğu quşu ilə nə demək istəyir:

Murğu, yetir mənim ərzi-halımı,
Nazlı Məsləhətə bir xəbər eylə.
Aylar, illər həsrətini çəkdiyim,
O yarı afətə, bir xəbər eylə.

Sonra görək başına gələn əhvalatdan daha nə yazdı:

Şapuru can ilə oğradım cəngə,
Məğlub eyləyibən gətirdim təngə.
Güc verdim şəmşirə, tiri-xədəngə,
Qoşuldum hocətə, bir xəbər eylə.

Qələm, davat olar mahir əlində,
Əox çəkdim zalımın qahir əlində.
Sam da sarsılmadı sahir əlində,
Zor gəldim zillətə, bir xəbər elə.

Söz tamam oldu. Məktubu qatlayıb sapla murğunun ayağına bərk bağladı. Murğunu əldən buraxdı. Sonra durub atın ziltəngini bərkidib yola düşdü.

Sam gecə-gündüz yol getməkdə olsun, indi sizə bir balaca Məsləhət xanımdan nağıl eləyim. Məsləhət xanım gecə-gündüz sevgilisi Samın yolunu gözləyirdi. Qız fikrə getdi. Samı necə röyada görmüşdü, gözünün qabağına gəldi. Az qaldı ki, dəli-divanə olsun. Bilmirdi ki, nə eləsin. Sonra durub öz bağçasına gəzməyə çıxdı. Bağçada tək-tənha elə gəzirdi ki, elə bil bir itiyi itib, onu axtarır. Hər gülün, hər çiçəyin, hər ağacın yanından ötən zaman elə bil ki, otlar da baş qaldırıb onun ürəyinə təsəlli verirdi ki, ey nazəndə, az qəm ye, az dərd çək, yaman günün ömrü az olar. Tezliklə sevgilin Samla görüşərsən. Bu fikirləri eylədikcə yavaş-yavaş onun ürək döyüntüsü azalır, təsəlli tapırdı. Bu xəyal içində hərlənən zaman bir də gördü ki, başının üstündə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir şaqqıltı qopdu. Məsləhət xanım ovçudan hürkmüş ahu kimi hürküb bağın açıq bir yerinə çəkilmişdi. Birdən bir quş ona sarı uçub onun çiyninə qondu. Qız istədi ki, quşu əliynən vurub yerə salsın, bir də gördü ki, bu quşun ayağına bir kağız bağlanıb. Kağızı quşun ayağından açıb oxudu, az qaldı ağlı başından çıxsın. Sonra öz-özünə təsəlli verib, məktubu bir də oxuyub məzmunundan hali oldu. Quşun gözlərindən öpüb bağrına basdı. Quşu da götürüb imarətinə gəldi. Dərin fikrə gedib dedi:

– Tutalım ki, bir neçə günə Sam şahzadə gəldi, mən onu necə qarşılayım. Mən bu işi bacara bilmərəm. Özgə də onu kim tanıyır, kim bilir ki, o şahzadədirmi, yoxsa Rüstəm-Zala nisbət bir pəhlivandımı. Yalnız bu sirdən bircə mən haliyəm, heç kəs bilmir. Elə yaxşısı budu ki, götürüb şah babama bir məktub yazım. Bu sirri o bilmir. Həm sirr açılsın, həm də məsələdən hali olsun, görək axırı nə təhər olar. Məsləhət xanım qələm-kağız götürüb Cəmşid şaha bir məktub yazdı, qasidə verib tapşırdı ki, babamın özünə verərsən. Qasid «bə çeşm» deyib yola düşməkdə olsun, indi sizə ərz eləyim Cəmşid şahdan.

Cəmşid şah vəzirini yanına çağırıb dedi:

– Qoca vəzir, sən bir ağıllı adamsan. Bu işə bir tədbir tök.

Qoca vəzir diz üstə çöküb dedi:

– Qibleyi-aləm, ixtiyar sizindi, buyurun görək mənim üçün nə qulluq. Mən sizin əmrinizə hazıram.

Şah dedi:

– Vəzir, əgər bir neçə günə bir tədbir görməsək, o tilsimli ifritə şəhərin altını üstünə çevirib, qızı aparacaq.

Qoca vəzir dedi:

– Ədalətli şahım, o haqda biz bir il bundan əvvəl bütün şəhər əhlinə elan etmişik ki, kim ifritənin tilsimini qırıb, onu öldürərsə, qız onunkudu.

Bu zaman qasid içəri daxil olub naməni padşaha təqdim etdi, getməyinə icazə istədi. Şah icazə verdi. Qasid baş əyib çıxıb getdi. Şah məktubu açıb oxuyan zaman gördü ki, birinci beytdə qız yazıb: Ədalətli şah, birinci, sizə gözaydınlığı verirəm. İkincisi, isə qulaq asın, görün nə demək istəyirəm:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah baba, təşəkkür haqqı xudaya,
Arzusun çəkdiyim yar bizə gəldi.
Göhər qalib olmuş nadan əlində,
Bulundu sərrafı, var bizə gəldi.

Cəmşid şah məktubu yarımçıq qoydu, üzünü vəzirə tutub dedi:

– Qoca vəzir, mən bir şeyi başa düşmürəm. Mənim qızım dəli olub, yoxsa divanə? Onun sözündən belə gəlir ki, onun uzaq yerdən yarı gəlib. Bir də mənim qızım uzaq yeri nə görüb ki, özünə yar tapsın.

Vəzir dedi:

– Ey şahım, səbr eylə, bir kağızın dalını oxu, görək nə demək istəyir. Şah yenə oxumağa başladı:

Qəvvas çəkər dəryaların dürrünü,
Bilmək olmaz yaradanın sirrini.
Dəf etmiş başından Camın şirini,
Bulundu sərrafı, var bizə gəldi.

Şah sevindiyindən ayaq üstə qalxıb qoca vəzirin yanına gəldi, dedi:

– Tarix elə qəhrəman yetirdi ki, ifritəyə qalib gəldi.

Qoca vəzir dedi:

– Ey şahım, qız uşağı çox şeytan olar. Bizim qanuna görə o pəhlivan kimsə, ona yar deyir.

Şah namənin gerisini oxudu:

Butamın dəstindən yazılmış namə,
Didəm vadar olmuş selinə, namə,
Məsləhət qurbandı belə həmdəmə,
Çəkdir aləmlərə car, bizə gəldi.

Şah məktubun məzmunundan hali olan kimi dedi:

– Vəzir, durmağın yeri deyil. Bu saat hər yerə xəbər elə ki, şəhərin hər bir küçəsinə, hər yerinə elan yazıb vursunlar ki, uzaq yerdən bir pəhlivan gələcək, o pəhlivan ifritəni öldürüb bizim şəhərə gəlir. Bütün nə ki şəhərdə ayağı yer tutan varsa hərə bir at minib həmin pəhlivanı qarşılamağa getsin. Özümüz də gedək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoca vəzir «baş üstə» – deyib çıxdı. Müxtəsər deyək ki, bir neçə saata şahın əmri yerinə yetirildi. Nə ki ayağı yer tutan varsa hərə bir ata süvar olub şəhərin kənarına toplandılar. Qoşun əyləndi, onları dalınca padşah, vəzir, vəkil hamı birdən yola düşüb Samı qarşılamağa getdilər. Şəhərdən bir qədər kənar getmişdilər, bir də gördülər ki, bir pəhlivan gəlir, gəl ki, görəsən. Elə bil Rüstəm-Zaldı, iyirmi yaşında bir cavandı. Gözəllikdə Yusifə taydı. Oğlan bunları görən kimi atdan sıçrayıb yerə düşdü. Ədəb-ərkanla padşaha, bütün camaata salam verdi.

Padşah qoca vəzirə dedi:

– Vəzir, deyəsən bu oğlan şahzadədi.

Vəzir dedi:

– Elə görünür.

Sonra şah dedi:

– Oğul, hansı şəhərdənsən? Səfərin haradı?

Sam dedi:

– Qəndilqala şəhərindənəm, Cəm şəhərinə gedirəm.

Vəzir dedi:

– Oğul, Cəm şəhərində kimin yanına gedirsən?

Şahzadə dedi:

– Cəmşid şahın.

Qoca vəzir dedi:

– Oğul, həmin Cəmşid şah budu.

Sam şahzadə o saat əllərini döşünə qoyub diz üstə çökdü. Şah onu tez yerindən qaldırıb alnından öpdü. Sonra isə ata minib bərabər şəhərə yola düşdülər. O saat şadlıq məclisi quruldu. Bir neçə gün yeyib içməkdə oldular. Kef məclisində Sam öz dərdini qoca vəzirə açıb nağıl etdi.

– Qoca vəzir, mən Qəndilqala şəhərindən qılınc vura-vura ta ki Cəm şəhərinə Məsləhət xanımdan ötrü gəlmişəm. İndi sən bilirsən, nə etmək lazımdır?

Qoca vəzir dedi:

– Oğul, sən arxayın ol, mən tezliklə işi sahmana salaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoca vəzir işi sahmana saldı, toy tədarükü görüldü. Cəmşid şah qırx gün, qırx gecə toy vurdurub Məsləhət xanımı Sam şahzadəyə verdi. Sam bir neçə ay burada qaldı. Günlərin birində Cəmşid şahla söhbət edən zaman atası Tərkiman şah yadına düşdü. Bütün imarət başına hərləndi. Şah onu bu halda görüb yaxın gəldi, soruşdu:

– Oğul, olmaya xəstələnmisən? Rəngin qaçıb.

Sam dedi:

– Xeyr, qibleyi-aləm, əgər icazə versəniz deyərəm.

Şah dedi:

– Oğul, de görüm.

Sam götürüb görək nə dedi:

On səkkiz ay qürbət ellər içində,
Üzür qıl şah baba, Kana gedim mən.
Gözü yolda ata-ana qoymuşam,
Yad edib intizar xana gedim mən.

Mərd igid qürbətdə olarmı xəstə,
Nə eşqi-damaqda, nə də həvəsdə,
Nə danışmaz, gülməz, sanki şikəstə,
Əhv elə, çatmışam cana gedim mən.

Samın həsrətidi tamamən ellər,
Çəkəllər arzumu aylar və illər.
Dağlarda ruzigar, dərədə sellər,
Dönüm coşmuş bir ümmana gedim mən.

Söz tamam oldu. Sam diz üstə çöküb dedi:

– Qibleyi-aləm, mən vətəndən çıxalı on səkkiz aydı. On səkkiz ayda bilmirəm atam, anam necə dolanırlar. Atam çox qocadı. Mən istəmirəm qoca vaxtı mənim dərdimi çəksin. O səbəbdən gərək mənə izin verəsən.

Şah bir qədər fikrə gedib dedi:

– Oğul, mən də razı deyiləm sənin bu qədər burada qalmağına. Çünki sən elə yersiz adam deyilsən, özün bir şahzadəsən. Madam ki, şahzadəsən, öz vətəninə getməyə razılıq verirəm. Ancaq oğul, bir neçə gün də qal, sənin getmək tədarükünü görüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elə də razılaşdılar. Tədarük görülüb hazır olan zaman şah Samı hüzuruna çağırıb dedi:

– Oğul, mən səni tək buraxmayacağam, bir neçə sərkərdə qoşunla getməlisən.

Buna Sam da razılaşdı. O gün qırx qatır, dəvəyə Məsləhət xanımın cehizi yükləndi, Cəm şəhərindən gəlib Enzengah şəhərinə çatdılar. Sam sərkərdələri hüzuruna çağırıb dedi:

– Qoşunu burada dayandırmaq lazımdı.

Şəhərin kənarında çadırlar quruldu, qoşun əhli dincəlməkdə oldu. Sam öz sevgilisi Məsləhət xanımın yanına gəlib bir gün icazə aldı.

Məsləhət xanım dedi:

– Mən bilirəm, sən Nəzakət xanımı gətirməyə gedirsən. Əgər o qız məndən gözəl olsa, məni qafilə qatır ilə geri qaytararsan.

Sam bir söz demədi, başladı getməyə. Sam getməkdə olsun. O yerə gəldi ki, Nəzakət xanımı orada görmüşdü. Baxdı ki, qız yoxdu. Bağbandan Nəzakət xanımı soruşdu.

Bağban dedi:

– Əhd eliyib ki, Sam gəlməyincə , mən öz imarətimdən çölə çıxmayacağam.

Sam Nəzakət xanımın imarətinə getdi, qız onu görəndə qəşş eləyib yerə yıxıldı. Nəzakət xanmın üzünə Sam şahzadənin göz yaşı düşəndə ayıldı, gördü başı Sam şahzadənin dizi üstündədi. Hər iki cavan görüşdü, öpüşdü.

Sam dedi:

– Ey mehribanım, niyə zəfəran kimi saralmısan?

Nəzakət xanım aldı görək ona nə cavab verdi:

On səkkiz ay şamsız xanə içində,
Ağlayıb qalırdım zar, səndən ötrü,
Leyli-nahar həsrətini etdiyim,
Arzular çəkirdim yar, səndən ötrü.

*Aldı Sam şahzadə:*

O ala gözlümün gözü yoldadı,
Bağda heyva, nar var, yar, səndən ötrü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əhsəntü bağbana olsun afərin,
Becərib bəsləmiş bar, səndən ötrü.

*Aldı Nəzəkət:*

Geyib sarmanıbdı tirmə atlası,
Dərdin həvəskarı gözəllər xası.
Könlümün istəyi, dil təmənnası,
Oturdum qeyrətlə ar, səndən ötrü.

*Aldı Sam şahzadə:*

Xeylidi vəsmindən mənəm aralı,
Hicrinə baş əyən əlbət saralı.
Qəlbimin ceyranı, könlüm maralı,
Kəs məni qurbana yar, səndən ötrü.

*Aldı Nəzakət:*

Baxmadım kimsənin qəddi-qamına,
Çünki dalmış idim Leyli halına.
Nəzakət xanımın xoş iqbalına,
Günəş sayə saldı kar, səndən ötrü.

*Aldı Sam şahzadə:*

Qüdrətdən sürməni gözə yetirən,
Büküb tellərini üzə yetirən.
Hicranla cismini gözə yetirən,
Şahzadə Sam kimi var, səndən ötrü.

Söz tamam oldu. Müjdə getdi qızın atası Gavə şaha ki, gözün aydın olsun, Sam şahzadə gəldi. Şah qızı Nəzakət xanımı və Sam şahzadəni yanına çağırıb dedi:

– Oğul, başına gələn əhvalatı nağıl elə.

Sam başına gələn əhvalatı ona nağıl elədi. Sonra dedi:

– İcazə verin, biz gedək.

Həmin gün tədarük görüldü, yüz qatar dəvəyə cehiz yükləndi. Nəzakət xanımı gətirdilər Məsləhət xanımın yanına. Hər iki gözəl öpüşdü, görüşdü. Sam şahzadə sərkərdələri çağı-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rıb yola düşmək əmri verdi. Qafilə qatırı yükləyib Qəndilqala şəhərinə yola düşdülər.

Qəndilqala şəhərinin iki yolu vardı. Biriynən altı aya getmək olardı, biriynən üç aya. Sam üç aylıq yolnan gedirdi. Atasının torpağına az qalmışdı çata. Bir böyük qalaçaya rast gəldi. Onların qabağını bir pəhlivan kəsdi, adına Təhri deyərdilər. Soruşdular:

– Nə üçün yolu kəsmisən?

Dedi:

– Burdan keçən torpaqbasdı verib keçməlidi.

Sam dedi:

– Ey ərəb, gəl bizi incitmə, bir qədər qızıl, gümüş verim, izin ver keçək.

Ərəb cavab verdi:

– Mana uzunçuluq lazım deyil, ya hamınızı qıracayam, ya da adambaşına torpaqbasdı verəcəksiniz.

Müxtəsəri, hər iki pəhlivan meydana atıldı. Axırda belə qərara gəldilər ki, kim məğlub olsa, cah-cəlal onun olar.

*Sam dedi:*

Ey ərəb, güvənmə hərbə-zoruna,
Sana fayda verməz fellər, ağlarsan.
Bir gəliş gələrəm ruzigarına,
Yanar əhvalına ellər, ağlarsan.

*Aldı Təhri:*

Ey cocuq, üz qıl mənəm bir əzab,
Düşübdür payıma qullar, ağlarsan.
Mən oldum anadan o Şiri əzab
Salaram gözünə tellər, ağlarsan.

*Sam dedi:*

Mən bir mövlanın kəmər bəstəsi,
İsminə can fəda dil şikəstəsi.
Arasti səflərlə keflər dəstəsi,
Keçibən qılıncdan illər, ağlarsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Aldı Təhri:*

Duyarlar ismimi ürəkdə xali,
Baş qoyub qarşımda olasan hali.
Görən igidlərin artar zavali,
Qərq oldu ümmana sellər, ağlarsan.

*Sam dedi:*

Sama mövla nəzər bari çəkildi,
Qüdrətindən yadigari çəkildi.
Uzun illər ahi-zari çəkildi,
Ey yazıq, başına küllər, ağlarsan.

*Aldı Təhri:*

Təhrinin tərifin alimlər bilir,
Duymasan isminə qəlbindən dilir,
Gəl, olsa sənin tək neçə min dəlir,
Sanaram dağlarda yerlər, ağlarsan.

Söz tamam oldu, hər iki pəhlivan əl atdı qılınca. Təhri qışqırdı, növbət Sama yetişəndə qoltuğunun altından bir qılınc vurub öldürdü. Qoşun cah-cəlalla Sama yetişdi. Sərkarın biri açarları Sama verdi, Sam bir-bir qapıları açdı, nə qədər ləli-cavahir var idisə qoşuna payladı.

Təhrinin sərkərdələrindən biri dedi:

– İki qoca zindandadır. Onları burax.

Sam gördü zindanda olan qocalar öz atasıynan onun vəziridi. Üz-gözləri tüklənib. Sam onlarla görüşüb öpüşdü.

Sam soruşdu:

– Atayi-mehriban, nə səbəbə təxti-tacı buraxıb zindana düşmüsən?

Atası dedi:

– Səni axtarmağa çıxmışdım. Birdən hər yeri duman basdı, bizi tutub bu qalaçaya gətirdilər.

Atası ilə vəziri götürüb öz şəhərlərinə gəldilər. Şadyanlıq keçirildi. Sam şahzadəyə qırx gün, qırx gecə toy oldu. Onlar murad hasil elədilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XVI. UŞAQ FOLKLORU

## Oxşamalar, sanamalar, düzgülər

Yola çıxdı yüz atdı,
Nə durufsan, süz atdı.
Balam, baban odurna –
Qarapapax, boz atdı.

* * *

Alnı mina cidası,
At minib çapasım gəlir.
Qaşları qələm qarası,
Ərizə yazasım gəlir.
Gözləri qaynar bulaq,
Əyilib içəsim gəlir.
Burnu meşə fındığı,
Qırıb yeyəsim gəlir.
Üzləri lop alması,
Dərib gətirəsim gəlir.

* * *

A qızım, a qızım, dur oyna,
Tellərini bur, oyna,
Əşrəfiyə qol qaldır,
Ağ otağa gir, oyna.

* * *

Qızım qızlar ağası,
Başında tomağası,
Qızıma elçi gələr
Elin böyük ağası.

* * *

Həlli qızım, hüllü qızım,
Xanın, bəyin gəlni qızım.
Xanı, bəyi bəyənməsə,
Kotançının gəlni qızım.

* * *

Qızımı qız dostları
Oynamağa çağırır,
Bağa bir camış girib,
Qoylamağa çağırır.
Dayısı yemiş alıb,
Paylamağa çağırır.
Qardaşı gül gətirib,
Bağlamağa çağırır.

* * *

Hamanı, ay hamanı,
Hanı balamın tumanı?
Tumanı ağac başında,
Daysıgilin tuşunda,
Ağac gətirin endirək,
Eşşək gətirin mindirək,
Dayısıgilə göndərək.
Dayısı üzünə baxmasa,
Özümüzü daşa döndərək.

* * *

A dayısı birini çal,
Birini sındır, birini çal,
Comuş bağa girdi çal,
Tənəkləri qırdı çal.

* * *

Qatar gedir sola, sağa,
Çınqıl düşür bizim dağa,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əmim oğlu, Sultan ağa,
Gəlin gedək oynamağa,
Oynamağın vaxtıdı,
Qızılgülün taxtıdı,
Ix, nıx, çıx.

* * *

– Molla Əhmədin nəyi var?
– Taqqır, tuqqur yolu var,
Qələm yazan oğlu var,
İnci düzən qızı var,
Göyə çıxan atı var,
Göyün yeddi qatı var.

* * *

Bir, iki,
Bildirki,
Üç, dörd,
Qapını ört.
Beş, altı,
Daşaltı.
Altıda alma,
Yeddidə bölmə,
Səkkizə sərçə,
Doqquza dolça,
Ona oraq,
On birə qonaq,
Pəppə qağa
Gəldi bizə,
Təpiknən vurdum
Dombalaq uçdu.

* * *

Bəli, bəli bətir keçi,
Qoz ağacı qotur keçi,
Haldırın dedim,
Huldurun dedim,
Dağı dağ üstə
Qaldırın dedim,
Happan, huppan,
Dağdan hoppan,
Yığrıl, yırtıl,
Su iç qurtul.

* * *

İki dənə, ha iki dənə,
İkidənə bir quş idi,
Ağaca qonmuş idi,
Bəy oğlu görmüş idi,
Oxuyla vurmuş idi.
Oxundan mən bezaram,
Kətan-köynək yazaram.
Kətan-köynək mil-mili,
Mil-mili urum dili.
Urumdan gələn atlar,
Ağzında ilan çatlar.
Çatını verdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa
Haqq qapısını açmağa.

* * *

Motal, motal,
Tərsə motal,
Qıl atar,
Qaymaq qatar.
Ağ quşum,
Ağarçınım,
Göy quşum,
Göyərçinim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarğa qara,
Durna cala,
Çiləmə çilik,
Bircə əmlik.
Çəmbər çarıq,
Əmrəqulu,
Vur nağara,
Çıx qırağa.

* * *

Tamara-Tamara tat qızı,
Erməni saldat qızı,
Tamara getdi beş günə
Gəlmədi on beş günə.

* * *

Bacadan baxdım hidaragöz,
Birisi ala, birisi boz.
Mindim bozun boynuna,
Düşdüm Urum yoluna.
Urum yolu dərbədər,
İçində meymun gəzər.
Meymunu yerə vurdum,
Yer mənə yemlik verdi.
Yemliyi tata verdim,
Tat mənə darı verdi.
Darıyı quşa verdim,
Quş mənə qanad verdi.
Qanaddandım uçmağa,
Haqq qapısını açmağa !

* * *

Zöhrə, Zübeydə,
İkisi bir öydə.
Zöhrə dalaşdı,
Zübeydə qaşdı,
İtlər hürüşdü,
Hamı gülüşdü.

* * *

– Ovcumdakı nədir?
– Qığılcım.
– Hər kəs evinə dağılcım.

* * *

– Danışdığın nə idi ?
– Nağıl.
– Hər kəs evinə dağıl.

* * *

Dümbərə!
İkisidi!
Üçdə ağır vurallar!
Dörddə qulunc qırallar!
Beşdə şappa!
Altıda zoppa!
Yeddidə yemiş!
Səkkizdə siviş!
Doqquzda qovuş!
Onda getdim bir öyə qonax,
Bişirdilər umanc aşı,
İçindən çıxdı siçan başı.
Onu da verdim özünə,
On barmağım gözünə!
A hayla, hayla, hayla,
Al papağını məni qoyla!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## Oyunlar

**Aşıq-aşıq**. Oyunda üç-dörd nəfər iştirak edir. Oyun zamanı qoyun aşığından istifadə edirlər. Aşığın azca çökük, qıraqları nisbətən yuxarı qalxmış formalı tərəfinə «alçı», həmin üzün əks tərəfinə «dağın», yan üzlərə çökük, qarın tərəfinə «cik», şiş tərəfinə isə «bik» deyirlər.

İki-üç metr diametrində bir dövrə çəkirlər. Həmin dövrənin ortasından bir düz xətt çəkib, aşıqları onun üstünə düzürlər. Sonra müəyyən məsafəli yerdən aşıqları növbə ilə atırlar. Oyunçuların şah, ardıcıl, danaqovan kimi adları olur. Oyunçulardan biri aşıqları yığıb ovcunda qatışdıraraq yerə tullayır. Birinci kimin aşığı alçı dursa, o şah adını alır. İkinci dəfə kiminki alçı düşsə, o ardıcıl, üçüncü isə danaqovan olur. Təyin olunmuş məsafədən aşıqları atırlar. Birinci dəfə atan aşıqların çox hissəsini sıradan çıxara bilsə, o şahlığında qalır. Yox, əgər o bunu edə bilmirsə, şahlığından düşür. İkinci və ya üçüncü oyunçunun hansı aşıqları sıradan çıxarsa, o şahlıq edir. Aşıqları sıradan çıxaran həm aşıqları mənimsəyir, həm də dairənin qırağından aşıq atmaq hüququ qazanır.

**Beşdaş**. Oyunda bir neçə uşaq iştirak edir. Hər oyunçunun əlində beş dənə kiçik yumru daş olur. Oyunçunun biri daşlarını ovcunda qarışdıraraq yuxarıdan yerə atır. Sonra isə barmaqlarının ikisini yerdəki daşlara yaxın məsafədə yerə dayayaraq haça tutur. Çırtıqla həmin daşları bir-bir barmağının arasından keçirir. Əgər o hər çırtığıyla bir daşı içəri keçirə bilməzdisə, yerlərini dəyişirlər. Bütün daşları içəri keçirən oyunçu udmuş hesab olunaraq, o biri oyunçunun daşlarını əlindən alır. Uduzan oyunçu təzədən özünə daş yığmağa başlayır.

**Çilik – ağac:** Bu oyuna «Çilik toxma», «Çilik döymə», «Çilik dəstə» də deyirlər. Oyunçular hər tərəfdə üç və daha çox oyunçu olmaqla iki dəstəyə bölünür: dəstələrin başçıları dayanır, oyunçular özlərinə şərti adlar verməklə iki-iki onlara yaxın-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

laşır. Dəstə başçısı hansı adı çəksə, həmin oyunçu onun tərəfində dayanır. Oyunda üstünlük aşağıda qalanlarda olur. Oyunçu üç çilik atmalıdı, buna toxma deyilir. Çilikləri atdıqdan sonra ağacı mərəyə (çiliklərin atıldığı yer) qoyurlar. Yuxarıdakılar ağacı çiliklə vurmağa cəhd göstərir. Çilik ağaca dəyərsə, oyunçu «ölmüş» hesab edilir. Üç çilikdən heç biri dəyməsə oyunçu yanqıya çıxır. Toxma atan oyunçunun çiliyi «kəsilərsə», o, hər kəsilən çilik üçün iki çilik də atmalıdır. Hamı yanqıya çıxdıqdan sonra işlətmə (yorma, əldən salma) başlayır.

Yanqıda çiliyi kəsilən oyunçu da «ölmüş» hesab olunur. «Ölmüş» oyunçuları «diriltmək» hüququ ancaq yanqıya çıxanlara verilir. O, kimi diriltmək istəyirsə, onun adını çəkir: «Filankəsin qolları!»

Yuxarıdakılar çalışırlar ki, yanqı üçün atılan çiliklər mərəyə yaxın düşsün; mərə ilə çilik arasındakı məsafə ağacla ölçülür. Toxmadan yanqıya çıxmaq üçün beş, yanqıda «öləni» diriltmək üçün yeddi «ağac» lazım gəlir. İstər toxmada, istərsə yanqıda kəsilən çilik mərəni keçərsə (buna «mərəkeçdi» deyilir) dəstələr yerini dəyişir.

**Apartma.** Oynayanlar müəyyən məsafədə qarşı-qarşıya dayanır. Birincinin ağacla atdığı çiliyi ikinci oyunçu ağacla vurub onun özünə tərəf atır.

**Daşatma.** Bu oyunda bir neçə nəfər iştirak edir. Oyun düzənlik bir yerdə keçirilir. Hərənin əlində kiçik bir ləpir daş olur. Uşaqlar əllərindəki ləpir daşı təyin olunmuş məsafədən ortaya qoyulmuş əl topunu xatırladan nişangaha tərəf atırlar. Kimin daşı nişangah daşına dəyirsə, o udmuş hesab olunur. Qalan oyunçuların yeri nişangah daşına yaxın düşən daşların arasındakı məsafə ilə təyin olunur.

**Dirədöymə (dizədöymə):** Oyunçular iki yerə bölünür. Geniş radiuslu dairə çəkilir. Dairənin içində qalan oyunçular ayaqları altına kəmər qoyurlar, biri sərbəst qalır. Buna çapar de-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yirlər. O, dairədən çıxmadan dairədən kənardakı oyunçuları ayağı ilə vura bilərsə komandalar yerini dəyişir. Dairədən kənardakı oyunçular çırpma ilə kəmərləri almağa çalışır. Bu məqsədlə kəməri mühafizə edənlərə ling də vurulur (qaçaraq kəmər yerindən aşağı vurulan təpik). Kəmərlərdən istifadə edib daxildəkiləri tarpaşdayırlar.

**Durma, vur.** İştirakçıları iki dəstədən ibarət olan bu oyun (hər dəstədə 10-15 nəfər olur) düzənlikdə keçirilir. Düzən sahə iki yerə bölünür. Hər dəstə bölünən sahənin bir üzündə düzülərək əllərində 1,5-2 m uzunluğunda nazik çubuq tutur. Oyuna bir nəfər başçılıq edir. Onun bir, iki, üç sayından sonra «durma, vur» sədaları altında döyüş başlayır. Hansı dəstə üstələyərək, o biri dəstəni müəyyən olunmuş sahədən çıxarırsa, qalib hesab olunur və o birilərinin çubuqlarını əllərindən alır.

**Ənzəli.** Bu oyunun adına «Artırma» və yaxud «Eşşəkbeli» də deyirlər. Oyunda 8-10 nəfər iştirak edir. Uşaqlardan birini (özünü ağır, təmkinli aparanı) başçı seçirlər. Oyunun gedişi zamanı onu «mollam» deyə çağırırlar. Uşaqlar növbələşmə üçün əvvəlcədən çöp atırlar. Bu zaman axıra qalan oyunçu 2 metr diametrində çəkilmiş dairənin tən ortasında belindən irəliyə doğru əyilmiş formada dayanır. Başçı isə «ənzəli» deyərək əllərinin ikisini də yatanın belinin üstünə qoyub, onun üstündən tullanır. Yerdə qalanlar isə «Mollam dedi» deyib növbə ilə həmin hərəkəti təkrar edirlər. Hər dəfə hoppandıqca başçı bir söz deyir, uşaqlar isə onun dediyini təkrarlayırlar.

Başçı (B) – İkiləri xan əkbəri.

Uşaqlar (U) – Mollam dedi əkbəri.

B – Üçdə bir g… vurarlar (vurub atılır).

U – Mollam dedi vurarlar (uşaqlar da vururlar).

B – Dörddə yambız əzərlər (əllərini yumruq şəklində tutub yatanın belinə qoyur və tullanır).

U – Mollam dedi əzərlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

B – Beşdə xanlar taxta çıxar, qu-qulu-qu (o yatanın belində oturub sonra tullanır).

U – Mollam dedi qu-qulu-qu.

B – Altıda əl dəysin, ətək dəyməsin (çalışırlar ki, ətəkləri yatanın belinə dəyməsin).

U – Mollam dedi dəyməsin.

B – Yeddidə tək əlli (yatanın belinə tək bir əllərini qoyub tullanır).

U – Mollam dedi tək əlli.

B – Səkkizdə papaq üstündə (yatanın belinə papaq qoyur və tullanırlar. Kim papağı yerə salsa, yatanı əvəz edir).

U – Mollam dedi üstündə.

Yuxarıdakı hissə qurtardıqdan sonra oyunun ikinci hissəsi başlanır.

B – Ay ırnızı, ırnızı.

U – Mollam dedi ırnızı.

B – K… keçi buynuzu.

U – K… keçi buynuzu.

B – Keçi girdi bostana.

U – Keçi girdi bostana.

B – Yedi qovun, qarpızı.

U – Yedi qovun, qarpızı.

B – Daş atdım qıçı sındı.

U – Daş atdım qıçı sındı.

B – Apardılar həkimə.

U – Apardılar həkimə.

B – Həkim dedi vəkilə.

U – Həkim dedi vəkilə.

B – Vəkil dedi nə s…

U – Vəkil dedi nə s…

B – Üç dəfə fırlan, vur bizi.

U – Üç dəfə fırlan, vur bizi.

Bu qayda ilə uşaqlar tullanıb qurtarır və yatan oyunçu qalxır. Bununla da üçüncü hissə başlanır. Yatan əlində papağı dairənin içərisində o yan-bu yana gəzişir. Onun məqsədi ətraf-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dakıları dairənin içərisinə buraxmamaq və papağı ilə qıraqdakıların birini vurmaq olur. Əgər o qıraqdakıların birini papağıyla vurarsa və tez də papağı yerdən götürüb dairənin içinə qaçarsa, onda vurulan oyunçu onun yerinə keçir. Vuran isə bayıra çıxır. Əks təqdirdə, oyun əvvəlki formasında davam edir.

**Xan-Vəzir.** Oyun iştirakçıları dörd nəfərdən ibarət olur: «xan», «vəzir», «oğru» və «tapan». Dörd dənə kiçik kağız parçasının üstünə həmin sözləri yazır və onu bir neçə dəfə bükürlər. Oyunçulardan biri həmin kağızları ovcunda qarışdırıb yerə atır. Oyunçuların hərəsi kağızın birini götürür. «Tapan» yazılmış kağız kimə düşsə, o oyun iştirakçılarının içindən «oğrunu» tapmalıdır. Əgər «tapan» uşaqlardan birini göstərib «oğru» sənsən desə, onda o uşaq həqiqətən «oğrudursa» onu cəzalandırırlar. Əks təqdirdə, yəni «tapan» «oğrunu» tapa bilməsə «tapanın» özü cəzalandırılır. Cəza üsulunu «xan» müəyyənləşdirir. On dəfə oturub qalxmaq, iyirmi sayıb qurtarana kimi bir ayağının üstündə durmaq və s. kimi cəza tədbirləri təyin olunur. «Vəzir» isə nəzarətçilik edir.

**Qamçı-qamçı.** Oyunda hərəsində 10-12 adam olan iki dəstə iştirak edir. Geniş meydançanın ortasından düz xətt çəkərək ikiyə bölürlər. Hər dəstə xəttin bir üzündə sırayla düzülür. Ümumi dəstələrin bir nəfər başçısı olur. Başçı üçə qədər sayandan sonra oyun başlanır. Dəstələr irəli hərəkət edərək bir-birini qamçıyla döyür. Döyüş zamanı qamçılar bir-birinə dolaşır. Bu oyun at üstə keçirilir. Bu zaman rəqiblər bir-birini çəkib atdan salmağa və ya qamçısını əlindən almağa cəhd göstərirlər. Atdan yıxılan və ya qamçısı əlindən çıxan uduzmuş hesab olunur və qamçısını qalib oyunçuya verir.

**Mərə qazma.** Üç və daha artıq oyunçu ilə oynanılır. Oyunçular dairəvi şəkildə, bir-birindən eyni məsafədə yer nişanlayır. Bu yer onların mərəsi adlanır. Oyuna başlayan oyunçu çiliyi qonşu oyunçuya atır. Bu oyunçu çiliyi ağacla vurur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Birinci oyunçu çiliyi tapıb gətirincə digərləri onun mərəsini qazır. Çiliyi tapan gələnə kimi hər biri qaçıb öz mərəsinin yanında dayanır, gecikərsə – çilik onun mərəsinin sərhədlərinə (mərəni əhatələyən dairəvi cızığın içinə) düşərsə çiliyi həmin oyunçu atmalıdır. Oyunçu ona tərəf atılan çiliyi vura bilməyəndə çiliyi özü atmalıdır. Oyunçulardan birinin mərəsi ayaqlar sığınca qazılıbsa, oyun başa çatmış hesab edilir. Onun ayaqları çuxura salınır, torpaqla doldurulur. O, çuxurdan çıxana kimi digərləri onu papaqları ilə «döyür».

**Müştükatma.** Müştükatma oyunu üçün nisbətən uzun, nazik ağac seçilir ki, atanda uzağa düşsün. Oyunçu ağacını çiyni bərabərinə qaldırıb gücü çatdığı qədər uzağa atır. Hamı atdıqdan sonra ağacı ən geridə qalan oyunçu papağını yerə qoyur, o birilər onun papağına bir ağac vurur.

**Sümük-sümük**. Oyunda iki dəstə iştirak edir. Hər dəstədə 6-8 adam olur. Onlar münasib bir yerə toplaşıb (oyuna nəzarət edən bir nəfərin 1, 2, 3 sayından sonra) gözlərini yumurlar. Dəstə uşaqlarından biri iri heyvan sümüyünü uzağa atır. Sümüyü hansı dəstənin tapacağı əvvəlcədən müəyyən olunur. Sümüyü axtarmalı olan dəstə gümanları gələn yerləri gəzməyə başlayır. Əgər onlar sümüyü tapırsa, o biri dəstə onları təqib edərək sümüyü almağa çalışır. Əlində sümük olan uşaq qaçıb sümük atılan yerə çatdığı təqdirdə dəstələr yerini dəyişməli olur. Bu oyun əsasən gecə – ay işığında keçirilir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TƏRTİBDƏ İSTİFADƏ OLUNMUŞ QAYNAQLAR VƏ SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

## I. Mövsüm və mərasim nəğmələri

1. Söyləyəni Anaxanım Xıdır qızı, Bolnis rayonunun Darvaz kəndi (73 yaş, 1988-ci il).

2. «Sovet Gürcüstanı» qəzeti, 24 dekabr 1988 (mətni M.İsmayılov yazıya almışdır).

3. Söyləyəni Safa İskəndər qızı Budayeva, Bolnis rayonunun Şəmşioğlu kəndi (60 yaş, 1987).

4. Söyləyəni Şəfiqə Haqverdi qızı, Qardaban rayonunun Nazarlı kəndi (55 yaş, 1989).

5. Nümunələri Qarayazıdan A.Mustafazadə toplamışdır.

## II. Miflər və əfsanələr

1. Söyləyəni Tamila İsrafil qızı Dilənçiyeva, Zalqa rayonunun Culuxlu kənd sakini (63 yaş, 1990).

2. Söyləyəni Rəna Nizam qızı Əhmədova, Bolnis raonunun Daşlıqullar kəndi (41 yaş, 2004).

3. Söyləyəni Zinarə Alpaşa qızı Hacıyeva, Bolnis rayonunun İmirhasan kənd sakini (57 yaş, 2010).

4. Söyləyəni Muxtar Rzaqulu oğlu Abbasov, Bolnis rayonunun İmirhasan kəndi (53 yaş, 1989).

5-6. Söyləyəni Xaccə Mehralı qızı Quliyeva, Bolnis rayonunun İmirhasan kəndi (68 yaş, 2009).

7. Söyləyəni Nigar Mahmud qızı Əhmədova, Bolnis rayonunun Saraçlı kəndi (72 yaş, 1988).

8-10. Söyləyəni Münəvvər Abdulla ağa qızı İsaqova, Bolnis rayonunun Kəpənəkçi kəndi (46 yaş, 1988).

11-15. Söyləyəni Həcər Musa qızı Acalova, Bolnis rayonunun Kəpənəkçi kəndi (45 yaş, 1988).

16. Söyləyəni Nəsib Qasım oğlu Xudayev, Bolnis rayonunun Sarallar kəndi (87 yaş, 1988).

**«Hərşənin küllüyü»** – söyləyəni Fatma Yusif qızı Hacılar, Bolnis rayonunun Darvaz kəndi (70 yaş, 1984).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**«Anaxatır»** – «Sovet Gürcüstanı» qəz., 10.09.1988 (mətni O.Əhmədoğlu yazıya almışdır).

**«Cənnət bulağı (1)»** – «Sovet Gürcüstanı» qəz., 28.01.1989 (mətni Bolnis rayonunun Faxralı kəndindən R. Hüseynov yazıya almışdır).

**«Cənnət bulağı (2)»** və **«Keçiqıran»** – nümunələri Bolnis rayonunun Faxralı kəndindən R.Faxralı toplayıb müəllifi olduğu «Oğuz eli Faxralı» (Bakı, 2001) kitabında nəşr etdirmişdir.

**«Maral dağı»** – söyləyəni Hatəm Rüstəm oğlu Mursaqulov, Dmanis şəhəri (56 yaş, 1988).

**«Maral qayası»** – söyləyəni Allahverdiyeva Teybə, Marneul rayonunun Sabirkənd kəndi, (65 yaş, 1988).

**«Daş çoban»** – söyləyəni Əhmədov Kərim, Dmanis rayonunun Qarabulaq kəndi (70 yaş, 1988).

**«Qurddan adama ziyan gəlməz»** – söyləyəni Nəsib Qasım oğlu Xudayev, Bolnis rayonunun Sarallar kəndi (87 yaş, 1988).

**«Təpəgözlə Səfər»** – söyləyəni Süleyman Bədir oğlu Əhmədov, Bolnis rayonunun Saraçlı kəndi (77 yaş, 1988).

**«Əzrayılla cavan»** – söyləyəni İdris Mustafa oğlu Tanrıverdiyev, Dmanis rayonunun Saatlı kəndi (80 yaş, 1984).

**«İki qardaşla o dünya»** – söyləyəni Müqvər Əhməd qızı Xələfova, Qardaban rayonunun Kosalı kəndi (71 yaş, 1988).

Nümunələrdən 7-16, «Maral dağı», «Maral qayası», «Daş çoban», «Qurddan adama ziyan gəlməz» və «Təpəgözlə Səfər» «Azərbaycan mifoloji mətnləri» (tərtibçi A.Acalov, Bakı, 1988) kitabında çap edilmişdir.

## III. İnanclar

«Meydan» ictimai dərgisi, Marneul, № 4, sentyabr, 2009 (Toplayanı Ə.Yəhyaoğlu).

Azərbaycan mifoloji mətnləri, Bakı, 1988.

N.Ənvərli. Borçalıda yurd yeri – İmirhəsən, Bakı, 1999.

## IV. Atalar sözləri, məsəllər və deyimlər

Söyləyicilər: Əlləz Əmiraslanov (Yetim Əlləz), Bolnis rayonunun Yuxarı Güləver kəndi (80 yaş, 1975); Tahir Kərim oğlu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlləzov, Bolnis rayonunun Darvaz kəndi (50 yaş, 1985); Mehman Musayev, Dmanis rayonunun Ormeşən kəndi (41 yaşında, 1989); Aşıq Vəkil, Dmanis rayonunun Hamamlı kəndi (42 yaş, 1989); Səməd Qurbanov, Dmanis rayonunun Az-Gəyliyən kəndi (60 yaş, 1987); Hacıxəlil Əliyev, Bolnis rayonunun Dəllər kəndi (58 yaş, 1987); Muxtar Hacıyev, Bolnis rayonunun Darvaz kəndi (70 yaş, 1981); Aşıq Söyün, Cəlal Nəbi oğlu Əmiraslanov, Bolnis rayonunun Yuxarı Güləver kəndi (70 yaş, 1999); Marneul rayonunun Qırxılı kəndi, 1987; Oqtay Qocayev, Tiflis şəhəri, Ortacala məhəlləsi (65 yaş, 1987); Şüşəxanım Qocayeva Tiflis şəhəri, Ortacala məhəlləsi (61 yaş, 1987); Yunus Hümbət oğlu Hümbətov, Bolnis rayonunun Darvaz kəndi (102 yaş, 2000); İbrahimxəlil Ömər oğlu Süleymanov, Dmanis rayonu, Məmişli kəndi (72 yaş, 2007).

Örnəklərin bir qismi Gürcüstan Elmlər Akademiyası K.Rustaveli adına Ədəbiyyat İnstitutu folklor arxivində qorunan N.Asatianinin topladığı materiallardan götürülmüşdür (N.Asatianinin arxivi, inv. №№ 12130, 13080, 12184, 12157, 11083, 12122).

Digər mənbə: İ.Adıgözəlli. Elim-obam Sadaxlı, Bakı, 2000.

## V. Müxtəlif lirik örnəklər, hikmətli sözlər

Bu nümunələr N.Asatianinin topladığı folklor örnəklərindən götürülmüşdür.

## VI. Rəvayətlər

**«Qatar qaya»** – «Sovet Gürcüstanı» qəz., 24.12.1988 (mətni Başkeçiddən S.Əliyev və M.Coşğun yazıya almışlar).

**«Qara qaya»** – «Sovet Gürcüstanı» qəz., 27.10.1990 (mətni Bolnis rayonunun Saraclı kəndindən S.Çobanov yazıya almışdır).

**«Gəlin gölü»** – «Sovet Gürcüstanı» qəzeti, 13.01.1990 (nümunəni Dmanis rayonunun Armudlu kəndindən Ə.Binnətoğlu toplamışdır).

**«Elçi dağı»** - söyləyəni Sona qarı, Dmanis rayonunun Qızılkilsə kəndi (90 yaş, 2009).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**«Babakər və Davıd Qareca çölü»** - Bu tarixi rəvayət Q.Qordeyevin «Tiflisskiye vedomosti» qəzetində (1832, yanvar, № 2) çap olunmuş məqaləsindən bir parçadır. Məqalə F.Valehoğlu tərəfindən tərcümə olunub müəllifi olduğu «Qarapapaqlar və onların XIX əsr hərb tarixi» kitabında nəşr olunmuşdur.

**«Mərdanoğlu İsmayıl»** - söyləyəni Aşıq Hüseyn Saraçlı.

**«Məndə nə gördün, gəlmədin»** - söyləyəni Hürü qarı, Dmanis rayonunun Qızılkilsə kəndi (90 yaş, 2009).

**«Oğlan, dur get, sabah oldu»** - söyləyəni Sona Bəxtiyar qızı, Dmanis rayonunun Gəyliyən kəndi (90 yaş, 2009).

**«Cəmşid Sultan dərviş libasında»** – N.Asatianinin topladığı folklor örnəklərindən götürülmüşdür

**«Qaçaq Kərim və gürcü qızı» və «Aşağı axan deyil»** – söyləyəni Aşıq Hüseyn Qırxılı (Hüseyn Əli oğlu Kərimov).

«Elçi dağı», «Oğlan, dur get, sabah oldu», «Məndə nə gördün, gəlmədin» və «Mərdanoğlu İsmayıl» rəvayətlərini S.Buta toplayıb «Meydan» (№ 3, iyul, 2009) dərgisində çap etdirmişdir.

Digər rəvayətləri Borçalı-Qarayazı bölgələrindən 1983-1987-ci illərdə Tiflis Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin tələbələri toplamışlar.

## VII. Alqışlar (dualar) və VIII. Qarğışlar

Örnəkləri Borçalı-Qarayazı bölgələrindən 1983-1987-ci illərdə Tiflis Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin tələbələri toplamışlar.

Digər söyləyicilər: Fatma Yusif qızı, Bolnis rayonunun Darvaz kəndi (76 yaş, 1990); Tamam Qocayeva, Tiflis şəhər sakini (70 yaş, 1990); Tükəzban Əhmədova, Qardaban rayonunun Kosalı kəndi (70 yaş, 2008); Aynaxanım Paşa qızı Məmmədova, Qardaban rayonunun Kosalı kəndi (74 yaş, 2005).

Özgə mənbələr: «Qarapapaqlar», Tiflis, № 11 (29), noyabr, 2009 (toplayan Ə.Yəhyaoğlu).

Ə.Əliyev. Gürcüstan azərbaycanlılarının mənəvi mədəniyyəti, Bakı, 1995.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## VIII. Elat dodaqqaçdıları

Nümunələrin bir qismi Tiflis Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin tələbələri tərəfindən müxtəlif illərdə folklor ekspedisiyaları zamanı yazıya alınmışdır.

Digər mənbə: Lətifələr (Borçalı folklorundan nümunələr), tərtibçi- M.Çobanov, Bakı, 2001.

## IX. Andlar

«Qarapapaqlar» elmi-kütləvi dərgisi, № 10 (28), oktyabr, 2009 (toplayan Ə.Yəhyaoğlu).

Özgə mənbələr: söyləyicilər Yunus Hümbət oğlu Hümbətov, Bolnis rayonunun Darvaz kəndi (103 yaş, 2001); Şamama Haqverdi qızı Xiyalova, Qardaban rayonunun Kosalı kəndi (90 yaş, 2004); Şövkət Cavad qızı Abbasova, Bolnis şəhəri (56 yaş, 1989); Zərifə İrzaqulu qızı Əliyeva, Qardaban şəhəri (77 yaş, 2007); Qəndab Həmzə qızı Süleymanova, Dmanis rayonunun Məmişli kəndi (73 yaş, 2009).

## X. Hədə-qorxular

Z.Məmmədli tərəfindən toplanıb «Qaraçöp» (tərtib edəni N.Əbdülrəhmanlı) ədəbi-etnoqrafik toplusunda çap olunmuşdur.

## XI. Nağıllar

**«İnsanla ilanın nağılı»** - «Tiflisskiye vedomosti» qəzeti, 13 noyabr 1830-cu il (söyləyəni Borçalının Şamalı kənd sakini Mehdi Bayram oğlu, yazıya alanı Z...v, 6 oktyabr 1828-ci il).

**«Kasıb kişi ilə ilan», «Keçəllə padşahın qızı», «Ovçu ilə padşah»** və **«İri buğdanın sirri»** - söyləyəni Məhəmməd Novruz oğlu, Bolnisi rayonunun Darvaz kəndi (80 yaş, 1981).

**«Balıqların sirri»** və **«Qəmsiz Əhməd»** - söyləyəni Baba Seyid, Bolnisi rayonunun Arıxlı kəndi (82 yaş, 1975).

**«Ata öyüdü»** və **«Xoşbəxt adam»** - söyləyəni Məşədi Tağı Əliyev, Bolnis rayonunun Kolayır kəndi (79 yaş, 1982).

**«Ağıllı qız»** - söyləyəni Məhəmməd Bilal oğlu Bilalov, Dmanis rayonunun Qızılkilsə kəndi (76 yaş, 1983).

**«Əhmədi-Biqəm»** - Müslüm Hüseynov, Bolnis rayonunun Kolayır kəndi (60 yaş, 1975).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**«Padşahla həkim»** - Avdı Bayramov, Bolnis rayonunun Qoçulu kəndi (76 yaş, 1982).

**«Əhmədlə qızıl balıq»** - Məhərrəm Heydər oğlu Məmmədov, Bolnis rayonunun Muğanlı kəndi (97 yaş, 1982).

**«Allahalmış»** - Qırxılı Aşıq Söyün, Marneul rayonu, Qırxılı kəndi (67 yaş, 1980).

**«Təsbeh kimə çatmalıdı»** - Hacıkərim Mövlud oğlu Ömərov, Bolnis rayonunun Qoçulu kəndi (67 yaş, 1982).

**«Qara Qulam ilə Sultan Süleyman»** - söyləyəni Mədəd Mövlud oğlu Hüseynov, Bolnisi rayonunun Muğanlı kəndi (79 yaş, 1982).

**«Vəzir qızının sərgüzəşti»** - söyləyəni Mürsəl Musa oğlu Mahmudov, Dmanis rayonunun Yuxarı Orzuman kəndi (77 yaş, 1983).

**«Tənbəl Məhəmmədlə şah qızı»** və **«Məhəmməd ilə dinməyən qız»** - söyləyəni Səməd Dursun oğlu Qurbanov, Dmanisi rayonunun Az-Gəyliyən kəndi (60 yaş, 1983).

**«Yoxsul kişinin toyuq bölgüsü»** və **«Dərisi və gerisi»** - söyləyəni Lətif Hacıxəlil oğlu Mustafayev, Marneul rayonunun Ağqula kəndi (65 yaş, 1984).

**«Xıdır İlyaz», «Mən qurd gördüm», «Vermədi Məhbud, nə etsin Mahmud»** və **«Pinti Mahmud»** nağılları N.Asatianinin topladığı folklor örnəklərindən götürülmüşdür.

## XII. Tapmacalar

Örnəklər Bolnis rayonunun Abdallı kənd sakini Yetər Nəbi qızından (70 yaş, 1980), İmirhəsən kənd sakini Bayram Fətulla oğlundan (65 yaş, 1981), Muğanlı kənd sakini Mədəd Mövlud oğlundan (79 yaş, 1981), Kaspi rayonunun Hasanalılar kənd sakini Mələknisə Ələkbər qızından (59 yaş, 1991), Bolnis rayonunun Bəytəkər kənd sakinləri Gövhər Məmmədovadan (80 yaş, 1982), Bəndəli Allahverən oğlundan (50 yaş, 1986) və Həndəm Allahverən oğlu Hacıyevdən (50 yaş, 1986), Marneul rayonunun Ağqula kənd sakini Lətif Mustafayevdən (52 yaş, 1990), Bolnis rayonunun Yuxarı Güləvər kənd sakini Xəlil Şahvələd oğlu Allahverdiyevdən (41 yaş, 1990), Bolnis



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rayonunun Kəpənəkçi kənd sakini Rəşid Acalovdan (67 yaş, 1981), Bolnis rayonunun Darvaz kənd sakini Yunus Hümbət oğlu Hümbətovdan (102 yaş, 2000) və b. yazıya alınmışdır.

Özgə mənbə: «Sovet Gürcüstanı» qəzeti 10 sentyabr 1988 (toplayan O.Əhmədoğlu).

## XIII. Bayatılar

Örnəklərin çoxu 1981-ci ildə Bolnis rayonunun Qoçulu kənd sakinləri Avdı Bayram oğlu Bayramovdan (76 yaş), Hacıkərim Mövlud oğlu Ömərovdan (67 yaş), Kolayır kənd sakini Reyhan Dünyamalı qızından (70 yaş), Bolnis şəhər sakini Şövkət Əli qızı Əliyevadan (67 yaş), Kəpənəkçi kənd sakini Rəşid Acalovdan (67 yaş), Saraclı kənd sakini Mahmud Məmməd oğlu Məmmədovdan (76 yaş) yazıya alınmışdır.

Digər söyləyicilər: Bolnis rayonunun Darvaz kənd sakini Vəkil Ovçuyev; Qardaban rayonunun Kosalı kənd sakinləri Gülfidə Hacıxəlil qızı Yusibova (85 yaş, 2009) və Müqvər Əhməd qızı Xələfova (81 yaş, 1998), Marneul rayonunun Ağqula kəndi sakini Lətif Hacıxəlil oğlu Mustafayev (65 yaş, 1984).

Özgə mənbələr: «Gürcüstan» qəzeti, 23 oktyabr 1991 (toplayanı F.Əliyev), «Sovet Gürcüstanı» qəzeti, 10 sentyabr 1988: yenə orada 28 yanvar 1989 (toplayanı Bolnisi rayonunun Faxralı kənd sakini R.Hüseynov).

## XIV. Aşıq rəvayətləri

Müxtəlif illərdə toplayıcının elmi səfərləri zamanı ayrı-ayrı aşıqlardan yazıya alınmışdır.

## XV. Dastanlar

**«Mehralı bəy»** - düzüb-qoşanı Aşıq Məhəmməd Sadaxlı (73 yaş, 2003).

**«Cəlal-Sayad Səlvinaz»** - düzüb-qoşanı aşıq Zeyin (Topa Veridze), söyləyəni Aşıq Eto (Ekvtime Davlaşeridze), Gürcüstan, Aspindza rayonu, Toloş kəndi, 1980-ci il, avqust.

**«Cahangir»** - düzüb-qoşanı Şair Ağacan, söyləyəni Aşıq Hüseyn Saraclı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**«Sam şahzadə»** - düzüb-qoşanı Təhlə Novruz.

## XVI. Uşaq folkloru

Oxşamalar, sanamalar, düzgülər:

1. Söyləyən Bolnisi rayonunun Bəytəkər kənd sakini Mürəstə İsmayıl qızı (75 yaş, 1986).
2. Söyləyəni Bolnisi rayonunun Faxralı kənd sakini S.Əhmədova (35 yaş, 1988), nənəsi Sona Pənah qızından eşidib,
3. Söyləyəni Mürəstə İsmayıl qızı.
4. «Telli saz». № 6, «Sovet Gürcüstanı» qəzeti. 24 dekabr, 1988 (toplayanları Başkeçid sakinləri M.Coşğun və S.Əliyev).
5. Söyləyəni Tatan Allahverdi qızı, Bolnisi rayonunun Faxralı kəndi, 1988.
6. Söyləyəni Tatan Allahverdi qızı.
7. Söyləyəni Tatan Allahverdi qızı.

8-9. Laqodexi rayonunun Qaracalar kəndində yazıya alınıb («Gürcüstan» qəzeti, 23 oktyabr, 1991, toplayanı F.Əliyev);

10-11. Toplayanı Rəşid Faxralı.

Oyunlar:

Ə.Əliyev. Gürcüstan azərbaycanlılarının mənəvi mədəniyyəti, Bakı, 1995; R.Faxralı. Oğuz eli Faxralı, Bakı, 2001.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MÜNDƏRİCAT

**BORÇALI-QARAPAPAQ FOLKLORUNUN TƏMƏL ÖZƏLLİKLƏRİ** *(Valeh HACILAR)*......................7

**I. MÖVSÜM VƏ MƏRASİM NƏĞMƏLƏRİ**..................41

**II. MİFLƏR VƏ ƏFSANƏLƏR**........................................45

**III. İNANCLAR-İNAMLAR**...........................................60

**IV. ATALAR SÖZÜ, MƏSƏLLƏR VƏ DEYİMLƏR**.....67

**V. RƏVAYƏTLƏR**

Qatar qaya.......................................................................75
Qara qaya........................................................................75
Gəlin gölü........................................................................76
Elçi dağı..........................................................................76
Babakər və Davıd Qareca çölü.......................................77
Kasıb kişi ilə Musa peyğəmbər........................................78
Kimini qaldırır, kimini endirir........................................80
Səbr..................................................................................81
Mərdanoğlu İsmayıl........................................................82
Məndə nə gördün, gəlmədin...........................................83
Oğlan, dur get, sabah oldu..............................................84
Ağ sap..............................................................................85
Ovçu Əhmədlə ayı...........................................................86
Dost seçəndə mərdi seç...................................................86
Cəmşid Sultan dərviş libasında.......................................88
Qaçaq Kərim və gürcü qızı..............................................88
Aşağı axan deyil..............................................................91

**VI. ALQIŞLAR**..........................................................93



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**VII. QARĞIŞLAR..........................................................106**

**VIII. ELAT DODAQQAÇDILARI.................................111**

**IX. ANDLAR..................................................................150**

**X. HƏDƏ-QORXULAR................................................155**

**XI. NAĞILLAR**
İnsanla ilanın nağılı........................................................156
Kasıb kişi ilə ilan.............................................................159
Balıqların sirri..................................................................166
Qəmsiz Əhməd..................................................................171
Ata öyüdü.........................................................................176
Ağıllı qız...........................................................................177
Əhmədi-Biqəm..................................................................182
Padşahla həkim..................................................................184
Allahalmış.........................................................................187
Əhmədlə qızıl balıq...........................................................190
Xoşbəxt adam....................................................................193
Təsbeh kimə çatmalıdı? ....................................................195
Tənbəl Məhəmmədlə şah qızı...........................................198
Vəzir qızının sərgüzəşti.....................................................203
Qara Qulam ilə Sultan Süleyman......................................208
Məhəmmədlə dinməyən qız..............................................213
Keçəllə padşahın qızı.........................................................219
Ovçu ilə padşah..................................................................222
Xıdır İlyaz...........................................................................229
Mən qurd gördüm...............................................................232
Vermədi Məhbud, nə etsin Mahmud?................................234
Pinti Mahmud.....................................................................235
Bəzirgan arvadı...................................................................237
Yoxsul kişinin toyuq bölgüsü.............................................238
Dərisi və gerisi....................................................................239



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İri buğdanın sirri........................................................................240

**XII. TAPMACALAR......................................................................242**

**XIII. BAYATILAR........................................................................254**

**XIV. AŞIQ RƏVAYƏTLƏRİ**
Şair Ağacanın "Qırmızı" divanisi...................................273
Şair Ağacan Qaraçöpdə...............................................274
Faxralı şair Nəbi ilə Aşıq Heyli....................................278
Aşıq Musanın nikah əhvalatı........................................282
Aşıq Şenlik Qəmərlidə.................................................284

**XV. DASTANLAR**
Mehralı bəy.................................................................286
Cəlal-Sayad Səlvinaz....................................................330
Cahangir.......................................................................366
Sam şahzadə................................................................391

**XVI. UŞAQ FOLKLORU**
Oxşamalar, sanamalar, düzgülər...................................424
Oyunlar.......................................................................427

**TƏRTİBDƏ İSTİFADƏ OLUNMUŞ QAYNAQLAR VƏ SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT..........433**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Azərbaycan folkloru antologiyası,**
**XXI kitab (Qazax folkloru),**
Bakı, “Nurlan“ nəşriyyatı, 2011.

Nəşriyyat direktoru:
**Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Səadət Əliyeva**

Korrektoru:
**Günel Ələkbərli**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Ramin Abdullayev**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 28 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
“Nurlan” nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com